*Abituriyentlər üçün vəsait*

Anar İsayev Ramil Rəhimov

# AZƏRBAYCAN TARİXİ



# ÖN SÖZ

Azərbaycan Tarixi fənni üzrə interaktiv dərs vəsaiti şagirdlərə təlim materiallarını elmi-metodik cəhətdən mənimsəməyə kömək məqsədi ilə hazırlanmışdır.

Azərbaycan Tarixi fənni üzrə interaktiv dərs vəsaitinin hazırlanması zamanı məktəb dərsliklərindən, TQDK-nın Test Bankından, Azərbaycan tarixi üzrə audiovizual tədris vəsaitlərindən istifadə olunmuşdur. Vəsait hazırlanarkən orta məktəb dərsliklərinin tam məzmunu nəzərə alınmış və heç bir ixtisar aparılmamışdır.

Vəsait hazırlanarkən, qabaqcıl təcrübə öyrənilərək ümumiləşdirilmş, təcrübədə tətbiq olunan müasir metodika və texnologiyalardan, üsul və vasitələrdən, xüsusilə testləşdirmədən geniş istifadə edilmişdir. Burada TQDK tərəfindən təsdiq olunmuş proqramda nəzərdə tutulmuş mövzular daha çox diqqət mərkəzində saxlanılmışdı.

Vəsait didaktik istiqamətdə işlənmişdir. Məktəblilərin tarixi bilik, bacarıq və vərdişlərinin formalaşdırılması bir biri ilə bağlı olan bir neçə mərhələdən ibarətdir. Bu mərhələlərin ən əsası şagirdlərə biliyin mənimsədilməsi prosesidir. Biliyin tam mənimsədilməsi üçün əsas vasitə isə dərslikdir. Dərsliyin didaktik baxımından nə qədər yaxsı və son texnologiyalarla işlənməsi şagirdlərə biliyin mənimsədilməsinə çox kömək edir. Odur ki, şagirdlərdə nəzərdə tutulmuş bilik, bacarıq və vərdişləri formalaşdırmaq üçün öyrənmə üsulları müəyyənləşdirilmiş, materiallar didaktik məqsədlərə görə təsnif edilmişdir.. Bu da şagirdlərdə motivasiya yaradır, düşünülmüş şəkildə şüurlu mənimsəmə və diqqətlə öyrənməyə imkan verir,. Hadisələr aydın, təhlil formasında, müqayisə oxşarlıq, xüsusiyyətləri, səbəb-nəticə əlaqələri aydın verilmiş, əsas diqqət faktların təhlilinə, onlar arasında oxşar və fərqli cəhətlərə yönəldilmişdir. Bu isə passiv öyrənməni tamamilə aradan qaldırır. Vəsait terminlər və xronologiya ilə təchiz olunmuşdur.

# I BÖLMƏ

## AZƏRBAYCAN ƏRAZİSİNDƏ İBTİDAİ İCMA QURULUŞU

### Azərbaycan ərazisində ilk insan məskənləri

Dünyanın ən qədim mədəniyyət ocaqlarından biri olan Azərbaycanda qədim dövrdə ***əlverişli təbii-coğrafi şərait*** burada ibtidai insanların məskən salmasına aşağıdakı bir-çox amillər şərait yartmışdı:

- ***Şirin su qaynaqlarının olması***
- ***Bitki və heyvanat aləminin zənginliyi***
- ***Təbii mağaraların olması və.s***

Azərbaycanda ilk insan sürüləri (dəstələri) **1,5 milyon il bundan əvvəl** meydana gəlmişdir. ***Azərbaycan ərazisində Daş dövrünün ilk insan məskənləri*** aşağıdakı abidələr əsasında öyrənilmişdir:

- Qarabağda – **Azıx və Tağlar mağaraları**
- Kəlbəcərdə - **Zar mağarası**
- Naxçıvanda – **Qazma mağarası**
- Qazaxda **– Daşsalahlı və Damcılı mağaraları**
- Lerikdə - **Buzeyir mağarası**

**QEYD:** Dünyada ən qədim və ilk insan tipi olan ***"Bacarıqlı insan"ların*** qalıqları ilk dəfə **1931-ci ildə** Şərqi Afrikada, Keniya və Tanzaniyada tapılmışdır. Bu qalıqlara əsasən, alimlər ilk insanların **2-3 milyon il bundan əvvəl** yaşadığını müəyyən etmişlər.

### İbtidai icma quruluşunun dövrləşdirilməsi

Bəşər cəmiyyətinin ilkin inkişaf dövrü ***ibtidai icma quruluşu*** adlanır. İbtidai icma quruluşu özünəməxsus səciyyəvi xüsusiyyətlərə malik olmuşdur. Həmin xüsusiyyətlər aşağıdakılardır:

- İbtidai icma quruluşu başqa dövrlərə nisbətən daha uzun müddət davam etmişdi
- İlk insanların yaranması ilə başlamış və uzun inkişaf dövrü keçmişdi
- Ayrı-ayrı ərazilərdə müxtəlif dövrlərə qədər davam etmişdi
- İnkişafı və dağılması bir-çox amillərlə (hər hansı bir ölkənin təbii şəraiti, təbii ehtiyyatları və.s ilə) bağlı olmuşdur

**İbtidai icma quruluşunun dövrləri**



# Daş dövrü

Daş dövrünün özü də şərti olaraq üç dövrə bölünür: **Paleolit dövrü, Mezolit dövrü** və **Neolit dövrü.** Daş dövrünün ən qədim və ilkin mərhələsi **Paleolit dövrü** adlanır. Paleolit dövrü şərti olaraq üç mərhələyə bölünür: **Alt Paleolit, Orta Paleolit, Üst Paleolit.**

## Alt Paleolit dövrü

**Alt Paleolit dövrü –** ***ən qədim və ilk insan tipi olan "Bacarıqlı insan"ın yaranmasından başlayaraq 100 min il bundan əvvələ qədər*** davam etmişdir. Alt Paleolit dövründə:

- ***Mənimsəmə təsərrüfatı*** meydana gəldi (İnanların ovçuluq və yığıcılıq vasitəsi ilə təbiətdən hazır məhsulları mənimsəməsi – mənimsəmə təsərrfatı adlanır. İbtidai insanlar ilk vaxtlar əsasən, xırda heyvanları və iri heyvanların balalarını ovlayır, yeməli yabanı bitkiləri və giləmeyvələri yığırdılar)
- Qədim insanların əsas məşğuliyyəti olan ***yığıcılıq (yemtoplama)*** və ***ovçuluq*** meydana gəldi
- Azərbaycan ərazisində qədim insanlar ***ilk dəfə oddan istifadə etməyi*** öyrəndilər. Onların oddan istifadə etməsi ***çox mühüm hadisə*** idi. İlk vaxtlar ildırım çaxması və üzvü maddələrin öz-özünə yanması nəticəsində əmələ gəlmiş təbii oddan istifadə edilmiş, sonralar isə insanlar çaxmaqdaşılarını bir-birinə vurmaqla od əldə etməyi öyrənmişdilər
- ***Çaxmaqdaşı, bazalt və obsidiandan (vulkanik şüşə - dəvəgözü) hazırlanan*** yeni əmək alətləri meydana gəldi, onlardan – dişli, ucu oymalı, qaşov tipli alətlər, kəsicilər hazırlanırdı
- İnsanlar kiçik quruplar olan– ***ibtidai insan "sürüsü" (ulu icma)*** halında yaşayırdılar. Ulu icma özünəməxsus xüsusiyyətlə malik idi. Həmin xüsusiyyətlər aşağıdakılardır:
  ***a) İlk insan kollektivi olub, icma quruluşunun ilk pilləsində (Alt Paleolitdə) meydana gəlmişdi***
  ***b) Kortəbii şəkildə, təbiət hadisələr qarşısında aciz qalmamaq məcburiyyətindən yaranmışdı***
  ***c) Qida əldə etmək və vəhşi heyvanlardan qorunmaq məqsədi ilə yaranmışdı***
  ***d) Belə kollektivlər daimi olmayıb, tez-tez dağılır, sonra yenidən yaranırdı***
  ***e) Qəbilə icması formalaşanadək (Üst Pleolit dövrünədək) davam etmişdi***

Azərbaycanda Alt Paleolit dövrü insanlarının həyat tərzi – Qarabağın Qusarçay vadisində (indiki Füzuli şəhəri yaxınlığında) yerləşən ***Azıx mağarasında əldə edilən materiallar əsasında*** öyrənilmişdir. Azıx mağarasınsa:

- Mağaranın ən qədim dövrünə aid alt təbəqələrindən ibtidai insanların işlətdikləri ***adi çay daşlarından*** hazırlanmış ***kobud daş*** alətləri - ***əl çapacaqları, əsrin-qaşov, siyırğac və.s*** tapılmışdır
- Mağara sakinləri daş alətlərdən ovlarıqları heyvanı kəsmək , doğramaq işində istifadə etmişlər
- Nəsli kəsilmiş ***müxtəlif vəhşi heyvanların sümükləri*** aşkarlanmışdı (Bu sümüklərə əsasən, onların ovladıqları vəhşi heyvanların növləri müəyyənləşdirilmişir)
- ***700 min il bundan əvvələ aid ocaq izləri*** aşkar edilmişdir (Mağara sakinləri ocaqdan əsasən, isinmək, yemək hazırlamaq və vəhşi heyvanlardan qorunmaq üçün istifadə etmişdilər)
- ***İbtidai insanın alt çənə sümüyü*** tapılmışdır (1968-ci ildə.) İbtidai insanın alt çənə sümüyü tapılması dünyada ən qədim belə tapıntılardan ***dördüncüsü*** hesab olunur. Bu fakt Azərbaycanın qədim insanın formalaşdığı əraziərdən biri olduğunu sübut edir.

Antropoloqlar Azıx mağarasında yaşayan ibtidai insanı ***"Azıxantrop" ("Azıx adamı")*** adlandırmışdılar. Azıx adamının tapılmış ***çənə sümüyü*** Azərbaycanın qədim insanın formalaşdığı ərazilərdən biri olduğunu sübut edir. Azıx adamı:

– ***Tədricən ətraf mühiti dərk etmiş, ibtidai dini təsəvvürlərə malik olmuşdu***
– ***Tikinti vərdişlərinə yiyələnmişdi (Azıx mağarasında tikili qalığının tapılması bunu sübut edir)***
– ***Sadə incəsənətlə də məşğul olmuşdular***

Azıx mağarasından tapılmış ***ayı kəllələrinin üzərində müəyyən işarələr cızılması*** – onların totemlərə inamın və dini ayinlərin yaranmasını göstərir.




## Orta Paleolit dövrü

**Orta Paleolit dövrü – *100 min il bundan əvvəldən başlanmış, e.ə 40-cı minilliyə qədər*** davam etmişdir. Orta Paleolit dövrü ***"Mustye mədəniyyəti"*** dövrü adlanır (Mustye – Fransada yer adıdır. Orta Paleolit dövrünə aid əmək alətləri ilk dəfə buradan tapılmışdır). Alt Paleolit dövründə:

- Azərbaycanda əhali daha geniş əraziyə yayıldı - onlar **Cənubi Qafqazın cənub-şərq yamacında**, **Qarabağ *(Tağlar),* Qazax *(Damcılı,)* Naxçıxan *(Qazma)*** bölgələrində məskən saldılar. Arxeoloqlar həmin ərazilərdən Otra Paleolit dövrünə aid zəngin maddi mədəniyyət nümunələri tapmışdılar
- Əhali – Qafqaz maralı, mağara ayısı, boz ayı, dağ keçisi, vəhşi at və.s ovlamaqla yanaşı, həmçinin ***yığıcılıqla (yemtoplamaqla)*** məşğul olurdu
- Yeni insan tipi adlanan - ***"Neandertal adam"*** meydana gəldi (Neandertal - Almaniyada yer adıdır. Buradan ibtidai insanın kəllə sümüyü tapılmışdır)
- Dini təsəvvürlər inkişaf etdi, ***axirət dünyasına inam*** yarandı
- Təbiət qüvvələrinə, ovsun, totemlərə inamla bağlı dini təsəvvürlər genişləndi
- "Ulu icma" yavaş yavaş sıradan çıxdı və "***qəbilə icması"*** yaranmağa başladı

**Orta Paleolit dövründə baş vermiş yeniliklər**



## Üst Paleolit dövrü

- **Üst Paleolit dövrü – *40 min il bundan əvvəl başlanmış, e.ə 12-ci minilliyə qədər*** davam etmişdir. Üst Paleolit dövrünün maddi qalıqlarına daha çox **Qarabağ** və **Qazax** bölgələrində rast gəlinir. Üst Paleolit dövründə:
- İqlim mülayimləşdi, bitki və heyvanat aləmində, həmçinin ictimai həyatda xeyli dəyişikliklər baş verdi (***100 min il əvvəl başlayan soyuqlaşmanı e.ə.13-cü minillikdə*** istiləşmə əvəz etdi)
- İnsanlar mağaralarda yaşayır və özlərini təbii təhlükələrdən qorumağa çalışırdılar
- Bir sıra heyvanların, xüsusilə ***nəhəng maralın*** və ***mağara ayısının*** kökü kəsildi
- İnsanlar ən çox ***Qafqaz maralı, ceyran, cüyür, dağkeçisi*** və.s ovlayırdılar
- İnsanların istifadə etdikləri – ***qaşovlar, biz, gəzli*** və ***üçbucaq əmək alətləri*** geniş yayıldı
- Müasir insan tipi olan ***"Ağıllı insan"ın (Homo Sapiyensin)*** yaranması prosesi başa çatdı
- İnsan fiziki- əqli inkişafın yüksək mərhələsinə çatdı, ***nitq*** və ***təfəkkür*** inkişaf etdi
- Əmək fəaliyyətinin artması, insanların şüurun inkişafı ***səsli nitqin*** inkişafına səbəb oldu, kinetik dil sıradan çıxdı
- Qadınların cəmiyyətdə rolu xeyli artdı - ***anaxaqanlıq*** meydana gəldi
- Ulu icmanı ***qəbilə icması*** əvəz etdi. Qəbilə icması özünəməxsus xüsusiyyətlə malik idi. Həmin xüsusiyyətlər aşağıdakılardır:

  ***a) Qəbilənin əsasını qan qohumu olan insanların birliyi təşkil edirdi***
  ***b) Qəbilə icması nəsli qəbilə quruluşu adlanırdı***
  ***c) Qəbilənin həyatında qadınlar mühüm rol oynayırdı***
  ***d) Nəsli qəbilə dövründə insanlar ana xətti ilə qohumluq əsasında birləşirdilər***

Nəsli qəbilə icması - ***anaxaqanlıq (matriarxat)*** adlanır. Bunun belə adlandırılmasının səbəbi qadınların əsas işləri görməsi idi. Anaxaqanlığı dövründə qəbilənin həyatında qadınların mühüm rol oynadığını aşağıdakı amillər sübut edir:

- Qadınların uşaqların qayğısına qalması
- Qadınların giləmeyvə və bitkiləri toplaması
- Qadınların odu qoruyub saxlaması
- Qadınların yemək hazırlaması və.s.

**Üst Paleolit dövründə baş vermiş yeniliklər**







**İnsan tipləri**

## Mezolit (Orta Daş) dövrü

Mezolit (Orta Daş) dövrü – ***e.ə XII milillikdən - e.ə VIII minilliyə qədər*** davam etmişdir. Mezolit dövrünə aiddir:

- Bu dövrdə də insanlar hələ qəbilə halında yaşayır, mənimsəmə təsərrüfatı ilə məşğul olurdular.
- İnsanların əsas məşğuliyyəti əsasən ***yığıcılıq, ovçuluq*** və ***balıqçılıq*** idi.
- Əsas əmək alətləri ***daş, dəvəgözü*** və ***sümükdən*** hazırlanırdı.
- İnsanlar sümükdən ***biz***, ***ox ucu*** və balıqçılıqda istifadə edilən alətlər düzəldirdilər.
- ***Mikrolit (kiçik daş alətlər)*** əmək alətləri meydana gəldi.
- ***Ox*** və ***kaman*** ixtira edildi. Ox və kamanın ixtira edilməsi ***nəticəsində:***
  - ***a)*** *İnsanlar heyvanları daha uzaq məsafələrdən ovlaya bildilər.*
  - ***b)*** *Qida ehtiyyatları xeyli artdı, heyvanların əhilləşdirilməsinə başlanıldı.*
- Mezolit dövründə insanlar ***heyvanları əhliləşdirməyi*** öyrəndilər. Əhliləşdirilən ilk heyvan ***it*** olmuşdu. Sonralar insanlar başqa heyvanları da əhliləşdirdilər və bəsləyərək çoxaltdılar. Bununla da ibtidai maldarlığın əsası qoyuldu.
- İlk əkinçilik vərdişlərinin meydana gəlməsi üçün şərait yarandı - ***İbtidai əkinçiliyin*** əsası qoyuldu (İnsanlar toplanmış yabanı bitki toxumlarının bir hissəsini ehtiyyat üçün saxlayırdılar. Bu isə ibtidai əkinçiliyin meydana gəlməsinə şərait yaratdı).
- İbtidai maldarlığın və əkinçiliyin əsasının qoyulması ilə - mənimsəmə təsərrüfatından **–** ***istehsal təsərrüfatına keçidin*** əsası qoyuldu (Əvvəllər təbiətdən hazır məhsullardan istifadə edən insanlar indi onları bilavasitə istehsal etməyə başladılar. Yəni Mezolit dövründə ***istehsal*** əsas təsərrüfat sahəsinə çevrildi) İstehsal təsərrüfatına keçid ***Mezolit dövründə*** başladı və ***Neolit dövründə*** sona çatdı.
- ilkin toxuculuq yarandı.
- İbtidai incəsənət xeyli inkişaf etdi (***Qobustan qayaüstü təsvirləri*** Mezolit dövründə ***ibtidai incəsənətin*** inkişaf etməsini sübut edir).
- Axirət dünyasına inam artdı, dəfn zamanı ölülərin yanına ***məişət əşyaları*** qoyulmağa başlanıldı

Azərbaycanda Mezolit dövrü əhalisinin yaşayışı və məşğuliyyəti **Qobustanda** - ***Firuz*** və **Qazaxda** – ***Damcılı mağaraları*** əsasənda öyrənilmişdir. Qobustanda yaşamış ibtidai insanlar:

- ***Ovçuluq, yığıcılıq*** və ***balıqçılıqla*** məşğul olmuşdu.
- ***Çaxmaqdaşı*** və ***sümükdən*** hazırlanmış əmək alətlərindən istifadə edirdi.
- Çox kiçik ölçülü – ***mikrolit,*** hənəsi, gəzli, üçkünc, kəsici və.s alətlərdən istifadə edirdi.
- Axirət dünyasına inanmış, ölüləri əfin edərkən qəbirlərə əşya qoymuşdular.
- Qobustan qayalarında rəsmlər çəkirdlilər (Qobustan qayalarında insanların çəkdiyi rəsmlər bu dövrdə ***ibtidai incəsənətin*** xeyli inkişaf etdiyini göstərir). Qobustanın bu dövr sakinlərinin qayaüstü rəsimlərində əsasən aşağıdakı mövzular əks olunmuşdur:
  - a) ***ovsun-totem inamları***
  - b) ***qadın və heyvan səhnləri***
  - c) ***dini ayinlər*** və ***ov səhnələri***

Qobustan düşərgəsindən başqa, Qazaxda – **Damcılı** mağarası da Azərbaycanın mezolit dövrünə aid yaşayış məskənləri aşkar olunmuş, buradan da mezolit dövrünə aid ***kiçik ölçülü ox ucları, cilalanmış daş lövhələr*** tapılmışdır.

**QEYD:** Əmək alətlərinin daşdan hazırlanması Paleolit və Mezolit dövrünə aid ümumi cəhət təşkil edir.

**Mezolit dövründə əmək alətlərinin hazırlandığı materiallar**

**daş** | **dəvəgözü** | **sümük**

**Azərbaycanın mezolit dövrünə aid yaşayış məskənləri**

| Oobustanda Firuz düsərgəsi | Oazaxda Damcılı mağarası |
| --- | --- |
| E.ə 12 minilliyə aid olub, burada insanlar ovçuluq, yığıcılıq və balıqçılıqla məşğul olmuş, çaxmaqdaşı və sümükdən əmək alətləri hazırlamışdılar | Buradan mezolit dövrünə aid kiçik ölçülü ox ucları, cilalanmış daş lövhələr tapılmışdır |

## Neolit dövrü

Neolit (Yeni Daş) dövrü *–* ***e.ə VII minilliyi əhatə edir.*** Neolit dövrü ibtidai icma quruluşunun ən az davam etmiş dövrü kimi xarakterizə olunur.

- İstehsal təsərrüfatı meydana gəldi və formalaşdı (Yəni insanlar təbiətin asılılığınan azad olaraq özlərinə lazım olan məhsulların istehsalına başladılar). İstehsal təsərrüfatına keçilməsi ilə ***oturaq həyata*** keçildi
- İnsanların məşğuliyyət sahələri içərisində ***maldarlıq*** və ***əkinçilik*** əsas yer tutmağa başladı
- Əhali əkinçilik və maldarlıqla yanaşı, ***ovçuluq*** və ***balıqçılıqla*** məşğul olmağa başladı
- Əmək alətləri əsasən ***çaxmaqdaşıdan*** və ***obsidiandan (vulkanin şüşə - dəvəgözündən)*** hazırlanırdı
- Daş toxalar, oraq, çəkic, balta və bıçaqvari lövhələrdən ibarət əmək alətlərindən istifadə edilirdi
- İnsanlar ilk dəfə ***saxsı qalar*** hazırladı, ***daş alətləri cilalamağı*** və deşməyi öyrəndilər, ***toxuculuqla*** meydana gəldi. Bu yeniliklər bəşər tarixində ***Neolit inqilabı*** adlanır.

Neolit inqilabı

Dulusçuluğun meydana gəlməsi | İnsanların daş alətləri cilalamağı və deşməyi öyrənməsi | Toxuculuğun meydana gəlməsi

## Enolit dövrü - Daş dövründən Tunc dövrünə keçid

Eneolit (Mis Daş) dövrü **– *e.ə VI-IV minillikləri*** əhatə edir. Enolit dövrü - ***Daş dövründən Tunc dövrünə keçid*** dövrü hüsab olunur. Bu dövrün yaşayış məskənləri ***Gəncə-Qazax, Mil-Qarabağ, Muğan, Maxçıvan bölgələrində, Urmiya gölü ətrafında*** və ***Təbriz yaxınlığında*** tədqiq edilmişdir. Eneolit dövründə***:***

- İnsanlar ilk dəfə metalla tanış oldu (Bu metal ***mis*** olub, ondan əmək alətləri hazırlanırdı).
  - Metaldan istifadə olunsa da ***daş alətlər*** yenə də təsərrüfat və məişətdə üstün yer tuturdu. Yəni bu dövrdə misdən geniş istifadə olunmamışdır. Çünki mis yumşaq, kövrək olduğundan ondan hazırlanan alətlər tez sıradan çıxırdı. Həm də mis az tapılırdı. Ona görə də təsərrüfatda, məişətdə daş alətlər üstün yer tuturdu.
- Əhali artdı və daha ***geniş ərazilərdə*** məskunlaşdı. Yaşayış məskələri ***çay kənarında***, əkinçilik və maldarlıq üçün əlverişli yerlərdə salınırdı. Yaşayış binaları və təsərrüfat tikililəri ***çiy kərpicdən*** və ***möhrədən dairəvi planda*** inşa olunurdu. Belə evlərdə ***qoşa nigaha*** əsaslanan ailələr yaşayırdılar. İcma torpağında birgə çalışan bu ailələr ümumi məhsul bölgüsündən aldıqları pay hesabına dolanırdılar.
- Eneolit dövründə toxa əkinçiliyi daha da inkişaf etdi. Taxıl kəsici daş lövhələrdən hazırlanmış oraqla biçilirdi. Taxıl ehtiyatı iri ***saxsı küplərdə*** saxlanılırdı.
- Əhali əkinçilik, maldarlıq, balıqçılıqla yanaşı, ***dulusçuluq, daşişləmə, sümükişləmə, toxucululaq*** məşğul olurdu
- Taxıl ***daş lövhələrdən*** hazırlanan ***oraqla*** biçilir və taxıl ehtiyyatları iri ***saxsı qablarda*** saxlanılırdı
- Maldarlıq təsərrüfatı xeyli inkişaf etdi, bizə məlum olan bütün ev heyvanları əhilləşdirildi. Əhali təsərrüfatlarda qaramal və **davar*** saxlayırdılar. Azərbaycanda ilk dəfə ***atın əhilləşdirilməsinə*** başlanıldı (Cəlilabad rayonunda – ***Əliköməktəpə*** yaşayış yerindən **e.ə V minilliyə aid** tapılmış əhilləşdirilmiş at sümükləri bunu sübut edir)
- ***Ovçuluq*** və ***balıqçılıq*** əhalinin ***ikinci dərəcəli məşğuliyyət sahəsinə*** çevrildi.
- ***Sənətkarlıq*** əhalinin məşğuliyyətində mühüüm yer tutdu. Sənətkarlar gildən saxsı qablar, daş, sümük və misdən əmək alətləri, məişət və bəzək əşyaları hazırlayırdılar. Sümükdən hazırlanmış **iy*** ucluqları qədim əhalinin toxuculuqla məşğul olduğunu göstərir
- İctimai həyatda ana hüququ, qadınların mövqeyi qalmaqda davam etdi (Bunu Eneolit dövrünə aid düşərgələrdən tapılmış ***qadın heykəlləri*** də sübut edir)
- Cəmiyyətin həyatında ***icma ağsaqqalları şurası*** mühüm rol oynayırdı
- Dəfn adətlərində dəyişikliklər baş verdi - ölülər ***yaşayış məskənində***, ***binaların arasında*** və ***evlərin içərisində*** dəfn olunur, onların üzərində qan rəmzi sayılan ***qırmızı boya*** – ***orxa*** səpilirdi. Əhalinin həyatında müxtəlif dini ayinlər, ovsun mərasimləri müəyyən yer tutmuşdu (Bunu ***Qobustandakı*** dini mərasimləri əks etdirən qayaüstü rəsmlər təsdiq edir)

**QEYD:** Eneolit dövrünün ***son mərhələsində*** **(e.ə IV minilliyin birinci yarısında)** ***mealişləmənin inkişafının yeni dövrü*** başladı və ***tunc dövrünə keçidin əsası*** qoyuldu.

**Eneolit dövründə dəfn adətlərində baş vermiş dəyişikliklər**

| Ölülər yaşayış məskənində binaların arasında evlərin içərisində dəfn olunurdu | Ölülər üzərində qan rəmzi sayılan qırmızı boya – orxa səpilirdi |
|---|---|




## Tunc və Erkən dəmir dövrü

### Tuncun əldə edilməsi

Eneolit dövründə kəşf olunan misdən hazırlanan alətlər ***davamsız və tez xarab olduğundan*** onun davamlılığını artırmaq məqsədilə misin tərkibinə - ***mərgümüş, sürmə, nikel*** və ***qalay*** qarışdırılaraq **tunc adlı** yeni metal alındı. Beləliklə, əmək alətlərinin, silahların, məişət və bəzək əşyalarının çoxu tuncdan hazırlandığından bu dövr **Tunc dövrü** adlanır. **E.ə IV minilliyin II yarısında** Eneolit dövrü Tunc dövrü ilə əvəz olundu. Azərbaycanda Tunc dövrü **e.ə II minilliyə** qədər davam etmişdir. Tunc dövrü ibtidai icma quruluşunun inkişaf tarixində çox mühüm yer tutur. Belə ki, Tunc dövründə:

- Ağır zəhmət tələb edən kişi əməyi ön plana keçdi
- Anaxqanlığı ataxaqanlığı ilə əvəz olundu
- Əmlak və sosial bərabərsizlik meydana gəldi
- Böyük tayfa və tayfa birləşmləri yarandı

Tunc dövrününün özü də şərti olaraq üç dövrə bölünür: **Erkən Tunc dövrü, Orta Tunc dövrü** və **Son Tunc dövrü**.

### Erkən Tunc dövrü

Erkən Tunc dövrü – ***e.ə IV minilliyin II yarsından - e.ə III minilliyin sonuna qədər*** davam etmişdir. Bu dövr Azərbaycanda **Kür-Araz mədəniyyəti** kimi səciyyələnir. Azərbaycanda Erkən Tunc dövrü insanlarının həyatı **Qarabağda, Naxçıvanda, Xaçmazda, Qazaxda, Şəmkirdə, Qobustanda, Urmiya ərazisində** və.b böldələrdə tapılmış zəngin materiallar əsasında öyrənilmişdir. Erkəm Tunc dövründə Azərbaycanda:

- Əhalinin sayı artdı, onlar dağətəyi və dağlıq zonalarda məskən saldılar
- Yaşayış məskənləri çay kənarlarında və düşməndən müdafiə olunmaq üçün əlverişli yerlərdə salınırdı
- Yaşayış evləri dairəvi planda olur, bünövrəsi daşdan və divarları çiy kərpicdən tikilirdi
- Təsərrüfatda kişilərin rolu atrmağa başladı

- ***Birinci ictimai əmək bölgüsünün*** nəticəsində - əkinçilik maldarlıqdan ayrılaraq müstəqil peşəyə çevrildi
- Əkinçilik sahəsində bir çox dəyişikliklər baş verdi: toxa əkinçiliyi məhsuldarlığı xeyli yüksəldən ***xış əkinçiliyi*** ilə əvəz olundu, əkin sahələri ***genişləndi, süni suvarma*** yarandı
- Atdan istifadə və davarların sayının artması nəticəsində maldarlığın yeni sahəsi – ***köçmə (yaylaq) maldarlığı*** meydana gəldi
- Əhali sənətkarlığın ***dulusçuluq, metalişləmə, toxuculuq*** və.s sahələri ilə məşğul oldu, dulusçuluq daha çox inkişaf etdi, hazırlanan saxsı qab nümunələrinin forma və bədii tərtibatına xüsusi diqqət yetrildi, qoyunçuluğun inkişafı toxuculuğu genişləndirdi
- Dəfn adətində bir çox dəyişikliklər baş verdi – ölülər yaşayış məskənindən kənarda dəfn edilir, bəzi qəbirlərin üzərində ***kurqanlar (torpaq təpələr)*** qurulur, ***ölüyandırma*** və ***kollektiv dəfnetmə adəti*** meydana gəldi, dini ayinlərin icrası üçün ***ibadətgahlar*** tikildi (Xaçmaz rayonunda ***Sərkərtəpə***, Qazax rayonunda ***Babadərviş*** və Naxçıvan yaxınlığında ***I Kültəpə*** yaşayış yerlərində belə ***mehrabı olan ibadət evləri*** aşkar edilmişdir).

**Erkən Tunc dövründə dairəvi planda ibadət evləri aşkar edilmiş düşərgələr**

- Babadərviş (Qazaxda)
- Sərkərtəpə (Xaçmazda)
- I Kültəpə (Naxçıvanda)

**Erkən Tunc dövründə cəmiyyətdə baş vermiş dəyişikliklər**

| | |
|---|---|
| **Əhalinin yaşayışında baş vermiş dəyişikliklər** → | Əhalinin sayı artdı, onlar dağətəyi və dağlıq zonalarda məskən saldılar, evlər çay kənarlarında və düşməndən müdafiə olunmaq üçün əlverişli yerlərdə salındı, yaşayış evləri dairəvi planda, bünövrəsi daşdan və divarları çiy kərpicdən tikilirdi |
| **Əhalinin təsərrüfatında baş vermiş dəyişikliklər** → | Əkinçilik maldarlıqdan ayrılaraq müstəqil peşəyə çevrildi, toxa əkinçiliyi xış əkinçiliyi ilə əvəz olundu, əkin sahələri genişləndi, süni suvarma yarandı, Atdan istifadə nəticəsində köçmə (yaylaq) maldarlığı meydana gəldi |
| **Əhalinin dini baxışlarında baş vermiş dəyişikliklər** → | Ölünü yaşayış məskənlərinin kənarında dəfn edilirdi, ölüyandırma və kollektiv dəfnetmə adəti yarandı, bəzi qəbirlər üzərində kurqanlar qurulurdu |

**Eneolit və Tunc dövründə dövründə yaşayış binaları səciyyəvi cəhətlər**

| Eneolit dövrü | Tunc dövrü |
|---|---|
| • Əhali artdı və daha geniş ərazilərdə məskunlaşdı<br>• Yaşayış məskələri çay kənarında, əkinçilik və maldarlıq üçün əlverişli yerlərdə salınırdı<br>• Yaşayış binaları və təsərrüfat tikililəri çiy kərpicdən və möhrədən dairəvi planda tikilirdi<br>• Evləri qızdırmaq və yemək hazırlamaq üçün evin ortasında və ya divarında ocaq qurulurdu | • Əhali artdı və daha geniş ərazilərdə məskunlaşdı<br>• Əhali dağətəyi və dağlıq zonalarda məskən saldılar<br>• Evlər çay kənarlarında və düşməndən müdafiə olunmaq üçün əlverişli yerlərdə salınırdı<br>• Yaşayış evləri dairəvi planda, bünövrəsi daşdan və divarları çiy kərpicdən tikilirdi |

## Orta Tunc dövrü

Orta Tunc dövrü **–** ***e.ə III minilliyin sonları və e.ə II minilliyin əvvəllərində başlamış – II minilliyin ortalarına qədər*** davam etmişdir. Orta Tunc dövründə:

- Sosial və əmlak bərabərsizliyi artdı, tayfalararası əlaqələr genişləndi
- Kənd tipli yaşayış məskənləri ilə yanaşı iri yaşayış məskənləri - ***ilkin şəhər mərkəzləri*** yarandı
- **Naxçıvan** və **Urmiya bölgəsindəki** bəzi yaşayış məskənləri Qədim Şərqin ilkin şəhər mərkəzləri səviyyəsinə qədər yüksəldi. Naxçıvanda ***II Kültəpə, Oğlanqala,*** Urmiya sahilində ***Göytəpə,*** Qarabağda ***Üzərliktəpə*** düşərgələrində ilkin şəhər tipli yaşayış məskənləri aşkar edilmişdi
- Qədim Naxçıvan şəhəri yarandı **(e.ə 3500 il bundan əvvəl)**
- ***Bağçılıq*** və ***bostançılıq*** kimi yeni təsərrüfat sahələri, ***üzümçülük*** və ***şərabçılıq*** meydana gəldi
- Maldarlığın inkişafı tayfalararası ticarətin artmasına şərait yaratdı, ***mübadilə*** yarandı
- ***İkinci ictimai əmək bölgüsü nəticəsində*** sənətkarlıq başqa istehsal sahələrindən (maldarlıq və əkinçilikdən) ayrılaraq müstəqil sahəyə çevrildi (Bu dövrdə sənətkarlığın müstəqil sahəyə çevrildiyini Naxçıvan yaxınlığındakı ***II Kültəpədən*** tapılmış ***dulusçuluq məhəlləsi*** və ***dulus sobaları*** da təsdiq edir)
- Dulusçuluqda müəyyən dəyişikliklər baş verdi – dulusçular davamlı və rəngli – boyalı saxsı qablar hazırlamağa başladılar (Ona görə də bu dövrdə Azərbaycan Yaxın Şərqdə ***Boyalı qablar mədəniyyəti ilə*** tanınırdı)
- Metalişləmə sahəsində xeyli yeniliklər və irəlləyişlər baş verdi – sənətkarlar əridilmiş metalı xüsusi qəliblərə tökərək müxtəlif əmək alətləri, silah, bəzək əşyaları hazırlamağa başladılar
- Metaldan geniş istifadə olunsada, daşişləmə sənəti müəyyən qədər öz mövqeyini saxladı (bunu sənətkarların ***dəvəgözü*** və ***çaxmaqdaşından*** oraq və baltalar düzəltməyi sübut edir)
- ***Ovçuluq*** və ***balıqçılıq köməkçi məşğuliyyət sahələrinə*** çevrildi
- Qəbilə və tayfalar böyük ***tayfa ittifaqlarında*** birləşdi, soykökü etibarı ilə bir-birinə yaxın olan kiçik tayfalar varlı və güclü tayfaların ətrafında birləşməyə başladılar
- Tayfanın varlı üzvləri və tayfa başçıları icmaya məxsus əmlakın çox hissəsini mənimsəməyə, ölərkən isə zəngin ev əşyaları və silahları ilə birlikdə dəfn olunmağa başlanıldı (yoxsul tayfa üzvlərinin qəbirlərinə isə az miqdarda avadanlıq qoyulurdu)

**Orta Tunc dövründə meydana gələn yeni təsərrüfat sahələri**




**Orta Tunc dövründə şərqin ilkin yaşayış mərkəzləri səviyyəsinə qədər yüksəlmiş yaşayış mərkəzləri**




## Son Tunc və Erkən Dəmir dövrü

Son Tunc dövrü ***e.ə XIV –XII əsrləri*** əhatə edir**.** Son Tunc dövründə cəmiyyətin həyatında yaranmış mühüm yeniliklər ***e.ə XI – VIII əsrləri əhatə edən Erkən Dəmir dövründə*** daha güclü şəkildə inkişaf etdi. Buna görə də Azərbaycanda Son Tunc və Erkən Dəmir dövrü bir yerdə öyrənilmişdir. Tunca nisbətən daha möhkəm keyfiyyətli dəmirin kəşfi, ondan hazırlanan əmək alətləri və silahlar yeni yüksəlişə səbəb oldu. Son Tunc və Erkən Dəmir dövründə:

- Müdafiə tikililəri hesab olunan ***siklopik qalalar*** meydana gəldi
- Daha davamlı yaşayış və təsərrüfat binaları tikilir, binaların bünövrəsi çaydaşıları və ya qaya parçalarından qoyulur, divarları isə çiy kərpicdən hörülür, düşmən hücumundan qorunmaq üçün yaşayış məskənlərinin ətrafına qalın müdafiə divarları çəkilirdi
- Atdan minik və qoşqu vasitəsi, dəvədən minik vasitəsi və yük daşınmasında geniş istifadə edildi, at insanların həyatında böyük rol oynadığı üçün ***ata sitayiş ayini*** meydana gəldi
- Əkinçilikdə ***buğda, arpa, darı*** və.s bitkilərin bir neçə növü becərilir, taxıl tunc və dəmir oraqlarla biçilir, dən daşları ilə üyüdülür, iri küplərdə və quyularda saxlanılırdı
- Süni suvarma sayəsində ***bağçılıq, bostançılıq, üzümçülük*** və ***şərabçılıq*** daha da inkişaf etdi
- Dlusçuluq xüsusi yer tutdu, saxsı qabların istehsalında ***ayaqla hərəkətə gətirilən dulus çarxından*** istifadə olundu
- ***Üçüncü ictimai əmək bölgüsü nəticəsində*** **-** sənətkarların içərisindən sənətkar-tacirlər qrupu ayrılaraq sonralar hazır məhsulların satışı ilə məşğul olan peşəkar tacirlərə çevrildilər
- Tayfa başçılarının hakimiyyətinin qüvvətlənməsi, dini və hərbi rəhbərliyin onların əlində cəmləşməsi – bu şəxslərin ilahiləşdirilməsinə gətirib çıxartdı
- Dini etiqadlar və mərasimlər içərisində oda, suya, dağa, meşələrə və heyvanlara inam geniş yayıldı və səma cisimlərinə (Günəşə, Aya, ulduza) inam dərin kök saldı
- Tayfalar qonşu ölkələrlə xammal və hazır məhsullarla geniş ticarət apardı (Ölkənin zəngin filiz yataqları, cins at növləti, sənətkarlıq nümunələri ticarətdə böyük rol oynayırdı)
- Azərbaycan **Ön Asiya, Yaxın Şərq, xüsusilə Assuriya** ilə quru və su yolları (Kür-Araz çayları və Xəzər dənizi) vasitəsi ilə geniş ticarət əlaqələri saxlayırdı. Azərbaycandan tapılmış Assuriya istehsalı olan ***şirli gil qablar, möhürlər, silahlar*** və

***bəzək əşyaları*** Azərbaycanın Assuriya ilə ticarət əlaqələrini sübut edir. Onladan biri də Xocalıdan tapılan, üzərində mixi xətlə Assuriya padşahı ***Adadnirarinin adı yazılmış muncuqdur***. Qobustan qayaları üzərində həkk edilmiş müxtəlif gəmi təsvirləri də Azərbaycanın ticarət əlaqələrini əyani sübut edir.

- İbtidai icma quruluşu dağılmağa başladı

**QEYD: E.ə VII ərdən başlayaraq Azərbaycanda dəmirdən geniş istifadə olundu.** Tunc və dəmir alətlərdən istifadə ibtidai icma quruluşunun dağılmasını sürətləndirmişdi.




**Azərbaycan ərazisində ibtidai icma dövrünün ilk insan məskənləri və abidələri**

| | |
|---|---|
| **Paleolit** | Qarabağda – Azıx və Tağlar Kəlbəcərdə - Zar Naxçıvanda – Qazma Qazaxda – Daşsalahlı və Damcılı Lerikdə - Buzeyir mağarası |
| **Mezolit** | Qobustanda - Firuz və Qazaxda – Damcılı mağaraları |
| **Neolit** | Bu dövrün yaşayış məskənləri Təbriz yaxınlığında, Gəncə, Qazax və Qobustanda tədqiq edilmişir |
| **Enolit** | Qobustan vəCəlilabadda Əliköməktəpə abidələri. Gəncə-Qazax, Mil-Qarabağ, Muğan, Maxçıvan bölgələrində, Urmiya gölü ətrafında və Təbriz yaxınlığında tədqiq edilmişdir |
| **Erkən Tunc dövrü** | Xaçmaz rayonunda Sərkərtəpə, Qazax rayonunda Babadərviş və Naxçıvan yaxınlığında I Kültəpə yaşayış yerləri |
| **Orta Tunc dövrü** | Naxçıvanda II Kültəpə, Oğlanqala, Urmiya sahilində Göytəpə, Qarabağda Üzərliktəpə |

**Azərbaycanda ibtidai icma quruluşunun dağılması**

**E.ə II minilliyin axırı – I minilliyin əvvəllərində** ibtidai icma quruluşunun dağılması sürətləndi. Bu dövrdə yəni, ibtidai icma quruluşunun sonlarında Azərbaycanda:

- Əhalinin yoxsullara və varlılar ayrılması daha da artdı
- Cənub ərazisində dövlət qurumları olduğu halda, şimal hissəsində iri tayfa ittifaqları mövcud idi

- Daha güclü tayfa birlikləri əlverişli təbii şəraiti, münbit torpağı olan ərazilərə yiyələndilər
- Tayfalar daxilində güclü təbəqələşmə getdi, güclü ailələr, tayfa başçıları, hərbçi və kahinlər çoxlu var-dövlətə sahib oldular (Onlar təsərrüfatlarında əlavə işçi qüvvəsindən istifaə edirdilər)
- İcmanın daha münbit əkin sahələrini, əsas otlaqlarını, mal-qarasını varlı ailələr ələ keçirirdi (**Gəncə yaxınlığında** və **Qarabağda** belə varlı ailələrin yaşayış binalarının qalıqları aşkar edilmişdir)
- Tayfa başçıları ilahiləşdirildi. İbtidai icma quruluşunun sonlarında Tayfa başçılarının ilahiləşdirilməsinə gətirib çıxarmış amillər bunlar idi:
  1) **Tayfa başçılarının hakimiyyətinin qüvvətlənməsi**
  2) **Dini və hərbi rəhbərliyin tayfa ağsaqqallarının əlində cəmləşməsi**
- Cəmiyyətin həyatında hərbi iş mühüm yer tutdu (Qəbirlərdən tapılmış silahlar bunu sübut edir)
- İncəsənət yüksək inkişaf etdi

**QEYD:** Cənubi Azərbaycanın Yaxın Şərqin mədəniyyət ocaqları ilə sıx əlaqədə olması burada ibtidai icma quruluşunun şimala nisbətən daha tez dağılmasına və daha erkən quldar dövlətlər yaranmasına səbəb oldu. **E.ə II minilliyin axırı – I minilliyin əvvəllərində** isə Azərbaycanın şimalında da ibtidai icma quruluşu dağılmağa başladı.

**Xronologiya**

| | |
|---|---|
| **2-3 milyon il b.ə** | Dünyada ilk dəfə olaraq Şərqi Afrikada ilk insan dəstəsinin meydana gəlməsi |
| **1,5 milyon il b.ə** | Azərbaycanda ilk insan dəstəsinin meydana gəlməsi |
| **700 min il b.ə** | Azıx mağarasından ocaq izlərinin tapılması |
| **350-400 min il b.ə** | Azıx adamının – "Azıxantrop"un yaşaması |
| **100 min il b.ə** | Yer üzündə soyuqlaşmanın başlaması |
| **100 min il b.ə** | Alt Paleolit dövrü |
| **e.ə.100-40 min il b.ə** | Orta Paleolit dövrü |
| **e.ə 40-12-ci minilliklər** | Üst Paleolit dövrü |
| **e.ə.13-cü minillik** | Yer üzündə soyuqlaşmanın istiləşmə ilə əvəz olunması |
| **e.ə XII-VIII minilliklər** | Mezolit (Orta Daş) dövrü |
| **e.ə VII-VI minilliklər** | Neolit (Yeni Daş) dövrü |
| **e.ə IV-IV minilliklər** | Eniolit (Mis-daş) dövrü |
| **e.ə V minillik** | Cəlilabad rayonunda Əliköməktəpə yaşayış yerindən əhilləşdirilmiş at sümükləri aşkar edilməsi |
| **e.ə IV-III minilliklər** | Erkən Tunc dövrü |
| **e.ə III-II minilliklər** | Orta Tunc dövrü |
| **3500 il bundan əvvəl** | Naxçıvan şəhərinin əsasının qoyulması |
| **e.ə II m.sonu – I m.əvvəli** | Azərbaycanın şimalında ibtidai icma quruluşunun dağılmasının sürətlənməsi |
| **e.ə XIV- VIII əsrlər** | Son Tunc və Erkən Dəmir dövrü |
| **e.ə VII əsr** | Azərbaycanda dəmirdən geniş istifadə olunmağa başlanılması |

# II BÖLMƏ

# İLK TAYFA BİRLİKLƏRİ, DÖVLƏT QURUMLARI VƏ DÖVLƏTLƏR

## İlk tayfa birlikləri

### İlk tayfa birliklərinin meydana gəlməsi

Azərbaycanın ayrı-ayrı bölgələrində bir-biri ilə qohum olan qədim tayfalar yaşayırdı. **Urmiya, Naxçıvan, Gəncəçay** və.b ərazilərdə kiçik tayfalar vahid mərkəz ətrafında birləşərək ***iri tayfa ittifaqı*** yaratmışlar. Həmin tayfa ittifaqları qala şəhərləri salmışdılar. **Urmiyada – *Göytəpə,* Həsənli, Naxçıvanda *II Kültəpə, Şahtaxtı, Oğlanqala, Sədərək*, Qarabağda *Üzərliktəpə, Qaraköpəktəpə*** belə ***qədim qala şəhərlərindən*** olmuşdur.

**E.ə III-II minillikdə, *Tunc dövründə*** Azərbaycanda meydana gəlmiş qədim tayfa və tayfa birliklərinə aiddir:

- Nisbətən zəif tayfalara basqınlar edərək özünə birləşdirir, iri tayfa ittifaqları yaradırdı.
- Təsərrüfatında ***əkinçilik*** və ***maldarlıq*** mühüm yer tuturdu.
- Əkinçi tayfalar məhsuldar ***çay vadilərində***, maldar tayfalar isə ***dağlıq*** və ***dağətəyi ərazilərdə*** məskunlaşmışdı.
- Aralarında ***yeni otlaq sahələri ələ keçirmək uğrunda*** mübarizə gedirdi.
- Mesopatomiya ilə sıx mədəni-iqtisadi əlaqədə saxlayırdılar.

**QEYD:** E.ə III-II minillikdə yaşamış qədim Azərbaycan tayfaları haqqında ilk yazılı məlumat ***şumer dastanlarında*** və ***mixi yazılarında*** verilmişdir.

### E.ə III-II minilliklərdə yaşamış Azərbaycan türk tayfaları

**E.ə III-II minilliklərdə *türk tayfaları*** Azərbaycanın əsas yerli sakinləri olmuşdu. Bu dövrdə yaşamış həmin tayfaları aşağıdakılar idi:

- **Kuti** - Urmiya gölünün qərbində məskunlaşmışdılar.
- **Lullubi** - Urmiya gölünün cənubunda məskunlaşmışdılar.
- **Turukki** - Urmiya gölünün cənubunda məskunlaşmışdılar.
- **Su** - Urmiya gölünün cənubunda məskunlaşmışdılar.
- **Naxç** - Naxçıvan və Mil-Qarabağda yaşayırdılar.
- **Gərgər** - Naxçıvan və Mil-Qarabağda yaşayırdılar.

**E.ə III-II minilliklərdə Urmiya gölü ətrafında yaşayan türk tayfaları**



### Lullubi tayfa ittifaqı

**E.ə III minilliyin II yarısında** Lullubi tayfa ittifaqı (birliyi) yaranmışdır. ***Lullubi tayfa birliyinə - lullubi, su*** və ***turukki*** tayfaları daxil idi. Lullubi tayfa birliyi:

- Ön Asiyada ***igid, döyüşkən*** və ***cəsur*** tayfa birliyi kimi tanınırdı
- Əsasən ***maldarlıqla*** məşğul olurdular
- ***Mesopotomiya ilə*** ticarət əlaqələri saxlayır, mal-qaranı taxıla dəyişirdilər
- Assuriyanın Nuzu şəhərində məskunlaşmış və buranın ***hurri tayfaları*** ilə yaxın əlaqədə olmuşdular
- Hurri və het dövlət idarələrində işə cəlb olunur, muzdlu döyüşçü kimi orduda xidmət edirdilər
- Hurrilər ***nullu*** – ***"özgə, yadelli"*** adlandırırdılar
- ***Səma allahlarına*** (Günəş, Ay və s) və ***məhəbbət, məhsuldarlıq ilahələrinə*** sitayiş edirdilər

**QEYD:** Gərgər tayfaları haqqında mənbələr geniş məlumat vermişdi. Həmin mənbələrə görə Araz çayının ətrafındakı ərazilərin hökmüdarları **gərgər** tayfasından olmuşdur. **E.ə 836-cı ildə III Salmanasar** qələbə çala çala gərgər ölkəsinə gəlib çıxması, **e.ə 716-cı ildə II Sarqonun** Mannaya hücumu və onun qala və istehkamlarını ələ keçirdiyini mənblərər qeyd edir. Gərgərlər zaman keçdikcə Araz çayının sağ və sol sahilində sakin olmuş, ***kuti, lullubi tayfa ittifaqı*** və ***Mesopatamiya ilə*** iqtisadi və mədəni əlaqələr yaratmışlar.

**Lullubi tayfa ittifaqına (birliyinə) daxil olan tayfalar**




## Erkən dövlət qurumları

### Azərbaycanın Cənubunda erkən dövlət qurumlarının meydana gəlməsi

**E.ə III minillikdə Azərbaycanın Cənubunda Aratta, Lullubi və Kuti dövlət qurumları** meydana gəlmişdi. E.ə III minillikdə dövlət qurumlarının meydana gəlməsi ***Azərbaycanın dövlətçilik ənənələrinin qədim köklərə malik olmasını*** sübut edir. Həmin dövlət qurumlarının ***Mesopotomiyanın şəhər-dövlətləri ilə*** siyasi, iqtisadi və mədəni əlaqələri var idi. Azərbaycanın cənub, xüsusilə cənub-qərb torpaqları ***Mesopatomiyanın quldar cəmiyyətinə yaxın olduğu üçün*** Mesopotomiyada baş vermiş dəyişikliklər buraya da təsir göstərmişdi. Beləliklə, erkən dövlət qurumlarının Azərbaycanın cənubunda yaranması ***Mesopotamiyanın quldar cəmiyyətinə yaxın olması ilə*** bağlı olmuşdur.

**Erkən dövlət qurumları**



## Aratta dövlət qurumu

Aratta dövlət qurumu:

- Azərbaycan ərazisində yaranmış türk mənşəli ilk dövlət qurumu idi
- **E.ə III miilliyin I yarısında** mövcud olmuşdur
- Mesopatomiya ilə iqtisadi, siyasi və  mədəni əlaqələr saxlayırdı
- Ölkəni ***en (ensi) rütbəsi*** daşıyan türk mənşəli hökmdar idarə edirdi
- Dini idarələrə ***maşmaş*** adlanan kahin başçılıq edirdi
- ***"En Merkar və Aratta hökmüdarı" dastanında*** Arratda ilə Şumer arasında əlaqələr barədə məlumat verilir
- Çoxallahlılıq mövcud idi (əhali Şumerdə məhəbbət və bərəkət ilahəsi olan İnannaya və.b tanrılara sitayiş edirdilər).

## Lullubi dövlət qurumu

Lullubilər dövlət qurumu yaratmadan əvvəl tayfa birliyi yaratmışdılar. Lullubi tayfa birliyində hakimlər (padşahlar) mövcud idi. Lullubi dövlət qurumuna aiddir:

- **E.ə III minilliyin II yarısında** mövcud olmuş türk mənşəli dövlət qurumu idi.
- **E.ə XXIII əsrdə,  Azərbaycanın cənubunda** *lullubi, su, turukki tayfa birliyi* **tərəfindən yaradılmışdı.**
- Yazılı mənbələrdə Lullubi hökmdarını «padşahlar padşahı» adlandırırdılar.
- Lullubilər ölkəsi inzibati cəhətdən ***vilayətlərə*** bölünürdü və bu vilayətləri ***hakimlər*** idarə edirdi.
- Hökmdar ***Anubaninin*** dövründə daha da qüvvətlənmiş və ölkənin ərazisi daha da genişlənmişdi.
- Ərazisi şimaldan Urmiya gölü, cənubdan Diyala çayına qədər çatırdı.
- **İkiçayarası (Mesopotamiya)  ilə** ticarət əlaqələri saxlayırdı.
- İkiçayarasının ***Nuzi şəhəri*** ilə mal mübadiləsi edir, mal-qaranı taxıla dəyişirdilər.
  Akkad dövlətinin işğalçılıq siyasətinə qarşı ***ittifaq*** yaratmışdı
- İkiçayarası mədəniyyətinin lullubilərə böyük təsiri olmuşdu. Onlar İkiçayarası əhalisindən mixi yazı sistemini mənimsəmişdilər
- **E.ə. III minilliyin sonlarında** Lullubi dövlət qurumu xırda vilayətlərə parçalandı.
  Anubaninin uğurları *"Daş sütun"* üzərində *mixi yazılarla* həkk olunmuşdur. "Daş sütun" Lullubi abidəsi göstərir ki, Lullubi əhalisi içərisində abidə yonan ustalar, mixi yazıları bilən mirzələr olmuşdur. Lullubilər ***Səma, Bərəkət, Məhəbbət, Ay, Günəş tanrılarına*** sitayiş edirdilər.

## Kuti dövlət qurumu

Kuti dövlət qurumu:

- **E.ə III minilliyin II yarısında,** Urmiya gölünün ***cənub-qərbində*** meydana gəlmişdi.
- Türk mənşəli olub, sərhədləri ***şimalda*** **Urmiya gölünün qərbindən,** ***cənubda*** **İran körfəzinə** çatırdı.
- Mesopatamiyada türk mənşəli şumerlərlə dostluq münasibəti saxlayır, akkadlarla rəqabət aparırdılar.
- Akkad dövləti ilə hərbi münaqişəyə girərək ordusunu məğlub etmişdi
- **E.ə XXII əsrdə** Mesopotomiyaya hücumları nəticəsində Akkad dövlətini süquta uğratmışdı
- Mesopotamiyada ***100 ilədək*** kalimiyyətdə olmuşdu. Kuti ölkəsində hakimiyyətə gələn hökmdar, eyni zamanda İkiçayarasını da idarə edirdi. Kutilərin Mesopotamiyada 100 ilədək kalimiyyəti dövründə:

***a) Şəhərlərarası toqquşmalara son qoyuldu.***

b) *ticarət yollarında əmin-amanlıq yarandı.*

c) *Xarici hücumların arası kəsildi.*

d) *Dövlət quruluşunda əsaslı dəyişikliklər etməyərək, ölkəni əsasən yerli şumer və akkad nümayəndələrindən təyin edilmiş canişinlər vasitəsilə idarə edirdilər.*

**Kuti və Lullubi dövlət qurumlarına aid oxşar cəhətləri**




## Turukki və Assuriya savaşları

**E.ə. XXII əsrin axırlarında** Mesopotamiyada kutilərin hakimiyyətinə son qoyuldu. Onlar ölkədən çıxarıldılar. *E.ə. III minilliyin sonunda* Kuti dövlət qurumu süquta uğrayıb, xırda vilayətlərə parçalandı.

**E.ə III minilliyin sonunda Kuti və Lullubi dövlət qurumlarının tərkibinə *turukkilər* daxil idi.** Lullubi və Kuti dövlət qurumları süquta uğradıqdan sonra bu qurumların tərkibinə daxil olan ***su və turukki tayfaları*** müstəqillik qazandılar. Bu zaman Mesopotamiyanın şimalında yaranmış *Assuriya dövləti* turukkilərin ərazisini işğal etmək istəyirdi. Turukkilər müqavimət göstərib öz torpaqlarını vermədilər. Əksinə, Aşşurun nəzarəti altında olan bir sıra vilayətləri tutdular və tədricən ***Babilistan ərazisinə*** yayıldılar.




## Assuriyanın Azərbaycan torpaqlarına yürüşləri

**E.ə XIV əsrin sonundan** Assuriyanın qüdrəti yenidən artdı və qədim Azərbaycan tayfaları onun təsiri altına düşdü. **E.ə II minillikdə** qədim Azərbaycan tayfaları olan ***turrukilər***, ***lullubilər, kutilər*** və ***şubarlar Assuriyanın işğalçılıq siyasətinə qarşı*** çıxaraq üsyan qaldırmış və müstəqillik uğrunda mübarizə aparmışdılar. Lakin, E.ə II minillikdə qədim Azərbaycan etnoslarının, tayfa başçıları və xırda hakimlərin ***vahd dövlət halında birləşə bilməmələri*** Assuriyaya qarşı ciddi müqavimət göstərə ***bilməməsinə*** səbəb olmuşdu. Lakin müharibələr qədim Azərbaycan tayfaları yenidən dövlət halında birləşməsini zəruri edirdi. **E.ə II minilliyin sonu – I minilliyin əvvəlində** Azərbaycanda dövlətlərin meydana gəlməsi ərəfəsində idi.

**E.ə II minillikdə Assuriyanın işğalçılıq siyasətinə qarşı çıxaraq üsyan qaldırmış Azərbaycan tayfaları**

- lullubi
- kuti
- turruki
- şubarlar

## Xronologiya

| | |
|---|---|
| **e.ə III minillik** | Azərbaycanın cənubunda erkən dövlət qurumlarının meydana gəlməsi |
| **e.ə III minilliyin I yarısı** | Aratta dövlət qurumunun mövcud olması |
| **e.ə III minilliyin II yarısı** | Lullubi tayfa ittifaqının mövcud olması. Lullubilərin Akkad dövlətinin işğalçı siyasətinə qarşı ittifaq yaratması |
| **e.ə XXIII– XXII əsrlər** | Urmiya gölünün cənubunda Lullubi dövlət qurumlarının meydana gəlməsi |
| **e.ə III minilliyin II yarısı** | Urmiya gölünün cənub-qərbində Kuti dövlət qurumunun meydana gəlməsi |
| **e.ə XXII əsr** | Kutilərin Mesopotamiyaya hücumu. Akkad dövlətinin süquta uğradılması və kutilərin Mesopotamiyada 100 illik hakimiyyətinin başlanması |
| **e.ə XXII əsrin sonları** | Kuti hökmdarı Tirikana qarşı üsyan baş verməsi. Kutilərin Mesopotamiyada 100 hakimiyyətinə son qoyulması və Mesopotamiyada III Ur Şumer sülaləsinin hökmüranlığının bərqərar olması |
| **e.ə III minilliyin sonu** | Kuti və Lullubi dövlət qurumlarının süquta uğrayaraq xırda vilayətlərə parçalanması |
| **e.ə III minilliyin sonu** | Turukki tayfalarının Şuşarra vilayətini tutması |
| **e.ə 2003** | Su tayfalarının III Ur sülaləsini devirməsi və Su ölkəsinin müstəqil olması |
| **e.ə II minilliyin əvvəli** | Kuti, lullubi və turikkilərin yeni tayfa birliyi yaratması |
| **e.ə II minillik** | Turukki, lullubi, kuti və şubar tayfalarının Assuriyaya qarşı üsyan qaldırması |

# Manna dövləti

## Manna dövlətinin təbiəti, əhalisi və təsərrüfarı

**E.ə I minilliyin əvvəllərində** Urmiya gölü ətrafında ***mərkəzləşmiş*** Manna dövləti yarandı. Mannanın təbiətinə ***aiddir:***

- Dağlıq ölkə olub, burada müxtəlif böyüklüklərdə suvarma üçün çoxlu çaylar var idi
- Urmiya gölünün suyu çox duzlu olduğu üçün suvarmaya yaramırdı
- Çay vadiləri çox məhsuldar olduğundan əhali burada sıx məskunlaşmışdı
- Ölkə faydalı qazıntılarla zəngin olub, dəmir, mis, gümüş, qızıl, qurğuşun yataqlarına malik idi

Mannanın əhalisi:

- Əsasən türk mənşəli tayfalardan ibarət idi
- Oturaq həyat sürürdü
- Düzən və dağətəyi yerlərdə yaşayanlar əkinçiliklə məşğul olurdu

Mannanın təsərrüfatına ***aiddir:***

- Torpağı ***dəmir toxa*** və ***xışla*** şumlayır, taxılı ***dəmir oraqla*** biçirdilər
- Bağçılıq və üzümçülük inkişaf etmiş, üzümdən şərab hazırlayırdılar
- Təsərrüfatda ***dəvədən*** istifadə edirdilər
- Dövlətə, yaxut hökmdara məxsus taxıl anbarları var idi (quraqlıq, yaxut aclıq vaxtı dövlət anbarlarından əhaliyə taxıl paylanılırdı)
- Təsərrüfatda atçılıq mühüm yer tutmuş və geniş yayılmışdı (məsələn, Mannanın ***Subi vilayəti*** öz at ilxıları ilə fərqlərirdi, ***Bara (Sanqibuti) vilayətində*** isə hökmdar sürüləri saxlanılırdı).

## Mannada xırda dövlət birləşmələri

**E.ə IX əsrdə** Manna ərazisində müstəqil siyasət yürüdən – ***Zamua, Gilzan, Alateye, Surikaş, Gizilbunda, Uişdiş, Zikirtu, Andia vilayətləri*** meydana gəlmişdi. Mannanın ən böyük vilayətlərindən biri Zamua vilayəti idi. Zamua vilayəti:

- Mannanın əsas hissəsini təşkil edirdi
- Urmiya gölünün cənubunda yerləşirdi
- Əvvəllər ***lullubilərin*** ölkəsi olmuşdur
- E.ə IX əsrdə ayrı ayrı hakimlər tərəfindən idarə edilirdi

**QEYD:** E.ə IX əsrdə Zamua vilayətinin ***ayrı ayrı hakimlər tərəfindən idarə edilməsi*** nəticəsində buraya xarici hücumların qarşısını almaq mümkün olmurdu. Ümumiyyətlə, bu dövrdə Manna vilayətlərinin hər biri ***Assuriya ordusuna*** qarşı ***təkbaşına*** mübarizə aparmalı olur, yaxut xərac göndərməklə ***Assuriya ilə müstəqil siyasi əlaqə*** yaradırdılar.

## Manna dövlətinin yaranması

**E.ə I minilliyin başlanğıcında** Azərbaycanın cənubunda – Urmiya gölü ətrafında mərkəzləşmiş dövlətin meydana gəlməsi üçün əlverişli şərait meydana gəlmişdi. **E.ə IX əsrdə** burada (Urmiya gölü ətrafında) Manna dövləti yaranmışdı. Lakin həmin dövrdə Manna hələ bütün Cənubi Azərbaycan torpaqlarını əhatə edə bilməmişdir. Manna adına ilk dəfə **e.ə 843-cü ildə,** ***III Salmanasarın mixi yazılı kitabəsində*** rast gəlinmişdir. Manna - Azərbaycanın ***ilk qədim dövləti*** idi. **E.ə IX-VIII əsrlərdə** Manna güclü bir dövlətə çevrildi.

**Manna hökmdarlarının ilk vaxtlarda vahid mərkəzləşdirilmiş dövlət yarada bilməməsinin səbəbləri**

- Assuriyanın aramsız hücumları
- Urartunun işğalçılıq siyasəti

## Mannaya qarşı Assuriya və Urartunun işğalçılıq siyasəti

Manna zaman-zaman ***Assuriyanın, Urartunun*** və ***Midiyanın*** işğalçı hücumularına məruz qalmışdı. Manna hökmdarları ölkəni vahid mərkəzdə birləşdirib xarici hücumların qarşısını almağa çalışsalar da, buna uzun müddət nail ola bilməmişdilər. Bundan istifadə edən Assuriya Mannaya qarşı müntəzəm hücumlar təşkil edirdi. Urartu dövləti də Mannaya qarşı daimi ***işğalçılıq*** və ***ya təcavüzkarlıq siyasəti*** yürüdürdü. Odur ki, e.ə IX-VIII əsrlərdə Manna dövləti özünü qorumaq üçün **Assuriya** və **Urartuya qarşı** mübarizə aparırdı.

**E.ə VIII əsrin II yarısında** Assuriya hökmdarı **III Tiqlatpalasar** Manna və başqa ölkələrdə təsirini artırmaq üçün Urartu ilə vuruşdu. III Tiqlatpalasarın Mannaya yürüşü ***nəticəsində:***

- **Mannanın Mazamua vilayəti tutuldu və Assuriyaya birləşdirildi**
- **Urmiya gölü hövzəsində yaşayan birsıra tayfalar başqa əraziyə köçürüldü**

Lakin, III Tiqlatpalasar Mannanın başqa vilayətlərinə toxunmadı. O, əsasən ***Urartu*** və ***Midiya ilə*** müharibələr apardı. Bu zaman Manna Assuriyaya ***müttəfiq kimi*** baxırdı. Manna hökmdarları gah Assuriya və digər dövlət arasında çəkişmə meydanında qalarkən müəyyən mövqe tutmağa çalışırdılar.

**Manna hökmdarları**

- **İranzu (e.ə 740-719)**
- **Aza (e.ə 718-716)**
- **Ullusunu (e.ə 716-680)**
- **Ahşeri (e.ə 675-650)**
- **Ualli (e.ə 650-630)**

## İranzunun hakimiyyəti (e.ə 740-719)

Manna hökmdarı İranzunun hakimiyyəti ***dövründə:***

- Assuriya ordusunun Urartuya qarşı uğurlu müharibələrindən istifadə edərək ***mərkəzləşmə siyasəti*** yürütdü
- Urartunun işğal etdiyi Manna torpaqlarını geri qaytardı və Manna vilayətlərini mərkəzi hakimiyyətə tabe etdi
- Ölkədə ***canişinlik sistemi*** yaratdı və canişinləri mərkəzi hakimiyyətdən asılı vəziyyətə saldı
- Xarici siyasətdə ***Assuriya ilə ittifaqa*** və ***müttəfiqliyə*** meyl edərək onun siyasi üstünlüyünü tanıdı
- Manna Urmiya gölü hövzəsində qüdrətli dövlətə çevrildi, ***İzurtu*** paytaxt şəhəri oldu
- Mannanın ərazisi ***şimalda*** Araz çayına, ***cənubda*** və ***cənub şərqdə*** Kassi ölkəsi, Parsua və Midiya ilə həmsərhədd oldu

VIII əsrdə Mannanın xarici siyasətində ***iki meyil*** var idi:

- ***Birinci qurup*** - Assuriya ilə ittifaqa meyil göstərməklə Manna torpaqlarının bütövlüyünü qoruyub saxlamağa çalışırdı. Bu siyasətə başçılıq edən İranzu Urartu hücumlarına qarşı mübarizə aparmaq və Mannada əminamanlığa nail olmaq üçün Assuriyaya qarşı müttəfiq kimi baxır və onun siyasi üstünlüyünü tanıyırdı.
- ***İkinci qurup*** - Urartu ilə ittifaqın tərəfdarı olub, onların siyasəti Manna vilayətlərinin mərkəzi dövlət ətrafında birləşməsinə mane olur, ölkənin parçalanmasına, torpaqların isə Urartu tərəfindən işğalına şətait yaradırdı.




## Mannada İranzuya qarşı üsyan baş verməsi (e.ə 719-cu il)

Mannanın Assuriyaya olan meyili ölkəni ***Urartu işğalından xilas etmiş*** və ***onun birləşməsi üçün şərait yaratmışdı***. Lakin, İranzunun ***mərkəzləşdirmə siyasəti*** Mannanın bəzi urartumeyilli hakim və canişinlərinin xoşuna gəlmirdi. Eyni zamanda da Urartu Mannanın daxili işlərinə qarışır, canişinləri mərkəzi hakimiyyətə qarşı qaldırırdı. Belə ki, Urartu hökmdarı **I Rusa** belə bir işğalçılıq siyasətini həyata keçirmək məqsədi ilə Mannanın ***Zikurtu vilayətinin canişini*** və bir sıra şəhərlər ilə ittifaqa girdi. **E.ə 719-cu ildə** Mannanın ***Şuandahul*** və ***Durdukka*** şəhərlərinin əhalisi İranzuya qarşı üsyan qaldırdı. E.ə 719-cu ildə İranzuya qarşı üsyan baş verərkən Assuriya hökmdarı **II Sarqon (e.ə 722-706)** Manna ilə ittifaqa sadiq qalaraq üsyanı yatırtdı.

**QEYD:** Lullubi hökmdarı Anubani və Manna hökmüdarı İranzunun hakimiyyəti dövrünə aid oxşar cəhəti onların dövründə ölkələrində hakimiyyətin daha da qüvvətlənməsi olmuşdur.

**E.ə 719-cu ildə İranzuya qarşı üsyan qaldırmış Manna şəhərlər**




## Azanın hakimiyyəti (e.ə 718-716)

İranzunun vəfatından sonra onun oğlu Aza hakimiyyətə gəldi. Azanın hakimiyyəti ***dövründə:***

- Mannada daxili çəkişmələr yenidən gücləndi
- Dövlətin parçalanmaq qorxusu yarandı

- Urartunun kömək göstərdiyi mərkəzdən ayrılmaq istəyən qüvvələr fəallaşdı
- E.ə 716-cı ildə sui-qəsd nəticəsində öldürüldü

### Ullusun hakimiyyəti (e.ə 716-680)

Azanın vəfatından sonra Ullusun hökmdar oldu. Mixi yazılarındakı məlumata görə onun hakimiyyətə gəlməsində **Urartu hökmdarı I Rusa** kömək etmiş və bunun qarşılığında Ullusundan ***22 Manna qalasını*** almışdı. Ullusunun hakimiyyəti dövründə:

- Hakimiyyətə gələrkən Assuriya ilə ittifaqdan üz döndərdi
- Assuriya əsarətindən azad olmaq üçün Urartu ilə ittifaqa girdi
- Manna Urartu ilə Assuriya arasında mübarizə meydanına çevrildi
- Ölkədə tam sabitlik yaranmadı, daxili çəkişmələr yenə davam etdi
- Manna  Assuriya hökmdarı II Sarqonun hücumuna məruz qaldı
- Manna Assuriyanın siyasi ağalığını yenidən tanıdı

### II Sarqonun Mannaya e.ə 716-cı il yürüşü

Ullusunun hakimiyyəti dövründə Mannanın Assuriya əsarətindən azad olmaq üçün Urartu ilə ittifaqa girməsi Assuriya hökmdarı **II Sarqonu** qəzəbləndirdi. Odurki, II Sarqon **e.ə 716-cı ildə** Mannaya yürüş etdi. II Sarqonun bu yürüşü ***nəticəsində:***

- Sarqon paytaxt İzurtunu və bir neçə Manna şəhərini tutaraq yandırdı, Ullusun dağlara qaçdı
- II Sarqon Azanın qatillərindən birini tutaraq cəzalandırdı
- Ullusun II Sarqonun yanına gələrək ondan mərhəmət diləməsi qarşılığında hakimiyyətdə qaldı
- Ullusu Assuriyanın siyasi ağalığını tanıdı və II Sarqonun şərəfinə yazılı abidə qoydurdu
- II Sarqon bütün Manna torpaqlarını Ullusuna tabe etdi

### II Sarqonun Mannaya e.ə 715-ci il yürüşü

II Sarqonun **e.ə 716-cı** il yürüşündən sonra Urartu hökmdarı I Rusa Mannaya qarşı təcavüzdən yenə də əl çəkməyərək onun bəzi canişinləri ilə əlaqəyə girdi. Manna canişini **Dayaukku** I Rusanın fitnəsinə uyaraq mərkəzi hakimiyyətə tabelilikdən çıxdı. Belə olduqda, II Sarqon Ullusunu ilə ittifaqa sadiq qalaraq **e.ə 715-ci ildə** Manna canişini Dayaukkuya və  I Rusaya qarşı yürüşə çıxdı. I Rusa ordu toplayaraq II Sarqonu qarşıladı. **E.ə 715-ci ildə** II Sarqonla I Rusa arasında baş vermiş döyüş ***nəticəsində:***

- ***Urartu hökmdarı məğlub olaraq döyüş meydanından qaçdı***
- ***II Sarqon döyüşdə qalib gəldi***

Beləliklə, II Sarqonun e.ə 715-ci il yürüşü nəticəsində ***Mannanın Urartu tərəfindən işğal edilmiş torpaqları geri qaytarıldı. Lakin ölkədə tam sabitlik yaranmadı, daxili çəkişmələr yenə də davam etdi.***

**QEYD:** Mərkəzi hakimiyyətə qarşı qiyam baş verməsi Manna dövlətinin **e.ə 719-ci** və **715-cı illər** tarixi üçün oxşar cəhət təşkil edir.

### II Sarqonun Mannaya e.ə 714-cü il yürüşü

**E.ə 714-cü ildə** II Sarqon Manna, Midiya və başqa ölkələrə ***böyük yürüş*** təşkil etdi. Böyük yürüş zamanı II Sarqonun Manna ilə əlaqədar üç məqsədi var idi:

1. **Mannanı Urartunun təcavüzündən tamamilə azad etmək.**
2. **Mannada Assuriyanın mövqeyini möhkəmləndirmək.**
3. **Mannadan Assuriyaya vaxtlı-vaxtlı xərac göndərilməsini təmin etmək.**

E.ə 714-cü ildə yürüş zamanı Ullusunu ilə II Sarqon arasında ***Sirdakka şəhərində*** sövdələşmə oldu – Ullusunu Sarqondan Urartu hökmüdarı I Rusanı məğlub etməsini və başqa ərazilərdəki mannalıları öz ərazilərinə qaytarmasını istədi. Sarqon da öz növbəsində bu diləyi yerinə yetirəcəyinə söz verdi.

II Sarqonun E.ə 714-cü ildə baş vermiş böyük yürüşünə ***aiddir:***

- Yürüş zamanı Ullusun II Sarqonu təmtəraqla qarşıladı, ordusunu ərzaqla təchiz etdi və ona xərac verdi
- Ullusun II Sarqonun şərəfinə yazılı abidə qoydurdu
- II Sarqon xərac toplaya toplaya Mannadan cənubda yerləşən Parsua vilayətinə gəldi
- Midiya və bir çox başqa ölkələr II Sarqona vergi verdilər
- Urmiyanın cənubunda yerləşən və Urartu tərəfindən tutulan Mannanın **Uişdiş vilayəti yaxınlığında döyüşdə** I Rusa və onun köməyinə gəlmiş Manna canişinləri məğlub oldu
- II Sarqon döyüşdən sonra yürüşü davam etdirərək Urartu ərazisinə daxil oldu və bir çox vilayətləri ələ keçirərək talan etdi, I Rusa isə müqavimət göstərə bilməyərək özünü öldürdü
- II Sarqon "düşmənin ayağını Mannadan kəsdi"

Beləliklə, II Sarqonun e.ə 714-cü il yürüşü ***nəticəsində:***

- **II Sarqon Urartu tərəfindən tutulmuş Uişdiş və Subi vilayətlərini azad edərək verdiyi vədinə əməl etdi**
- **Bundan sonra Urartu zəiflədi və bir daha Mannanın daxili işlərinə qarışa bilmədi, Manna qüdrətli dövlət oldu**




**Ahşerinin hakimiyyəti (e.ə e.ə 675-650)**

Ahşerinin hakimiyyəti dövründə:

- Manna kimmer, skif və sak tayfalarına arxalanaraq Assuriya ilə olan ittifaqı pozdu
- Manna müstəqil xarici siyasət yürütməyə başladı
- Manna Assuriya tabeliyindən çıxdı və tam müstəqil oldu.
- Assuriya hökmdarı Aşşurbanipal Mannaya qarətçi yürüş etdi

**E.ə VII əsrin I rübündə *kimmer, skif və sak tayfaları*** Qara dəniz sahillərindən hərəkət edərək ***Mannanın şimal-qərb və cənub-qərb vilayətlərində*** məskunlaşdılar. Həmin tayfaların gəlişi ilə Assuriya sərhədlərində böyük təhlükə yarandı. **E.ə VII əsrin I rübündə** kimmer, skif və sak tayfalarının Mannada məskənlər salmasından istifadə edən Manna dövləti ***Assuriya tabeliyindən çıxdı və tam müstəqil oldu***.

**VII əsrin ortalarında** Assuriya ilə ittifaqı pozduğuna görə Assuriya hökmdarı **Aşşurbanipal (e.ə 668-626)** Mannaya hücum etdi. **E.ə 650-ci** ildə tərəflər arasında baş vermiş döyüş ***nəticəsində:***

- Manna hökmdarı Ahşeri məğlub oldu
- Aşşurbanipal İzurtunu və bir çox Manna şəhərlərini tutaraq dağıtdı

- Mannanın əhalisi, mal-qarası və at ilxılarının bir qismi qənimət kimi aparıldı

**E.ə 650-ci ildə** Ahşeri döyüşdə məğlub olduğuna görə əhali üsyan qaldıraraq onu öldürdü.

**Assuriya hökmdarlarının Mannaya yürüşləri**

| *Tarixi* | *Hökmdarlar* | *Məqsədi və ya səbəbi* | *Nəticəsi* |
|---|---|---|---|
| **E.ə VIII əsrin II yarısı** | **III Tiqlatpalasar** | Manna və başqa ölkələrdə təsirini artırmaq | Mannanın Mazamua vilayətini tutaraq Assuriyaya birləşdirdi, Urmiya gölü hövzəsində yaşayan birsıra tayfaları başqa əraziyə köçürdü |
| **e.ə 716-cı il** | **II Sarqon** | Ullusunun Mannanın Assuriya əsarətindən azad olmaq üçün Urartu ilə ittifaqa girməsi | Azanın qatillərini cəzalandırdı, Ullusunu hakimiyyətdə saxladı, bütün Manna torpaqlarını Ullusuna tabe etdi, Manna Assuriyanın siyasi ağalığını tanıdı |
| **e.ə 715-ci il** | **II Sarqon** | Manna canişini Dayaukkunun I Rusanın fitnəsinə uyaraq mərkəzi hakimiyyətə qarşı qiyam qaldırması | Mannanın Urartu tərəfindən işğal edilmiş torpaqlarını geri qaytardı. Lakin ölkədə tam sabitlik yaranmadı, daxili çəkişmələr yenə də davam etdi |
| **e.ə 714-cü il** | **II Sarqon** | Mannanı Urartunun təcavüzündən azad etmək, Mannada Assuriyanın mövqeyini möhkəmləndirmək, Mannadan Assuriyaya vaxtlı-vaxtlı xərac göndərilməsini təmin etmək | Urartu tərəfindən tutulmuş Uişdiş və Subi vilayətlərini azad etdi. Urartu zəiflədi və bir daha Mannanın daxili işlərinə qarışa bilmədi, Manna qüdrətli dövlət oldu |
| **E.ə 650-ci il** | **Aşşurbanipal** | Manna hökmdarı Ahşerinin Assuriya ilə ittifaqı pozması | Manna hökmdarı Ahşerini məğlub etdi, İzurtunu və bir çox Manna şəhərlərini dağıtdı, Mannanın əhalisini, mal-qarasını qənimət kimi apardı |

**Uallinin hakimiyyəti (e.ə e.ə 650-630)**

Ahşeri üsyançılar tərəfindən öldürüldükdən sonra hakimiyyətə onun oğlu Ualli gəldi. Uallinin hakimiyyəti dövründə:

- Aşşuriya ilə ittifaq bərpa olundu
- Manna Assuriya ilə ittifaqa sadiq qaldı
- Manna müstəqil dövlət kimi öz varlığını qoruyub saxladı

**E.ə 616-cı ildə** Assuriya ***Midiya*** və ***Babilistan*** ilə mübarizə apararkən Mannanın hərbi dəstələri ona müttəfiq kimi kömək etdi. Qaynaqların məlumatına görə **e.ə 593-cü ildə** Manna müstəqil dövlət kimi öz varlığını qoruyub saxlayırdı. **E.ə 590-cı ildə** isə İranın mərkəzində yaranmış ***Midiya dövləti tərfindən*** süquta uğradıldı və Mannanın müstəqil dövlətçiliyi sona çatdı. **VI əsrin əvvəllərində** Manna dövlətinin süqutunun əsas səbəbi aşağıdakı amillərlə bağlı idi:

- **Daxili çəkişmələr**
- **Arasıkəsilməz müharibələr**
- **Xarici hücumların güclənməsi**

**Mannan ilə Assuriyanın ittifaq yartadaraq birlikdə mübarizə apradığı dövlətlər**




## Mannada idarəetmə sistemi

**E.ə III minillikdə** Manna ərazisində ***dövlət qurumlarının meydana gəlməsi*** (Aratta, Lullubi, Kuti) Mannada dövlətçilik ənənəsinin qədim köklərə malik olduğunu göstərir. Mannanın idarəetmə sisteminə ***aiddir:***

- Quldarlıq istehsal formasına əsaslanan dövlət olmuşdur
- Dövlətə ***türk mənşəli sülalə*** başçılıq edirdi
- Manna ***mərkəzləşmiş dövlət*** idi
- Dövləti qeyri-məhdud hakimiyyətə malik ***hökmdar*** idarə edirdi
- Vilayətləri mərkəzi hakimiyyətə tabe olan ***canişinlər*** idarə edirdi
- Hökmdardan asılı olan ***"ağsaqqallar şurası"*** fəaliyyət göstərirdi
- Dövlətin idarəsində hakim ailənin üzvləri iştirak edirdi
- **E.ə VIII əsrin I yarısında** hakimiyyət ***irsi*** olaraq atadan oğula keçməyə başladı
- Dövlətin idarə işində müxtəlif məmur və əyanlar çalışırdılar (Məmurlar mixi qaynaqlarda ***əyan, ağsaqqal, məsləhətçi, başçı*** və ***canişin*** adlandırılırdı).

**QEYD:** Lullubi dövlət qurumu ilə Manna dövləti oxşar cəhətlərə malik idi. Belə ki hər iki dövlət Azərbaycanın cənub hissəsində yaranmışdı, türk mənşəli sülalələr tərəfindən idarə olunurdu, hakimiyyət hökmdara məxsus idi.



**Kuti və Manna dövlətlərinin tarixi üçün ümumi cəhətlər**

**Kuti və Manna dövləti**

- Azərbaycanın cənub torpaqlarında yaranmışdılar
- Hökmdarlarına qarşı üsyan baş vermişdir
- Türk mənşəli hökmdarlar tərəfindən idarə edilirdilər
- Ay allahına, məhəbbət, məhsuldarlıq ilahəsinə sitayiş edirdilər
- Vilayətləri canişinlər idarə edirdilər

## Mannada sənətkarlıq

Mannalıların təsərrüfat həyatında ***əkinçilik*** və ***maldarlıqla*** yanaşı ***sənətkarlıq*** da mühüm yer tuturdu. Mannada sənətkarlığın inkişafını Cənubi Azərbaycanda yerləşən qədim **Həsənli** və **Ziviyə** yaşayış məskənləri də sübut edir. Mannada sənətkarlığın ***metalişləmə, toxuculuq*** və ***boyaçılıq*** sahələri inkişaf etmişdir. Həsənli və Ziviyə tapıntıları Mannada metalişləmə sənətinin yüksək inkişaf etdiyini göstərir. Mannada metalişləmənin inkişafına aşağıdakı amillər kömək etmişdir:

- Mannanın ərazisinin dəmir filizi ilə zəngin olması
- Mannada qiymətli daş yataqlarının mövcud olması

Mannanın peşəkar sənətkarlar qızıl, gümüş, tunc və misdən bəzək əşyaları, qab-qacaq və.s hazırlayırdılar. **Həsənli qazıntılarından** tapılan müxtəlif ***parça qalıqları*** toxuculuqda qoyun yunundan və keçi qəzilindən istifadə edildiyini göstərir. Ziviyədən tapılmış müxtəlif ***daş qəliblər*** və ***qızıl cam*** Mannanın nadir sənə nümunələridir. Manna sənətkarları əridilmiş metalı həmin qəliblərə tökərək - oraq, toxa, balta, xəncər, ox ucları, dəbilqə, bəzək əşyaları, qab-qacaq və.s hazırlayırdılar

**E.ə VIII-VII əsrlərə aid** Mannanın Ziviyə qalasından aşağıdakı zəngin sənətkarlıq nümunələri aşkar edilmişdir:

- ***Qızıl və gümüşdən hazırlanmış döşlük***
- ***Dəmir qılınclar, qılınc qını və dəstəyinin hissələri***
- ***Gümüş sini və buynuzvari qədəhlər***
- ***At qoşqu ləvazimatı və.s***

**Mannada sənətkarlıq**

| | | | | |
|---|---|---|---|---|
| Sənətkarlar qızıl, gümüş, tunc və misdən bəzək əşyaları hazırlayırdılar | Sənətkarlığın metalişləmə, toxuculuq və boyaçılıq sahələri inkişaf etmişdir | Həsənli və Ziviyə məskənləri sənətkarlığın inkişafını sübut edir | Ziviyədən tapılmış daş qəliblər və qızıl camı nadir sənə nümunələridir | Toxuculuqda qoyun və keçi qəzilindən istifadə edilirdi |

## Memarlıq və incəsənət

Manna memarlığına ***aiddir:***

- Əcdadlarının qədim memarlıq ənənələrini davam və inkişaf etdirmişdilər
- Yadellilərin hücumlarının qarşısını almaq üçün ***müdafiə qalaları*** və ***qala şəhərlər*** tikilirdi
- Paytaxt İzurtu və başqa şəhərlər möhtəşəm ***qala divarları ilə*** əhatə olunmuşdur
- Həsənli qala-şəhərində iki-üç mərtəbəli binalar, ***məbədlər*** tikilmişdir

Mannada ***incəsənət*** də inkişaf etmişdir. Arxeoloji qazıntılar zamanı tapılmış ***əşyalar üzərindəki şəkil*** və ***naxışlar*** Manna təsviri sənətinin gözəl nümunələrindəndir. Ümumiyyətlə, Mannada təsviri sənətinin iki gözəl nümunəsi aşkarlanmışdır:

1. **Ziviyədən tapılmış qızıl və gümüş qədəhlər – ritonlar**
2. **Həsənlidən tapılmış qızıl cam**

Zivyə abidəsindən tapılmış müxtəlif əşyaların üzərində***“ Həyat ağacı”nın ətrafında keçi və qanadlı öküz, şiri yaralayan hökmdar, dizi bükülmüş maral və dağ qoçu*** və.s təsvir olunmuşdur.

## Mannada din və əfsanələr

Mannalıların dini görüşləri üçün ***çoxallahlılıq*** səciyyəvi idi. Onlar ***Günəş, Ay, külək-yağış*** və.b tanrılara sitayiş edirdilər. Mannada məbədlərdə ***allahlara*** heykəl qoyulurdu. Müxtəlif əşyalar üzərində Manna əfsanələri əsasında səhnələr təsvir olunmuşdur. Manna əsatirlərində iki əfsanəvi varlıq mühüm yer tuturdu:

1. **Qrifon** – ***şir bədənli, qartal qanadlı, şir və ya qartal başlı əfsanəvi heyvan.***
2. **Sfinks** – ***şir bədənli, insan başlı əfsanəvi varlıq.***

Həsənlidən tapılmış qızıl camın üzərindəki təsvirlər mannalıların ***dini dörüşləri ilə*** ilə bağlı idi. Camın yuxarı hissəsində ***döyüş arabası üstündə üç Allah – Günəş, Ay külək-yağış allahları*** təsvir edilmişdir.

**QEYD:** Həsənli abidəsindən tapılan qızıl camdan başqa, burada ***iki-üç mərtəbəli binalar, məbəd qalıqları, müxtəlif parça qalıqları*** və.s aşkar edilmişdir.

## Mannada yazı və dil

**E.ə III minillikdə** Azərbaycanın cənubunda əhali ***mixi yazı ilə*** tanış idi. Mannada yerli yazı növü də olmuşdur. ***Ziviyədən tapılmış gümüş sini üzərində həkk edilmiş işarələr*** Mannada yerli yazı növünün olduğunu və onların ***heroqlif*** yazıdan istifadə etdiyini göstərir. Heroqlif işarələrinin çoxluğu və müxtəlifliyi göstərir ki, bunların müəyyən oxunuşu olmuşdur. Bəzi işarələr rəqəm bildirmişdir. Mannada ***türk, hürri, iran dillərinin*** işləndiyi söylənilir. Əhalinin əsas dili isə ***türk dili*** olmuşdur. Manna ilə bağlı yer və şəxs adları burada türk tayfalarının yaşadığını sübut edir. Manna hökmdarlarının adları da türk sözləri ilə izah olunur. Məsələn, **Aza** adı**–** “böyük qardaş”, **Ullusunu** – “ən böyük”, “ulu adam” mənasını daşımışdır.

**Mannada işlədilən dillər**



## Erkən dövlət qurumları və Manna əhalisinin dini dünyagörüşləri

| | |
|---|---|
| Arratta | Şumerdə məhəbbət və bərəkət ilahəsi olan İnannaya sitayiş edirdilər |
| Kutilər | Ay allahına, məhəbbət, bərəkət və məhsuldarlıq ilahəsinə sitayiş edirdilər |
| Lullubilər | Səma (Günəş, Ay), məhəbbət, məhsuldarlıq ilahəsinə sitayiş edirdilər |
| Mannalılar | Səma (Günəş, Ay), külək, yağış və.b tanrılara sitayiş edirdilər |

### Xronologiya

| | |
|---|---|
| **e.ə III minillik** | Manna ərazisində ilk dövlət qurumlarının meydana gəlməsi |
| **e.ə II minillik** | Manna ərazisində yerli türkdilli etnosların yaşaması |
| **e.ə I minilliyin əvvəlləri** | Urmiya gölü ətrafında mərkəzləşmiş dövlətin meydana gəlməsi üçün əlverişli şəraitin yaranması |
| **e.ə 843** | III Salmanasarın mixi yazılı kitabəsində ilk dəfə Manna adına rast gəlinməsi |
| **e.ə IX əsrin əvvəlləri** | Manna vilayətlərinin ayrı ayrı hakimlər tərəfindən idarə olunması |
| **e.ə IX əsr** | Urmiya gölü ətrafında mərkəzləşmiş Manna dövlətinin yaranması |
| **e.ə IX-VIII əsrlər** | Urmiya gölü ətrafında Mannanın güclü dövlətə çevrilməsi |
| **e.ə VIII əsrin II yarısı** | III Tiqlatpalasarın Mannanın Mazamua vilayətini tutaraq Assuriyaya birləşdirməsi |
| **e.ə 740-719** | İranzunun hakimiyyəti. Mannanın Urmiya gölü hövzəsində qüdrətli dövlətə çevrilməsi |
| **e.ə 719** | Mannanın Şuandahul və Durdukka şəhərlərinin əhalisinin İranzuya qarşı üsyan qaldırması |
| **e.ə 718-716** | Azanın hakimiyyəti |
| **e.ə 716** | Azanın sui-qəsd nəticəsində öldürülməsi |
| **e.ə 716-680** | Ullusunun hakimiyyəti |
| **e.ə 716** | II Sarqonun Mannaya ilk yürüşü |
| **e.ə 715** | Manna canişini Dayaukkunun qiyam qaldıraraq mərkəzi hakimiyyətə qarşı çıxması |
| **e.ə 715** | II Sarqonun Mannaya ikinci yürüşü |
| **e.ə 715** | II Sarqonla I Rusa arasında döyüş baş verməsi |
| **e.ə 714** | II Sarqonun Manna, Midiya və başqa ölkələrə "böyük yürüşü" |
| **e.ə 714** | Ullusunu ilə II Sarqon arasında Sirdakka şəhərində sövdələşmə imzalanması |
| **e.ə 714** | Mannanın Uişdiş vilayəti yaxınlığında döyüş |
| **e.ə VIII əsrin I yarısı** | Mannada hakimiyyətin irsi olaraq atadan oğula keçməyə başlaması |
| **e.ə VII əsrin I rübü** | Kimmer, skif və sak tayfalarının Mannada məskən salması |
| **e.ə 675-650** | Ahşerinin hakimiyyəti |
| **e.ə 650** | Assuriya hökmdarı Aşşurbanipalın Mannaya hücumu |
| **e.ə 650** | Aşheriyə qarşı Mannada üsyan baş verməsi |
| **e.ə 650-630** | Uallinin hakimiyyəti |
| **e.ə 616** | Midiya və Babilistan ilə mübarizədə Mannanın hərbi dəstələrinin Assuriyaya kömək etməsi |
| **e.ə 590** | Mannanın Midiya dövləti tərəfindən süquta uğradılması |

# İskitlər (Skiflər) və Azərbaycan

## Kimmer, iskit və sak tayfalarının yürüşləri

E.ə VII əsrin əvvəllərindən başlayaraq ***türk mənşəli – kimmer, iskit və sak tayfaları*** əvvəlcə **Ön Asiyaya** sonra isə **Azərbaycan ərazisinə** yürüşlər etdilər.

***Kimmerlərə aiddir:***

- İlkin məskəni Şimali Qafqazın qərb hissəsi idi
- **E.ə VIII əsrdə *Qara dənizin şimalında*** və ***Krım yarımadasında*** yaşayırdılar
- **E.ə VII əsrdə** Azərbaycan ərazisində məskunlaşmışdılar
- Mannanın şimal-qərbində məskunlaşaraq onunla ittifaqa girmişdilər
- Azərbaycanda onlarla bağlı ***Qımır, Qımırlı, Kəmərli*** və ***Qəmərli*** adlı yer adları qalmışdır

***Saklara aiddir:***

- **E.ə VII əsrin əvvəllərindən** başlayaraq ***Urmiya gölünün şimalında*** məskunlaşmışdılar (mənbələr onları ***"şişpapak" saklar*** adlandırmışdı)
- Sakların Arazla Kürün qovuşduğu yerdə yaşadığına görə orta əsr qaynaqları buranı ***"Balasakan" (Sak düzü)*** adlandırmışdı
- İndiki Bərdədən Qafqaz dağlarına qədər uzanan ərazidə ***"saka bənzərlər"*** (sakasinlər) yaşamışdılar
- Onlara ***massagetlər*** də deyirdilər

***İskitlərə (skiflərə) aiddir:***

- Mannanın hüdudlarında məskunlaşaraq onunla ittifaqa girmişdilər
- Skif adı mixi qaynaqlarda ***işquz, aşquz*** kimi qeyd edilmişdir

**E.ə VII əsrdə kimmer, iskit və sak tayfalarının məskunlaşdığı ərazilər**

**Ön Asiya** | **Azərbaycan**

## Azərbaycanda İskit (Skif) padşahlığının yaranması

**E.ə VII əsrdə** iskitlər öz dövlətlərini yaratdılar. Azərbaycanda mövcud olmuş İskit padişahlığı:

- **E.ə VII əsrin ortalarında** yaranmışdı
- Manna ilə Urartu arasında yerləşirdi
- Əsasını ***kimmer, iskit*** və ***sak tayfaları*** qoymuşdu
- Midiya qoşunlarının hərbi yürüşünə məruz qalmışdı
- **E.ə VII əsrin ortalarında** hakimiyyətdə olmuş hökmdarı **Tuqdamme** ***"sak və kuti hökmdarı"*** rütbəsinini daşıyırdı
- **E.ə VI əsrin əvvəllərində**, Manna dövləti süqut edən dövürdə tənəzzülə uğramışdı (İskit padişahlığının tənəzzülə uğramasının səbəbi ***Midiya dövləti ilə rəqabət apara bilməməsi*** olmuşdur)

**QEYD:** Ümumiyyətlə, **Manna, Skif padişahlığı** və **Urartu** Midiya tərəfindən işğal edilərək süquta uğradılmış dövlətlər olmuşdur. Bu amil onlar arasında oxşar cəhət təşkil edir.

## İskitlərdə hərbi iş, sənətkarlıq, incəsənət və din

Azərbaycanın aşağıdakı ərazilərində kimmer, iskit və sak tayfalarına aid maddi mədəniyyət qalıqları tapılmışdır:

- **Zaqatalada (Saktalada)**
- **Şəki və Mingəçevirdə**
- **Kür-Araz çayları vadisində, Qarabağda**
- **Urmiya gölünün şimal-qərb və cənub-qərbində**

Kimmer, iskit və sak tayfaları hərb tarixinə müəyyən töhfələr vermişdilər. Bu tayfaların cəsur, süvari və piyada döyüşçüləri var idi. Onlar ***zireh geyinir, xəncər, ox*** və ***yayla*** silahlanırdılar. İki və üç tilli ox ucları tunc və dəmirdən hazırlanmışdir (iskit və sak tipli belə ox ucları Qarabağda - Xocalı, Mingəçevir, Gədəbəy abidələrindən tapılmışdır.) Döyüş zamanı ***ikitəkərli hərbi arabalardan i***stifadə edilirdi.

İskitlərdə incəsənət yüksək inkişaf etmişdir. Onlar ***daş heykəllər, zoomorf fiqurlar*** hazırlamışdılar. İskit incəsənəti ***Manna sənətkarlığına*** böyük təsir göstərmişdir. İskit mədəniyyətinin Manna mədəniyyətinə təsirini aşağıdakı tapıntılar sübut edir:

- ***Qılınc dəstləri, qın hissələri və kəmər***
- ***Gümüş sini, qızıl və gümüş ritonlar***

Eyni dini inam və adətlərə malik olan kimmer, iskit, sak tayfalarında Mannada olduğu kimi ***çoxallahlılıq*** mövcud idi. Kimmer, iskit, sak tayfaları ***torpağı*** və ***suyu*** müqəddəs sayırdılar. Bu tayfaların dəfn adətində ***kurqanlar ((torpaq qəbirlər)*** səciyyəvi idi. Belə kurqanlar əsasən ***iskit əyanları*** dəfn olunurdu. Kurqanlara ***məişət avadanlıqları, silahlar, bəzək əşyaları*** qoyulurdu.

# III BÖLMƏ

# AZƏRBAYCAN MİDİYA VƏ ƏHƏMNİ İMPERİYALARININ TƏRKİBİNDƏ

## Azərbaycan Midiya imperiyasının tərkibində

### Midiya dövlətinin yaranması

Midiya dövləti ***İranın mərkəzində*** meydana gəlmişdir. Midiya ***Mannadan cənub-şərqdə***, yerləşirdi. Mannanın ***Gizilbunda vilayəti*** hər iki dövlətin sərhəddini təşkil edirdi. ***Mixi yazılarında*** Midiyanın adı - ***Maday, Matay, Amaday,*** yunan mənbələrində isə ***Midiya*** şəklində işlənmişdir. Midiya ölkəsi haqqına ilk məlumatlar **e.ə IX əsrə** aiddir. İlk dəfə Midiya adını **e.ə 843-cü ildə,** ***Assur hökmdarı III Salmanasar*** işlətmişdi.

Midiya tayfaları içərisində ***maqlar*** xüsusi yer tuturdu. Midiya tayfaları haqqında geniş məlumatı yunan tarixçisi **Heredot** ***"Tarix" əsərində*** vermişdir. O, Midiya ərazisində altı qəbilənin yaşadığını qeyd edir. Onlardan ***mataylar*** türk mənşəli tayfa idi.

**E.ə IX-VIII əsrlərdə** Midiya ərazisi ***xırda vilayət hakimləri*** tərəfindən idarə olunurdu. **E.ə IX əsrin ikinci yarısında** Assuriya hökmdarları Midiya ərazisinə yürüşlər edib ölkəni qarət edərək, xırda hökmdarları özündən asılı vəziyyətə saldılar. Nəticədə ayrı-ayrı Midiya vilayətləri xərac verməyə məcbur oldu.

**E.ə VIII əsrin ikinci yarısında** Assuriyanın Midiya ərazisinə yürüşləri nisbətən çoxaldı. Bu dövrdə Assuriya hökmdarı **II Sarqon** Midiya ərazisini işğal etmişdi. Bu zaman Midiya canişini **Mannaya** tabe idi. **E.ə VIII əsrin sonunda** Midiyada vahid dövlətin yaradılmasına təşəbbüs göstərilmişdir. Bu təşəbbüsün müəllifi **Deyok** idi. Deyok hakimiyyəti ***dövründə:***

- Midiya tayfalarını birləşdirərək vahid dövlət yaratdı
- Ekbatan (Həmədan) şəhərini saldıraraq Midiyanın paytaxtı elan etdi

Deyokdan sonra Midiyada hakimiyyətdə Kaştariti, Kiaksar və onun oğlu Astiaq hökmdar olmuşdu. İskitlərin Ön Asiyaya hücumları zamanı Midiya Assuriyaya qarşı mübarizəyə başladı və **e.ə 672-ci ildə** tam müstəqil oldu.

**Manna və Midiya dövlətlərinin tarixinə aid ümumi cəhətləri**



**Kaştaritinin hakimiyyəti (e.ə 672-653)**

Midiya hökmdarı Kaştariti (Fraorta ):

- Assuriya ağalığına qarşı mübarizəyə başçılıq etmişdi
- **E.ə 672-ci ildə** Midiyanı Assuriya tabeçiliyindən qurtararaq onu mustəqil dövlətə çevirdi
- **E.ə VII əsrin 50-ci illərində** Assuriyaya qarşı yürüşlər təşkil etdi
- Assuriya təsarətini ləğv etmişdi
- İskitlərlə döyüşdə məğlub oldu

İskitlərlə döyüşdə ***Kaştaritinin həlak olmasından sonra*** Midiya İskitlərin hakimiyyəti altına düşdü. Bundan sonra Midiyada 28 illik ***İskit ağalığı dövrü*** **(e.ə 653-625)** başladı.




**Kiaksarın hakimiyyəti (e.ə 625-585)**

Midiya hökmdarı Kiaksar:

- Midiyada İskit ağalığına son qoydu
- Xırda vilayət hakimlərini dövlətə tabe etdi və daxili qüvvələri birləşdirdi
- Assuriyaya qarşı müharibəyə hazırlaşmaq üçün Midiya ordusunu yenidən təşkil edərək, onları silah növünə uyğun olaraq ***nizəçi*** və ***oxçu dəstələrinə*** böldü, süvariləri dəstəsini piyadalardan ayırdı
- **E.ə 616-612-ci illərdə** Babilistan dövləti ilə ittifaqa girərək Assuriyanın – **Aşşur, Arbela, Kalat** və **Nineviya** şəhərlərini tutaraq dağıtdı
- **E.ə 605-ci ildə** Assuriya dövlətini süquta urğadaraq onun varlığına son qoydu, Assuriyanın torpaqlarını isə **Midiya** və **Babilistan** arasında bölüşdürdü
- **E.ə 590-585-ci illərdə** Egey dənizinin sahillərinə çıxmaq məqsədilə ***Lidiya dövləti ilə*** müharibə apardı
- **E.ə 590-cı ildə Urartu** və **Manna** dövlətinin müstəqilliyinə son qoyaraq onların ərazisini Midiyanın tərkibinə daxil etdi
  **QEYD:** Manna ərazisi Midiyanın ən çox inkişaf etmiş vilayəti olduğundan Midiyanın ictimai-iqtisadi həyatına və mədəniyyətinə böyük təsir göstərmişdir.

**Midiya hökmdarı Kiaskar tərəfindən varlığına son qoyulan dövlətlə**




**Astiaqın hakimiyyəti (e.ə 585-550)**

Kiaksarın vəfatından sonra hakimiyyətə onun oğlu Astiaq gəldi. Astiaq Midiyanın sonuncu hökmüdarı oldu. Astiaqın hakimiyyəti dövründə:

- Daxili çəkişmələr artdı, Midiya sarayında gizli fəaliyyət göstərən ***farsmeyilli qüvvələr*** fəallaşdı
- Zadəganların hüququnu məhdudlaşdırmaq siyasət yürütməsi onunla əyanalar arasındakı ziddiyyətlərin və narazılığın yaranmasına səbəb oldu
- Fars əyalətinin hakimi II Kir ilə uğursuz müharibə apardı
- Midiya dövləti süquta uğradı

**QEYD:** Midiya sarayında bir qurup əyan fars vilayətinin hakimi II Kir ilə gizli sazişə girərək Astiaq ilə müharibəyə başladı.

**E.ə 553-550-ci illərdə** Astiaqla II Kir arasında üç il davam edən müharibə ***nəticəsinə:***

- II Kir qələbə qazanaraq Midiyanın paytaxtı **Ekbatan şəhərini** tutdu
- II Kir Midiya dövlətinin varlığına son qoydu
- İran Əhəməni (fars) dövlətinin tərkibinə qatıldı

## Azərbaycan Əhəmənilər imperiyasının tərkibində

### Əhəmənilər dövlətinin yaranması

**E.ə 550-ci ildə** Əhəmənilər sülaləsinin nümayəndəsi, fars hakimi **II Kir** Əhəmənilər dövlətinin əsasını qoydu. İranın cənub-şərqində hökmranlığa başlayan Əhəmənilər sülaləsinin banisi **Əhəmən** olmuşdur. Ona görə də sülalənin və dövlətin adı Əhəmənilər adlanırdı. Keçmiş Midiya dövlətinin ərazisində yaranmış Əhəmənilər dövlətinin paytaxtı **Ekbatan şəhəri** idi. Farslar Midiya mədəniyyətini və dövlət idarə quruluşunu mənimsəmişdilər. Əhəmənilər dövləti **e.ə 550-330-cu illərdə** mövcud olmuşdur. Bu müddətdə Əhəmənilər dövlətini **II Kir, II Kambis, I Dara** və **III Dara** kimi tanınmış hökmdarlar idarə etmişdir.

### II Kirin hakimiyyəti (e.ə 550-530)

II Kirin hakimiyyəti dövrünə ***aiddir:***

- Midiya dövlətini süquta uğratdı
- Əhəmənilər dövlətinin əsasını qoydu
- Anadoluda Lidiya (e.ə 547) və Babilistan dövlətini (e.ə 539) işğal etdi
- Misirə qədər Qərb ölkələrini könüllü Əhəmənilər dövlətinə tabe etdi
- Massagetlərlə döyüşdə məğlub oldu

**QEYD: E.ə 530-cu ildə** ***Araz çayı yaxınlığında döyüşdə*** II Kir, Tomrisin başçılığ etdiyi ***massaget*** tayfaları ilə döyüşdə məğlub edilərək öldürüldü. Ondan sonra hakimiyyətə onun oğlu II Kambis gəldi

### II Kambisin hakimiyyəti (e.ə 530-522)

II Kambisin hakimiyyəti dövrünə ***aiddir:***

- Cənubi Qafqazı Əhəmənilər imperiyasının tərkibinə qatdı
- **E.ə 525-ci ildə** ***Pelusiya döyüşü*** nəticəsində Misir dövlətini işğal edərək özünü firon elan etdi
- İmperiyanın ərazisi Hind okeanından Misirə və Qafqazdan İranadək genişləndirdi
- Misirə səfəri zamanı Əhəmənilər dövlətində dövlət çevrilişi baş verdi

II Kambis Misirdə olarkən **E.ə 522-ci ildə** ***Qaumata (əsil adı Bardi)*** adlı bir maq (kahin) özünü II Kirin oğlu kimi qələmə verərək dövlət çevrilişi etdi və Əhəməni taxt-tacını ələ keçirdi. Əhəməni taxt-tacını ələ keçirdikdən sonra Qaumata aşağıdakı iki mühüm siyasəti həyata çeçirməyə başladı:

1. **Xalq kütlələrinin ağır vəziyyətini yaxşılaşdırmaq**
2. **Əyanların hüquqlarını məhdudlaşdırmaq**

Qaumatanın yeddi aylıq hakimiyyəti dövründə:

- ***Bütün ölkədə onun hakimiyyəti qəbul edildi***
- ***Əhali üç il müddətində vergilərdən azad edildi***
- ***Ölkədə heç bir üsyan baş vermədi***

Lakin I Dara Qaumata üsyanını yatırtdı. Qaumataya isə suiqəsd təşkil edilərək öldürdülər.

### I Daranın hakimiyyəti (e.ə 522-486)

Qaumata üsyanını yatrdıqdan sonra I Dara İranda hakimiyyəti ələ aldı. I Daranın hakimiyyəti dövrünə ***aiddir:***

- Ölkəni möhkəmlətmək üçün aşağıdakı islahatları həyata keçirdi:

– ***Darik*** adlanan vahid pul sistemi yaratdı
– Güclü ***nizami ordu*** yaratdı
– İşğal edilmiş ölkələri ***20 satraplığa (canişinliyə)*** böldü, hər bir çanişinlik, o cümlədən Azərbaycan ***müəyyən vergi dairəsinə*** daxil edildi (Azərbaycan Əhəməni imperiyasının satraplığından biri oldu.)

- **E.ə 522-521**-ci illərdə imperiyada baş vermiş üsyanlar yatırtdı və dövlətin əvvəlki sərhədlərini bərpa etdi
- Hindistanın şimal-qərbini, Egey dənizi hövzəsini və Qara dənizin cənub sahillərini işğal etdi
- Əhəmənilər imperiyasını çox böyük ərazini əhatə edən güclü imperiyaya çevirdi
- İskit tayfaları üzərinə hücum edərək onları məğlun etdi
- Yunan-İran müharibələrində müvəffəqiyyətsizliyə uğradı

**QEYD:** Yunan-İran müharibələri (e.ə 500-e.ə 449) zamanı Azərbaycan Azərbaycan Əhəmənilərə vergi verir və onun ordusunu müharibə zamanı hərbi dəstələrlə təmin edirdi. Odur ki, Yunan-İran müharibələri zamanı Azərbaycan döyüşçüləri ***Əhəmənilər tərəfindən*** iştirak edirdilər.

### III Daranın hakimiyyəti (e.ə 339-330)

III Daranın hakimiyyəti dövründə Makedoniyalı İsgəndər Şərqə işğalçı yürüş edərək Əhəməni imperiyasına dağıdıcı zərbələr vurdu. Bu zaman ***III Dara güclü orduya malik olsa da, İsgəndərə ciddi müqavimət göstərə bilmədi***.

**E.ə 331-ci ildə *Qavqamela vuruşmasında*** III Dara İsgəndərə məğlub oldu və yeni qüvvə toplamaq ümidi ilə ölkənin Şərq hissəsinə qaçdı. **E.ə 330-cu ildə** III Dara qaçarkən yolda öz adamı Bes tərəfindən öldürüldükdən sonra Əhəmənilər imperiyası süqut etdi. Beləliklə. ***İsgəndərin Şərqə yürüşü nəticəsində*** Əhəmənilər imperiyası dağıldı. (M.İsgəndər Əhəməni imperiyasına son qoydu.) III Dara da Midiya hökmüdarı Astiaq kimi öz dövlətinin sonuncu hökmüdarı kimi tarixə düşdü. Bundan sonra İsgəndər Mərkəzi Asiyaya yürüş etdi. İsgəndərin hərbi yürüşü **Hindistanda** başa çatdı. Makedoniyalı İsgəndərin vaxtında onun imperiyasının torpaqları ***Balkan yarmadasından Hindistanadək*** uzanırdı. Azərbaycanın cənubu da İsgəndərin imperiyasının tərkibinə daxil idi.



## Xronologiya

| | |
|---|---|
| **e.ə IX əsr** | İlk dəfə Midiya adının Assuriya hökmdarı III Salmanasar tərəfindən işlədilməsi |
| **e.ə IX əsrin II yarısı** | Assuriyanın Midiyaya qarətçi yürüşlər edərək xırda hökmdarları özündən asılı vəziyyətə salması |
| **e.ə VIII əsrin II yarısı** | Assuriyanın Midiya ərazisinə yürüşlərinin çoxalması. II Sarqonun Midiyanı işğal etməsi |
| **e.ə VIII-VII əsrlər** | Qara dənizin sahillərində, Krım və Şimali Qafqazda kimmer, skif və sak tayflarının yaşaması |
| **e.ə VII əsrin əvvəlləri** | Kimmer, skif və sak tayflarının Ön Asiyaya yürüşlər edərək Azərbycan ərazilərində məskunlaşması |
| **e.ə VII əsrin ortaları** | Urmiya gömünün şimal-qərbində, Manna ilə Urartu dövlətləri arasında İskit padişahlığının yaranması |
| **e.ə VII əsrin I yarısı** | Deyok tərəfindən Midiya tayfalarının birləşdirilməsi |
| **e.ə 673-672** | Deyokun hakimiyyəti |
| **e.ə 672-653** | Midiya hökmdarı Kaştaritinin kakimiyyəti. |
| **e.ə VI əsrin 50-ci illəri** | Kaştaritinin Assuriyaya qarşı yürüşlər təşkil etməsi |
| **e.ə 653-625** | Midiyada 28 illik iskit ağalığı dövrü |
| **e.ə 625-585** | Midiya hökmdarı Kiaskarin kakimiyyəti |
| **e.ə 616-612** | Midiya və Babilistanın Assuriyanın – Aşşur, Arbela, Kalat və Nineviya şəhərlərini tutması |
| **e.ə 605** | Assuriya dövlətinin süqut etməsi və torpaqlarının Midiya ilə Babilistan arasında bölüşdürülməsi |
| **e.ə VI əsrin əvvəlləri** | Manna dövləti və İskit padişahlığının süqut etməsi |
| **e.ə 590-585** | Kiaskarın Lidiya çarlığı ilə müharibə etməsi |
| **e.ə 585-550** | Midiya hökmdarı Astiaqın hakimiyyəti |
| **e.ə 550** | Astiqala fars hakimi II Kir arasında müharibə baş verməsi |
| **e.ə 550** | II Kir tərəfindən Əhəmənilər dövlətinin əsasının qoyulması |
| **e.ə 550-330** | Əhəmənilər dövlətinin mövcud olması |
| **e.ə 550-530** | II Kirin hakimiyyəti |
| **e.ə 547** | II Kirin Lidiya çarlığını işğal etməsi |
| **e.ə 539** | II Kirin Babilistan dövlətini işğal etməsi |
| **e.ə 530** | Araz çayı yaxınlığında döyüş. II Kirin massaget çarı Tomris tərəfindən döyüşdə öldürülməsi |
| **e.ə 522** | Qaumata üsyanı. Qaumatanın əhəməni taxt-tacını ələ keçirməsi |
| **e.ə 522-486** | I Daranın hakimiyyəti |
| **e.ə 331** | Qavqamela döyüşü. Makedoniyalı İsgəndərin III Daranı məğlub etməsi |
| **e.ə 330** | III Daranın öz adamı Bess tərəfindən öldürülməsi. Əhəmənilər dövlətinin süqut etməsi və ərzailərinin Makedoniyalı İsgəndər tərəfindən tutulması |

# IV BÖLMƏ

# ATROPATENA VƏ ALBANİYA DÖVLƏTİ

## Atropatena dövləti

### Atropatena dövlətinin yaranması

**E.ə 323-cü ildə** ***Makedoniyalı İsgəndərin ölümündən sonra*** onun yaratdığı imperiya ayrı ayrı dövlətlərə parçalandı, Azərbaycanın ***cənubunda*** **Atropatena dövləti**, ***şimalında*** isə **Albaniya dövləti** yarandı. Atropatenanın ilk hökmdarı **Atropat** olmuş və dövlət onun adıyla adlandırılmışdı.

**E.ə 328-ci ildə** Makedoniyalı İsgəndər Atropatı **Midiyanın satraptı (canişini)** təyin etmişdi. Atropat İsgəndərə qarşı baş vermiş Barikas üsyanını yatırmış, öz qızının İsgəndərin nüfuzlu sərkərdəsi Perdikkiyə ərə verərək mövqeyini daha da gücləndirmişdi. İsgəndərin ölümündən sonra ***onun imperiyasını müvəqqəti idarə etmək üçün*** **Perdikkiyə** tapşırılmışdı. Perdikki ilə qohunluq Atropatın mövqeyini daha da möhkəmləndirdi və o, Midiya satraptı vəzifəsində qaldı. **E.ə 321-ci ildə** ***Perdikkinin ölümündən sonra*** Atropatena müstəqil dövlətə çevrildi. **E.ə IV əsrin 20-ci illərində** Artopat yeni müstəqil dövlətin hökmdarı oldu.

Atropatena ***quldar dövlət*** idi. Dövləri qeyri məhdud hakimiyyətə malik ***padşah*** idarə edirdi. Padşah həmdə ***ordunun baş komandanı*** idi. Atropatenada cəmiyyətin yuxarı təbəqəsini ***nəsli zadəganlar, varlı quldarlar*** və ***dövlət məmurları*** təşkil edirdi.

**Atropatın Makedoniyalı İsgəndərin rəğbətini qazanmasına kömək etmiş amillər**

- İranda Makedoniyalılara qarşı baş vermiş Barikasın üsyanını yatırması
- Öz qızını İsgəndərin nüfuzlu sərkərdəsi Perdikkiyə ərə verməsi

### Atropatenanın ərazisi

Atropatenanın ərazisini əsasən indiki ***Cənubi Azərbaycan*** və ***Azərbaycan Respublikasının bəzi cənub rayonlarını*** əhatə etmişdir. Atropaenanın mərkəzi ***Qazaka*** şəhəri idi. Atropatenanın coğrafi şəraiti aşağıdakı kimi idi:

- *Ölkənin qərbində Zaqros dağ silsiləsi uzanırdı*
- *Ən böyük düzənlik ərazisi Urmiya gölündən cənubda idi*
- *Şimalda Qaradağ silsiləsi yerləşirdi*
- *Dağların çoxu sıx meşələrlə örtülmüşdü*

Qədim qaynaqlarda Azərbaycanın ilkin adı onun cənubu ilə bağlı olan **Atropatena, Aturpatakan, Artabazan, Adirbacan** və.s kimi işlənmişdi. ***Azərbaycan coğrafi adının yaranması Atropatena ilə bağlayırlar.*** Azərbaycan adının ilkin forması – **Azərbayqan** kimi işlənmişdi. Bu torpağın Atropatena adlanması – Midiya satraptı (canişini) ***Atropatın adı ilə*** bağlı olmuşdur. Yalnız **VII əsrdə** ***ərəb mənbələrində*** bu ərazi **Azərbaycan** adlandırılmağa başlanmışdı. Bu zaman Azərbaycan adı ***onun həm şimalına, həm də cənubuna*** aid edilirdi. Hər bir xalq müəyyən tarixi ərazidə yaranmışdı. Azərbaycan qədim əhalisinin məskunlaşdığı ərazi – ***şimalda***

**Dərbənddən,** ***cənubda*** **Zəncan və Qəzvin bölgəsi daxil olmaqla,** ***şərqdə*** **Xəzər dənizinə qədər,** ***qərbdə*** **Tiflis, İrəvan və Urmiya gölünün qərb sahilini** əhatə edirdi.

### Atropatenanın əhalisi

Atropatenanın əhalisi müxtəlif tayfalardan ibarət olmuşdu. Antik dövr müəlliflərinə görə **e.ə IV-I əsrlərdə** Atropatenada ***kaspi, kadusi, müq, azəri*** və.b tayfalar yaşamışdılar. ***Kaspi*** və ***müq tayfaları*** həm **Cənubi Azərbaycanda** - Atropatenada, həm də **Şimali Azərbaycanda** - Albaniyada yaşamışdılar. ***Kadusilər*** döyüşə ***20 min piyada və 8 min atdan ibarət hərbi qüvvə*** çıxara bilirdilər. ***Ərəbdilli qaynaqlar*** Atropatena əhalisinin bir hissəsinin ***azərilər*** olduğunu qeyd edir. Yerli əhaliyə qohum olan etnoslar (kimmer, iskit, sak, hun və səlcuqlar) buraya sonralar gəlmişdilər. Atropatenada yaşayan ***maq*** tayfaları isə ***Midiya tayfaları*** hesab olunur. Onlar Midiya tayfaları arasında xüsusi yet tutmuşdu. Atropatenada maqlar ***ataşpərəstlik dini ayinlərinin əsas icraçısı*** kimi böyük nüfuza malik idilər. Ataşpərəstlik dininin kahini də **maq** adlanırdı. Atropadena dövlətində əhalinin sayının artmasına ***ərazisinin təbii zənginliyi*** və ***münbit torpaqların bolluğu*** şərait yaratmışdı:

**E.ə IV əsrdə** ***Atropatena və Albaniya dövlətlərinin meydana gəlməsindən sonra Azərbaycanda vahid xalqın yaranması prosesi başladı***. ***Ərəblər dövründə isə Azərbaycan ərazisinin vahid dövlətdə birləşdirilməsi vahid xalqın formalaşması prosesi*** s***ürətləndirdi***. **XI əsrdə** ***Səlcuqların yürüşü nəticəsində isə vahid Azərbaycan xalqının formalaşması prosesi başa çatdı.***




### Atropatenanın Seleviklər dövlətindən asılı vəziyyətə düşməsi (e.ə 223-190)

Makedoniyalı İsgəndərin imperiyası dağıldıqdan sonra onun imperiyası **Misir, Makedoniya** və **Seleviklər (Suriya)** dövlətinə parçalandı. **Seleviklər dövləti** qısa zamanda ***Mesopotamiya, İran, Mərkəzi Asiya*** və ***Qafqazı*** özünə birləşdirməyə başladı. Seleviklər dövlətində hakimiyyətə **III Antiox** gəldikdən sonra **e.ə 223-cü ildə** Atropatenaya hücum etdi. III Antioxun Atropatenaya hücumu ***nəticəsində:***

- ***Atropatena hökmdarı Artabazan məğlub oldu***
- ***Atropatena Seleviklərdən asılı vəziyyətə düşdü***

Atropatenanın Seleviklər dövlətindən asılılığı cəmi **33 il** çəkdi. Belə ki, Aralıq dənizi hövzəsində qüdrətli dövlətə çevrilən Roma dövləti **e.ə 190-cı ildə** ***Maqneziya döyüşündə*** Selevik hökmüdarı III Antioxu məğlub etdi. Maqneziya döyüşü ***nəticəsində:***

- Seleviklər dövləti məğlub oldu və parçalanması gücləndi
- Atropatena dövləti yenidən müstəqil oldu

### Atropatenanın Parfiya dövləti ilə münasibətləri

Seleviklər dövlətinin parçalanması nəticəsində Mərkəzi Asiyada **Parfiya dövləti** (e.ə 247 – e. 224-cü illərdə mövcud olmuşdur) yarandı. **E.ə II əsrin ikinci yarısında** Parfiya dövləti Roma dövləti ilə ***Ön Asiyada ağalıq uğrunda*** mübarizə aparırdılar. Bu zaman Selevkilər dövləti zəifləyərək bir neçə xırda dövlətlərə parçalanmışdı. Parfiya və Atropatena dövlətləri ***Romanı özlərinin müstəqilliyi üçün təhlükə*** hesab edirdilər. ***Romaya qarşı mübarizə*** Parfiya və Atropatena dövlətlərini bir biri ilə yaxınlaşdırırdı.

**E.ə I əsrin ortalarında** Parfiya dövləti ***Şərqdə Romanın ən güclü rəqibi*** idi. **E.ə 53-cü ildə** Parfiya romalıları məğlubiyyətə uğratdı. Bu zaman Atropatena dövləti Parfiyanı müdafiə edirdi.

**E.ə 38-ci ildə** rolalılar parfiyalıları ağır məğlubiyyətə uğratdı və Roma sərkərdəsi Antoni Atropatenaya yürüş etdi. Bu hadisədən sonra ***Parfiyanın Atropatenanı bütövlükdə özünə tabe etməyə çalışması*** Atropatena ilə Parfiya arasında münasibətləri pisləşdirdi. Bu zaman Atropatena ***müstəqilliyini saxlamaq məqsədi ilə*** Roma ilə dostluq münasibətləri yaratmağa səy göstərdi. Bütün səylərə baxmayaraq Atropatena müstəqilliyini qoruyub saxlaya bilmədi. Belə ki, **eramızın 20-ci ilində** Atropatenanın sonuncu hökmdarı **Ariovastın** ölümündən sonra Atropatena ***Parfiyanın – Arşakilər sülaləsinin*** hakimiyyəti altına düşdü və ***Parfiya dövlətinin süqutuna qədər (20-ci ildən 224-cü ilədək)*** Parfiya dövlətin tərkibində qaldı.




### Atropatenanın Roma ilə münasibətləri

**E.ə I əsrin birinci yarısında** Romanın işğalçılıq siyasəti gücləndi, sərkərdə **Lukkul** və **Pompeyin** başçılığı ilə romalılar Şərqə hərbi yürüş etdilər. Lukkul və Pompeyin Şərqə hərbi yürüşü ***nəticəsində:***

- ***Qafqaz və bir sıra qonşu ölkələr Romadan asılı vəziyyətə düşdü***
- ***Atrpoatena Romadan asılı vəziyyətə düşsə də ondan tam asılı olmadı və müstəqilliyini qoruyub saxladı***

**E.ə I əsrin birinci yarısında *ölkənin yerli hökmdarlar vasitəsi ilə idarə olunması*** Atropatenanın öz müstəqilliyini saxladığını göstərir. **E.ə I əsrin ikinci yarısında** Roma sərkərdəsi **Antoninin** başçılığı ilə romalılar regiona yeni yürüşə başladılar.

**E.ə 38-ci ildə** romalılar parfiyalıları məğlubiyyətə uğratdıqdan sonra Antoni Atropatenanın mərkəzi şəhərlərindən biri olan **Fraaspaya** hücum etdi. **E.ə 38-ci ildə** Antoninin Fraaspa şəhərinə yürüşü ***nəticəsində:***

- Şəhər yaxşı müdafiə olunduğundan romalıların uzun sürən mühasirəsi bir nəticə vermədi
- Romalılar Fraaspa şəhərini tuta bilməyərək geri çəkildi
- Antoni geri çəkilərkən 35 minə yaxın əsgərini itirdi
- Atropatenalılar böyük qənimət ələ keçirdilər

Atropatena Roma ilə dostluq münasibətləri də yaratmağa çalışmışdı. Məsələn, **E.ə 20-ci ildə** Atropatenada hakimiyyətə gəlmiş **II Ariobarzan** 10 ilə qədər Rada yaşamışdı. Bu zaman Romada Oktavian Avqust hakimiyyətdə idi.

Atropatena Selevik, Roma və Parfiyanın yürüşündən başqa ***alan tayfalarının*** dağıdıcı yürüşlərinə da məruz qalmışdı. Belə yürüşlərdən biri **72-74-cü illərdə** olmuşdu. Bu yürüş nəticəsində alanlar Atropatenanın bir-sıra ərazilərini qarət etmiş, Atropatena padşahı **Pakor** öz ölkəsini başsız qoyaraq təhlükəsiz yerə qaçmış, ailəsi isə alanlara əsir düşmüşdü. Sonra, o, çoxlu pul verərək, ailə üzvlərini geri almışdı.

**Atropatena hökmdarları**

| Atropat | Artabazan | II Ariobarzan | Pakor | Ariovastın |
|---|---|---|---|---|
| • e.ə 328-ci ildə İsgəndər tərəfindən Midiya canişini təyin edilmişdir<br>• Barikas üsyanını yatıraraq İsgəndərin rəğbətini qazanmışdır<br>• Perdikki ilə qohumluq əlaqəsi yaratmışdı | • Seleviklər dövlətinin hökmdarı III Antiox Atropatenaya hücum etmişdi<br>• Atropatena Seleviklər dövlətindən asılı vəziyyətə düşmüşdü | • E.ə 20-ci ildə hakimiyyətə gəlmişdi<br>• 10 il Romada yaşamışdır<br>• Romanın köməyi ilə bir müddət Ermənistanı özündən asılı vəziyyətə salmış, oranın hökmdarı olmuşdur | • Atropatena alan tayfalarının dağıdıcı yürüşlərinə məruz qalmışdı<br>• Atropatenanın bir-sıra ərazilərini alanlar qarət etmişdi<br>• Ailəsi alanlara əsir düşmüşdü | • Sonuncu Atropatena hökmdarı idi<br>• Roma ilə dostluq münasibətləri yaratmağa səy göstərmişdi<br>• Atropatenanın müstəqilliyini qoruyub saxlaya bilməmişdi |

**Atropatenanın təsərrüfat həyatı**

Artopatenanın təsərrüfat həyatına ***aiddir:***

- Əhali müxtəlif təsərrüfat sahələri ilə məşğul olurdu
- Çay vadilərində, Urmiya gölü ətrafında ***əkinçilik, bağçılıq*** və ***üzümçülük*** inkişaf etmişdi
- Əkinçilikdə ***buğda*** və ***arpa*** üstünlük təşkil edirdi
- Dağlıq ərazilərdə ***maldarlıq*** inkişaf etmişdi
- Zəngin faydalı qazıntı yataqlarının olması sənətkarlığın yerli xammal əsasında inkişafına şərait yaratmışdı
- Ölkədə zəngin ***neft yataqları*** var idi
- Nefti ***"Midiya yağı"*** adlandırırdılar (neftdən ***hərbi işdə*** istifadə olunurdu)

- Sənətkarlar yüksək keyfiyyətli metal və gil qablar, müxtəlif silahlar, toxuculuq məhsulları istehsal edirdilər
- Ərazisindən tapılmış pullar ***ticarətdə puldan istifadə edildiyini*** göstərir
- Atropatena ərazisindən tapılmış ən qədim pullar ***İsgəndərin adından*** kəsilmişdir
- Təsərrüfatda ***qul əməyindən*** istifadə olunurdu

## Atropatenada qul əməyindən istifadə olunması

Atropatenada təsərrüfatda ***qul əməyindən*** istifadə edilsə də, istehsalın bütün sahələrində qul əməyindən istifadə olunmamışdır. Atropatenalılar qul əməyindən əsasən aşağıdakı sahələrdə istifadə olunurdu:

- ***Filiz mədənlərində***
- ***Kənd təsərrüfatı işlərində***
- ***Sənətkarlıq emalatxanalarında***

Atropatenada daha çox ***azad adamların*** əməyindən istifadə olunurdu. Atropatenada azad adamlar ***dövlətin idarə işlərində, kənd təsərrüfatında*** və ***ticarət sahələrində*** işləyirdilər. **Eranın II-III əsrlərində** Atropatenada qullara nataman azadlıq verilir, onlar istehsal etdikləri məhsulun müəyyən hissəsini özlərinə götürürdülər. Bunun əsas səbəbləri əsasən aşağıdakılar idi:

- ***Quldarlıq quruluşu böhran keçirməsi***
- ***Qul əməyi özünü doğrultmaması***
- ***Qul əməyinin cəmiyyətin inkişafına mane olması***

## Atropatena mədəniyyəti

Qədim Azərbaycanın (Atropatena və Albaniyanın) tarixi və mədəniyyəti iki əsas mənbə əsasında öyrənilmişdir:

1) **Arxeoloji mənbələr**
2) **Antik müəlliflərin yazılı mənbələri**

Antik müəlliflərin (Yunan və Roma müəllifləri olan Strabon, Plutarx, Ptolomey və.b) əsərlərində Atropatenanın tarixi, mədəniyyəti, şəhərləri haqqında bir çox dəyərli məlumatlar verilmişdir.

Albabiyanın paytaxtı **Qazaka şəhəri** arxeoloji cəhətdən daha yaxşı öyrənilmişdir. Qazakadan aşkar edilmiş memarlıq abidələri, məbədlər, şəhərsalma mədəniyyəti, dini-ideoloji görüşlər haqqında təsəvvürlər yaratmışdır.

Atropatenanın özünəməxsus ***şəhərsalma mədəniyyəti*** olmuşdu. Artopatena şəhərlərinin səciyyəvi xüsusiyyətləri bunlardı:

- Şəhərlər ***karvan yolları üzərində*** və ***böyük məbədlərin ətrafında*** yaranırdı
- ***Qazaka, Fraaspa, Fanaaspa, Aqnazana*** adlı şəhərləri var idi
- Bəzil şəhərlər ***hökmdarlar*** tərəfindən salınırdı
- Şəhərlərdə müdafiə qalaları və ictimai binalar var idi
- Şəhərlərin ərazisi böyük və əhalisi çox idi
- Şəhər əhalisi əsasın ***sənətkarlıq*** və ***ticarətıi***, qismən ***əkinçilik*** və ***maldarlıqla*** məşğul olurdu

Atropatenada memarlıq da inkişaf etmişdir. Atropatena memarlığına ***aiddir:***

- Qonşu ölkələrin memarlığı ilə yaxşı tanış olan memarları möhtəşəm binalar inşa etmişdilər
- Memarlar tikinti materialı kimi daşdan, çiy və bişmiş kərpicdən, ağacdan istifadə etdirdilər
- Möhkəm ***ağac sütunlardan*** ictimai binaların tikintisində daha geniş istigadə olunurdu
- Binaların üstü yastı və iri tağ şəklində olurdu
- Dam örtüyündə ***ağac materiallardan*** və üstü saxsı ***kirəmitlərdən*** istifadə edilirdi




## Yunan mədəniyyətinin Atropatena mədəiyyətinə təsiri. Kerifto abidəsi

Makedoniyalı İsgəndərin yürüşü nəticəsində **Ellin mədəniyyəti** yaranmış, Yaxın və Otra Şərq ölkələrində yunan mədəniyyəti yerli xalqlarla yanaşı Atropatena mədəiyyətinə də təsir etmişdir. Yunan mədəniyyətinin Atropatena mədəiyyətinə təsiri ***memarlıqda, əhalinin məişətində*** və ***dini görüşlərində*** özünü göstərir. Atropatenada yerləşən möhrəşəm **Kerifto abidəsi** Yunan mədəniyyətinin Atropatena mədəiyyətinə təsiri daha aydın sübut edir. Kerifto abidəsi:

- Qayada oyulmuş memarlıq abidəsi olub, yunan əsatirinin qəhrəmanı **Herakla** məxsus məbəddir.
- Abidənin giriş hissəsinin üstündə ***yunan dilində*** yazı həkk olunmuşdur.

**Yunan mədəniyyətinin təsir göstərdiyi Atropatena mədəniyyəti sahələri**




## Atropatenada din

Atropatena əhalisi ***təkallahlılıq*** dini olan **Zərdüştlük dininə** sitayiş edirdilər. Zərdüştlükdə oda sitayiş olunduğundan bu dinə ***atəşpərəstlik*** də deyilir. Həmin din **Zərdüştün** adı ilə bağlıdır. Onun **e.ə VII əsrin ikinci yarısı – VI əsrin əvvəllərində** yaşadığı güman olunur. Zərdüşt dininə Atropatenadan başqa **İran** və **Orta Asiyada da** sitayiş olunurdu.

Zərdüştlüyün müqəddəs kitabı ***"Avesta"***dır. Rəvayətə görə "Avesta"nın ilkin variantı **e.ə 330-cu ildə** Makedoniyalı İsgəndər Əhəmənilərin Persopol sarayını yandırarkən məhv olmuşdu. Avestanın dövrümüzə gəlib çatmış hissələri **Sasanilər dövründə** (**III-VII əsrlərdə**) yenidən toplanmışdı. Avropanı ilk dəfə "Avesta" kitabı ilə **1771-ci ildə fransız alimi Anketil Düperron** tanış etmişdi. Həmin ildə o, bu kitabı fransız dilində çap etdirmişdi.

Atəşpərəstlik dininə görə ***od, su*** və ***torpaq*** müqəddəs sayılırdı. Zərdüştlüyün ən başlıca məbədlərindən biri Atropatenanın paytaxtı **Qazaka şəhərində** yerləşirdi. Sasani şahlarının tacqoyma mərasimi Novruz bayramı günündə Qazaka məbədində keçrilirdi. Qazaka məbədi ***islam dini yayılana qədər*** öz əhəmiyyətini saxlamışdı. İslam dini yayıldıqdan sonra bu din zərdüştlük dinini sıxışdırılmışdı. Hazırda bu dinə inananların **İran** və **Hindistanda** ***dini icmaları*** vardır.




## Xronologiya

| | |
|---|---|
| **e.ə VII-VI əsrlər** | Zərdüştlük dininin yaranması |
| **e.ə 330** | Makedoniyalı İsgəndər tərəfindən "Avestanın" ilkin variantının məhv edilməsi |
| **e.ə 328** | Makedoniyalı İsgəndərin Atropatı Midiya satraptı təyin etməsi |
| **e.ə IV əsr** | Azərbaycanın cənubunda Atropatena dövlətinin yaranması |
| **e.ə 321** | Perdikkinin ölümündən sonra Atropat Midiyasının müstəqil dövlətə çevrilməsi |
| **e.ə IV əsr** | Azərbaycanda vahid xalqın yaranması prosesinin başlanması |
| **e.ə 223** | Selevik hökmdarı III Antioxun Atropatenaya hücumu |
| **e.ə 223-190** | Artopatenanın Seleviklər dövlətindən asılı vəziyyətdə qalması |
| **e.ə 190** | Maqneziya döyüşü. Romalıların III Antioxu məğlubiyyətə uğratması |
| **e.ə I əsrin I yarısı** | Roma sərkərdəsi Lukkul və Pompeyin Şərqə yürüşü |
| **e.ə 53** | Parfiyalıların romalıları məğlubiyyətə uğratması |
| **e.ə I əsrin II yarısı** | Roma sərkərdəsi Antoninin başçılığı ilə romalıların Şərqə yürüşü |
| **e.ə 38** | Romalıların parfiyalıları məğlubiyyətə uğratması |
| **e.ə 38** | Antoninin Atropatenanın Fraaspa şəhərinə hücum etməsi. Fraaspa döyüşünün baş verməsi |
| **e.ə 20** | Atropatenada hakimiyyətə gələn II Ariobarzanın on ilə qədər Romada yaşaması |
| **20** | Atropatenanın Parfiyanın Arşakilər sülaləsinin hakimiyyəti altına düşməsi |
| **20-224** | Artopatenanın Parfiyanın (Arşakilər sülaləsinin) hakimiyyəti altında qalması |
| **227** | Atropatena torpaqlarının sasanilərin hakimiyyəti altına düşməsi |
| **II-III əsrlər** | Atropatenada quldarlıq quruluşunun böhran keçirməsi |
| **III-VII əsrlər** | Sasanilər dövründə "Avesta"nın yenidən toplanaraq yazıya alınması |
| **1771** | Anketil Düperronun ilk dəfə avropalıları "Avesta" ilə tanış etməsi |

# Albaniya dövləti

## Albaniya dövlətinin yaranması

Azərbaycanın cənub bölgəsinə nisbətən şimalında dövlət qurumu bir qədər gec yaranmışdı. Belə ki, **e.ə III minillikdə** Azərbaycanın cənubunda dövlət qurumları yarandığı halda, şimalında **e.ə IV əsrdə** yaranmışdı. Makedoniyalı İsgəndərin Şərqə yürüşü zamanı **e.ə 330-cu ildə** Əhəmənilər imperiyasının dağılması nəticəsində müstəqil Albaniya dövləti (**e.ə IV əsrin sonu – III əsrin əvvəllərində)** yarandı. Albaniya dövlətinin ərazisinə aşağıdakı torpaqlar daxil idi:

- ***İndiki müstəqil Azərbaycan Respublikasının ərazisi***
- ***Gürcüstanın Alazan vadisi və Dağıstanın cənub rayonları***
- ***Qərbi Azərbaycan (indiki Ermənistan) torpaqları***
- ***İberiya (Gürcüstan) ilə Xəzər dənizi arasındakı torpaqlar***

Albaniyanın sərhədləri müxtəlif vaxtlarda dəyişilmişdir. Albaniya ***Şimalda*** **Qafqaz dağları,** ***cənubda*** **Atropatena,** ***cənub-qərbdə*** **Ön Asiya,** ***şərqdə*** **Xəzər dənizi** ilə həmsərhədd idi.

Albaniyanın ərazisi və sərhədləri haqqında ***antik müəlliflərin əsərlərində*** bir çox məlumatlar verilmişdi. Onlardan yunan tarixçisi ***Strabon*** Kür çayının Albaniya ərazisi ilə axaraq dənizə töküldüyünü və Kaspiana vilayətinin Albaniyanın tərkibinə daxil olduğunu qeyd edir. **Kaspiana vilayəti** Kür çayının aşağı axarında, dəniz sahilinə qədər olan ərazidə yerləşirdi.

Albaniyanın ilk paytaxtı **Qəbələ (Kabala)** sonra isə **Bərdə** şəhəri olmuşdu. Albaniyanın yaşayış məntəqələrinin sayı **İberiya** və **Atropatenadakı** yaşayış məntəqələrinin ümumi miqdarından çox olmuşdur.

## Albaniya tayfaları

Hələ alban tayfaları Azərbaycan ***Əhəmənilər imperiyasının tərkibində olarkən vahid bir ad altında*** birləşmişdilər. Qaynaqlara görə albanlar ***26 dildə*** danışan tayfalardan ibarət olmuşdu. Alban tayfalarının ən böyüyü ***alban*** adı daşımışdı. Hətta Xəzər dənizinin qədim adlarından biri də **Alban dənizi** olmuşdur. Mənbələrdə Albaniya ərazisində, ***kaspi, kadusi, leq, amard, uti*** və ***qarqarların*** adı çəkilir. Onlar ***Türkdilli***, ***Qafqazdilli*** və ***İrandilli*** tayfalar idi. Qədim alban tayfalarının soykökü əsasən ***türk mənşəli*** olmuşdu. Mənbələr bu tayfalar içərisində ***kaspi tayfaları*** haqqında daha geniş məlumat vermişdi. Yunan tarixçisi **Heredot** ***"Tarix" əsərində*** Əhəmənilər imperiyasına daxil olan xalqlardan bəhs edərkən Azərbaycanın şimalında yaşayan kaspi tayfalarının adını çəkir. O, kaspi tayfaları adı altında albanları nəzərdə tuturdu. Kaspilər **e.ə V əsrin əvvəllərində** İran şahı **I Dara** və **Kserksin** Yunanıstana hərbi yürüşlərində iştirak etmişdilər. **E.ə 331-ci ildə** Qavqamela döyüşündə də albanlar İran şahı **III Daranın** ordusunun tərkibində **Makedoniyalı İsgəndərə qarşı** vuruşmuşlar. Bu gün Qafqazdilli tayfaların nəslindən olan ***udilər*** – **Qəbələ rayonunun Nic kəndində**, ***xınalıqlar*** – **Quba rayonunun Xınalıq kəndində**, ***buduqlar*** – **Quba rayonunun Buduq kəndində** yaşamaqdadılar.

**Alban tayfaları**

| *Türkdilli tayfalar* | *Qafqazdilli tayfalar* | *İrandilli tayfalar* |
|---|---|---|
| 1. Kaspilər<br>2. Kadusilər<br>3. Qarqarlar<br>4. Amardlar | 1. Udilər<br>2. Xınalıqlar<br>3. Buduqlar<br>4. Leqlər | 1. Tatlar<br>2. Ləzgilər |

**Bu gün öz varlıqlarını qoruyub saxlayan Qafqazdilli tayfalar**

- **Udilər** Qəbələnin Nic kəndində yaşayırlar
- **Xınalıqlar** Qubanın Xınalıq kəndində yaşayırlar
- **Buduqlar** Qubanın Buduq kəndində yaşayırlar

### Albaniyanın Roma dövləti ilə münasibətləri. Pompeyin Albaniyaya yürüşü (e.ə 66-65)

**E.ə II əsrdə** Romanın ***Aralıq dənizi hövzəsində*** güclü dövlətə çevrilməsi və Şərqə doğru hərəkət etməsi Qafqaz, o cümlədən Albaniynın müstəqilliyi üçün təhlükə yaratmışdı. **E.ə I əsrin ikinci yarısında** Roma sərkərdəsi **Pompey** İberiya və Albaniyaya hücuma başladı. Roma sərkərdəsi Pompeyin Albaniya və İberiyaya hücum etməkdə aşağıdakıl ***məqsədləri*** idi:

1. **Xəzər dənizinin sahillərini tutmaq**
2. **Hindistanla Qara dəniz sahillərinə gedən ticarət yolunu ələ keçirmək**

Pompey Albaniya və İberiyaya hücum edərkən həmin dövlətlərin hökmdarları ***onu öz ərazilərinə buraxmadılar.*** Soyuqlar düşəndən sonra, Pompey ***Kür vadisində*** qışlamağı qərara aldı. Bu zaman alban padşahı **Oroys** Roma düşərgəsinə hücum etməyi qərara gəldi. Bu döyüşdə albanların ***40 minlik qoşunu*** var idi. Beləliklə, **E.ə 66-cı ildə** ***Kür şayı sahilində*** Pompey ilə Oroys arasında döyüş baş verdi. Döyüş nəticəsində ***Roma ordusu qalib gəldi***. Kür sahilində Roma ordusunun qalib gəlməsinin səbəbi ***daha güclü*** və ***təcrübəli*** olması idi.

Döyüşdən sonra Pompey Albaniya ilə sülh bağlayaraq **İberiyaya** doğru hərəkət etdi. Lakin albanların romalıları izləyərək onlar üçün təhlükə yaratdığına görə Pompey yenidən onlara qarşı yürüşə başladılar. Bu zaman albanlar romalıları Qanıx çayı sahilində qarşıladılar. Albanların ***60 min piyada, 12 min süvari*** qoşununa Oroysun qardaşı **Kozis** başçılıq edirdi. Albanlar romalıların qarşısını kəsib onları ölkənin içərilərinə buraxmaq istəmirdilər. **E.ə 65-ci ildə** ***Qanıx (Alazan) çayı sahilində*** baş vermiş döyüşdə Kozis Pompeyi nizə ilə vursada zireh onu ölümdən xilas etdi, Kozis isə onun cavab zərbəsi ilə ölümcül yaralandı. Qanıx döyüşü nəticəsində romalılar yenə də qalib gəldilər. Pompeyin Qanıx çayı sahili döyüşündə albanlar üzərində qələbə çalmasının əsas səbəbi isə ***hərbi hiylə işlətməsi*** olmuşdu. Qanıx döyüşündən sonra meşəyə çəkilən albanların taleyi faciəli oldu. Beləki, romalılar ***meşəyə od vuraraq*** onları yandırdılar. Oradakı alban döyüşçüləri isə həlak oldular. Qanıx döyüşündə ***albanların qoşununun əsasını süvari dəstəsi, romalıların qoşununun isə*** piyada qoşun təşkil etmişdi. Bu döyüşdə romalılara qarşı ***alban qadınları*** da vuruşmuşlar. Hətta, döyüşdə ***alban qadınlarının cəsrəti*** romalıları heyrətə gətirmişdi.

Döyüşdən sonra albanların əsas qüvvələri dağlara çəkildi. Pompey isə Alban padşahı Oroysu romalıların düşərgəsinə gəlməyi tələb etdi. Oroys isə romalıların düşərgəsinə gəlməyərək, ona məktub və hədiyyələr göndərərək sülh təklifi etdi. Pompey bu barışıq təklifini qəbul etsə də az sonra ölkənin içərilərinə doğru hərəkət etdi. Lakin Pompey Xəzər sahilinə qədər getmək məqsədindən əl çəkdi və albanlarla yenidən sülh bağladı. Pompeyin Xəzər sahilinə qədər getmək məqsədindən əl çəkməsinin və albanlarla yenidən sülh bağlamasının səbəbi aşağıdakı amillərlə bağlı idi:

- ***Albanların güclü müqavimət göstərməsi***
- Y***olun çətinliyi və yürüşün təhlükəli olması***

Pompeyin ***Şərqə hərbi nəticəsində*** **Qafqaz** və **bir sıra qonşu ölkələr** Romadan asılı vəziyyətə düşdü.

**QEYD:** Pompeyin Albaniyaya yürüşü barədə Antik müəlliflərdən ***Plutarx*** və ***Appian*** geniş məlumat vermişdi.

### Antoninin sərkərdəsi Kanidinin Albaniyaya yürüşü (e.ə 36-cı il)

**E.ə 36-cı ildə** romalılar Antoninin başçılığı ilə Şərqə böyük yürüş təşkil etdilər. Bu yürüşdə ümumi sayı yüz min nəfər olan 13 legion iştirak edirdi. Lakin Antoni Parfiyanın təzyiqi altında geri çəkilərək Misirə getdi, sərkərdəsi **Kanidini *İberiya*** və ***Albaniyanı itaətə gətirmək üçün*** Azərbaycanın cənub-qərb torpaqlarında saxladı. Plutarx yazır ki, ***"Kanidi... iber və alban hökmdarlarına qalib gəldi və Qafqaza çatdı"***. Beləliklə, Kanidinin yürüşü nəticəsində **İberiya** və **Albaniya** romalılardan asılılığı qəbul etdilər.

### Eramızın ilk əsrlərində Albaniya-Roma münasibətləri

Eramızın **I əsrində** Albaniyada hakimiyyət artıq ***Aranilər sülaləsindən*** olan yerli hökmdarların əlində idi. Bu dövrdə Albaniya hökmdarları:

- **Roma imperiyası ilə diplomatik əlaqələr saxlayirdılar.**
- **Xarici siyasətdə Romaya meyl edirdilər.**

**I əsrdə Oktavian Avqustun** adına tərtib edilmiş kitabə - Albaniyanın Roma ilə ***diplomatik əlaqələr saxladığını*** sübut edir. Oktavian Avqustun adından tərtib edilmiş kitabədə yazılmışdır: ***"Bizim dostluğumuzu alban, iber və med (Atropatena) hökmdarları istəyirdilər"***.

**Eramızın 68-ci ilində** Roma imperatoru **Neron** Albaniyaya böyük yürüşə hazırlaşırdı. Neronun Albaniyaya nəzərdə tutulan bu yürüşü ***Dərbənd keçidinə qədər*** olmalı idi. Lakin Romada üsyan zamanı Neronun öldürülməsi səbəbi ilə yürüş baş tutmadı. Bir müddət sonra imperator **Domisianın (81-96)** Roma hərbi dəstəsi – legionu təxminən **84-96-cı illərdə** Xəzər sahillərinə, indiki Abşeron yarımadasına gəlib çatmışdı. Bunu ***Qobustanda üzərində latın dilində yazı olan daş kitabə*** də sübut edir. Burada yazılmışdır: ***"İmperator Domisian Sezar Avqust Germanik. Lyusi Yuli Maksim, ildırımsaçan XII legionunun senturionu".*** Buradan aydın olur ki, **Qobustan kitabəsi** kiçik hərbi dəstə tərəfindən müşayiət olunan Roma nümayəndəliyinin Albaniya ərazisinə səfəri ilə bağlı yaranmışdı.

İmperator **Adrianın dövründə (117-138)** Roma ilə Albaniya arasında yaxın əlaqələr mövcud olmuşdu. Adrian Albaniya hökmüdarları ilə ***dostluq əlaqələri*** saxlamış, onlara qiymətli hədiyyələr göndərmişdi.

Albaniyanın Roma ilə diplomatik əlaqələri **III əsrin ortalarına qədər** davam etmişdi. Bundan sonra Albaniya Roma ilə yalnız iqtisadi və mədəni əlaqələr saxlamışdır.

**Roma imperatorlarının Albaniya ilə münasibətləri**

| | |
|---|---|
| **O. Avqust** → | Azərbaycanda onun adına tərtib edilmiş kitabə - Albaniyanın Roma ilə diplomatik əlaqələr saxladığını sübut edir |
| **Neron** → | Albaniyaya yürüşə hazırlaşsa da Romada üsyan zamanı öldürülməsi ilə yürüş baş tutmamışdı |
| **Domisian** → | Hərbi dəstəsi – legionu təxminən 84-96-cı illərdə Xəzər sahillərinə, indiki Abşeron yarımadasına gəlib çatmışdı. |
| **Adrian** → | Dövründə Roma ilə Albaniya arasında yaxın əlaqələr mövcud olmuş, Albaniya hökmüdarları ilə dostluq əlaqələri saxlamış, onlara qiymətli hədiyyələr göndərmişdi |

## Alan tayfalarının Azərbaycana yürüşləri

Böyük Qafqaz dağlarından şimalda yaşayan tayfalar, o cümlədən alanlar ***qənimət əld etmək məqsədi ilə*** **Dərbənd keçidi vasitəsilə** Cənubi Qafqaza – Albaniyaya və Ön Asiyaya dəfələrlə yürüşlər etmişdilər. Bu zaman Xəzər dənizinin qərb sahili və Dərbənd keçidi şimal ölkələri ilə Ön Asiya arasında ***körpü rolunu*** oynayırdı.

Alan tayfalarının Azərbaycana yürüşləri **eramızın I-III əsrlərində** başlamış və müntəzəm xarakter almışdı. Alan tayfalarının Azərbaycana ən böyük yürüşlərindən biri **eramızın 72-74-cü illərində** olmuşdur. Bu yürüş zamanı onlar ***qənimət əldə etmək üçün*** cənuba doğru üz tutmuş, yol boyu bir çox ölkələri qarət edərək **Atropatenaya** daxil olmuşlar. Bu yürüş nəticəsində alanlar Atropatenanın bir-sıra ərazilərini qarət etmiş, Atropatena padşahı **Pakor** öz ölkəsini başsız qoyaraq təhlükəsiz yerə qaçmış, ailəsi isə alanlara əsir düşmüşdü. Sonra, o, çoxlu pul verərək, ailə üzvlərini geri almışdı. Mədəni inkişaf səviyyəsinə görə albanlardan aşağı olan alanların Azərbaycana yürüşləri sonrakı əsrlərdə də davam etmişdir. Alan tayfalarının Azərbaycana yürüşlərini onlara məxsus ***katakomba qəbirləri (yeraltı sərdabələr)*** də sübut edir. Albaniya ərazisində alan tayfaları ilə əlaqələndirilən həmin katakomba qəbrləri **Mingəçevirdə** və **Qəbələdə** öyrənilmişdir. Bu abidələr **eramızın I-III əsrlərinə** aiddir.

**QEYD:** Karakomba qəbirlərində ölülər iri küplərdə və ya taxta qutularda dəfn edilirdi. Belə qəbrlərə alanlara məxsus silahlar (ox ucları, xəncər, qılınc), məişət əşyaları, əmək alətləri və bəzək əşyaları qoyulmuşdur. Arxoloji materiallara əsasən məlum olur ki, Albanlar ***şimal tayfalarına***, o cümlədən ***alan tayfalarına*** güclü mədəni təsir etmişlər.

## Albaniyanın ictimai və dövlət quruluşu

Albaniyada əhali arasında əmlak bərabərsizliyi var idi. Albaniyanın ictimai quruluşu və əhalisi arasında əmlak bərabərsizliyinin mövcud olmasını aşağıdakı faktlar sübut edir:

- ***Arxeoloji qazıntılar zamanı aşkar edilmiş yaşayış binalarındakı fərqlər***
- ***Qəbir abidələrindən tapılmış əşyalar***
- ***Yunan və Roma nüəlliflərinin əsərləri***

Bəzi yaşayış binaları geniş olub, tikintisində çiy və bişmiş kərpicdən, yonulmuş daşdan istifadə olunurdu. Varlıların evlərinin üstü ***kirəmitlə*** örtülürdü. Yoxsulların evləri isə ***çiy kərpicdən*** və ***möhrədən*** (qat-qat qoyulan palçıqdan) tikilimiş, damı torpaq və qamışla örtülmüşdü. Albaniyada varlı və yoxsul qəbirlərini də oradan tapılmış geyim, qab-qacaq, əmək alətləri, silah, bəzək əşyalarına əsasən bir-birindən asan fərqləndirmək olur.

Albaniyada dövlətə Atropatenada olduğu kimi ***padşah*** başçılıq edirdi. Strabon da bunu təsdiq edir. Əvvəllər hər tayfanın başında bir padşah var idi. Albaniyada padşahdan sonra ən hörmətli adam ***Ay məbədinin kahini*** hesab olunurdu. Ay məbədinin kahini - əhalisi sıx olan müqəddəs ***əyalətə*** başçılıq edirdi. Məbəd qulları da onun ixtiyarında idi.

## Albaniyada əhali təbəqələri

Albaniyada əhali ***dörd təbəqəyə*** bölünürdü:

- **Birinci təbəqəyə** - ***padşah, ordu başçısı*** və ***hakim*** daxil idi.
- **İkinci təbəqəyə** - ***din xadimləri (kahinlər)*** daxil idi.
- **Üçüncü təbəqəyə** - ***hərbçilər*** və ***əkinçilər*** daxil idi.
- **Dördüncü təbəqəyə** - ***təsərrüfatda işləyən adi adamlar*** daxil idi.

Albaniyada azad adamlar əsasən ***kənd təsərrüfatı, sənətkarlıq*** və ***ticarətlə*** məşğul olurdular. Azad adamlar ölkədə ***maddi*** və ***mənəvi nemətlərinin yaradıcıları*** hesab olunurdu. Atropatenada və Albaniyada ***qul əməyindən*** istifadə olunsa da qədim Şərqin quldar dövlətlərinidəki qədər geniş istifadə ***olunmamışdı.*** Ölkədə qul əməyindən aşağıdakı sahələrdə istifadə olunurdu:

- Kənd təsərrüfatında

- Sənətkarlığın bəzi sahələrində
- Padşah mülklərində və malikanələrində
- Yuxarı təbəqələrini təsərrüfat sahələrində

**Albaniya ordusu**

Albanlar cəsur döyüşçülər hesab olunurdular. Vətən təhlükədə olarkən əli silah tutan bütün kişilər müdafiəyə qalxırdı. Albanlar döyüş vaxtı ***zirehli paltar geyir, dəbilqə qoyur, nizə, ox*** və ***mizraqla*** silahlanır, ***qalxanlardan*** istifadə edirdilər. Arxeoloji qazıntılar zamanı çoxlu belə silah nümunələri tapılmışdır. Antik müəlliflər qeyd edirki, Roma sərkərdəsi Pompeyin Albaniyaya yürüşü zamanı albanlar romalılara qarşı ***60 min piyada, 22 min atlı döyüşçü*** çıxarmışdılar.Albanlar hərbi işdə istifadə etmək üçün çoxlu ***at ilxıları*** saxlayırdılar. Mənbələr qeyd edirdi ki, albanlar öz qonşusu olan iberlərdən daha böyük ordu təşkil edə bilirdilər.

Alban ordusuna aid xüsusiyyətlər

- Döyüş vaxtı zirehli paltar geyir, qalxanlardan istifadə edirdilər
- Öz qonşusu olan iberlərdən daha böyük ordu təşkil edə bilirdilər
- Döyüşdə dəbilqə qoyur, nizə, ox və mizraqla silahlanırdılar
- Hərbi işdə istifadə etmək üçün çoxlu at ilxıları saxlayırdılar

**Albaniyanın təsərrüfatı**

Yunan-Roma müəllifləri Albaniya torpaqlarının çox bərəkətli olduğunu yazırlar. Düzənlikdəki əkin sahələri yaxşı suvarılırdı. Ümuniyyətlə, qədim Albaniya təsərüfatına ***aiddir:***

- ***Əkinçiliklə, maldarlıqla, bağçılıqla, üzümçülüklə*** məşğul olur, buğda, arpa və darı yetişdirirdilər
- Taxılı ***dəmir oraqla*** biçir və xırmanda ağac vəllə döyür, sonra iri xüsusi quyularda və saxsı küplərdə saxlayırdılar (Qəbələ, Mingəçevir və Şamaxıda belə taxıl quyuları və dəmir oraqlar aşkar olunmuşdu)
- Eramızın ilk əsrlərində ***su dəyirmanlarından*** istifadə edirdilər
- Bağçılıq və bostançılıq inkişaf etmiş, təsərrüfatda ***üzümçülük*** və ***şərabçılıq*** xüsusi yer tutmuşdu (**Qəbələ** və **Şamaxıdan** arxeoloji qazıntılar zamanı aşkarlanmış şərab istehsalı emalatxanalarının qalıqları və şərab saxlamaq üçün istifadə edilən iri küplər bunu təsdiq edir)
- Ölkədə maldarlığın inkişafı üçün əlverişli şərait var idi (albanlar at ilxıları, ağ keçi və dəvə saxlayırdılar)
- Balıqçılıq da təsərrüfatda mühüm yet tutmuşdu (yunan müəllifi **Elian** albanların ***balıq piyindən sürtkü yağı, içalatından isə yapışqan*** hazırlamasını qeyd etmişdir)




**Sənətkarlıq**

Arxeoloji qazıntılar zamanı Albaniyada yerli sənətkarların hazırladığı silahlar, məişət avadanlıqları, bəzək əşyaları və.s aşkar edilmişdi. Qədim Albaniya sənətkarlığına ***aiddir:***

- Sənətkarlığın ***metalişləmə, dulusçuluq*** və ***toxuculuq*** sahələri inkişaf etmişdi
- Sənətkarlığın müxtəlif sahələri ilə ***şəhər əhalisi*** ilə yanaşı ***kəndlilər*** də məşğul olurdu
- Dulusçuluq başqa ölkələrə təsir göstərmişdi
- Şəhər emalatxanalarında istehsal edilən sənətkarlıq məhsulları ***qonşu ölkələrə*** aparılırdı
- Zəngin filiz yataqlarının olması ***metalişləmə sənətkarlığının*** inkişafına şərait yaratmışdı
- Sənətkarlar metal əritmək, qəlibə tökmək, kəsmək və döymək üsullarını mənimsəmişdilər
- Böyük yaşayış yerlərinin hamısında ***dulusçuluq sənəti*** inkişaf etmişdi
- Eramızın ilk əsrlərindən başlayaraq sənətkarlar yerli ***şüşə qablar*** hazırlamışdılar
- Zərgərlər qızıl, gümüş, mis, şüşə və rəngli daşlardan müxtəlif bəzək əşyaları hazırlamışdılar
- Toxuculuqda ***qoyun*** və ***dəvə yunundan*** istifadə olunurdu
- Sənətkarlar ***rəngli daşlardan, şüşə*** və ***metaldan möhrlər*** düzəldirdilər
- Sənətkarlar ***gildən*** tikinti materialları, müxtəlif qablar, insan və heyvan fiqurları hazırlayırdılar (Bunu **Mingəçevrdə** arxeoloji qazıntılar zamanı aşkar edilmiş dulus küpələri də təsdiq edir)
- Sənətkarlar rəngarəng naxışlarla bəzədilmiş zərif quş və heyvan fiqurları formasında gil və metal qablar, istehsal etmişdilər (Bu qablarda başqa ölkələrin təsiri görünür)
- Əhali sənətkarlığın ***boyaqçılıq, dabbaqlıq, dülgərlik, dərzilik, çəkməçilik*** və.b sahələri ilə də məşğul olmuş və bu sahələr əsasən əhalinin daxili tələbatının ödənilməsinə yönəldilmişdi.

Albaniyada **e.ə IV əsrdə** dövlətin yaranması ilə eyni vaxtda ***möhrlər*** meydana gəlmişdi. Möhürlərin əksəriyyəti ***üzük formasında*** düzəldilmiş və bəzək əşyası kimi barmağa taxılmışdır. Möhür – üzüklərin qaş hissəsində ***dini məzmunlu rəsmlər*** həkk olunmuşdu. Albaniyada möhürlərdən aşağıdakı sahələrdə istifadə olunurdu:

- ***Müxtəlif məhsulla doldurulmuş qabları möhürləyəndə***
- ***Sənədləri təsdiqləyəndə***
- ***Qapıları möhürləyəndə***

**Albaniyada əhalinin daxili tələbatınının ödənilməsinə yönəldilmiş sənət sahələri**




## Ticarət və pul

Albaniya dövlətinin ərazisindən ***mühüm karvan yollarının keçməsi*** daxili və xarici ticarətin inkişaf etməsinə səbəb olmuşdur. Bu baxımdan ***Xərər dənizi sahili boyu şimalla çənubu birləşdirən quru ticarət yolu*** xüsusi rola malik olmuşdu. Antik müəlliflərin Albaniyadan keçən beynəlxalq su yolu haqqında məlumatına görə ***Oka (Amudərya,) Hirkan (Xəzər) dənizi və Kür çayı vasitəsilə, bir qədər də quru yolla Hindistan məhsulları Qara dənizə çıxarılırdı.*** Albaniya dövləti yarananadək əsasən mal mübadiləsi ilə ticarət aparılırdısa, dövlət yarandıqdan sonra isə puldan geniş istifadə etməyə başlanıldı. Albaniyada ticarətdə puldan geniş istifadə edildiyini və özlərinin pul kəsdiyini ***arxeoloji qazıntılar zamanı*** **1958-ci ildə Şamaxıdan** və **1966-cı ildə Qəbələdən** ***tapımış pul dəfinələri*** sübut edir. Albaniyanın yerli pullarından əlavə, başqa dövlətlərin də pullarından istifadə edilmişdi. Albaniya ərazisində tapılan ən qədim gümüş pullar **Makedoniyalı İsgəndərin** adından kəsilmişdir. Albaniyada **e.ə III əsrin birinci yarısında** İsgədərin pullarına oxşar pulların kəsilməsi ***kənardan gətrilən pullar ticarətdə təlabatı ödəməməsi ilə*** bağlı olmuşdu.

## Albaniya şəhərləri

Albaniya ərazisində şəhərlər hələ **e.ə I minilliyin ortalarında** meydana gəlmişdi. Qədim Albaniyada şəhərlərin yaranması sinifli cəmiyyətin və dövlətin yaranması ilə bir vaxtda meydana gəlmişdi. Burada şəhərlərin yaranmasında ***sənətkarlıq*** və ***ticarət*** mühüm rol oynamışdı. Albaniyada şəhərlər Atropatenada olduğu kimi ***dini mərkəzlərin (məbədlərin) ətrafında yaranmiş*** və ***ayrı-ayrı hökmdarlar tərəfindən*** salınmışdı. Onlar düşməndən müdafiə olunmaq üçün şəhərin ətrafına möhkəm qala divarları və xəndəklər çəkilirdi. **E.ə IV əsrin axırlarından başlayaraq** Albaniyada:

- şəhərsalma gücləndi
- mühüm ticarət yolları üzərində yerləşən məskənlər şəhərlərə çevrildi

Albaniya şəhərləri haqqında ilk ***yazılı məlumatlar*** eramızın ilk əsrlərindən başlayaraq verilmişdi. Eramızın I əsrində yaşamış **Strabon** əsərində Uti (Udi) vilayətində ***Ayniana*** və ***Anariaka,*** Roma müəllifi **Böyük Plini** isə Albaniyanın başlıca şəhəri adlandırdığı ***Kabalaka (Qəbələ)***, e.ə II əsrdə yaşamış **Klavdi Ptolomey** Albaniyanın 29 şəhər və yaşayış məntəqələri sırasında ***Qəbələ*** və ***Şamaxının*** adlarını çəkir.

Albaniya şəhər mədəniyyəti **Mingəçevir, Qəbələ, Şamaxı, Dərbənd, Torpaqqala şəhərlərində** aparılmış arxeoloji qazıntılar zamanı aşkarlanmış zəngin materiallar əsasında öyrənilmişdir.

Albaniya şəhərləri ölkənin ***inzibati, iqtisadi, məndəni*** və ***ideoloji mərkəzləri*** idi. Antik müəlliflərin qeydlərinə görə şəhər əhalisi əsasən ***sənətkarlıq*** və ***ticarətlə,*** şəhərətrafı torpaq sahələrində ***əkinçilik*** və ***maldarlıqla*** məşğul olmuşdu.

**Qədim Albaniya şəhərlər**




**Albaniya şəhərləri haqqında zəngin arxeoloji materialların tapıldığı şəhərlər**

## Albaniya mədəniyyətinin öyrənilməsi üzrə mənbələr

Qədim Albaniyanın tarixi və mədəniyyəti ***arxeoloji mənbələr*** və ***antik müəlliflərin yazılı məlumatları*** əsasında öyrənilmişdi. Albaniyanın mədəniyyəti arxeoloji cəhətdən **Qəbələ, Şamaxı, Mingəçevir, İsmayıllı (Mollaisaqlı) abidələri** əsasında öyrənilmişdir. Buradan qazıntılar zamanı müxtəlif tikinti qalıqları, qəbirlər və.b. məmulatlar aşkar olunmuşdur. Bu məmulatlar göstərir ki, **e.ə I minilliyin ortalarından** başlayaraq Albaniyanın özünəməxsus mədəniyyəti yaranırdı. Qazıntılar zamanı tapılmış on minlərlə maddi-mədəniyyət nümunələri albanların mənəvi səviyyəsinin yüksək olduğunu və özünəməxsus mədəniyyət yaratdığını göstərir.

Albaniyanın mədəniyyəti arxeoloji cəhətdən **Qəbələ, Şamaxı, Mingəçevir, İsmayıllı (Mollaisaqlı) abidələri** əsasında öyrənilmişdir.

## Memarlıq

Albaniya memarları ***iri ictimai binalar*** və ***müdafiə qalaları*** tikmişlər. Ölkənin paytaxtı **Qəbələ, Təzəkənd** və **Torpaqqala şəhər yerləri** ətrafında belə müdafiə qalaları tikilmişdi. Qəbələdə şəhər yerində aşkar edilmiş bir çox böyük ictimai və başqa binaların bünövrəsi çay daşlarından hörülmüş, divarları isə çiy kərpicdən tikilmişdi. Albaniyada memarlıqda ***yerli tikinti materiallarından*** istifadə olunumuşdur. **E.ə III əsrdən başlayaraq** Alban memarlığında ***kirəmitdən*** istifadə edilmişdir. Kirəmit istehsalı ***yunan mədəniyyətinin təsiri nəticəsində*** meydana gəlmişdi.

**Albaniyaya aid şəhər qalalarının aşkar edildiyi şəhər yerləri**



## Yazı

Albaniya əhalisi hələ **e.ə I minilliyin ortalarında** Əhəmənilər dövlətinin tərkibində olarkən yazı ilə tanış idi. Qədim Albniya əhalisinin yazı ilə tanış olmasını aşağıdakı faktlar da sübut edir:

- **E.ə I minilliyin sonları – eranın I əsrinə aid bəzi saxsı nümunələri üzərində yazı işarələri**
- **E.ə I əsrin 60-cı illərində Alban hökmdarı Oroysla Roma sərkərdəsi Pompeyin məktublaşması**

Albanlar antik dövrdə ***yunan***, ***latın*** və Yaxın Şərqdə istifadə edilən başqa yazılarla da tanış olmuşlar. **1902-ci ildə Şəkinin Böyük Dəhnə kəndində** üzərində **II əsrinə aid** ***yunan dilində*** tapılmış yazı bunu göstərir. Bu kitabədə yazılmışdır: ***"Aylı Yason öz himayədarı Evnona xatirə olaraq"***. Məzmunundan da görünür ki, bu daş gəlmə ***yunanlar*** tərəfindən qoyulmuşdu və yunanlara məxsusdu.

## Albanların dini görüşləri

Qədim albanlar ***çoxallahlı bütpərəstlik dininə*** inanırdılar. Burada ***səma cisimlərinə sitayiş*** geniş yayılmışdı. Strabon yazırdı ki, albanlar **Zevs (Göy), Helios (Günəş)** və **Selena (Ay) allahlarına** sitayiş edirdilər. Albanlar **Ay allahına** daha çox sitayiş edirdilər. Albanlarda ***əcdadlarına inam*** da olmuşdu. Tapılmış ***insan formalı böyük daş heykəllər*** yerli əhalinin dini görüşləri ilə bağlı olmuşdu.

## Atropatena ilə Albaniya arasında əlaqələr

Atropatena ilə Albaniya arasında geniş ***mədəni əlaqələr*** olmuşdu. E.ə IV əsrdə bu dövlətlərin yaranmasının böyük əhəliyyəti var idi. Beləki, bu dövlətlərin yaranması nəticəsində:

- ***Azərbaycandaqədim dövlətçilik ənənələri bərpa olundu***
- ***Azərbaycan xalqının formalaşması prosesi başladı***



## Albaniya haqqında məlumat vermiş antik müəlliflər

| | |
|---|---|
| **Heredot** | Azərbaycanın şimalında kaspi tayfalarının yaşadığını, qeyd edir. kaspi tayfaları adı altında albanları nəzərdə tuturdu |
| **Klavdi Ptolomey** | Albaniyanın 29 şəhər və yaşayış məntəqələrini qeyd edir və onların sırasında Qəbələ ilə Samaxının adlarını cəkmisdi |
| **Böyük Plini** | Kabalakanı (Qəbələni) Albaniyanın başlıca şəhəri adlandırmışdı |
| **Elian** | Albanların balıq piyindən sürtkü yağı, içalatından isə yapışqan hazırlamasını qeyd etmişdi |
| **Plutarx və Appian** | Pompeyin Albaniyaya yürüşü barədə geniş məlumat vermişdi |

**Qədim Albaniya haqqında Strabonun fikirləri**

- Kür çayı Albaniya ərazisi ilə axaraq dənizə tökülürdü
- Uti (Udi) vilayətində Ayniana və Anariaka şəhərləri yerləşirdi
- Albaniyada dövlətə Atropatenada olduğu kimi padşah başçılıq edirdi
- Kaspiana vilayəti Albaniyanın tərkibinə daxil idi
- Albaniyada padşahdan sonra ən hörmətli adam Ay məbədinin kahini idi
- Albanlar Zevs (Göy), Helios (Günəş) və Selena (Ay) allahlarına sitayiş edirdi




**Albaniyanın Atropatena dövləti ilə oxşar və fərqli cəhətləri**

| Oxşar cəhətlər | Fərqli cəhətlər |
|---|---|
| 1. Eyni dövrdə yaranmışdılar | 1. Atropatena Arazdan Cənubda, Albaniya isə Arazdan Şimalda yaranmışdı |
| 2. Türk mənşəli dövlətlər idilər | 2. Albaniyada gümüş pul kəsilmişdi |
| 3. Makedoniyalı İskəndərin imperiyasının parçalanması nəticəsində yaranmışdı | 3. Albaniyada çoxallahlılıq mövcud olduğu halda Atropatenada Atəşpərəstlik dininə ibadət edirdilər |
| 4. Roma və Alan tayfalarının yürüşünə məruz qalmışdılar | 4. Müxtəlif yazı sistemindən istifadə edirdilər |
| 5. Ərazilərində kaspi və müq tayfaları yaşamışdı | 5. Yalnız Atropatena müəyyən müddətə Seleviklərdən asılı vəziyyətə düşmüşdü |
| 6. Ellin - yunan mədəniyyətinin təsirinə məruz qalmışdılar | 6. Albaniya Roma ilə dostluq əlaqələri saxlamışdı |
| 7. Şəhərlər dini mərkəzlərin (məbədlərin) ətrafında yaranmiş və ayrı-ayrı hökmdarlar tərəfindən salınırdı | 7. Ayrı-ayrı dövlətlər tərəfindən və ayrı ayrı dövrdə süqut etmişdilər |
| 8. Ən qədim pullar Makedoniyalı İsgəndərin adından kəsilmişdi | 8. Albaniya ərəblərin hücumuna məruz qalsa da Atropatena məruz qalmamışdı |
| 9. Parfiya dövlətindən müəyyən müddətə asılı vəziyyətə düşmüşdülər | 9. Atropatena Sasanilər dövləti tərəfindən, Albaniya isə Ərəb xilafəti tərəfindən süquta uğradılmışdı |
| 10. Romadan müəyyən müddətə asılı vəziyyətə düşmüşdülər | 10. Albaniya Xəzər və Bizans imperiyaları ilə diplomatik əlaqələr saxlamışdı |

# Xronologiya

**e.ə I minilliyin ortaları** Albaniyada özünəməxsus mədəniyyətin və şəhərlərin meydana gəlməsi üçün ilkin şəraitin yaranması.

**e.ə I minilliyin ortaları** Albaniya əhalisinin Əhəmənilər imperiyasının tərkibində olarkən yazı ilə tanış olması

**e.ə VI-V əsrlər** Əhəmənilər dövründə alban tayfalarının vahid ad altında birləşməsi

**e.ə V əsr** Yunan tarixçisi Heredot tərəfindən albanlar haqqında məlumat verilməsi

**e.ə IV-III əsrlər** Albaniya dövlətinin yaranması. Albaniyada dövlətin yaranması ilə möhürlərin meydana gəlməsi

**e.ə IV-III əsrlər** Albaniyada ticarətdə puldan geniş istifadə olunması. 1958-ci ildə Şamaxıda, 1966-cı ildə Qəbələdə tapılmış gümüş pul dəfinələri albanların özlərinin pulu olduğunu sübut edir

**e.ə III əsrin I yarısı** Albaniyada Makedoniyalı İsgəndərin pullarına oxşar pulların kəsilməsi

**e.ə III əsr** Alban memarlığında kirəmitdən geniş istifadə olunmağa başlanması

**e.ə II əsr** Aralıq dənizi hövzəsində Romanın ən güclü dövlətə çevrilməsi

**e.ə I əsrin II yarısı** Roma sərkərdəsi Pompeyin Albaniya və İberiyaya hücum etməsi

**e.ə 66** Kür çayı sahilində döyüş. Roma ordusunun albanları məğlub etməsi

**e.ə 65** Alazan (Qanıx) çayı sahilində döyüş. Pompeyin albanları məğlub etməsi

**e.ə II əsr** Şəkinin Böyük Dəhnə kəndində yunan dilində yazı olan daş kitabənin hazırlanması

**e.ə 36** Antoninin sərkərdəsi Kanidinin başçılığı ilə romalıların Albaniya və İberiyaya yürüşü. İberiya və Albaniyanın romalılardan asılılığı qəbul etməsi

**68** Roma imperatoru Neronun Albaniyaya böyük yürüşə hazırlaşması

**84-96** Domnisianın dövründə Roma ordusunun Albaniyaya və Xəzər sahillərinə gəlib çatması

**117-138** Roma imperatoru Adrianın alban hökmdarları ilə dostluq əlaqələri saxlaması

**72-74** Alan tayfalarının Albaniya və Atropatenaya ən böyük yürüşü

**eramızın ilk əsrləri** Albaniyada su dəyirmanlarından istifadə olunması

**eramızın ilk əsrləri** Albaniya sənətkarlarının yerli şüşə qablar hazırlaması

**I əsr** Albaniyada hakimiyyətin yerli hökmüdarların əlində olması

**I-III əsrlər** Alan tayfalarının Dərbənd keçidi vasitəsiylə Albaniyaya yürüşlər etməsi

**I-III əsrlər** Albaniyada Kabalaka, Şamaxı, Ayniana və Anariaka şəhərlərinin mövcud olması

**I-III əsrlər** Albaniya hökmdarlarının Roma ilə diplomatik əlaqələr saxlaması

**II-III əsrlər** Atropatenada qullara nataman azadlıq verilməsi. Albaniyada quldarlıq quruluşunun böhran keçirməsi

**III əsr** Albanların Romaya yazılı məlumat göndərməsi

**III əsrin ortaları** Albaniya hökmdarlarının Roma ilə diplomatik əlaqələrinin kəsilməsi


ÖN ASİYA E.Ə. 1-ci MİNİLLİYİN BİRİNCİ YARISINDA
QARA DƏNİZ
XƏZƏR
DƏNİZİ
[ İBERLƏR ]
(Kür)
(Göyçə g.)
[ A L B A N L A R ]
KAŞKLAR
KOLXLAR
Teyşebaini
[ ERMƏNİLƏR ]
(Halis)
(Qızıl İrmaq)
TABAL
URARTU
(Araz)
SKİFLƏR
P U Ş T U A D İ
Tarmakis
(Urmiya g.)
KUMMUX
SURRİYA
KUTMUXİLƏR
(Van g.)
MUSASİR
GİLZAN
ZİKERTU
ANDİA
MANNA
Neynəvə
İzirtu
MADAY
A Ş Ş U R
ÇARLIĞI
Aşşur
Xarran
DAXİLİ
ZAMUA
BİT-HAMBAN
Ekbatan
ARALIQ DƏNİZİ
(Dəclə)
(Fərat)
NAMRU
B A B İ L İ S T A N
E L A M
ELLİPİ
(Dəclə)
Babil
Suz
(Karun)
(Fərat)
P A R S A
İran körfəzi
MANNA Dövlətlər
ALBANLAR Tayfalar
ANDİA Vilayətlər
Şəhərlər
[ İBERLƏR ] Daha erkən dövrlərə aid tarixi adlar



MADA (MİDİYA) DÖVLƏTİ
(E.Ə. 7-ci ƏSRİN SON RÜBÜ - E.Ə. 6-cı ƏSRİN ORTALARI)
QARA DƏNİZ
XƏZƏR
DƏNİZİ
KOLXLAR
[ İBERLƏR ]
[ ALBANLAR ]
(Kür)
(Göyçə g.)
[ SKİFLƏR ]
[ KASPİLƏR ]
(Halis)
(Qızıl İrmaq)
(Araz)
URARTU
[ KADUSİLƏR ]
ZİKERTU
(Van g.)
(Urmiya g.)
MANNA
MİDİYA (MADA)
MADA DÖVLƏTİ
EKBATAN
AŞŞUR ÇARLIĞI
ARALIQ DƏNİZİ
(Fərat)
BABİLİSTAN
ELAM
(Karun)
(Dəclə)
PARSA
İran körfəzi
Mada (Midiya) dövletinin sərhədləri
AŞŞUR Dövlətlər
PARSA Vilayətlər
KOLXLAR Tayfalar
[ İBERLƏR ] Daha erkən dövrlərə aid tarixi adlar

# V BÖLMƏ

## AZƏRBAYCAN III-VII ƏSRLƏRDƏ

### Azərbaycanın Sasani imperiyasının tərkibində

#### Azərbaycanda feodal münasibətlərinin yaranması

**III-V əsrlərdə** - Azərbaycanda feodalizm münasibətləri meydana gəldi. Azərbaycanda feodal münasibətlərinin yaranması ***məhsuldar qüvvələrin inkişafının nəticəsi*** idi. Bəzi yerlərdə feodalizmdən əvvəlki münasibətlər qalmaqda idi. Əyanlar təkcə asılı kəndlilərdən deyil, ***qulların*** da əməyindən istifadə edirdilər. Bu dövrdə Sasani imperiyasının hakimiyyəti qismən **Ön Qafqazı** da əhatə edirdi.

Azərbaycanda feodalizm münasibətlərinin iqtisadi və sosial əlamətləri hələ ***quldarlıq dövründə*** meydana gəlmişdi. Lakin, ***yazılı mənbələrin məhdudluğu*** səbəbindən Azərbaycanda quldarlıq təsərrüfatının dağılması gedişini dərindən izləmək mümkün deyil.

**III-V əsrlərdə** Azərbaycanda tədricən torpaq sahibkarlığının yeni səciyyəvi cəhətləri meydana gəldi. Belə ki, dövlət torpaqları ***xidmət müqabilində*** hərbçilərə, dövlət işçilərinə paylanır və bəzən xüsusi xidməti olan şəxslərə hədiyyə verilirdi. Xüsusi xidmət adamlarına paylanmış belə torpaqlar ***mülk***, həmin torpaq (mülk) sahibi ***mülkədar***, yəni ***feodal*** adlanırdı. Çox hallarda həmin adamlara mülklə birlikdə onu becərən ***kəndlilər (əkinçilər)*** də hədiyyə verilirdi. ***Feodalizm*** cəmiyyəti adı buradan yaranmışdır.




#### Əhalinin sosial təbəqələri

Erəkən Orta srlərdə Sasanilər dövründə Azərbaycanda əhali ***dörd sosial təbəqəyə*** bölünürdü:

- **Birnic təbəqə - *kahinlər.***
- **İkinci təbəqə - *döyüşçülər.***
- **Üçüncü təbəqə - *mirzələr.***
- **Dördüncü təbəqə -*vergi verənlər.***

Vergi verənlər təbəqəsinə **- *kəndlilər, sənətkar*** və ***tacirlər*** daxil idi.

**III-V əsrlərdə Azərbaycanda vergi verənlər təbəqəsi**

- kəndlilər
- sənətkarlar
- tacirlər

## Kəndlilər və feodallar

Feodalizm dövründə cəmiyyətin əsas sinifləri ***kəndlilər*** və ***feodallar*** idi. ***Kəndlilərə*** aiddir:

- Azərbaycanda əhalinin əsas kütləsini təşkil edirdilər.
- Cəmiyyətin əsas ***istehsalçı qüvvəsini*** təşkil edirdilər.
- Feodaldan asılı olsada, ***təhkimli deyildilər.***
- Onların istismar edilməsinin əsas forması ***vergilər*** və ***dövlət mükəlləfiyyətlərin*** icrası idi .
- Feodalın torpağını becərir, məhsulun müəyyən hissəsini ona vergi verirdilər.
- Feodala ***xaraq (torpaq***) və ***gezit (can) vergisi*** ödəyirdilər.
- Feodala vergini, əsasən ***məhsul (natural) formasında*** verirdilər.
- Məcburi mükəlləfiyyətlər ***(qalalar, yollar və körpülər inşa etməsi və.s)*** yerinə yetirirdilər.
- Xüsusi mülkiyyətə ***(ev, həyətyanı torpaq, mal-qara, əmək alətləri və s.)*** malik idilər.
- Əsas gəlir mənbəyi becərdiyi torpağı ilə bağlı idi.
- Feodala və onun dəstəsinə minik vasitəsi verir, səfər vaxtı onları ərzaqla təmin edirdi.

***Feodallar***

- ***“Feod”*** sözündən olub ***torpaq sahibi*** deməkdir.
- Dövlət torpaqlarının bir hissəsi onların mülkiyyəti sayılırdı.
- Azərbaycanda onların ***şəxsi təsərrüfatı*** yox idi.
- İki yerə yerə - ***iri (patrik)*** və ***xırda - orta feodallara (dehqan)*** bölünürdü.

**QEYD:** Azərbaycanda feodal münasibətlərinin inkişafı Avropadakı kimi ***feodalizmin ümumi qanunlarına*** əsaslanırdı. Lakin Azərbaycanda yeni yaranmış feodal münasibətləri Qərbi Avropa ölkələrindən kəskin fərqlənirdi.

**Azərbaycanda feodal münasibətlərinin Qərbi Avropa ölkələrindən fərqli cəhətləri**

| Azərbaycanda | Qərbi Avropada |
|---|---|
| I. Azərbaycanda feodalizm cəmiyyəti tez yaranıb gec süqut etmişdir. (III əsr - XIX əsrin ikinci yarısınadək). | I. Qərbi Avropada feodalizm cəmiyyəti gec yaranıb tez süqut etmişdir (V əsr - XVII əsrin sonlarınadək). |
| II. Azərbaycanda kəndlilər feodaldan yalnız iqtisadi cəhətdən asılı olub, şəxsən asılı (təhkimli) deyildilər. | II. Qərbi Avropada kəndlilər feodaldan iqtisadi cəhətdən və şəxsən asılı (təhkimli) idilər. |
| III. Azərbaycanda fedalların şəxsi təsərrüfatı, yox idi. Bunun əsas səbəbi süni suvarma tələb edən təsərrüfata böyük xərc qoymaq lazım gəlməsi idi. | III. Qərbi Avropada feodalların şəxsi təsərrüfatı var idi. |

## Sasanilər dövründə torpaq mülkiyyət formaları və vergilər.

Sasani ağalığı dövründə (III-VII əsrlərdə) Azərbaycanda iki əsas torpaq mülkiyyət forması mövcud idi:

- **Dastakert –** ***irsən keçən torpaq mülkiyyət forması idi. İri feodal*** və ***Zərdüşd dininin kahinlərinə*** verilirdi
- **Xostak** - ***şərti torpaq mülkiyyət forması idi.*** Xostaqın əsas sahibi ***xırda və orta feodallar*** idi. Belə torpaqlar vassal xidməti müddətində dövlət tərəfindən ***müvəqqəti istifadə*** üçün verilirdi.

Sasani ağalığı dövründə Azərbaycanda (Atropatena və Albaniyada) iki vergi növü mövcud idi:

- **Xaraq -** məhsul vergisi idi. Hər bir mahalın əkin sahəsinin məhsuldarlığından, habelə onun şəhərə yaxın və ya uzaqlığından asılı olaraq alınırdı. Xaraq məhsulun 1/3-dən 1/6-nə qədərini təşkil edirdi.
- **Gezit** - can vergisi idi. Sasani imperiyasının ərazisində yaşayan bütün əhalidən, xüsusilə ***xristianlardan*** və ***sənətkarlardan*** ildə bir dəfə toplanılırdı.




## I Xosrovun vergi islahatı

Sasani şahı I Xosrov ***vergi sahəsindəki nöqsanları aradan qaldırmaq*** məqsədi ilə islahat keçirdi. I Xosrovun vergi islahatı keçirməkdə ***iki məqsədi*** var idi:

1. ***Vergi yığan məmurların özbaşınalığına son qoymaq.***
2. ***Toplanmış vəsaitin xəzinəyə daxil olmasını təmin etmək.***

Bu islahat **Atropatenada** da tətbiq edildi. I Xosrovun vergi islahatına əsasən:

- Bütün torpaqlar ölçüldü, zeytun və xurma ağacları hesaba alındı.
- Vergilərin miqdarı və can vergisi verməli olan adamların sayı dəqiqləşdirildi.
- ***Kahinlər, məmurlar, mirzələr, uşaqlar, qadınlar*** və ***60 yaşına çatmış kişilər*** can vergisindən azad edildi.
- Vergilər hissələrə bölünərək ildə ***üç dəfəyə*** alınmağa başlandı.
- Vergi alınarkən əvvəlki kimi məhsulun həcminə görə deyil, ***torpağın sahəsi*** əsas götürülürdü.
- Torpaq vergisi arpa, buğda, düyü, yonca əkinlərindən, xurma, zeytun ağacları və üzümlüklərdən alınırdı.
- Vergilər bar verən ağacların sayı, torpağın məhsuldarlığı və əhalinin sıxlığı nəzərə alınmaqla mahallar və məntəqələr üzrə bölündü.

I Xosrovun vergi islahatının ***əhali üçün ağır nəticələri*** oldu. Belə ki, indi əvvəlki kimi məhsulun həcmi deyil, ***torpaq sahəsi əsas götürüldüyündən*** quraqlıq illərində kəndlilərin vəziyyəti son dərəcə ağırlaşdı. Beləliklə Sasanilərin vergi islahatı Azərbaycanda əhalinin geniş təbəqələrinin vəziyyətini daha da ağırlaşdırdı.




**Azərbaycanda sasani zülmü. Manilik və Məzdəkilər hərəkatı**

Erkən Orta əsrlərdə İranda, o cümlədən Azərbaycanda Sasani zülmünə qarşı **Manilik** və **Məzdəkilər** hərəkatı baş verdi. Sasanilərə qarşı mübarizənin səbəbləri aşağıdakılar idi:

- ***Sasani şahlarının ağır vergi siyasəti.***
- ***Atəşpərəstliyin zorla yayılması.***
- ***Sasanilərin köçürmə siyasəti.***

Sasani dövlətində **Maninin** əsasını qoyduğu hərəkat **III əsrdə** genişləndi. Bu hərəkat ***yüksək zümrələrin ağalığına qarşı*** yönəlmişdi. Mani təlimi ***məzdəkilər hərəkatına*** da güclü təsir göstərdi.

**481-529-cu illəri** əhatə edən Məzdəkilər hərəkatına **Məzdək** başçılıq edirdi. Məzdək təliminin əsas ideyası ***ədalətli cəmiyyət qurmaq, insanlar arasında əmlak bərabərliyi yaratmaq*** idi. Məzdək təliminə görə:

- ***Mübarizə yolu ilə*** ədalətli cəmiyyətin qurulması mümkün hesab edilirdi
- Xeyirin ***Şər üzərində qələbəsini*** Allahın və işıqlı qüvvələrinköməyi ilə təmin etmək olardı
- Xeyirin Şər üzərində qələbəsinin mümkünlüyünü inkar edən ***maniçilərdən fərqli olaraq*** son anda Xeyirin qələbəsinə inanırdılar.

**I Qubadın (488-531)** hakimiyyəti illərində məzdəkilər hərəkatı geniş vüsət aldı. Bu xalq hərəkatı **Cənubi Azərbaycanda**, həmçinin **Albaniyada** da geniş yayılmışdı. I Qubad ***mərkəzi hakimiyyətə tabe olmaq istəməyən iri feodallara qalib gəlmək üçün*** özünə sosial dayaq axtarırdı. Bu məqsədlə I Qubad:

- Məzdəkiləri himayə etməyə başladı
- Onların böyük qüvvəsindən və Məzdəkin nüfuzundan bəhrələndi
- Aclıq zamanı Məzdəkin məsləhətilə dövlət taxıl anbarlarını əhali üçün açdı

I Qubad bir müddətdən sonra taxtdan salındı və o, Mərkəzi Asiyaya Ağ Hun hökmdarının yanına qaçmalı oldu. Bu zaman Məzdəkin köməkliyi ilə I Qubad hakimiyyətini yenidən bərpa etdi. Artıq onun məzdəkilərin köməyinə ehtiyacı olmadığından **529-**

**cu ildə** Məzdək edam edildi. Qubadın oğlu **Xosrov (531-579)** isə məzdəkilərə qanlı divan tutdu. Məzdəkilərdən 80 mindən artıq adam isə öldürüldü. Bu hərəkat ***aşağı sosial təbəqələrə mənsub əhalinin mənafeyini*** müdafiə edir və onların maddi rifahının yaxşılaşdırılmasına çalışırdı.

**Manilik və Məzdəkilər təlimi arasında oxşar və fərqli cəhətlər**

| Oxşar cəhətlər | Fərqli cəhətlər |
|---|---|
| 1.Hər iki hərəkatın rəhbərləri – Mani və Məzdək edam edilmişdi | 1.Ayrı-ayrı vaxtlarda baş vermişdi |
| 2. Hər iki hərəkat Sasani zülümü və feodal istismarına qarşı yönəlmişdi | 2.Manilər dinc yolla, Məzdəkilər isə mübarizə yolu ilə məqsədlərinə nail olmaq istəyirdilər |
| 3.Hər iki hərəkatı yoxsul – aşağı təbəqələr müdafiə edirdi | 3.Manilikdə fərqli olaraq Məzdəkilər xeyirin şər üzərində qalib gələcəyinə inanırdılar |
| 4. Hər iki hərəkat Azərbaycanda geniş yayılmışdı | 4.Manilik hərəkatını I Şapur, Məzdəkilər hərəkatı isə I Qubad tərəfindən yatırılmışdı |

## Atropatena Erkən Orta əsrlərdə

### Atropatenanın Sasanilər imperiyasının tərkibinə qatılması

Sasanilər sülaləsinin nümayəndəsi **Ərdəşir Babəkan (224-241)** Parfiya dövlətini süquta uğradaraq **226-cı ildə Sasanilər dövlətinin (226-650)** əsasını qoydu. Bu zaman Azərbaycanın ***cənubunda*** **Atropatena,** ***şimalında*** isə **Albaniya dövləti** mövcud idi. Atropatenada Sasani işğalından əvvəl ***Parfiyanın Arşakilər sülaləsinin*** hakimiyyəti alında idi, Albaniyada isə yerli ***Aranilər sülaləsi*** hakimiyyətdə idi.

Sasanilər sülaləsi asılı dövlətlər sistemini mərkəzləşmiş dövlətlə əvəz etdilər və öz hakimiyyətini möhkəmləndirmək məqsədi ilə yeni işğallara başladılar. Bu vaxt Parfiya dövlətindən asılı olan **Atropatena** yenidən öz müstəqilliyini itirərək, **227-ci ildə** Sasanilər dövlətinin tərkibinə qatıldı.

Atropatenanın işğal edilməsinin Sasanilər üçün əhəmiyyəti bunlar idi:

1. ***Atropatena öz iqtisadi inkişaf səviyyəsinə görə qonşu ölkələrdən xeyli irəlidə gedirdi.***
2. ***Atropatena əlverişli strateji mövqeyə malik idi (Sasanilər bu əraziyə gələcəkdə Roma imperiyası ilə baş verə biləcək döyüşlər üçün mühüm strateji meydan kimi baxırdılar).***

### Atropatenanın Sasani imperiyasında rolu

**Strateji** — Sasanilər bu əraziyə gələcəkdə Roma imperiyası ilə baş verə biləcək döyüşlər üçün mühüm strateji meydan kimi baxırdılar

**İqtisadi** — Atropatena öz iqtisadi inkişaf səviyyəsinə görə qonşu ölkələrdən xeyli irəlidə gedirdi

**Dini-siyasi** — Sasani şahları taxta çıxdıqdan sonra dövlətin paytaxtından Qazakadakı baş məbədə piyada ziyarətə gedirdilər

## Atropatenanın iqtisadi yüksəlişi

**IV əsrdən etibarən** Atropatena ***iqtisadi yüksəliş*** keçirir, əmtəə istehsalı genişlənirdi. Ölkədə kənd təsərrüfatı mallarına və bədii sənət məmulatlarına tələbat artırdı. Sasanilərə, Çin və Hindistana gedən ticarət yolları yenə də Atropatenadan keçirdi. Burada **Ordbil (Ərdəbil), Tavreş (Təbriz), Qazaka, Fraaspa, Aqnazana, Marağa** kimi iri ticarət, sənətkarlıq və mədəniyyət mərkəzləri olan şəhərlər var idi. Bu şəhərlərin ticarət yolları üzərində yerləşməsi nəticəsində ***dünya ticarətinə cəlb edilmələri*** onların iqtisadi yüksəlişinə mühüm təsir göstərən amillərdən biri idi. Buna görə də Sasani imperiyasının şimal mərzbanları dövrünə görə böyük ticarət mərkəzləri olan - **Ordbil** və **Tavreş** şəhərlərinin özlərinə ***iqamətgah*** etmişdilər. Sasanilər Atropatenadan öz orduları üçün əsgər də toplayırdılar.

**IV əsrdən etibarən** Atropatenanın ***iqtisadi yüksəliş*** keçirirdi. Atropatenanın iqtisadi yüksəliş keçirməsini aşağıdakı faktlar da sübut edir:

- ***İran, Çin və Hindistana gedən ticarət yollarının Atopatenadan keçməsi.***
- ***Kənd təsərrüfatı məhsullarına və bədii sənət məmulatlarına tələbin artması.***
- ***Əmtəə istehsalının genişlənməsi .***

Sasani hökmranlığı dövründə Atropatena ərazisi Sasanilər imperiyasının **şimal mərzbanlığını** təşkil edirdi. Bu zaman **Muğan** və **Gilanın əraziləri** Atropatena ərazisinə daxil idi. **I Xosrov Ənuşirəvanın (531-579)** dövründə həyata keçirilmiş ***inzibati islahata*** görə Sasani imperiyasının ***şimal mərzbanlığına*** **İberiya, Albaniya** və **Atropatena** daxil idi.

### Sasani mərzbanlarının özlərinə iqamətgah seçdikləri Atropatena şəhərləri

- **Tavreş (Təbriz)**
- **Ordobil (Ərdəbil)**

### Sasanilər dövründə Atropatenanın ərazisi

- **Muğan**
- **Cənubi Azərbaycan**
- **Gilan**

## Atropatenada feodal münasibətlərinin inkişafı

**VI əsrin əvvəllərində** feodal münasibətlərinin inkişafı daha da sürətləndi. Əgər əvəllər Atropatenanın ictimai quruluşunda ***kənd icmaları*** üstünlük təşkil edirdisə, sonralar ***feodallar icma torpaqlarının çox hissəsini əllərinə keçirməsi nəticəsində torpaqsız icma üzvləri feodallardan asılı olan kəndlilərə çevrildilər***. Şahənşah **I Xosrov Ənuşirəvanın** feodallarla ittifaqı onların mövqeyini daha da möhkəmləndirdi. I Xosrov özünü sahibsiz qalmış torpaqların bilavasitə varisi elan edərək çox hissəsini öz sərkərdələri arasında bölüşdürdü. Bununlada onlar şahın hərbi-siyasi dayağına çevrildilər. Beləliklə, Aropatenada ***şərti torpaq mülkiyyəti*** forması qəti bərqərar oldu (şərti torpaq mülkiyyəti –müəyyən dövr üçün xidmət müqabilində verilmiş torpaq sahibliyi idi). Bu vaxt iri feodalların mülkiyyəti xeyli azalır, xırda və orta feodalların sayı isə artırdı. Onlar Atropatenada öz xidmətləri müqabilində bütöv kəndlər alırdılar. Əvvəllər ***"azad icmaçı"*** mənasını verən ***dehqan*** sözünün özü belə artıq ***torpaq sahibi*** mənasında işlədilirdi.

Formal olaraq azad olan kəndlilər - əkinçilər, əslində ***dövlət, əyan*** və ***məbəd torpaqlarına*** bağlı idilər. Kəndlilərin torpaqsız və ya aztorpaqlı olmasından istifadə edən feodalların əksəriyyəti torpaqları onlara icarəyə verirdilər.

Zərdüşt kahinləri Sasanilər dövlətinin həyatında çox mühüm rol oynadıqları üçün onların ixtiyarında çoxlu torpaq sahələri var idi. Təkcə **Qazakadakı baş məbəddə** 10 min nəfər adam işləyirdi. Məbədlərdə çoxlu qul var idi. Bu malikanələrdən çoxlu miqdarda gəlir əldə edilirdi.

## Zərdüştlüyün Sasanilər dövlətinin rəsmi dini elan olunması

Sasanilərin hakimiyyəti dövründə ***Zərdüştlik*** bütün ölkədə hakim dinə çevrildi. Sasanilərin Zərdüştilik dinini dövlət dini etməkdə ***məqsədi*** aşağıdakılar idi:

- ***Öz hakimiyyətlərini möhkəmləndirmək.***
- ***Xristianlığın yayılmasının qarşısını almaq.***
- ***Əsarət altına aldıqları xalqları itaətdə saxlamaq.***

Şahənşah **I Şapur (241-272)** itaət altına alınmış ölkələrdə ***Zərdüştliyi zorla yaymaq haqqında əmr*** verdi. Bu işə maneçilik törədənlər amansız təqiblərə məruz qalırdılar. Bu dövrdə ən mühüm ***Zərdüştlik məbədləri*** yenədə **Atropatenada** yerləşirdi. Sasanilər dövründə Atropatenanın dini mərkəz kimi şöhrətli yer tutduğunu aşağıdakı faktlar da sübut edir:

- **Qazaka şəhərindəki məbədin yenə də ölkədə *baş məbəd* hesab edilməsi.**
- **Atropatenanın Zərdüşt dininin ideoloji və təlim mərkəzi olaraq qalması.**
- **Şahənşahlar taxta çıxdıqdan sonra dövlətin paytaxtından Qazakaya piyada ziyarətə getmələri.**
- **Zərdüşt rühanilərinin (kahinlərinin) Qazakadakı baş məbəddə dini təlim aldıqdan sonra imperiyanın başqa dini mərkəzlərinə göndərilməsi və.s.**

***Sasanilərin hakimiyyəti dövründə Zərdüştiliyin hakim dinə çevrilməsinin səbəbləri***

| Sasanilərin hakimiyyətlərini möhkəmləndirmək istəməsi | Ölkədə xristianlığın yayılmasının qarşısını almaq | Əsarət altına alınmış xalqları itaətdə saxlamaq |
|---|---|---|

# Albaniya Erkən Orta əsrlərdə

## Erkən Feodalizm dövründə Albaniyanın ərazisi və əhalisi

IV əsrdə Albaniya dövlətinin ərazisi - ***şimalda*** **Qafqaz dağlarından Araz çayınadək,** ***qərbdə*** **İberiyadan Xəzər dənizinədək** uzanırdı. İnzibati bölgü baxımından isə Albaniya ***vilayətlərdən*** ibarət idi. Erkən Orta əsrlərdə Albaniya aşağıdakı vilayətlərdən ibarət idi:

- **Çola vilayəti** - indiki Dərbənd şəhərinin yerləşdiyi ərazidən Beşbarmaq dağına qədər Xəzər dənizi boyunca uzanırdı. ***"Dəmir qapı"*** və yaxud ***alban qapıları*** adlanan keçid bu vilayətdə yerləşirdi. Dərbənd keçidi şimaldan müxtəlif xalqların Albaniyaya soxulmasının qarşısını almaq üçün etibarlı müdafiə səddi rolunu oynayırdı. Vilayət ***üzüm, meyvə*** və ***taxılla*** zəngin idi.
- **Şəki vilayəti** - Albaniyanın ***şimal-qərbində*** yerləşirdi və ölkənin əsas ***toxuculuq mərkəzi*** hesab olunurdu. Burada ipək parça istehsalı üçün xammal mənbəyi olan ***tut ağacları*** yetişdiriliri.
- **Lipina vilayəti -** Çola ilə Şəki arasında yerləşirdi. Bu vilayətdə Albaniyanın paytaxtı **Qəbələ şəhəri** yerləşirdi. Vilayət qoz-fındıq ağaclarından ibarət olan meşələrlə əhatə edilmişdir.
- **Paytakaran vilayəti -** indiki Azərbaycan Respublikasının ***cənub-şərq hissəsində*** yerləşirdi və **Xəzər** dənizinin sahillərini**,** Mil və Muğan düzlərinin bir hissəsini əhatə edirdi. Burada qışda böyük qoyun sürüləri saxlanılır, yayda isə Qarabağ yaylaqlarına köçürülürdü. Vilayətin əhalisi ***balıq*** saxlayır və xaricə ixrac edirdilər.
- **Arsax vilayəti –** sağsahil Albaniyasını, indiki ***Qarabağın dağlıq hissəsini*** və ***Mil düzünü*** əhatə edirdi. Bu vilayətin əhalisini türksoylu - ***albanlar, qarqarlar, hunlar*** və ***xəzərlər*** təşkil edirdi.
- **Uti vilayəti -** Kürün ***sağ sahilində*** yerləşirdi. Şərqdə Paytakaranla, cənubda Arsaxla, qərbdə isə İberiya ilə həmsərhəd idi. Uti vilayətində meyvəsindən yağ alınan çoxlu ***zeytun ağacı*** bitirdi.




## Albaniyanın təsərrüfatı

Albaniyanın zəngin və çoxsahəli təsərrüfatı haqqında məlumatları yalnız ***arxeoloji qazıntılar*** nəticəsində aşkar edilmiş ***maddi mənbələr*** vasitəsi ilə əldə edilmişdir. Erkən Orta əsrlərdə Albaniyanın təsərrüfatına ***aiddir:***

- Məhsuldar düzənliklərdə və çay vadilərində ***dənli*** və ***texniki, bostan*** və ***tərəvəz*** bitkiləri becərilirdi.
- ***Üzümçülük*** yaxşı inkişaf etmişdi.
- Zəfəran, tut ağacı və kətan yetişdirilirdi.
- Kənd təsərrüfatında ***şərabçılıq*** mühüm rol oynayırdı.
- Kür çayı sahilində ***pambıq*** yetişdirilirdi.
- Kür sahillərində çoxlu tut bağları – ***çəkilliklər*** ipəkçiliyin inkişafını təmin edirdi.

- ***Keçi, qoyun, qaramal, at*** və ***dəvə*** sürüləri saxlanılırdı.
- Şəhərlərdə əkinçiliklə əlaqəsini kəsmiş azad sənətkarlar meydana gəlmişdi.
- Sənətkarlıqda ***toxuculuq, metalişləmə, ağac, dəri emalı*** və ***daşyonma*** sənəti yüksək inkişaf etmişdi.
- Ölkənin zəngin xammal və zəruri ehtiyac malları ilə bol olması sənətkarlığın inkişafına imkan yaratmışdı.
- Dağlıq ərazilərin otlaqlarla zəngin olması və Xəzərlə Kür-Araz ovalıqlarının geniş çölləri ***köçmə maldarlığın*** inkişafına şərait yaratmışdı.

**Erkən Orta əsrlərdə Albaniyada yüksək inkişaf səviyyəsinə çatmış sənətkarlıq sahələr**

- **toxuculuq**
- **dəri emalı**
- **ağacişləmə**
- **daşyonma**
- **metalişləmə**

## Albaniyanın Sasanilər imperiyasının tərkibinə qatılması

**260-cı ildə** Sasani şahı **I Şapur (241-272)** Roma ordusunu məğlubiyyətə uğradaraq imperator **Valerian** əsir tutduqdan sonra qonşu ölkələrə ona tabe olmaq üçün məktublar göndərdi. Bu zaman ***albanlar və iberlər şahın məktubunu qəbul etmədilər***. Həmin dövrdə Albaniyada hakimiyyətdə olan **I Vaçe (255-262)** Roma ilə ittifaqı Sasanilərə tabe olmaqdan üstün tutmuşdu. Buna baxmayaraq, **262-ci ildə** Albaniya Sasani imperiyasının tərkibinə daxil edildi. Albaniyanın Sasani imperiyasının tərkibinə daxil edilməsini **I Şapurun 262-ci ildə *Nəqşi-Rüstəmdəki məbədin divarında həkk etdiyi yazı*** da sübut edir. Nəqşi-Rüstəmdəki məbədin divarındakı yazıda Sasani dövlətinə daxil olan ölkələr arasında Albaniyanın da adı qeyd edilmişdir. **272-ci ildə, *I Şapurun ölümündən sonra*** Albaniya yenə də əvvəlki kimi ***müstəqil xarici siyasət yeritməyə*** başladı.

## Albaniya dövlətinin idarə olunması

Albaniya Erkən Orta əsrlərin başlanğıcından etibarən **Sasani** və **Roma** dövlətinin maraq obyektinə çevrilsədə müəyyən vaxtlarda öz müstəqilliyini qoruyub saxlaya bilmişdir. Mənbələrin məlumatına görə Albaniyada ilk əvvəl ***yerli Aranilər sülaləsi*** hakimiyyətdə olmuşdur. Sonralar isə ölkəni Sasani sülalələrinə yaxın yerli nümayəndələr idarə etmişdilər. Ümumiyyətlə, Albaniyada ardıcıl olaraq ***üç sülalə*** hakimiyyətdə olmuşdur:

1. Yerli mənşəli **Aranilər sülaləsi.**
2. Türk mənşəli **Arşakilər sülaləsi.**
3. Sabir türklərindən olan **Mehranilər (Girdiman) sülaləsi.**

**II əsrin əvvəllərində** bir sıra qonşu dövlətlər Romanın təsiri altına düşsə də Albaniya müstəqilliyini qoruyub saxlaya bilmişdi. **III əsrdə** alban Arşaki nümayəndəsi **I Cəsur Vaçaqan (215-255)** hakimiyyəti dövründə:

- Albaniyanın bütün vilayətlərini birləşdirdi
- Albaniyanı vahid güclü dövlətə çevirdi

Arşakilər sülaləsi **VI əsrin əvvəllərinədək** Albaniyanın daxili müstəqilliyini əsasən qoruyub saxlamağa nail oldu.




**Albaniyanın Sasani və Roma imperiyaları arasında mübarizə meydanına çevrilməsi**

**IV əsrdə**, Sasani şahı **II Şapurun hakimiyyəti (309-379)** dövründə Albaniyada daxili vəziyyət mürəkkəbləşdi və Cənubi Qafqaz, o cümlədən Albaniya torpaqları ***Sasani və Roma imperiyaları arasında*** mübarizə meydanına çevrildi. Kiçik Asiyada – ***Van gölünün qərbində*** mövcu olan kiçik ***erməni çarlığı*** bu mübarizədə **Roma ilə** müttəfiqlik edirdi. Kiçik erməni çarlığı Azərbaycan torpaqlarını ələ keçirmək üçün **xristianlığı yaymağı** bir vasitəyə çevirdi. Bu məqsədlə Albaniyaya ***xristian təbliğçiləri*** göndərilirdi. Xristianlıq, əsasən Albaniyanın **Paytakaran vilayətində** təbliğ olunurdu.

**Erkən Orta əsrlərdə Albaniyanı öz maraq obyektinə çevirmiş dövlətlər**






### Sanatürkün erməni çarlığı üzərinə yürüşü

Paytakaran vilayətinin hakimi **Sanatürk (290-338)** burada ***xristianlığın yayılmasına qarşı*** bir sıra tədbirlər həyata keçirərək **Van gölü istiqamətində** erməni çarlığı üzərinə yürüş etdi. Sanatürkün bura yürüş etməkdə məqsədi aşağıdakılar idi:

- ***Paytakaran vilayətində xristianlığın yayılmasının qarşısını almaq.***
- ***Albaniyanın müstəqilliyini qorumaq.***
- ***Ölkənin ərazi bütövlüyünü təmin etmək.***

**337-ci ildə** Sanatürkün erməni çarlığı üzərinə hücumu ***nəticəsində:***

- Erməni çarlığının paytaxtını ələ keçirilərək bir il ərazini öz əlində saxlamağa nail oldu.
- Etmənilərin xristianlığı yaymaq yolu ilə Azərbaycan torpaqlarını işğal etmək planlarını birdəfəlik iflasa uğratdı.

Lakin erməni çarlığının işğalı Sasani şahı II Şapurun ***mənafeyinə uyğun gəlmədiyi üçün*** Sanatürkə kömək göndərmədi. Eyni zamanda ***ermənilər*** Sanatürkə qarşı ***Roma*** və ***iberlərdən*** ibarə***t ittifaq*** yaradırlar. **338-ci ildə** Sanatürk ermənilərlə döyüşlərin birində həlak oldu. Sanatürk ***hunları, basilləri*** və digər qardaş türk tayfalarını ittifaqa cəlb etmişdi. Bundan sonra həmin tayfalar Dərbəndi keçərək **Ablaniyada** məskən saldılar. Həmin tayfalar Sanatürklə bağladığı sazişə sadiq qalaraq Albaniyada 4 il qalaraq ölkəni xarici təcavüzlərdən qorudular.




**338-ci ildə Sanatürkün qoşunlarını məğlub etməkdə ermənilərə tökək etmiş qüvvələr**




### Albaniyada Urnayrın hakimiyyəti (343-371)

Albaniya ilə münasibətlərə xüsusi əhəmiyyət verən Sasani hökmdarı II Şapur **343-cü ildə** burada öz qohumu, **Arşaki nümayəndəsi Urnayrı (343-371)** hakimiyyətə gətirdi. Urnayrın hakimiyyəti ***dövründə:***

- Albaniya, əsasən müstəqil siyasət yeritdi.
- Albaniya torpaqlarının bütövlüyünü qoruyub saxlamağa çalışdı.
- Sasani şahı II Şapurla müttəfiqlik münasibətləri saxladı.
- II Şapur Albaniyada xristian dininə qarşı təqibləri gücləndirdi.
- Ön Asiya uğrunda mübarizədə Alnaniya Romaya qarşı Sasanilərin müttəfiqi kimi çıxış etdi.
- Amid və Dizirav döyüşlərində Albaniya sasanilər tərəfindən Romaya qarşı vuruşdu.
- Albaniya Uti, Şakasen, Kolt vilayətlərini və Girdiman vadisini itirdi.

### Amid döyüşü (359-cu il)

IV əsrin ikinci yarısında ***Ön Asiya uğrunda*** Sasanilərlə Roma arasında mübarizə yenidən başladı. Ön Asiya uğrunda mübarizədə onlar arasında iki mühüm döyüş - **Amid** və **Dizirav döyüşləri** baş vermişdi.

Roma ilə Sasani arasında **Amid yaxınlığında** döyüş **359-cu ildə** başladı. Döyüşdə Albaniya hökmdarı Urnayr sasanilər tərəfindən vuruşurdu. Sasani qoşunu ***Ağrıdağ vilayətini*** tutmuşdu. Döyüş zamanı ***Naxçıvan şəhəri*** Sasani ordusunun düşərgəsinə çevrildi. Amid döyüşü ***nəticəsində:***

- ***Sasani şahı II Şapur qələbə qazanaraq xristian dininə qarşı təqibi gücləndirdi.***
- ***Albaniyanın Arsax (Ərsaq), Kaspiana, Marlar ölkəsi (indiki Naxçıvan) vilayətləri geri qaytarıldı.***

### Dizirav döyüşü (371-ci il)

**Dizirav döyüşü** Roma-Sasani qoşunları arasında **371-ci ildə** baş verdi. Bu döyüşdə Albaniya (Urnayr) yenə də Sasanilər tərəfindən iştirak edirdi. Urnayrın Sasanilər tərəfində vuruşmasında iki məqsədi var idi:

- Albaniya torpaqlarının bütövlüyünü qoruyub saxlamaq.
- Van gölünün qərbində yerləşən erməni çarlığının Azərbaycana qarşı qəsbkarlıq yürüşlərinə son qoymaq.

Dzirav döyüşü ***nəticəsində:***

- ***Sasanilərlə albanların birləşmiş qüvvələri məğlub oldular***
- ***Albaniya Uti, Şakasen, Kolt vilayətlərindən və Girdiman vadisindən məhrum oldu***

**387-ci ildə** Roma ilə Sasanilər arasında sülh müqaviləsi bağlandı. Müqavilənin şərtlərinə əsasən:

1. **Albaniyanın Dzirav döyüşündə itirdiyi vialyətləri geri qaytarıldı.**
2. **Van gölü sahilindən qərbdə yerləşən kiçik erməni çarlığının ərazisi Roma ilə sasanilər arasında bölüşdürüldü və erməni çarlığı süqut etdi.**

**Urnayrın Amid və Dizirav döyüşlərində Sasanilər tərəfindən vuruşmasının səbəbi**




**Amid və Dizirav döyüşlərinin oxşar cəhətləri**



| Amid döyüşündə itirilən vilayətlər | Dizirav döyüşündə itirilən vilayətlər |
|---|---|
| • Arsax vilayəti | • Uti vilayəti |
| • Kaspiana vilayəti | • Şakasena vilayəti |
| • Marlar ölkəsi (Naxçıvan) | • Kolt vilayəti |
| | • Girdiman vilayəti |

## Albaniya ərazisində xristianlığın yayılması

**IV əsrin əvvəllərində** Albaniyada xristianlıq dini yayılmağa başladı. Lakin bu dini yalnız Albaniyanın kiçik bir ərazisində, ***Qarabağın dağlıq hissəsində*** yaşayan ***feodal əyanları*** qəbul etdilər. Sasani şahı **I Yezdəgerd (379-421)** hakimiyyətinin ilk illərində:

- ***Xristian dini etiqadına imkan verdi.***
- ***Xristianların xidmətindən istifadə etdi.***

Şahənşah I Yezdəgerddən fərqli olaraq, **II Yezdəgerdin (438-457)** dövründə ***sasani mərzbanları xristianlığa qarşı mübarizəni*** gücləndirdirlər. II Yezdəgerd Albaniyanın və ona qonşu olan ölkələrin hakimlərini **Ktesifona** çağırtdıraraq onları ***atəşpərəstliyi*** qəbul etməyə məcbur etdi. Lakin, vilayət hakimləri atəşpərəstliyi qəbul etsələr də, gizli şəkildə xristianlığa etiqad edirdilər. Albaniyanın geniş xalq kütlələri isə xristianlığı tam qəbul etməmişdilər və köhnə dini etiqadlarını saxlayırdılar. Yezdəgerdin bacısı oğlu olan alban hökmdarı **II Vaçe (440-463)** dayısının təzyiqi nəticəsində xristianlıqdan imtina edib, atəşpərəstliyi qəbul etdi. **Sünik** hökmdarı **Vasak** isə siyasətində Albaniyada ***Sasani dini ideologiyasını möhkəmləndirmək uğrunda*** mübarizə aparmışdı.




## Albaniyada feodal və kəndli qrupları. Feodal torpaq sahibiliyi

Albaniyada da Sasanilər dövlətində olduğu kimi feodallar iki qrupa bölünürdü:

1. **Patriklər** - iri feodallar.
2. **Azadlar** - orta və xırda feodallar.

Azadlar:

- *patriklərin vassalı hesab olunurdular.*
- *hökmdarlara qoşun verir, sarayda müəyyən vəzifələr tuturdular.*
- *müharibə vaxtı alban və sasani qoşunlarının tərkibində vuruşmalı idilər.*

- *kahinlər kimi can vergisindən azad idilər.*
- *alban və sasani hökmdarlarına xidmətə görə torpaq payı alırdılar.*

Sasanilər dövlətində ***dehqan*** adlanan xırda və orta feodallar Albaniyada ***azadlar*** adı kimi qeyd olunur.

Albaniyada əhalinin əsas hissəsini – ***kəndlilər*** təşkil edirdi. Albaniyada kəndlilər də iki qrupa bölünürdü:

- ***Azad icma üzvlərinə.***
- T***orpaqsız*** və ***aztorpaqlı*** kəndlilərə.

Feodal münasibətlərinin dərinləşməsi kəndlilərin bir hissəsinin kasıblaşmasına səbəb olurdu. Bu dövrdə Albaniyada ***qullar*** da qalmaqda idi. **V əsrdə** əsirlərlə yanaşı, ***canilər*** də qula çevrilirdi.

**V-VII əsrlərdə** Albaniyada feodal münasibətləri hakim mövqe qazandı və feodal torpaq sahibliyi formalaşdı. Albaniyada da torpaq mülkiyyət formaları sasanilər dövlətində olduğu kimi ***dastakert*** və ***xostak*** idi.

## Sasanilərin köçürmə siyasəti

Sasanilər dövləti ona tabe olan ərazilərə tədricən fars mənşəli əhalini strateji əhəmiyyəti olan ərazilərdə köçürdürdü. Sasani şahlarının köçürmə siyasətində iki məqsəd var idi:

1. ***Etnik dayaq yaratmaq.***
2. ***Torpaqsız İran kəndlilərini münbit torpaq sahələri ilə təmin etmək.***

Azərbaycanın şimalına köçürülən fars mənşəli əhali ***tatlar*** adı ilə məlumdur. Azərbaycanın şimalında **Abşeron, Şamaxı, Dəvəçi, Quba** bölgələrində İrandan çıxmış və müxtəlif etnik mənşəli tat əhalinin məskənləri yaranırdı. Azərbaycanın indiki **Lahıc kəndində** yaşayanlar İranın ***Lahıc kəndindən*** köçürülmüş tatların nəsilləridir.

**QEYD:** Sasanilər dövründə Azərbaycanda bütün inzibati və məhkəmə hakimiyyəti ***Sasani mərzbanlarının - canişinlərinin*** əlində cəmlənmişdi. Onların əhali haqqında ***ölüm hökmü çıxarmaq hüququ*** var idi. Canişinlər vergilərin toplanmasına, Sasani hakimiyyəti əleyhinə üsyanların qarşısını almağa nəzarət edirdilər.




## Albaniyada hökmdar hakimiyyətinin ləğvi (463-493-cü illər)

**457-ci ildə** Sasani hökmdarı ***II Yezdeyerdin vəfatından sonra*** alban hökmdarı **II Vaçe** öz daxili siyasətini dəyişərək - atəşpərəstlik dinindən imtina edib, ***xristian etiqadını*** qəbul etdi. Bu addımı atmaqda II Vaçenin məqsədi ***Sasani hakimiyyətinin tabeçiliyindən çıxmaq*** idi. II Vaçe **Çora dərəsini** tutdu, ***maskutları*** öz tərəfinə çəkdi. Vaçenin dönüklüyündən sonra şahənşah Firuz ***haylandur (onoqur) hunlarını*** alban hökmdarına qarşı müharibəyə qaldırdı. Onlar **462-ci ildə** Albaniyaya hücum etdilər. Bu mübarizə nəticəsində, **463-cü ildə** II Vaçe hakimiyyətdən əl çəkdi. Vaçenin xahişi ilə yalnız atasının miras qoyduğu mülk şah Firuz tərəfindən onun sərəncamına verildi.

Alban tarixçisi **Musa Kalankatlı** yazırdı ki, ***"II Vaçedən III Mömin Vaçaqana kimi 30 il müddətinə Albaniya hökmdarsız qaldı"*** (463-493-cü illərdə). Bu müddətdə Albaniya Sasani hakimiyyətinə tabe edilmiş və ***sasani məruzbanları*** tərəfindən idarə olunmuşdur.

## Albaniyada hökmdar hakimiyyətinin yenidən bərpa olunması (493-510)

Alban hökmdarı **III Mömin Vaçaqan** Albaniyada hökmdar hakimiyyətini bərpa etməyə cəhd göstərdi. Nəhayət, Sasani şahı **Balaş (484-488)** III Mömin Vaçaqanın Albaniyada hökmdar olmasına razılıq verdi. Tezliklə Sasani taxt-tacına **I Qubad (488-531)** çıxdı. **493-cü ildə Mömin Vaçaqan (493-510)** Albaniyada tam hakimiyyətə sahib oldu. III Mömin Vaçaqan hakimiyyəti dövründə:

- Albaniyada xristianlıq dinini fəal təbliğ edən məktəblər açdırdı.
- Xristianlıqdan başqa dinləri təqib etdi.
- "Cadugər, rəmmal və kahinlərin çoxuna xəsarət yetirmək, qovmaq, qula çevirmək" əmrini verdi.
- **498-ci ildə *Aquen kilsə məclisini*** çağırdı. Aquen kilsə məclisi:
    - ***xristian dininə aid qanunlar qəbul etdi.***
    - ***vergilərin miqdarını müəyyənləşdirdi.***

Lakin xristianlıq Albaniyada dərin kök sala bilmədi.

**510-cu ildə** Sasanilər Cənubi Qafqazda ***müstəqil dövlət qurumlarını*** ləğv etdilər. Bununlada Albaniyada Arşakilər sülaləsinin hakimiyyəti başa çatdı və ***sasani mərzbanlarının uzunmüddətli hökmranlığı dövrü*** **(510-629)** başlandı.

**QEYD:** ***Xristian dini etiqadlarını təbliğ etmələri*** Alban hökmdarları II Vaçe və III Mömin Vaçaqanın siyasi fəaliyyətində oxşarlıq təşkil edir.

| II Vaçe (440-463) | III Vaçaqan (493-510) |
|---|---|
| II Vaçe **457-ci ildə** Sasani şahı II Yezdəgerdin vəfatından sonra:<br>- Xristianlığı rəsmi din kimi qəbul etdi<br>- Ataşpərəstlik dinindən imtina etdi<br>- müstəqil siyasət yeridərək Sasanilərin tərkibindən çıxdı<br>- Qafqazın 11 hakimiylə ittifaqa girərək yeni sasani şahı Firuzun hakimiyyətinə qarşı çıxdı. Hunların Albaniyaya hücumu nəticəsində:<br>a) II Vaçe hakimiyyətdən əl çəkdi<br>b) Albaniyada xristianlığın yayılmasının qarşısı alındı<br>II Vaçedən sonra Albaniya 30 il hökmüdarsız qaldı. Bu tarixdə ***birinci* – *30 illik sasani məruzbanlığı*** dövrü adlanır **(463-493)** | - III Vaçaqan Albaniyada Arşakilər sülaləsinin sonuncu nümayəndəsi idi<br>- 493-510-cu ildə Albaniyada tam hakimiyyətdə olmuşdu<br>- Albaniyada ***xristianlığın yayılmasına*** çalışdı<br>- Bütərəstlik və cadugərləri təqib etdi<br>- **498-ci ildə** Aquen kilsə məclisini çağırdı. Aquen kilsə məclisi aşağıdakı qərarları qəbul etdi:<br>1. Vergilərin miqdarı müəyyənləşdirildi<br>2. Xristianlıq dininə aid qanunlar qəbul edildi<br>510-cu ildə öldükdən sonra Sasanilər Albaniyada yerli hakimiyyəti ləğv etdi və bununlada Albaniyada ***"uzunmüddətli sasani mərzbanlığı"*** dövrü **(510-629)** başladı və Arşakilər sülaləsinin hakimiyyəti başa çatdı. |

## Albaniyada Mehranilər sülaləsinin hakimiyyətə gəlməsi. Girdiman dövləti (629-705)

**VII əsrin əvvəllərində** Albaniyada Mehranilər sülaləsinin hökmranlığı dövrü başladı. Bu sülalə Albaniyanın **Girdiman vilayətində (indiki Şəmkir-Qazax bölgəsində)** yaranmışdı. Sonralar bu sülalənin və dövlətin mərkəzi **Partav (indiki Bərdə şəhəri)** oldu. Mehranilər sülaləsinin banisi **Mehran** olmuşdur.

Musa Kalankatlunun "Albaniya tarixi" əsərindən

Mehran **(570-590)** Sasani şahı II Xosrovun **(591-628)** qohumu idi. II Xosrovun atasının ölümündə təqsiri olduğu üçün onun qəzəbindən qorxaraq İrandan qaçıb Albaniyanın **Uti vilayətinə** gələrək ***xəzərlərlə*** birləşmək istəyirdi. II Xosrov xəzərlərlə birləşməsindən qorxduğu üçün Mehranı bağışladı və onu Girdiman vilayətinin hakimi kimi tanıdı. Mehranın düşmənlərlə birləşməsini istəməyən **II Xosrov** əyanların məsləhəti ilə ona belə bir məktubla müraciət etmişdi: ***"Mənim əziz qardaşım! Sən məni kinlə tərk etmə. Əgər sən mənim yanımda yaşamaq istəmirsənsə, onda mənim məktubum sənə yetən yerdə ayaqla keçə bildiyin qədər özünə mülk götür".*** Mehran bundan sonra Girdiman vilayətində onunla gələn ailələrlə birlikdə burada məskən saldılar.

Girdiman vilayətində o zaman ***türk mənşəli sabir tayfaları*** məskunlaşmışdılar. **574-cü ildə** Bizans ordusu Albaniyaya daxil olarkən Kür çayı sahilində ***sabirlər*** və ***albanlardan*** ibarət məskunlara rast gəlmişdi. Bizans və Sasanilər sabir türklərinin hərbi qüvvəsindən istifadə edirdilər. Mehranilər sülaləsinin əsasını ***sabir türləri*** təşkil edirdi. Mehran sasani şahı Xosrovla qohum olsa da, o, sabir türklərinin nəslindən idi. Girdiman ***ərazisi ilk vaxtlar Qazax-Şəmkir bölgəsini*** əhatə edirdi. Sonralar Kür çayının sol sahilinə doğru irəliləyən Mehranilərin hakimiyyəti Göyçay çayı və Girdiman çayı hövzələri də daxil olmaqla ***bütün Albaniyada*** yayıldı.

**630-cu ildə** Mehranilər nəslindən olan **Varaz Qriqorun (630-642)** Albaniyada hakimiyyətə gəlməsi ilə:

- Albaniyada 510-cu ildən bəri davam edən sasani mərzbanlığına son qoyuldu.
- Albaniyada Mehranilər sülaləsinin ***rəsmi hakimiyyəti*** (629-705) başladı.
- Sasanilər Mehranilərin müstəqilliyini tanımağa məcbur oldu.

Ərəblər sasanilərin ərazisinə hücum edərkən Varaz-Qriqor oğlu **Cavanşiri** sasanilərə köməyə göndərdi. Varaz Qriqorun hakimiyyəti dövründə Girdiman dövlətinin siyasi vəziyyəti ***gərgin*** idi. Odur ki, sasanilərdən asılı olan Varaz-Qriqor ***ölkənin təhlükəsizliyini təmin etmək üçün*** oğlu Cavanşiri hakimiyyətə gətirdi.

**Girdiman knyazlığının (Mehranilər sülaləsinin) hökmdarları**

**Mehran (570-590)** → **Cəsur Vardan (600-615)** → **Varaz Qriqor (630-642)** → **Cavanşir (642-681)** → **Varaz Trdat (681-705)**

**Sasani şahları və Albaniya**

| | |
|---|---|
| **I Şapur (241-272)** | Albaniya Sasanilər dövlətinin tərkibinə qatıldı. Onun ölümündən sonra Albaniya yenidən müstəqil xarici siyasət yeritməyə başladı |
| **II Şapur (309-379)** | Albaniyada daxili vəziyyət mürəkkəbləşdi və Albaniya Sasani ilə Roma imperiyaları arasında mübarizə meydanına çevrildi |
| **I Yezdəgerd (379-421)** | Xristian dini etiqadına imkan verərək onların xidmətindən istifadə etdi |
| **II Yezdəgerd (438-457)** | Sasani mərzbanlarını Ktesifona toplayaraq onlara atəşpərəstliyi qəbul etdirdi, Sasani mərzbanları Albaniyada xristianlığa qarşı mübarizəni gücləndirdirlər |
| **Firuz şah (459-484)** | Haylandur (onoqur) hunlarını alban hökmdarı II Vaçeyə qarşı müharibəyə qaldırdı. Bu mübarizə nəticəsində, II Vaçe 463-cü ildə hakimiyyətdən əl çəkdi |
| **Balaş (484-488)** | III Mömin Vaçaqanın Albaniyada hökmdar olmasına razılıq verdi |
| **I Qubad (488-531)** | III Mömin Vaçaqan Albaniyada tam hakimiyyətə sahib olsada, sonra Albaniyanın müstəqilliyi ləğv olundu |
| **II Xosrov (591-628)** | Mehranın Girdiman vilayətinə onunla gələn ailələr ilə birlikdə məskən salmasına icazə verdi |

## Albaniya hökmdarı Cavanşirin hakimiyyəti (642-681)

Cavanşir hakimiyyətinin ilk dövrü mürəkkəb siyasi şəraitə – ***ərəblərin hücumu ərəfəsinə*** təsadüf etdi. “Alban tarixi”ndə və Orta əsr müəlliflərin əsərlərində hökmdar və sərkədə kimi Cavanşirin **İber sərhədlərindən Hun qapılarına (Dərbənd) və Araz çayına kimi ərazinin mütləq hakimi olması** təsdiq edilir. Cavanşirin hakimiyyəti dövründə (642-681) onun dövlətçilik **fəaliyyətinə** aşağıdakılar daxil idi:

1. ***Ölkənin daxili sabitliyini təmin etmək.***
2. ***Ərəb, Bizans və Xəzər dövlətləri ilə münasibətləri qaydaya salmaq.***

Cavanşirin Albaniyada hakimiyyəti ***dövründə:***

- Ölkədə dinc quruculuq işlərinə başlamaq üçün şərait yarandı.
- İberiya sərhədlərindən Hun keçidinə və Araz çayına qədər ərazidə hökmranlıq etdi.
- Albaniya bir sıra xarici dövlətlərlə diplomtatik münasibətlər qurdu.
- Müstəqilliyə can atan ***iri feodal əyanlara*** qarşı ciddi mübarizə aparıldı.
- Şimaldan Albaniyaya hücum etmiş **xəzər** türklərini geri oturtdu.
- Cənubdan gələn təhlükəni Albaniyadan sovuşdurmaq və Albaniyanın bütövlüyünü saxlamaq məqsədi ilə Ərəb xilafətinin asılılığına keçdi.
- Cavanşir paytaxt **Bərdənin** abadlığına, gözəl sarayların tikilməsinə xüsusi diqqət yetirdi, alimləri, şairləri və mahir sənətkarları öz sarayına toplayıb himayə etdi.




## Erkən Orta əsrlərdə Azərbaycan mədəniyyəti

### Azərbaycanın Sasanilər imperiyasının tərkibində olmasının əhəmiyyəti

Azərbaycanın torpaqlarının ***vahid dövlətin*** - Sasanilər imperiyasının tərkibində olmasının böyük əhəmiyyəti var idi. Belə ki, Azərbaycanın Sasanilər imperiyasının tərkibində olması ***nəticəsində:***

- **Mədəniyyət inkişaf etdi.**
- **Tarixən mövcud olmuş sosial-iqtisadi və mədəni əlaqələr daha da inkişaf etdi.**
- **Sasani imperiyasına daxil olan xalqlarla mədəni əlaqələr daha da gücləndi.**
- **Azərbaycan mədəniyyəti Sasani mədəniyyətinin inkişafına güclü təsir göstərdi.**
- **Azərbaycanın cənub və şimal bölgələri arasında etnik-siyasi birlik yarandı.**

III-VII əsrlərdə Azərbaycanın bütöv halda Sasani imperiyasının tərkibində olması ***mütərəqqi hadisə*** idi. Çünki bütün Azərbaycan torpaqlarının Sasani imperiyasının tərkibində olması nəticəsində:

- **Vahid Azərbaycan xalqının yaranması prosesi sürətləndi**
- **Ölkənin bütün bölgələri arasında daxili əlaqələr, ilk növbədə ticarət əlaqələri genişləndi**
- **Etnik-siyasi və mədəni birliyin yaranması yolunda mühüm irəlləyiş baş verdi**
- **Sasani əsarətinə qarşı uzunsürən azadlıq mübarizəsi ölkənin türk və qeyri-turk əhalisini daha sıx birləşdirdi, onların qanayıb-qarışmasında müsbət təsir göstərdi.**

### Alban yazısı

Atropatenada Sasani dövlətində tətbiq olunan ***pəhləvi yazı*** sistemindən istifadə edilirdi. Azərbaycanın şimalında isə mənbələrə və arxeoloci materiallara görə **V əsrin əvvəllərində** 52 işarədən ibarət ***Azərbaycan-alban əlifbası*** mövcud idi. **1948-ci ildə** Mingəçevirdə qazıntılar zamanı aşkar edilmiş qısamətinli ***epiqrafik abidələr*** bu yazının bir növü kimi qəbul edilə bilər. Mingəçevirdə qazıntılar zamanı aşkar edilmiş yazı 21 işarədən və 4 sətirdən ibarətdir. Buradan üzərində alban yazısı olan ***dördkünc ştamp*** da tapılmışdır. ***İslam dininin Azərbaycanda yayılması*** alban əlifbasının sıradan çıxmasına səbəb oldu. İslam

dinini qəbul etmiş Azərbaycan əhalisi ***ərəb əlifbasından*** istifadə etməyə başladı. Ümumiyyətlə, Albanların öz yazısının olmasını aşağıdakı faktlar sübut edir:

- **III əsrdə** albanların Romaya yazılı məlumat göndərməsi.
- **V əsrdə** alban dilində fərman tərtib olunması.

## Alban memarlığı. Şəhərlər

Erkən Orta əslərdə Alban memarlığını xarakterizə edən ***torpaq sədlər***, ***qalalar*** və ***məbəd tikintisi*** geniş yayılmışdı. Bu dövrdə Azərbaycanın şimala gedən yolları üzərində ***torpaq-sədlər*** tikilmişdir. Bir qoşa divar **Beşbarmaq dağından dənizədək** uzanırdı. **Şirvan səddi** (Gilgilçay boyu) Beşbarmaq divarından 23 km şimalda çəkilmişdir. **Çıraqqala** bu səddin başlanğıcında dağ zirvəsində yerləşirdi. Digər sədd **Samur çayından şimalda** inşa edilmişdi. Ən əzəmətli divar səddi Dərbənd yanında tikilmiş - **Dərbənd səddi** (V-VII əsrlər) yüksəklikdən dənizin içinədək tikilmişdi. Bu sədlər ***Şimaldan gələn hücumların qarşısını almaq üçün*** tikilmişdir.

**III-VII əsrlərdə Alban memarlıq abidələri** hesab olunan aşağıdakı ***qalalar*** inşa olunmuşdur:

- **Torpaqqala (Alazan çayı sahilində).**
- **Çarabkert qalası (Ağdərə rayonunda).**
- **Govurqala (Ağdam rayonunda).**
- **Cavanşir qalası (İsmayıllı rayonunda).**
- **Dərbənd qalası.**

Albaniyada məbədlər ***xristianlığın yayılması ilə əlaqədar*** tikilirdi. Alban məbədlərinin qalıqlarına **Qəbələ, Qax, Yuxarı Qarabağ, Şəki, Zaqatala, Mingəçevir, Ağdam, Kəlbəcər, Laçın, Qubadlı** və s. yerlərdə rast gəlinir.

Azərbaycanda şəhərsalma ənənəsi qədim zamanlarda meydana gəlmiş və Erkən Orta əsirlərdə davam etdirilmişdi. Bu dövrün mənbələri bir çox yeni şəhərlərin adını çəkir. **Dərbənd, Partav (Bərdə), Çola, Hunarakert (Hun şəhəri), Paytakaran, Təbriz, Siz, Ərdəbil, Naxçıvan, Gəncə, Şəki, Şəmkir, Şabran, Xalxal, Beyləqan** və.s şəhərlər həmin dövrlərdən mövcud olmuşdur.

## Erkən Orta əsrlərdə Azərbaycan əhalisinin dini görüşləri

Erkən Orta əsrlərdə Azərbaycan əhalisi qədim dini etiqadlarını qoruyub saxlayırdı. Bütlərə, oda, müxtəlif göy cisimlərinə, təbiət hadisələrinə ibadət və cürbəcür əşyalara inam hələ də mövcud idi. Tək Allaha ibadət ilk dəfə Zərdüştilik dininin ehkamı kimi yayılırdı. Lakin Zərdüştilik dini dünyəvi dinə çevrilmədi. Onun təkallahlığa çağırışı Azərbaycanda (eləcə də Sasanilərdə) atəşpərəstlik dini ehkamına qarışdı. Sasani hakimiyyəti illərində xalq kütlələrinin yaxşı və xoşbəxt həyat arzularına uyğun gələn Mani və Məzdək təlimi Xeyirlə Şərin mübarizəsi ideyası ***Zərdüştlük dininin təsiri altında*** meydana gəlmişdir. İranda və başqa yerlərdə olduğu kimi, Azərbaycanda da əhali sosial və iqtisadi çətinliklərdən qurtuluşu ***köhnə dinlərdə*** görürdü. Buna görə də Zərdüştilik Sasani imperiyasında ***dövlət dini səviyyəsinə*** qaldırılmışdı. Azərbaycan əhalisi arasında da Zərdüştilik geniş yayılmışdı.

Bəhs olunan dövrdə Azərbaycanda əhali nəzir deyir, pirlərə, sehrbaz və rəmmallara gedirdilər. Bunlara inam o qədər dərin imiş ki, Azərbaycanda xristianlığı yayanlar, ilk növbədə sehr, cadu və rəmallıqla məşğul olanları cəzalandırırdılar. **III Mömin Vaçaqan *“cadugər, rəmmal və kahinlərin çoxuna xəsarət yetirmək, yaxud qovmaq, ya da qula çevirmək” əmrini*** vermişdi. Əhali isə köhnə dinlərə sitayişi qorunub saxlamış, nəticədə Albaniya xristian ölkəsinə çevrilməmişdi. Ərəb işğalı ərəfəsində Azərbaycanda xristianlığın mövqeyi zəif idi və dərin kök sala bilməmişdi. Qədim türklərin tək Allahı olan **Ulu tanrıya** sitayiş – **tanrıçılıq** Azərbaycan ərazisində başqa təkallahlı dinlərdən daha tez yayılmış olsa da, bu din hələ də başqa dini görüşləri sıxışdırıb aradan çıxara bilməmişdi.

Erkən Orta əsrlərdə Azərbaycan əhalisinin dini görüşləri

| Zorla xristianlıq Azərbaycanda qəbul etdirilirdi | Sasanilər Zərdüştiliyi dövlət dini səviyyəsinə qaldırılmışdı | Tanrıçılıq başqa təkallahlı dinlərdən daha tez yayılmışdı | Əhali pirlərə gedir, sehrbaz və rəmmallara gedirdilər |
|---|---|---|---|

**Türk tayfalarının Azərbaycan xalqının təşəkkülündə rolu**

Erkən Orta əsrlərdə Azərbaycanda ***alban, kaspi, müq, qarqar, udin, girdiman*** tayfaları yaşayırdı. Bu dövrdə Azərbaycanda yaşayan etnosların əksəriyyəti ***türk mənşəli*** idilər. Girdiman dövlətinin əhalisinin əsasını da ***türklər*** təşkil edirdi. Qədim və Erkən Orta əsrlər dövründə türklərin Azərbaycana üç böyük etnik axın olmuşdur:

- **Birinci etnik axında** - Azərbaycanda türk mənşəli ***kimmer, iskit, sak tayfaları*** məskunlaşmışdılar.
- **İkinci etnik axında** Azərbaycanda türk mənşəli ***hun tayfaları*** məskunlaşmışdılar.
- **Üçüncü etnik axında** - Azərbaycanda türk mənşəli ***səlcuq tayfaları*** məskunlaşmışdılar.

Bu axınlarda gələn türk tayfaları içərsində ***oğuz türkləri*** üstünlük təşkil edirdi. İlk oğuzlar ümumtürk məkanının tərkib hissəsi olan **Cənubi Qafqaza,** o cümlədən **Azərbaycan ərazisinə - Dərbənd keçidi və Böyük Qafqazın** başqa dağ aşırımlarından keçərək yayılmışdır.

**Türk etnoslarının Azərbaycana etnik axınları**

| | |
|---|---|
| **Birinci etnik axın** → | **E.ə VII əsrdə *kimmer, iskit, sak tayfalarının*** Azərbaycanda məskunlaşması |
| **İkinci etnik axın** → | **I-V əsrlərdə *hun tayfalarının*** başçılığı ilə ***xəzər, sabir***, ***oğuz*** və.b tayfaların Azərbaycanda məskunlaşması |
| **Üçüncü etnik axın** → | **X-XI əsrlərdə *Səlcuq türklərinin*** başçılığı ilə türk tayfalarının Azərbaycanda məskunlaşması |

# Xronologiya

| | |
|---|---|
| **I-V əsrlər** | Hun, xəzər, sabir və başqa türk tayfalarının Azərbaycanda məskunlaşması |
| **I əsr – 510** | Türk mənşəli Arşakilər sülaləsinin Albaniyada hakimiyyəti |
| **215-255** | Alban hökmdarı I Cəsur Vaçaqanın hakimiyyəti |
| **226** | Ərdəşir Babəkanın Parfiya dövlətini süquta uğratması və Sasanilər dövlətinin əsasını qoyması |
| **227** | Atropatena dövlətinin öz müstəqilliyini itirərək Sasanilər dövlətinin tərkibinə qatılması |
| **255-262** | Alban hökmdarı I Vaçenin hakimiyyəti |
| **260** | I Şapurun Roma ordusunu məğlubiyyətə uğradaraq imperator Valerianı əsir alması |
| **262** | Albaniyanın Sasani imperiyasının tərkibinə daxil edilməs |
| **272** | I Şapurun vəfat etməsi və Albaniyanın yenidən müstəqil xarici siyasət yeritməyə başlaması |
| **290-338** | Paytakaran vilayətinin hakimi Sanatürkün hakimiyyəti |
| **III əsr** | İranda yüksək zümrələrin ağalığına qarşı Manilik hərəkatı baş verməsi |
| **IV əsr** | Albaniyada xristianlığın yayılmağa başlaması |
| **IV əsr** | Atropatenanın iqtisadi yüksəliş keçirməsi və əmtəə istehsalının genişlənməsi |
| **337** | Sanatürkün erməni çarlığı üzərinə hücum etməsi |
| **338** | Ermənilərin Roma və iberlərlə ittifaq yaradaraq Sanatürkü məğlub etməsi |
| **343-371** | Alban hökmdarı Urnayrın hakimiyyəti |
| **359** | Amid döyüşünün baş verməsi |
| **371** | Dzirav döyüşünün baş verməsi |
| **387** | Roma ilə Sasanilər arasında sülh müqaviləsi bağlanması |
| **440-463** | Alban hökmdarı II Vaçenin hakimiyyəti |
| **457** | II Vaçenin atəşpərəstlik dinindən imtina edərək xristian dinini qəbul etməsi |
| **462** | Şahənşah Firuzun təkidilə Hoylandur (Onoqur) hunlarının Albaniyaya hücum etməsi |
| **463-493** | Albaniyada Sasani mərzbanlarının qısamüddətli hökmranlığı dövrü |
| **481-529** | İranda Məzdəkilər hərəkatı baş verməsi |
| **493-510** | Albaniyada III Mömin Vaçaqanın hakimiyyəti |
| **498** | Aquen kilsə məclisinin çağırılması |
| **V əsr** | Alban dilində fərman tərtib olunması |
| **V-VII əsrlər** | Albaniyada feodal münasibətlərinin hakim mövqe qazanması |
| | Sasanilərin Cənubi Qafqazda müstəqil dövlət qurumlarını ləğv etməsi və Albaniyada uzunmüddətli sasani mərzbanlığı dövrünün başlanması |
| **510-629** | Albaniyada Sasani mərzbanlarının uzunmüddətli hökmranlığı dövrü |
| **529** | Məzdəkin şahənşah I Qubad tərəfindən edam edilməsi |
| **570-590** | Albaniyanın Girdiman vilayətinin hakimi Mehranın hakimiyyəti dövrü |
| **603-629** | Bizans və Sasani imperiyaları arasında müharibənin son mərhələsi |
| **623** | Bizans imperatoru II İraklinin sasanilər üzərinə hücuma keçməsi |
| **629-705** | “Mehranilər (Girdiman) sülaləsi”nin Albaniyada hakimiyyəti dövrü |
| **630-642** | Varaz Qriqorun Albaniyada hakimiyyəti |

# VI BÖLMƏ

## AZƏRBAYCAN XİLAFƏTİN TƏRKİBİNDƏ (VII ƏSR – IX ƏSRİN ORTALARI)

### Azərbaycan ərəb işğalları ərəfəsində

**Ərəb işğalları ərəfəsində Azərbaycanda siyasi vəziyyət**

Ərəb işğalları (Xilafətin ordularının hücumları) ərəfəsində Azərbaycanda siyasi vəziyyət aşağıdakı kimi idi:

- Daxili siyasi vəziyyət mürəkkəb idi
- Cənubi Azərbaycan Sasanilərdən tam asılı vəziyyətdə olsada Albaniya daxili müstəqilliyini saxlayırdı
- Cənubi Qafqaz uğrunda Bizans və Sasani imperiyaları arasında müharibələr, bağlanan sülh müqavilələri uzunmüddətli və sabit olmaması səbəbi ilə fasilələrlə davam edirdi
- Bizans və Sasani imperiyaları arasında hərbi əməliyyatlar əsasən Azərbaycan ərazisində gedirdi.
- İşğalçılar ölkənin sərvətini talayır, sənətkarları əsir aparır, əhalinin sayı azalır, ölkənin inkişaf ahəngi pozuludu
- VII əsrin əvvəllərində Bizans və Sasani imperiyaları arasında müharibənin son mərhələsinin başlamasından istifadə edən Albaniya əhalisi sasanilərin əsarətinə qarşı üsyana başlasada şahənşahın qoşunları tərəfindən amansızlıqla yatırıldı və üsyançılara divan tutuldu

**Ərəb işğalları ərəfəsində Azərbaycan uğrunda mübarizə aparan dövlətlər**

**Bizans** | **Sasanilər**

**Bizans və Sasani imperiyaları arasında müharibənin son mərhələsi (603-629)**

Cənubi Qafqaz uğrunda Bizans və Sasani imperiyaları arasında müharibənin son mərhələsi **603-cü ildə** Sasani hökmdarı ***Xosrov Pərvizin (591-628) hücumu ilə*** başlandı və 25 il davam etdi. Müharibənin əvvəlində:

- Sasani qoşunu üstünlüyü ələ alaraq ***əhəmiyyətli qələbələr qazandı*** və ***Misiri tutdu***
- Bizansın paytaxtı ***Konstantinopol*** təhlükə qarşısında qaldı

Lakin sasanilər bu üstünlüyü axıracan əllərində saxlaya bilmədilər. **623-cü ildə** 120 minlik qoşunla Bizans imperatoru **II İrakli (610-641)** sasanilər üzərinə hücuma keçdi. Bu hücum zamanı II İrakli:

- ***Dəbili*** və ***Naxçıvanı*** qarət etdi
- Atropatenanın paytaxtı Qazaka şəhərini tutaraq burada atəşpərəstlərin baş məbədgahını dağıtdı
- Qazakadan xeyli əsir və qənimət ələ keçirdikdən sonra şimala hərəkət etdi
- Bərdə yaxınlığında Tərtər çayı sahilində düşərgə saldı
- ***Xəzərlərə*** böyük miqdarda xərac və hədiyyələr verərək, onları köməyə çağırdı
- Xəzərlərin köməyi ilə Sasani ordularına ağır zərbələr endirdi
- Paytaxt ***Mədain (Ktesifon)*** şəhərini tutaraq şahənşahın sarayını yandırdı

- Xosrov Pərviz hakimiyyətdən salınaraq edam edildi

Müharibə Bizansın qələbəsi ilə başa çatdı. **629-cu ildə** tərəflər arasında bağlanan müqavilənin şərtinə görə -***Albaniya yenə də Sasanilərin hakimiyyəti altında qaldı***.

**Ərəb işğalları ərəfəsində Azərbaycanda vəziyyət**

| Atropatena | Albaniya |
|---|---|
| Sasanilərdən tam asılı vəziyyətdə idi | Daxili müstəqilliyini saxlayırdı |
| Sasani mərzbanları tərəfindən idarə olunurdu | Yerli hökmdarlar tərəfindən idarə olunurdu |
| İqtisadi və siyasi vəziyyət ağır idi | İqtisadi və siyasi vəziyyət nisbətən yaxşı idi |
| Ölkənin inkişaf ahəngi pozulmuşdu | Xəzərlərinn hücumlarına məruz qalırdı |

**Azərbaycanda sosial-iqtisadi vəziyyət**

Ərəblərin hücumu ərəfəsində ***Azərbaycanda iqtisadiyyatın bütün sahələrində canlanma, sənətkarlığın təkmilləşməsi*** və ***genişlənməsi*** diqqəti cəlb etməkdə idi.

Azərbaycan Sasanilərdən asılı olduğundan, burada torpaq üzərində mülkiyyət münasibətləri, vergi sistemi, dini ayinlər və idarəçilik ***ümumimperiya qanunları ilə*** idarə olunurdu. Sasanilərin Azərbaycandakı mərzbanı ***qanunların icrasına, vergi və mükəlləfiyyətlərin vaxtında yerinə yetrilməsinə ciddi nəzarət edirdi***. Əlverişli strateji mövqedə yerləşən Albaniya imperiyaya daxil olan yolları ***şimal tayfalarının*** və qərbdən ***Bizansın*** basqınlarından qoruyurdu. Buda təsərrüfatda canlanmaya kömək edirdi.

Sasanilər sarayına və müəyyən vaxtlarda isə xəzərlərə töycü verilməsinə baxmayaraq Albaniyada istehsalın inkişafına imkan vardı. Albaniyanın əlverişli iqlimi, şirinsulu çayları, münbit və bərəkətli torpağı qədim zamanlardan burada əkinçiliyin inkişafına şərait yaratmışdı. Kür-Araz vadisində ***dənli bitkilər*** becərilirdi. Azərbaycan Şərqdə ***pambıq*** əkilən ölkələrdən idi. Pambıq **Mildə, Muğanda, Şirvanda, Qarabağda** becərilirdi. Azərbaycanda tarixən ***ipəkçilik*** də geniş yayılmışdı.

Əkinçilik kimi ***maldarlıq*** da əhalinin qədimdən əsas məşğuliyyət sahəsi idi. Şirin suyun, habelə yaylaqların və qışlaqların olması burada maldarlığın inkişafına şərait yaradırdı. Kürdən ovlanan balıqlar qurudularaq xarici ölkələrə aparılırdı.

Azərbaycan faydalı yeraltı sərvətlərlə də zəngin idi. **Girdimanda *dəmir filizi*, Gədəbəydə *mis*, Abşeronda *neft*, Naxçıvanda *duz yataqları*** var idi. Azərbaycanda ***qızıl, gümüş, qurğuşun, civə, arsen*** və s. metallar çıxarılırdı. Metal emalının inkişafı müxtəlif sənət növlərinin yaranmasına təkan verirdi.

Orta əsr **ərəb müəllifləri** şəhərlər haqqında ətraflı məlumatlar vermişdilər. Mənbələr Yaxın və Orta Şərqdə ***"İraqla Təbəristan arasında Rey və İsfahandan sonra ən böyük şəhər kimi "Arranın anası" Bərdə" şəhərinin*** adını qeyd etmişdi.

Bir sıra əsas ***ticarət*** yollarının Azərbaycan ərazisindən keçməsi ticarətə maraq yaradırdı. **Bərdə, Varsan, Təbriz** şəhərlərində hazırlanan gözəl ***sənətkarlıq məmulatları*** dünya bazarlarına çıxarılırdı. Bu dövrdə Azərbaycandan xarici ölkələrin bazarlarına ***ipək, pambıq parça, boyaq maddələri, neft, təzə*** və ***qurudulmuş meyvə, balıq, cins atlar*** ixrac edilirdi. Azərbaycanın xarici ölkələrlə ticarətində **Hinditan** və **Çin** xüsusilə fərqlənirdi.




## Ərəblərin Azərbaycanı işğal etməsi

### Sasanilərin ərəblərə qarşı mübarizəsi

Ərəb ordusu **633-cü ildə** İraq tərəfdən Sasani imperiyasının sərhəddini keçdi. Bu zaman Sasani hökmdarı imperiyaya tabe olan ölkələrin hamısından, o cümlədən Albaniyadan ***ərəblərə qarşı vuruşmaq üçün qoşun*** tələb etdi. Albaniya (Girdiman) hökmdarı **Varaz Qriqor** **634-cü ildə** oğlu ***Cavanşirin rəhbərliyi ilə*** Sasanilər dövlətinə kömək məqsədilə qoşun göndərdi. Sasani ordusunun sərkərdəsi **Rüstəm** Cavanşiri və onun qoşununu hörmətlə qəbul etdi.

Ərəblərlə Sasani orduları arasında döyüşlərdə Alban sərkərdəsi Cavanşir Sasanilər tərəfindən vuruşarkən onu rəşadətinə görə Sasani hökmdarı mükafatlandırdı, ona mirvari ilə bəzədilmiş ***qızıl kəmər, qızıl dəstəkli qılınc bağışladı*** və başına gözəl ***tac*** qoydu. **638-ci ildə** ərəb ordusu sasanilərin paytaxtı **Ktesifonu (Mədaini)** mühasirəyə aldı. Cavanşir 3 minlik alban qoşunu ilə altı ay şəhərin müdafiəsində vuruşdu. Lakin Sasani ordusu darmadağın edildi. Bundan sonra mübarizənin mənasız olduğunu görən Cavanşir **640-cı ildə** Albaniyaya qayıtdı.

### Ərəb qoşunlarının Cənubi Azərbaycana hücumu

Albaniya Erkən Orta əsrlərdə ***Bizansın, xəzərlərin*** və ***ərəblətin*** hərbi yürüşünə məruz qaldı. Azərbaycan əhalisi Sasanilərin əsarətindən azad olmamış yeni işğalçının - ərəblərin hücumuna məruz qaldı. Ərəblərin Azərbaycana hücumu ***Nahəvənd və Həmədan döyüşlərindən sonra*** baş verdi. Ərəblər Qum və Kaşanı tutdular, Sasanilər imperiyası tamamilə dağıldı. **639-cu ildə** xilafət ordusu sərkərdə **Hüzeyfənin** başçılığı ilə Azərbaycana hücum etdilər və burada güclü müqavimətə rast gəldilər. Belə ki, Cənubi Azərbaycan mərzbanı **İsfəndiyar ibn Fərruxzad** Ərdəbildə döyüşə başladı. **Ərdəbil yaxınlığında döyüş *nəticəsində*:**

- ***Güclü və təcrübəli ərəb ordusu qalib gəldi***
- ***İsfəndiyar ibn Fərruxzad ərəblər tərəfindən əsir alındı***

Bundan bir qədər sonra İsfəndiyarın qardaşı **Bəhram ibn Fərruxzad** qoşun toplayaraq ərəblərlə döyüşü davam etdirdi. Lakin onun cəhdi də uğursuz oldu. Sonra ərəb sərkərdəsi **Bukeyr İbn Abdullahın** yanında əsir olan İsfəndiyar **644-cü ildə** onunla sülh bağlamağa məcbur oldu. Ərəblərin İsfəndiyarla bağladığı sülhün şərtlərinə əsasən:

1. **Əhali ərəblərə tabe olmalı, nəzərdə tutulan vergini verməli idi**
2. **Azərbaycan əhalisi “imkanları daxilində” ərəblərə can vergisi - cizyə verməli idi**
3. **Qadınlar, uşaqlar can vergisindən azad edildilər**
4. **Ərəblər əhalinin dininə, adət-ənənələrinə və məişət işlərinə qarışmamağı öhdələrinə götürdü**
5. **Könüllü olaraq ərəb ordusunda qulluq edənlər bütün vergi və mükəlləfiyyətlərdən azad edildi**
6. **Ərəblər onlara tabe olmayıb ölkəni tərk etmək istəyənlərə imkan yaratdılar**

Ərəblər müqavilə bağlayaraq Ərdəbili tərk etdikdən sonra əhali düşmənlə bağlanan sazişin şərtlərindən imtina edib, **645-ci ildə** yenidən üsyan qaldırdı. Lakin, **646-cı ildə** yeni ərəb qoşununun Azərbaycana hücumu nəticəsində:

- ***Xalqın müqaviməti qırıldı***
- ***Ərdəbil əhalisi ilə yeni müqavilə imzalandı***

**646-cı ildə** imzalanan müqavilənin şərtlərinə görə - ***vergilərin miqdarı əvvəlkinə nisbətən xeyli artırıldı***. Beləliklə, Cənubi Azərbaycan torpaqları tamamilə Ərəb qoşunları tərəfindən işğal olundu.

**Sasanilərlə ərəblər arasında baş verən döyüşlər**

| | | |
|---|---|---|
| **636-cı il** | **Kadusiyyə** | Sasanilər ərəblərə məğlub oldu |
| **638-cı il** | **Ktesifon** | Sasanilər ərəblərə məğlub oldu |
| **640-cı il** | **Nahavənd** | Sasanilər ərəblərə məğlub oldu |
| **642-cı il** | **Həmədan** | Sasanilər ərəblərə məğlub oldu |

**Ərəblərin Albaniyaya hücum etməsi**

Cənubi Azərbaycanı tutduqdan sonra ərəb qoşunu **Bukeyr ibn Abdullahın** başçılığı ilə **Gilana** və **Muğana** doğru hərəkət etdi və buranı çətinliklə işğal etdi (642-ci ildə). Sonra ərəblər Xəzərin qərb sahili ilə şimala doğru irəliləyərək **Dərbəndə** çatdılar. Mənbələrin məlumatına görə, ***"ərəblər Şirvana çatıb hökmdar Şəhriyarla sülh bağladılar"***. Sülhün şərtlərinə görə:

1. **Əhali ərəblərə xərac və cizyə verməli idi**
2. **Bu vergilər şimaldan hücum edən xəzər və müxtəlif din sahiblərinin hücumlarını dəf etmək üçün Şirvanda saxlanılacaq qoşuna sərf edilməli idi**

Bu dövrdə Xəlifənin göndərdiyi **Əbdürrəhmanın** başçılığı ilə yeni ərəb qoşunu Dərbəndə gəlib, oradakı **Bukeyrin** ərəb qoşunu ilə birləşdi.

**646-cı ildə** ərəblər sərkərdə **Salman ibn Rəbiənin** başçılığı ilə **Naxçıvanı** işğal etdikdən sonra, **Şəki və Gorus** istiqamətində hərəkət edərək, oranı işğal edib əhali ilə müqavilə bağladılar. Bundan sonra **Beyləqanı** tutub, Bərdəyə gəldilər. Bərdə əhalisi ciddi müqavimət göstərsə də sonra ərəblərlə müqavilə bağladı və xərac verməyə razı oldu. Bir-birinin ardınca ərəblər **Qəbələ, Şəmkir, Şəki, Şirvan** və **Şabranı** tutdular.

Albaniya torpağına basqın edən ərəblər burada ciddi müqavimətlə qarşılaşdılar. Hər iki tərəfdən xeyli itkilər baş verdi. ***Ərəblər Azərbaycanda olduğu qədər heç bir yerdə güclü müqavimətə rast gəlməmişdilər***. Xalqın mübarizə əzmi və vətən eşqi onları heyrətə gətirmişdi.

**Xəlifənin Azərbaycana göndərdiyi ərəb sərkərdələri**

| | | |
|---|---|---|
| **639-cu il** | Hüzeyfə | Ərdəbil yaxınlığında döyüşdə Cənubi Azərbaycan mərzbanı İsfəndiyar ibn Fərruxzadı məğlub edərək əsir aldı |
| **642-ci il** | Bukeyr ibn Abdullah | Cənubi Azərbaycanı, Gilan və Muğanı işğal etdi, ərəblər Şirvana çatıb hökmdar Səhrivarla sülh bağladılar |
| **642-ci il** | Əbdürrəhman | Xəlifənin göstərişi ilə Dərbəndə gəlib, Bukeyrin ərəb qoşunu ilə birləşdi. I Bələncər döyüşündə xəzərlərə məğlub olaraq öldürüldü |
| **646-cı il** | Salman ibn Rəbiə | Naxçıvanı, Şəkini, Gorusu, Beyləqanı və Bərdəni işğal etdi, II Bələncər döyüşündə xəzərlərə məğlub olaraq öldürüldü |

Ərəblərin Azərbaycanı asanlıqla işğal etməsini asanlaşdıran amillər

- Sasanilərə nisbətən az vergi yığılması
- Əhali ilə mülayim rəftar olunması
- Dağıdıcı Sasani-Bizans müharibələri və ona son qoyulması
- İnsanların şəxsiyyətinə və mülkiyyətinə toxunulmaması

## Cavanşirin Bizans imperiyası ilə yaxınlaşması

Cavanşir Sasanilərlə birlikdə ərəb ordularına qarşı yeddi ildən artıq vuruşub Albaniyaya qayıtdıqdan sonra:

- Hökmdar paltarında taxtda çıxaraq ölkənin vacib işləri ilə məşğul oldu
- İber sərhədlərindən Hun qapılarına (Dərbən) və Araz çayına qədər ərazinin mütləq hakimi oldu
- Əvvəlcə Albaniyaya soxulub qarətçiliklə məşğul olan ***sasani feodalları*** ilə mübarizə apardı
- Ərəb qoşunlarının ilk dəstələri Albaniyaya soxulduqda onlara qarşı birlikdə mübarizə aparmaq üçün ***Bizans imperatoru ilə*** ittifaqa girdi

Ərəb qoşunlarının ilk dəstələri Albaniyaya soxulduqda Cavanşir onlara qarşı birlikdə mübarizə aparmaq üçün **Bizans imperatoru ilə** ittifaqa qirdi. **654-cü ildə** Bizans imperatoru II Konstantin və Cavanşir görüşüb hər iki tərəfi maraqlandıran məsələləri müzakirə etdilər. Bundan 6 il sonra - **660-cı ildə** II Konstantin və Cavanşir ikinci dəfə görüşdülər. Müttəfiqlər birlikdə ***ərəblərə qarşı müqavimət göstərmək*** qərarına gəldilər.

## Cavanşirin Xəzərlərlə mübarizəsi

**VII əsrin 30-cu illərində** xəzərlər Albaniyaya hücum etdilər. Hücum nəticəsində:

- Xəzərlər Albaniyanı işğal edərək ***Qəbələdə*** möhkəmləndilər
- Albaniya xəzərlərə xərac verməli oldu

**VII əsrin 60-cı illərində** xəzərlər yenidən Albaniyaya hücuma başladılar. **662-ci ildə** Albaniyaya hücum edən xəzərləri Cavanşir **Kür çayı yaxınlığında döyüşdə** məğlubiyyətə uğratdı. Bu məğlubiyyətdən sarsılmayan xəzərlər üç ildən sonra – **665-ci ildə** daha böyük qüvvə ilə yenidən Albaniyaya hücuma keçdilər. Hücum nəticəsində xəzərlər:

- ***Araz çayı sahillərinə qədər*** irəlilədilər

- Albanlardan xeyli əsir tutub, qənimət ələ keçirdilər

Həmin ildə Cavanşir xəzərlərin hücumlarının qarşısını almaq üçün Xəzər xaqanı ilə sülh bağlayıb qohum oldu. **665-ci ildə** Cavanşir ilə Xəzər xaqanı arasında bağlanan sülhün şərtinə əsasən:

1. **Albanlar hər il xəzərlərə xərac verməyə razı oldular**
2. **Bunun müqabilində bütün əsirlər və qarət olunmuş mal-qara albanlara geri qaytarıldı**

**Cavanşirin diplomatik əlaqələr saxladığı dövlətlər**




## Cavanşirin Xəlifə ilə yaxınlaşması

**VII əsrin 60-cı illərinin əvvəllərində** Xilafətdə hakimiyyət **Əməvilər sülaləsinin (661-750)** əlinə keçdikdən sonar Cavanşirin Xilafətə qarşı münasibəti dəyişdi. Cavanşirin Xilafətə münasibətinin dəyişməsinin səbəbi aşağıdakı amillərlə bağlı idi:

1. **Albaniyanın müttəfiqi olan Bizans Ərəb Xilafəti ilə müqayisədə çox zəif idi**
2. **Albaniya təklikdə özünü qorumaq qabiliyyətində deyildi**
3. **Şimaldan xəzərlərin, cənubdan İran feodallarının hücumundan qorunmaq üçün Albaniyaya güclü bir dövlətin himayəsi lazım idi**

Beləliklə, Cavanşir Xilafətlə münasibətləri diplomatik yolla nizama saldı və bu məqsədlə **667-ci** və **670-ci illərdə iki dəfə** Xilafətin paytaxtı **Dəməşq şəhərinə** gedərək xəlifə **Müaviyə** ilə görüşdü. Cavanşir ilə Xəlifə arasında danışıqlar ***nəticəsidə:***

- **Xəlifə Albaniyanın daxili müstəqilliyinə toxunmadı**
- **Cavanşirin xahişi ilə Xəlifə Albaniya əhalisindən alınan vergiləri üçdə bir qədər azaltdı**
- **Xəlifə Cavanşirə Hindistandan gətirilmiş və yaxşı təlim görmüş bir fil, iti yerişli 52 at və *Sünik knyazlığının hakimliyini* bağışladı**

Xəlifənin Cavanşirə belə güzəştə getməsinin aşağıdakı səbəbləri var idi:

- Albaniyanın strateji-coğrafi mövqeyi və zəngin sərvətləri
- Alban hökmdarı Cavanşirin şəxsi nüfuzu

Beləliklə, Cavanşirin ağıllı və uzaqgörən siyasəti nəticəsində:

- Albaniya ***ərəblərin, yunanların, farsların*** və ***xəzərlərin*** hücumlarından xilas oldu
- İlk ərəb işğallarından sonra Azərbaycanın **cənub hissəsi** müstəqilliyini tamamilə itirsədə, **şimalı - Albaniya *daxili müstəqilliyini*** saxlaya bildi
- Albaniya Xilafətin vassalı kimi ancaq vergi ödəmək şərti ilə ondan asılı vəziyyətə düşdü
- Təsərrüfatın, sənətkarlığın, ticarətin, mədəniyyətin inkişafına şərait yarandı
- Əhali əminamanlıq şəraitində təsərrüfat və abadlıq işləri ilə məşğul oldu

**Cavanşirin ərəblərlə yaxınlaşmasına təsir göstərən amillər**

- Bizansla Albaniya arasında hərbi-siyasi əlaqələrin kəsilməsi
- Şimaldan xəzərlərin, cənubdan isə sasani feodallarının hücumları
- Bizansın Xilafətlə müqayisədə çox zəif olması, hətta özünü belə müdafiə edə bilməməsi

**Xəlifə ilə Cavanşirin görüşünün nəticəsi**

- Xəlifə Albaniyanın daxili müstəqilliyinə toxunmadı
- Xəlifə Albaniya əhalisindən alınan vergiləri üçdə bir qədər azaltdı

## Albaniyanın müstəqilliyinə son qoyulması

Cavanşir Albaniyanın daxili müstəqilliyini qoruyub saxlamağa nail oldu, ***iri feodal əyanlara qarşı*** mübarizə apardı. **681-ci ildə** ölkə daxilindəki ***bizanspərəst feodalların*** sui-qəsdi nəticəsində Cavanşir qətlə yetirildi. Cavanşirin ölümündən sonra:

- **Varaz Trdat (681-705)** hakimiyyətə keçsə də, Cavanşirin siyasətini davam etdirə bilmədi
- Xilafət Albaniyanın daxili müstəqilliyini tədricən ləğv etdi
- Cavanşirin qatillərindən ***intiqam almaq bəhanəsi ilə*** xəzərlər Albaniyaya hücum etdilər

Xəzərlərin Albaniyaya **681-ci ildə** yürüşləri zamanı **Qəbələ** və Bərdəyə qədər şəhər və kəndlər soyub talandı, adamlar əsir götürüldü. Varaz Trdat sülh bağlayıb onları çətinliklə geri qaytardı.

**VIII əsrin əvvəllərində** Cənubi Qafqazdakı ***Bizan tərəfdarlarını cəzalandırmaq məqsədi ilə*** buraya ərəb qoşunu göndərildi. Həmin qoşunların bir hissəsi **705-ci ildə** Albaniyaya yürüş etdi. Ərəblərin Albaniyaya bu yürüşü nəticəsində:

- Cavanşirin sonuncu varisini, ailəsi ilə birlikdə Dəməşqə aparıb edam etdilər
- Albaniyada Mehranilər sülaləsinin hakimiyyəti sona çatdı
- Albaniyanın idarə olunması ***xəlifənin canişininə*** tapşırıldı

**VIII əsrin əvvəlləri**

- Albaniyada Mehranilər sülaləsinin hakimiyyəti sona çatdı
- Xəlifə Albaniyanın daxili müstəqilliyi ləğv etdi və Albaniya dövləti süqut etdi
- Albaniyanın idarə olunması xəlifənin canişininə tapşırıldı

**Albaniya və Sasanilər dövləti arasında oxşar cəhətlər**




## Azərbaycan uğrunda ərəb-xəzər müharibələri

**VII əsrdə** ərəblərlə xəzərlər arasında müharibələr təsadüfi hallarda baş verirdi. Lakin **VIII əsrdə** müharibə kiçik fasilələrlə əsrin sonuna qədər davam etdi. Bu müharibə ***Azərbaycan uğrunda*** gedirdi.

Ərəblər ***Azərbaycanda möhkəmləndikdən sonra*** xəzərlərlə daha mütəşəkkil müharibəyə başladılar. Döyüşlərdə tərəflərdən heç birisi mütləq hərbi üstünlüyü uzun müddət əldə saxlaya bilmirdi. **643-cü ildə** Dərbənddən şimalda ərəblərlə xəzərlər arasında I Bələncər döyüşü baş verdi. I Bələncər döyüşü nəticəsində:

- ***Ərəblər məğlub oldular***
- ***Sərkərdə Əbdürrəhman öldürüldü***

Beləliklə, Xilafətin Dərbənddən şimala ilk hücumu uğursuzluqla nəticələndi.

Çətinliklə yenidən Dərbəndə daxil olan ərəb qoşunu **653-cü ildə** ərəblərlə xəzərlər arasında I Bələncər döyüşü baş verdi. II Bələncər döyüşü nəticəsində:

- ***Xəzərlər parlaq qələbə qazandı***
- ***Ərəb sərkərdəsi Salman döyüşdə öldürüldü***

**730-cu ildə** 300 minlik ordu ilə əks hücuma başlayan xəzərlər düşməni sıxışdıra-sıxışdıra Ərdəbilə yaxınlaşdılar. Həmin ildə **Savalan dağı yaxınlığında** döyüşdə xəzərlər ərəb ordusu üzərində parlaq qələbə çaldı. Bundan sonra xəzərlər döyüşü davam etdirərək **Diyarbəkrə** və **Mosula** çatdılar. Ərəblər Van gölü yaxınlığındakı **Hilat** şəhəri ətrafında xəzərlərin hücumunu çətinliklə dayandıra bildilər. Bundan sonra qüvvələrini səfərbər edən ərəblər böyük ordu ilə hücuma keçdilər. Bu hadisədən sonra ərəblərlə ***sülh bağlayan xəzərlərin bir hissəsi İslam dinini qəbul etdi***.

**VIII əsrin 90-cı illərində,** Xəlifə ***Harun ər-Rəşidin dövründə*** xəzərlər 100 min nəfərlik qoşunla Azərbaycanın şimalına hücum etdilər. Hücum nəticəsində ölkə qarət olundu və minlərlə adam əsir aparıldı.

Beləliklə, bir əsrə qədər davam edən xəzər-ərəb müharibələri nəticəsində:

- Azərbaycan hədsiz dağıntılar və fəlakətlərə məruz qaldı
- Ərəblərlə sülh bağlayan xəzərlərin bir hissəsi İslam dinini qəbul etdi

**Xəzərlərlə ərəblər arasında baş vermiş döyüşlər**

| | | |
|---|---|---|
| 643 | I Bələncər | ***Ərəblər məğlub oldular*** və sərkərdə **Əbdürrəhman** öldürüldü. Xilafətin Dərbənddən simala ilk hücumu uğursuzluqla nəticələndi |
| 653 | II Bələncər | ***Xəzərlər parlaq qələbə qazandı*** və Ərəb sərkərdəsi **Salman** döyüşdə öldürüldü |
| 730 | Savalan | ***Xəzərlər parlaq qələbə qazandı.*** Bundan sonra xəzərlər döyüşü davam etdirərək Diyarbəkrə və Mosula çatdılar |
| 730 | Hilat | ***Ərəblər*** xəzərlərin hücumunu çətinliklə dayandıra bildilər. Tərəflər aralarında sülh bağlandı |

# Azərbaycan xilafətin tərkibində

## İslam dininin Azərbaycanda yayılması

Ərəblər xalqın mübarizə əzmini qırmaq üçün əhali ilə mülayim rəftar etməyə və lazım gəldikdə güzəştdə getməyə məcbur olurdular. Xəlifə Azərbaycanda vuruşan ərəb sərkərdələrinə aşağıdakı göstərişləri vermişdi:

- Adamları şikəst etməsinlər, qocaları, uşaqları və qadınları öldürməsinlər
- Yerli əhalinin əvvəlki adət-ənənələrini davam etdirmələrinə imkan yaratsınlar

Azərbaycan əhalisinin İslam dinini könüllü qəbul etməsinin səbəbləri bunlar idi:

- ***Xəlifənin göstərişlərinə əməl edilərək adamların şəxsiyyətinin və mülkiyyətinin qorunması***
- ***Xilafətin toplağıdı vergi və töycülərin miqdarı Sasanilər dövründəkindən dəfələrlə az olması***
- ***Xalqın İslam dini zəminində səadət və əmin-amanlıq tapacaqlarına ümid bəsləməsi***
- ***Başqa dinlərdən fərqli olaraq yeni dinin daha humanist, ümidverici, obyektiv və ədalətli olması***
- ***Əhalinin yadellilərin dağıdıcı basqınlarından, Bizans-Sasani müharibələrindən hədsiz dərəcədə əziyyət çəkməsi və.s***

Ərəblərin hücumu ərəfəsində Azərbaycanda ***müxtəlif dini etiqadlar mövcud olduğu üçün*** siyasi sabitlik mümkün deyildi. Müdrik adamlar hesab edirdilər ki, Azərbaycanda İslam dinini yayılması ***siyasi sabitlik*** və ***milli birlik*** üçün təminat verə bilər. İslam dini **Azərbaycanın cənub hissəsində, Muğanda, Mildə, Xəzər sahilində, Kür** və **Araz çayları boynunda,** xüsusilə ***şəhərlərdə*** nisbətən sürətlə yayıldı**.** Lakin xristian dininin sabitləşdiyi ***dağlıq*** və ***dağətəyi yerlərdə*** İslam dininə müqavimət güclü idi. Bəziləri isə ***mövcud imtiyazlarını*** və ***mülklərini saxlamaq məqsədi ilə*** İslamı qəbul edirdi. ***Yoxsullar təbəqəsindən olanlar isə*** İslamı, demək olar ki, tərəddüdsüz və könüllü qəbul edirdilər. Azərbaycanda İslam dininin yayılmasının ***əhəmiyyəti*** aşağıdakılar idi:

- ***Xalqın taleyində misilsiz dönüş yaratdı***
- ***Xalqın mənəvi inkişafı üçün əsas oldu***
- ***Ölkədə mədəni yüksəlişinə təkan verdi***
- ***İslamaqədərki mədəniyyət məzmununu dəyişərək yeni keyfiyyət kəsb etdi***

**İslam dininin nisbətən sürətlə yayıldığı ərazilər**




**Ərəblərin hakimiyyəti dövründə inzibati və idarəetmə sistemi**

Ərəblər Asiya, Avropa və Afrikanın onlarla ölkəsini işğal etsələr də, onların ***dövlət təşkilatçılığı cəhətdən vərdişləri olmadığına görə*** ilk vaxtlar ***Sasani imperiyasının idarə sistemindən*** istifadə etməyə məcbur oldular. Ərəblər əsarətə aldığı geniş əraziləri idarə etmək üçün Sasani mərzbanlıqlarına bənzər ***əmirlik sistemi*** yaratdılar.

**Əmirlik sisteminə *aiddir:***

- Abbasilər dövründə əmirliklərin sayı 14-ə çatdı
- Azərbaycan əvvəlcə ***dördüncü***, sonra isə ***üçüncü*** əmirliyin tərkibinə daxil idi
- Əmirliyi xəlifə tərəfindən təyin edilən ***əmir*** idarə edirdi
- Əmirliklər özləri də daha kiçik inzibati vahidlərə – ***mahal*** və ***məntəqələrə*** bölünürdü
- Hər bir mahal 12 məntəqədən, hər məntəqə isə 12 kənddən ibarət idi
- **Marağa, Ərdəbil, Təbriz, Mərənd, Beyləqan, Şamaxı, Bərdə, Naxçıvan, Dərbənd** və **Qəbələ** şəhərləri mahal mərkəzləri idi

Azərbaycanda xilafətin əsas dayağı ***məmurlar aparatı*** və ***silahlı qüvvələr*** idi. Əmirin rəhbərliyi altında müxtəlif vəzifələr icra edən ***məmurlar aparatı*** yaranırdı. Ərəblər dövründə məmurlar aparatına aşağıdakılar daxil idi:

- **Əmir** - əmirliyin bütün mülki və hərbi hakimiyyəti onun əlində idi.
- **Amil** - mülki işlərlə məşğul olur, vergilərin toplanmasına nəzarət edirdi.
- **Qazı** - məhkəmə idarəsinə başçılıq edir, vəqf işlərinə nəzarət edirdi.
- **Yerli əyanlar** - məmur aparatında İslamı qəbul edərək ərəblərə xidmət edən şəxslər idi.

**QEYD:** Ərəblər ***dövlət idarəçiliyinin mürəkkəb mexanizminə yiyələndikcə***, yerli əyanları inzibati idarə aparatından uzaqlaşdırdı.

**Ərəb ağalığı dövründə Azərbaycanın inzibati quruluşu**



**Ərəb ağalığı dövründə idarəetmə sistemi**




### Ərəb Xilafətində ordu və rabitə sistemi

Ərəb xilafətində ordu quruluşca üç yerə bölünürdü:

1. **Ərəblər** - mənşəcə ərəblərdən ibarət qoşun idi
2. **Mövlalar** – ərəb ordusunda islamı könüllü qəbul etmiş əhali idi
3. **Zimmilər** - ərəb ordusunda könüllü xidmət edən xristianlar idi

Xilafət orduda mənşəcə ərəblərdən ibarət qoşunla yanaşı, ***mövlalardan*** və ***zimmilərdən*** geniş istifadə edirdilər. Ərəblər Azərbaycanın **Ərdəbil, Marağa, Təbriz, Beyləqan, Bərzənd, Dərbənd, Naxçıvan** və.s strateji əhəmiyyətli şəhərlərində hərbi dəstələr saxlayırdılar. Bu hərbi dəstələrdən aşağıdakı məqsədlərlə istifadə olunurdu:

- ***Asayişi qorumaqda, Xilafətə qarşı başlayan üsyanları yatırmaqda***
- ***Bizans və xəzərlərin hücumlarını dəf etməkdə***

Xilafətin paytaxtı ilə əyalətlər arasında rabitəni qaydaya salmaq üçün ***"Bərid"*** adlanan ***rabitə mərkəzi (poçt)*** yaradılmışdı. Ərəblər rabitə işində təlim görmüş ***göyərçinlərdən*** də istifadə edirdilər.

### Ərəblərin köçürmə siyasəti

Sasanilər kimi ərəb xəlifəsi də etnik siyasət həyata keçirərək Azərbaycana **Ərəbistandan, Bəsrədən, Kufədən, və Suriyadan** on minlərlə ərəb ailəsi köçürtmüşdü. Ərəblərin Azərbaycana köçürməkdə xəlifənin iki məqsədi var idi:

1. ***Əhalini ərəbləşdirmək***
2. ***Özlərinə etnik dayaq yaratmaq***

Ərəbistandan Azərbaycana köçürülən əhaliyə ***geniş hüquqlar və imtiyazlar verilir, onlar torpaqla təmin edilirdilər***. Zaman keçdikcə gəlmə ərəblər yerli əhalinin içərisində əriyib yox oldular. Onların izi ancaq bəzi kəndlərin adında qalmışdır. Xəlifə Əlinin (656-661) hakimiyyəti illərində ***Bəsrə və Kufənin*** bir-çox ərəb tayfaları Azərbaycanın cənub rayonlarında, o cümlədən **Ərdəbil bölgəsində** məskunlaşdırılmışdır. Onlardan biri ***Əzdilər nəsli*** idi. Əzdilər nəslinin banisi **ər-Rəvvad əl-Əzdi** idi. Onlar mənşəcə ***Rəbiə adlı ərəb tayfasından*** idilər. Xəlifə Osmanın dövründə (644-656) Arranı işğal edərək Azərbaycanda möhkəmlənmiş **Salman ibn Rəbiə** də bu tayfanın nümayəndəsi idi.







## Xilafət dövründə vergi sistemi

İşğalçı dövlətlər kimi, Xilafətin də əsas idealı ***mümkün qədər daha çox torpaq ələ keçirmək və vergi toplamaq*** idi. Xilafət sarayına əhali çoxsaylı vergilər və sənətkarlıq məhsulları göndərməli idi. Azərbaycanda əhali əsasən aşağıdakı vergiləri ödəyirdilər:

- **Xərac -** torpaq vergisi idi.
- **Cizyə** – müsəlman olmayan əhalidən alınan can vergi idi.
- **Xüms** - adamların faydalandığı bütün sahələrdən, daşına bilən əmlakdan alınan vergi idi.
- **Zəkat (sədəqə)** - mal-qaradan, becərilən məhsullardan, meyvədən, qızıl, gümüş və sənətəkarlıq məmulatlarından alınan vergi idi. "Zəkat" ruhanilərin, yetimlərin, şikəstlərin və əlacsızların ehtiyacına sərf olunurdu.

Ərəblər dövründə ***Abşeronun neft mənbələri*** və ***duz gölləri üzərində*** də vergi qoyulmuşdur. Ərəblər Azərbaycanda vergiləri qaydaya salınması və toplanmasını nizamlamaq məqsədi ilə bir çox tədbirlər həyata keçirdilər:

- ***Azərbaycan əhalisi siyahıya alındı (725-ci ildə)***
- ***Azərbaycanın sərhədləri dəqiqləşdirildi***
- ***Şimal sərhədd Dərbənd, cənub sərhədd Həmədan şəhəri müəyyən edildi***

Mənbələrdə xilafətin Azərbaycandan aldığı vergilərin ümumi məbləği təxmini hesablamalara görə ildə ***8 milyon dirhəmə*** yaxın idi. Yəqin ki, bu rəqəm özü də sabit deyildi və tez-tez dəyişirdi. Xilafətə kömək etdiyinə görə ***kilsə*** vergidən azad edilərək dövlət tərəfindən himayə olunmuşdu.

**Xilafət dövründə əhalidən yığılan vergilər**



## Ərəblərin vergi siyasəti

Ərəb xilafətində, ilk xəlifələrin, Əməvilər və Abbasilər sülaləsinin hakimiyyəti dövründə fərqli vergi siyasəti həyata keçirilmişdi. **İlk Ərəb xəlifələri zamanı (630-661)** nisbətən yumşaq vergi siyasəti aparıldı. Belə ki, **Xəlifə Əlinin** həyata keçirdiyi ədalətli vergi islahatına əsasən:

- ***Əsas diqqət torpağın səmərəli əkib-becərməyə yönəldildi***
- ***Əkilməyən torpaqlardan xərac alınmırdı***

**Əməvilər sülaləsi dövründə (661-750)** vergilərin alınması qaydasında aşağıdakı dəyişikliklər edildi:

- **725-ci ildə** Azərbaycanda əhali, mal qara, torpaq siyahıya alındı
- Vergilərin ümumi məbləği artırıldı
- Əvvəllər ləğv edilmiş bəzi vergilər bərpa edildi
- Üzüm, meyvə bağları, dəyirmanları və emalatxanaları olanlar əlavə vergi ödəməli idi
- Bir sıra ***sənət məmulatı, kəbin vəsiqəsi*** və.s adda yeni vergilər tətbiq olundu
- ***Rahiblərdən*** cizyə vergisi alınmağa başlandı

Əməvilərin ağır vergi siyasəti nəticəsində ***yoxsullarla*** yanaşı ***orta*** və ***iri feodallar*** da müflisləşdi.

**Abbasilər sülaləsinin dövründə (750-1258)** vergilərin alınması qaydasında aşağıdakı dəyişikliklər edildi:

- Vergilər daha da artırıldı, ***15 yaşına çatan hər bir şəxs*** vergi verməli idi
- Vergi torpağın ***əkilib-əkilməməsindən asılı olmayaraq*** alınmağa başlandı
- Alınan verginin miqdarı suvarma texnikasından asılı olaraq məhsulun ¼-in yarısına qədər müəyyən edildi.

Acgözlüyünə görə Abbasilər sülaləsinin nümayəndəsi **xəlifə əl-Mənsur** xalq arasında ***"pul atası"*** ləqəbi qazanmışdı. Xəlifələr içərisində qəddarlığı ilə seçilən digər Abbasilər sülaləsinin nümayəndəsi **xəlifə Harun-ər-Rəşidin (786-809)** dövründə ***vergilər daha da artırıldı, on beş yaşına çatan hər bir şəxs vergi verməli idi***. Azərbaycanın cənub hissəsindən ildə ***4 milyon dirhəm***, təkcə Muğandan ***300 min dirhəm*** vergi alınırdı. ***Abbasilər sülaləsinin vergi siyasəti nəticəsində*** kəndlilərin vəziyyəti daha da ağırlaşdı.



**Ərəb ağalığı dövründə torpaq mülkiyyət formaları**

Azərbaycan ərəblər tərəfindən istila olunduqdan sonra yararlı torpaqların xeyli hissəsi ***Xilafətin mülkiyyəti*** elan edildi. Ərəb ağalığı dövründə Azərbaycanda beş əsas torpaq mülkiyyət forması mövcud idi:

1. **Dövlət torpaqları** – ***divan*** və ya ***sultan (xəlifə) torpaqları*** adlanırdı və gəlirləri birbaşa xəzinəyə daxil olurdu. Dövlət torpaqları ***Xilafətdə feodal torpaq mülkiyyətinin əsas forması*** idi.
2. **İqta –** Ərəblər dövründə meydana gəlmiş, dövlət tərəfindən orduda göstərdiyi hərbi hünərə və sədaqətli xidmətə görə verilən və ***daha geniş yayılmış*** torpaq mülkiyyət forması idi. İqta ***divan torpağından*** verilirdi. Xilafətdə iqta sahibi məcburi hərbi mükəlləfiyyət daşımır, xəzinəyə müəyyən miqdarda vergi verirdi. İqtanın iki forması deniş yayılmışdı:
   - **a) Bağışlanan iqta** - sabihinin şəxsi mülkiyyətinə çevrilir və nəsildən-nəsilə keçirdi
   - **b) İcarə edilən iqta -** hərbçilərə verilsə də, irsən keçə bilməz, lazım gəldikdə, hətta geri alına bilərdi
3. **Mülk** - yerli feodalların mülkiyyətində olan torpaqlar idi. Mülk sahibi ***malik*** adlanırdı. Mülk sahibi torpaqdan istədiyi şəkildə istifadə edə bilərdi.
4. **Vəqf -** müsəlman aləmində müqəddəs şəhərlər, pirlər, din uğrunda mühacidlər və şəhidlər üçün nəzərdə tutulurdu. Həmin torpaqlarda məscidlər və müqəddəslər üçün türbələr tikilirdi. Vəqf torpaqları müsəlman dini idarələrinin ixtiyarında idi. İcarəyə verilməsinə baxmayaraq, vəqf torpaqlarını almaq, satmaq və xüsusi mülkiyyətə çevirmək olmazdı.
5. **İcma -** kəndlərdə əhaliyə məxsus ***əkin yerləri, biçənəklər, otlaqlar, meşələr, qəbiristanlıqlar*** və.s daxil idi. Vergi və mükəlləfiyyətlərin ağırlığı bu torpaqların üzərinə düşürdü.

**VII əsrdə** ərəblərdə möhkəmlənmiş feodal münasibətləri təşəkkül tapsa da istehsalatda hələ də ***qul əməyindən*** geniş istifadə edilirdi. Məsələn, **Muğan** işğal olunduqda on mindən çox adam qul kimi ərəb sərkərdələrinə bağışlanmışdı.

**Xilafət dövründə torpaq mülkiyyət formaları**



# Azərbaycanda ərəb əsarətinə qarşı azadlıq hərəkatı

## Əhalinin Xilafətdən narazılığının səbəbləri

**VIII əsrin ortalarında** Əməvilər sülaləsinin siyasətinə qarşı xilafətin ***mərkəzində*** və ***asılı ölkələrdə*** mübarizə kəskinləşdi. Xilafətin mərkəzdəki üsyanın əsas iştirakçıları ***xaricilər*** deyilən dini təriqətin tərəfdarları idi. Xaricilər ***xəlifənin xalq tərəfindən seçilməsini*** tələb edirdilər. Çıxışlar bir neçə ölkədə ***eyni vaxtda başlandığı üçün*** onun öhdəsindən gəlmək mümkün olmadı. Azərbaycanda ərəb əsarətinə qarşı çıxışların ***səbəbləri*** aşağıdakılar idi:

- ***Məmurların özbaşıqalığı***
- ***Xilafətin soyğunçu vergi siyasəti***
- ***Yerli feodal əyanların vəzifələrindən uzaqlaşdırılması***
- ***Yerli feodalların mülk və imtiyazlarının məhdudlaşdırılması***

**Yerli feodalların ərəblərdən üz döndərməsinin səbəbləri**




## Xalq azadlıq hərəkatının başlanması

Xilafətə qarşı Azərbaycanda ***ilk*** çıxışlar **748-752-ci illərdə** baş verdi. Azərbaycanda ərəb əsarətinə qarşı çıxışlara ***yerli feodal əyanlar*** başçılıq etsədə demək olar ki, ***əhalinin bütün təbəqələri*** iştirak edirdi. Əməvilərin siyasətindən narazı qalan ***ərəb mənşəli mənsəb sahiblərinin bəzisi də*** üsyançılara qoşulmuşdur.

**748-ci ildə Beyləqanda** başlanan üsyan tezliklə digər əyalətlərə və şəhərlərə, xüsusilə **Bərdəyə** və **Ərdəbilə** yayıldı. **748-752-ci illərdə** baş verən **Beyləqan** üsyana ***aiddir:***

- Üsyana **Müsafir** adlı qəssab başçılıq edirdi
- Üsyançı dəstələr şəhər əhalisinin köməyi ilə Beyləqan şəhərini tutdular
- Buradan xalq hərəkatı bütün Azərbaycana yayıldı
- Üsyançılar ərəblərin Beyləqanda olan hərbi dəstələri qılıncdan keçirildilər
- Qələbədən sonra üsyançılar Bərdə üsyançılarına köməyə getdilər
- Xəlifənin köməyə göndərdiyi yeni ordunu üsyançılar məğlubiyyətə uğratdılar
- Xilafətdə hakimiyyəti yeni ələ keçirən **Abbasilər sülaləsi (750-1258)** üsyanı amansızlıqla yatırdı

**VIII əsrin ikinci yarısında** Azərbaycanda xilafətə qarşı ***çıxışlar yenidən gücləndi***. Təkcə xəlifə **Harun ər-Rəşidin (786–809)** hakimiyyəti dövründə Azərbaycanda ***15-dən artıq üsyan*** baş verdi. Bu üsyanlar hər dəfə amansızlıqla yatırıldı. Azərbaycanda xilafətə qarşı üsyanların əsas mərkəzi yenə də **Beyləqan** və **Bərdə** şəhərləri idi. Üsyan **Şirvanı, Dağıstanı və Azərbaycanın digər əyalətlərini** də bürüdü. Üsyanlarda **Dərbənd əhalisi** xüsusilə fərqləndi. Dərbənd üsyançıları ***xəzərlərlə*** hərbi əlaqəyə girərək ərəblərə güclü müqavimət göstərmişdilər.




**Xilafətə qarşı mübarizənin ən yüksək forması. Xürrəmilər hərəkatı**

Azərbaycanda ərəb xilafətinə qarşı mübarizənin ən yüksək forması olan ***Xürrəmilər hərəkatı* - *İslamın bəzi ayinlərinə, feodal zülmünə*** və ***ərəb əsarətinə qarşı çevrilmiş xalq hərəkatı idi.*** Xürrəmilərin ***sosial bərabərlik*** uğrunda mübarizəsinin məqsədi ***maddi nemətləri insanlar arasında bərabər bölüşdürmək*** idi. Bu ideyalar xürrəmiləri məzdəkilərin təlimi ilə yaxınlaşdırırdı. Ona görə də xürrəmiləri ***məzdəkilərin*** ideya davamçıları hesab edirlər. Lakin xürrəmilərin ***məqsədlərinin aliliyi və çətinliyi*** onları məzdəkilərdən fərqləndirirdi. Belə ki, məzdəkilər feodal istismarına və hakim təbəqənin firavan həyat tərzinə qarşı çıxırdılarsa, onlardan fərqli olaraq xürrəmilər:

- ***Xilafətin milli əsarətinə qarşı mübarizə aparırdılar***
- ***Azərbaycanın istiqlaliyyətini bərpa etmək istəyirdilər***
- ***Vətəni yadellilərin tapdağından qurtarmağa çalışırdılar***
- ***İslamın bəzi ehkamlarını rədd edir və Azərbaycanın qədim dini ayinlərini ona qraşı qoyurdular***

Orta əsrlərdəki bütün çıxışlar kimi xürrəmilər hərəkatı da əvvəlcə ***milli zəmində*** başlamış, sonra siyasi mahiyyət kəsb edərək ***azadlıq müharibəsi*** səviyyəsinədək yüksəlmişdir. Xürrəmilər ***tarixdə ilk dəfə*** yadelli işğalçılara qarşı mübarizədə azadlıq rəmzi kimi ***qırmızı bayraq*** qaldırmış və ***qırmızı paltar*** geymişdilər.




### Xürrəmilərin ərəblərə qarşı ilk çıxışları

Xürrəmilərin Xilafətə qarşı bir neçə dəfə üsyanı baş vermişdi:

- **İlk, birinci üsyan - 778-ci ildə** başlasada tezliklə yatırıldı.
- **İkinci üsyan - 808-ci ildə** xəlifə Harun ər-Rəşidin dövründə baş verdi.

Xürrəmilərin ikinci üsyanına **Cavidan** başçılıq edirdi. Üsyançıların sayı 100 mindən artıq idi. Xəlifə onlara qarşı böyük ***nizami ordu*** göndərdi. Beləliklə, xürrəmilərin **808-ci ildə** baş verən üsyanı nəticəsində:

- ***Üsyan çətliklə də olsa amansızlıqla yatırıldı, 10 minlərlə adam isə əsir aparıldı***
- ***Xəlifənin göstərişi ilə əsir kişilər öldürüldü, qadın və uşaqlar isə qul bazarında satıldı***
- ***Xürrəmilərin sırası seyrəlsə də onların mübarizə əzmi sönmədi***
- ***Xürrəmilərin düşmənə qarşı döyüş təcrübələri zənginləşdi***

İlk üsyanların uğursuzluğu göstərdi ki, ***Xürrəmilər (Cavidanla, Əbu İmran) arasındakı şəxsi ixtilaflar ərəblərə qraşı mütəşəkkil mübarizəni zəiflədir, üsyanlar arasında 10 illərlə fasilə yaranmasına səbəb olurdu***. Elə buna görə də xürrəmilər xilafət üçün ciddi təhlükə yarada bilmirdi.

### Xürrəmilərin azadlıq müharibəsinə Babəkin başçılıq etməsi (816-837)

Azərbaycanda xürrəmilərə başçılıq edən **Cavidan və Əbu İmran** arasındakı ixtilaflar xilafətə qarşı xürrəmilərin mübarizə aparmasını çətinləşdirirdi. O zaman Cavidan:

- Bəzz qalasının sahibi və xürrəmilər icmasının başçısı idi
- **Babəki (798-838)** ilk dəfə Bəzz qalasına gətirmişdi

**816-cı ildə** döyüşlərin birində Cavidan və Əbu İmran bir-birini öldürdülər. Bundan sonra Cavidanın dul qadınının təşəbbüsü ilə xürrəmilər icmasına rəhbərlik **Babəkin** əlinə keçdi. **816-cı ildən etibarən** Babəkin xürrəmilər hərəkatına başçılıq etməsi vəziyyəti tamamilə dəyişdi və xalq azadlıq hərəkatının ***yeni mərhələsi*** başladı. Babək xürrəmilərin başına keçən kimi aşağıdakı tədbirləri həyata keçirdi:

- *Bu vaxta  qədər baş vermiş xürrəmi üsyanlarını təhlil etdi*
- *Xürrəmi üsyanlarınının uğursuzluğunun səbəblərini araşdırdı*
- *Azərbaycanın hər tərəfinə öz adamlarını  göndərərək onları ərəblərə  qarşı müharibəyə çağırdı*
- *Orduya Müaviyə, Abdulla Tarxan, Adin, Rüstəm, isma əl-Kürdü sərkərdə təyin etdi*

Döyüşlərdə xürrəmilərə **Müaviyə, Abdulla** (hər ikisi Babəkin qardaşları idi), **Tarxan, Adin (Aydın), Rüstəm, isma əl-Kürdü** və b. başçılıq edirdilər.  Bu hərəkatda müxtəlif  tayfalar, xüsusilə ***türk tayfaları*** yaxından iştirak edirdilər. Azadlıq ordusunun əsas hərəkətverici qüvvələrini ***kəndlilər*** təşkil edirdi.  Hərəkatda  əhalinin  müxtəlif  təbəqələri - ***şəhər yoxsulları, sənətkarlar, iri  və orta feodallar*** iştirak edirdi. Azadlıq hərəkatı bir çox əraziləri bürüsə də, ***xürrəmilərin mərkəzi*** **Azərbaycan** idi. İran tarixçisi  **Səid Nəfisinin** fikirinə görə, ***"Xürrəmiddin Babəkin  hökmranlıq  etdiyi və öz məzhəbini yaydığı yer bugünkü İranın şimal-qərbində yerləşən geniş bir ölkədir"***. Bu ərazinin bir hissəsi hazırda  **Cənubi Azərbaycan**, digər hissəsi isə **Azərbaycan Respublikasıdır**.

**Xürrəmilər hərəkatına rəhbər olduqdan sonra Babəkin həyata keçirdiyi tədbirlər**




## Babəkin qələbələri

Xürrəmilər mütəşəkkil döyüşlərə başlamazdan əvvəl Azərbaycanın şəhər və kəndlərindən minlərlə yadelli qəsbkarı qovdular. ***Azadlıq müharibəsinin birinci üç ilində*** xəlifə xürrəmilərə  qarşı nizami ordu göndərməyib ***Azərbaycandakı ərəb hərbi hissələrinin qüvvəsindən*** istifadə etməklə kifayətləndi. Xürrəmilərin əsas mərkəzi ***Bəzz qalası*** idi.

Babəkin başçılığı ilə xürrəmilərə qarşı **819-cu ildə** xəlifə  ***ilk nizami ordu*** göndərdi. Üsyançılar  həmin ordunu əzdilər. Bu qələbədən sonra 10 ilə yaxın müddətdə xürrəmilər Xilafətin bir-neçə nizami ordusunu darmadağın etdilər. Xürrəmilər **Sünik, Şəki, Beyləqan, Arsax** və.s vilayətlərdə daha əzmlə vuruşurdular.

**IX əsrin 20-ci illərinin əvvəllərində** Babəkilər düşməni  məğlub edərək, **Sünik, Bərdə, Beyləqan, Qarabağ** və **Arranın** bir sıra şəhərlərini ərəblərdən azad etdilər. Bu hərəkatda Babəkin əsas müttəfiqi  ***alban knyazları*** idi.

**IX əsrin 20-ci illərinin sonuna doğru** azadlıq müharibəsi daha da genişlənərək Xilafəti sarsıtdı. Xəlifə özünün ən etibarlı sərkərdəsi olan ***Məhəmməd əl-Tusini*** Babəkə qarşı göndərməyə məcbur oldu.

**829-cu il iyun ayında** xürrəmilərlə ərəblər arasında **I Həşdədsər döyüşü** baş verdi. Ərəblərin böyük ümid bəslədiyi I Həşdadsər döyüşü ***nəticəsində:***

- ***Xürrəmilər parlaq qələbə qazandılar***
- ***150 minlik ərəb ordusundan 30 min nəfəri məhv edildi***
- ***Xəlifənin sevimli  sərkərdəsi Məhəmməd əl-Tusi öldürüldü***
- ***Ərəblərin Bəzz  qalasını ələ keçirmək məqsədi baş tutmadı***

**830-cu ildə** Xürrəmilərlə ərəblər arasında **I Həmədan döyüşü** baş verdi. I Həmədan döyüşü ***nəticəsində:***

- ***Xürrəmilər ərəblər üzərində daha bir parlaq qələb çalaraq Həmədan şəhərini tutdular***
- ***Həmədanın tutulması ərəblərin vəziyyətini daha da ağırlaşdırdı***

I Həmədan döyüşü - nizami ərəb orduları üzərində ***sayca beşinci qələbə*** idi.

**XI əsrin 30-cu illərinin əvvəlləri** azadlıq müharibəsinin uğurlu dövrü idi. Bu zaman Xürrəmilərin uğurlu qələbələrinin səbəbi əsasən aşağıdakı amillərlə bağlı idi:

- Xalqın birliyinin olması
- **Suriya** və **Misirdə** eyni vaxtda üsyanların başlaması
- Ərəblərin **Bizansla** müharibəni davam etdirməsi
- Xürrəmilərin əraziyə və dağ yollarına yaxşı bələd olması

Ərəblər çox çalışsalar da, xürrəmilərin zərbələrini dəf edə bilmirdilər. Babəkin adamları pusqu dəstələri təşkil edərək silahı, pulu və ərzağı ələ keçirirdilər. Qəfil hücumlarla ərəb döyüşçüləri arasında vahimə və çaşqınlıq yaradırdılar. Müharibə İranın da bir sıra vilayətlərini və şəhərlərini bürümüşdü. Hərəkatın belə genişlənəcəyindən qorxan **Xəlifə Məmun (813 - 833)** ölərkən varisi **Mötəsimə** Babəkilərə qarşı amansız olmağı vəsiyyət etdi: ***"Xürrəmilərə qarşı müharibəyə qətiyyətli və rəhmsiz adam göndər. Əgər xürrəmilərə qarşı mübarizə uzansa, onda onların üzərinə bütün dostlarınla və köməkçilərinlə özün get".***

**Xürrəmilərin ərəb orduları üzərində qələbələrinin səbəbləri**

- Milli azadlıq hərəkatı olması və xalqın birliyinə əsaslanması
- Suriya ilə Misirdə eyni vaxtda üsyanların başlaması
- Ərəblərin Bizansla müharibəni davam etdirməsi
- Xürrəmilərin əraziyə və dağ yollarına yaxşı bələd olması

## Xürrəmilər hərəkatının zəiflənməsi

Yeni xəlifə seçilən **Mötəsim (833 - 842)** sələfinin vəsiyyətinə əməl edərək, xürrəmilərə qarşı güclü ordu göndərdi. **833-cü il, dekabrın 25-də** ərəblərlə xürrəmilər arasında **II Həmədan döyüşü** başladı. **II Həmədan** döyüşü ***nəticəsində:***

- ***Xürrəmilər ilk dəfə ağır məğlubiyyətə uğrayaraq böyük itkilər verdilər***
- ***Qələbə xilafətin başçılarına və ərəb sərkərdələrinə bu vaxta qədərki səhvlərini anlatdı***

***II Həmədan döyüşündən sonra*** Xəlifə xürrəmilərə qarşı mübarizədə ***qalib gəlmək üçün*** aşağıdakı tədbirləri həyata keçirdi:

1. Bizansla müharibəni dayandırdı, orduda intizam möhkəmləndirildi
2. Ordunun təchizinə, təcrübəli və səriştəli sərkərdələrlə möhkəmləndirilməsinə xüsusi diqqət yetirdi
3. Dövlətin fəaliyyətini, bütün ordunu, maddi və hərbi sursatı Babəkilərə qarşı müharibəyə yönəltdi
4. Yollar sahmana salındı və təhlükəsizlik üçün keşikçi məntəqələri yaradıldı
5. Məşhur sərkərdə **Afşini** Xürrəmilərə qarşı vuruşan ərəb ordunusuna ***baş komandan*** təyin etdi

Müharibə uzandıqca ***qüvvələr nisbətindəki fərq*** ərəblərin xeyrinə dəyişdi. Ərəb ordusu yeni qüvvələr hesabına güclə ndiyi halda, xürrəmilərin sırası seyrəlirdi. Bununla belə, Xürrəmilər hələ də xilafət ordularına rahatlıq vermirdilər. Babək hərbi manevrləri ilə düşmənin planlarını pozur və onları çıxılmaz vəziyyətə salırdı.

Xürrəmilər **836-cı ildə II Həşdadsər döyüşündə** xüsusi məharət göstərdilər. Babək ilə ***ərəb sərkərdəsi Buğa*** arasında baş verən II Həşdadsər döyüşü ***nəticəsində:***

- ***Xürrəmilər ərəblər üzərində parlaq qələbə çaldılar***
- ***Düşmənin xeyli canlı qüvvəsi məhv edildi***
- ***Ərəb sərkərdəsi  Buğa döyüş meydanından qaçmaqla ölümdən xilas oldu***
- ***Xürrəmilər çoxlu qənimət (silah, ərzaq və pul və.s) ələ keçirdilər***

**II Həmədan döyüşündə qələbədən sonra Xəlifənin xürrəmilərə qarşı gördüyü tədbirlər**




## Xəlifənin Afşini xürrəmilərə qarşı sərkərdə təyin etməsi

***Türk mənşəli*** sərkərdə olan Afşin xəlifə tərəfindən, **835-ci ildə** Xürrəmilərə qarşı vuruşan ərəb ordusuna baş komandan, həmçinin ***İranın mərkəzi vilayətlərinin*** və ***Azərbaycanın hakimi*** təyin etdi. Xəlifənin müstəsna səlahiyyətlər verdiyi Afşin Babəklə əsas döyüşə girməzdən əvvəl aşağıdakı taktiki və təşkilati tədbirləri həyata keçirdi:

1. Öz qərargahını xürrəmilərin istehkamına yaxın olan ***Bərzəndə*** köçürdü
2. Ərdəbildən Bərzəndə qədər olan qalaları və yolları bərpa edib möhkəmləndirdi
3. Kəşfiyyat əməliyyatına əhəmiyyət verərək onu gücləndirdi, Babəkin ən yaxşı sərkərdələrini aradan qaldırdı
4. Xürrəmilər arasında təfriqə salmağa başladı, Babəkin casuslarını öz tərəfinə çəkdi
5. Babəkin döyüş planı, qalaları, canlı qüvvəsi və cəbhəxanası haqqındageniş məlumat topladı

Afşin özünə ***lazım olan qədər məlumat topladıqdan sonra*** xürrəmilərlə həlledici döyüşə başladı. Onlar döyüş gedən yerlərə və yollara yaxşı bələd olduğu üçün tez-tez hücuma keçərək ərəblərə gətirilən ərzağı, silahı və pulu ələ keçirir, adamlarını öldürürdülər. Xürrəmilər də tədbirli fəaliyyət göstərirdilər.Lakin azadlıq müharibəsinin ***illərlə uzanması*** və ***geniş əraziləri əhatə etməsi*** ona rəhbərliyi çətinləşdirirdi. Afşinin tədbirlərindən qorxuya düşən ***yerli iri feodallar***, o cümlədən Babəkin sabiq tərəfdarları və müttəfiqləri olan **Səhl ibn Sumbat, ibn Bəis, Əbu Musa** və b. tədricən ondan uzaqlaşdı. **İsma əl-Kürdi, Tarxan** və.b sərkərdələrin Afşin tərəfindən aradan götürülməsi ***Babəkə ağır zərbə*** oldu.

## Bəzz qalasının tutulması. Xürrəmilər hərəkatının süqutu

**837-ci ildə** xəlifə Afşinin köməyinə iki böyük ordu və 30 milyon dirhəm pul göndərdi. Hazırlıq işləri başa çatdıqdan sonra Afşinin qoşunu həmin ilin yayında Bəzz qalasına yaxınlaşaraq qalanı mühasirəyə aldı. Afşin nahaq yerə qan tökülməsini istəmədiyinə görə, döyüşə başlamazdan əvvəl Babəkə ***sülh təklif*** etdi. Afşin Babəki inandırmağa çalışırdı ki, bağışlanması haqqında xəlifədən fərman alacaqdır. Afşinin fikrincə, belə sülhə nail olunsa, xəlifə Babək kimi nüfuzlu sərkərdəni öz tərəfinə çəkər və onun

qüvvəsindən  ***Bizansa qarşı müharibədə*** istifadə edərdi. Lakin Babək əqidəsindən dönmədi. Tərəflər arasında ***son döyüş*** daha  yaxşı silahlanmış və təchiz olunmuş düşmən üçün əlverişli bir vaxtda, **837-ci il avqustun 26-da Bəzz qalası yaxınlığında** başladı:

- Bəzz qalasının müdafiəsinə Babəkin  sərkərdəsi **Adin,** ərəblərə isə **Afşin** başçılıq edirdi
- Düşməndən dəfələrlə az olmalarına baxmayaraq döyüşdə xürrəmilərin igidliyi ərəbləri heyrətləndirdi
- Ərəblər Bəzz qalasının divarlarını dağıtmaq üçün ***neftlə isladılmış oxlardan*** istifadə etdilər
- Ərəblər Bəzz qalasını çətinliklə tutaraq, Afşinin göstərişi ilə üç gün  yandırdılar və 8 min  əsir götürdülər
- Ərəblərdən 100 min, xürrəmilərdən 80 min nəfər həlak oldu
- Babəkin müttəfiqi Bizans imperatorunun arxadan ərəblərə qarşı hücum cəhdi Bəzz qalası  müdafiəçilərinin taleyinə təsir göstərə bilmədi

Bəzz döyüşü Orta əsrlərin çoxsaylı müharibələri tarixində ən çox insan qırğınına səbəb olan savaşlardan biridir.

**Xürrəmilərlə ərəblər arasında baş verən döyüşlər**

| | | |
|---|---|---|
| **829** | **I Həştadsər** | Xürrəmilər  ərəb ordusunu məğlub etdi |
| **830** | **I Həmədan** | Xürrəmilər  ərəb ordusunu məğlub etdi |
| **833** | **II Həmədan** | Xürrəmilər ilk dəfə ərəblərə məğlub oldu |
| **836** | **II Həştadsər** | Xürrəmilər  ərəb ordusunu məğlub etdi |
| **837** | **Bəzz** | Xürrəmilər ərəb ordusuna məğlub oldu |

**Babəkin ələ keçirilərək  edam olunması**

***Bəzz  qalasının süqutundan sonra*** Babək **Arrana**  gəldi. Onun Arrana gəlməkdə ***məqsədi*** Bizans imperatorunun  yanına gedərək yeni qüvvə toplayıb müharibəni davam etdirmək idi. Bəzz döyüşündən sonra Afşin Babəkin bağışlanması haqqında xəlifədən razılıq məktubu aldı. Lakin, Babək yenə də fikirindən dönmədi. Babək Bazarçayın  sol sahilində  **Şəki qalasında**  keçmiş müttəfiqi Səhl ibn Sumbatla qarşılaşdı. **Səhl ibn Sumbat** Babəki aldadıb  ***xəyanət yolu ilə*** onu ərəblərə təhvil verdi. Babəki Afşinin **Bərzənddəki** düşərgəsinə apardılar. Babək xilafət sarayına yola düşməzdən əvvəl Afşindən ***sonuncu dəfə Bəzz qalası ilə vidalaşmağı*** xaiş etdi. Afşin Babəkin bu xaişini yerinə yetirdi. **Xəlifə Mötəsimin** əmri ilə  Babək **838-ci il martın 14-də Samirə şəhərində** edam edildi. Xəlifə üsyançıları qorxutmaq üçün onun kəsilmiş başını **Xorasana** göndərdi. Bu qayda ilə ərəblər Babəkin qardaşı Abdullanı da **Bağdad** şəhərində edam etdilər.

## Xürrəmilər hərəkatının məğlubolma səbəbləri və əhəmiyyəti

Orta Əsrlərdə baş verən digər kəndli müharibələri kimi, xürrəmilər hərəkatı da məğlubiyyətə uğradı. Lakin xürrəmilər hərəkatı  həmin müharibələrdən fərqli olara, hər şeydən əvvəl istiqlaliyyət uğrunda - ***azadlıq müharibəsi*** idi və ***miqyasına görə daha böyük*** idi. Xürrəmilər hərəkatının məğlub olma səbəbləri aşağıdakı amiıııərlə bağlı idi:

- ***Tərəflər arasındakı qüvvələr nisbəti***
- ***İmtiyazlı təbəqələrin dönüklüyü***
- ***Xristian dininə mənsub iri əyanların xəyanəti***
- ***Xilafət tərəfindən türk mənşəli sərkərdələrin xürrəmilərə qarşı  müharibəyə cəlb edilməsi***

Uğursuzluqla nəticələnməsinə baxmayaraq Xürrəmilər hərəkatının böyük tarixi əhəmiyyəti var idi.

İllərlə davam edən müharibədə xürrəmilər ərəblərə saysız hesabsız zərərlər yetirdi, ərəblər yarım milyona qədər əsgər itirdi və onlarla məhşur sərkərdəsi öldürüldü.

**QEYD:** Bəziləri Babəki Karfagen sərkərdəsi  **Hanniballa** müqayisə edirlər.  Bir müəllif yazırdı ki, *“Babəkin  üzərində çalınan qələbə İslam dövlətinin  ən böyük qələbəsi idi”.*




## Azərbaycanda Xilafətə qarşı Əbu Musa üsyanı

**IX əsrin 30-cu illərinin sonu – 40-cı illərin əvvəllərində Varsan, Bərdə, Mərənd** və **Kür-Araz vadisində** ərəb əsarətinə qarşı güclü çıxışlar  baş verdi. Kür-Araz  vadisindəki üsyana Babəkin keçmiş müttəfiqi **Əbu Musa** rəhbərlik edirdi. Üsyançıların iqamətgahı **Qarabağda** yerləşən ***Ktiç qalası*** idi. Düşmən qalaya bir il  müddətində  28 dəfə hücuma keçdi. Lakin məqsədlərinə nail ola bilmədi. Belə olduqda ərəb sərkərdəsi **Buğa hiyləyə əl atıb** Əbu Musa başda olmaqla  üsyanın rəhbərlərini danışıq aparmaq bəhanəsilə öz qərargahına dəvət edərək təhlükəsizliklərinə təminat versədə sonradan andını pozaraq onları  girov götürüb xilafətin paytaxtına göndərdi. Beləliklə bu üsyan da çətinliklə də olsa yatırıldı. Lakin, Azərbaycandakı üsyanlar ***nəticəsində:***

- ***Xilafət əsaslı şəkildə sarsıldı***
- ***Xilafət əvvəlki mövqeyini bir daha bərpa edə bilmədi***

**IX  əsrin ikinci yarısından etibarən** xilafətdən asılı olan ölkələrdə, o cümlədən Azərbaycanda  bir sıra müstəqil dövlətlər meydana gəldi.  Bundan əlavə, xilafətə tabe olan iri ölkələrdə  milli-azadlıq  hərəkatları başlandı.

**IX əsrin 30–40-cı illərdə Azərbaycanda ərəblərə qarşı baş verən üsyanlar**



# Xilafət dövründə Azərbaycanın təsərrüfat həyatı

## Ticarət

Xilafət dövründə (VII-IX əsrlərdə) əvəllər Azərbaycanda təsərrüfatın, sənətkarlığın, ticarətin, şəhərlərin və ümumiyyətlə, məhsuldar qüvvələrin inkişaf ahəngi bir qədər ləngisədə tədricən ərəblərə tabe olan digər ölkələrin xalqları ilə Azərbaycan arasında iqtisadi və mədəni sahədə qarşılıqlı əlaqələr gücləndi.

Azərbaycan tacirləri təkcə xilafətə tabe olan ölkələrlə deyil, onların təsirindən kənarda olanlarla da ticarət əlaqələrin saxlayırdı. Bu dövürdə **Bərdə, Ərdəbil** və **Gülsurə bazarları** ***əsas ticarət mərkəzlərindən*** hesab edilirdi. **Bərdədə** yerləşən ***"Kürki bazarı"*** zəngin Gülsurə bazarı ilə rəqabətə girirdi. Azərbaycana çoxsaylı tacirləri ***malların bolluğu, və gözəlliyi, ticarətin rəvan getməsi***, həmçinin ***ucuzluq*** cəlb edirdi. Azərbaycan şəhərləri ənənəvi əmtəə-mal istehsalı ilə bir-birindən fərqlənirdi. Bu dövrdə yerli və dünya bazarlarında aşağıdakı məhsullar göndərilirdi:

- **Bərdədən** - ***ipək, pərdə, paltar***
- **Dərbənddən** - ***kətan parça, şirli və şirsiz saxsı qablar***
- **Dəbildən** - ***yun paltar, xalça, balış, örtük, qaytan***
- **Bakıdan *neft, zəfəran***

Digər şəhərlərdən isə ***zəngərlik məmulatı, şüşə qablar, zinət əşayları, təzə*** və ***qurudulmuş meyvələr, qaxac edilmiş balıq*** və.s aparılırdı.

**Ərəb ağalığı dövründə Azərbaycanın əsas ticarət mərkəzləri**




## Şəhərlər. Sənətkarlıq

Azərbaycan şəhərləri xilafətlə **Şimal-Şərqi Avropa** və **Asiya ölkələri** arasında ***ticarətdə vasitəçilik*** edirdi. Azərbaycan şəhərlərindəki zərbxanalarda kəsilən sikkələr ***Slavyan*** və ***Avropa ölkələri*** ilə, həmçinin ***Şərq ölkələri*** ilə ticarətdə istifadə olunurdu. Xəzər sahilindəki **Dərbənd, Bakı, Abaskun, Astarabad** limanlar; xilafətin ***Şimal və Şərq ölkələri ilə ticarətdə başlıca mərkəzlər*** idi. Şimaldan Xəzər dənizi ilə mal gətirən əcnəbi və yerli tacirlərin toplanan yeri ***Dərbənd bazarı*** idi.

Azərbaycanda şəhər həyatına ***ticarətin*** və ***sənətkarlığın inkişafı*** müsbət təsir göstərirdi. Ərəb istilası nəticəsində dövlətlərarası iqtisadi və siyasi münasibətlərdə ciddi dəyişikliklər yarandı, dünya ticarət yollarının bir hissəsi öz istiqamətini dəyişdi - ərəblər Bizansın Qara dənizdən keçən əsas ticarət yolunun istiqamətini dəyişərək, onu **Şərqə-Xəzər dənizi tərəfə** keçirtdilər. Bunun nəticəsində ərəblər dövründə Azərbaycan şəhərlərinin fəaliyyəti canlandı. Ön Qafqazdakı bütün ticarət yollarının kəsişdiyi **Bərdə şəhəri *ərəblərin Şimalla tranzit ticarətinin mərkəzinə*** çevrildi. Orta Əsr ərəb mənbələri Azərbaycanın **Urmiya, Marağa, Ərdəbil, Səlmas, Mərənd, Beyləqan, Naxçıvan, Barsun, Dərbənd, Şabran, Şəki, Qəbələ, Bakı, Şamaxı, Şəki, Gəncə** və.d şəhərlərin gözəl iqlimindən, zəngin sərvətindən, əhalisinin məşğuliyyətindən və xüsusiyyətlərindən, məişətindən, adət və ənənəsindən xəbər verir. Bu şəhərlərin bəzisi sənətkarlıq və ticarət mərkəzi olmaqla yanaşı həmdə ***siyasi-inzibati mərkəzi kimi*** də məşhir idi. Məsələn, **Bərdə** o dövrdə ***Ərəblərin Cənubi Qafqazda əsas siyasi və inzibati mərkəzi*** olmuşdur. ***Ticarət, sənətkarlıq və mədəniyyət*** mərkəzi kimi **Gəncə** diqqəti daha çox cəlb edirdi. Şəhər təkcə Azərbaycanda deyil, **Ön Asiyadakı** şəhərlər içərisində də

fərqlənirdi. VII-IX əsrlərdə şəhərlərdə - ***dulusçuluq, dəmirçilik, misgərlik, zərgərlik, sərraclıq, çəkməçilik, toxuculuq, dərzilik, xarratlıq, bənnalıq*** və.s peşələri inkişaf etmişdir.

**Ərəblərin ticarət yollarını Xəzər dənizinə keçirtməsinin nəticələri**




## Xilafət dövründə Azərbaycan mədəniyyəti

### Maarif

VII-IX əsrlərdə xilafətdə və ona tabe olan ölkələrdə sosial-iqtisadi, siyasi sahələrdə baş verən dəyişikliklər öz əksini mədəniyyətdə də tapırdı. Ərəblərin işğalına qədər Azərbaycanda mədəniyyətin bir çox sahələri - ***yazı, məktəb, ədəbiyyat, memarlıq*** və ***şəhərsalma*** xeyli inkişaf etmişdi. İslamı qəbul etmiş xalqların bir-birinə qarşılıqlı faydalı təsiri nəticəsində mədəniyyətin bütün sahələrində onları yaxınlaşdıran ***ümumi əlamətlər*** meydana çıxdı. İslam mədəniyyətinin zənginləşməsində xilafətə tabe olan bütün xalqların payı var idi. Ümumi İslam mədəniyyəti zəminində xalqların milli mədəniyyəti zənginləşir və inkişaf edirdi.

**VII-IX əsrlərdə** mədrəsələrdə və məktəblərdə tədris ***ərəb dilində*** aparılırdı. ***Ərəb dili*** xilafətin bütün ərazisində ***rəsmi dövlət dili*** idi. Dini ibadətlər yalnız bu dildə icra edilirdi. Bu dövrdə ***milli-etnik sərhədlər zəifləyir, dini mənsubiyyət*** əsas amilə çevrilirdi. Lakin, bütün təzyiqlərə baxmayaraq, xilafətin əsarətində olan xalqların milli dilinin inkişafını dayandırmaq mümkün olmadı.

Bəhs edilən dövrdə Azərbaycan mütəfəkkirlərinin yaratdıqları əsərləri ilə İslam mədəniyyətini zənginləşdirirdilər. Azərbaycandan onlarla istedadlı gənclər Ərəb Şərqinin mədəniyyət mərkəzləri hesab edilən **Bağdad, Kufə, Nəcəf, Bəsirə, Mədinə və Qahirə şəhərlərinə** təhsil almağa gedirdi. Azərbaycanın **Ərdəbil, Marağa, Təbriz, Şamaxı** və s. şəhərlərində təhsil ocaqları, kitabxanalar, məscidlər, əzəmətli abidələr yaranmaqda və inkişaf etməkdə idi.

**VII-IX əsrlərdə ərəb dilinin Azərbaycanda mövqeyi**

**Ərəb dili**
- Rəsmi dövlət dili idi
- Dini ibadətlər bu dildə icra olunurdu
- Əsərlər bu dildə yazılırdı
- Məktəb və mədrəsələrdə tədris bu dildə aparılırdı

**Xilafət dövründə Azərbaycanda mədəniyyətin inkişaf etdiyini sübut edən faktlar**
- Azərbaycan mütəfəkkirlərinin yaratdıqları əsərlərin İslam mədəniyyətini zənginləşdirməsi
- Ərdəbil, Marağa, Təbriz, Şamaxı şəhərlərində təhsil ocaqlarının, kitabxanaların, məscidlərin, abidələrin yaranması
- Azərbaycandan istedadlı gənclərin Bağda, Kufə, Nəcəf, Bəsirə, Mədinə və Qahirə şəhərlərinə təhsil almağa getməsi

## Musa Kalankatlının "Alban tarixi" əsəri

Dövrün görkəmli elm xadimi və tarixçilərindən biri **"Alban tarixi"** əsərinin müəllifi olan **Musa Kalankatlı** idi. Musa Kalankatlı Alban hakimi ***Cavanşirin müasiri*** idi. Bu dövür Albaniyanın siyasi və mədəni dirçəliş dövrü idi. Kalankatlı bu əsəri ***Cavanşirin tapşırığı ilə*** yazmışdı. Əsər ***X əsr hadisələrin*** şərhi ilə başa çatır. Əsər quruluşuna görə ***üç hissədən*** ibarətdi:

- ***Birinci kitabda ( hissədə)*** - Bibliya tarixi ilə başlayır və IV fəslindən başlayaraq Albaniyanın real tarixinin şərhi verilir.
- ***İkinci kitabda ( hissədə)*** - VI əsrin ortalarından VIII əsrin əvvəllərinə qədər baş verən hadisələrdən bəhs edilir. Cavanşirin hakimiyyətini və ərəblərin Albaniyaya hücumlarını əks etdirir, Sasani–Bizans və Sasani - Ərəb müharibələrinin geniş xronikası verilir.
- ***Üçüncü kitabda ( hissədə)*** - Ərəblərin tarix səhnəsinə çıxmasından, Cənubi Qafqaza hücumları və bu ərazilərə sahib olmalarından, həmçinin hunlarla münasibətlərindən bəhs edilir.

**QEYD:** "Kitabi Dədə Qorqud" dastanı xilafətin hakimiyyəti dövründə formalaşıb başa çatmışdır. Dastan IX əsrin əvvəllərində **ərəb dilinə** tərcümə edildi və islam mədəniyyətinin dəyərli incisinə çevirildi.

## Memarlıq

Bu dövrdə şəhərlərin hamısı ***qala divarları ilə*** əhatə edilmişdir. Şəhərlərdə saxsı borular vasitəsilə su şəbəkəsi və kanalizasiya qurğuları yaradılırdı. Qabların və abidələrin üzərində ərəb əlifbasının ***küfi xətti*** ilə yazılmış yazılar onların yarandığı dövrü və sənətkarını dəqiqləşdirir. Azərbaycanda İslamın qərarlaşması nəticəsində:

- Memarlığın və şəhərsalmanın yeni istiqaməti müəyyən olundu
- Tikinti və abadlıq sahəsində yeni ənənələr yarandı
- İnşaat sahəsində bişmiş kərpic, hörgü texnikası təkmilləşdi
- Yonulmuş daşdan ***tağlı konstruksiyaların qurulması işi*** xeyli təkmilləşdi
- Azərbaycan memarlığında ***günbəzli tikililər*** geniş yayıldı

Azərbaycan memarlığında günbəzli tikililər **VIII əsrə qədər** geniş yayılmışdı. ***Bərdə şəhəri yaxınlığında Tərtər çayı üzərində çaylaq daşından hörülmüş körpü bizə məlum olan xilafət dövrü memarlığının yeganə və ən səciyyəvi nümunəsidir.***

## Azərbaycan xalqının təşəkkülü prosesinin sürətlənməsi

Hər bir xalqın formalaşması zəruri olan şərtlər yarandıqda mümkün olur. Azərbaycan xalqının formalaşması üçün zəruri şərtlərin hamısı ***Xilafət dövründə*** yarandı. Həmin şərtlər bunlar idi:

1. ***Dil birliyi***
2. ***Ərazi bütövlüyü***
3. ***Mədəniyyət birliyi***
4. ***İqtisadi əlaqələrin ümumiliyi***

**QEYD:** Din birliyi bu şətlərə daxil deyildir.

Xalqın və onun dilinin təşəkkülündə mühüm amillərdən biri ***ərazi*** birliyidir. Ərəblər dövründə Azərbaycanda sərhədlər dəqiqləşdirildi. Azərbaycanın ***şimal sərhədi*** **Dərbənd,** ***cənub sərhədi*** **Həmədan** şəhəri müəyyən edildi. Ümumiyyətlə, ərəblər dövründə Azərbaycanın sərhədlərinə aşağıdakı ərazilər daxil idi:

- ***Şimalda*** **- Qafqaz dağlarından Dərbənd ətrafı əraziləri əhatə edirdi**
- ***Şərqdə*** **- Xəzər dənizinə,** ***qərbdə*** **- Gürcüstan Respublikasına qədər əraziləri əhatə edirdi**
- ***Cənubda*** **- Zəncan-Qəzvin bölgələri daxil olmaqla Qızılüzən çayını əhatə edirdi**
- ***Cənub-qərbdə*** **Oğuz yurdu olan - İrəvan şəhəri daxil olmaqla indiki Ermənistan ərazisini əhatə edirdi**

Qədim tayfaların etnik mənsubiyyətini sübut edən əsas amillərdən biri də ***dil*** sayılır. Hazırda Respublikamızda yaşyan "azsaylı xalqlar" əsrlər boyu Azərbaycanda məskunlaşan **İrandilli** ***(tat, talış kürd)***, **Qafqazdilli** ***(udin, ləzgi, xınalıq, buduq)*** **Türkdilli** ***(hun, qıpçaq, xəzər, oğuz )*** və başqalarının varisləridir.

Azərbaycan ərazisində məskunlaşmış tayfalar içərisində ***türk tayfaları*** üstünlük təşkil edirdi. Qədim və Orta Əsr mənbələrində Azərbaycanda yaşayan çoxsaylı türk tayfalarının adları çəkilir (kimmer, iskit, massaget, xəzər, qıpçaq və.s). Bugünkü Azərbaycan türkləri onların varisləridir. Sasanilərin və ərəblərin hakimiyyəti dövründə də ***türklərin Azərbaycana güclü axını*** oldu və yeni gələn türklər yerli türklərlə birləşdirdi. Farslar və ərəblər is öz dillərini itirərək yerli əhaliyə qaynayıb-qarışırdılar.

## Azərbaycanda yaşayan tayfaları birləşdirən ümumi xüsusiyyətlər

Erkən Orta əsrlər dövründə Azərbaycanda yaşayan bütün tayfaları birləşdirən ümumi xüsusiyyətlər var idi:

- ***Birinci xüsusiyyət*** - tayfaların eyni ideologiyanın təsiri altında olması idi. Müxtəlif dövrlərdə bu tayfalar bütpərəstliyin, Zərdüştliyin, xristianlığın və nəhayət, İslamın ayinlərini icra etməli olmuşdular.
- ***İkinci xüsusiyyət*** – tabe olduqları imperiyanın milli əsarətinə qarşı birlikdə mübarizə aparmışdılar.
- ***Üçüncü xüsusiyyət*** - yadelli istilaçıların hücumlarına qarşı birlikdə müqavimət göstərirdilər.

**IV-VII əsrlərdə** Cənubi Qafqaz və bütünlükdə Azərbaycan əvvəlcə Sasani və Bizans imperiyalarının, sonralar isə Xəzər xaqanlığı və Xilafətin maraq dairəsinə düşmüşdü. Bu zaman həmin tayfalar işğalçılara birlikdə müqavimət göstərmişdilər. Lakin, Erkən Orta əsrlər dövründə Azərbaycanda xalqın formalaşması prosesinə mənfi təsir edən və Albaniyada əhalinin etnik birliyini parçalayan amillər var idi. Həmin amillər bunlar idi:

- **IV əsrdən başlayaraq xristianlıq təbliğatının güclənməsi**
- **Əhalinin müəyyən qisminin xristianlıq dinini qəbul etməsi**

**IV-VII əsrlərdə** Cənubi Qafqaz və bütünlükdə Azərbaycan əvvəlcə Sasani və Bizans imperiyalarının, sonralar isə Xəzər xaqanlığı və Xilafətin maraq dairəsinə düşmüşdü. Bu zaman həmin tayfalar işğalçılara birlikdə müqavimət

göstərmişdilər.Təkallahlı dinlərə sitayiş edənləri müsəlmanlaşdırmaq İslamın prinsiplərinə zidd olduğu üçün ərəb işğalları dövründə ***Albaniyanın xristian əhalisi*** İslam dininin təsir dairəsindən kənarda qaldı. Bu vaxtdan erməni və gürcü kilsələrinin Albaniyanın qərbində yaşayan əhalini öz dini-siyasi dairələrinə salmaq uğrunda mübarizəsi daha da gücləndi. Azərbaycan İslamla xristianlıq arasında ən kəskin qarşıdurma məntəqəsinə çevrildi.

**Azərbaycan xalqının təşəkkülü prosesində İslam dininin rolu**

Xalqımızın iqtisadi və mədəni inkişafında islam dininin mühüm rolu olmuşdur. VII-VIII əsrlərdə ərəblərin işğalı və İslam dininin Azərbaycanın bütün ərazisində yayılması ***nəticəsində:***

- Əvvəlki müxtəlif dini baxışlar sıxışdırılıb sıradan çıxarıldı
- Ölkəyə yadelli orduların hücumlarının qarşısı alındı
- Təsərrüfat canlandı, iqtisadi və siyasi sabitlik yarandı
- Ümumislam mədəniyyəti tərkibində Azərbaycan mədəniyyəti inkişaf etdi
- Türk tayfalarının birliyi möhkəmləndi, türk dilinin təşəkkülü başa çatdı
- İslamın dəyərlərindən Azərbaycan xalqı faydalandı, dini mübarizə sona yetdi
- Azərbaycanın Xilafətə tabe olan ölkələrin xalqları ilə iqtisadi və mədəni əlaqələri genişləndi
- Azərbaycan xalqının formalaşması üçün zəruri şərtlərin hamısı yarandı
- Azərbaycan ərazisində yaşayan türk və qeyri-türk tayfaları arasında vahid adət-ənənələr yaranıb genişləndi onların qaynayıb-qarışma prosesini daha da sürətləndi.

## Xronologiya

| | |
|---|---|
| **633** | Ərəb ordusunun İraq tərəfindən Sasani imperiyasının sərhəddini keçməsi |
| **634** | Albaniya hökmdarı Varaz Qriqorun sasanilərə kömək üçün oğlu Cavanşiri qoşunla ora göndərməsi |
| **636** | Kadisiyyə döyüşü |
| **638** | Ktesifon döyüşü |
| **VII 30-cu illəri** | Xəzərlərin Albaniyaya yürüşü |
| **640** | Sasani ordusunun ərəblər tərəfindən darmadağın edilməsi və Cavanşirin Albaniyaya qayıtması |
| **640** | Sərkərdə Hüzeyfənin başçılığı ilə ərəblərin Cənubi Azərbaycana hücum etməsi |
| **642** | Nahəvənd və Həmədan döyüşlərində sasanilərin məğlub olması. Ərəblərin Azərbaycana hücumunun başlanması |
| **642-681** | Cavanşirin Albaniyada hakimiyyəti |
| **VII-VIII əsrlər** | Ərəblərin xəzərlərlə Azərbaycan uğrunda yüz ilədək müharibə aparması |
| **643** | I Bələncər döyüşü |
| **644** | Ərəb sərkərdəsi Bukeyr İbn Abdullah ilə İsfəndiyar arasında sülh bağlanması |
| **646** | Sərkərdə Salman ibn Rəbiənin başçılığı ilə ərəblərin Şimali Azərbaycanı tutması |
| **VII 40-cı illəri** | Ərəb qoşunlarının sərkərdə Bukeyrin başçılığı ilə Muğanı və Dərbəni işğal edərək Şirvan hökmdarı Şəhriyarla sülh bağlaması |
| **645** | Ərdəbildə ərəblərə qarşı yenidən üsyan baş verməsi |
| **646** | Ərəblərlə Ərdəbil əhalisi ilə yeni müqavilə bağlanması |
| **651** | Sasani imperiyasının süqut etməsi |
| **653** | II Bələncər döyüşü |
| **654** | Cavanşirin Bizans imperatoru II Konstantin ilə birinci dəfə görüşməsi |
| **660** | Cavanşirin Bizans imperatoru II Konstantin ilə ikinci dəfə görüşməsi |
| **661-750** | Xilafətdə Əməvilər sülaləsinin hakimiyyəti |
| **662** | Kür çayı yaxınlığında döyüş baş verməsi |
| **665** | Xəzərlərin böyük qüvvə ilə Albaniyaya hücum edərək Araz çayı sahillərinə qədər irəliləməsi |
| **667** | Cavanşirin birinci dəfə Xilafətin paytaxtı Dəməşq şəhərinə gedərək xəlifə Müaviyə ilə görüşməsi |
| **670** | Cavanşirin ikinci dəfə Dəməşq şəhərinə gedərək xəlifə Müaviyə ilə görüşməsi |
| **681** | Albaniyada bizanspərəst feodalların sui-qəsdi nəticəsində Cavanşirin qətlə yetrilməsi |
| **VII əsr** | Cavanşirin göstərişi ilə Musa Kalankatlunın "Alban tarixi" əsərini yazması |
| **681-705** | Alban hökmdarı Varaz Trdatın hakimiyyəti |
| **705** | Ərəblərin Albaniyaya yürüş etməsi |
| **725** | Azərbaycanda ərəblər tərəfindən əhali, mal-qara və torpaqların siyahıya alınması |
| **730** | Savalan dağı yaxınlığında döyüş baş verməsi |

| | |
|---|---|
| **748-752** | Xilafətə qarşı Azərbaycanda ilk çıxışların baş verməsi |
| **748** | Xilafətə qarşı Beyləqanda Müsafirin başçılığı ilə üsyan baş verməsi |
| **750-1258** | Xilafətdə Abbasilər sülaləsinin hakimiyyəti |
| **754-775** | Xəlifə əl-Mənsurun hakimiyyəti |
| **VIII II yarısı** | Azərbaycanda xilafətə qarşı çıxışların güclənməsi |
| **778** | Xürrəmilərin ərəblərə qarşı birinci üsyanı baş verməsi |
| **786-809** | Xəlifə Harun-ər-Rəşidin hakimiyyəti |
| **798-838** | Babək Xürrəmidin yaşadığı dövr |
| **VIII 90-cı illəri** | Xəzərlərin 100 min nəfərlik qoşunla Azərbaycanın şimalına hücum etməsi |
| **VIII əsr** | Azərbaycan memarlığında günbəzli tikililərin geniş yayılması |
| **808** | Xürrəmilərin ərəblərə qarşı ikinci üsyanı. Bu üsyana Cavidan başçılıq edirdi. Lakin üsyan yatırıldı və on minlərlə adam əsir aparıldı |
| **813 – 833** | Xəlifə Məmunun hakimiyyəti |
| **816** | Cavidanla Əbu İmranın döyüşdə bir-birini öldürməsi və Xürrəmilər icmasına rəhbərliyin Babəkin əlinə keçməsi |
| **816-837** | Xürrəmilərin azadlıq müharibəsinə Babəkin başçılıq etməsi |
| **819** | Xürrəmilərə qarşı xəlifənin ilk nizami ordu göndərməsi |
| **IX 20-ci illəri** | Xürrəmilərin Sünik, Bərdə, Beyləqan, Qarabağ və Arranı ərəblərdən azad etməsi |
| **829 iyun** | I Həşdədsər döyüşü |
| **830** | I Həmədan döyüşü |
| **833** | II Həmədan döyüşü |
| **833 – 842** | Xəlifə Mötəsimin hakimiyyəti |
| **835** | Afşinin Xürrəmilərə qarşı vuruşan ərəb ordusuna baş komandan təyin edilməsi |
| **836** | II Həşdadsər döyüşü |
| **837** | Xəlifənin Afşinin köməyinə iki böyük ordu göndərməsi |
| **837 26 avqust** | Bəzz döyüşü |
| **838 14 mart** | Babəkin Samirə şəhərində edam olunması |
| **IX 30-40-cı illəri** | Varsan, Bərdəd, Mərənd və Kür-Araz vadisində ərəb əsarətinə qarşı Əbu Musanın rəhbərliyi ilə üsyanlar baş verməsi |
| **IX II yarısı** | Xilafətdən asılı olan ölkələrdə, o cümlədən Azərbaycanda milli-azadlıq hərəkatının davam etməsi. Azərbaycanda ilk müstəqil feodal dövlətlərin meydana gəlməsi |

# VII BÖLMƏ

## AZƏRBAYCAN FEODAL DÖVLƏTLƏRİ (IX-XI ƏSRLƏR)

### Azərbaycanda ilk feodal dövlətlərin yaranması

**Ərəb xilafətinin zəiflənməsi və Azərbaycanda müstəqil dövlətlərin yaranması**

**IX əsrdə** Xilafətin xeyli zəifləməsi və feodal münasibətlərinin möhkəmlənməsi ***nəticəsində:***

- ***İri feodalların mövqeyi qüvvətləndi***
- ***Əyalət hakimlərinin müstəqilliyi artdı***
- ***Xilafətdə baş verən azadlıq hərəkatları genişləndi***
- ***Feodal zülmünə qarşı mübarizə gücləndi***

IX əsrdə ***feodal hərc-mərciliyinin artması nəticəsində*** xilafətidə mərkəzi hakimiyyət xeyli zəiflədi. Bu zaman Azərbaycan ərazisində və imperiyanın ucqarlarında bir sıra ***yerli feodal dövlətlər – əmirliklər*** yarandı. Bu dövlətləri ***ayrı-ayrı sərkərdələr - keçmiş ərəb canişinləri*** idarə edirdilər. Onların əsasını qoyduqları feodal nəsilləri zaman keçdikcə özlərinin ərəb mənşəyini itirərək yerli xalqlarla qaynayıb-qarışdılar.

Abbasilər xilafətinə qarşı xalq azadlıq hərəkatının başlıca mərkəzlərindən biri olan **Azərbaycanda** müstəqillik meyli daha güclü idi. Ərəb əsarətinə qarşı mübarizənin gedişində və feodal münasibətlərinin inkişafı nəticəsində geniş torpaq mülkləri və müxtəlif imtiyazlar ələ keçirmiş ***iri feodallar*** müstəqil yerli hakimlərə çevrilmişdilər. Onların Abbasilər xilafətindən asılılığı ***formal xarakter*** daşıyırdı. Bu dövrdə Azərbaycanın ayrı-ayrı vilayətlərini, faktiki olaraq, müxtəlif ***feodal sülalələri (feodal nəsilləri)*** idarə edirdi. Ərəb zülmünə qarşı mübarizə uğurla başa çatdıqdan sonra, Azərbaycan ərazisində **Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər** və **Şəddadilər** dövlətləri yarandı. **IX-XI əsrlərdə** yerli dövlətlərin yaranmasının aşağıdakı əhəmiyyəti var idi:

- ***Azərbaycanın qədim dövlətçilik ənənələrinin dirçəldi***
- ***Türk və qeyri türk etnik qrupları qəsbkarlara qarşı vahid qüvvə halında birləşdi***
- ***Bizans, erməni və gürcülərin Azərbaycan torpaqlarını ələ keçirmək planı puça çıxdı***
- ***Ümumi düşmənlərə qarşı mübarizədə xalq sıx birləşdi***
- ***Ölkədə etnik-siyasi birlik daha da möhkəmləndi***
- ***Slavyanlar Azərbaycanda möhkəmlənə bilmədilər***

Bununla belə, **IX-XI əsrlərdə** Azərbaycan dövlətlərindən heç birinin ölkədə uzunmüddətli sabitlik yarada bilməməsi nəticəsində ***feodal dağınıqlığı*** və ***ara müharibələri dövrü*** başlandı. Azərbaycanın müxtəlif tarixi vilayətlərini ***ayrı-ayrı feodal nəsillərinin idarə etməsi*** feodal dağınıqlığını daha da dərinləşdirdi və ölkəni yadelli hücumlar qarşısında aciz etdi. Bir-birilə düşmənçilik edən Azərbaycan hakimləri ***öz aralarındakı ziddiyətləri həll etmək üçün*** çox vaxt ***xarici qüvvələri*** köməyə çağırırdılar. Bundan istifadə edən yadellilər ***Azərbaycanda möhkəmlənməyə*** və onun ***sərvətlərini talamağa*** çalışırdılar. Basqınlar və təcavüzlər ölkənin ictimai-iqtisadi inkişaf ahəngini pozurdu. IX-XI əsrlərdə aşağıdakı amillər yadellilərin Azərbaycana diqqətini özünə cəlb edirdi:

- ***Azərbaycanın zəngin sərvətləri və təbii ehtiyyatları***
- ***Azərbaycanın beynəlxalq karvan yollarının qovşağında yerləşməsi***
- ***Azərbaycanın hərbi-strateji mövqedə yerləşməsi***

**IX-IX əsrlər Azərbaycanın ilk feodal dövlətləri**

| Şirvanşahlar (861-1538) | Sacilər (879-941) | Salarilər (941-981) | Rəvvadilər (981-1054) | Şəddadilər (971-1054) |
|---|---|---|---|---|

## Şirvanşahlar dövləti (861-1538)

### Şirvanşah Məzyədilər sülaləsinin Azərbaycanda möhkəmlənməsi

Şirvanşahların Azərbaycanın şimalında özlərinə tabe etdiyi geniş ərazilər əvvəllər **"Şirvan"** adlanırdı. Şirvan:

- **Azərbaycanın şimal-şərqində** kiçik bir vilayət idi
- **Dərbənddən Kür çayına doğru Xəzər dənizi sahillərindəki Azərbaycan torpaqlarını** əhatə edirdi
- Mərkəzi ***Şirvan şəhəri*** idi (şəhər Xəzər sahilində, Şamaxı-Dərbənd ticarət yolunun üstündə yerləşirdi)

***Məzyədilər sülaləsinin*** idarə etdiyi Şirvanşahlar dövləti Abbasilər xilafətinin dağılması gedişində Azərbaycanda yaranmış ***ilk müstəqil və nisbətən güclü feodal dövləti*** idi. Şirvanşah Məzyədilər sülaləsinə ***aiddir:***

- Tarixi ədəbiyyatda ***Şeybanilər*** və ya ***Yezidilər sülaləsi*** adlanırdı
- Mənşəcə ***Rəbiə adlı*** ərəb tayfasından idi
- Arranı işğal edib Azərbaycanda möhkəmlənmiş ***Salman ibn Rəbiə*** bu tayfanın nümayəndəsi idi
- İlk dəfə **Arranda** paytaxtı **Bərdə** olan yarımmüstəqil feodal dövləti **–** ***əmirlik*** yaratmışdılar
- Bir çox ərəb nəsilləri kimi sülalə türkləşmərək mənşəyini itirmişdi
- IX əsrin sonlarında Bərdə ***Sacilərin əlinə keçdiyindən***, buradakı nümayəndələri Şirvana köçmüş və nəsilləri, əsasən burada cəmləşmişdi
- Sülalənin görkəmli nümayəndələri **Yezid ibn Məzyəd, Əsəd, Məhəmməd ibn Yezid, Heysam ibn Xalid, Əbu Tahir** və.b olmuşdur

### Yezid ibn Məzyədin hakimiyyəti (780-801)

Yezid ibn Məzyədin dövrünə (780-801) ***aiddir:***

- Xəlifə **Harun ər-Rəşidin (786-809)** zamanında Cənubi Qafqaz vilayətinin, o cümlədən Şirvanın hakimi idi
- Ərəblərin Cənubi Qafqazda, o cümlədən Azərbaycanda möhkəmlənməsində mühüm rol oynamışdı
- Azərbaycan torpaqlarını, o cümlədən **Aran, Şirvan** və **Dərbənd** ərazisini idarə edirdi
- Özünə və xilafətə ***etnik dayaq yaratmaq məqsədilə*** Ərəbistandan Azərbaycana ***Rəbiə*** tayfasından, həmçinin **Misir** və **Suriyadan** çoxlu ərəb köçürmüşdü (ərəblər, əsasən **Aran, Şirvan** və **Dərbəndə** köçürülmüşdür)
- İlk dəfə Arranda paytaxtı Bərdə olan yarımmüstəqil feodal dövləti **-** ***əmirlik*** yaratmışdı. (Bu zaman Yezidin iqamətgahı olan **Bərdə** şəhəri bütün **Cənubi Qafqazda ərəb idarəçiliyinin siyasi mərkəzi** idi)

**801-ci ildə**, Yezid ibn Məzyəd öldükdən sonra növbə ilə onun oğulları **Əsəd, Məhəmməd** və **Xalid** Cənubi Qafqaz valisi təyin edildilər.

**Şirvanşah Məzyədilər sülaləsinin görkəmli nümayəndələri**

**Yezid ibn Məzyəd (780-801)**

**Məhəmməd ibn Yezid (801-860)**

**Heysam ibn Xalid (861-917)**

**Əbu Tahir (917-948)**

**Yezid ibn Məzyədin Misir və Suriyadan köçürdüyü ərəblərin yerləşdirildiyi bölgələr**

**Arran**

**Şirvan**

**Dərbənd**

## Məhəmməd ibn Yezidin hakimiyyəti (801-860)

Məhəmməd ibn Yezidin dövrünə (801-860) ***aiddir:***

- Müəyyən müddət Cənubi Qafqaz valisi - əmiri olmuşdur
- Məzyədilər sülaləsinin müstəqilliyi bir qədər artdı
- Məzyədilər Azərbaycanda daha da möhkəmləndilər
- **859-cu ildə** qədim **Gəncəni** bərpa etdirib öz iqamətgahını Bərdədən Gəncəyə köçürtdü

## Heysam ibn Xalidin hakimiyyəti (861-917)

Heysam ibn Xalidin hakimiyyəti dövrünə (861-917) ***aiddir:***

- Müəyyən müddət Cənubi Qafqaz valisi - əmiri olmuşdur
- **861-ci ildə** Şirvanı müstəqil elan etdi
- Müstəqil Şirvanşahlar dövlətinin əsasını qoydu
- İlk dəfə ***Şirvanşah titulunu*** qəbul etdi
- **917-ci ildə** qonşu **Lahicanşahlığı** Şirvanşahlar dövlətinə birləşdirdi

## Əbu Tahirin hakimiyyəti (917-948)

Əbu Tahirin hakimiyyəti dövrünə (917-948) ***aiddir:***

- Şirvanşahlar dövlətinin müstəqilliyini daha da artdı və ərazisi genişləndi
- Azərbaycanın şimalındakı xırda feodal mülkləri Şirvan ətrafında birləşdirilməsi davam etdirildi
- **918-ci ildə** qədim **Şamaxını** bərpa etdirib, Şirvanşahlar dövlətinin paytaxtını Gəncədən bura köçürtdü
- Şirvanşahlar dövlətinin paytaxtı **Yezidiyyə** adlanmağa başladı

**Məhəmməd ibn Yezidin öz iqamətgahını Gəncəyə köçürməsinin nəticəsi**

Məzyədilər sülaləsinin müstəqilliyi artdı

Məzyədilər Azərbaycanda möhkəmləndilər

Şirvanşahların müstəqilliyi dahada artdı

Şirvanşahların ərazisi genişləndi

**Şirvanşahlar dövlətinin paytaxtının Şamaxıya köçürülməsinin əhəmiyyəti**

### Azərbaycanın şimalındakı xırda feodal mülklərinin Şirvanşahlar dövlətinə birləşdirilməsi

Azərbaycanın şimalındakı ***xırda feodal mülkləri*** hökmdar ***Əbu Tahirin dövründən başlayaraq*** Şirvanşahlar dövləti ətrafında birləşdirilməsi davam etdirildi. **X əsrin ikinci yarısında** aşağıdakı ərazilər Şirvanşahın qoşunları tərəfindən Şirvanşahlar dövlətinə birləşdirildi:

- **981-982-ci illər – Qəbələ**
- **982-ci il – Bərdə**
- **983-cu il – Şabran**
- **988-ci il - Dərbənd əmirliyi**
- **IX əsrin sonları - Xursan** və **Tabasaran**

Ərəb mənşəli feodal nəsil **Haşimilər** tərəfindən idarə olunan **Dərbənd əmirliyinin** Şirvanşahlar dövlətinə birləşdirilməsinin böyük əhəmiyyəti vardı. Azərbaycan türklərinin yaşadığı Dərbənd ***qədim türk mənbələrində*** **"Dəmir qapı"** adlandırılırdı. Şirvanşahlar Dərbəndi ələ keçirdikdən sonra ***şəhərin qala divarlarını təmir etdirib möhkəmləndirdilər.*** Bu dövrdə **Şəki** və **Sanariyə hakimləri** isə Şirvanşahlardan ***asılı vəziyyətə*** salınmışdı. Şirvanşahlar dövlətinin ərazisi ***Azərbaycanın şimal-şərq torpaqlarını***, **Dərbənddən Kür çayına doğru Xəzər dənizi sahillərindəki əraziləri** əhatə edirdi.

### Şirvanşahlar dövlətinin yaranmasının əhəmiyyəti

Abbasilər xilafətinin zəiflədiyi dövrdə Azərbaycanın şimal-şərq torpaqlarında müstəqil ***Şirvanşahlar dövlətinin yaranması*** mütərəqqi tarixi hadisə idi. Bunu aşağıdakı amillər də təsdiq edir:

1. ***Şirvanşahlar dövlətinin yaranması Azərbaycanın başqa yerlərində də qədim dövlətçilik ənənələrinin dirçəlməsinə təsir göstərdi.***
2. ***Şirvanşahlar dövlətinin qüvvətlənməsi və Dərbənd səddini möhkəmləndirməsi nəticəsində şimaldan Azərbaycana hücum edən yadellilərin basqınlarına qarşı mübarizə asanlaşdı.***

# Sacilər dövləti (879-941)

## Sacilər sülaləsinin mənşəyi

Ərəb əsarətinə qarşı mübarizə dövründə Azərbaycanda yaranmış güclü feodal dövlətlərdən biri də **Sacilər dövləti** idi. Azərbaycan Sacilər dövlətini ***türk mənşəli*** sülalə olan ***Sacilər*** yaratmışdılar. Bu sülalənin nümayəndələri bir ***Afşin ləqəbini*** daşıyırdı. Sacilər **Mərkəzi Asiyanın Əşrusən (Usruşana)** vilayətinin qədim türk nəsillərindən idilər. Ərəb ordusunun bir çox məhşur sərkərdələri, o cümlədən ***xürrəmilər hərəkatını yatırmaqda mühüm xidməti olan Afşin Heydər ibn Kavus*** bu nəsildən idi. ***Sacilər sülaləsinin banisi* - Əbu Sac Divdad** olmuşdur. Sacilər sülaləsinin digər görkəmli nümayəndələri **Məhəmməd ibn Əbu Sac, Yusif ibn Əbu Sac** və **Deysəm** olmuşdur.

**Sacilər sülaləsi**




## Sacilər dövlətinin yaranması. Əbu Sac Divdadın hakimiyyəti (879-898)

**879-cu ildə** meydana gəlmiş Sacilər dövlətinin banisi **Əbu Sac Divdad** olmuşdur. Əbu Sac Divdada ***aiddir:***

- Xilafət qoşunlarında xidmət edən məşhur türk sərkərdələrindən idi
- Dəfələrlə ərəb qoşunlarının ən mürəkkəb hərbi əməliyyatlarına başçılıq etmişdir
- Xilafətdə bir sıra mühüm vəzifələr tutmuşdur

Xidmətlərinə görə Xəlifə mülk olaraq **Azərbaycanı** Sacilərə vermişdir. Sacilər bütün Azərbaycan torpaqlarını ***ilk dəfə vahid dövlətdə*** birləşdirdilər. Onların dövründə **Azərbaycanın cənub rayonları** müstəqil dövlətə çevrildi. Sacilər dövlətinin paytaxtı əvvəl ***Marağa,*** sonra isə ***Ərdəbil*** şəhəri olmuşdu.

Sacilər Azərbaycanın ***qərb torpaqlarını*** ələ keçirməyə çalışan ***erməni*** və ***gürcü hakimlərini*** dəfələrlə ağır məğlubiyyətə uğradaraq, onları özündən asılı vəziyyətə salmışdı. IX əsrin sonlarında hökmdar **Məhəmməd ibn Əbu Sacın (898-900)** adına ***pul*** kəsilirdi. Sacilər Xilafətin xəzinəsinə ildə 120 min dinar xərac göndərilsə də sonradan bu dayandırıldı**.** Məhəmmədin ibn Əbu Sacın ölümündən sonra onun qardaşı **Yusif ibn Əbu Sac** hakimiyyətə gəldi.

### *Şirvanşahlarla Sacilər dövlətinin oxşar cəhətləri*



### Yusif ibn Əbu Sacın hakimiyyəti (900-927)

Yusif ibn Əbu Sacın hakimiyyəti dövründə ***aiddir:***

- Sacilər dövləti daha da qüvvətləndi
- **912-ci ildən** etibarən Xilafət xəzinəsinə xərac göndərilməsi tamamilə dayandırıldı
- Gürcü hakiminin qoşunları dəfələrlə məğlubiyyətə uğradıldı
- **Kaxetiya** ələ keçirildi və ***gürcü hakimləri*** Sacilər dövlətindən asılı vəziyyətə düşdü
- ***Şirvanşahlar dövlətini*** Sacilər özlərindən asılı vəziyyətə saldılar
- Ölkənin sərhədlərini möhkəmləndirmək üçün ***Dərbənd səddi təmir*** etdirildi
- Dövlətin ərazisi ***Zəncandan Dərbəndə qədər bütün Azərbaycan torpaqlarını*** əhatə edirdi
- Sacilər dövlətinin sərhədləri ***şərqdən*** - Xəzər dənizi, ***qərbdən*** İrəvan yanındakı Ani və Dəbilə qədər uzanırdı
- **Bərdə, Marağa** və **Ərdəbil şəhərlərində** öz adından pullar kəsdirdi

**QEYD:** Saci hökmdarı Yusifin adına Bərdə, Marağa və Ərdəbildə pullar kəsilməsi o zaman Azərbaycanın müstəqil bir dövlət kimi ***Abbasilər xilafətindən asılı olmadığı*** göstərir.

Xilafətin tənəzzülü nəticəsində Yaxın və Orta Şərqdə yaranmış ***siyasi hərc-mərclik*** şəraitində Sacilər dövləti də uzun zaman davam gətirə bilmədi və sonuncu Saci hökmdarı **Deysəmin** Salarilər tərəfindən **941-ci ildə** taxtdan salınmasından sonra süquta uğradı.

Bütün bunlara baxmayaraq, **IX əsrin 80-ci illərindən – X əsrin 40-cı illərinədək** yarım əsr ərzində bütün Azərbaycan torpaqlarının– Sacilər dövlətinin tərkibində olmasının aşağıdakı əhəmiyyəti var idi:

1. **Bütün Azərbaycan torpaqları ilk dəfə vahid halda birləşdirildi**
2. **Bütün ölkə miqyasında iqtisadi və mədəni əlaqələr daha da dərinləşdi**
3. **Ölkədə etnik fərqlərin aradan qalxmasına kömək etdi**
4. **Vahid Azərbaycan-türk xalqının formalaşması prosesinin sürətlənməsinə müsbət təsir göstərdi**

**Yusif ibn Əbu Sacın adına pul kəsdirdiyi şəhərlər**




**IX-XI əsr feodal dövlətlərinin bir birini əvəz etməsi**



### Sacilər dövlətinin yaranmasının etnik-siyasi əsası

Sacilər dövlətinin yaranması real etnik-siyasi zəminə əsaslanırdı. **Şərqi Anadolu, İran** və **Cənubi Qafqaz**, o cümlədən **Azərbaycan *Xilafətə qatıldıqdan sonra*** bu yerlərdə İslamı türk tayfalarının mövqeyi daha da möhkəmləndi. Xilafət-Bizans müharibələri dövründə ***xəlifə Bizans sərhədlərini möhkəmləndirmək məqsədi ilə Mərkəzi Asiyadan Azərbaycana və Şərqi Anadoluya çoxlu türk tayfaları köçürdü***. Bundan sonra türklər xilafət ordusunda mühüm mövqeyə çevrildi. ***Bizans imperiyası*** və ***erməni-gürcü feodallarından*** ibarət ***vahid xristian blokuna*** qarşı mübarizədə **İslam – Türk birliyi,** o cümlədən **Azərbaycan türkləri** mühüm rol oynayırdı. Ərəb xilafətinin Bizansa qarşı apardığı hərbi əməliyyatlara bir çox görkəmli ***türk sərkərdələri*** başçılıq edirdi. Əbu Sac Divdadın oğulları **Məhəmməd ibn Əbu Sac** və **Yusif ibn Sac** da xilafətin görkəmli sərkərdələrindən idilər.

## Salarilər dövləti (941-981)

### Salarilər dövlətinin yaranması və ərazisi

**941-ci ildə** meydana gələn Salarilər dövlətinin banisi keçmiş **Deyləm (Gilan)** hakimi **Mərzban ibn Məhəmməd (941-957)** idi. Mərzban ibn Məhəmməd Azərbaycanın feodal qrupları arasındakı çəkişmədən istifadə edib **941-ci ildə** sonuncu Saci hökmdarı **Deysəmə** qalib gələrək **Ərdəbil şəhərini** ələ keçirdi. Mərzban ibn Məhəmməd ***fars mənşəli Salarilər sülaləsindən*** idi. Buna görə dövlət Azərbaycan tarixində **Salarilər dövləti** kimi tanınır. Salarilər dövlətinin paytaxtı ***Ərdəbil şəhəri*** idi. Dövlətin ərazisinə ş***imalda*** Dərbənd keçidi, ***cənubda* Dəclə və Fərat çaylarının yuxarı axarı**, ***şərqdə* Gilan daxil olmaqla Xəzər sahilləri, *qərbdə* Şərqi Gürcüstan əraziləri daxil idi.**

### Mərzban ibn Məhəmmədin hakimiyyəti (941-957)

Mərzban ibn Məhəmmədin hakimiyyəti (941-957)dövrünə ***aiddir:***

- **Azərbaycanın *şimal- qərb torpaqları*** Salarilər dövlətindən asılı hala salındı
- **Şirvanşahlar dövləti** Salarilər dövlətindən asılı hala salındı və **Dərbənd** ələ keçirildi
- **Şərqi Gürcüstanı** Salarilər dövlətinə tabe edildi
- Xəzər dənizində ***Azərbaycanın ticarət gəmiləri*** üzməyə başladı
- Azərbaycanın Yaxın və Orta Şərqdə iqtisadi və hərbi-siyasi rolu daha da artdı
- Müxtəlif etnik qrupların Azərbaycan xalqı ilə qaynayıb-qarışması prosesi sürətləndi
- Yenidən bütün Azərbaycan torpaqları ***vahid dövlətdə*** birləşdirildi
- Dövlətin ərazisinə ş***imalda*** Dərbənd keçidi, ***cənubda*** Dəclə və Fərat çaylarının yuxarı axarı, ***şərqdə*** Gilan daxil olmaqla Xəzər sahilləri, ***qərbdə*** Şərqi Gürcüstan əraziləri daxil idi.

**Salarilər sülaləsinin nümayəndələri**

**Mərzban ibn Məhəmməd (941-957)** — **Vəhsudan (957-962)** — **İbrahim inb Mərzban (962-981)**

# Rəvvadilər dövləti (981-1054)

## Rəvvadilər dövlətinin yaranması. Əbülhica Rəvvadi

Rəvvadilər Azərbaycanda ərəb əsarətinə qarşı mübarizə aparıb müstəqilliyə can atan iri feodal nəsli idi. Onlar əvvəllər ***Marağa, Təbriz, Qaradağ*** və ***Əhər hakimləri*** idilər. Bu feodal sülaləsinin soykökü qədim ***ərəb nəsillərindən*** birinə bağlanırdı. Xilafət işğalları zamanı Azərbaycanın cənub bölgələrinə çoxlu ərəb nəsilləri köçürülmüşdür. Xəlifə Əlinin (656-661) hakimiyyəti illərində ***Bəsrə*** və ***Kufənin*** bir-çox ərəb tayfaları Azərbaycanın cənub rayonlarında, o cümlədən **Ərdəbil bölgəsində** məskunlaşdırılmışdır. Onlardan biri də **Əzdilər nəsli** idi. Əzdilər nəslinin banisi əslən yəmənli olan **ər-Rəvvad əl-Əzdi** idi. **VIII əsrin sonlarında** rəvvadilər Azərbaycanın cənubunda yarım-müstəqil ***Rəvvadi əmirliyi*** yaratmışdılar. (Şirvanşahlar da belə bir yarım-müstəqil əmirlik yaratmışdılar).

Salarilərin hakimiyyətinin zəiflədiyi bir dövrdə qüvvətlənən iri Azərbaycan feodallarından biri **Təbriz, Marağa** və **Əhər** hakimi olan **Əbülhica Rəvvadi (981-988) 981-ci ildə** sonuncu Salari hökmdarı **İbrahim ibn Mərzbanı (962-981)** taxtdan salaraq **Rəvvadilər dövlətinin** əsasını qoydu və yeni dövlətin banisi oldu.

***Salariləri məğlubiyyətə uğratdıqdan sonra*** Rəvvadilər Azərbaycanın cənub torpaqlarını qəti olaraq öz hakimiyyətləri altında birləşdirdilər. Bundan başqa, Rəvvadilər ***Muğan hakimliyini*** də özlərindən asılı vəziyyətə saldılar. Rəvvadilər dövlətinin ərazisinə ***Cənubi Azərbaycanı torpaqları və Muğan hakimliyi*** daxil idi.

**IX-XI əsrlərdə Azərbaycan feodal dövlətlərini idarə edən ərəb mənşəli sülalələr**




**Əvvəllər Rəvvadilərin hakim olduğu ərazilər**




## Oğuz tayfalarının Azərbaycana yeni axınları

Rəvvadilərin hakimiyyəti dövründə Azərbaycanda ***Oğuz türklərinin*** möqeyi daha da möhkəmləndi. **1028-ci ildə *Sultan Mahmud Qəznəvinin Xorasan oğuzlarına vurduğu ağır zərbədən sonra*** çoxlu ***oğuz ailəsi*** Azərbaycana köçürüldü. Bundan sonra oğuzlar Rəvvadi hökmdarı **Vəhsudanın (1020-1059)** icazəsi ilə Rəvvadilər dövlətinin ərazisində məskən salaraq zaman keçdikcə Azərbaycan türklərinə qarışdılar. Vəhsudan ***oğuzların Rəvvadilər dövlətində sığınacaq tapmış hissəsini qarşıladı və onlara torpaq payı verdi***. Beləliklə, **X əsrin 20-ci illərində** oğuz tayfalarının Azərbaycana yeni axınları nəticəsində ***Bizans imperiyası və onun dəstəklədiyi erməni və gürcü feodallarına qarşı mübarizə aparan Azərbaycan türklərinin mövqeyi daha da qüvvətləndi.*** Sonralar da oğuz tayfalarının Azərbaycana yeni-yeni axınları baş verdi.

## Rəvvadilər dövlətinin paytaxtının Təbrizə köçürülməsinin əhəmiyyəti

Rəvvadilər dövlətinin paytaxtı əvvəl **Ərdəbil** olsa da sonradan **Təbriz şəhərinə** köçürüldü. Bununlada Təbriz ilk dəfə olaraq paytaxt şəhərə çevrildi. Təbriz Rəvvadilərin hakimiyyəti illərində daha da böyüdü və abadlaşdı. Rəvvadilər dövlətinin paytaxtının Ərdəbildən Təbrizə köçürülməsi mütərəqqi hadisə idi. Çünki, Təbriz şəhəri ***Şərq ölkələrini Aralıq dəniz və Qara dəniz sahilləri ilə, həmçinin Dərbənd keçidi vasitəsilə Volqaboyu və Şərqi Avropa ilə birləşdirən beynəlxalq karvan yollarının qovşağında yerləşirdi***.

## Rəvvadilər dövlətinin süqutu

**X əsrin 40-cı illərinin əvvəllərindən** Rəvvadilər, eyni zamanda Şirvanşahlar və digər hakim sülalələrin hakimiyyəti zəiflədi. Bunun əsas səbəbi aşağıdakılar idi:

- ***Feodal dağınıqlığı və ara müharibələri***
- ***Yerli əhalinin çıxışları***

Bu amillərə görə Azərbaycan dövlətləri Səlcuq türklərinin yürüşlərinə qarşı dura bilmədilər. **1054-cü ildə** Vəhsudan səlcuqların hakimiyyətini tanıdı. Sonralar ***səlcuqlar*** Rəvvadilər dövlətinin varlığına tədricən son qoydular. Yalnız **Marağada** Rəvvadi nəslindən olan **Ağsunqurilər sülaləsi (1108-1227)** hakimiyyətini qoruyub saxlaya bildi. Ağsunquri hakimləri səlcuqlar dövründə ***atabəy rütbəsi*** daşımış, öz mülklərini monqol işğallarınadək qoruyub saxlaya bilmişdilər. Lakin **1227-ci ildə** Xarəzmşah **Cəlaləddin** Marağada Ağsunqurilər sülaləsinin varlığına son qoydu.

### Rəvvadilərin Salarilərlə və Sirvanşahlarla oxşar cəhətləri

| Rəvvadilərin Salarilərlə oxşar cəhətləri | Rəvvadilərin Sirvanşahlarla oxşar cəhətləri |
|---|---|
| • Paytaxtlarından biri Ərdəbil şəhəri olmuşdu | • Başqa dövlət dağılarkən yaranmışdılar |
| • Eyni əsrdə yaranmışdılar | • Yarım-müstəqil əmirlik yaratmışdılar |
| • Azərbaycanın ilk feodal dövlətlərindən idilər | • Ərəb mənşəli sülalə tərəfindən idarə olunurdu |
| • Azərbaycanın cənubunda yaranmışdılar | • Paytaxtını başqa şəhərə köçürmüşdülər |
| | • Səlcuqlardan asılı vəziyyətə düşmüşdülər |

# Şəddadilər dövləti (971-1054/55)

## Şəddadilər dövlətinin yaranması

Şəddadilər dövləti **X əsrin 70-ci illərində Azərbaycanın şimalında, Kürlə Araz çayları arasındakı ərazidə** meydana gəlmişdir. Şədaddilər əvvəllər **Dəbil ətraflarında** yaşayırdılar. **951-ci ildə Məhəmməd ibn Şəddad (951-979)** Salarilər dövlətinin zəifləməsindən istifadə edərək onların tabeçiliyində olan Dəbil şəhərini ələ keçirib müstəqil feodal dövləolan – **Dəbil əmirliyini** yaratdı. **971-ci ildə Əli Ləşkəri Gəncə şəhərini** ələ keçirərək Azərbaycan Şədaddilər dövlətinin əsasını qoydu. Şəddadilər dövlətinin paytaxtı **Gəncə şəhəri** idi. Şəddadilərin mərkəzi hakimiyyətdən ayrılaraq müstəqil olması haqqında xəbəri alan salari hökmdarı **İbrahim** təcili Gəncəyə hücuma keçdi. Lakin qələbə qazana bilməyən İbrahim Şəddadilərin müstəqilliyini tanıyaraq geri çəkilməli oldu.

**Şəddadilər sülaləsinin nümayəndələri**

- **Məhəmməd ibn Şəddad (951-956)**
- **Əli Ləşkəri (971-978)**
- **Fəzl ibn Məhəmməd (985-1030)**
- **Əbulasrav Şavur (1050-1067)**

## Fəzl ibn Məhəmmədin hakimiyyəti (985-1030)

Fəzl ibn Məhəmmədin hakimiyyəti dövrünə ***aiddir:***

- Şəddadilər dövləti və mərkəzi hakimiyyət qüvvətləndi
- Gəncə ətrafındakı bütün xırda feodal mülkləri ləğv edildi
- Şədaddilərin ata-baba mülkləri olan ***Dəbil*** dövlətə birləşdirildi
- ***Gürcü feodallarına*** və ***xəzərlərə*** qarşı uğurla mübarizə aparıldı
- Şədaddilərlə ***Şirvanşahlar*** arasında yaxın əlaqələr və qohumluq münasibətləri yarandı
- ***Rəvvadilərlər*** və ***Tiflis əmiri*** **Cəfər ibn Əli** ilə dostluq münasibətləri saxlanıldı
- Arazdan şimaldakı Azərbaycan torpaqlarında yeni ***oğuz tayfaları*** məskən saldı
- Araz çayı üzərində **Xudafərin körpüsü (1027)** salındı (Xudafərin körpüsünün inşası Azərbaycanın şimal və cənub əraziləri arasında iqtisai və mədəni əlaqələrin genişlənməsində mühüm rol oynamışdır)

**Şəddadilər dövlətini möhkəmləndirmək üçün Fəzl ibn Məhəmmədin həyata keçirdiyi tədbirlər**

| | |
|---|---|
| Daxili siyasətdə | Gəncə ətrafındakı bütün ***xırda feodal mülkləri*** ləğv etdi, mərkəzi hakimiyyəti gücləndirdi |
| Xarici siyasətdə | ***Şirvanşahlar, Rəvvadilərlər*** və ***Tiflis əmirliyi*** ilə dostluq münasibətləri saxladı, ***Gürcü feodallarına*** və ***xəzərlərə*** qarşı uğurla mübarizə apardı |
| Hərbi-strateji | Araz çayı üzərində ***Xudafərin körpüsünü*** inşa etdirdi (1027-ci ildə) |

## Şəddadilər dövlətinə oğuz axınlarının nəticələri

**XI əsrin 30-cu illərində** Şimali Azərbaycan torpaqlarında yeni oğuz tayfalarının məskən salması nəticəsində:

- ***Şədaddilərin hərbi qüdrəti daha da artdı***
- ***Dəbili ələ keçirməyə çalışan Bizns-erməni qoşunlarına ağır zərbə vuruldu (1037-ci ildə)***
- **1038-ci ildə *Bizans və gürcü feodallarının birləşmiş qüvvəllərinin Tiflis müsəlman əmirliyini aradan qaldırmaq cəhdi baş tutmadı***

## Əbüləsvar Şavurun hakimiyyəti (1049-1067)

Əbüləsvar Şavurun hakimiyyəti dövründə:

- Şədaddilər dövləti daha da qüvvətləndi
- ***Gürcüstanla*** və onun müttəfiqi olan ***Şirvanşahlar dövləti ilə*** müharibələr aparıldı
- Dəbili əldən verməmək və onlardan asılı olan digər mülkü - Ani əmirliyini müdafiə etmək üçün ***erməni feodallarına*** və onlara kömək edən ***Bizans imperiyasına*** qarşı uğurla mübarizə aparıldı
- Səlcuq sultanlarının Cənubi Qafqaza hücumu baş verdi
- Gürcü çarı **IV Baqrat, Cəfərilər sülaləsinin** idarə etdiyi **Tiflis əmirliyini** tutmaq məqsədi ilə ***alanlarla*** ittifaq bağlanaraq **(1062-ci ildə)** onları Azərbaycana hücuma təhrik etdi
- Gəncənin müdafiəsini möhkəmləndirmək məqsədilə iki mühüm tədbir gördü:
    1. Şəhərin ətrafına hasar və xəndəklər çəkdirdi
    2. **1063-cü ildə** Gəncənin məşhur qala qapıları hazırltdı

**Əbüləsvar Şavurun  mübarizə apardığı qüvvələr**




## Şəddadilərin Səlcuq türkləri ilə münasibətləri

Kiçik Asiyanın  şərqində Bizans və erməni feodallarının  birləşmiş hərbi qüvvələrinə qarşı  vuruşan  Şəddadi qoşunlarının əsas zərbə qüvvəsi ***oğuz  türkləri***, sonralar daha  qüvvətli müttəfiqi  isə ***Səlcuq türkləri*** oldu. ***Azərbaycanın qərb torpaqlarını*** ələ keçirməyə çalışan ***erməni*** və ***gürcü feodalları Bizans imperiyasına*** arxalanırdılar. Erməni – gürcü  hakimləri və Bizans imperiyasının birləşmiş qüvvələrinə qarşı Şəddadilər müxtəlif oğuz tayfaları ilə, o cümlədən  səlcuq türkləri ilə əlbir hərəkət edirdilər. Bu da Azərbaycan torpaqlarının erməni – gürcü  və Bizans təcavüzündən qorunmasında mühüm rol oynamışdır.

**Şəddadilərlə  Rəvvadilər dövlətinin oxşar cəhətləri**




## Şədaddilər dövlətinin süqutu

Şəddadi hökmdarı **Əbuləsrav Şavurun** hakimiyyəti illərində Səlcuq sultanlarının Cənubi Qafqaza hücumu baş verdi. Buradakı ***siyasi parçalanmadan*** və ***feodal ara müharibələrindən*** istifadə edən Səlcuqlar bir çox vilayətləri özlərindən ***vassal asılılıqda olan mülklərə*** çevirdilər. **1054-cü ildə** Səlcuq sultanı I Toğrul Rəvvadi hökmdarı **Vəhsudanı** tabe etdikdən sonra, Şəddadi hökmdarı **Əbuləsrav Şavur**:

- Sultan I Toğrulun yanına gələrək, onun hakimiyyətini qəbul etdi
- Bizansa qarşı döyüşlərdə iştirak etmək üçün I Toğrula çoxlu qoşun verdi
- Şəddadilər dövləti Səlcuq sultanlarının həm vassalına, həm də müttəfiqinə çevrildi

Zaman keçdikcə Səlcuqlar Şəddadilər dövlətinin müstəqilliyinə son qoydular.

**Erkən feodal dövlətləri**

| Adı | Banisi | Paytaxtı | Ərazisi |
|---|---|---|---|
| Şirvanşahlar | Heysam ibn Xalid | Gəncə Şamaxı Bakı | Azərbaycanın şimal-şərq torpaqlarını, Dərbənddən Kür çayına doğru Xəzər dənizi sahillərindək ərazilər |
| Sacilər | Əbu Sac Divdad | Marağa Ərdəbil | Şərqdən Xəzər dənizi, qərbdən İrəvan yanındakı Ani və Dəbil, cənubda Zəncan və Şimalda Dərbəndə qədər ərazilər |
| Salarilər | Mərzban ibn Məhəmməd | Ərdəbil | Şimalda Dərbənd, cənubda Dəclə və Fərat çaylarının yuxarı axarı, şərqdə Gilan və Xəzər sahilləri, qərbdə Şərqi Gürcüstan əraziləri |
| Rəvvadilər | Əbülhica Rəvvadi | Ərdəbil Təbriz | Bütün Cənubi Azərbaycanı torpaqları və Muğan hakimliyi |
| **Şəddadilər** | **Əli Ləşkəri** | **Gəncə** | **Azərbaycanın şimalında, Kürlə Araz çayları arası arasındakı ərazilər** |

## Slavyanların və digər yadellilərin Azərbaycana hücumları

### Slavyanların Azərbaycana ilk hücumları

**IX əsrin sonu -X əsrin əvvəllərində** Azərbaycana yadelli basqınlarının sayı artdı. Belə bir şəraitdə yadelli basqınlarına qarşı mübarizə çətinləşirdi. IX-XI əsrlərdə yadellilərin Azərbaycana diqqətini cəlb edən əsas amil ***Azərbaycanin zəngin sərvəti*** və ***əlverişli hərbi strateji mövqeyi*** idi. Bu dövrdə Azərbaycanın yadelli basqınlarına qarşı mübarizəsini aşağıdakı amillər çətinləşdirirdi:

- ***Ölkə ərazisində qüdrətli vahid dövlətin olmaması***
- ***Feodal pərakəndəliyinin hökm sürməsi***
- ***Siyasi hərc-mərciliyin mövcud olması***
- ***Bizansın himayə etdiyi erməni-gürcü feodallarının basqınları***
- ***Azərbaycan hökmdarlarının dənizdə qüvvətli donanma yaradılması qayğına qalmaması***

**VII əsrdə** Azərbaycan ***ərəblərin,*** **IX əsrin sonlarından** başalyaraq ***slavyanların*** hücumlara məruz qaldı. Əvvəllər **Don-Volqa-Xəzər vasitəsilə** Azərbaycanla və ***Azərbaycan torpaqlarından keçərək xilafətlə*** ticarət əlaqələri yaratmış slavyanlar çox keçmədən Xəzəryanı vilayətlərə soyğunçuluq yürüşləri etməyə başladılar. Ərəb mənbələrində Xəzər sahillərinə və Azərbaycana yürüşlər edən slavyanlar vahid adla - ***"ruslar"*** kimi qeyd edilir. Çünki o vaxt Kiyev knyazlarının hərbi drujinalarının üzvləri ***"rus"*** adlanırdı.

Slavyanların Xəzəryanı Azərbaycan torpaqlarına **IX əsrin ikinci yarsında** ilk hücumları başladı və **X əsrin əvvəllərində** daha da genişlənərək aramsız xarakter almağa başladı. Bu dövrdə Azərbaycanda mövcud olan **Şirvanşahlar** və **Salarilər** dövlətləri slavyanların hücumlarına məruz qaldılar.

**IX-XI əsrlərdə slavyanların və digər yadellilərin Azərbaycana diqqətini cəlb edən amillər**

- Ölkənin zəngin sərvətləri
- Əlverişli hərbi strateji mövqeyi

**IX əsr**

- Azərbaycan torpaqları ilk dəfə vahid dövlət halında birləşdirildi
- Azərbaycana slavyanların ilk hücumları başlandı
- Sacilər dövlətində Məhəmməd ibn Əbu Sacın adına pul kəsildi
- Məhəmməd ibn Yezid iqamətgahını Gəncəyə köçürdü
- Heysam ibn Xalid Şirvanşah titulunu qəbul etdi
- Bərdənin Sacilərin əlinə keçməsi nəticəsində məzyədilər Şirvana köçdü

## Slavyanların 909-910-cu il yürüşləri

**909-cu ildə** slavyanların 16 gəmi ilə Xəzərin Azərbaycan sahillərinə yürüşü ***nəticəsində:***

- Xəzər dənizinin cənubundakı ***Abaskun adası*** ələ keçirildi və ***sahil məntəqələri*** qarət edildi
- Lakin doğma torpağın müdafiəsinə qalxan ***yerli əhali*** tərəfindən ağır məğlubiyyətə uğradıldı

**910-cu ildə** slavyan dəstələrinin yenidən Xəzərin Azərbaycan sahillərinə yürüşü ***nəticəsində:***

- ***Sarı adasında*** və sahil məntəqələrində yanğınlar və talanlar törədildi
- Ələ keçirdikləri əsirlər və qənimətlərlə birlikdə Xəzərin Gilan sahillərinə hücum etdilər
- Lakin ***Gilan şahının*** hərbi qüvvələri ilə toqquşmada məğlub oldular
- Geri çəkilən ***Şirvanşahların qoşunları tərəfindən*** darmadağan edildilər.

**910-cu ildə slavyanları məğlubiyyətə uğradan qüvvələr**

- **Gilan şahının hərbi qüvvələri**
- **Şirvanşahların qoşunları**

## Slavyanların 914-cü il yürüşü

**914-cü ildə** slavyanların Xəzər sahillərinə daha dəhşətli hərbi yürüşü baş verdi. Onlar hər birində 100 döyüşçü olan 500 gəmi ilə Xəzərə daxil oldular. Slavyanlar Xəzər sahillərindən ələ keçiriləcək qənimətin yarısını ***Xəzər xaqanlığının ərazisindən keçib gəldikləri üçün*** Xəzər xaqanına vəd etdilər. Ruslar Bakı sahillərinə gəlib çıxdılar və sahilə yaxın adalarda düşərgə saldılar. Slavyanların **914-cü il** yürüşü ***nəticəsində:***

- Bakı ətrafında və Xəzərin Azərbaycan sahillərində **Pirallahı, Sahilan, Zirə, Kiçik Zirə, Nargin, Zənbilə, Xirə Zirə, Sarı adalarında** möhkəmlənərək sahil məntəqələrinə basqınlar edilər
- Dinc əhaliyə divan tutdular, qadınları və uşaqları əsir alıb aparıldı

- Geri qayıdarkən külli miqdarda qənimət apardılar

Slavyanlar geri qayıdarkən ələ keçirdikləri qənimətin bir hissəsini şərtləşdikləri kimi, ***Xəzər xaqanına*** göndərdilər. Lakin Xəzərin şimal sahillərində təqribən 15 min nəfərlik ***müsəlman-türk qoşunları*** ilə qarətdən qayıdan slavyan drujinaları arasında şiddətli döyüş baş verdi. Vuruşmada ***xarəzm, xəzər, burtas (mordva)*** və ***bulqar türkləri*** fəal iştirak edirdilər. Ərəb tarixçisi **Məsudinin** məlumatına görə, ***"üç gün davam edən bu döyüşdə ruslar darmadağın edildi, onlardan ancaq beş minə qədərlik kiçik bir dəstə qaçıb, canını qurtara bildi"***. 914-cü ildə slaviyanlar Xəzər xaqanlığının müsəlman türkləri tərəfindən darmadağın edildikdən sonra:

- ***Slavyanların Azərbaycana hücumları bir qədər dayandı***
- ***30 il rusların Azərbaycanın Xəzər sahillərinə yürüşləri təkrar olunmadı***

**914-cü ildə slavyanlarla vuruşmada iştirak edən tütk tayfaları**




**909-914-cü illərdə slavyanların yürüşüləri zamanı Azərbaycanda mövcud olan dövlətlər**




## Slavyanların 944-cü il yürüşü. Bərdə faciəsi

**944-cü ildə** slavyan drujinaları növbəti dəfə böyük qüvvə ilə Azərbaycana yürüş etdilər. Slavyanların Azərbaycana bu yürüşdə iki ***məqsədi*** var idi:

1. ***Azərbaycanda həmişəlik möhkəmlənmək***
2. ***"Qafqazın ən böyük şəhəri", "Aranın baş şəhəri" Bərdəni ələ keçirmək***

Kiyev knayazı **İqorun (912-945)** başçılıq etdiyi drujinalar və muzdlu qoşunlardan ibarət slavyanlar gəmilərlə Kürün mənsəbinə çatıb, buradan Bərdə istiqamətində hərəkət etməyə başladılar. Sonra onlar Bərdə yaxınlığında, **Kür sahilində Mübarəki** adlı yerdə düşərgə saldılar və buradan Bərdəyə hücuma başladılar.

Slavyanların 944-cü ildə Bərdəyə yürüşü zamanı şəhər ***Salarilər dövlətinin*** tərkibində idi və Salari hökmdarı **Mərzban ibn Məhəmməd (941-957)** idi. Bərdə hakimi ***az qüvvəsi olduğu üçün*** slavyanlara müqavimət göstərə bilmədi və Bərdə slavyanların əlinə keçdi. Slavyanlar Bərdəyə daxil olduqdan sonra:

- ***Əhalini qılıncdan keçirdilər***
- ***Şəhəri amansızcasına qarət etdilər***

Şəhəri azad etmək üçün Bərdəlilərin müqaviməti ***uğursuz*** oldu. Bərdəni itaətdə saxlamağın mümkün olmayacağını yəqin edən ruslar onlardan tələb etdilər ki, gün ərzində ***şəhərdən çıxıb getsinlər***. Göstərilən müddət başa çatdıqdan sonra slavyanlar:

- ***Şəhərdən çıxa bilməyən Bərdə əhalisini yenidən qılıncdan keçirdilər***

- ***Qalan əhalini məscidə toplayıb sağ qalmaq üçün adambaşına* 20 dirhəm *pul tələb etdilər***

Slavyanlar **20 dirhəm** məbləğində pulları olmayanlara isə qanlı divan tutdu. Bərdədə, ümumiyyətlə, ***20 min nəfərə qədər*** adam öldürüldü. Bərdənin ağır günlərində Salari hökmdarı Mərzban ibn Məhəmməd 30 min nəfərlik qoşunla özünü yetirərək şəhəri mühasirəyə aldı. Lakin, Mərzban ibn Məhəmməd ***hərbi fənd işlədərək düşmənə ağır zərbə vursa da, şəhəri ala bilmədi***. Bu zaman ***Mosul hakiminin Azərbaycanın cənub sərhədlərini pozaraq Xoy və Salması ələ keçirdiyi üçün*** Mərzban ibn Məhəmməd Bərdənin müdafiəsini yarımçıq qoyaraq özünün əsas hərbi qüvvələri ilə Azərbaycanın cənubuna hərəkət etməyə məcbur oldu. Salarilərin 4 min nəfərlik kiçik hərbi qüvvəsi isə Bərdənin mühasirəsini davam etdirsələrdə bu heç bir nəticə vermədi. Lakin slavyanlar Bərdənin uzun müddət əllərində saxlaya bilmədilər. Bunun əsas səbəbi aşağıdakı amillərlə bağlı idi:

- ***Əhalinin mübarizə əzmini qıra bilməməsi***
- ***Vaxt uzandıqca daha çox itki verməsi***
- ***Onlar arasında yoluxucu xəstəliklərin yayılması***

Bu səbəbdən slavyanlar gecə vaxtı qalanı yandırıb, qənimətlə birlikdə şəhəri tərk etdilər və Kür sahilindəki gəmilərinə minib ölkələrinə qayıtdılar. Slavyanların Bərdəyə 944-cü il yürüşünün isə aşağıdakı ağır ***nəticələri*** oldu:

- ***Bərdə şəhəri dağıldı və bundan sonra bir daha özünə gələ bilmədi***
- ***Sənətkarlıq və ticarət tənəzzülə uğradı, şəhərdə pul kəsilməsi dayandırıldı***
- ***X əsrin ikinci yarısında yaranan Şəddadilər dövlətinin Gənəni özlərinə paytaxt seçməsi ilə Bərdə diqqətdən və abadlıq işlərindən kənarda qaldı***

| Slavyanların 944-cü ildə Azərbaycana yürüşünün əvvəlki yürüşlərdən fərqi | |
|---|---|
| Əvvəllər qarətçilik məqsədi daşıdığı halda, bu dəfə həmişəlik möhkəmlənmək istəyirdilər | “Aranın baş şəhəri” olan Bərdəni ələ keçirərək Digər ölkələrə yürüşlər etmək istəyirdilər |

## Slavyanların 987-ci il yürüşü

Slavyanların Azərbaycana basqınları sonralar da davam etdi. X-XI əsrlərdə Azərbaycan hakimləri ümumi düşmənə qarşı birləşmək əvəzinə, ***öz aralarındakı ixtilafları həll etmək üçün*** rus dəstələrini köməyə çağırır, bununla ölkənin yadellilərin tapdağı altına düşməsinə şərait yaradırdılar. Məsələn, **987-ci ildə** Dərbənd hakimi əmir **Maymun ibn Əhməd** ***yerli əyanlara qarşı*** 18 gəmi ilə Dərbəndə gələn slavyanlardan kömək istədi. Hakimiyyətini möhkəmləndirdikdən sonra Maymun ibn Əhməd yanında ***slavyanlardan ibarət mühafizə dəstəsi (drujinalar)*** saxladı.

## Slavyanların 1030-cu il yürüşü

**1030-cu ildə** 38 gəmi ilə yenidən Xəzər sahillərinə hücum edən slavyan drujinaları ***Bakı yaxınlığında və Kürlə Arazın qovuşduğu yerdə Şirvanşahların qoşunlarını məğlub etdilər***. Sonra onlar Arazla yuxarı qalxmağa başladılar. Bu zaman Şəddadi hökmdarı Fəzl ibn Məhəmmədin oğlu **Musa** ***Beyləqanda qiyam qaldırmış qardaşı Əskuyəni məğlub etmək üçün slavyanları*** köməyə çağırdı. Qardaşına qalib gəlib, Beyləqan əhalisinə divan tutduqdan sonra o, slavyanlara çoxlu hədiyyə verdi. Slavyanlar bu yürüşdən sonra ***Bizans ərazisindən*** keçərək öz ölkələrinə qayıtdılar.

**Slavyanların 1032-1033-cü il yürüşləri**

**1032-1033-cü illər** yürüşündə ***slavyanlarla*** yanaşı ***alanlar*** və ***sərirlər*** də iştirak edirdilər. 1032-ci ildə slavyan, alan və sərilərin Azərbaycana yürüşü nəticəsində:

- Yezidiyyə (Şamaxı) şəhəri ələ keçirilərək, on gün ərzində qarət edildi
- Şirvanda 10 min nəfərə qədər adam qılıncdan keçirildi

Lakin əhali yadelliləri Azərbaycandan qovidu. ***Dərbənd hakimi əmir Mənsur ibn Maymun Şirvanı talan edib qayıdan slavyan, alan və səriləri ağır məğlubiyyətə uğratdı***. **1033-cü ildə** alanlar və slavyanlar ***Dərbənd hakimindən qisas almaq üçün*** Azərbaycana yeni yürüşə başladılar. Lakin bu dəfə də onlar ağır məğlubiyyətə uğradılar.

Göründüyü kimi IX əsrdən etibarən Azərbaycan özünün bütün tarixi ərzində Xəzər dənizindən təhlükəli təcavüzlərə məruz qalmağa başladı. Bunun əsas səbəbi Azərbaycan hökmdarlarından heç birinin bəhs edilən dövrdə və sonralar Xəzəryanı Azərbaycan torpaqlarının xarici basqınlardan qorunması üçün ***dənizdə qüvvətli donanma yaradılması və qüdrətli dəniz dövlətinə çevrilməsi qayğısına*** qalmaması idi.

**1032-1033-cü illərdə Azərbaycana yürüş etmiş qüvvələr**




**Slavyanların Azərbaycana yürüşləri**

| Tarixi | Nəticəsi |
| --- | --- |
| **909-cu il** | Yerli əhali tərəfindən ağır məğlubiyyətə uğradıldılar |
| **910-cu il** | Gilan və Şirvanşahların hərbi qüvvələri tərəfindən darmadağın edildilər |
| **914-cü il** | Müsəlman-türk qoşunları ilə döyüşdə darmadağın edildilər |
| **944-cü il** | Bərdə şəhərini qarət edərək geri qayıtdılar |
| **987-ci il** | Dərbənd hakimi əmir Maymun hakimiyyətini möhkəmləndirdi |
| **1032-1033-cü il** | Dərbənd hakimi tərəfindən ağır məğlubiyyətə uğradıldılar |

## Xronologiya

| | |
|---|---|
| **IX əsr** | Xilafətin zəifləməsi və Azərbaycanda ilk feodal dövlətlərin yaranması |
| **IX-XI əsrlər** | Azərbaycanda feodal dağınıqlığı və ara müharibələri dövrü |
| **859** | Məhəmməd ibn Yezidin Gəncəni bərpa etdirərək iqamətgahını buraya köçürməsi |
| **861** | Heysam ibn Xalidin Şirvanı müstəqil elan edərək Şirvanşah titulunu qəbul etməsi |
| **917** | Heysam ibn Xalidin Lahicanşahlığı Şirvanşahlar dövlətinə birləşdirməsi |
| **918** | Şirvanşah Əbu Tahirin Şamaxını bərpa etdirərək Şirvanşahlar dövlətinin paytaxtını Gəncədən buraya köçürməsi. Şirvanşahlar dövlətinin paytaxtının Yezidiyyə adlanmağa başlanması |
| **920** | Şamaxının Sündü kəndində günbəzli məscid inşa olunması |
| **981-982** | Qəbələnin Şirvanşahlar dövlətinə birləşdirilməsi |
| **982** | Bərdənin Şirvanşahlar dövlətinə birləşdirilməsi |
| **983** | Şabranın Şirvanşahlar dövlətinə birləşdirilməsi |
| **988** | Dərbənd əmirliyinin Şirvanşahlar dövlətinə birləşdirilməsi |
| **X əsrin II yarısı** | Xursan və Tabasaranın Şirvanşahlar dövlətinə birləşdirilməsi. Şəki və Sanariyə hakimlərinin Şirvanşahlardan asılı vəziyyətə salınması |
| **IX-X əsrlər** | Ağoğlan çayı sahilində Amaras monastrının, Gədəbəydə qalaça, Lerikdə Oğlanqala, Naxçıvanda Əlincə qalasının inşa olunması |
| | *** |
| **879-941** | Sacilər dövlətinin mövcud olması |
| **898-900** | Sacilər dövlətində Məhəmməd ibn Əbu Sacın adına pul kəsilməsi |
| **IX əsrin sonları** | Arranın, o cümlədən Bərdənin Sacilərin əlinə keçməsi və məzyədilərin buradakı nümayəndələrinin Şirvana köçməsi |
| **912** | Yusif ibn Əbu Sacın Xilafət xəzinəsinə xərac göndərməyi dayandırması |
| **941** | Sacilər dövlətinin sonuncu hökmdarı Deysəmin Salarilər tərəfindən taxtdan salınması və Sacilər dövlətinin süqut etməsi |
| **941-981** | Salarilər dövlətinin mövcud olması |
| | *** |
| **VIII əsrin sonları** | Azərbaycanın cənubunda yarım-müstəqil Rəvvadi əmirliyinin yaranması |
| **981** | Əbülhica Rəvvadinin sonuncu Salari hökmdarı İbrahim ibn Mərzbanı taxtdan salaraq Salarilər dövlətini süquta uğratması və Rəvvadilər dövlətinin əsasının qoyulması |
| **981-1054** | Rəvvadilər dövlətinin mövcud olması |
| **981-988** | Əbulhica Rəvvadinin hakimiyyəti |
| **1020-1059** | Rəvvadi hökmdarı Vəhsudanın hakimiyyəti |
| **X əsrin 20-ci illəri** | Oğuz tayfalarının Azərbaycana yeni axınlarının baş verməsi |
| **1028** | Mahmud Qəznəvinin Xorasan oğuzlarına ağır zərbə vurması nəticəsində çoxlu oğuz ailəsinin Azərbaycana köçməsi |
| **1054** | Sultan I Toğrulun başçılığı ilə səlcuqların Rəvvadilər dövlətinin varlığına son qoyması |
| **1108-1227** | Rəvvadilər nəslindən olan Ağsunqurilər sülaləsinin Marağada hakimiyyəti |

***

| | |
|---|---|
| **951** | Məhəmməd ibn Şəddadın Dəbil əmirliyini yaratması |
| **971** | Məhəmməd ibn Şəddadın Gəncəni ələ keçirərək Şəddadilər dövlətinin əsasını qoyması |
| **971-1054** | Şəddadilər dövlətinin mövcud olması |
| **1027** | Fəzl ibn Məhəmmədin Araz çayı üzərində Xudafərin körpüsünü inşa etdirməsi |
| **XI əsrin 30-cu illəri** | Arazdan şimaldakı Azərbaycan torpaqlarında yeni oğuz tayfalarının məskən salması nəticəsində Şədaddilərin hərbi qüdrətinin daha da artması |
| **1030** | Şəddadi hökmdarı Fəzl ibn Məhəmmədin oğlu Musanın Beyləqanda qiyam qaldırmış qardaşı Əskuyəyə qarşı slavyanları köməyə çağırması |
| **1037** | Şəddadilərin Dəbili ələ keçirməyə çalışan Bizans-erməni qoşunlarına ağır zərbə vurması |
| **1038** | Bizans və gürcü feodallarının birləşmiş qüvvəllərinin Tiflis müsəlman əmirliyini aradan qaldırmaq cəhdinin baş tutmaması |
| **1054** | Əbuləsrav Şavurun Səlcuq sultanı I Toğrulun hakimiyyətini qəbul etməsi |
| **1063** | İbrahim Osman oğlu tərəfindən Gəncənin qala qapılarının düzəldilməsi |

***

| | |
|---|---|
| **IX əsrin sonları** | Slavyanların Azərbaycana ilk hücumlarının başlanması |
| **X əsrin əvvəlləri** | Slavyanların Xəzəryanı Azərbaycan torpaqlarına basqınlarının genişlənməsi və aramsız xarakter alması |
| **909** | Slavyanların 16 gəmi ilə Azərbaycana hücum etməsi. Hücum nəticəsində Xəzər dənizinin cənubundakı Abaskun adası və sahil məntəqələri qarət edildi. Lakin slavyanlar yerli əhali tərəfindən ağır məğlubiyyətə uğradıldı |
| **910** | Slavyanların Azərbaycana yürüşü nəticəsində Sarı adasında və sahil məntəqələrində yanğınlar törədilməsi. Lakin slavyanlar Gilan şahının hərbi qüvvələri ilə toqquşmada məğlub olaraq geri çəkildilər. Geri çəkilən slavyanlar bu dəfə Şirvanşahların qoşunları tərəfindən darmadağan edildilər |
| **914** | Slavyanların Xəzərin Azərbaycan sahillərinə və Bakı ətrafına basqınlar etməsi. Lakin slavyanlar geri qayıdarkən Xəzərin şimal sahillərində müsəlman-türk qoşunları arasında şiddətli döyüşdə darmadağın edildilər. Bu vuruşmadan təxminən 30 ilə qədər ruslar Xəzər sahillərində bir daha görünmədilər |
| **944** | Slavyanların Azərbaycana növbəti yürüşü. Bərdə faciəsinin baş verməsi |
| **987** | Dərbənd hakimi əmir Maymun ibn Əhmədin yerli əyanlara qarş mübarizədə slavyanları köməyə çağırması |
| **1030** | Xəzər sahillərinə hücum edən slavyan drujinalarının Bakı yaxınlığında və Kürdə, Arazın qovuşduğu yerdə Şirvanşahların qoşunlarını məğlub etməsi |
| **1032-1033** | Şirvanın slavyanların növbəti hücumuna məruz qalması. Bu yürüşdə slavyanlarla birlikdə alanlar və sərirlər də iştirak edirdilər. Yürüş nəticəsində Şirvanşahların paytaxtı Yezidiyyə (Şamaxı) şəhəri ələ keçirilərək qarət edildi, Şirvanda 10 min nəfərə qədər adam qılıncdan keçirildi. Lakin Dərbənd hakimi əmir Mənsur ibn Maymun onları ağır məğlubiyyətə uğratdı |
| **1033** | Alan və slavyanların Dərbənd hakimi Mənsur ibn Maymundan qisas almaq məqsədi ilə yenidən Azərbaycana yürüşə başlaması. Lakin bu dəfə də onlar məğlubiyyətə uğradılar |
| **1062** | Gürcü çarı IV Baqratın alanlarla ittifaq bağlayaraq onları Azərbaycana hücuma sövq etməsi |

## IX– XI əsrlərdə Azərbaycanda iqtisadi tərəqqi və dirçəliş

### Təsərrüfat sahələrinin inkişafı

IX əsrdə Azərbaycanın xilafətin tabeliyindən çıxması nəticəsində:

- ***Yeni müstəqil dövlətlər yarandı***
- ***Ölkədə iqtisadi inkişaf sürətləndi***
- ***İstehsal ənənələri dirçəlməyə başladı***

**IX əsrin ikici yarısı – XI əsrin ortalarında** aşağıdakı amillər Azərbaycanda iqtisadi inkişafın sürətlənməsinə səbəb oldu:

- ***Azərbaycanın Xilafət zülmündən azad olması***
- ***Müstəqil yerli dövlətlərin meydana gəlməsi***

**IX əsrin ikinci yarısından başlayaraq** Azərbaycanda ***qədin və zəngin istehsal ənənələri dirçəlməyə*** başladı. Azərbaycanda müxtəlif təsərrüfat ənənələrinin dirçəlməsi və tərəqqisinə müsbət təsir göstərən amillər bunlar idi:

- ***Ölkənin əlverişli iqlimi, münbit torpaqları və zəngin təbii sərvətləri***
- ***Xalqın qədim istehsal və əkinçilik ənənələrinə malik olması***

**IX-XI əsrlərin *ərəb coğrafiyaşünasları*** və ***tarixçilərinin məlumatları*** təsdiq edir ki, o zaman Azərbaycan bütün Yaxın və Orta Şərqin, ümumiyyətlə, İslam dünyasının ən inkişaf etmiş ölkələrindən biri idi. X əsrdə yaşamış ərəb coğrafiyaşünası **Əl-İstəhri** Azərbaycandan bəhs edərkən yazırdı: ***"Burada hər şey o qədər boldur ki, öz gözləri ilə görməyənlər belə bolluğa inanmırlar"***. Başqa bir ərəb səyyahı **İbn Havqəl** isə qeyd edirdi ki, ***"Azərbaycanın hər yeri buğda zəmiləri ilə örtülüdür. Bu yerlərin heç biri çaylarına, bağlarına və yaşayış məntəqələrinə görə o birisindən geri qalmır. Əksinə, hər cür mal-nemətlə zəngin və Allahın xeyir-bərəkəti ilə doludur. Meyvələri çox ucuz, yemək şeyləri isə, demək olar ki, müftədir"***.

### IX-XI əsrlərdə əldə edilən siyasi müstəqilliyin iqtisadi tərəqqiyə təsiri

Ərəb zülmünün devrilməsindən sonra əldə edilən siyasi müstəqillik və başlanan iqtisadi dirçəliş ***nəticəsində:***

- ***Sənətkarlığın kənd təsərrüfatından ayrılması prosesi daha da sürətləndirdi***
- ***Ölkə daxilində iqtisadi əlaqələr genişləndi***
- ***Azərbaycan şəhərlərinin xarici ölkələrlə ticarət əlaqələri daha da canlandı***
- ***Sənətkarlıq və ticarət mərkəzləri olan yeni şəhərlər meydana gəldi***
- ***Azərbaycan dünyanın çoxlu şəhərləri olan ölkələrdən birinə çevrildi***

IX-X əsrin əvvəllərində Azərbaycanda **Bərdə, Gəncə, Ərdəbil, Təbriz, Şamaxı, Beyləqan, Dərbənd (Bab-ül-Əbvab), Naxçıvan (Nəşavə), Şəki, Qəbələ, Bakı, Zəncan** və başqa bir çox tanınmış şəhərlər vardı.

IX-X əsrlərdə Azərbaycanda şəhərlərin tərəqqisi, bir çox yeni şəhərlərin yaranması ***müxtəlif sənətkarlıq sahələrinin kənd təsərrüfatından ayrılması və kimi ictimai əmək bölgüsünün dərinləşməsi ilə*** bağlı idi. IX əsrin ikinci yarısında Azərbaycanın ***siyasi müstəqillik əldə etməsi*** aşağıdakı sahələrin də inkişafına müsbət təsir göstərdi:

- ***Sənətkarlıq və ticarətin inkişafına***
- ***Yeni şəhərlərin meydana gəlməsinə***




**Kənd təsərrüfatının inkişafı**

Xilafət dövründə və ondan çox əvvəllər olduğu kimi, Azərbaycan əhalisi ***oturaq həyat*** sürür, başlıca olaraq ***kənd təsərrüfatı ilə*** məşğul olurdu.

Azərbaycan ərazisinin daim hərbi-siyasi toqquşmalar meydanına çevrilməsi ***süni suvarma qurğularının dağılmasına*** səbəb olsa da, IX-XI əsrlərdə həyat yenidən canlanmağa başladı. IX-XI əsrlərdə ***dənli bitkilər əkini***, xüsusilə ***taxılçılıq*** aşağıdakı ərazilərdə daha geniş inkişaf etmişdir:

- **Kür, Araz, Səfidrud (Qızılüzən) çayı** boyu torpaqlarda
- **Şirvanda** və **Şəki** əyalətlərində

IX-XI əsrlərdə yaşamış ərəb səyyahları Azərbaycanda dənli bitkilərin bütün növlərinin (buğda, arpa, çəltik, darı və.s), müxtəlif texniki bitkilərin (pambıq, kətan, boyaqotu və.s) və bostan bitkilərinin becərilməsi haqqında məlumat verirdi. Bəzi yerlərdə hətda ildə bir neçə dəfə məhsul götrülürdü. **Kür çayının hər iki sahili** taxıl və ***pambıq*** zəmilərindən ibarət idi.

Zaman keçdikdə əhalinin əkinçilik mədəniyyəti yüksəlir, əmək alətləri təkmilləşirdi. Torpaq bir qayda olaraq, bir cüt qoşqu heyvanı – öküz və ya kəl qoşulmuş ***kotanla*** şumlanırdı. Buna görə də o zaman el arasında ***"kotan", "kotana getmək"*** sözləri əvəzinə ***"cüt", "cütçü"*** terminləri geniş yayılmışdır. Azərbaycanın bəzi yerlərində iki, üç, hətta dörd cüt qoşqu heyvanı qoşulmuş kotanlardan istifadə olunurdu. **Əl-Müqəddəsinin** məlumatına görə, **Ərdəbil nahiyyəsində** yeri dörd cütçünün idarə etdiyi səkkiz öküz şumlayırdı. Bu dövrdə ölkədə ***su dəyrmanlarının*** da sayı artmadqa idi.

Əhalinin təsərrüfat həyatında ***bostan*** və ***tərəvəz bitkilərinin*** becərilməsi mühüm yer tuturdu. Azərbaycanda yüksək inkişaf etmiş təsərrüfat sahələrindən biri də ***bağçılıq*** idi. **Qəbələ, Şəki, Qanıx (Alazan) çayı ilə Baş Qafqaz dağları** arasındakı məhsuldar vahidlər, indiki **Balakən, Zaqatala, Qax** bölgəsinin ərazisi ***qoz-fındıq bağları*** idi. **Muğan, Şirvan** və **Dərbənd** ətrafında isə bol ***üzüm*** yetişdirilirdi.

IX-XI əsrlərdə Azərbaycanda ***ipəkçilik*** yüksək inkişaf etmişdir. **Şəkidə, Şirvanda, Bərdə ətrafında**, indiki **Balakən - Zaqatala – Qax ərazilərində** əhali ***ipəkqurdu*** bəsləmək üçün tut bağları - ***toxmacarlıqlar*** salmışdı.

IX-XI əsrlərdə Azərbaycanda ***kənd təsərrüfatının ən yüksək inkişaf etmiş sahəsi maldarlıq*** idi. Heyvandarlıqda əsasən ***qaramal, qoyun, dəvə*** və ***at*** saxlanılırdı. Heyvandarlığın əsas forması ***yaylaq-qışlaq maldarlığı*** idi.

IX-XI əsrlərdə ***Xəzər sahilində, Kür*** və ***Araz çayları boyunca*** yaşayan əhali başqa təsərrüfat sahələri ilə yanaşı ***balıqçılıqla*** da məşğul olurdu. Kür və Araz çaylarından tutulan balıq **Ərdəbil, Rey** və **İraqa** göndərilirdi. **İbn əl-Fəqih** Arazın müxtəlif növ balıqlarla zəngin olduğunu, bu çayda olan ***"şürmahı" (şamayı)*** balığının başqa heç bir çayda olmadığını yazır. Həmin məlumatı təsdiq edən **Yaqut əl-Həməvi** (1179-1229) göstərir ki, şamayı balığı Araza ildə bir dəfə, həm də müəyyən vaxtda daxil olur.

Azərbaycanın iqtisadi həyatında ***arıçılıq, bal və mum ixracı*** da mühüm rol oynayırdı.




## Azərbaycan kəndlərinin yenidən dirçəlməyə başlaması. Kəndli qrupları

***Xilafətin apardığı uzun sürən müharibələr*** və ***Bizans imperiyasına arxalanan erməni və gürcü feodallarının aramsız basqınları*** nəticəsində boşalan Azərbaycan kəndləri **IX-XI əsrlərdə** yenidən dirçəlməyə başladı. IX-XI əsrlərdə Azərbaycanda oturaq təsərrüfat sahələrinin, xüsusilə əkinçiliyin yüksək inkişaf etmiş olduğu beləbir faktdan aydın olur ki, təkcə ölkənin şimalında – Arran vilayətində 4 minə qədər kənd var idi. **Əbu Düləf** Araz çayının axıb keçdiyi **Balasacan (Balasakan)** düzündə **Beyləqan** və **Varsan şəhərləri** ilə yanaşı "5000 və ya daha çox kəndin xaraba qaldığını" yazır. Azərbaycan kəndlərinin xeyli hissəsi eyni zamanda ***iri şəhərtipli sənətkarlıq mərkəzləri*** idi.

IX-XI əsrlərdə Azərbaycanda feodal münasibətləri inkişaf etməkdə idi. Cəmiyyətin əsas istehsalçısı oturaq həyat sürürən ***kəndlilər*** idi. IX-XI əsrlərdə Azərbaycan kəndliləri başlıca olaraq iki yerə bölünürdülər:

1. ***Uluc kəndlilər***
2. ***Azad kəndlilər***

Azad kəndlilər başlıca olaraq, ***dağ rayonlarında*** yaşayırdılar. Uluc kəndlilər isə:

- ərəb ağalığı dövründə yaranmışdı
- asılı kəndlilər idilər
- dövlətə vergi verirdilər
- əkinçiliyin inkişaf etmiş düzən rayonlarında yaşayırdılar

IX-XI əsrlərdə Azərbaycan kəndliləri ***ərəb feodallarının himayəsinə*** sığınmağa məcbur olurdular. Nəticədə, həmin kəndlilərə məxsus **torpaqlar** ərəb feodallarının əlinə keçdi. Azərbaycan kəndlilərinin ərəb feodallarının himayəsinə sığınmağa məcbur olmasının səbəbi aşağıdakılar idi:

- ***Ağır vergi siyasəti***
- ***Dövlət məmurlarının özbaşınalığı.***

**IX-XI əsrlərdə Azərbaycanda kəndli qrupları**




**Torpaq mülkiyyəti formaları**

IX-XI əsrlərdə torpaq üzərində ***xüsusi mülkiyyət*** mövcud idi. ***Süni suvarmaya əsaslanan əkinçiliyin inkişaf etdiyi yerlərdə su üzərində xüsusi mülkiyyət*** hökm sürürdü. Bütün münbit torpaqlar ***iri feodalların*** əlində idi.

Ərəb xilafətinin dağılmasından sonra mövcud olan torpaq mülkiyyəti formalarında bəzi dəyişikliklər baş verdi. Ümumiyyətlə, IX-XI əsrlərdə Azərbaycanda feodal torpaq mülkiyyətinin aşağıdakı növləri mövcud idi:

1. **Mülk torpaqları**
   - Ən geniş yayılan torpaq mülkiyyət forması idi
   - Ayrı- ayrı feodallara məxsus olub, irsən (nəsildən-nəsilə) keçirdi
   - Mülk sahibi ***malik (məlik)*** və ya ***mülkədar*** adlanırdı
   - Mülk sahibləri həmin torpaqları istədiyi zaman sata və bağışlaya bilərdi
   - Mülk sahibi dövlətə ***torpaq vergisi*** verirdi
2. **İqta torpaqları**
   - IX-XI əsrlərdə o qədər də geniş yayılmamışdı
   - İnkişaf etməkdə olan şərti torpaq mülkiyyət forması idi
   - Dövlətə xidmət müqabilində verilirdi
   - Zaman keçdikcə onun sahibinin (iqtidarların) xüsusi mülkiyyətinə çevrilirdi
   - İqtidarlar bilavasitə təsərrüfatla məşğul olmur və öz iqtalarını icarəyə verirdilər
3. **Camaat (icma) torpaqları**
   - Əsasən, otlaqlar, örüşlər, meşələr, bataqlıqlardan, bəzən əkin yerlərindən ibarət olurdu
   - Dövlətin mülkiyyətində idi. (Buna görə də həmin torpaqlardan elliklə istifadə edən camaat bunun müqabilində dövlətə ***torpaq vergisi – xərac*** verirdi)
4. **Xalisə torpaqları** - ayrı-ayrı hökmdarların (xəlifələr, sultanlar və b.) və sülalərin mülkiyyətində olan torpaq sahələri idi.
5. **Divan torpaqları** - dövlətə məxsus olan və gəliri birbaşa xəzinəyə daxil olan torpaqlar idi.
6. **Vəqf torpaqları** - ayrı-ayrı ruhanilərə, dini və xeyriyyə müəssisələrinə, məscidlərə, mədrəsələrə verilirdi. Vəqf olaraq dini idarələrə, ruharilərə - bağ, dəyirman, mədən, meşə, otlaq da verilirdi. Vəqf torpaqlarında yaşayan kəndlilər vergini vəqf sahibinə və ya dini müəssisəyə verirdilər.

7. **İlcə (hami) torpaqları -** Azərbaycan kəndlilərinə məxsus olub, sonradan ərəb feodallarının əlinə keçmiş və IX-XI əsrlərdə ***yeni yaranan*** torpaq sahibliyi idi.

## Vergi və mükəlləfiyyətlər

IX-XI əsrlərdə Azərbaycanda üç əsas vergi növü mövcud idi:

1. **Zəkat** (**sədəqə)** - müsəlman əhalisindən öz əmlakına görə alınan vergi idi
2. **Cizyə** - müsəlman olmayan əhalidən alınan can vergisi idi
3. **Üşr –** torpaqdan istifadə müqabilində kəndlidən alınan vergi idi

X-XI əsrlərdə meydana gələn Üşr (onda bir) vergisinə ***aiddir:***

- Sonralar ***xərac*** adlandı və əsasən məhsulla alınırdı
- Xərac toplamaq üçün ayrı-ayrı adamlara verilən icarə kağızına ***qəbalə*** deyilirdi
- Xərac toplayan vergi məmurları ***mütəqəbbil*** və ya ***amil***, maliyyə müfəttişi isə ***mütəsərrif*** adlanırdı
- Amillər xərac toplayarkən onu özbaşına artırırdılar
- Kəndlilər xəracın müəyyən hissəsini ***pulla*** ödəyirdilər
- Müstəqil Azərbaycan feodal dövlətləri yarandıqdan sonra xərac vergisi yüngülləşdirildi. Məsələn, Ərəblər dövründə Azərbaycan əhalisindən ildə 4-5 milyon dirhəm xərac alınırdısa, Sacilər və Salarilərin dövründə bu rəqəm 2 milyon dirhəmə enmişdi. Azərbaycan kəndliləri xəracın müəyyən hissəsini pulla ödəməsi, IX-XI əsrlərdə Azərbaycanda ***əmtəə-pul münasibətlərinin inkişaf etdiyini*** göstərir.

## IX-XI əsrlərdə Azərbaycanda təsərrüfatın inkişafına mənfi təsir göstərən amillər

Xilafət zülmü devrildikdən sonra ***müstəqil yerli feodal dövlətlərin yaranması*** Azərbaycan kəndində müəyyən iqtisadi dirçəlişə səbəb oldu. IX-XI əsrlərdə dərinləşməkdə olan ***siyasi dağınıqlıq*** və ***feodal hərcmərcliyi*** kənd təsərrüfatının dirçəlişinə ciddi əngəl törədirdi. Bəhs edilən dövrdə aşağıda göstərilən bir çox amillər Azərbaycan kəndlisinin vəziyyətini ağırlaşdırır, kənd təsərrüfatının inkişafına mənfi təsir göstərirdi:

- ***Feodal dağınıqlığı və feodal ara müharibələri***
- ***Ölkədə ayrı-ayrı sülalələrin bir-birini əvəz etməsi***
- ***Azərbaycan torpaqlarının vahid dövlətdə birləşə bilməməsi***
- ***Ağır vergilər və xarici basqınlar***

## İri feodalların mərkəzi hakimiyyətə qarşı münasibəti

Azərbaycanda ***iri feodallar:***

- Ərəb ağalığı dövründə geniş torpaq mülkləri və imtiyazlar ələ keçirmişdilər
- IX əsrin ikinci yarısından başlayaraq ***müstəqil hakimlərə*** çevrilmişdilər
- Mərkəzi hakimiyyət tərəfindən müəyyən olunmuş illik xəracı ödədikdən sonra öz torpaqlarında təkbaşına hökmranlıq edirdilər

Hakimiyyətdə olan sülalələrin başçıları ***iri feodalları mərkəzi hakimiyyətə tabe etmək üçün*** tez-tez tədbirlər görməyə çalışırdılar. Məsələn, Saları hökmdarı Mərzban ibn Məhəmməd **"Qanunnamə"** hazırlatmışdı. Mərzban ibn Məhəmmədin "Qanunnamə" hazırlatmaqda ***məqsədi*** bunlar idi:

- ***Mərkəzi hakimiyyətə tabe olmaqdan boyun qaçıran feodal hakimlərin əl-qolunu yığmaq***
- ***Vergi sistemində qayda-qanun yaratmaq***

Lakin bütün Azərbaycan torpaqlarını əhatə edən vahid dövlətin yaranmadığı dövrdə ayrı-ayrı feodal sülaləri başçılarının göstərdikləri bu təşəbbüslər uğurla nəticələnmədi.

## Sənətkarlığın inkişafı

IX-XI əsrlərdə Azərbaycanda sənətkarlığın inkişafına aşağıdakı amillər əlverişli şərait yaratmışdı:

- ***Ərəb zülmünün devrilməsi və siyasi müstəqilliyin əldə edilməsi***
- ***Ölkənin zəngin təbiəti və təbii sərvətlərə malik olması***

Azərbaycan çox zəngin yeraltı sərvətlərə malik idi. X əsrdə Azərbaycana səyahət etmiş ərəb səyyahı **Əbu Duləf** yazır ki, ***"ölkələrin cənubunda olan Şiz şəhərinin ətrafındakı dağlarda qızıl, civə, qurğuşun, gümüş, sarı arsen və cəmast adlı daş çıxarılan mədənlər vardır***. ***"Şizdə külçə halında qızıl çıxarılırdı. Arran şəhərində qurğuşun mədənləri vardı***". Əbu Duləf, burada hətta kimya təcrübələri də aparmışdı. O, burada ***"qurğuşun turşusu hazırlamış"*** və həmin turşunun köməyi ilə qurğuşun mədənlərindən birində çıxarılan filizdən gümüş almışdı.

Ölkənin şimalında – Arran dağlarında ***qızıl, gümüş, mis*** və.b metallar aşkarlanmışdı. **Gəncə, Gədəbəy, Savalan ətrafında *dəmir və mis filizləri*** çıxarılırdı. **Təbriz** və **Naxçıvanda *daş duz*** çıxarılır, zəngin neft mədənləri olan **Bakıda** və **Urmiya yaxınlığında *narın duz*** emal olunurdu.

Bəhs edilən dövrdə bir çox keyfiyyətli sənətkarlıq və toxuculuq məmulatı hazırlamaq məqsədilə boya almaq üçün Azərbaycan zəngin xammal ehtiyyatlarına malik idi. **Bəzz qalasının ətrafındakı dağlarda *qırmızı kvars (silisium-oksid)*** mədənləri vardı. Bu kvars təkcə yerli tələbatı ödəməklə yanaşı, **Yəmənə** və **İraqa** da ixrac olunurdu. O zaman İraqın mühüm toxuculuq mərkəzi olan **Vasit şəhərində** hazırlanan yun parçalar ancaq ***Bəzz kvarsı*** ilə boyadılırdı. Bundan başqa, **Urmiya gölü ətrafında** yaşayan sənətkarlar ***qırmızı və sarı rəngli mineral boyalar*** düzəltməkdə mahir idilər. **İbn Havqəlin** məlumatına görə***, bu nadir boyaqlar, hətta İraq, Suriya və Misirə ixrac olunur və bundan çox böyük gəlir götürülürdü***. Maraqlıdır ki, qırmız adlı böcəklərdən alınan qırmızı rəngli boyaq maddəsinin özü də ***"qırmız"*** adlanırdı. X əsr tarixçisi **Əl-İstəhri** yazırdı ki, ***"Bərdədən "Hind ölkələrinə və başqa yerlərə qırmız ixrac edilir"***.

Gəmiçilik və balıqçılıqla əlaqədar olan bir çox peşələr də inkişaf etmişdir. Buna ağağıdakı amillər şərait yaradırdı:

- Gəmiçilik üçün əlverişli Xəzər dənizi, Kür və Araz çayları və Urmiya gölünün Azərbaycanda yerləşməsi
- Ölkənin zəngin balıq ehtiyyatlarına malik olması

## Ticarətin sənətkarlığın inkişafına və şəhərlərin yüksəlişinə təsiri

Sənətkarlıq məhsullarına olan tələbat artdıqca sənətkarların öz əməklərinin nəticəsi ilə yaşaya bilməsi üçün daha əlverişli şərait yaranırdı. Azərbaycan sənətkarlarının hazırladıqları məhsullara təkcə yerli bazarlarda deyil, beynəlxalq miqyasda da böyük ehtiyac vardı. Beynəlxalq karvan yollarının Azərbaycan torpaqlarından keçməsi sənətkarlıq və ticarətin inkişafına əlverişli şərait yaradırdı. Bununla əlaqədar olaraq IX-XI əsrlərdə:

- ***Əlverişli coğrafi mövqeyi olan yaşayış məntəqələri böyük şəhərlərə çevrilirdi***
- ***Karvan yolları üzərində, ticarət yolları qovşaqlarında çoxlu sənətkar və tacir məskənləri olan şəhərlər meydana gəlirdi***

Bu dövrdə Azərbaycan ərazisində ***yerli dövlətlərin yaranması*** bir çox şəhərlərin sürətlə böyüməsinə, onların iqtisadi və mədəniyyət mərkəzlərinə çevrilməsinə səbəb oldu.

## Azərbaycanın  orta əsr şəhərlərinin ümumi cəhətləri

Azərbaycanın orta əsr şəhərlərinin hamısı ***zahiri görünüşcə*** bir-birinə bənzəyirdi. Azərbaycanın orta əsr şəhərlərinin ümumi cəhətləri aşağıdakılar idi:

- Karvan yolları üstündə və müdafiə  üçün əlverişli olan təbii- coğrafi mövqedə salınırdı
- Bir qayda  olaraq, ***möhkəm qala divarları ilə*** əhatə  olunurdu
- Əhalisi ***sənətkarlıq, ticarət, əkinçilik*** və ***bağçılıqla*** məşğul olurdu
- ***Quruluşuna görə*** iki hissədən (***içəri şəhər, bayır şəhər)*** ibarət  idi
- Bol su ehtiyyatları ilə əhatə olunmuş yerlərdə salınırdı
- ***Əmtəə-pul münasibətlərinin inkişafı, daxili və xarici ticarət əlaqələrinin genişlənməsi nəticəsində*** sənətkarlıq və ticarət mərkəzlərinə çevrilirdi

Şəhərin ən gur yeri ***şəhər meydanı*** və ya ***bazar meydanı*** idi. Bazar meydanı, bir qayda olaraq, cümə məscidinin yanında olurdu. Bura şəhərin ***mərkəzi hissəsi*** və ya ***əsas məhəlləsi*** sayılırdı. İlk zamanlar şəhr əhalisi əsasən ***sənətkarlar*** idi. **Əbu Duləf** yazır ki, ***"Ərdəbildə, Bəzzdə və bu yerlərin yaxınlığındakı dağlarda qoturluğu müalicə edən isti bulaqlar vardır. Bəzz yaxınlığından axan çayda üşütmə-qızdırması olan adamlar çimdikdən sonra onların xəstəlikləri keçib gedir. Zəravənd bulağını dünyada yer altında çıxan ən yaxşı su idi"***

**Orta əsr şəhərlərinin sənətkarlıq və ticarət mərkəzlərinə çevrilməsinin səbəbi**

Əmtəə-pul münasibətlərinin inkişafı

Daxili və xarici ticarət əlaqələrinin genişlənməsi

## Azərbaycanın  orta əsr şəhərləri (IX-XI əsrlərdə)

Ərəb səyyahları Orta əsr Azərbayanın şəhərləri içərisində **Bərdə, Dərbənd, Şamaxı, Şabran, Tiflis, Mağara, Təbriz, Ərdəbil** və.b şəhərlərin adlarını qeyd edirdilər. Ərəb səyyahları o zamankı Azərbayanın şəhərləri içərisində **Bərdənin** rolunu xüsusi qeyd edirlər. IX-XI əsrlərdə Bərdə şəhərinə ***aiddir:***

- Bütün Cənubi Qafqazın siyasi, sənətkarlıq və ticarət mərkəzi idi
- Xilafətin Cənubi Qafqazda yaratdığı canişinliyin mərkəzi idi
- Bütün  Azərbaycan torpaqlarını idarə edən ərəb canişinlərinin  iqamətgahı  burada yerləşirdi
- Arranın ən böyük şəhəri, Azərbaycanın daxil olduğu iqlimin Bağdadı adlandırılırdı
- 944-cü ildə slavyanların basqınlarından sonra iqtisadi və siyasi mərkəz kimi tənəzzülə uğramışdı

Arranın böyük şəhərlərindən biri də **Dərbənd** şəhəri idi. Dərbənd şəhərinə ***aiddir:***

- Baş Qafqaz sıra dağları ilə  Xəzər  dənizi  arasındakı  dar keçiddə yerləşirdi
- Azərbaycanın ən  böyük liman-şəhəri və sənətkarlıq mərkəzi idi
- Cənubi Qafqazda ən yaxşı ***kətan parçaları*** bu şəhərin sənətkarları toxuyurdular
- Kətan parçaları sahəsində bütün Cənubi  Qafqazda yeganə toxuculuq mərkəzi idi
- Buradan  xarici  ölkələrə kətan parçadan tikilmiş hazır paltarlar göndərilirdi
- Şəhərin  bazarı bütün Yaxın və Orta Şərqdə məşhur idi, bu bazarda  qızğın qul ticarəti gedirdi

Azərbaycanın zəngin şəhərlərindən biri də **Şamaxı** idi. Bəhs edilən dövrdə Şamaxı şəhərinə ***aiddir:***

- Paytaxt şəhəri idi (Şirvanşahlar dövlətinin ikinci paytaxtı idi)
- Şirvanın iqtisadi və siyasi mərkəzi rolunu oynuyurdu
- İpəyi bütün Azərbaycanda və bir sıra başqa ölkələrdə öz şöhrətini saxlayırdı
- İqtisadi, siyasi, hərbi və coğrafi mövqeyinə görə Xilafəti çox maraqlandırırdı

Ərəb səyyahları Azərbaycandan bəhs edərkən bir qayda olaraq, ölkənin ***Arazdan şimaldakı torpaqlarını***, yəni ***keçmiş Albaniya dövlətinin ərazisini*** **Arran** adı ilə təqdim edirlər. Ərəblər Arranın ən böyük şəhərlərinin sırasında **Bərdə** və **Dərbənddən** sonra **Tiflisdən** də bəhs edir, buranın ***"Azərbaycan hökmdarlarının idarə etdiyi dağlıq ölkə"*** olduğunu bildirirdilər.

Bəhs edilən dövrdə sürətlə tərəqqi edən Azərbaycan şəhərlərdən biri də **Marağa** və **Təbriz** şəhərləri idi. Marağa şəhərinə ***aiddir:***

- Xilafət qoşunlarının istinadgahlarından biri idi
- Bir müddət Sacilər dövlətinin paytaxrı olmuş və bu zaman daha da inkişaf etmişdir
- X əsrdə Azərbaycanın cənub rayonlarında Ərdəbildən sonra ***ikinci böyük şəhəri*** idi

Təbriz şəhərinə ***aiddir:***

- Paytaxt şəhəri idi və X əsrdə Azərbaycanın ən iri şəhərlərindən birinə çevrilmişdi
- Azərbaycanın ticarət yollarını özündə birləşdirən beynəlxalq karvan yollarının üzərində yerləşirdi
- Rəvvadilər dövlətinin paytaxtına çevrildikdən sonra daha sürətlə inkişaf etdi və ölkənin sənətkarlıq mərkəzlərini ötüb keçdi

Azərbaycanın ən böyük şəhərlərindən biri də **Ərdəbil** şəhəri idi. Ərdəbil şəhərinə ***aiddir:***

- Paytaxt şəhəri idi və möhtəşəm qala divarları ilə əhatə edilmişdi
- Şəhərin ən gur yeri olan ***Bazar meydanında*** **Cümə məscidi** ucalırdı
- Saci və Salari hökmdarlarının sarayı, inzibati idarə orqanları və hərbi qüvvələri burada yerləşirdi
- Saci və Salari dövlətinin paytaxtı olamsı onun sənətkarlıq və ticarət mərkəzinə çevrilməsinə müsbət təsir göstərmişdir.

**IX-XI əsrlərdə Arranın ən böyük şəhərləri**




**Ərəb səyyah və coğrafiyaşünasları Orta əsr Azərbaycan şəhərləri haqqında**

IX-XI əsrlərdə Azərbaycan tarixini öyrənmək üçün ***ərəb coğrafiyaşünas*** və ***tarixçilərinin əsərləri*** əsas mənbədir. Onlardan **Əl İstəhri, İbn Həqvəl, Əl Müqəddəs** və **Əl-Məsudini** qeyd etmək olar.

**Əl-İstəhri** 930-933-cü illərdə yazdığı ***"Məmləkətlərin yolları kitabı"***nda qeyd edir ki, **Bərdə** çox böyük şəhərdir. Xorasan arasında Rey və İsəfəhandan sonra Bərdə qədər münbit torpaqlı, əlverişli mövqeydə yerləşən bir şəhər yoxdur. Bərdədən çoxlu ***ipək*** ixrac olunur.

Əl-İstəhrinin müasiri, ərəb coğrafiyaşünası **İbn Havqəl** də Bərdə haqqında maraqlı məlumatlar verir. O yazır: ***"Bura Arranın anası və bu yerlərin ən yaxşısıdır"***. **Əl Müqəddəsi** də Bərdə haqqında maraqlı məlumat verir. Bu şəhəri Azərbaycanın

daxil olduğu iqlimin *“başlıca şəhəri”*, *“həmin iqlimin Bağdadı”* hesab edir, şəhərdə əzəmətli qala, üstüörtülü bazarlar, çox gözəl evlər, bol meyvə olduğunu göstərir.

**Dərbənd** şəhəri barədə danışarkən **Əl-İstəhri** Dərbəndin ***“Ərdəbildən daha böyük”*** şəhər olduğunu qeyd edir və Azərbaycanın Xəzər hövzəsi ölkələri ilə əlaqələndirən çox mühüm bir liman-şəhəri kimi təsvir edir. **Əl-Müqəddəsinin** məlumtına görə, şəhərin təkcə şimal divarlarında üç qala qapısı vardı. **İbn Havqəlin** məlumatına görə, “girintili-çıxıntılı” Dərbənd limanının girəcəyinə zəncir çəkilmişdi. Əl-Müqəddəsinin məlumatından aydın olur ki, şəhərin çirkab sularını kənara axıtmaq üçün X əsrdə Dərbənddə ***kanalizasiya sistemi*** yaradılmışdır.

IX-X əsrlərdə **Bakının** da iqtisadi əhəmiyyəti artmaqda idi. Abşeronun zəngin ***neft “bulaqları”*** Bakını qonşu ölkələrdə də məşhurlaşdırmışdı. Ərəb səyyahı **Əl-Məsudi** Bakını Şirvan məmləkətinin neft çıxan torpağı və sahil şəhəri kimi qiymətləndirmişdir. Bakı bir liman–şəhəri kimi Dərbənddən çox geridə qalırdı. Lakin Bakı öz nefti ilə hər yerdə tanınırdı. **Əl-Məsudi** Bakının ağ neft mədənlərinlən bəhs edir və göstərirdi ki: ***“Allah bilir, dünyada buradan savayı ağ neft çıxan başqa bir yer varmı?”***. Ərəb səyyahları Bakıda, həmçinin sahildən xeyli aralı - dənizin içərisindəki adalarda gecə-gündüz şölələnən qaz alovlarını heyrətlə təsvir etmişdilər. Əl-Məsudi bununla əlaqədar maraqlı bir məlumat verir: ***“Həmin neft çıxan yerdə vulka püskürür. Orada ilin müxtəlif vaxtlarında püskürən böyük bir vulkan vardır. O, Sicilya ölkəsindəki əl-Burkan (Etna) dağında püskürən vulkana bənzəyir”***.

**Əl İstəxri** və **İbn Həqvəl** Tiflisi Arran şəhərləri sırasına daxil edir. İbn Havqəl Tiflisin ***“suyu odsuz qaynayan”*** hamamları barədə maraqlı məlumat verir. Səyyahın məlumatına görə, o zaman Tiflisdə ***su dəyirmanları*** vardır.

Ərəb səyyahları Azərbaycanın Arazdan cənubdakı böyük şəhərləri sırasında **Ərdəbil, Marağa, Təbriz, Urmiya** və.b qeyd edirlər. İbn Havqəl yazır: ***“Ərdəbildən sonra böyüklüyünə görə əl-Marağa gəlir”***.

Əl-Müqəddəsi **Təbrizin** Bağdadla müqayisədə üstün olduğunu qeyd edir. Səyyah ***“gözəlliyinin həddi-hüdudu olmayan”***, bu qədim Azərbaycan şəhərini ***“saf qızıla”*** bənzədirdi.

Ərəb coğrafiyaşünas və səyyahları **əl-İstəhri, İbn Havqəl** və **əl-Müqəddəsi** Ərdəbili bütün bu yerlərin ***“ən böyük şəhəri”, “ən böyük vilayəti və böyük şəhəri”, “bütün iqlimin əsas şəhəri”*** kimi qiymətləndirir. İbn Havqəl yazır ki, ***“hal-hazırda Azərbaycanın ən böyük şəhəri Ərdəbildir. Yaxınlığında Savalan dağı ucalır. Bu dağ çox böyükdür və şəhərin qərb tərəfindən göyə yüksəlir, sanki şəhərin üzərindən asılmışdır”.***

**IX-XI əsrlərdə Azərbaycanın Orta Əsr şəhərləri haqqında məlumat vermiş ərəb səyyahları**

| | |
|---|---|
| Əl Эstəhri | Bərdə, Tiflis, Urmiya юəhərləri haqqэnda məlumat vermiıodi |
| Эbn Həqvəl | Bərdə, Tiflis, Dərbənd юəhərləri haqqэnda məlumat vermiıodi |
| Əl Mьqəddəsi | Bərdə, Dərbənd, Təbriz юəhərləri haqqэnda məlumat vermiıodi |
| Əl-Məsudi | Bakэ юəhəri haqqэnda məlumat vermiıodi |

## IX– XI əsrlərdə Azərbaycanda mədəni dirçəliş

### Azərbaycan mədəniyyətinin  inkişafı

IX-XI əsrlərdə iki mühüm amil Azərbaycan mədəniyyətinin  inkişafı üçün  əlverişli şərait yaratmışdır:

1. ***Ərəb xilafətinin süqutu  nəticəsində Azərbaycanda baş vermiş siyasi dirçəliş***
2. ***Qədim  dövlətçilik  ənənələrinin  bərpa edilməsi***

Ərəb xilafətinin  süqutundan sonra Azərbayaycanda başlamış siyasi  oyanış (dirçəliş) sənətkarlıq və ticarətin tərəqqi etməsinə, şəhərlərin inkişaf  edərək  mədəniyyət mərkəzlərinə  çevrilməsinə və Azərbaycan mədəniyyətinin daha yüksək nailiyyətlər əldə etməsinə şərait yaratdı. **Bərdə, Gəncə Şamaxı, Dərbənd, Ərdəbil, Marağa** şəhərləri Şərq ölkələri ilə IX əsrdən sonra genişlənməkdə olan, sonrakı əsrlərdə də davam edən ticarət-iqtisadi və siyasi əlaqələri nəticəsində ***ərəb dili*** elm və təhsil dilinə çevrildi.

IX-XI əsrlərdə Azərbaycan elmi ***vahid İslam mədəniyyətinin*** tərkib hissəsi oldu. Müsəlman alimlərinin astronomiya və kimyaya dair araşdırmaları IX əsrdən etibarən ***təbiət elmlərinə*** marağı xeyli inkişaf etdirmişdir.

Ərəb coğrafiyaşünaslarının və səyyahlarının Azərbaycanda olması və onların Azərbaycan haqqında məlumatlar toplamaları coğrafi biliklərin genişlənməsində mühüm rol oynayırdı.

IX-XI əsrlərdə Azərbaycan ədəbiyyatı ümumdünya mədəniyyətinin ən uca  zirvəsini ***"Kitabi- Dədə Qorqudd" dastanı*** ilə fəth etdi. Dastanın Azərbaycan türkcəsində yaranması   və yayılması Azərbaycan dilinin yetkinləşdiyini sübut edir.

**IX-XI əsrlərdə Azərbaycan mədəniyyətinin  inkişafı üçün  əlverişli şərait yaratmış amillər**

- Ərəb xilafətinin süqutu
- Qədim  dövlət ənənələrinin bərpa edilməsi
- Azərbaycanda baş vermiş siyasi dirçəliş

**IX-XI əsrlərdə Azərbaycanda ərəb nəsillərinin öz mənşələrini itirərək türkləşməsinin səbəbi**

- Azərbaycanda İslam dininin qəbul edilməsi
- Vahid Azərbaycan türk xalqının formalaşması

### IX-XI əsrlər Azərbaycanın intibah dövrünün memarlıq abidələri

Azərbaycanda ***İslam dilinin qərarlaşması*** memarlığın inkişafına öz təsirini göstərdi. Bəhs edilən dövrdə Azərbaycanda aşağıdakı tarixi abidlər inşa olunmuşdur:

- Lerikdə **Oğlanqala (IX əsr)**
- Gədəbəydə **qalaça (IX əsr)**
- Naxçıvanda **Əlincə qalası (IX əsr)**
- Ağoğlan çayı sahilində **Amaras monastrı (IX əsr)**
- Şamaxının **Sündü kəndində** günbəzli  məscid **(920-ci il)**

- Araz çayı üzərində **Xudafərin körpüsü (1027-ci il)**
- Gəncədə **qala qapıları (1063-cü il)**

**IX-X əsrlərə** aid memarlıq abidələri içərisində ***qalalar, bürclər və müxtəlif müdafiə qurğuları*** xüsusi yer tutur. Bu qalalar içərisində ***öz əzəmətli və müdafiə qüdrəti ilə*** daha çox fərqlənən Naxçıvandakı **Əlincə qalası**:

- Sərt qayalı dağın zirvəsində yerləşmişdir
- İstehkamları atəş mövqeləri və qüllələri olan divarlardan ibarətdir
- İçərisində yaşayış binaları və başqa tikililər vardır
- Qayalıqda oyulmuş hovuz və kanallar yağış toplayaraq onun su təchizatında mühüm rol oynayırdı

Azərbaycan ərazisində olan çoxsaylı karvansaralar haqqında da məlumatlar vardır. Onlar Azərbaycandan keçən beynəlxalq ticarət yolları üzərində yerləşirdi. Bu dövrdə **Bərdə şəhəri** memarlıq tikililəri baxımından daha çox fərqlənirdi. Təsadüfi deyildi ki, Orta əsr müəllifləri Bərdəni ***"bu diyarın Bağdadı"*** adlandırmışdılar.

**IX-X əsrlərə aid memarlıq abidələri içərisində xüsusi yer tutan sahələr**







**Azərbaycanın XI əsrə aid tarixi abidələri**

| ***Xudafərin körpüsü*** | ***Gəncə qala qapıları*** |
|---|---|
| • **İntibah memarlığının ən möhtəşəm abidələrindən biridir**<br>• **1027-ci ildə Araz çayı üzərində salınmışdır**<br>• **Şədaddi hökmdarı *Fəzl ibn Məhəmmədin (985-1030)* göstərişi ilə inşa edilmişdir**<br>• ***15 aşırımlı* (tağlı) körpü tikilərkən təbii şəraitdən məharətlə istifadə edilmişdir**<br>• **Azərbaycanın şimalı ilə cənubu arasında iqtisadi hərbi və siyasi baxımdan mühüm rol oynamışdır** | • **İntibah memarlığının ən möhtəşəm abidələrindən biridir**<br>• **1063-cü ildə İbrahim Osmanoğlu düzəldilmişdir**<br>• **Şəddadi hökmdarı *Əbuləsvar Şavurun (1049-1067)* göstərişi ilə düzəltdirilmişdir**<br>• **1139-cu il Gəncə zəlzələsi zamanı gürcülər tərəfindən qənimət kimi Gürcüstana aparılmışdır** |


ATROPATENA SASANİLƏR DÖVLƏTİNİN TƏRKİBİNDƏ (3-7-ci ƏSRLƏR)
ALBANİYA
XƏZƏR DƏNİZİ
SASANİLƏR DÖVLƏTİ
ATROPATENA
(Kür)
(Göyçə g.)
(Araz)
Beyləqan
Varsan
Xuvey (Xoy)
Salmas
(Əhər)
Ərdəbil
Dehxarqan
Urmiya
Marağa
(Urmiya g.)
Neriz
Qazaka
Zəncan
Səfidrud
Qızılüzən
Şiz
Taxt-i Süleyman
Paytaxt
Atropatenanın təqribi sərhədləri
Şəhərlər
Dövlətlərin təqribi sərhədləri


ALBANİYA 5-8-ci ƏSRİN ƏVVƏLİNDƏ
Paytaxt
UTİ
Əyalətlər
Şəhərlər
LPİNA
Vilayətlər
Albaniyanın sərhədləri
Kaspi keçidi (Çola)
(Qanıx)
(Samur)
(Xram)
KAMBİSENA
Kiş
Şəki
LPİNA
Xunan
(Qabırrı (İori))
(Kür)
COLA
XƏZƏR
GİRDİMAN
ŞƏKİ
Qəbələ
Xalxal
QƏBƏLƏ
Şamaxı
SAKASENA
PARTAV
(Tərtər)
ECƏRİ
ARSAX
UTİ
(Göyçə g.)
(Kür)
Paytakaran
(Araz)
DƏNİZİ
SİSAKAN-SÜNİK
Aquen
Amaras
BALASAKAN
(Kür)
Naxçıvan
Tatev
PAYTAKARAN (KASPİANA)
(Araz)



ARRAN VƏ AZƏRBAYCAN ƏRƏB XİLAFƏTİNİN TƏRKİBİNDƏ
Bab ül-Əbvab (Dərbənd)
(Samur)
(Qabırrı)
TƏBƏRSARAN
Şabran
Tiflis
Qala ibn Kəndman
Xunan
KAMBİSENA
ŞƏKİ
Şəki
MƏSQƏT
Şirvan
GİRDİMAN
(Kür)
ŞAKASENA
Şəmkür
Qəbələ
XURSAN
UTİ
Gəncə
LEYZAN
Şamaxı
Bakuya (Bakı)
BƏRDƏ
ŞİRVAN
(Göyçə g.)
ARRAN
MUĞANİYƏ
SİSACAN
MİSKUAN
Bərdic
Bərzənc
(Araz)
Beyləqan
(Kür)
MESİRAN
Varsan
XƏZƏR
Nəşəva (Naxçıvan)
Şahabuş (Şahbuz)
Ktiş
Bacərvan
Kiran
MUĞAN
Bəzz
Xuvey (Xoy)
Bərzənd
Muğan
BƏZZEYN
(Qarasu)
Mərənd
(Əhər)
DƏNİZİ
Salmas
ƏRDƏBİL
Təbriz
Sarab
Dehxarqan
(Urmiya g.)
AZƏRBAYCAN
Şahı
MARAĞA
Urmiya
Məyanic
Xunəc
(Qızılüzən)
(Səfidrud)
Uşnuh
Səburxast
Bərzə
Musaadab
Zəncan
Sisər
Azərbaycanın və Arranın sərhədləri
Paytaxtlar
Şəhərlər
Qədim qalalar
SİSACAN Vilayət və mahalların adları
Keçidlər


XÜRRƏMİLƏR HƏRƏKATI
(8-ci ƏSRİN SONU - 9-cu ƏSRİN BİRİNCİ YARISI)
Ərəb xilafətinin təqribi sərhədləri
Xürrəmilər hərəkatının başlandığı ərazi
Xürrəmilər hərəkatının yayıldığı yer
Əyalətin sərhədləri
Babəkin əsir alındığı yer
Xürrəmilərin ərəb qoşunları ilə vuruşma yerləri
Bazz
Xürrəmilər hərəkatının mərkəzi
GÜRCÜSTAN
Tiflis
Bab-ül-əbvab (Dərbənd)
Qəbələ
ŞİRVAN
Gəncə
Bərdə
Şamaxı
Bakı
Ani
(Göyçə g.)
ARRAN
ARSAH
SÜNİK
Beyləqan
(Araz)
Dəbil
Varsan
(Kür)
Naxçıvan
(Van g.)
Bazz
Təbriz
Ərdəbil
XƏZƏR
DƏNİZİ
AZƏRBAYCAN
(Urmiya g.)
DEYLƏM
Zəncan
CÜRCAN
Cürcan
TƏBƏRİSTAN
Qəzvin
Rey
ƏL-CƏZİRƏ
DEYLƏM
Həmədan
(Dəclə)
CİBƏL
Qum
XORASAN
Samirə
R E Y
Bağdad
(Kərxə)
İ R A Q
İsfahan
Vasit
(Dəclə)
(Fərat)
Əhvaz
KERMAN
XUZİSTAN
Bəsrə
Şiraz
İran körfəzi
F A R S

# VIII BÖLMƏ

## AZƏRBAYCAN XI ƏSRİN ORTALARI – XIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ

## Azərbaycan Səlcuqların hakimiyyəti dövründə

### Səlcuq dövlətinin yaranması. I Sultan Toğrulun hakimiyyəti (1038-1063)

**1038-1157-ci illərdə** mövcud olmuş Böyük Səlcuq imperatorluğuna ***aiddir:***

- Mənşəyi oğuzların ***qınıq*** boyundan olub, türk sərkərdəsi **Səlcuğun** adından əmələ gəlmişdi
- **Qaraxanilər** və **Qəznəvilər** tərəfindən sıxışdırıldıqdan sonra qərbə - **Xorasana** doğru axışmışdılar
- Əsas hücum hədəfi olan **Bizansa** yürüş edərək – Naxçıvan və Van ərazilərini tutdular
- İmperatorluğun ilk paytaxtı **Nişapur**, sonra **Rey** və **İsfahan** şəhərləri, banisi isə **I Toğrul** idi
- XI əsrin ortalarında Yaxın və Orta Şərqin, o cümlədən Azərbaycanın tarixində dərin iz buraxmışdılar

Böyük Səlcuq imperiyasının əhatə etdiyi torpaqlara aşağıdakı ərazilər daxil idi:

- ***Şərqdə Mərkəzi Asiyadan qərbdə Aralıq dənizi sahillərinə qədər ərazilər***
- ***Şimalda Dərbənd keçidindən cənubda İran körfəzinədək ərazilər***

Sultan I Toğrulun hakimiyyəti dövründə:

✓ Səlcuq türkləri daha da qüvvətləndi

✓ **1040-cı ildə** ***Dəndənakan döyüşündə*** Qəznəviləri məğlub edərək Mərkəzi Asiyanın çox hissəsini tutdu

✓ **1038-1044-cü ildə** bütün **Xorasan** və **Xarəzmi** tutuldu

✓ **1040-cı ildə** ***Böyük Mərv qurultayında*** Şərqdə və Qərbdə yeni hərbi əməliyyatlara başlamağa qərara alındı

✓ **1042-1051-ci illərdə Bəlx, Xarəzm, Həmədan** və **Qərbi İran** tutuldu

✓ **1043-cü ildə** Səlcuq dövlətinin paytaxtı Nişapurdan **Rey şəhərinə** köçürüldü

✓ **1048-ci ildə** Səlcuq –Azərbaycan türk qoşunları Bizans, erməni və gürcü feodallarını darmadağın etdilər

✓ **1054-cü ildə** Rəvvadilər və Şaddadilər dövləti Səlcuqlarda asılı vəziyyətə salındı

✓ **1055**-ci ildə Bağda da daxil olmaqla **İraq** səlcuqlara tabe edildi, Abbasilər xilafəti səlcuqlardan asılı vəziyyətə salındı və Abbasilər Sultan I Toğrulu ***"şərqin və qərbin hökmdarı"*** kimi tanıdılar

✓




## Azərbaycan torpaqlarının Səlcuq dövlətinin tərkibinə qatılması

**XI əsrin ortalarında** Səlcuq qoşunları üç istiqamətdə - **Həmədan, İsfəhan** və **Gilan istiqamətlərində** Azərbaycana doğru yürüşə başladılar. Çox keçmədən Həmədan və İsfahan da daxil olmaqla bütün **Qərbi İranı** ələ keçirən səlcuq qoşunu Dəclə çayının sahillərinə çıxdı. Gilan istiqamətində hərəkət edən hissələr isə ***Xəzərin cənubundakı torpaqları*** tutdular və **Arrana** daxil oldular. Səlcuqların yürüşü zamanı Azərbaycanda aşağıdakı dövlətlər mövcud idi:

- **Rəvvadilər dövləti –** hakimiyətdə **Vəhsudan (1020-1059)** idi
- **Şəddadilər dövləti -** hakimiyətdə **Əbüləsvar Şavur (1050-1067)** idi
- **Şirvanşahlar dövləti -** hakimiyətdə **I Fəribürz (1063-1096)** idi

**1054-cü ildə** Sultan Toğrulun hərbi qüvvələri **Təbrizi** tutdu və Rəvvadi hökmdarı **Vəhsudan** səlcuq sultanına tabe olduğunu bildirdi. **XI əsrin ortalarında** Rəvvadilər səlcuqlar tərəfindən asılı vəziyyətə düşdükdən sonra **Şəddadilər dövləti** də səlcuqlardan asılılığı qəbul etdi. Bu zaman hakimiyyətdə olan Şəddadi hökmdarı **Əbuləsvar Şavur** səlcuqlara tabe oldu. Rəvvadi hökmdarı **Vəhsudan** və Şəddadi hökmdarı **Əbülüsvar Şavur** səlcuqlarla razılığa gələrək ***ittifaqa*** girdi. Rəvvadi və Şəddadi hökmdarlarının səlcuqlarla birlikdə gəldiyi razılığa görə ***Bizans torpaqlarına və onun təhriki ilə tez-tez Azərbaycan torpaqlarına hücum edən erməni-gürcü feodallarına qarşı birgə mübarizə aparmaq üçün əlbir hərəkət etmək*** qərara alındı.

**Səlcuq qoşunlarının Azərbaycana yürüşlərinin istiqamətləri**



**XI əsrin 50-ci llərində səlcuqların özlərindən asılı vəziyyətə saldığı Azərbaycan dövlətləri**

**Rəvvadilər**

**Şəddadilər**

## Səlcuqların Şirvanı işğal etməsi

**1066-cı ildə** səlcuqlara ***şiddətli müqavimət*** göstərən **Şirvanşahlar dövləti** də Səlcuqlar tərəfindən işğal edildi. Səlcuqlar tərəfindən Şirvanşahlar dövlətinin işğal edilməsi ***naticəsində:***

- Şirvanşahlar dövlətində hakimiyyətdə olan **I Fəribürz** səlcuqlara tabe oldu
- I Fəribürz şah titulundan məhrum edildi
- Şirvanşahlar səlcuqlardan asılı vəziyyətə düşdü
- Bütün Azərbaycan torpaqlarının Böyük Səlcuq imperatorluğunun tərkibinə qatılması prosesi başa çatdı

**QEYD:** ***Səlcuqlara tabe olmaları,*** Rəvvadi hökmdarı Vəhsudan, Şəddadi hökmdarı Əbülüsvar Şavur və Şirvanşah I Fəribürzun fəaliyyətində oxşarlıq təşkil edir.

**Səlcuqların Şirvanı işğal etməsinin nəticələri**

**1066-cı il**

Şirvanşahlar səlcuqlara tabe oldu

I Fəribürz şah titulundan məhrum edildi

Şirvanşahlar səlcuqlardan asılı vəziyyətə düşdü

Səlcuqlar Azərbaycanın işğalını başa çatdırdı

## Bizans, erməni və gürcü feodallarının qəsbikarlıq planlarının boşa çıxması

Səlcuq türklərinin soydaşları olan Azərbaycan türkləri və Cəbuni Qafqazın bütün müsəlman əhalisi ***Bizans, erməni və gürcü feodallarının birləşmiş qüvvələrinin təcavüzünə qarşı*** mübarizə üçün səlcuqlara ***özlərinin təbii müttəfiqi kimi*** baxırdılar. Odurki, səlcuqlar ***Azərbaycanın şimal hissəsində*** möhkəmləndikdən sonra Bizans, erməni və gürcü feodallarının birləşmiş qüvvələrinə ağır zərbələr vurdular. Belə ki, Azərbaycanın şimalında möhkəmlənən səlcuqlar burada **Şəddadilər dövlətinin** hərbi qüvvələri ilə birləşərək Bizans, erməni və gürcü feodallarının birləşmiş qüvvələrinə qarşı ağır zərbə endirdilər.

Səlcuq sərkərdəsi **Həsənin** başçılığı ilə səlcuqlar ***Azərbaycanın cənub əyalətlərini*** ələ keçirdikdən sonra **Şərqi Anadoluda** birgə hərbi əməliyyatlara başlayan Səlcuq – Azərbaycan türk qoşunları **1048-ci il sentyabrın 18-də *Bizans*** və onun müttəfiqləri olan ***xristian blokuna*** (***erməni və gürcü feodallarına*** ) qarşı ağır zərbə vurdular. Bundan sonra Bizans səlcuqlarla sülh bağlamağa məcbur oldu. Səlcuqların Azərbaycan torpaqlarını asanlıqla ələ keçirməsinin əsas səbəbi ***Ərəb xilafətinin tənəzzülündən sonra ölkədə mövcud olan dövlətlərin siyasi dağınıqlıq dövrü keçirməsi*** idi.

**Gürcü və erməni feodalları müsəlman türklərinə qarşı siyasətlərini həyata keçirərkən arxalandığı qüvvələr**

- Qərbi Avropa səlibçiləri
- Bizans imperiyası

**Səlcuqların Azərbaycanı asanlıqla ələ keçirməsinin səbəbləri**

- Ərəb xilafətinin süqutundan sonra ölkədə mövcud olan dövlətlərin siyasi dağınıqlıq dövrü keçirməsi
- Cənubi Qafqazın müsəlman əhalisinin Bizans erməni-gürcü təcavüzünə qarşı səlcuqlara özlərinin müttəfiqi kimi baxması
- Azbaycan türklərinin , burada yaşayan oğuz tayfalarının səlcuq türklərinin soydaşları olamsı

| | | | |
|---|---|---|---|
| Böyük Səlcuq imperatorluğunun yaranması | **1038** | **1048** | Səlcuqların Bizans və erməni və gürcü feodallarını məğlub etməsi |
| Dəndənakan döyüşündə səlcuqların Qəznəvilər dövlətini məğlub etməsi | **1040** | **1054** | Səlcuqların Rəvvadilər dövlətini özlərindən asılı vəziyyətə salması |
| Mərv qurultayında səlcuqların Şərqdə və Qərbdə yeni yürüşlərə qərar verməsi | **1040** | **1055** | Səlcuqların Abbasilər xilafətini özündən asılı vəziyyətə salması |
| Səlcuq dövlətinin paytaxtının Nişapurdan Rey şəhərinə köçürülməsi | **1043** | **1066** | Səlcuqların Şirvanı tutmaqla Azərbaycanın işğalını başa çatdırması |

## Səlcuq axınlarının Cənubi Qafqaz və Azərbaycan üçün nəticələri

Səlcuq türklərinin axınlarından əvvəl Azərbaycan ***oğuz türklərinin*** yaşadığı ümumi əraziyə daxil idi. ***Sasanilər*** və ***Ərəb xilafəti dövründə*** Azərbaycanda türk və qeyri-türk tayfalarının vahid xalq halında qaynayıb-qarışması prosesi gedirdi. Azərbaycan torpaqlarının vahid dövlətin tərkibində olmasının böyük əhəmiyyəti var idi. Belə ki, XI əsrdə Cənubi Qafqaz və Azərbaycana səlcuq axınları ***nəticəsində:***

- ***Azərbaycan xalqının formalaşması prosesi qəti olaraq başa çatdı***
- ***Azərbaycan İslam dünyasında türklüyün başlıca istinadgahına çevirildi***
- ***Türk - İslam amili Cənubi Qafqaz və Azərbaycanda qəti olaraq möhkəmləndi***
- ***Azərbaycan-oğuz-türk tayfaları Cənubi Qafqaz və Ön Asiyada başlıca etnik siyasi amilə çevirildi***
- ***Azərbaycanın qərbini tutmaq istəyən Bizans, erməni və gürcü feodallarının yürüşlərinin qarşısı alındı.***
- ***Bizans və xristianların Yaxın-Orta Şərqin xəritəsinin Qərbi Avropanın xeyrinə dəyişməsinin qarşısı alındı***
- ***Xristian blokuna qarşı mübarizə asanlaşdı, Bizans imperiyası və onun əlaltılarının qəsbikarlıq planları boşa çıxdı***

## Səlcuqlar dövründə torpaq mülkiyyət formaları

Səlcuq imperatorluğunun yaranması ilə Yaxın və Orta Şərqin, o cümlədən Azərbaycanın torpaq mülkiyyəti və vergi sistemində ciddi dəyişikliklər baş verdi. Səlcuqlar dövründə iki torpaq mülkiyyət forması mövcud idi:

- **İqta torpaqları**
- **Uc torpaqları**

İqta torpaq mülkiyyəti forması **Ərəb xilafəti dövründə** meydana gəlsə də Səlcuqlar dövründə müəyyən dəyişikliklərə məruz qalmışdı. Səlcuq sultanları mərkəzi hakimiyyət üçün ***hərbi-siyasi dayaq yaratmaq məqsədi ilə hərbi xidmət əvəzində*** səlcuq əmirlərinə iqta paylayırdılar. Səlcuq türklərinin axınları dövründə iqta Azərbaycanda, Yaxın və Orta Şərqdə ***başlıca torpaq mülkiyyət formasına*** çevirildi. İqta sahibi olan iqtadarlar əvvəllər torpaqlardan vergi (renta) almaqla kifayətlənir, daxili idarəçiliyə və kəndlilərin həyatı ilə əlaqədar məsələlərə qarışmırdılar. Lakin, tədricən iqta sahibləri müstəqil hakimlərə, onların idarə etdiyi ərazilər isə ***mərkəzi hakimiyyətdən asılı olmayan*** dövlətlərə çevirildi. Səlcuqlar dövründə ən çox iqta Sultan **Məlikşah** tərəfindən paylanmışdır. Azərbaycanda **Aran, Şirvan, Dərbənd** kimi böyük tarixi vilayətlər də iqta kimi səlcuq sərkərdələrinə verilirdi. ***Zaman keçdikcə iqta irsən keçməyə başlayır, mülk torpaqlarından elə də fərqlənmirdi.***

Səlcuqlar dövründə meydana gələn torpaq mülkiyyət forması isə **uc torpaqları** idi. Uc torpaqları – ***Səlcuq imperatorluğunun sərhədlərini qoruyan səlcuq sərkərdələrinə verilən torpaqlara deyilirdi***.

**Səlcuq sultanlarının ən yaxın əmrlərinə iqta olaraq vermiş Azərbaycan torpaqları**




## Səlcuqlar dövründə vergi sistemi

XI əsr - XIII əsrin əvvəllərində Azərbaycanda əhali səlcuqlara **xərac, cizyə** və **üşr (üşür)** vergiləri ödəyirdilər. Yuxarıdakı ənənəvi vergilərə əlavə olaraq Səlcuq döyüşçüləri üçün ***silah bahası, nal bahası, şərab bahası*** kimi vergilər, şəhər sənətkarlarından isə onların hazırladıqları ***sənət məhsullarından pay*** alınmağa başlandı. Bununla belə, səlcuqların hakimiyyəti zamanı ***feodal özbaşınalığı, ara müharibələri*** və ***siyasi hərc-mərciliyin*** qarşısı xeyli alındı, xalqın ***oturaq təsərrüfat ənənələrinin dirçəlişinə*** əlverişli şərait yarandı.

**Səlcuqlar dövründə əhalidən alınan vergilər**



## Səlcuq imperatorluğunun parçalanması

İlk zamanlar başqa ölkələr üzərinə aramsız yürüşlər dövründə ***oğuz-səlcuq hərbi-siyasi birliyinə*** əsaslanan Səlcuq dövləti **XI əsrin sonlarında** – ***işğallar ara verdikdən sonra*** tənəzzülə başladı. Bu zaman səlcuq sultanları tərəfindən iqta bağışladığı ***sərkərdələr, əyalət hakimləri*** mərkəzi hakimiyyətə tabe olmaqdan boyun qaçırmağa başladılar.

Sonuncu səlcuq hökmdarı **Sultan Səncərin (1118-1157)** hakimiyyəti dövründə ***imperatorluq faktiki olaraq ayrı-ayrı müstəqil dövlətlərə*** parçalandı. Bu dövlətləri Səlcuq sultanlarının vəliəhdlərinin tərbiyəçiləri – ***atabəylər*** idarə edirdilər. Səlcuq imperatorluğunun parçalanmasından sonra yaranmış qüdrətli dövlətlərdən biri də **Eldənizlər dövləti** idi. Səlcuq imperatorluğunun tənəzzülünün səbəbləri əsasən aşağıdakı amillərlə bağlı idi:

- Tabe edilmiş ölkələrin xalqlarının azadlıq mübarizəsinin genişlənməsi
- Ayrı-ayrı sərkərdələrin, əmirlərin mərkəzi hakimiyyətə tabe olmaq istəməməsi
- Birinci səlib yürüşü dövründə Qərbi Avropa səlibçilərinin kütləvi yürüşlərinə qarşı mübarizə
- İmperatorluğu əhatə edən ərazilərin və xalqların vahid iqtisadi və siyasi mərkəz ətrafında sıx birləşməməsi, natural təsərrüfatın hökmranlığı



## Şirvanşahlar dövləti XI-XII əsrlərdə

### Şirvanşahlar dövləti I Fəribürz (1063-1096) və onun varisləri dövründə

Səlcuqların hakimiyyəti dövründə Azərbaycanın qədim dövlət ənənələri aradan qalxmadı. Çünki Şirvanşahlar dövləti səlcuqlardan asılı vəziyyətə düşsə də daxili müstəqilliyini saxlayırdı. Bu zaman Şirvanşah **I Fəribürz (1063-1096)** Səlcuq sultanlarına tabe olsa da (1066-cı ildə) Şirvanşahların hakimiyyətinə tamamilə son qoyulmadı. **XI əsrin sonu – XII əsrin əvvəllərində** Şirvanşahlar dövləti yenidən gücləndi. Bunun əsas səbəbi ***Böyük Səlcuq imperiyasının zəifləməsi*** idi. Səlcuq sultanı **I Məlikşahın (1072-1092)** hakimiyyətinin sonuna yaxın ***Şirvanşahlar dövləti yenidən qüvvətlənməyə başladı***. Bu zaman **I Fəribürzün** varisləri **II Mənuçöhr (1097-1107)** və **I Afridun (1107-1120)** Şirvanşahlar dövlətini ***müstəqil idarə*** edirdilər. Beləliklə, **XI əsrin sonu – XII əsrin əvvəllərində** Böyük Səlcuq imperiyasının zəifləməsi Şirvanşahlar dövlətinin yenidən güclənməsinə səbəbi oldu.

**Səlcuqlar dövründə Şirvanı idarə edən hökmdarlar**




### Gürcü çarı IV Davidin Azərbaycana qarşı qəsbikarlıq siyasəti

**XI əsrin sonu – XII əsrin əvvəllərində** Şirvanşahlar dövləti I Fəribürzün varisləri (**II Mənuçöhr və I Afridun**) dövründə Şirvanşahlar dövləti ilə ***gürcü çarları*** yaxınlaşmağa çalışırdılar. Gürcüstanın Şirvanşahlarla yaxınlaşmasının əsas səbəbi aşağıdakı amillərlə bağlı idi:

- ***Səlcuqlara qarşı birgə mübarizə***
- ***Azərbaycanın qərb torpaqlarını ələ keçirmək***

Bu dövürdə gürcü çarı **IV Davidin (1089-1125)** və erməni feodallarının geniş xarici siyasət ***planları*** var idi. Həmin plana görə:

- ***Türk müsəlman əhalisi Qafqazdan sıxışdırıb çıxarılmalı idi***
- ***Azərbaycan torpaqlarını öz aralarında bölüşdürməli idi***
- ***Bizansın vasitəçiliyi ilə, Səlcuq türklərinə qarşı Qərbi Avropa səlibçiləri ilə ittifaq yaradılmalı idi***

IV David Türk müsəlman əhalisini Qafqazdan sıxışdırıb çıxarmaq üçün aşağıdakı ***tədbirləri*** həyata keçirdi:

- Bizans imperatoru **Aleksey Komnin** və qıpçaq türklərinin hökmdarı **Artak** ilə ittifaqa girdi
- **Qafqazın Şimalından** Gürcüstana ailələri ilə birlikdə 45 min **qıpçaq türk döyüşçüsü** köçürtdü

## Gürcülərin Şirvana hücumları

Azərbaycanın ***qərb torpaqlarını*** ələ keçirmək niyyətini həyata keçirmək məqsədi ilə Gürcüstan **1117-ci ildə** çar IV Davidin oğlu **Demetre** başda olmaqla Şirvana hücum etdi və Şirvanşahların qoşunlarını məğlubiyyətə uğratdı. Yürüşdə Gürcülərin Şirvana hücumuna bəhanə ***Şirvanşahların Səlcuq türkləri ilə əlaqə saxlaması*** olmuşdur.

**1120-ci ildə** isə IV Davidin başçılığı ilə gürcülər qüvvətli ordu ilə Şirvana növbəti dəfə hücum etdi. IV Davidin Şirvana bu yürüşü ***nəticəsində:***

- Şirvanşahların qoşunları yenə də məğlubiyyətə uğradıldı
- **Qəbələ** və ətraf yerləri qarət olundu, gürcülər xeyli qənimət ələ keçirdilər

**1121-ci ildə Didqori döyüşü nəticəsində *gürcülər*** və onların müttəfiqləri - ***qıpçaq türkləri, alanlar və Qərbi Avropa səlibçilərinin birləşmiş qüvvələri*** Səlcuq qoşunlarını məğlub etdilər.

**1122-ci ildə Tiflis müsəlman əmirliyi** ləğv edildi və Tiflis gürcülərin əlinə keçdi.

**QEYD:** Dəndənəkan döyüşü ilə Didqori döyüşü oxşar cəhətə malik idi. Belə ki, hər iki döyüşdə səlcuq türkləri iştirak etmişdilər. Lakin səlcuqlar birinci döyüşdə qalib gəlsələr də, ikincidə məğlub olmuşdular.




## III Mənuçöhrün hakimiyyəti (1120-1160)

Şirvanşahlar dövlətinin hökmdarı III Mənüçöhrün hakimiyyəti dövründə:

- ✓ ***Şirvanşahların Gürcüstanla münasibətləri yaxşılaşdı***
- ✓ ***Şirvanşahlar Səlcuqlarla ittifaqdan çıxaraq onlara illik bac verməkdən imtina etdi***

XII əsrin əvvəllərində Gürcüstanın qüvvətlənməsi Şirvanşahların mövqeyinə təsir göstərsə də III Mənuçöhrün (1120-1160) hakimiyyəti dövründə ***Şirvan – Gürcüstan münasibətlərində dönüş*** yarandı. Bu dövrdə Şirvan – Gürcüstan münasibətlərində dönüş yaranmasında və yaxşılaşmasında aşağıdakı amillər mühüm rol oynadı:

- ***Böyük Səlcuq imperiyasının zəifləməsi***
- ***III Mənuçöhrün arvadı Tamar və onun gürcü əhatəsi***

**QEYD:** IV David qızı Tamarı III Mənüçöhrə ərə verərək Şirvanşahlarla qohumluq əlaqəsi yaratmışdı. Gürcü çarının Şirvanşahlarla qohumluq əlaqəsi yaratmaqda əsil məqsədi ***Səlcuq türklərinə qarşı mübarizə*** və ***Azərbaycanın qərb torpaqlarına yiyələnmək*** idi.

Gürcü çarı IV Davidin Azərbaycanla bağlı siyasətini düzgün qiymətləndirməyən və onunla ittifaqa bel bağlayan III Mənuçöhr Şirvanşahlar dövlətinin ənənəvi siyasətindən üz döndərərək:

- ***Səlcuq imperatorluğu ilə ittifaqdan çıxdı***

- ***Səlcuqlara 40.000 dinar məbləğində illik bac verməkdən imtina etdi***

**1123-cü ildə** Səlcuq sultanı **Sultan Mahmud** Şirvana hücum etdi. Sultan Mahmudun Şirvana hücum etməsinin səbəbi aşağıdakı amillərlə bağlı idi:

- ***Şirvanşahların – III Mənüçöhrün Səlcuq imperatorluğu ilə ittifaqdan çıxması***
- ***Şirvanşahların Səlcuqlara illik bac verməkdən imtina etməsi***

Sultan Mahmudun Şirvana 1123-cü ildə hücumu nəticəsində o, ***Şirvanşahın, gürcü çarı IV Davidin*** və ***qıpçaq türklərinin*** qüvvələrinə məğlub olaraq Şirvanı tərk etdi.

Gürcü çarı IV David Sultan Mahmudun Şirvanı tərk etdikdən sonra yaranmış fürsətdən istifadə edərək tezliklə ***Şirvan torpaqlarını Gürcüstana qatmaq*** qərarına gəldi və bu məqsədlə **1123-1124-cü illərdə** Azərbaycana yürüş etdi. IV Davidin Azərbaycana bu yürüşü ***nəticəsində:***

- Şirvanşahların paytaxtı **Şamaxını** və burada yerləşən **Gülüstan** ilə **Buğurd qalalarını** ələ keçirdi
- Şirvanın mühüm şəhər və qalalarında güclü qarnizonlar qoyub geri qayıtdı

Lakin gürcü qoşunları beş aydan çox Azərbaycanda qala bilmədilər – ***IV Davidin ölümündən sonra (1125)*** onlar Şirvanı tərk etməyə məcbur oldu. Hakimiyyət yenidən III Mənuçöhrə keçdi.

Gürcü çarı **I Demetrenin (1125-1155)** hakimiyyəti illərində Şirvanşahlarla - III Mənuçöhrlə Gürcüstan arasında heç bir hərbi münaqişə baş vermədi.

**XII əsrin 30-50-ci illərində** Şirvanşahlar dövlətinin ***ən qüdrətli dövrü*** idi və Cənubi Qafqazda ən qüdrətli siyasi amilə çevrilmişdir.

### Şirvanşahlar dövlətində Tamarın saray çevrilişi etmək cəhdinin baş tutmaması (1160)

**1160-cı ildə** III Mənuçöhrün ölümündən sonra:

- Şirvanşahlar dövlətində vəziyyət yenidən mürəkkəbləşdi
- III Mənuçöhrün oğulları arasında taxt-tac mübarizəsi başlandı

Şirvan əyanlarının bir qurupu başda Tamar olmaqla onun ölümündən sonra fəallaşdılar. Yaranmış vəziyyətdən istifadə edən Tamar kiçik oğlu və bir qrup əyanla birlikdə ***qıpçaq türklərinə*** arxalanaraq ***Şirvanı Gürcüstana birləşdirməyə*** cəhd göstərdi. Lakin ***Eldənizlər dövlətinin işə qarışması ilə*** gürcülərin Şirvanı Gürcüstana birləşdirmək planı pozuldu və Atabəy Şənsəddin Eldənizin hərbi qüvvələrinin köməyi ilə III Mənuçöhrün böyük oğlu **I Axsitan (1160-1196)** Şirvanşahlar dövlətində hakimiyyəti ələ keçirdi.

***III Mənuçöhrün ölümündən sonra Şirvanşahlar dövlətində vəziyyət***



## Şirvanşah I Axsitanın hakimiyyəti (1160-1196)

Şirvanşah I Axistanın hakimiyyəti dövründə:

- ✓ Şirvanşahlar dövləti qüvvətləndi, iqtisadi inkişaf və mədəni tərəqqi dövrünü yaşadı
- ✓ **Dərbənd hakimliyi** Şirvanşahlar dövlətindən asılı vəziyyətə salındı və **Dərbənd səddi** təmir edildi
- ✓ Atasının yeritdiyi xarici siyasətdə dəyişiklik edərək ***Səlcuqlarla dostluq münasibətlərini*** bərpa etdi
- ✓ Hakimiyyəti ələ keçirməyə ona kömək etmiş ***Atabəylər dövləti ilə dostluq münasibətləri*** qurdu
- ✓ Gürcüstan çarlığı ilə ***mehriban qonşuluq əlaqələrini*** davam etdirdi
- ✓ Şirvanşahlar dövlətinin müdafiə qüdrəti artdı, çoxlu müdafiə qalaları, qüllələr, sədlər inşa və bərpa edildi
- ✓ **1173-cü ildə** Şirvanşahlar Gürcüstanda hakimiyyətə qarşı qiyamı yatırmaqda çar **III Georgiyə** kömək etdi
- ✓ **1175-ci ildə** Azərbaycana hücum edən ***slavyan donanması*** darmadağın edildi
- ✓ **1175-ci ildə** hücum edib Şabran və Dərbəndi ələ keçirən ***qıpçaqlar*** məğlub edilərək Şirvandan qovuldu
- ✓ **1192-ci ildə** Şamaxıda baş vermiş zəlzələ nəticəsində dövlətin paytaxtı Bakıya köçürüldü

I Axistan və onun varislərinin hakimiyyəti dövründə aşağıdakı amillər Şirvanşahlar dövlətinin qüvvətlənməsinə, iqtisadi inkişafa və mədəni tərəqqiyə müsbət təsir etmişdi:

- **Şimali Azərbaycanda yaranan siyasi sabitlik**
- **Səlcuq türkləri və Atabəylər dövləti ilə mehriban dostluq münasibətləri**
- **Gürcüstan çarlığı ilə mehriban qonşuluq siyasəti**
- **Dərbənd keçidinin möhkəmləndirilməsi**

**Şirvanşah I Axsitanın dostluq münasibətləri saxladığı dövlətlər**






## Şirvanşahlar dövlətinin slavyan və qıpçaqların hücumuna məruz qalması (1175)

**1175-ci ildə** I Axsitanın hakimiyyəti dövründə Şirvanşahlar dövləti slavyanların 73 gəmidən ibarət hərbi donanmasının təcavüzünə məruz qaldı. Slavyanların bu təcavüzü nəticəsində onlar ***Kürün mənsəbinə daxil olaraq Lənbərana qədər*** irəlilədilər. Lakin slavyan donanması ***Şirvanşahın hərbi qüvvələri tərəfindən*** darmadağın edildi. Az sonra qıpçaq türkləri hücum edərək **Dərbənd** və **Şabranı** ələ keçirdilər. Lakn qıpçaqlar da məğlub edilərək ölkədən qovuldu. Slavyanlar və qıpçaqlar üzərindəki iki qələbədə Şirvanşahlara aşağıdakı qüvvələr kömək göstərmişdilər:

- **Gürcü çarı III Georgi**
- **Bizans şahzadəsi Andronik Komnin**

**Şirvanşah hökmdarları XI-XII əsrlərdə**

| I Fəribürz (1063-1096) | III Mənüçöhr (1120-1160) | I Axistan (1160-1196) |
|---|---|---|
| • Şirvanşahlar səlcuqlara tabe oldu<br>• Şirvanşahlar səlcuqlardan asılı vəziyyətə düşdü<br>• Bütün Azərbaycan torpaqlarının Böyük Səlcuq imperatorluğunun tərkibinə qatılması prosesi başa çatdı | • Şirvanşahlar səlcuqlarla ittifaqdan çıxaraq onlardan üz döndərdi<br>• Şirvan – Gürcüstan münasibətlərində dönüş yarandı<br>• Şirvan Sultan Mahmudun hücumuna məruz qaldıGürcü çarı IV David və oğlu Demetre Azərbaycana yürüş etdi | • Şirvanşahlar dövləti qüvvətləndi, Dərbənd hakimliyi asılı vəziyyətə düşdü Dərbənd səddi təmir edildi<br>• Səlcuqlar və Atabəylər ilə dostluq münasibətlərini qurdu<br>• Gürcüstan çarlığı ilə mehriban qonşuluq əlaqələrini davam etdirdi<br>• Slavyan donanması və qıpçaqlar darmadağın edildi |

**XI-XII əsrlərdə Şirvanşahlar dövlətinə hücum etmiş qüvvələr**



| | | | |
|---|---|---|---|
| Şirvanşahlar dövlətinin Səlcuqlar tərəfindən işğal edilməsi | **1066** | **1123** | Sultan Mahmudun Şirvana uğursuz hücum etməsi |
| Demetrenin Şirvana hücum etməsi | **1117** | **1123-1124** | IV Davidin Şirvana yenidən yürüş etməsi |
| Şirvanşah III Mənüçöhrün hakimiyyətə gəlməsi | **1120** | **1160** | Tamarın Şirvanşahlar dövlətində saray cevrilisi etməyə cəhd göstərməsi |
| Gürcü çarı IV Davidin Şirvana yürüş etməsi | **1120** | **1160** | Şirvanşah I Axsitanın hakimiyyətə gəlməsi |
| Didqori döyüşündə Səlcuq qoşunlarını məğlub edilməsi | **1121** | **1175** | Slavyan və qıpçaqların Azərbaycana hücum etməsi |
| Tiflis müsəlman əmirliyinin ləğv edilməsi | **1122** | **1192** | Şirvanşahlar dövlətinin paytaxtının Bakıya köcrülməsi |

## Atabəylər dövləti (1136-1225)

### Atabəylər dövlətinin yaranması

Böyük Səlcuq imperiyasının parçalandığı dövrdə yaranmış qüdrətli dövlətlərdən biri **Eldənizlər dövləti (1136-1225)** idi. Bu dövlət Azərbaycan tarixində ***İldənizlər və ya Eldənizlər dövləti kimi*** tanınır. Eldənizlər dövlətinin yaranması ***Eldənizlər sülaləsinin banisi Atabəy Şəmsəddin Eldənizin*** adı ilə bağlı idi. Eldəniz **1136-cı ildə** Arran hakimi təyin olundu və Bərdəyə göndərildi. **1136-cı ildə *Eldənizin Arran hakimi təyin olunlası ilə*** Azərbaycan Atabəylər dövlətinin və bu dövləti idarə edən Eldənizlər sülaləsinin əsası qoyuldu. Eldənizlər dövlətinin paytaxtı Şəmsəddin Eldənizin zamanında **Naxçıvan şəhəri** idi. Naxçıvan şəhərinin ən yüksək tərəqqi dövrü məhz Eldənizin hakimiyyəti illərinə təsadüf edir.

Eldənizlər dövlətinin ərazisi əvvəl Böyük Səlcuq imperatorluğunun parçalandığı dövrdə meydana gəlmiş **İraq Səlcuq sultanlığının (1118-1194)** tərkibində idi. İraq Səlcuq sultanlığınən ərazisi **İraqı, İranı və Kür çayından cənubdakı Azərbaycan torpaqları da daxil olmaqla Cənubi Qafqazın bir hissəsini** əhatə edirdi. İraq Səlcuq sultanı **Sultan II Toğrul (1132-1134)** Eldənizə ***"əmir"*** titulu verdi və onun oğlu Arslan şahın ***"atabəyi"*** təyin etdi. Bundan sonra Şəmsəddin Eldənizin nüfuzu daha da artdı. Eldəniz **1160-cı ildə**:

- **"Böyük atabəy"** titulu aldı
- Oğulluğu **Arslan şahın (1161-1176)** sultan elan edilməsinə nail oldu
- Bütün İraq Səlcuq sultanlığını özü idarə etməyə başladı
- Böyük oğlu **Məhəmməd Cahan Pəhləvanı** İraq Səlcuq sultanının **hacibi** təyin etdi
- kiçik oğlu **Qızıl Arslanı** ordunun **ali baş komandanı** təyin etdi

**Eldənizlər dövlətinin hökmüdarları**




### Şəmsəddin Eldənizin hakimiyyəti (1136-1175)

Şəmsəddin Eldənizin hakimiyyəti dövrünə ***aiddir:***

- ✓ Öz adından pul kəsdirdi
- ✓ Xırda feodal mülklərini aradan qaldıraraq bütün Azərbaycanı öz hakimiyyəti altında birləşdirdi
- ✓ Mərkəzi hakimiyyətə tabe olmayan əmirlərin və iri feodalların sərbəstliyini məhdudlaşdırdı
- ✓ Arranı, Azərbaycanın bəzi cənub bölgələrini və Naxçıvanı müstəqil idarə etməyə başladı
- ✓ **İraq Səlcuq sultanlığı** Eldənizlər sülaləsinin hakimiyyəti altına düşdü
- ✓ Gürcü torpaqları və Şirvanşahlar dövlət Eldənizlərdən asılı hala saldı
- ✓ Atabəylər dövləti Yaxın və Orta Şərqin ən qüdrətli dövlətlərində birinə çevrildi
- ✓ **Hilat, Fars, Xuzistan, Mosul, Kirman və Təbəristan** hakimləri Eldənizlərdən asılı vəziyyətə düşdülər
- ✓ Eldənizlər dövləti **Dərbənd keçidindən İran körfəzinə qədər çox geniş əraziləri** əraziləri əhatə edirdi

- ✓ **Azərbaycan, o cümlədən Arran və Şirvan, əl – Cibal ölkəsi, İraq, Həmədan, Gilan, Mazandaran, İsfahan və Rey** Eldənizlər dövlətinə birləşdirildi
- ✓ Mərkəzi hakimiyyətdən iqta alan əmirlərin hərbi qüvvələrindən başqa 50 min nəfərlik daimi nizami ordu yaratdı (Bu amil Şəmsəddin Eldənizin hərbi qüdrətini göstərən faktdır)

**QEYD:** ***Şirvanşahları özlərindən asılı vəziyyətə salamaları*** Sacilər, Salarilər və Eldənizləri birləşdirən ümumi cəhətdir. Lakin Eldənizlər sələfləri kimi Azərbaycanı vahid dövlət halında birləşdirə bilməmişdilər.

Gürcü torpaqları Eldənizlər dövlətinin tərkibinə daxil edilsə də Azərbaycan üçün daim təhlükə yaradan ***gürcü feodalları*** Azərbaycan sərhədlərinə soxularaq vəhşiliklər törədirdi. **1161-ci ildə** gürcü qoşunları Eldənizlər dövlətinin tabeçiliyində olan **Dəbil şəhərinə** hücum etdib 10 minə qədər adamı qılıncdan keçirmiş, qadınları və uşaqları Gürcüstana aparmışdılar. Bütün bunları nəzərə alan Şəmsəddin Eldəniz gürcü qoşunları üzərinə hücuma keçərək  bir sıra qələbələr qazandı. Nəticədə gürcü çarları Eldənizin dövründə Azərbaycan sərhədlərini pozmağa cəsarət etmədilər.

Eldənizlər dövlətinin yaranmasının böyük tarixi əhəmiyyəti var idi. Belə ki, Eldənizlər dövlətinin yaranması  nəticəsində ***sənətkarlıq və ticarət tərəqqi etdi***? k***ənd təsərrüfatı inkişaf etdi***, ***mədəni oyanış baş verdi***







## Məhəmməd Cahan Pəhlavanın hakimiyyəti (1175-1186)

Şəmsəddin Eldənizin oğlu Məhəmməd Cahan Pəhlavanın (1175-1186) hakimiyyəti dövrünə ***aiddir:***

- ✓ Atabəylər dövləti daha da qüvvətləndi
- ✓ Paytaxtı Naxçıvandan Həmədan şəhərinə köçürdü (1175)
- ✓ Təbrizi Ağsunqurilər sülaləsinin əlindən aldı
- ✓ Bütün sahələrdə mühüm dövlət vəzifələrinə ən yaxın adamlarını təyin etdi
- ✓ Azərbaycanın idarəsini kiçik qardaşı Qızıl Arslana tapşırdı (Qızıl Arslanın iqamətgahı Təbriz idi)
- ✓ Təbriz yenidən Azərbaycanın iqtisadi və siyasi mərkəzinə çevrildi
- ✓ Müstəqilliyə can atan iri Səlcuq əmirlərinin müqavimətini qırdı
- ✓ Mərkəzi hakimiyyəti daha da qüvvətləndirdi

- ✓ Sonuncu İraq Səlcuq sultanı III Toğrulun (1176-1194) atabəyi oldu
- ✓ Nizami ordu yaratdı (onun da Eldəniz kimi 50 min nəfərlik daimi nizami süvari ordusu var idi)
- ✓ Azərbaycanın qərb torpaqlarını ələ keçirməyə çalışan gürcü feodallarını dəfələrlə məğlub etdi
- ✓ Abbasi xəlifələri Eldənizlər dövlətinin daxili işlərinə qarışa bilmədilər
- ✓ Ömrünün sonuna yaxın imperatorluğun vilayətlərini oğulları arasında bölüşdürdü.

**QEYD:** Paytaxtlarının köçürülməsi , 1175-ci ildə Eldənizlərin, 1192-ci ildə isə Şirvanşahların tarixində oxşar hadisə idi.




## Qızıl Arslanın hakimiyyəti (1186-1191)

Məhəmməd Cahan Pəhlavandan sonra hakimiyyətə Qızıl Arslan (1186-1191) gəldi. Qızıl Arslan hakimiyyətə gələrkən ona qarşı saray müxalifəti yarandı. Bu müxalifətin əsas məqsədi taxt-tacı ələ keçirmək idi. Qızıl Arslana qarşı müxalifət yaratmış qrupa aşağıdakılar daxil idi:

1. Formal olaraq sultan titulu daşıyan III Toğrul
2. Narazı Səlcuq əmirlərindən ibarət qrup
3. Məhəmməd Cahan Pəhləvanın arvadı İnanc Xatın
4. Məhəmməd Cahan Pəhləvanın oğlu Qutluq İnanc

Qızıl Arslan saray müxalifəti və Səlcuq əmirləri ilə münasibətləri sahmana salmaq üçün aşağıdakı tədbirləri gördü:

1. ***İnanc Xatınla evləndi***
2. ***Qutluq İnanc və Əmir Əmiran Ömərlə barışdı***

Lakin III Toğrulla Qızıl Arslan arasında münasibətlər bərpa olunmadı. III Toğrulla Qızıl Arslan arasında dəfələrlə qanlı döyüşlər oldu. **1191-cı ildə** III Toğrulla Qızıl Arslan arasında baş verən **Həmədan döyüşü** nəticəsində:

- Qızıl Arslan parlaq qələbə qazandı
- III Toğrulu oğlu Məlikşahla birlikdə əsir aldı

**1191-ci ildə** Qızıl Arslan Xəlifə ən-Nasirin razılığı ilə özünü ***sultan*** elan etdi. Qızıl Arslan özünü sultan elan etməsi ilə, hələ Eldənizin vaxtından İraq Səlcuq sultanlığını müstəqil idarə edən Azərbaycan atabəyləri sultan titulunu da ələ keçirdilər. Qızıl Arslanın hakimiyyəti dövründə:

- Feodal ara müharibələri zamanı fürsətdən istifadə edərək Eldənizlərin asılılığından çıxmış **Şirvanşahları, Rey, İsfahan, Fars və Xuzistan hakimlərini** yenidən mərkəzi hakimiyyətə tabe edildi

- Ölkənin iqtisadi və mədəni tərəqqisi üçün şərait yarandı
- Ölkədə siyasi sabitlik yarandı

Qızıl Arslanın daxili siyasəti nəticəsində yaranmış siyasi sabitlik uzun sürmədi. Mərkəzi hakimiyyətin qüvvətlənməsindən narazı olan ***iri feodallar*** və ***İnanc Xatın*** Qızıl Arslana sui-qəsd təşkil edərək onu öldürdülər (1191).

Qızıl Arslanın öldürülməsindən sonra Eldənizlər dövlətində ***mərkəzi hakimiyyəti ələ keçirmək uğrunda*** ara müharibələri başladı.

**Qızıl Arslana qarşı birləşmiş qüvvələr**

- **III Toğrul**
- **Səlcuq əmirləri**
- **İnanc Xatın**
- **Qutluq İnanc**

**Eldənizlər dövlətinə aid döyüşlər**

| | |
|---|---|
| **Həmədan ( 1191-cı il)** | Qızıl Arslan parlaq qələbə qazandı v' III Toğrulu oğlu Məlikşahla birlikdə əsir aldı |
| **Şəmkir və Beyləqan (1194-cü il)** | Gürcüstan və Şirvanşahların birləşmiş qoşunları Əbu Bəkri ağır məğlubiyyətə uğratdılar |

**Əbu Bəkrin hakimiyyəti (1191-1210)**

Məhəmməd Cahan Pəhləvanın oğlu Əbu Bəkrin (1191-1210) hakimiyyəti dövründə:

- ✓ Məhəmməd Cahan Pəhləvanın digər oğulları – Qutluc İnanc və Əmir Əmiranın idarə tdikləri **İsfahan, Rey vilayətləri** və **İraqın bir hissəsi** Eldənizlər dövlətindən ayrıldı
- ✓ Mərkəzi hakimiyyət uğrunda ara müharibələri Eldənizlər dövlətinin tənəzzülünü sürətləndirdi
- ✓ Ara müharibələrindən istifadə edən **Xarəzmşahlar, Əyyubilər, Abbasilər, Şirvanşah** və **gürcülər** fəallaşdı
- ✓ **1192-ci ildə** İraq Səlcuq sultanı III Toğrul həbsdən qaçaraq **İsfahan, Rey** və **Həmədanı** tutdu
- ✓ Qutluc İnanc Xarəzmşah Təkəşə sığınaraq **Xorasan, Rey** və **Həmədanı** ələ keçirdi
- ✓ Xarəzmşah Təkəşin **Xorasan, Rey** və **Həmədanı ələ keçirməsi** Qutluq İnancla toqquşmaya səbəb oldu
- ✓ **1194-cü ildə** III Toğrul, İnancla Xarəzmşah Təkəşin birləşmiş qüvvələri tərəfindən vuruşmada öldürüldü
- ✓ **1194-cü ildə** Şəmkir və Beyləqan vuruşması nəticəsində - ***Gürcüstan*** və ***Şirvanşahların birləşmiş qoşunları*** Eldənizləri ağır məğlubiyyətə uğratdılar
- ✓ **1196-cı ildə** Xarəzmşah Təkəş İnancı aradan götürsə də Əbu Bəkr Xarəzmşahların hərbi qüvvələri üzərində bir-sıra qələbələr qazandı
- ✓ Nə qədər səy göstərilsə də ölkədə feodal hərc-mərciliyin qarşısını almaq mümkün olmadı
- ✓ Gürcülər dəfələrlə hücum edərək Gəncə, Dəbil, Mərənd, Təbriz, Miyanə və.b şəhərləri taladılar







**Əbu Bəkrin dövründə Eldənizlər dövlətinin xarici təhlükəyə məruz qalması**

Əbu Bəkrin hakimiyyəti dövründə Eldənizlər dövləti xarici təhlükəyə məruz qaldı. Xarəzmşahların hücumundan bir qədər sonra Eldənizlər sarayındakı hərc-mərcilikdən ***Şirvanşahlar*** və ***gürcülər*** istifadə etdilər. Şirvanşah I Axsitan və gürcü çariçası Tamar Əbu Bəkrə qarşı mübarizədə onun qardaşı Əmir Əmiran Ömərə kömək etdilər. Tərəflər arasında **1194-cü ildə Şəmkir və Beyləqan vuruşması** baş verdi. Şəmkir və Beyləqan vuruşması nəticəsində - ***Gürcüstan və Şirvanşahların birləşmiş qoşunları Əbu Bəkri ağır məğlubiyyətə uğratdılar***. Bundan sonra Eldəniz şahzadəsi Əmir Əmiran Ömər və gürcülərin birləşmiş qüvvələri **Gəncəyə** hücum edərək ***hiylə ilə*** şəhəri ələ keçirdi. Gürcü qoşunları Gəncəni tərk etdikdən sonra gəncəlilər Əmir Əmiran Öməri öldürdülər. Şəhər yenidən Əbu Bəkrin əlinə keçdi. ***Gəncə hadisələrindən*** xəbər tutan gürcülər yenidən Azərbaycan sərhədlərini keçdilər. Bu zaman Əbu Bəkr dövlətin müdafiəsini başlı-başına buraxaraq Naxçıvana, oradan da Təbrizə getdi.

Gürcü qoşunları isə Tamarın başçılığı ilə Gəncəyə yaxınlaşaraq şəhəri mühasirəyə aldılar. I Axistan da Gəncə yaxınlığına Tamarın görüşünə gəldi. Lakin, gürcülərin Gəncəyə hücumu nəticə vermədi, 25 günlük mühasirədən sonra Gəncəni ala bilməyən gürcü qoşunları Dəbilə hücum etdi. **1203-cü ildə** Gürcü qoşunları **Dəbili** qarət etdi. Bu zaman ***Qərbi Azərbaycan torpaqlarının*** Gürcüstana qatılması təhlükəsi yarandı. Yaranmış ağır vəziyyətdə real hərbi-siyasi qüvvə olan Şirvanşahlar dövləti Azərbaycanın qərb torpaqlarının müdafiəsinə qalxmadılar. Lakin ***xalq intiqamçıları, könüllü dəstələr vətənin müdafiəsinə qalxaraq gürcüləri Azərbaycan sərhədlərindən qovdu və Azərbaycanın qərb torpaqlarının Gürcüstana qatılması təhlükəsinin qarşısı alındı***.

Şirvanşahlar dövləti Azərbaycanın qərb torpaqlarının müdafiəsinə qalxmamasından istifadə edən gürcü qoşunları **1210-1211-ci illərdə** Azərbaycan torpaqalarına daha dağıdıcı basqın edərək Naxçıvanı mühasirəyə aldılar. Lakin şəhəri ələ keçirə bilmədilər. Naxçıvandan sonra **Təbriz istiqamətində** hücumu davam etdirən gürcü qoşunları **Mərəndi** talan edərək Təbrizi mühasirəyə aldılar. Təbriz hakimi **Zahidə Xatın** (Məhəmməd Cahan Pəhləvanın arvadı) ***çoxlu pul, daş-qaş və sənətkarlıq məhsulları verməklə Təbrizi gürcülərin təcavüzündən qurtardı***. Lakin şəhərətrafı yerlər tamailə qarət olundu. Təbrizlilərin bütün mal-qarası sürülüb aparıldı. **Miyanə şəhəri** də xərac verərək gürcülərin talandan xilas oldu. Lakin gürcü qoşunları geri çəkilərkən miyanəlilər üsyan qaldıraraq şəhərdə saxlanılan gürcü qarnizonunu qırdılar. Buna cavab olaraq yenidən şəhərə hücum edən gürcü cəza dəstələri şəhər hakimini

ailəsi ilə birlikdə qılıncdan keçirdilər, sonra isə şəhəri qarət edib yandırdılar. Gürcülər **Zəncan, Qəzvin, Abxar** əhalisinə də eyni cür divan tutdular.

Təbrizdən **Ərdəbil istiqamətində** hücum edən digər gürcü hərbi qüvvələri **Uşan** və **Ərdəbil şəhərini** qarət etdilər. Ərdəbilin bütün varidatı demək olar ki, karvanlarla aparıldı, 12 min ərdəbilli qılıncdan keçrildi. Beləliklə, gürcülərin Azərbaycana yürüşləri nəticəsində xalqa amansız divan tutdular, onlar Azərbaycanın sərvətini talayıb apardılar.

**Əbu Bəkrin dövründə Eldənizlərə qarşı mübarizə aparan dövlətlər**




### Özbəyin hakimiyyəti (1210-1225)

Sonuncu Atabəy hökmdarı Özbəy (1210-1225) hakimiyyəti dövründə:

- ✓ Feodal qurupları arasında oyuncağa çevrildi
- ✓ Dövlət işləri onun iştirakı olmadan həll olunmağa başlandı
- ✓ İraqi-Əcəmə müvəffəqiyyətsiz yürüş təşkil etdi
- ✓ Ölkədə daxili çəkişmələri daha da artdı
- ✓ Azərbaycan gürcü və monqolların hücumuna məruz qaldı
- ✓ Eldənizlər dövlətinin süqutu daha da sürətləndi

## XII əsr - XII əsrlərin əvvəllərində Azərbaycanın iqtisadi vəziyyəti

### İqtisadi yüksəliş

Xilafətin dağılmasından sonra, IX-XI əsrlərdə Azərbaycanda məsuldar qüvvələrin inkişafına aşağıdakı amillər mane olurdu:

- ***Ölkənin bütün ərazisini əhatə edən qüdrətli dövlətin yaranmaması***
- ***Vahid pul, ölçü, çəki sisteminin olmaması***

**XI əsrin ortalarından başlayaraq** Azərbaycan torpaqlarının Səlcuq imperatorluğunun tərkibinə qatılması ***Azərbaycanın Yaxın və Orta Şərq ölkələri, türk dünyası ölkələri ilə ənənəvi ticarət münasibətlərinin yenidən canlanmasına, qarşılıqlı əlaqələrin genişlənməsinə və təsərrüfat həyatının inkişafına*** səbəb oldu. Eldənizlər dövründə ***vahid pul sisteminin yaradılması*** Azərbaycanda daxilin və xarici ticarətin genişlənməsinə müsbət təsir göstərdi.

**XII əsrdə** aşağıdakı amillər Azərbaycanda məsuldar qüvvələrin inkişafını daha da sürətləndirdi:

- ***Qüdrətli Azərbaycan Eldənizlər dövlətinin yaranması***
- ***Şirvanşahlar dövlətinin qüvvətlənməsi***

Eldənizlər dövlətinin yaranması və Şirvanşahlar dövlətinin qüvvətlənməsi ***nəticəsində:***
- Kənd təsərrüfatı və sənətkarlıq inkişaf etdi
- Ticarəin tərəqqisinə və genişlənməsinə müsbət təsir göstərdi
- Ölkə ictimai-iqtisadi yüksəliş keçirdi
- Azərbaycan intibah mədəniyyətinin formalaşması üçün əlverişli zəmin yarandı
- Azərbaycan şəhərlərinin ölkənin daxili iqtisadi əlaqələrində və beynəlxalq ticarətdə rolu artdı
- Azərbaycan şəhərləri inkişaf etməyə başladı

## XI-XII əsrlərdə Azərbaycan şəhərləri, sənətkarlıq və ticarət

XI əsrin ortalarından başlayaraq Azərbaycanın iqtisadi həyatında **Gəncə, Naxçıvan, Beyləqan, Təbriz** və **Şamaxı** kimi şəhərlərin rolu daha da artdı. **Gəncə şəhərinə *aiddir:***
- İlk dəfə **Şəddadilər dövlətinin** paytaxtı olmuşdur
- Eldənizlər dövründə ölkənin ən böyük şəhərlərindən biri idi, 500 min nəfərə qədər əhalisi var idi
- İslam dünyasının ***xristian sərhəddi yaxınlığında yerləşməsi*** şəhərin sürətlə böyüməsinə səbəb olmuşdu
- Erməni və gürcü feodallarının basqınlarını dəf etmək üçün şəhərin çox mühüm əhəmiyyəti var idi
- Azərbaycan hökmdarları və Səlcuq hakimləri şəhərin möhkəmləndirilməsinə xüsusi fikir verirdilər
- **Cənubi Qafqazda** mühüm ***silah istehsalı mərkəzi*** idi
- Azərbaycanın ***ən böyük ipəkçilik*** və ***dulusçuluq*** mərkəzlərindən biri idi
- Buradan bir çox ölkələrə **ipək** və **pambıq parça, xəz, keçə** və.b sənətkarlıq məhsulları ixrac olunurdu
- Şəhər yaxınlığında ***dəmir və mis mədənlərinin olması*** sənət sahələrinin inkişafına müsbət təsir göstərirmişdi
- Əhalisinin əsas hissəsini ***sənətkar*** və ***tacirlər*** təşkil edirdi
- **1139-cu ildə** baş vermiş zəlzələ nəticəsində tamamilə dağılmışdı

**QEYD:** Gəncədə zəlzələ baş verən zaman bundan fürsət kimi istifadə edən gürcü çarı **Demetri** Gəncəyə hücum edərək Gəncə xəzinələrini qarət etdi, əhalini qılıncdan keçirdi. Lakin səlcuq canişini **Qara Sunqur** sayəsində gürcülər Azərbaycandan qovuldu və şəhər bərpa olundu.

XI əsrin ortalarından etibarən Gəncənin inkişafına aşağıdakı amillər müsbət təsir göstərmişdi:
- ***Azərbaycan Şəddadilər dövlətinin paytaxtı olması***
- ***Bərdənin süqutundan sonra Arranın baş şəhərinə çevirilməsi***
- ***Səlcuq canişinliyinin mərkəzinə çevirilməsi***
- ***Eldənizlər dövlətinin paytaxtlarından biri olması***

**Naxçıvan şəhərinə *aiddir:***
- Eldənizin dövründə Atabəylər dövlətinin ilk paytaxtı olmuşdur
- Sənətkarlıq və ticarət mərkəzi idi
- Əlincə qalası onun təhlükəsizliyini daha da artırırdı

**Beyləqan şəhərinə *aiddir:***
- Eldənizlərin hakimiyyəti dövründə öz təqəqqinin zirvəsinə çatdı
- Əhalisi təxminən 40 min nəfərə qədər çatırdı
- Eldənizlər dövlətinin ***zərbxanalarından biri*** burada yerləşirdi
- Gəncədən Azərbaycanın cənubuna gedən beyn’lxalq karvan yollarının üstündə yerləşirdi

**Təbriz şəhərinə *aiddir:***
- Eldənizlərin hakimiyyəti dövründə daha da böyüdü

- Paytaxt şəhəri idi, ilk dəfə **Rəvvadilər dövlətinin** mərkəzi olmuşdu
- Dərbənddən İran körfəzi sahillərinə və Şərqdən Avropaya beynəlxalq karvan yolları burdan keçirdi
- Avropa və Asiya arasında çox mühüm beynəlxalq ticarət mərkəzi idi
- Orta əsr şəhərləri üçün bütün səciyyəvi xüsusiyyətləri özündə cəmləşdirmişdir
- Ustalarının hazırladığı ***xalça, ipək parçalar*** və ***hazır paltarlar*** dünya bazarlarına çıxarılırdı
- Bütün Şərqdə mühüm elm və mədəniyyət mərkəzi idi
- Eldənizlər dövlətinin əsas ***zərbxanalarından biri*** burada yerləşirdi
- Ərəb səyyahı Yaqut əl-Həməvinin qeyd etdiyi kimi ***"Azərbaycanın ən məşhur şəhəri idi"***

**Şamaxı şəhərinə *aiddir:***
- Yaxın və Orta Şərqin ən böyük sənətkarlıq və ticarət mərkəzlərindən birinə çevrilməkdə idi
- **Şirvanşahlar dövlətinin** ikinci paytaxtı olmuşdur
- Dərbənddən Gəncəyə, Bərdəyə və Cəbuni Azərbaycana gedən karvan yollarının üzərində yerləşirdi
- Şəhərdə 100 min nəfərə yaxın adam yaşayırdı
- Məşhur ***ipəkçilik*** və ***xalçaçılıq*** mərkəzlərindən biri idi, xam ipəyi ***Şimali İtaliya*** və ***Fransaya*** ixrac olunurdu
- Volqaboyunu və Şərqi Avropanı İran körfəzi ilə əlaqələndirən beynəlxalq karvan yolunun üzərində yerləşirdi

**Dərbənd şəhərinə *aiddir:***
- Mühüm liman şəhəri, Xəzər dənizi ölkələri üçün Azərbaycanın başlıca dəniz darvazası idi
- Azərbaycanın əsas ***kətan*** və ***pambıq parça***, həmçinin hazır paltar istehsalı mərkəzi olaraq qalırdı
- Beynəlxalq ticarətdə mühüm rol oynayırdı (şəhərin ixracatında ***zəfəran*** mühüm yer tuturdu)
- Şərqi Avropanı və Volqaboyunu ölkələrinin tacirləri bu şəhər vasitəsilə Azərbaycanla ticarət əlaqələri saxlayır və buradan keçib Şərq ölkələrinə gedirdilər

**Bakı şəhərinə *aiddir:***
- Dərbənddən sonra ***ikinci mühüm liman şəhəri*** idi
- Daxili və xarici ixracatda ***neft ixracatı*** daha da genişlənmişdir
- Azərbaycanın mühüm ***duz istehslı*** mərkəzlərindən biri idi
- Sənətkarlıq və ticarət mərkəzinə çevrilmişdi
- Şirvanşahlar dövlətinin siyasi mərkəzinə çevrilməsi əhəmiyyətini daha da artırmışdır
- ***Ağ nefti ilə*** şöhrət qazanmışdı (ağ neftdən evlərin işıqlandırılmasında və hərb sənətində istifadə olunurdu)

**Eldənizlər dövlətinin paytaxtları**



**XI əsrin ortalarından başlayaraq Azərbaycanın iqtisadi həyatında mühüm rol oynayan şəhərlər:**

- **Naxçıvan**
- **Gəncə**
- **Beyləqan**
- **Şamaxı**
- **Təbriz**

## Azərbaycan İntibah mədəniyyəti (XI-XII əsrlər)

### İntibah mədəniyyətinin yaranması

**XI əsrin ortalarından başlayaraq** Azərbaycan mədəniyyətinin tərəqqisi baş verdi. Buna görə də **XI-XII əsrlər *Azərbaycan İntibah mədəniyyəti dövrü*** adlanır. Bəhs edilən dövrdə Azərbaycan müsəlman intibah – mədəni oyanışın mərkəzlərindən biri idi. XI əsrin ortalarından başlayaraq Azərbaycanda maddi və mənəvi mədəniyyətin oyanışına əlverişli şərait yaratmış amillər aşağıdakılar idi:

1. ***Ərəb xilafətinin tənəzzülü nəticəsində Azərbaycanda qədim dövlət ənənələrinin dirçəlməsi***
2. ***Siyasi müstəqilliklə başlayan mədəni oyanışın baş verməsi***

Ərəb xilafətinin tənəzzülü nəticəsində Azərbaycanda qədim dövlət ənənələrinin dirçəlməsi və siyasi müstəqilliklə başlayan mədəni oyanış ***nəticəsində:***

- Azərbaycan ərazisində etnik siyasi birlik qüvvətləndi
- Vahid dilin və mədəniyyətinin formalaşaması sürətləndi
- Azərbaycan xristian blokuna qarşı mübarizənin başlıca istehkamına çevrildi

**IX əsrdə Azərbaycanda maddi və mənəvi mədəniyyətin oyanışına şərait yaratmış amillər**

- Azərbaycanda qədim dövlətçilik ənənələrinin dirçəlməsi
- Siyasi müstəqilliklə başlayan mədəni oyanışın baş verməsi

### İntibah mədəniyyətinin görkəmli nümayəndələri

Azərbaycanda elmin inkişafına ***Xilafətin süqutu nəticəsində başlanan siyasi oyanış*** təkan verdi. Bu dövrdə Azərbaycan elmi ***vahid İslam mədəniyyətinin tərkib hissəsi kimi*** inkişaf edirdi. XI-XII əsrlərə aid ***arxeloji qazıntılar zamanı aşkar olunmuş maddi-mədəniyyət nümunələri*** Azərbaycanda müxtəlif elmlərə marağın artmasını sübut edir. Bəhs edilən dövrdə Azərbaycanda ayrı-ayrı elm sahələrinə marağın artması aşağıdakı amillərlə əlaqədar idi:

- ***Daxili iqtidasi əlaqələr və beynəlxalq karvan ticarətinin genişlənməsi***
- ***Azərbaycan şəhərlərində müxtəlif sənətkarlıq sahələrinin inkişafı***

Azərbaycanda İntibah dövrünün  görkəmli elm xadimlərindən aşağıdakıları qeyd etmək olar:

- **Bəhmənyar Mərzban oğlu** – dövrün görkəmli ***filosofu*** və **İbn Sinanın** tələbəsi olmuşdu. Əsərləri bir-çox qərb və şərq dillərinə tərcümə edilmişdir. Dünya fəlsəfi fikrin inkişafında da mühüm rol oynamışdır.
- **Xətib Təbrizi -** Bağdadda ***Nizamiyyə mədrəsəsində 40 il dərs demiş***, ***fəlsəfə, dil, ədəbiyyat, məntiq*** elmlərinə dair qiymətli əsərlər yaratmış, bütün İslam dünyasında ədəbiyyatşünaslıq və dilçilik sahəsində ensiklopedik biliyə malik ən görkəmli alimlərdən biri səviyyəsinə yüksəlmişdir.
- **Ömər Gəncəyi** –filosof-şair, dilçi və ədəbiyyatşünas alim idi. Bağdadın ***Nizamiyyə mədrəsəsində*** təhsil almışdı
- **Eynəlqüzzat Miyanəçi** - XII əsrin görkəmli ***filosofu*** idi. Çox qiymətli fəlsəfi əsərlər yaratmışdır.
- **Fazil Şirvani** – dövrünün görkəmli ***astronomu*** idi, bütün ömrünü səma cisimlərinin öyrənilməsinə sərf etmiş, ***astronmiyaya*** dair bir sıra qiymətli cədvəllər hazırlamışdı




## XI-XII əsrlərdə Azərbaycan memarlığı

XI-XII əsrlərdə memarlıq sahəsində də intibah baş verdi. Azərbaycan memarlığına ***İslam dini*** yeni üslub gətirdi – iri şəhərlərdə gözəl ***imarətlər, məscidlər, minarələr, türbələr, qalalar, bürclər*** ucaldıldı. Bu işdə dövrün ən mahir sənətkarları cəlb edilirdilər. **XI əsrdə** inşa olunan ***Azərbaycanın intibah mədəniyyətinə aid*** tarixi abidələri bunlardır:

- **Xudafərin körpüsü (1027)**
- **Gəncə qala qapıları (1063)**

**XII əsrdə** inşa olunan ***Azərbaycanın intibah mədəniyyətinin memarlıq*** abidələri bunlardır:

- **Qız Qalası (Bakı)**
- **Mərdəkan qalası (Bakı)**
- **Gülüstan qalası (Şamaxı yaxınlığında)**
- **Buğurd qalası (Şamaxı yaxınlığında, Ağsu çayı sahilində)**

Qeyd edilən memarlıq abidələri ***müdafiə tikililəri (qalaları)*** idi.

XI-XII əsrlərdə Azərbaycanda ***şəhərsalma mədəniyyəti*** özünün yüksəliş dövrünü yaşayırdı. Bu dövrdə Azərbaycanın böyük yaşayış mərkəzləri, iri kəndlər yeraltı ***saxsı tünglər (borular)*** vasitəsilə su ilə təchiz olunurdu.

### Əcəmi Əbubəkr oğlunun inşa etdiyi memarlıq abidələri

XII əsrdə yaşamış İntibah dövrü Azərbaycan memarlığının ən görkəmli nümayəndələrindən biri memar **Əcəmi Əbubəkr oğlu** və **Məsud Davud oğlu** idi. Əcəmi Əbubəkr Eldənizlər dövlətinin paytaxtı olan ***Naxçıvan şəhərində*** aşağıdakı nadir memarlıq abidələrini tikmişdir:

- **Yusif İbn Küseyr türbəsi (1162)**
- **Möminə xatun türbəsi (1186)**
- **Qoşaminarə (1187)**
- **Cümə Məscidi (XII əsr)**
- **Darülmülk -Eldənizlər sarayı (XII əsr)**

Əcəmi Əbubəkr ***"mühəndislər şeyxi"*** ləqəbini daşımağa layiq görülmüş, özündən sonra ***Naxçıvan memarlıq məktəbinin*** əsasını qoymuşdur. Əcəminin memarlıq sənəti ***Şərq memarlığına*** güclü təsir göstərmişdir. Naxçıvan memarlıq məktəbinin təsiri ilə Urmiyada – ***Üçgünbəz***, Marağada – ***Göygünbəz*** və.b abidələr yaradılmışdı.

### Qız Qalası. Məsud Davud oğlu

XI-XII əsrlərdə Azərbaycan ərazisində inşa edilmiş müdafiə xarakterli memarlıq abidələri içərisində xüsusi fərqlənən **Qız qalası** özünəməxsus xüsusiyyətlərə malik idi:

- Qala müdafiə xarakterli memarlıq abidəsidir
- XII əsrdə **Məsud Davud oğlu** tərəfindən tikilmişdir
- 28 metrdən ibarət 8 mərtəbə hündürlüyündədir
- divarları aşağı mərtəbələrdə 5, yuxarı mərtəbələrdə 4 metr qalınlığındadır
- Eyni zamanda 200-300 döyüşçü qalada uzun zaman müdafiə oluna bilərdi

Orta əsrlərdə Bakıdan əlavə, Azərbaycanın başqa yerlərində - **Şamaxı, İsmayıllı, Qəbələ, Şəki, Qazax, Naxçıvan, Qarabağ** və.b bölgələrdə, habelə bütün **Qafqaz, Qara dəniz sahilləri, Mərkəzi Asiya, İran, Şərqi Anadoluda** qız qalaları **(Quz dənizi)** ucaldılmışdı. Bir zamanlar Xəzər dənizinin özü də ***quzların (oğuzların)*** adı ilə **Quz dənizi** adlanmışdır.

### İncəsənət. Bədii sənətkarlığın inkişafı.

Memarlığın tərəqqisi incəsənətin bilavasitə onunla bağlı olan bir çox sahələrinin inkişafına güclü təkan verdi. Bizə məlum olan İntibah incəsənətin ən gözəl nümunələri bunlardı:

- ***Daş üzərində yaradılmış oyma naxışlar***
- ***Milli bəzək nümunələri***
- ***Kitabələr və qəbir daşları***
- ***Metal məmulatları***

Azərbaycan ustaları nadir metal məmulatları hazırlamaqda da mahir idi. Belə sənət incilərindən biri qədim Gəncənin qala qapıları (darvazası) idi. **Gəncənin qala qapılarına *aiddir:***

- XI əsrə aid olub, İntibah memarlığının ən möhtəşəm abidələrindən biridir
- Şəddadi hökmdarı **Əbuləsvar Şavurun (1049-1067)** göstərişi ilə düzəldilmişdir
- **1063-cü ildə** məşhur usta **İbrahim Osman oğlu** tərəfindən hazırlanmışdır
- **1139-cu il** Gəncə zəlzələsi zamanı ***gürcülər*** tərəfindən qənimət kimi Gürcüstana aparılmışdır

İntibah dövründə Azərbaycanda bədii sənətkarlığın bir çox sahələri yüksək inkişaf etmişdir. Bu dövrdə ***xalçaçılıq*** geniş yayılmış və ən tərəqqi etmiş sənətkarlıq sahəsi idi.

### Azərbaycan İntibah mədəniyyəti dövrünün ən mühüm nailiyyətləri

Azərbaycan İntibah mədəniyyəti dövrünün ən mühüm nailiyyətləri aşağıdakılar idi:

1. **Azərbaycan türk dili bütün ölkə ərazisində vahid ünsiyyət və ədəbi dilinə çevirildi. Sadə və anlaşıqlı türk dili xırda məhəlli dilləri, həmçinin ərəb və fars dillərini sıxışdıraraq ümumxalq dilinə çevrildi.**
2. **Vahid xalqın yaranması prosesini başa çatdı. Vahid xalqın yaranmasında türk tayfaları mühüm rol oynadılar. Çünki başqa xalqlar və etmnik qruplardan fərqli olaraq, türk tayfaları ölkənin bütün ərazisinə yayılmışdılar və çoxluq təşkil edirdilər.**

**Vahid Azərbaycan türk xalqının formalaşmasına müsbət təsir göstərmiş amillər**



| | | | |
|---|---|---|---|
| Eldəniz Arran hakimi təyin olunması | **1136** | **1186** | Möminə xatun türbəsinin inşa edilməsi |
| Gəncə zəlzələsi. Gəncə qala qapılarının gürcülər tərəfindən aparılması | **1139** | **1186** | Atabəy Qızıl Arslanın hakimiyyətə gəlməsi |
| Eldənizin “Böyük atabəy” titulu alması. Arslan şahın sultanı elan edilməsi | **1160** | **1187** | Qoşaminarə abidəsinin inşa edilməsi |
| Gürcü feodallarının Dəbil şəhərinə hücum etməsi | **1161** | **1190** | Həmədan döyüşündə Qızıl Arslanın III Toğrulu məğlub etməsi |
| Yusif İbn Küseyr türbəsinin inşa edilməsi | **1162** | **1191** | Qızıl Arslanın özünü sultan elan etməsi. Atabəylərin sultan titulunu ələ keçirməsi |
| Şirvanşahın hərbi qüvvələrinin Gürcüstana, çar III Georgiyə kömək etməsi | **1173** | **1191** | Atabəy Əbu Bəkrin hakimiyyətə gəlməsi |
| Azərbaycana slavyan və qıpçaqların yürüşü | **1175** | **1194** | Şəmkir və Beyləqan vuruşmasında Əbu Bəkrin məğlubiyyətə uğraması |
| Atabəy Məhəmməd Cahan Pəhlavanın hakimiyyətə gəlməsi | **1175** | **1203** | Gürcü qoşunlarının Dəbili qarət etməsi |
| Məhəmməd Cahan Pəhlavanın paytaxtı Naxçıvandan Həmədana köçürməsi | **1175** | **1210-1211** | Gürcü qoşunlarının Azərbaycan torpaqalarına dağıdıcı basqın etməsi |

# IX BÖLMƏ

## AZƏRBAYCAN MONQOLLARIN HAKİMİYYƏTİ DÖVRÜNDƏ (XIII-XIV ƏSRLƏR)

### Monqolların Azərbaycana birinci yürüşü (1220-1222)

**Monqol yürüşləri ərəfəsində Azərbaycanda vəziyyət**

XIII əsrin əvvəllərində ***Mərkəzi Asiyanın şərqində*** yaranan **Monqol dövləti** qonşu ölkələr üçün ciddi təhlükə yaratdı. **Çingiz xanın (1207-1227)** yaratdığı Monqol feodal dövləti qonşu vilayətləri işğal etməyə başladı. Azərbaycanın şərq sərhədlərində mövcud olan **Xarəzmşahlar dövləti** bu zaman ***iqtisadi və hərbi qüdrətini itirdiyi üçün*** monqollarla mübarizə aparmaq iqtidarında deyildi.

**XIII əsrin əvvəllərində** monqol yürüşləri ərəfəsində Azərbaycanda vəziyyət aşağıdakı kimi idi:

- Daxili və xarici vəziyyət gərgin idi, feodal pərakəndəliyi hököm sürürdü
- Monqollara ciddi müqavimət göstərəcək qüvvə və vahid mərkəzi dövlət yox idi
- Azərbaycan dövlətlərindən heç biri təhlükədən qorumağa qadir deyildi
- Eldənizlər dövləti əvvəlki qüdrətini itirmişdi

**QEYD:** Eldənizlər dövlətinin sonuncu hökmdarı Özbək feodal qurupları arasında oyuncağa çevrilmiş, dövlət işləri onun iştirakı olmadan həll olunurdu. Onun **İraqi-Əcəmə** etdiyi müvəffəqiyyətsiz yürüşü ölkədə daxili çəkişmələri daha da artırmışdır.

**Monqol yürüşləri ərəfəsində Azərbaycanda mövcud olan dövlətlər**

- Şirvanşahlar dövləti
- Eldənizlər dövləti
- Ağsunqurilər sülaləsi

**Monqolların Azərbaycana birinci yürüşünün başlanması. Təbrizin müdafiəsi**

Monqol sərkərdələri **Cəba** və **Sabutay** Təbrizə hücum etməmişdən əvvəl **Zəncan, Ərdəbil** və **Sərab** şəhərlərini tutaraq dağıtdılar. Təbriz şəhəri ***möhkəm qala divarları ilə əhatə olunduğundan*** monqollar danışıqlar apardılar. Bu zaman Eldəniz hökmdarı Özbək, ***Təbrizin müdafiəsinə arxayın olmadığı üçün*** monqollarla sazişə girərək Cəba ilə Sabutayın yanına elçilər və xərac göndərdi. Beləliklə, Azərbaycana monqolların birinci yürüşü zamanı **1220-ci ildə *Təbriz şəhəri xərac verərək talan və qarətdən xilas oldu.***

Monqollar Təbrizdən xərac aldıqdan sonra qışlamaq üçün **Muğana** getdilər və buradan **Gürcüstan** istiqamətində hücum etdilər. Monqolların Muğandan Gürcüstan istiqamətinə hücuma keçməsinin səbəbi - ***gürcü çarı IV Georgi ilə Atabəy Özbəyin monqollara qarşı hərbi ittifaq bağlandığ barədə məlumat alması*** idi. Bu hücum nəticəsində ***gürcü çarı məğlubiyyətə uğradıldı.***

**1221-ci ilin əvvəllərində** Cəba və Sabutayın dəstələri Gürcüstandan yenidən Azərbaycana qayıtdılar və ***ikinci dəfə*** Təbrizə hücum etdilər. Bu zaman Təbriz hakimi olan ***Şəmsəddin Tuğyari monqollara xərac verərək (pul, geyim, mal qara və.s) şəhəri***

***ikinci dəfə qarətdən xilas etdi***. Monqollar Təbrizdən xərac aldıqdan sonra **Marağaya** hücum etdilər. Əhali monqollara ciddi müqavimət göstərdi. Lakin, monqolların Marağaya hücumu nəticəsində:

- ***Marağa şəhəri tutularaq qarət olundu***
- ***Şəhər əhalisinə qanlı divan tutuldu***

Mənbələrin məlumatına görə monqollar Marağada əsirlərə məcbur edirdilər ki, onlar şəhərə ***"monqollar çıxıb getmişlər"*** sözləri ilə car çəksinlər. Bu amil Marağa şəhərinin işğal edilməsində mühüm rol oynadı. Nəticədə çoxları aldanaraq, gizləndikləri yerlərdən çıxmış və qətlə yetirilirmişlər. Monqollar Marağadan sonra **Ərdəbili** işğal etdilər.

Monqollar Ərdəbildən bir daha – ***üçüncü dəfə*** Təbriz üzərinə hücum etdilər. Bu zaman:

- ***Atabəy Özbək Təbrizin müdafiəsini buraxaraq Naxçıvana qaçdı***
- ***Şəhər hakimi Şəmsəddin Tuğyari əhalini monqollara qarşı mübarizəyə çağırdı***
- ***Şəmsəddin Tuğyarinin başçılığı ilə əhali Təbrizin müdafiəsinə qalxdılar***
- ***Təbriz hər tərəfdən möhkəmləndirildi və qala divarları təmir olundu***

Cəba və Sabutay ***Təbrizin ciddi mübarizəyə hazır olduğunu gördüyü üçün*** açıq döyüşə girməkdən çəkindilər və şəhərdən ***üçüncü dəfə xərac almaqla*** kifayətləndilər. Beləliklə***, Təbriz şəhəri monqolların birinci yürüşü zamanı üç dəfə xərac verərək dağıntıdan xilas oldu.***

Bundan sonra Cəba və Sabutay **Sərab** şəhərini zət edib **Beyləqan şəhərini** işğal etdilər. Az sonra monqollar **Gəncəyə** tərəf irəlilədilər. Gəncəlilərin ***şəhərin müdafiəsinə əvvəlcədən hazırlaşdığını bildiyi üçün*** monqol sərkərdələri şəhərdən xərac almaqla kifayətləndilər və buradan ikinci dəfə Gürcüstana hücum etdilər. Beləliklə, Azərbaycana birinci yürüşü zamanı monqolların ***Gəncəyə*** hücumu nəticəsində ***şəhər xərac verərək talan və dağıntıdan xilas oldu***. Azərbaycana birinci yürüşü zamanı monqolların ***Gəncə və Təbriz*** şəhərlərini işğal edə ***bilməməsinin*** əsas səbəbi bunlar idi:

- ***Hər iki şəhərin müdafiəsinin yaxşı təşkil olunması***
- ***Hər iki şəhərin mübarizəyə hazır olması***

### Monqolların Şirvana hücumu

Monqol qoşunları Gürcüstandan qayıdıb **1222-ci ildə Şirvana** hücum etdilər. Monqollar Şirvana hücum edərkən:

- Bu zaman hakimiyyətdə olan Şirvanşah **Güştaps (1203-1225)** qalaların birinə çəkildi
- **Şamaxı** əhalisi isə düşmənə üç gün qəti müqavimət göstərdi

Monqolların Şamaxıya hücumu haqqında geniş məlumat vermiş ərəb tarixçisi **İbn əl-Əsir** Şamaxı şəhərinin əhalisi haqqında yazır ki, əhali ***"qılınca sarılmaq lazımdır, bizə ölümdən qurtuluş yoxdur, döyüşmək və ölmək hər şeydən yaxşıdır"*** deyərək düşmənə qəhrəmancasına müqavimət göstərdi. Lakin sayca üstün olan monqolllar Şamaxını işğal etdildilər. Azərbaycanın ***Beyləqan*** və ***Şamaxı şəhərləri*** düşmənə daha ciddi müqavimət göstərdikləri üçün amansız qırğın və talana məruz qalmdılar.

### Monqolların Azərbaycanı tərk etməsi

Monqollar **1222-ci ildə** Şamaxıdan şimala tərəf üz tutaraq ***Dərbənd keçidindən keçməklə*** ölkələrinə getməyi qərara aldılar. Lakin Dərbənd keçidindən keçməyin çətinliyini bilən Cəba və Sabutay ***hiylə yolu ilə keçmək məqsədi ilə*** danışıq aparmaq üçün **Şirvanşaha** xəbər göndərdilər. Şirvanşah təklifi qəbul etdi və 10 nəfərlik elçi heyəti göndərdi. Monqol sərkərdələri elçilərdən birini öldürərək digərlərini məcbur etdilər ki, onları gizli yolla Dərbənddən şimala keçirsinlər. Beləliklə monqol qoşunları Azərbaycanı tərk etdilər. Monqollar **1223-cü ildə Kalka çayı** sahilində döyüşdə ***rus-qıpçaq qoşunlarına*** qalib gəldilər. Lakin **İdilboyunda** ***bulqarlarla*** döyüşdə məğlub olub Monqolustana qayıtdılar.

Ayrı-ayrı ölkələrin, həmçinin Azərbaycanın monqolar tərəfindən işğal edilməsini aşağıdakı ***amillər*** asanlaşdırmışdı:

- ***Monqolların təşkilati cəhətdən möhkəm ordusunun olması***
- ***Monqolların  hücum etdiyi ölkələrdə feodal pərakəndəliyinin mövcud olması***

Monqolların Azərbaycana birinci yürüşü nəticəsində:

- ***Ölkənin iqtisadi, mədəni-ictimai sahələrinə ağır zərbə vuruldu***
- ***Feodal pərakəndəliyi dahada gücləndi***




**Monqolların birinci yürüşü zamanı ələ keçirə bilmədiyi Azərbaycan şəhərləri**




## Azərbaycanda Xarəzimşah Cəlaləddinin hakimiyyəti (1225-1231)

### Xarəzimşah Cəlaləddinin Azərbaycana yürüşü

Monqollar ölkəni tərk etdikdən sonra **1225-ci ildə** Xarəzimşah Cəlaləddin Azərbaycana yürüş etdi. Monqollar Mərkəzi Asiyanı işğal etdikdən sonra hakimiyyətdən məhrum olmuş və torpaqlarını itirmiş Xarəzimşah Cəlaləddin qonşu ölkələri, həmçinin **İran** və **Azərbaycanı** zəbt etmək qərarına gəldi. Xarəzimşah Cəlaləddinin öz torpaqlarını müdafiə etmək əvəzinə İran və Azərbaycanı işğal etmək qərarına gəlməsinin səbəbi aşağıdakılar idi:

- ***Həmin ərazilərdə feodal dağınıqlığının hökm sürməsi***
- ***Həmin ərazilərdə müqavimət göstərə biləcək vahid qüvvənin olmaması***

Cəlaləddin Azərbaycana hücum etməmişdən əvvəl, ilk növbədə **İran İraqında (İraqi-Əcəmdə) Fars və Kirman vilayətlərini** işğal edərək burada hakimiyyəti ələ keçirdi.

Xarəzimşah Cəlaləddin Azərbaycana monqollar kimi cənubdan hücum etdi və **Marağanı** tutdu. Xarəzimşah Cəlaləddin ***Marağada əhalini öz tərəfinə çəkmək məqsədi ilə*** şəhərdə bərpa işləri apardı. Bundan sonra o, Marağadan **Təbrizə** doğru yönəldi. Xarəzimşah Cəlaləddin Təbrizə hücum edərkən:

- ***Atabəy Özbək ailəsini şəhərdə qoyub Gəncəyə, oradan isə Əlincə qalasına qaçdı və burada öldü (bununla da Eldənizlər dövləti süqut etdi)***
- ***Təbriz hakimi Şəmsəddin Tuğyarinin qardaşı* Nizaməddinin *başçılığı ilə ordu hissələri və şəhər əhalisi Xarəzimşah Cəlaləddinə qarşı mübarizəyə qalxdı***

Təbrizlilər 7 gün vuruşsalar da, ***şəhər əyanları və Atabəylər sülaləsinin üzvləri arasında birlik olmaması*** Xarəzimşah Cəlaləddinə qarşı müqavimət mütəşəkkil təşkil edilmədi. Bu amil Təbrizin müdafiəsinin müvəffəqiyyətsizliyə uğramasına səbəb oldu. Beləliklə, Xarəzimşah Cəlaləddinin Təbriz şəhərinə hücumu nəticəsində:

- **1225-ci il iyulun 25-də** Təbriz müdafiəçilərinin müqaviməti qırıldı və şəhər tutuldu
- Xarəzimşah Cəlaləddin **Nizaməddin Tuğyarini** Təbriz hakimi (rəisi) təyin etdi

Cəlaləddinin sərkərdəsi **Urxan** isə **Gəncə, Beyləqan** və **Şəmkir** şəhərlərini və ölkənin digər ərazilərini tutdu.

## Xarəzimşah Cəlaləddinin Azərbaycana yürüşünün nəticələri

Xarəzimşah Cəlaləddin Azərbaycana yürüşü ***nəticəsində:***

- Bütün Azərbaycan torpaqları Xarəzimşah Cəlaləddinin işğalı altına düşdü
- Atabəylər dövlətinin varlığına son qoyuldu **(1225 )**
- Marağada Ağsunqurilər sülaləsi süqut etdi **(1227)**
- Şirvanşahlar dövləti ildə 100 min xərac vermək şərti ilə Cəlaləddindən asılı vəziyyətə düşdü
- Azərbaycan torpaqları 1225-1231-ci illərdə Cəlaləddinin idarəsinə keçdi
- Azərbaycanın idarəsi Cəlaləddinin vəziri ***Şərəf əl-Mülkə*** tapşırıldı

Azərbaycanın Cəlaləddin tərəfindən işğalı qonşu ölkələri ciddi təşvişə saldı. Odur ki, ***Cənubi Qafqazın yerli feodalları*** Cəlaləddinə qarşı mübarizə aparmağa cəhd etdilər. Lakin Cənubi Qafqazın yerli feodalları arasında ***dini ayrılıq*** Cəlaləddinə qarşı mübarizə aparmaq cəhdlərini həyata keçirməyə imkan vermədi. Cəlaləddin isə **Gürcüstanın şərq hissəsini** qarət edərək işğalçılıq siyasətini davam etdirdi.

## Xarəzmşah Cəlaləddinin Azərbaycanda idarəçiliyinin qurulması

Azərbaycan Xarəzimşah Cəlaləddin tərəfindən işğal edildikdən sonra:

- Ölkənin idarəsini vəziri **Şərəf əl-Mülkə** tapşırdı
- **Gəncə şəhərini** iqamətgahına çevrərək şəhərdə güclü qarnizon saxladı

Xarəzmşahlar dövlətinin ***yüksək rütbəli əyanlarının bir-biri ilə çəkişməsi*** Azərbaycanın daxili vəziyyətinə ***mənfi təsir*** göstərdi. ***Şərəf əl-Mülk ilə*** onun ölkənin müxtəlif yerlərinə təyin olunmuş ***hakimləri*** arasında kəskin mübarizə gedirdi. Cəlaləddinin canişinləri yerli əhalini soyub talayırdılar. Xarəzmşahlar saray əhlini və dövlət aparatını saxlamaq üçün:

- ***Əhalinin üzərinə ağır vergilər qoydular***
- ***Əhalini ordunu ərzaq və alaf ilə təmin etməyə məcbur etdilər***

## Azərbaycanda Cəlaləddinə qarşı xalq hərəkatı. I, II, III Təbriz üsyanları

Cəlaləddinin siyasəti ***sadə xalqın*** və ***yerli feodal əyanların*** narazılığına və üsyana gətirib çıxardı. **1225-1231-ci illərdə** Azərbaycanın müxtəlif yerlərində Cəlaləddinin hakimiyyətinə qarşı üsyanlar baş verdi. Üsyanların əsas səbəblərindən biri ***Cəlaləddinin əhalinin üzərinə ağır vergi qoyması*** idi.

Cəlaləddinin Azərbaycanda hakimiyyəti zamanı **Təbriz** şəhəri ***üç dəfə ona qarşı üsyan*** qaldırdı. ***Cəlaləddin Gürcüstana səfər etdiyi vaxtda*** onun hakimiyyətinə qarşı Təbrizdə ***Şəmsəddin Tuğyarinin başçılığı*** ilə ilk üsyan baş verdi. Təbriz üsyanının səbəbi ***vəzir Şərəf əl-Mülkün Təbriz əhalisindən qanunsuz vergilər yığması*** idi. Cəlaləddinə qarşı baş vermiş I Təbriz üsyanı ***nəticəsində:***

- Üsyan amansızlıqla yatırıldı
- Keçmiş şəhər hakimi Şəmsəddin Tuğrayi zindana atıldı

Lakin çox keçmədən Şəmsəddin Tuğyari həbsdən azad edilərək öz malikanəsinə sahib oldu.

Cəlaləddin ***İraqa səfər etdiyi vaxtda*** onun hakimiyyətinə qarşı ***Təbrizdə ikinci dəfə üsyan*** baş verdi. ***Yerli feodallar şəhər əhalisinin köməyinə arxalanaraq*** Cəlaləddinə qarşı çıxdılar. Üsyan zamanı yerli feodalların bir qrupu Təbrizdə hakimiyyəti ələ alaraq ***Eldənzlər dövlətini bərpa etmək məqsədi ilə*** Atabəy Özbəyin həbsdə olan nəvəsini azad edib hakimiyyətə gətirdilər. Lakin ikinci Təbrizu üsyanı da ***uğursuzluqla*** nəticələndi.

Cəlaləddinin zülmündən cana gəlmiş əhali Təbrizdə ***üçüncü dəfə üsyan*** qaldırdı. Lakin, Təbriz əyanları, xüsusilə Şəmsəddin Tuğrayi açıq mübarizədən çəkindilər. Bu üsyan da ***uğursuzluqla*** nəticələndi.

## Gəncə üsyanı. Azərbaycanda Xarəzmşahların hakimiyyətinin başa çatması

Cəlaləddinə qarşı xalq hərəkatının ***ən yüksək zirvəsi*** **1231-ci ildə Gəncədə Bəndərin** başçılığı ilə üsyanı oldu. Cəlaləddinin yürüşlərində iştirak etmiş tarixçi **Nəsəvi** gəncəlilərin qəhrəmanlığını belə təsvir edirdi: ***"Şəhər hakiminin sarayı dağıdıldı, məmurlar və qulluqçular öldürüldü. Şəhərdə qalan Xarəzm qarnizonu məhv edildi. Cəlaləddinin üsyançılarla danışıqları heç bir nəticə vermədi. Az sonra Cəlaləddin Gəncəyə yaxınlaşaraq gəncəlilərə əmin-amanlıq vəd etdi. Bu cür vədləri eşitdikdə qayalar belə yumşalardı. Amma gəncəlilər mübarizədən əl çəkmədilər. Qanlı döyüş baş verdi..."***. Cəlaləddinin Gəncə üsyançıları üzərinə yürüşü nəticəsində:

- Cəlaləddin çətinliklə də olsa Gəncə üsyanını yatırdı
- Üsyan başçılarından 30 nəfər, o cümlədən Bəndər edam olundu

Təbriz və Gəncədən başqa, **Xoy, Mərənd** və **Naxçıvanda** da Cəlaləddinə qarşı xalq azadlıq hərəkatı geniş vüsət aldı. Cəlaləddinə qarşı Azərbaycanda baş vermiş üsyanların nəticəsi olaraq:

- ***Cəlaləddinin yaratdığı dövlətin möhkəm əsasa malik olmadığını göstərdi***
- ***Monqolların Azərbaycanı və ətraf əraziləri zəbt etmələri üçün əlverişli şərait yarandı***

**1231-ci ildə** Monqolların Azərbaycana ikinci yürüşü zamanı Cəlaləddin ***Azərbaycanı tərk etdi*** və daha sonra suiqəsd nəticəsində öldürüldü. Bununlada Azərbaycanda Xarəzmşahların hakimiyyəti başa çatdı.

**Azərbaycanda Cəlaləddinin zülmünə qarşı üsyanların baş verdiyi şəhərlər**

| Təbriz | Gəncə | Xoy | Mərənd | Naxçıvan |
|---|---|---|---|---|

**XIII-XIV əsrlərdə Azərbaycan torpaqlarının tərkibində olduğu dövlətlətlər**




## Monqolların Azərbaycana ikinci yürüşü (1231-1239)

### Monqolların Azərbaycana ikinci yürüşünün başlanması

**1231-ci ildə** monqolların Azərbaycana ikinci yürüşü baş verdi. Monqolların Azərbaycana ikinci yürüşünə **Cormağun noyon** (***noyon*** – monqol ordusunda yüksək rütbəli hərbi başçı idi) başçılıq edirdi. Azərbaycandakı siyasi vəziyyət monqollara qəti müqavimət göstərməyə imkan verməsə də, bir sıra şəhərlərdə onlara qarşı çıxışlar oldu.

Monqolların Azərbaycana ikinci yürüşündə əsas məqsədi ***Azərbaycanda və ona qonşu olan ərazilərdə möhkəmlənmək*** idi. Bu isə monqolların Azərbaycana ikinci yürüşünü birinci yürüşdən fərqləndirirdi.

Monqollara ciddi müqavimət göstərmiş **Marağa** şəhəri talan olundu və əhali üzərinə ağır vergilər qoyuldu. Sonra **Təbriz** şəhəri mühasirəyə alındı. Şəhər əyanları birinci yürüşdə olduğu kimi, yenə də monqollarla danışıqlar apardı. Danışıqlar nəticəsində:

- ***Əhali monqollara xərac verməklə Təbriz dağıntılardan xilas oldu***
- ***Təbrizin bir-çox sənətkarları Monqolustanın paytaxtı* Qaraqoruma *aparıldı***

**Gəncə şəhəri** də monqollara uzun müddət müqavimət göstərdi. Gəncəlilərin müqaviməti o qədər güclü idi ki, monqollar Gəncənin qala divarlarını dağıtdıqdan sonra ***bir həftə şəhərə girməyə cürət etmədilər***. Şəhər əhalisi əmlakın düşmən əlinə keçməməsi üçün evlərini yandırdı və var-dövlətini məhv etdi. Lakin Gəncə uzun mübarizədən sonra, **1235-ci ildə** monqollar tərəfindən işğal olundu. Beləliklə, monqolların Azərbaycana birinci yürüşü zamanı xərac verib dağıntıdan xilas olan **Gəncə** şəhəri monqolların ikinci yürüşü zamanı ələ keçirildi. Monqolların Azərbaycana ikinci yürüşü zamanı ***talan edə bilmədiyi*** şəhər yalnız Təbriz şəhəri oldu.

Monqollar Azərbaycanın digər şəhərlərində də dağıntılar törədib, əhalini qarət etdilər. Monqollar **Şəmkirdə** də ciddi müqavimətə rast gəldilər. Monqollar şəhərə yaxınlaşdıqda Şəmkir əhalisi şəhər hakimi **Bəhramdan** monqollara ***qarşı mübarizə aparılmasını*** tələb etdi. Lakin Bəhram buna razı olmadı. Monqollar şəhəri mühasirəyə alıb şəhər ətrafı xəndəklərə saman və odun

dolduraraq qala divarlarına qalxmağa səy göstərdilər. Şəhər əhalisi bundan xəbər tutub gecə vaxtı samana od vurdu. Belə olduqda monqol sərkərdəsi **Molar** xəndəkləri qumla doldurtdurdu. Monqollar bu vasitə ilə atəşi söndürərək Şəmkiri tuta bildilər. Monqollar Şəmkiri tutduqdan sonra yandırdı və əhalisini qılıncdan keçirdi. Bundan sonra **Tovuz** və **Bakı** da monqollar tərəfindən tutuldu. **1239-cu ildə *Dərbənd şəhərini tutulması ilə*** bütün Azərbaycanın monqollar tərəfindən istilası və monqolların ikinci yürüşü başa çatdı.




### Azərbaycan Ali Monqol Xaqanlığının hakimiyyəti dövründə (1239-1256)

**1239-1256-cı illərdə** monqollar tərəfindən Azərbaycan və Cənubi Qafqazın işğal edilməsi ***nəticəsində:***

- Azərbaycan ***Ali monqol xaqanının təyin etdiyi canişinlər vasitəsilə*** idarə etməyə başlandı (canişinlər təyin olunduğu ölkələrdə böyük imtiyazlara malik idilər)
- Monqol canişini **Arqun ağa – Xorasan, İraqi-Əcəm, Azərbaycan (Şirvan da daxil olmaqla), Gürcüstan, Lur və Kirmana** canişin təyin olundu

Ali Monqol Xaqanlığının hakimiyyəti dövründə:

- Azərbaycan ***Ali Monqol Xaqanlığının canişinləri tərəfindən*** idarə edilirdi
- Azərbaycanın ***əksər torpaq sahələri*** və ***otlaqları monqol canişinlərinin*** ixtiyarına keçdi
- Yerli feodalların əksəriyyəti torpaq malikanələrindən məhrum edildi
- Yerli feodalların bir qismi monqolların vassalına çevirildi

Monqolların vassalına çevirilmiş ***yerli feodallar*** onlara aşağıdakı ***xidmətləri*** göstərməli idilər:

➢ Monqollara xərac və qiymətli hədiyyələr verməli idi
➢ Böyük Monqol imperatorluğunda tacqoyma mərasimlərində iştirak etməli idi

Hər dəfə Böyük Monqol imperatorluğunda yeni xaqan seçildikdə yerli feodallara öz malikanələrini idarə etmək üçün icazə sənədi olan – ***yarlıq (fərman)*** verilirdi. Bu isə əlavə xərac tələb edirdi.

Azərbaycanda **Arqun ağanın** həyata keçirdiyi siyasətin əsas mahiyyəti ***yerli feodalların – vassalların köçmə monqol əyanlarından asılılığını artırmaqdan ibarət idi.*** **XIII əsrin 30-cu illərində** Monqol caninşinliyinin Azərbaycandakı siyasəti aşağıdakı təbəqələrin narazılığına və üsyanlara səbəb oldu:

1. ***Məzlum xalq kütlələrinin***
2. ***Yerli feodalların***

Bu dövrdə ölkədə xalq hərəkatı və üsyanların səbəbi ***vergilərin ağırlığı*** və ***toplanmasında yol verilən nöqsanlar*** idi. Bu amillər xalqın vəziyyətini ağırlaşdırırdı. Canişinlər vergilərdən əldə olunan gəlirin cuzi hissəsini mərkəzi divana verir, qalan hissəsini isə mənimsəyirdilər. Canişinlik vəzifəsi üstündə monqol əyanları arasında çəkişmələr gücləndi. Köçmə feodallar iqtisadi cəhətdən güclənərək monqol canişinlərinə qarşı durmaq iqtidarını əldə etdilər.

Ali Monqol Xaqanlığının hakimiyyəti dövrü (1239-1256)

- Azərbaycan Ali Monqol Xaqanlığının canişinləri tərəfindən idarə edilirdi
- Yerli feodalların bir qismi monqolların vassalına çevirildi
- Yerli feodalların əksəriyyəti torpaq malikanələrindən məhrum edildi
- Azərbaycanın əksər torpaq sahələri monqol canişinlərinin ixtiyarına keçdi

| | | | |
|---|---|---|---|
| Cəba və Sabutayın rəhbərliyi ilə monqolların Azərbaycana I yürüşü | **1220-1222** | **1231** | Gəncədə Bəndər üsyanı. Azərbaycanda Xarəzmşahların hakimiyyətinin başa çatması |
| Monqolların Təbrizə və Gəncəyə hücumu | **1221** | **1231** | Azərbaycana monqolların II yürüşünün baslanması |
| Monqolların Şirvana hücumu | **1222** | **1231-1239** | Cormağun noyonun başçılığı ilə monqolların Azərbaycana II yürüşü |
| Kalka çayı sahilində döyüş. Monqolların rus-qıpçaq qoşunlarına qalib gəlməsi | **1223** | **1235** | Gəncənin monqollar tərəfindən işğal olunması |
| Cəlaləddinin Azərbaycanı tutması və Atabəylər dövlətinin varlığına son qoyulması | **1225** | **1239** | Dərbəndi tutulması ilə monqolların Azərbaycana ikinci yürüşünün başa çatması |
| Xarəzimşah Cəlaləddinin Marağada Ağsunqurilər sülaləsinə son qoyması | **1227** | **1239-1256** | Azərbaycanın Ali monqol xaqanının təyin etdiyi canişinlər tərəfindən idarə edilməsi |

# Monqolların Azərbaycana üçüncü yürüşü. Hülakülər dövləti (1256-1357)

## Monqolların Azərbaycana üçüncü yürüşü və onun nəticələri

Böyük Monqol imperatorluğunun **Ön Asiya, Cənubi Qafqaz** və **Kiçik Asiyanı** ələ keçirməsinə baxmayaraq, XIII əsrin ortalarında həmin ərazilərdə bir sıra ***iri feodal malikanələri*** öz müstəqilliyini saxlayırdı. Böyük Monqol xaqanı **Müke xan *istilaları davam etdirmək məqsədi ilə*** qardaşı **Hülakü xanın (1256-1265)** başçılığı ilə **1253-cü ildə** Ön Asiyaya qoşun göndərdi. Beləliklə qonşu ölkələrə, həmçinin Azərbaycana monqolların üçüncü yürüşü başlandı. Hülakü xanın başçılığ etdiyi monqolların üçüncü yürüşünün əsas məqsədi – ***İranın, Ərəb-İraqının, Suriyanın və başqa ölkələrin müstəqil hakimlərini itaətə gətirmək*** idi. Hülakü xan güclü ***hərbi qüvvə*** və ***iri köçəri feodalların*** köməyi ilə bir çox yerli feodalları itaətə cəlb edə bildi. Beləliklə, monqolların qonşu ölkələrə və Azərbaycana üçüncü yürüşü ***nəticəsində:***

- **Beşinci Monqol Ulusu adlanan Hülakü dövləti yarandı**
- **Azərbaycan tamamilə Hülakülər dövlətinin tərkibinə qatıldı (1256-cı ildə)**
- **Azərbaycan bir əsrədək Hülakülər tərəfindən idarə olunmağa başlandı**
- **Bağdad tutuldu və Abbasilər xilafəti süqut etdi (1258-ci ildə)**

| *Tarixi* | *Başçıları* | *Xarakteri (məqsədi)* | *Nəticələri* |
|---|---|---|---|
| **I Yürüş (1220-1222)** | Cəba və Sabutay | Kəşfiyyat məqsədi | Ölkənin iqtisadi, mədəni-ictimai sahələrinə ağır zərbə vuruldu, feodal pərakəndəliyi daha da gücləndi |
| **II Yürüş (1231-1239)** | Cormağun noyon | Azərbaycanda möhkəmlənmək | Bütün Azərbaycan monqollar tərəfindən işğal olundu və Ali monqol xaqanının təyin etdiyi canişinlər vasitəsilə idarə etməyə başlandı |
| **III Yürüş (1254-1256)** | Hülakü xan | Müstəqil hakimlərini itaətə gətirmək | Azərbaycan tamamilə Hülakülər dövlətinin tərkibinə qatıldı və bir əsrədək Hülakülər tərəfindən idarə olunmağa başlandı |

## Azərbaycan torpaqlarının Hülakülər dövətinin tərkibinə qatılması

**1256-cı ildə** Azərbaycan tamamilə Hülakülər (Elxanilər) dövlətinin tərkibinə qatıldı və bir əsir onun tərkibində qaldı (1256-1357). Azərbaycan torpaqlarının tamamilə Hülakülər dövlətinin tərkibinə qatılmasının böyük ***əhəmiyyəti*** var idi. Belə ki, Hülakülər dövlətinin təsisi və uzun müddət mövcud olması ***Azərbaycanın ictimai-iqtisadi, siyasi və mədəni həyatına, onun hüdudlarındakı sabitliyə, dilinə müsbət təsir göstərdi***. Hülakü dövlətində Azərbaycan mühüm yer tuturdu. Hülakü dövlətində Azərbaycanın mühüm yer tutması aşağıdakı amillərlə bağlı idi:

1. ***Azərbaycanın zəngin təbii sərvətləri və iqlimi***
2. ***Azərbaycanın əlverişli coğrafi şəraitə və strateji mövqeyə malik olması***

Bu üstünlüklərini nəzərə alan Hülakü dövləti Azərbaycana böyük əhəmiyyət verirdilər. Elxanilərin Azərbaycana böyük əhəmiyyət verməsini aşağıdakı faktlar da sübut edir:

- Hülakülərin Azərbaycanı dövlətin mərkəzi vilayətinə çevirməsi
- ***Marağa, Sultaniyyə*** və ***Təbrizi*** dövlətin paytaxt şəhəri etmələri
- Hülakülər dövlətini Azərbaycandan – Təbrizdən idarə edilməsi
- **Qarabağın** Elxanilərin ***yay iqamətgahı*** (yaylağı), **Muğanın *isə qış iqamətgahı*** (qışlağı) olması

Hülakülərin hakimiyyəti dövründə (XIII-XIV əsrlərdə) Azərbaycan ərazilərinə - **Arran, Şirvan, Şəki, Muğan, Qarabağ, Qaradağ, Naxçıvan, Güştasfi, Arasbar** daxil idi. Rus şərqşünası **A.Yakubovskinin** yazdığı kimi, XIII-XIV əsrdə Azərbaycan adı ilə - ***müasir Cənubi və Şimali Azərbaycan əraziləri*** nəzərdə tutulurdu. Təxmini hesablamalara görə Hülakülər dövründə Azərbaycan ərazisi ***250 min kvadratkilometr*** idi.

Hülaku dövlətinin paytaxtı olmuş Azərbaycan şəhərləri

Marağa | Təbriz | Sultaniyyə

**Hülakü xanın hakimiyyəti (1258-1265)**

Elxanilər dövlətinin ilk hökmdarı olmuş Hülakü xanın hakimiyyəti dövründə:

✓ ***Hərbi-köçəri əyanların tez-tez baş verən qiyamlarını yatırmaqla*** geniş əraziyə malik iqtisadi cəhətdən güclü və ***mərkəzləşmiş dövlət*** yaratdı

✓ Köçmə zadəganlara arxalanaraq bütün ali hakimiyyət orqanlarını şahzadə və əmirlər arasında böldu, şahzadə ***Yuşmut Arran hakimi*** təyin olundu

✓ Azərbaycanın şimal hissəsində şimal sərhədlərinin mühafizəsini möhkəmləndirmək məqsədi ilə güclü monqol hərbi dəstələri məskunlaşdırıldı

✓ Hülakü dövləti öz qüdrətini və vahidliyini qoruyub saxladı, lakin feodalların getdikcə güclənməsi mərkəzi hakimiyyətə qarşı mübarizəni gücləndirdi

✓ Azərbaycan torpaqları uğrunda Hülakü və Qızıl Ordu arasında müharibələr başlandı

**Hülakü xanın hakimiyyəti dövründə həyaata keçirdiyi tədbirlər**

Hərbi-köçəri əyanların tez-tez baş verən qiyamlarını yatırtdı

Azərbaycanda güclü monqol hərbi dəstələri məskunlaşdırdı

Bütün ali hakimiyyət orqanlarını şahzadə və əmirlər arasında böldu

Şahzadə Yuşmutu Arran hakimi təyin etdi

## Qazan xanın hakimiyyəti (1295-1304)

Hülakülər dövlətində ***hakimiyyət uğrunda gedən mübarizə*** Qazan xanın hakimiyyətə gəlməsi ilə nəticələndi.

Qazan xana ***aiddir:***

- ✓ **1295-ci ildə Qarabağda** padşah elan olundu
- ✓ Yerli feodallarla əlaqəni möhkəmləndirmək məqsədi ilə ***İslam dinini*** qəbul edərək **Mahmud** təxəllüsü aldı
- ✓ İslam dinini qəbul etməsi monqol feodallarını ona qarşı mübarizəyə qaldırdı
- ✓ Arranda ona qarşı ***Arslan oğlunun başçılığı ilə*** müvəffəqiyyətsiz sui-qəsd təşkil edildi
- ✓ **1297-1298-ci illərdə** Azərbaycanın şimalında ***monqol feodallarının*** qiyamını yatıraraq mərkəzi hakimiyyəti möhkəmləndirdi

## Məhəmməd Olcayut xanın hakimiyyəti (1304-1316)

Qazan xandan sonra Hülakülər dövlətinin taxt-tacına onun qardaşı **Məhəmməd Olcayut** sahib oldu. Məhəmməd Olcayutun hakimiyyəti illərində:

- ✓ Mərkəzi hakimiyyət daha da qüvvətləndi
- ✓ Ölkədə feodal çəkişmələri azaldı

Məhəmməd Olcayutdan sonra hakimiyyətə onun oğlu **Əbu Səid (1316-1335)** gəldi. Azyaşlı Əbu Səid dövlətin idarəsində yaxından iştirak edə bilmədiyi üçün Məhəmməd Olcayut vəsiyyət etmişdir ki, dövlətin idarəsi ***Sulduz qəbiləsindən*** olan **baş əmir Çobana** həvalə olunsun.

## Əbu Səidin hakimiyyəti (1316-1335). Hülakülər dövlətində mərkəzi hakimiyyətin zəifləməsi

Hülakülər dövlətinin idarəsi əmir Çobana tapşırıldıqdan sonra dövlətdə faktiki hökmrana çevirildi. ***Əmir Çobanın yüksək mövqeyi*** digər ***feodal quruplarının narazılığına*** və ***mərkəzi hakimiyyətə qarşı çıxışlara*** səbəb oldu.

**1318-ci ildə Xorasanda** mərkəzi hakimiyyətə qarşı üsyan baş verdi. **1318-ci ildə** bundan istifadə edən **Qızıl Ordu** dövlətinin qoşunları Elxanilər dövləti üzərinə hücuma keçərək – ***Kür çayının sahilinə qədər*** irəlilərilər. Əmir Çoban bu hücumun daha qorxulu olduğunu nəzərə alaraq Qızıl Ordunun hücumunun qarşısını almağa daha çox fikir verdi. Nəticədə, Qızıl Ordunun qoşunları geri çəkilməyə məcbur oldu. Bu qələbədə **Əmir Çoban** mühüm rol oynadı.

Xarici qələbələrə baxmayaraq ölkədə əmir Çobana qarşı feodal çəkişmələri və çıxışları gücləndi. **1319-cu ildə Gürcüstanda** başlanan qiyam sonradan Azərbaycanda da davam etdi. **Naxçıvan** qiyamçıların iqamətgahına çevrildi. Onlar buradan Təbrizə tərəf irəlilədilər və oradan Sultaniyyəyə getdilər. **Təbrizdə** qiyamçılarla Əbu Səid arasında qanlı döyüş baş verdi. Döyüş nəticəsində ***Əbu Səid Təbriz qiyamçılarınn qoşunlarını məğlubiyyətə uğratdı***. Bu döyüşdə Əbu Səid böyük sücaət göstərərək ***Bahadır ləqəbi*** aldı.

Bundan sonra Əbu Səid Əmir Çobana qarşı mübarizəyə başladı. Əbu Səidin Əmir Çobana qarşı mübarizəyə başlamasının səbəbi bunlar idi:

1. **Əmir Çoban və onun oğlanlarının dövlət idarəçiliyində yüksək mövqe tutması**
2. **dövlətin idarəsini bütövlükdə Əmir Çoban və onun oğlanlarının əlinə alması**

Əbu Səid **1328-ci ildə** əmir Çobanı və onun oğlanlarından ikisini edam etdirərək dövlət idarəsini etibar etdiyi adamlara tapşırdı. Lakin feodal şəkişmələri daha da gücləndi. **1335-ci ildə Sultaniyyədə** baş verən üsyan çətinliklə yatırıldı və Qızıl Ordu xanı Özbəyin hücumu dəf edildi. Lakin həmin ildə Əbu Səid arvadı tərəfindən zəhərlənərək öldürüldü. ***Əbu Səidin ölümü ilə*** Hülakü dövləti getdikcə tənəzzülə uğradı. Qısa vaxtda bir-neçə şahzadə bir birini əvəz etdi. Əvvəlcə yeni hökmdar **Arpa xan (1335-**

**1336)** taxta çıxdı. Daha sonra onu **Məhəmməd xan (1336-1338), Satı Bəy Xatun (1338-1340)** və **Süleyman bəy (1340-1344)** bir birini əvəz etdi.

**Məhəmməd xanın (1336-1338)** dövründən başalayaraq hakimiyyət uğrunda mübarizə yeni forma aldı, məqsəd Hülakü səltənətini ələ keçirmək deyil, ***Hülakülər dövlətinin ayrı-ayrı vilayətlərində müstəqilləşmək*** idi. ***"Hülakülər səltənətinin mühafizəsi"*** bayrağı altında aparılan mübarizələrdə **Çobanilər, Cəlairilər** və **Şirvanşahlar** daha fəal iştirak etdilər.

**Əbu Səidin hakimiyyəti illərində üsyanların baş verdiyi bölgələr**




**"Hülakülər səltənətinin mühafizəsi" bayrağı altında mübarizədə daha fəal iştirak edən qüvvələr**




### Çobanilərin Hülakü səltənətini ələ keçirməsi (1338-1357)

Hülakü hökmdarı Əbu Səid (1316-1335) taxta çıxarkən kiçik yaşlı olduğu üçün Hülakülər dövləti ***Sulduqz qəbiləsinə*** məxsus **Əmir Çoban (Çobanilər)** tərəfindən idarə olumnağa başlandı, bütün hakimiyyət onun əlində cəmləşdi. Əbu Səid **1328-ci ildə** əmir Çobanı və onun oğlanlarından ikisini edam etdirsə də, **Çobanilər** Hülakülər dövlətinin zəifləməsindən istifadə edərək hakimiyyət uğrunda mübarizəyə qoşulan ***ən qüdrətli feodal qrupa*** çevrildilər. Əmir Çoban edam edildikdən sonra çobanilər **Rumda, Qarahisar qalasında** cəmləşdilər. **1338-ci ildə** əmir Çobanın nəvəsi **Şeyx Həsən Çobani (Kiçik Həsən)** Çobanilər və Cəlairilərdən ibarət narazı qüvvələri ətrafında cəmləşdirərək:

- Əsas rəqibi Şeyx Həsən Cəlairiyə (Böyük Həsənə) qalib gəldi
- Əbu Səidin bacısı Satı bəy xatını, sonra Süleyman xanı padşah elan edərək dövləti onların adından idarə etməyə başladı

Beləliklə də, **1338-ci ildə** Azərbaycan Çobanilərin əlinə keçdi. **1344-cü ildə** Şeyx Həsən Çobani öldürüldü və onun yerinə qardaşı **Məlik Əşrəf** gəldi.

**1344-cü ildə** Azərbaycanda ***çobanilər zülmünə*** - Hülakü şahzadələri adından dövləti idarə edən ***Məlik Əşrəfə qarşı*** **Təbriz əhalisi** üsyan qaldırdı. 1344-cü ildə Təbriz əhalisinin üsyan qaldırılmasının əsas səbəbi - ***çobani əmirlərinin əhalini soyub talaması*** olmuşdur. Təbriz üsyanı zamanı təbrizlilər şəhərdəki Çobani əmirlərini və onların yaxın adamları əsir alaraq Məlik Əşrəfə ciddi müqavimət göstərdilər. Lakin ***Məlik Əşrəf Təbriz üsyanını çətinliklə yatırdı, qanlı döyüş nəticəsində üsyançılar məğlub oldu.***

Çobani əmirləri müstəqil, Hülakülərdən heç bir asılılığı olmayan dövlət qura bilmədilər. Çobanilər qonşu dövlətlər tərəfindən də müstəqil dövlət kimi tanınmadı. Bu dövrdə Çobani əmirlərinin Hülakülərdən asılı olmayan müstəqil Çobani dövləti yarada bilməməsini aşağıdakı faktlar da sübut edir:

- ***Çobani əmirləri öz adına xütbə oxutmurdular***

- ***Çobanilər öz adına pul kəsdirmirdilər***
- ***Çobanilər adından dövlət fəmanları verilmirdi***

Hüquqi baxımdan Çobanilər Azərbaycanda Hülakü dövlətini davam etdirən iri feodal qrupu olmuşdur. Lakin Çobanilər Hülakü dövlətinin faktiki hakimlərinə çevrilmişdilər. Hülakü şahzadələrinin varlığı Çobani əmirlərinə öz ağalıqlarını ***hüquqi baxımdan əsaslandırmaq üçün*** vacib idi.

Xalqın Çobani feodallarına qarşı nifrətini ***Təbriz üsyanı*** artırdı. Çobani zülmündən qorunmağa çalıçan ***Azərbaycan əhalisi*** və ***yerli feodallar,* 1357-ci ildə Qızıl Ordu hökmdarı Canı bəyi** Azərbaycana dəvət etdilər.




## Azərbaycan uğrunda Hülakülərlə Qızıl Ordu arasında müharibələr

Hülakülər dövlətinin yarandığı ilk vaxtlarda, ***Hülakü xanın hakimiyyəti dövründən başlayaraq*** Hülakülərlə Cuci nəslindən olan Qızıl Orda xanları arasında ***Azərbaycan ərazisi uğrunda*** müharibələr gedirdi. Qızıl Ordu ilə Hülakülər arasında müharibə **XIII əsrin 60-cı illərində** başladı. Hülakülərlə Qızıl Orda xanları arasında gedən müharibələrin əsas səbəbi bunlar idi:

1. ***Hülakü xanın Azərbaycanda dövlət quraraq Qızıl Ordunun mənafeyinə toxunması və onları burdakı gəlirdən məhrum etməsi***
2. ***Qızıl Ordu xanlarının Azərbaycan ərazisinin Çingiz xanın vəsiyyətinə görə bu dövlətin banisi Batı xanın payına düşməsini iddia etməsi***

Hülakülərlə Qızıl Orda dövləti arasında ilk toqquşma **1263-cü ildə, Hülakü xanın hakimiyyəti dövründə** baş verdi. Qızıl Orda dövlətinin bu hücumu nəticəsində - **Dərbənd şəhəri tutuldu**. Lakin **1265-ci ildə** Elxanilər Qızıl ordululları ölkədən qovdular. Qızıl Orda xanlarının **1288** və **1290-cı illərdəki** yürüşləri də bir nəticə vermədi. Hər üç yürüşdə ***Qızıl Ordulular məğlub olaraq ölkədən qovuldular.***

**1318-ci ildə, Əbu Səidin** hakimiyyəti illərində **Xorasanda** mərkəzi hakimiyyətə qarşı üsyandan istifadə edən Qızıl Ordu dövlətinin qoşunları yenə də Elxanilər dövləti üzərinə hücuma keçərək ***Kür çayının sahilinə kimi*** gəldilər.

**1319-1325-ci illərdə *Əmir Çobanın rəhbərliyi ilə*** Qızıl Ordu dövlətinə yürüşlər təşkil olundu və müvəffəqiyyət əldə edildi.

**1335-ci ildə** Hülakülər dövləti Qızıl orduların yeni hücumlarına məruz qaldı. **Əbu Səid** 60 min nəfərlik qoşunla Arrana gələrək Qızıl Ordu xanı ***Özbək xanı məğlub edərək onu geri çəkilməyə məcbur etdi***. Lakin Əbu Səidin zəhərlənərək öldürülməsindən istifadə edən Özbək xan yenidən hücuma keçərək ***Kür çayına kimi*** irəlilədi. Yeni taxta çıxan **Arpa xan (1335-1336)** Qızıl orduluları ölkədən qova bildi.

**XIII – XIV əsrlərdə Azərbaycan torpaqları uğrunda müharibə aparan dövlətlər**

**Hülakü dövləti**

**Qızıl Ordu dövləti**

**Qızıl Ordu hökmdarı Canı bəyin Azərbaycana hücumu. Hülakü dövlətinin süqutu**

**1357-ci ildə** Qızıl Ordu xanı **Canı bəyin** Azərbaycana yürüşü baş verdi. Canı bəyin Azərbaycana yürüşü ***nəticəsində:***

- ***Təbrizə əhalisinin köməyi ilə Canı bəy hakimiyyəti ələ aldı***
- ***Çobani Əmiri Məlik Əşrəf edam olundu və Hülakülər dövləti süquta uğradı***
- ***Azərbaycanda Qızıl Ordunun hakimiyyəti quruldu***
- ***Çobanilərin Hülakülər dövlətinin mühafizəsi uğrunda apardığı mübarizəyə son qoyuldu***

Azərbaycanda hakimiyyəti ələ alan Canı bəy, oğlu **Bərdi bəyi** Təbrizdə səltənətə qoyub, Qızıl Ordaya qayıtdı. Lakin Bərdi bəy ***atası Canı bəyin qəfil ölümü ilə əlaqədar olaraq*** Təbrizdən getməli oldu. Beləliklə, Canı bəyin qəfil ölümü Qızıl orduluların Azərbaycanı tərk etməsilə nəticələndi.

**Hülakülərlə Qızıl Ordu arasında müharibələr**

Azərbaycan ərazisi uğrunda gedirdi

XIII əsrin 60-cı illərində başlamışdı

Hülakü xanın hakimiyyəti dövründə başlamışdı

Ilk döyüş 1263-cü ildə baş vermişdi

Hülakü dövlətinin süqutu ilə başa çatmışdı

| *Tarixi* | *Nəticələri* |
|---|---|
| **1263-cü il** | Qızıl Orda dövlətinin bu hücumu nəticəsində - Dərbənd şəhəri tutuldu. Lakin 1265-ci ildə Elxanilər Qızıl orduluları ölkədən qovdular |
| **1288 və 1290-cı illər** | Qızıl Orda xanlarının yürüşləri bir nəticə vermədi. Hər iki yürüşdə Qızıl Ordulular məğlub olaraq ölkədən qovuldular |
| **1318-ci il** | Qızıl Ordu dövlətinin qoşunları Xorasanda üsyandan istifadə edərək Kür çayının sahilinə kimi gəldilər. Lakin əks hücumlar nəticəsində geri oturduldular |
| **1335-ci il** | Əbu Səid Arrana gələrək Qızıl Ordu xanı Özbək xanı məğlub edərək onu geri çəkilməyə məcbur etdi. Yenicə taxta çıxan Arpa xan isə onları ölkədən qova bildi |
| **1357-ci il** | Təbrizə əhalisinin köməyi ilə Canı bəy hakimiyyəti ələ aldı, Çobani Əmiri Məlik Əşrəf edam olundu və Hülakülər dövləti süquta uğradı, Azərbaycanda Qızıl Ordunun hakimiyyəti quruldu , Çobanilərin Hülakülər dövlətinin mühafizəsi uğrunda apardığı mübarizəyə son qoyuldu |

**Azərbaycan torpaqlarının Cəlairilər dövlətinin hakimiyyəti altına düşməsi**

Cəlairilər Hülakü xanın yürüşü dövründə gəlmiş monqol qəbiləsi idi. Cəlairilərin görkəmli nümayəndəsi Böyük Həsən - **Şeyx Həsən Cəlairi (1340-1354) 1340-cı ildə Bağdadda Cəlairilər dövlətini** yaratmışdır.

Şeyx Həsən Cəlairidən sonra hakimiyyətə **Şeyx Üveys (1354-1374**) gəldi. Şeyx Üveys hakimiyyəti ***dövründə:***

- ✓ **1357-1358-ci illərdə** Qızıl Orduluların Azərbaycanı tərk etməsindən istifadə edərək Azərbaycana yürüş edərək Təbrizi tutdu və Azərbaycanı Cəlairilər dövlətinin tərkibinə qatdı
- ✓ **1367-ci ildə** Şirvan ərazisini tutaraq **Şirvanşahlar dövlətini** özündən asılı vəziyyətə saldı
- ✓ Mərkəzi idarə sistemini möhkəmləndirdi
- ✓ İqtisadiyyat və təsərrüfatda canlanma baş verdi

Şeyx Üveysdən sonra hakimiyyətə **Sultan Hüseyn (1374-1382)** gəldi. Sultan Hüseynin hakimiyyəti ***dövründə:***

- ✓ Ölkədə feodal fərakəndəliyi gücləndi
- ✓ Mərkəzi hakimiyyətə qarşı çıxışlar artdı

Cəlairi şahzadəsi Sultan Əhməd **1382-ci ildə Muğanda** və **Arranda** güclü qoşun hissələri toplayıb Sultan Hüseyni taxt-tacına sahib oldu. **Sultan Əhmədin (1382-1410)** hakimiyyəti ***dövründə:***

- ✓ Cəlairilər dövlətində feodal ara müharibələri davam etdi
- ✓ Ölkənin ictimai və siyasi həyatında elə də əhəmiyyətli dəyişiklik baş vermədi
- ✓ II Şənbi-Qazan döyüşündə Qara Yusifə məğlub oldu
- ✓ 1410-cu ildə Cəlairilər dövləti, Qaraqoyunlu dövləti tərəfindən süquta uğradıldı

**Cəlairilər dövlətinin hökmdarlar**

| | |
|---|---|
| **Şeyx Həsən (1340-1354)** | 1340-cı ildə Bağdadda Cəlairilər dövlətini yaratdı |
| **Şeyx Üveys (1354-1374)** | Təbrizi tutaraq Azərbaycanı Cəlairilər dövlətinin tərkibinə qatdı |
| **Sultan Hüseyn (1374-1382)** | Ölkədə feodal fərakəndəliyi gücləndi |
| **Sultan Əhmədin (1382-1410)** | Ölkədə feodal ara müharibələri davam etdi |

## Toxtamış xan və Əmir Teymurun Azərbaycana yürüşləri

**Toxtamış xanın və Əmir Teymurun Azərbaycana yürüşlərinin başlaması**

**XIV əsrin 80-cı illərində** aşağıdakı amillər Azərbaycanın daxili və xarici vəziyyətinə ciddi təsir etdi:

1. ***Qızıl Ordu xanı Toxtamışın həmlələri***
2. ***Əmir Teymurun Azərbaycana yürüşləri***

Əmir Teymur **1385-ci ildə** Azərbaycana yürüş etdi. Lakin ***Mərkəzi Asiyada baş vermiş hadisələrlə əlaqədar olaraq*** yürüşü yarımçıq qoyaraq geri qayıtdı. Bu zaman Azərbaycanı idarə edən Cəlairilər dövlətinin hökmdarı Sultan Əhməd **Bağdada** çəkildi.

Əmir Teymur Mərkəzi Asiyaya qayıtmasından istifadə edən Toxtamış xan **1385-ci ilin sonunda** 90 minlik qoşunla Azərbaycana yürüşə başlayaraq **Dərbənddən Şirvana** daxil oldu və **Təbrizə** çatdı. Toxtamış xanın qoşunu Təbriz ətrafında 8 gün dövrə vursalar da şəhərə girə bilmədi. Təbriz əhalisi düşmənə ciddi müqavimət göstərdi. Belə olduqda Toxtamış xan şəhər hakimi **Əmir Vəli** ilə danışıqlar apardı və sülh bağladılar. Əmir Vəli və şəhər əyanları Toxtamışa veriləcək xəracı toplamaqla məşğul oldular, əhali isə sülhə inanıb silahı yerə qoydu. Belə vəziyyətdən istifadə edən Toxtamış xan, **1382-ci ildə** Moskva ətrafında olduğu kimi ***hiylə yolu ilə*** Təbrizi tutdu. Beləliklə, Toxtamış xanın qoşunu Təbrizə hücumu nəticəsində şəhəri ***hiylə yolu ilə*** ələ keçirərək əhalisini qarət etdi.

1385-ci il yürüşü zamanı Toxtamış xanın qoşunu **Təbrizdən başqa, Marağa, Mərənd, Naxçıvan** və.b şəhərləri də qarət etdilər. Toxtamış xan bu şəhərlərdə qətl və qarətlərdən sonra **Qarabağa** gəldi və burada birləşib Qızıl Orduya qayıtdılar.

Beləliklə, 1385-ci ildə Toxtamış xanın Azərbaycana hücumu nəticəsində ***bir çox şəhərlər qarət olundu***, ***ölkədən çoxlu qənimət və 200 min əsir aparıldı***. Bu da Azərbaycanda işçi qüvvəsinə ciddi təsir etdi.

## Əmir Teymurun Azərbaycana "üçillik yürüşü" (1386-1387)

Azərbaycan **1386-cı ilin baharında** Əmir Teymurun ***birinci*** - ***"üçillik yürüşü"nə*** məruz qaldı. Bu yürüş zamanı **Təbriz şəhəri** tutuldu. Cəlairi əmirlərinin əsas hissəsi **Bağdada,** bir qismi isə **Əlincə qalasına** qaçdı. Xalq **Cəlairi Şeyx Həsənin** başçılığı ilə *Naxçıvanda* mübarizəyə qalxdı. Teymur payızda Naxçıvana gəlib onların müqavimətini qıraraq ***Əlincə qalasını mühasirəyə*** aldı.

**1386-1387-ci illərdə *Əmir Teymurun Azərbaycana "üçillik yürüşü" nəticəsində, Əlincə qalası istisna olmaqla bütün Azərbaycan torpaqları onun tərəfindən tutuldu.*** Teymur Azərbaycanın idarəsini oğlu **Miranşaha** tapşırdı. (Miranşah qəddarlığına görə, xalq arasında ***"maranşah"*** – ***ilanlar şahı*** adlanırdı). Əmir Teymurun Azərbaycanı asanlıqla işğal etməsinin səbəbi – ölkədə ona qarşı müqavimət göstərə biləcək ***vahid dövlətin olmaması və feodal çəkişmələrinin getməsi*** idi.

**1387-ci ilin əvvəllərində** Toxtamış xanın dəstələri ikinci dəfə **Dərbənddən** Azərbaycana soxuldu. Lakin, Qızıl ordulular Miranşahın Kürün şimalına göndərilmiş qoşunlarına qarşı dura bilməyib geri çəkildilər.

**1387-ci ilin əvvəllərində** Teymur Azərbaycanı tərk etdi. Teymurun Azərbaycanı tərk etməsinin səbəbi Toxtamış xanın Teymurilər dövlətinin hakimiyyəti altında olan ***Buxarə*** və ***Səmərqəndə*** hücum etməsi idi.

## Teymurilərlə feodal qruplarının Təbriz uğrunda mübarizəsi

Əmir Teymurun Azərbaycanı tərk etməsindən sonra (1387) Azərbaycanda ***feodal qrupları*** hakimiyyəti ələ almağa can atırdılar. Həmin feodal qrupları Teymurun canişininə qarşı vuruşur, digər tərəfdən öz aralarında mübarizə aparırdılar. Bu mübarizədə ***Təbriz şəhərini tutmaq*** ciddi şəkil almışdı. Bu dövrdə ayrı-ayrı feodal quruplları arasında Təbriz şəhəri uğrunda kəskin mübarizənin getməsinin əsas səbəbi o idi ki, ***Təbrizin tutulması Azərbaycana sahib olmağın əsas şərti idi***. Təkcə **1387-1392-ci illərdə Təbrizə** 17 dəfə hücum edildi və nəticədə şəhər bir feodal qrupundan digərinin əlinə keçdi. Bəhs edilən dövrdə Təbriz uğrund aşağıdakı feodal qrupları mübarizə aparırdılar:

1. **Cəlairi hökmdarı Sultan Əhməd və onun Əlincə qalasındakı əmirləri**
2. **Qara Yusifin başçılıq etdiyi qaraoyunlular**
3. **Təbrizin yerli hakimləri**
4. **Teymuri əmirləri**

Yerli feodallar əsas qüvvələrini Teymura qarşı mübarizəyə səfərbər etmək əvəzinə bir-biri ilə vuruşurdular.

**Əmir Teymurun Azərbaycanı asanlıqla işğal etməsinin səbəbi**

| Ölkədə vahid dövlətin olmaması | Feodal çəkişmələrinin getməsi |
|---|---|

**Əmir Teymurun Azərbaycana ikinci və üçüncü yürüşü (1392-1399)**

**1392-ci ildə** Əmir Teymur ***ikinci dəfə*** Azərbaycana yürüş edərək Təbrizə gəldi. Bu zaman Cəlairi əmirləri Əlincə qalasına sığınmışdılar və Teymura tabe olmamışdılar. Əlincə qalasının müdafiəsi Sultan Əhmədin oğlu **Sultan Tahirin** başçılığı ilə **Xacə Cövhər** və sonra **Əmir Altun** tərəfindən müdafiə olunurdu. Qalada 300-dən artıq döyüşçü var idi. Əlincə qalasının belə müdafiə olunmasının səbəbi ***Cəlairilər dövlətinin xəzinəsinin burada saxlanılması*** idi. Teymur Əlincəyə güclü qoşun göndərsə də qalanı tuta bilmədi. Teymur ikinci yürüşü zamanı **Gürcüstanı** zəbt etdi və Şəki hakimi **Seyid Əlini** itaətə gətirdi. Beləliklə, ***Əmir Teymurun Azərbaycana ikinci yürüşü nəticəsində də, Əlincə qalası istisna olmaqla bütün Azərbaycanı Teymurilər zəbt etdi, Cənubi Qafqazın, o cümlədən Azərbaycanın yerli feodalları Teymurilərə qarşı yenidən mübarizəyə qalxdılar.***

**1392-ci ildə** Toxtamış xan Azərbaycana ***üçüncü dəfə*** yürüş etdi. Buna cavab olaraq, **1395-ci ildə** Əmir Teymur ***Toxtamış xanın Azərbaycana qarətçilik yürüşlərinin qarşısını almaq məqsədi ilə*** onun üzərinə hücuma keçdi. Teymurun Qızıl Ordu üzərinə bu yürüşün nəticəsində **Terek çayı sahilində döyüşdə** Toxtamışa güclü zərbə endirərək qalib gəldi və oradan Səmərqəndə qayıtdı.

**Toxtamış xanın Azərbaycana yürüşləri**

| Birinci yürüşü (1385) | İkinci yürüşü ( 1387) | Üçüncü yürüş (1392) |
|---|---|---|
| • **Dərbənddən Şirvana daxil oldu**<br>• **Təbriz ciddi müqavimət göstərsədə hiylə yolu ilə tutuldu**<br>• **Təbrizdən başqa, Marağa, Mərənd, Naxçıvan şəhərləri qarət olundu**<br>• **Hücum nəticəsind bir çox şəhərlər qarət olundu, ölkədən çoxlu qənimət və 200 min əsir aparıldı** | • Dərbənddən Azərbaycana daxil oldu<br>• Miranşahın Kürün şimalına göndərilmiş qoşunlarına qarşı dura bilməyib geri çəkildi<br>• Buradan ölkəsinə qayıdaraq Buxarə və Səmərqəndə hücum etdi | • Azərbaycan yenə də dağıntılara məruz qaldı<br>• Teymur Toxtamış xanın Azərbaycana qarətçilik yürüşlərinin qarşısını almaq məqsədi ilə 1395-ci ildə onun üzərinə hücuma keçdi və<br>• rəqibinə güclü zərbə endirdi |

**Əlincə qalasının müdafiəsi**

Əmir Teymur dəfələrlə **Əlincə qalasına (1387, 1393, 1397-ci illərdə )** yürüş etsədə, heç bir qələbə qazana bilməmişdir. **1387-ci ildə** ilk yürüş zamanı Əlincə qalasında su qıtlığı baş verdiyi üçün onun müdafiəçiləri Teymurla danışıqlar aparıb qalanı

təslim etmək qərarına gəldilər. Lakin müdafiəçilər qaladan çıxmamış güclü ***yağış*** yağması qalada bol su ehtiyyatı yaratdı. ***Buna görə də Əlincə qalası Teymura tabe olmadı.***

**1393-cü ildə** Teymur Əlincə qalasına yenidən hücuma keçdi. Bu zaman qala müdafiəçilərindən bir dəstə, Əmir Altunun başçılığı ilə qaladan kənara çıxmışdı. Onlar geri qayıtdıqda qalanın mühasirəyə alındığını görüb hücuma keçdilər. Nəticədə, Əmir Altun və köməkçiləri rəqibə böyük zərbə vuraraq qalaya daxil oldu. Beləliklə, ***bu dəfə də Teymur Əlincə qalasını tuta bilmədi***. Əlincə qalasındakı müdafiəçilərə **gürcü feodalları** və **Şəki hakimi Seyid Əli** yaxından kömək etmiş, hətda birlikdə vuruşaraq qalib gəlmişdilər. Miranşaha qarşı mübarizədə ***hürufiliyin*** rolu böyük olmuşdu.

**1397-ci ildə** Teymur əlincə qalasını tuta bilməsə də, qala mühasirədə qalırdı. Əmir Teymurun Əlincə qalasını uzun müddət tuta bilməməsinin səbəbi ***qalanın strateji mövqedə yerləşməsi*** və ***yaxşı müdafiə olunması*** idi. ***Odur ki, Əlincə qalası Cənubi Qafqazın, o cümlədən Azərbaycanın yerli feodallarının Teymurilərə qarşı mübarizənin əsas dayağına çevrildi.***

### Əmir Teymurun Azərbaycana üçüncü yürüşü (1399)

Cənubi Qafqaz, o cümlədən Azərbaycanda baş vermiş hadisələrdən narahat olan Əmir Teymur **1399-cu ildə *üçüncü dəfə*** bu istiqamətdə yürüş etdi və **Qarabağa** gəldi. Qarabağda bir sıra Azərbaycan feodal hakimləri, o cümlədən Şəki hakimi Seyid Əhməd Şirvanşah I İbrahimin himayədarlığı ilə Teymurla ittifaq bağladı. Üçüncü yürüş zamanı – **1400-cü ildə,** 14 il cəsarətlə müdafiə olunan Əlincə qalası ***daxili çəkişmələr (Sultan Tahir ilə Əmir Altun arasındakı ziddiyyətlər) nəticəsində*** Teymura tabe oldu. ***Əlincə qalasının süqutu ilə*** Azərbaycan Teymurun tam hakimiyyəti altına düşdü.

**QEYD:** Dövrün tarixçisi **İbn Ərəbşahın** yazdığına görə Teymur Azərbaycanda olmadığı vaxtda Sultan Tahir ilə Əmir Altun arasında ciddi münaqişə baş verdi. Tahir ərzaq gətirmək üçün getmiş Altunu qalaya buraxmadı. Ona görə də Əlincə müdafiəçiləri Tahirdən üz döndərdilər. Belə olduqda Tahir acizliyini dərk edərək xəzinəsini götürüb yaxın adamları ilə Bağdada qaçdı və Əlincə müdafiəsiz qaldı. Teymur 1400-cü ildə başsız qalmış Əlincə qalasına gələrək müqavimətsiz qalanı tutur, onu seyr edir və möhtəşəmliyinə heyran qalır.

Əmir Teymur **1405-ci ildə Səmərqənddə** vəfat etdi. Bu zaman Azərbaycanın Şirvana qədər olan əraziləri Miranşahın oğlu **Mirzə Ömər** tərəfindən idarə olunurdu.

**Əmir Teymurun Azərbaycana yürüşləri**

| Birinci “üçillik” yürüş (1386-1387) yürüşü | İkinci “beşillik” yürüş (1392-1397) | Üçüncü yürüş (1399) |
|---|---|---|
| • Təbriz şəhəri tutuldu<br>• Cəlairi əmirləri Bağdada, bir qismi isə Əlincə qalasına qaçdı<br>• Xalq Cəlairi Şeyx Həsənin başçılığı ilə Naxçıvanda mübarizəyə qalxdı<br>• Əlincə qalası mühasirəyə alındı<br>• Yürüş nəticəsində, Əlincə qalası istisna olmaqla bütün Azərbaycan torpaqları tutuldu | • Əlincəyə güclü qoşun göndərsə də qalanı tuta bilmədi<br>• Gürcüstanı zəbt etdi və Şəki hakimi Seyid Əlini itaətə gətirdi<br>• Şirvanşah I İbrahim Teymurla ittifaq bağladı<br>• Yürüş nəticəsində, Əlincə qalası istisna olmaqla bütün Azərbaycan torpaqları tutuldu | • Qarabağ feodal hakimləri, Şəki hakimi Seyid Əhməd Şirvanşah I İbrahimin himayədarlığı ilə Teymurla ittifaq bağladı<br>• Əlincə qalası daxili çəkişmələr nəticəsində Teymura tabe oldu<br>• Azərbaycan Teymurun tam hakimiyyəti altına düşdü |

# Şirvanşahlar dövləti və Şəki hakimliyi XIII-XIV əsrlərdə

## Şirvanşahların Monqolların və Cəlaləddinin hücumuna məruz qalması

Xəzərin qərb sahilində yerləşən Şirvan vilayəti – ***Kür çayından Dərbənd mahalının şimal hüdudlarına kimi*** olan ərazini əhatə edirdi. A.Bakıxanovun yazdığına görə Şirvan vilayətinə ***Bakı, Quba, Dərbənd, Kürə, Salyan, Samur, Tabasaran, Şəki əraziləri*** və ***İlisunun aşağı hissəsi*** daxil idi.

**XIII əsrin əvvəllərində** Şirvanşahlar dövlətini **Güstasb (1203-1225)** idarə edirdi. Onun hakimiyyəti dövründə:

- ✓ Şirvan monqolların birinci yürüşünə məruz qaldı
- ✓ Monqol dəstələri Şirvanda qətil və qarətlər törətdilər.

**1225-ci ildə III Fəribürz (1225-1243)** ölkənin idarəsi ilə ciddi məşğul olmayan atası Güstasbı taxtdan salaraq hakimiyyətə tam sahib oldu. Güstasbın hakimiyyətini bərpa etmək üçün ***gürcü feodallarından*** kömək almaq cəhdi isə heç bir nəticə vermədi. Güstasbın hakimiyyətini bərpa etmək cəhdinin nəticə verməməsinin səbəbi III Fəribürzün hakimiyyətinin ***ordu və xalq tərəfindən müdafiə olunmaması*** idi. III Fəribürzün hakimiyyəti zamanı, **1225-ci ildə** Xarəzmşah Cəlaləddin Azərbaycana, o cümlədən Şirvana yürüş edərək tutdu. Xarəzmşah Cəlaləddinin Azərbaycana yürüşü zamanı III Fəribürz Cəlaləddin ilə müqavilə bağladı. Müqavilənin şərtlərinə əsasən:

1. **III Fəribürz Cəlaləddinə müəyyən miqdarda xərac verərək ondan asılı vəziyyətə düşdü**
2. **Şirvanşahlar daxili müstəqilliyini saxlaya bildi**

**1231-ci ildə** ikinci yürüşü zamanı monqollar tədricən Şirvan ərazisinə daxil oldular. **1239-cu ildə** Şirvan və Dərbənd monqollar tərəfindən ələ keçirildi.

**XIII əsrin 50-ci illərində** Şirvanı **II Axistan (1243-1260)** idarə edirdi. II Axistanın hakimiyyəti dövründə:

- ✓ Şirvanşahlar dövləti Hülakülərin hakimiyyətini qəbul etməli oldu
- ✓ Şirvanşahlar dövləti tədricən öz müstəqilliyini itirdi

Beləliklə, **XIII əsrin 50-ci illərində** Şirvanşahlar dövləti ***Monqolların III yürüşü nəticəsində*** tədricən öz müstəqilliyini itirməyə başladı. Şirvan hakimləri artıq Hülakülər tərəfindən təyin olunurdu. Bu vəziyyət **XIV əsrin ikinci rübünə kimi** davam etdi.

## Şirvanşahların Çobanilərin və Cəlairilərin hakimiyyəti altına düşməsi

Azərbaycanda çobani ağalığı dövründə Şirvan padişahı kimi tanınan **Kavus (1345-1372)** Çobani Əşrəfin ağalığını qəbu etmədi. Odurki Əşrəf iki dəfə (1347-1348-ci illərdə) Şirvana yürüş etdi. Əşrəflə Kavus arasında razılığa əsasən:

1. **Şirvanşahlar Çobanilərin ağalığını tanıdı**
2. **Bunun müqabilində Çobani Əşrəf Şirvandan geri çəkildi**

**1358-1359**-cu illərdə Azərbaycan Cəlairilər dövləti tərəfindən istila olunduqdan sonra, Şirvanşahlar bir müddət müstəqilliyini qoruyub saxlaya bildi. **1364-cü ildə** Şirvanda Cəlairilərə qarşı üsyan baş verdi. **1367-ci ildə** isə Şirvanşah Kavus Cəlairi sultanı Şeyx Üveysin Bağdadda olmasından istifadə edərək iki dəfə ***Təbrizə yürüş etdi və Azərbaycanı azad etməyə səy göstərdi***. Lakin Üveysin geri qayıtması xəbərini alan Kavus Şirvana çəkilməli oldu. Şeyx Üveys Kavusu cəzalandırmaq məqsədi ilə Şirvana yürüş etdi. Şeyx Üveysin Şirvana bu yürüşü nəticəsində ***Şirvan qarət olundu və Kavus əsir galındı***. Lakin Şeyx Üveys Kavusu azad edib yenidən Şirvan hakimi təyin etdi. Bununla da, Şirvanşahlar Cəlairilərin ***vassal asılılığını*** qəbul etdilər (1367-ci ildə).

Kavus öldükdən sonra Şirvanşahlar dövlətini onun oğlu **Hüşəng (1372-1382)** idarə etdi. **1382-ci ildə** ***Hüşəng öldürülməsi ilə Şirvanşahlar dövlətində Kəsranilər sülaləsinin hakimiyyəti başa çatdı.***

**Şirvanşah hökmdarları XIII-XIV əsrlərdə**

| | |
|---|---|
| **Güstasb (1203-1225)** | Şirvan monqolların birinci yürüşünə məruz qaldı |
| **III Fəribürz (1225-1243)** | Güstasbı taxtdan salaraq hakimiyyətə tam sahib oldu. Xarəzmşah Cəlaləddin Şirvanı tutdu, Şirvan monqolların II yürüşünə məruz qaldı |
| **II Axistan (1243-1260)** | Şirvanşahlar dövləti monqolların III yürüşü nəticəsində Hülakülərin hakimiyyətini qəbul etməli oldu və tədricən müstəqilliyini itirdi |
| **Kavus (1345-1372)** | Şirvanşahlar dövləti Çobanilərin və Cəlairilərin ağalığını tanıdı |
| **Hüşəng (1372-1382)** | Öldürülməsi ilə Şirvanşahlar dövlətində Kəsranilər sülaləsinin hakimiyyəti başa çatdı |

**Şirvanda Dərbəndlilər sülaləsinin hakimiyyətə gəlməsi. Şirvanşah I İbrahimin hakimiyyətə gəlməsi**

**1382-ci ildə** Şirvanda Kəsranilər sülaləsinin sonuncu nümayəndəsi Hüşəngin öldürülməsi ilə ***Dərbəndlilər sülaləsi*** hakimiyyətə gəldi. Hüşəng öldürüldükdən sonra ***Şirvan əyanları*** Dərbəndlər sülaləsinin nümayəndəsi Şeyx İbrahim Dərbəndi - **I İbrahim (1382-1317)** adı ilə taxta çıxardı. Dərbəndlilər sülaləsi **1382-1538-ci illərdə** Şirvanşahlar dövlətini idarə etdi. I İbrahim Dərbəndlilər sülaləsinin ən görkəmli və ilk nümayəndəsi idi.

Şirvanşah I İbrahimin hakimiyyəti dövründə Şirvanşahlar dövləti iki təhlükə qaşısında qaldı:

1. **Cənubdan hücum edən Əmir Teymurun hücumu**
2. **Şimaldan Qızıl Ordu xanı Toxtamış xanın həmlələri**

**XIV əsrin 80-ci illərində** Şirvanın daxili və xarici vəziyyətini ***Əmir Teymurun və Qızıl Ordu xanı Toxtamışın hücumları*** gərginləşdirdi. Toxtamış xan **1385-1387-ci ci illərdə Dərbənddən Şirvana** daxil olsa da, ölkədən çıxmalı oldu. Şirvanşah I İbrahim tərəflərin hər hansı birinə qarşı mübarizə aparmağın çətinliyini dərk edərək Əmir Teymurun tərəfinə keçməyi üstün tutdu. Şirvanşah I İbrahimin Əmir Teymur tərəfinə keçməkdə əsas məqsədi ***Toxtamış xana qarşı ittifaqa girmək*** idi.

Əmir Teymurin Azərbaycana birinci yürüşü zamanı - **1386-cı ildə** Teymur Qarabağda olan vaxt qiymətli hədiyyələrlə onun hüzuruna gedərək müqavimət göstərmədən ona itaət etdiyini bildirdi və onunla ittifaq bağladı. Şirvanşah I İbrahimin Teymurla bağladığı ittifaqa əsasən:

- **Teymur I İbrahimin səmimiliyini və dərrakəsini görə onu Şirvan hakimi kimi tanındı**
- **Teymur şimal sərhədlərin mühafizəsini I İbrahimə tapşırıldı**
- **I İbrahim Teymurun Qızıl Ordu dövlətinə olan yürüşündə yaxından iştirak etdi**

Qızıl Ordudan qələbə ilə qayıdan Teymur ***Dərbəndin səddini*** daha da möhkəmlətdi. I İbrahim Azərbaycanın ***yerli feodallarının*** Teymurla danlşıqlar aparmasında da mühüm rol oynadı. Məsələn, Teymurun Azərbaycana ***üçüncü yürüşü zamanı*** (1399) I İbrahim Cənubi Qafqazın ***Miranşaha qarşı üsyan etmiş feodallarını***, o cümlədən **Şəki hakimi Seyid Əhmədin** Teymur ilə ittifaq bağlamalarına nail oldu və beləliklə, Azərbaycanın bu ərazisi də işğaldan azad olundu.

Beləliklə, I İbrahimin Teymurla bağladığı ittifaq ***nəticəsində:***

- ***Şirvan Toxtamış xanın hücumlarından və digər yersiz qarətlərdən xilas oldu***

- ***I İbrahim Toxtamışa qarşı Əmir Teymurun simasında sadiq müttəfiq qazandı***
- ***Şirvannı iqtisadi və siyasi cəhətdən qüvvətlənməsinəə imkan yarandı***
- ***Teymur Şəkili Seydi Əhmədi Şəki hakimi kimi tanıdı və Şəki  işğaldan xilas oldu***
- ***Ölkənin Şimal sərhədləri möhkəmləndi***

**Dərbəndilər sülaləsi**

| I İbrahim (1282-1417) | I Xəlilullah (1417-1462) | F. Yasar (1462-1500) | II İbrahim (1502-1524) | II Xəlilullah (1524-1535) | Şahrux (1535-1538) |
|---|---|---|---|---|---|

**Şirvanşah I İbrahimin Azərbaycanı birləşdirmək cəhdləri**

Teymurun ölümündən sonra (1405) Azərbaycanda siyasi vəziyyət dəyişdiyi üçün Şirvanşah I İbrahim Teymurilərə qarşı aşağıdakı yeni siyasi xətt tutdu:

- ***Teymurilərə itaətdən çıxaraq onlara qarşı çıxdı***
- ***Azərbaycanı birləşdirmək siyasəti yeritdi***

**1406-1410-cu illərdə** Azərbaycan ərazisi ***Teymurilərin, Cəlarilərin*** və ***Qaraqoyunluların*** mübarizə meydanına çevirildi. **Gəncə, Şəki, Qarabağ, Təbriz, Ərdəbil, Marağa,** və.b yerlərdə Teymurilərə qarşı ***xalq hətəkatı*** baş verdi. Teymurilərə qarşı xalq hərəkatından istifadə edən Şirvanşah I İbrahim aşağıdakı tədbirləri həyata keçirdi:

- Teymurilərə qarşı mübarizəyə qalxaraq, Gəncəni və Qarabağın xeyli hissəsini tutdu
- Teymurilərə qarşı **Gürcü çarı, Qaramanlı tayfası, Şəki** və **Ərdəbil hakimləri** ilə ittifaqa girdi
- **1405-ci ildə Kür sahilində** döyüşdə Teymurun nəvəsi Öməri məğlub etdi
- **1406-cı ildə Təbrizə** daxil olaraq, qısa müddətə də olsa Azərbaycanı öz hakimiyyəti altında birləşdirdi

**QEYD:** 1406-cı ildə Təbrizdə teymurilərə qarşı üsyan qalxdığı zaman ***üsyançılar*** kömək üçün Şirvanşah I İbrahimə müraciət etdi**.** I İbrahim ***üsyançılara kömək etməq məqsədi ilə*** **1405-ci ilin martında Təbrizə** yürüş etdi. Bu zaman əhali onu ***çox hörmətlə və öz hakimləri kimi*** qarşıladı. Beləliklə, I İbrahim, qısa müddətə də olsa Azərbaycanı öz hakimiyyəti altında birləşdirdi. Lakin tezliklə Təbrizi tərk edərək Şirvana qayıtdı. I İbrahimin Təbrizi tərk etməsinin səbəbi ***Cəlairi Sultan Əhməd və onun müttəfiqi Qaraqoyunlu Qara Yusifin Təbriz şəhərinə yaxınlaşması*** idi.

**1406-1410-cu illərdə Azərbaycan ərazisi uğrunda mübarizə aparan qüvvələr**

| Teymurilər | Qaraqoyunlular | Cəlariləri |
|---|---|---|

**I İbrahimin Teymurilərə qarşı ittifaqa girdiyi qüvvələr**




**Şirvanşah I İbrahim (1382-1417)**

- ✓ Dərbəndlilər sülaləsinin ən görkəmli və ilk nümayəndəsi idi
- ✓ Şirvanşahlar dövləti Əmir Teymurun hücumu və Qızıl Ordu xanı Toxtamış xanın hücumuna məruz qaldı
- ✓ Əmir Teymurin Azərbaycana birinci yürüşü zamanı ona itaət etdiyini bildirdi və onunla ittifaq bağladı
- ✓ Teymur I İbrahimi Şirvan hakimi kimi tanındı
- ✓ I İbrahim Teymurun Qızıl Ordu dövlətinə olan yürüşündə yaxından iştirak etdi
- ✓ Teymur Dərbəndin səddini möhkəmlətdi və ölkənin Şimal sərhədləri möhkəmləndi
- ✓ Azərbaycanın yerli feodallarının Teymurla danlşıqlar aparmasında da mühüm rol oynadı
- ✓ Teymurun Azərbaycana üçüncü yürüşü zamanı (1399) Miranşaha qarşı üsyan etmiş feodallarını, və Şəki hakimi Seyid Əhmədin Teymur ilə ittifaq bağlamalarına nail oldu
- ✓ Teymurun ölümündən sonra (1405) Teymurilərə qarşı aşağıdakı yeni siyasi xətt tutdu, Teymurilərə itaətdən çıxaraq onlara qarşı çıxdı, Azərbaycanı birləşdirmək siyasəti yeritdi
- ✓ Teymurilərə qarşı mübarizəyə qalxaraq, Gəncəni və Qarabağın xeyli hissəsini tutdu
- ✓ Teymurilərə qarşı Gürcü çarı, Qaramanlı tayfası, Şəki və Ərdəbil hakimləri ilə ittifaqa girdi
- ✓ 1405-ci ildə Kür sahilində döyüşdə Teymurun nəvəsi Ömərі məğlub etdi
- ✓ 1406-cı ildə Təbrizə daxil olaraq, qısa müddətə də olsa Azərbaycanı öz hakimiyyəti altında birləşdirdi
- ✓ 1412-ci ilin payızında Şirvanşah və onun müttəfiqlərinin birləşmiş qüvvələri ilə Qara Yusifin qoşunu arasında Kür çayı sahilində döyüşdə Qara Yusifə məğlub olaraq Qaraqoyunluların vassal asılılığını qəbul edi

**Şəki hakimliyi XIII-XIV əsrlərdə**

**XIII əsrin 20-ci illərinin əvvəllərində** Şəki ***Şirvanşahlar dövlətinin*** tabeliyində idi. Bu dövrdə şəhəri iki nəfər – **vəzir Səfiəddin** və **vali Qaşqara** idarə edirdi. Şəki **XIII-XIV əsrlərdə** də Şirvanşahlar dövlətinin tərkibində qaldı.

**XIII-XIV əsrlərin qovşağında** Şəki tarixçi **Fəzlülah Rəşidəddinin oğlu Cəlalın** sərəncamında idi. **XIV əsrin 30-cu illərində,** Hülakülər dövlətinin tənəzzülü və parçalanması dövründə Şəki haimliyi:

- ***Daxili müstəqilliyini*** bərpa etdi
- Hakimiyyətə ***Oyrat sülaləsi*** gəldi

• Ölkənin siyasi həyatında daha yaxından iştirak etdi
• Müstəqillikuğrunda mübarizə apardı

**XIV əsrin son rübündə** Şəki hakimlərinin müstəqillikləri uğrunda mübarizəsi daha da gücləndi.

Teymur Azərbaycana ilk yürüşü dövründə (1386-1387) Şəki vilayətinə gələrək:

• Şəkinin dağlıq ərazilərindəki əhalini qarət etdi
• Şəki hakimi Seyid Əli Oyratı itaətə gətirdi

Şəki hakimi Seyid Əli Oyrat Teymurun Azərbaycanda olmadığı dövrdə (1387-1392) itaətdən boyun qaçırdı. Teymur ikinci yürüşü zamanı ***Seyid Əlini cəzalandırmaq məqsədi ilə*** Gürcüstan istiqamətindən Şəkiyə hücum etdi. Teymurun bu yürüşü nəticəsində Seyid Əli mülkünü və əmlakını ataraq qaçsada onu yenidən ona itaət etmməli oldu.

Teymurun Azərbaycana hakim təyin etdiyi Miranşah **1395-ci ildə** Seyid Əlinin müxalif çıxdığını güman edib vəziyyəti yoxlamadan Şəkiyə hücum etdi. Hücum nəticəsində  Şəki talan olundu.

Seyid Əli Teymurilərin mühasirəyə aldığı Əlincə qalasının müdafiəçilərinə də daimi kömək edirdi. O, bu məqsədlə **Gürcü feodalları** ilə ittifaqa girib Əlincə qalasına hücum etdi. Seyid Əlinin Əlincə qalasına hücumu ***nəticəsində:***

- Əlincə ətrafındakı Teymurilərin qoşunu məğlub oldu və qoşunun başçısı Səncər Təbrizə qaçdı
- Əlincə qalasında mühasirədə olanlar və Sultan Tahir azad edildi

Səncər Təbrizdə vəziyyəti Miranşaha bildirdikdə, Miranşah oğlu Əbu Bəkri Şəki üzərinə göndərdi. Tərəflər arasında döyüş baş verdi. Əbu Bəkrlə  Seyid Əli arasında Şəki yaxınlığında döyüş  nəticəsində - Seyid Əli öldürülsə də Əbu Bəkrin qüvvələri məğlub edildi. Seyid Əlidən sonra onun oğlu **Seyid Əhməd** Şəki hakimi oldu və atasının yeritdiyi siyasətdən fərqli olaraq Teymurilərlə yaxımlaşdı. Belə ki, Teymurun Azərbaycana üçüncü yürüşü zamanı (1399) o, Şirvanşah I İbrahinin vasitəçiliyi ilə Teymurun hüzuruna qiymətli hədiyyələrlə Teymurun yanına gedərək ona itaətini bildirdi. Əmir Teymur isə bunun qarşılığında:

- Seyid Əhmədi Şəki hakimi kimi tanıdı, ona xələt verdi
- Seyid Əhmədin atası Seyid Əlinin günahını bağışladı

# XIII-XIV əsrlərdə Azərbaycanın iqtisadi həyatı

## Azərbaycana monqol yürüşlərinin iqtisadi nəticələri

Əsas gəlirlərini heyvandarlıqdan əldə edən köçmə monqol-türk qəbilələrinin Azərbaycana gəlməsi ilə:

- Oturaq əhalinin həyat tərzinə güclü zərbə vuruldu
- Kənd təsərrüfatının inkişafı zəiflədi

Monqol yürüşlərinin nəticələri də ağır oldu. Belə ki, Azərbaycana monqol yürüşləri nəticəsində:

- Ölkənin ictimai-iqtisadi və mədəni həyatına ağır zərbə vuruldu
- Feodal pərakəndəliyi daha da artdı, mədəniyyət abidələri məhv edildi
- İrriqasiya sistemi və əkin sahələri dağıdıldı, becərilən torpaqlar otlaqlara çevrildi
- Şəhər həyatı və sənətkarlıq xeyli zəiflədi
- Sənətkarlar əsir kimi Qaraqoruma aparıldı

Monqollar Azərbaycanı işğal etdikdən sonra ***Muğanda qurultay*** çağırdılar. Muğan qurultayında:

• **Cənubi Qafqaz ərazisi *110 monqol noyunu arasında bölüşdürüldü***
• **Molar noyon *Şəmkirin və ətraf ərazilərin hakimi təyin edildi***

**Monqolların Muğanda çağrılmış qurultayda çıxardığı qərarlar**

- Cənubi Qafqaz ərazisi 110 monqol noyunu arasında bölüşdürüldü
- Molar noyon Şəmkirin və ətraf ərazilərin hakimi təyin edildi

## Monqolların Azərbaycanda iqtisadi siyasəti

**XIII əsrin ortalarında** Azərbaycanda təsərrüfatda müəyyən canlanma yarandı. Həmin canlanmanın səbəbləri bunlar idi:

- ***Hülakülər dövlətinin yaradılması***
- ***Mərkəzi hakimiyyətin qüvvətlənməsi***

**1254-cü ildə** monqollar Azərbaycanda ***10 yaşından 60 yaşınadək bütün kişiləri siyahıya aldı***. Bu dövrdə təsərrüfatın canlanması üçün müəyyən tədbirlər görülsə də, məhsuldar qüvvələrin inkişafı əvvəlki səviyyəyə çata bilmədi. Hülakülər dövlətində **Hülakü** və **Abaqa xanın** hakimiyyəti dövründə:

- ***Torpaq və vergi siyasəti formalaşmağa başladı***
- ***Mərkəzi idarə sistemi yarandı***

**XIII əsrin ortalarında** Elxanilərin ***iqtisadi siyasətinin əsasını*** aşağıdakılar təşkil edirdi:

- ***Yerli feodalları hər vasitə ilə torpaq sahələrindən məhrum etmək***
- ***Rəiyyətin amansız istismarından alınan bütün vergiləri mənimsəmək***

Monqol canişinləri dövründən başlayan bu siyasət əsasən ***ilk elxanlar zamanındada*** həyata keçirildi və ***Qazan xanın dövrünə kimi*** davam etdi. Monqolların ***kənd təsərrüfatı sahəsindəki*** iqtisadi siyasətinin aşağıdakı nəticəlıri oldu:

- Əkin sahələri və məhsuldarlıq azaldı
- Əhalinin həyat səviyyəsi pisləşdi
- Bir çox yerli feodallar torpaq sahələrindən məhrum oldu
- İşğal olunmuş torpaqlar incu və divan torpaqlarına çevrildi
- Bütün torpaqlar (divan, incu, bayrat və.s) köçmə feodalların ixtiyarına keçdi

## Monqollar dövründə torpaq mülkiyyət formaları

Monqol ağalığı dövründə (XIII-XIV əsrlər) Azərbaycanda aşağıdakı torpaq mülkiyyət formaları mövcud idi:

1. **Divan** - dövlətə məxsus olub, gəliri birbaşa xəzinəyə daxil olan torpaqlar idi
2. **İncu** – hökmüdar və xan nəslinə məxsus torpaqlar idi
3. **Bayrat** - istifadəsiz qalıb, sonradan monqol feodallarının himayəsinə keçmiş torpaqlar idi
4. **İqta** – xidmət müqabavilində verilən torpaqlar idi

**Monqol ağalığı dövründə (XIII-XIV əsrlər) Azərbaycanda torpaq mülkiyyət formaları**




## Monqollar dövründə vergi sistemi

Monqollar dövründə əvvəlki vergilərlə yanaşı monqolların təyin etdiyi yeni vergilər də toplanılırdı. Həmin vergilər bunlar idi:

1. **Tamğa** - Monqol ağalığı dövründə şəhər ***sənətkarları*** və ***tacirlərdən*** pulla alınan vergi növü idi.
2. **Qopçur** – Bu vergini əvvəllər ***köçəri maldarlar*** ödəyirdilər. Sonrlar ***can vergisinə*** çevrilərək şəhər və kəndlərin otlaq sahəsinə də şamil edildi.

Ümumiyyətlə, Azərbaycanda monqol ağalığı dövründə:

- *Vergi və mükəlləfiyyətlərin miqdarı 40-dan artıq idi*
- *Vergi sahəsində özbaşınalıq hökm sürürdü*
- *Eyni verginin təkrar toplanması adi hal almışdır*
- *Vergilərin toplanması əksər hallarda icarəyə (müqatiəyə) verilirdi*
- *Rəiyyət vergi ödəməklə yanaşı biyara getməli idi*

## Keyxatu xanın pul islahatı həyata keçirməsi

**XIII əsrin son rübündə**, **Abaqa xanın (1265-1282)** hakimiyyətinin sonlarına yaxın Elxanilər dövlətində ***iqtisadi və siyasi böhran*** baş verdi. Bu iqtisadi və siyasi böhranın səbəbləri əsasən aşağıdakılar idi:

1. ***Feodal çəkişmələrinin artması***
2. ***Mərkəzi hakimiyyətin zəifləməsi***

İqtisadiyyatda baş verən tənəzzül dövlət xəzinəsinin boşalmasına səbəb oldu. Keyxatu xan ***xəzinənin boşalmasının qarşısını almaq məqsədi ilə*** ölkədə ***pul islahatı*** həyata keçirdi. Keyxatu xanın pul islahatına əsasən - tədavülə ***çao adlı kağız pullar*** buraxıldı. Keyxatu xanın həyata keçirdiyi pul islahatı nəticəsində ***xəzinənin boşalmasının qarşısı alınmadı və islahat səmərəsiz qaldı***. Odur ki, iki aydan sonra çao tədavüldən çıxarıldı.

**QEYD:** Çao ilk dəfə Çində kəsilmiş kağız pul idi. Tədavüldə qızıl və gümüş pulların dəyərdən düşməsinin qarşısını almaq məqsədi ilə işlədilir və qızılın dövlət xəzinəsinə toplanmasına səbəb olurdu.

## Azərbaycan şəhərləri XIII-XIV əsrlərdə

**XIII-XIV əsrlərdə Azərbaycanın** əsas şəhərləri **Gəncə, Təbriz, Naxçıvan, Marağa, Ərdəbil, Dərbənd** idi. Onların bəzilərində 100 mindən artıq adam yaşayırdı. Şəhər əhalisinin sosial tərkibinin əsas hissəsini ***sənətkarlar*** və ***tacirlər*** təşkil edirdi. Bundan başqa şəhərlərdə kənd təsərrüfaı ilə məşğul olan ***əkinçilər*** də yaşayırdı. **Təbriz, Gəncə** və **Beyləqan** ***qala şəhərləri*** idi. Monqol yürüşləri ölkənin şəhər həyatına da ağır zərbə vurmuşdu.

**XIII əsrdə** şəhərlərdə ***aqrarlaşma prosesi*** getsədə, Azərbaycan şəhərləri öz potensialını itirmədilər. Zaman keçincə şəhər həyatında müəyyən canlanma baş verdi. Bu canlanmada aşağıdakı amillər mühüm rol oynadı:

- ***Qazan xanın islahatları***
- ***Qazan xanın vergi və ticarət shəsindəki tədbirləri***

**XIII-XIV əsrlərdə, Qazan xanın islahatları nəticəsində Təbriz, Marağa** və **Sultaniyyə** şəhərləri daha sürətlə ikişaf etdi. Bunun əsas səbəbi həmin şəhərlərin müəyyən vaxtlarda Hülakülərin paytaxt şəhərləri olmaları idi. Bu dövrdə Azərbaycanda Qazan xan tərəfindən **Mahmudabad adlı yeni şəhər** salındı.

**XIV əsrin ikinci yarısında** ***siyasi vəziyyət (feodal çəkişmələrinin artması və mərkəzi hakimiyyətin zəifləməsi)*** şəhər həyatına mənfi təsir etdi. **Naxçıvan, Mərənd, Sərab şəhərləri** daha acınacaqlı hala düşdülər.

**XIV əsrdə daha acınacaqlı hala düşmüş Azərbaycan şəhərləri**

Naxçıvan | Mərənd | Sərab

## Sənətkarlıq

Monqol ağalığı dövründə sənətkarlıq xeyli zəiflədi. Bunun əsas səbəbi Sənətkarların əsir edilərək qul vəziyyətində **Qaraqoruma** və.b şəhərlərə aparılıması idi. XIII əsr salnaməçisi **Cüveyninin** yazdığına görə Xarəzmdə 100 minə qədər sənətkar əsir saxlanılırdı. Cavan əsirlərdən ***ehtiyat hərbi hissələr*** təşkil olunaraq ön cəbhəyə göndərilirdi. Beləliklə, sənətkarların qul halına düşməsi və orduya cəlb edilməsi təsərrüfatın və sənətkarlığın inkişafına mane olurdu. Monqollar Azərbaycandan apardıqları sənətkarlardan aşağıdakı sahələrdə istifadə olunurdu:

- ***Tikinti-inşaat işlərində***
- ***Silah hazırlanmasında***
- ***Zərgərlik sahəsində***

XIII-XIV əsrlərdə Azərbaycanda sənətkarlığın ***toxuculuq, xalçaçılıq, dəri istehsalı, ağac emalı, metalişləmə, dulusçuluq*** və ***bədii sənətkarlıq*** növləri daha çox inkişaf etmişdir. Sənətkarlıqda **Təbriz, Şirvan, Uçan** və **Beyləqan** şəhərləri xüsusilə fərqlənirdi. XIII-XIV əsrlərdə şəhərlərdə müxtəlif sənət növləri üzrə ***rastalar-cərgələr*** mövcud idi. Sənətkar, tacir və şəhər əhalisinin digər aşağı təbəqələri ***əxi adlanan*** təşkilatlarında birləşmişdilər. Əxilik ***sənətkarların dini-ictimai-siyasi və peşə təşkilatları*** idi.

## Ticarət. Avropa-Asiya iqtisadi əlaqələrində Azərbaycanın rolu

**XIII-XIV əsrlərdə** Hülakülər dövlətinin ticarət əlaqələrində **Genuya, Venesiya, Rusiya, Hindistan, Çin** və **Misir** xüsusilə fərqlənirdi. Bu zaman Azərbaycan dünya əhəmiyyətli karvan yollarının kəsişdiyi məkana çevrilmişdir. **Cənub yolu, Şimal yolu, Şərq yolu, Qərb yolu** kimi tanınan ölkədə əsas ticarət yolları ticarətin inkişafına geniş imkanlar yaratmışdır.

**XIII əsrin sonlarında** ölkə ticarətində böyük canlanma baş verdi. Bunun əsas səbəbi ***Qazan xanın ticarət və pul islahatları keçirməsi*** idi. Ticarət yolları üzərində ***karvansaralar*** tikildi və karvansaraların təhlükəzliyini təmin etmək üçün ***karvansarlar dəstələri*** yaradıldı. ***Karvansarlar*** - Hülakülər dövründə karvanları quldur təcavüzündən qorumaq üçün yaradılmış silahlı mühafizə dəstələrinin başçılarına deyilirdi.

Ticarətin əsas hissəsini ölkənin müxtəlif yerlərində istehsal olunan ***əmtəə məmulatı*** təşkil edirdi. XIII-XIV əsrlərdə ***Bakı nefti, Şirvan ipəyi, Təbriz və Şirvan xalçaları, Şəmkir yun parçaları, Naxçıvan duzu, Beyləqan qənnadı məmulatı, Kağızkonan (Uçan şəhəri) kağız istehsalı ilə*** dünyada tanınır və xarici ölkələrin bazarlarında yüksək qiymətləndirilirdi.

Ticarətdə puldan geniş istifadə olunurdu. Azərbaycanın bir çox şəhərlərində ***zərbxanalar*** fəaliyyət göstərirdi. Monqol ağalığı - Hülakülər dövründə Azərbaycanda ***tümən, qızıl və gümüş dinar, danq, fils, dirhəm*** pul vahidlərindən istifadə olunurdu.

**XIII-XIV əsrlərdə Hülakülər dövlətinin ticarət əlaqələrində fərqlənən dövlətlər**




## Qazan xanın islahatları

### Qazan xanın islahatlar keçirməkdə məqsədi

Qazan xan ***Hülakü dövlətini iqtisadi və siyasi böhrandan xilas etmək üçün*** bir sıra islahatlar - ***torpaq, vergi, məhkəmə, rabitə, ticarət*** və ***pul islahatları*** həyata keçirdi. Qazan xanın islahatlar keçirtməkdə ***məqsədi*** bunlar idi:

- *Dövlət xəzinəsinə gəlirlərin axınını davamlı olaraq təmin etmək*
- *Əhalinin vergi toplanmasını nizama salmaq*
- *Vergi sahəsində monqol əyanlarının özbaşınalığına son qoymaq*
- *Sıravi monqollara torpaq verməklə onların yaşayışı üçün şərait yaratmaq*

Qazan xanın islahatlarının təşkilində və həyata keçirilməsində vəzir, tarixçi alim və həkim **Fəzlüllah Rəşidəddinin** böyük rolu olmuşdu.

**Qazan xanın islahatlar həyata keçirdiyi sahələr**




### Torpaq islahatı

Qazan xanın torpaq islahatı ***monqolların orta təbəqəsinin və Elxanilərə xidmət edən yerli əyanların mənafeyinin və yaşayışının təmin olunmasına*** istiqamətləndirilmişdir. Qazan xanın torpaq islahatının əsasını ***monqol qoşun hissələrində xidmət edənlərə torpaq verilməsi*** təşkil edirdi. Qazan xanın torpaq islahatına əsasən:

- Monqol qoşun hissələrində xidmət edənlərə ***incu, divan*** və ***bayrat*** torpaqları hesabına **- iqta** torpağı verildi
- İqta sahibinin sərəncamına torpaqla bərabər, həmin ərazilərdəki kəndlər, suvarma şəbəkələri verildi
- ***İqta torpaqları*** satılıb-alına, bağışlana və ya başqa şəkildə digərinə verilə bilməzdi
- İqtalar iqta sahiblərinin ölümündən sonra onun hərbi işi davam etdirən xələfinə və hərbi işə təyin olunmuş şəxsə verilirdi

Qazan xan istifadəsiz qalan ***bayrat torpaqlarının*** becərilməsi üçün də tədbirlər gördü. Həmin tədbirlərə görə:

- İstifadəsiz qalan bayrat torpaqları qeydə alınaraq onların sahibkarlığı müəyyənləşdirildi
- Becərilməyən mülklər satın alınaraq dövlət torpaqlarına qatıldı

- Dövlət vergilərinin miqdarı ***torpaqların məhsuldarlığından asılı olaraq*** müəyyənləşdirildi
- Yeni sahibkarlar bu torpaqları başqasına bağışlaya və satıla bilməzdi
- Həmin torpaqlar yeni sahibkarlara paylandı və onların bu ərazilər üzərindəki hüququ divan sənədləri ilə qanuniləşdirildi

**Qazan xan 1303-cü ildə *verdiyi fərmanla iqta torpaqlarında yaşayan kəndlilərin bir yerdən başqa yerə getməsi qadağan olundu. Bu fərmanla kəndlilər öz yaşayış yerlərinə təhkim olunurdu.***

## Vergi islahatı

Qazan xanın vergi islahatına əsasən vergi toplanması sahəsində aşağıdakı dəyişikliklər edildi:

- Vergilərin növü, həcmi, toplama üsulu, vaxtı və.s məsələlərdə qayda qanun yaradıldı
- Vergi verənlərin siyahısı tutuldu, qeyri qanuni vergilərin toplanması qadağan olundu
- Əhalinin ödəyəcəyi vergilərin miqdarı lövhələrə həkk olunaraq baxımlı yerlərdə nümayiş etdirildi
- Vergilərin nağd pulla və ya natura şəklində toplanması və toplama vaxtı dəqiqləşdirildi
- Vergi toplanması ***mərkəzi divana*** həvalə olundu
- Vilayət hakimlərinin vergilərin toplanmasında müdaxiləsinin qarşısı alındı
- Vergilərin icarəyə verilməsi və əldə olunmuş vergilərin məsrəfi üzərində ciddi nəzarət qoyuldu

***Qazan xanın vergi islahatı kəskin mübarizə şəraitində həyata keçirilmişdi.***

## Məhkəmə islahatı

Qazan xanın məhkəmə islahatı keçirməkdə iki əsas ***məqsədi*** var idi:

1. ***Ölkədəki qanunsuzluq, rüşvətxorluq və özbaşınalıqların qarşısını almaq***
2. ***Məhkəmələrdəki yarıtmaz vəziyyəti aradan qaldırmaq***

Qazan xanın məhkəmə islahatına əsasən:

- İslahat zamanı əsas diqqət qazi vəzifəsinə ədalətli din xadimlərinin təyin olunmasına, alqı-satqı işlərində qayda-qanun yaradılmasına yönəldildi
- Qazi vəzifəsinə təyin olunanlardan qanuna ciddi əməl edəcəkləri barədə ***iltizam*** alınması tətbiq olundu, cinayətkarların qanuni cəzalandırılmaları üçün tədbirlər görüldü
- 30 illik tarixi keçmiş ***iddia sənədləri*** öz qanuni qüvvəsini itirdi

***Qazan xanın məhkəmə islahatı yarımçıq qaldı və tam şəkildə həyata keçirə bilmədi.***

## Rabitə islahatı

Qazan xanın rabitə islahatına əsasən:

- Ticarət yollarında gömrük toplanması işi qaydaya salındı, yollarda ***karvansaralar*** tikildi
- Əsas yollarda hər üç fərsəxdən bir rabitə dayanacaqları adlanan ***yamlar*** yaradıldı
- Yamlara ***əmirlər*** təyin olundu, onların sərəncamına lazımi qədər qulluqçular, atlar və qoşqu verildi
- Rabitə işçilərinin olan ***elçilərin*** və ***yam işçilərinin*** əhalinin hesabına maliyyələşdirilməsi qaydası ləğvi edildi
- İki il müddətində həyata keçrilən bu islahat nəticəsində ***rabitə sistemi*** yaradıldı

## Pul islahatı

Qazan xan ticarətin inkişafını təmin etmək məqsədi ilə aşağıdakı tədbirləri həyata keçirdi:

- Vahid pul sistemi yaradıldı
- Çəki və ölçü vahidləri dəqiqləşdirildi
- Ticarət yollarında və bazarlarda gömrük toplanması işi qaydaya salındı
- Karvanların, ticarət mərkəzlərinin qorunması üçün mühafizə dəstələri – ***karvansarlar*** təşkil olundu

## Qazan xanın islahatlarının nəticələri

Qazan xanın həyata keçirdiyi islahatları ilk vaxtlarda aşağıdakı təsirli nəticələr oldu:

- Əhalinin vəziyyəti nisbətən yüngülləşdi, sui-istifadə halları azaldı
- Mərkəzi dövlət müvəqqəti də olsa qüvvətləndi
- Hülakülər dövlətinin labüd tənəzzülü bir müddət təxirə salındı
- İqtisadiyyatda canlanma baş verdi

Qazan xanın islahatlarına baxmayaraq, **XIV əsrin 30-cu illərində** Hülakülər dövlətinin iqtisadi vəziyyəti yenidən pisləşdi. Hülakülər dövlətində iqtisadi vəziyyəti yenidən pisləşməsinin əsas səbəbi aşağıdakı amillərlə bağlı idi:

- Əbu Səidin dövründə mərkəzi hakimiyyətin zəifləməsi
- Ölkənin müxtəlif vilayətlərində ixtişaşlar baş verməsi
- Çobani əmirlərinin əhalini amansız istismar etməsi
- Qızıl Ordu xanlarının Azərbaycana aramsız yürüşləri

Bütün bu amillər, **XIV əsrin 30-cu illərində** Azərbaycanın iqtisadiyyatına güclü zərbə vurdu.

**Qazan xanın islahatları**

| Qazan xanın islahatlar keçirməkdə məqsədi | Qazan xanın islahatlarının nəticələri |
|---|---|
| • **Hülakü dövlətini böhrandan xilas etmək**<br>• **Əhalinin vergi toplanmasını nizama salmaq**<br>• **Xəzinəyə gəlirlərin axınını təmin etmək**<br>• **Monqol əyanlarının özbaşınalığına son qoymaq**<br>• **Sıravi monqollara torpaq verməklə onların yaşayışı üçün əlverişli şərait yaratmaq** | • Hülakülər dövlətinin tənəzzülü bir müddət təxirə salındı<br>• Əhalinin vəziyyəti nisbətən yüngülləşdi<br>• İqtisadiyyatda canlanma baş verdi<br>• Sui-istifadə halları azaldı<br>• Mərkəzi dövlət müvəqqəti olsa da qüvvətləndi |

## Çobanilər və Cəlairilər dövründə Azərbaycanda iqtisadi vəziyyət

Monqollar kimi oturaq təsərrüfatı aradan qaldırmaq niyyətində olan Çobanilər əhalinin amansız istismarı xəttini yeridirdilər. Çobani əmirlərinin oturaq təsərrüfatı ləğv etməkdə məqsədi ***köçəri monqol təsərrüfatını inkişaf etdirmək*** idi. Azərbaycan əhalisi isə Çobani feodallarının siyasətindən təngə gələrək ölkəni tərk edir, **Qızıl Orduya, Gürcüstana** və **İraqa** gedirdilər. Çobani əmiri Əşrəfin Azərbaycanda topladığı vəsait və mal dövlət 17 xəzinədə saxlanılırdı.

Çobanilər dövründən ***fərqli olaraq*** Cəlairilər dövründə Azərbaycanın iqtisadiyyatında ***müəyyən canlanma*** yarandı. Bu canlanmanın əsas səbəbi Cəlairi ***Şeyx Üveysin həyata keçirdiyi islahatlar*** idi. Şeyx Üveys aşağıdakı ***islahatları*** həyata keçirmişdi:

- ***Ölkədə abadlıq işləri apardı***
- ***Suvarma kanalları çəkdirdi***
- ***Əkinçiliyin inkişafına diqqət artırıldı***
- ***Heyvandarlıq sahəsinə diqqət göstərildi***

Lakin **XIV əsrin 80-ci illərində** yenidən iqtisadi böhran baş verdi, şəhərlər, kəndlər dağıldı, təsərrüfat dahada geriləi. Bunun da əsas səbəbləri aşağıdakı amillərlə bağlı idi:

1. ***Azərbaycanda başlanılan feodal çəkişmələri və ara müharibələri***
2. ***Toxtamış xanın və Əmir Teymurun aramsız hücumları***

**Naxçıvan, Mərənd, Əhər,** xüsusilə, **Təbriz** şəhərləri Toxtamış xanın qoşunları tərəfindən talan edildi. 1385-1392-ci illərdə Təbriz uğrunda gedən ara müharibələri şəhər təsərrüfatına və əhalinin həyat səviyyəsinə mənfi təsir göstərdi.

**XIV əsrdə Azərbaycanda baş verən iqtisadi böhranın səbəbləri**

| XIV əsrin 30-cu illərində | XIV əsrin 80-ci illərində |
|---|---|
| • **Mərkəzi hakimiyyətin zəifləməsi** | • Feodal çəkişmələri |
| • **Ölkədə ixtişaşların baş verməsi** | • Ara müharibələri |
| • **Qızıl Ordu xanlarının aramsız yürüşləri** | • Əmir Teymurun aramsız yürüşləri |
| • **Çobani əmirlərinin əhalini istismar etməsi** | • Toxtamış xanın aramsız hücumları |

## XIII–XIV əsrlər Azərbaycan mədəniyyəti

### Məktəb və mədrəsələr

Monqol-türk qəbilələrinin Azərbaycana gəlişi ölkədə elm və mədəniyyətin inkişafına təsir etdi. Elm və mədəniyyətin inkişafı ilk növbədə təlim və tərbiyənin səviyyəsindən, maarifin inkişafından asılı idi.

**XIII-XIV əsrlərdə** Azərbaycanda təhsil sisteminin əsasını ***məktəb*** və ***mədrəsələr*** təşkil edirdi. Məktəb təhsilinə ***aiddir:***

- Əsasən ***ibtidai təhsil*** verən elmi müəssisə idi
- Uşaqlar məktəbə 5-6 yaşlarında qəbul olunurdu
- Şagirdlər burada 15 yaşınadək təhsil alır və mədrəsəyə daxil olmağa çalışırdılar
- Məktəbdə əsas diqqət ***şəriət – dinin təliminə***, Quranın oxunmasına yönəldilirdi
- Yetim uşaqların təhsil alması üçün ***"Dar-ül-itam"*** və ***"Beyt-ül-təlim"*** mövcud idi
- Məktəbdə hər uşağa onların tərbiyəsi və təlimi ilə məşğul olan ***tərbiyəçi (atabəy)*** təhkim olunurdu

XIII-XIV əsrlərdə təhsilin ***məhzər forması*** da mövcud idi. Təhsilin bu formasında şagirdlər elmin müxtəlif sahələri ilə müstəqil məşğul olur, vaxtaşırı öz ustadının yanına gedib məsləhətlər alır və onun mühazirələrini dinləyirdilər.

Mədrəsə təhsilinə ***aiddir:***

- Əsasən ***orta təhsil*** verən elmi müəssisə idi
- Mədrəsələrin xərcləri ***şəxsi hesabdan*** və ***vəqf əmlakının gəlirlərindən*** ödənilirdi
- Burada dini təlimlə yanaşı, ***dünyəvi elmlər*** də tədris olunurdu
- Azərbaycanda ali mədrəsə olan – Rəbi Rəşid mədrəsəsi fəaliyyət göstərirdi

## Təbrizdə Rəbi Rəşid mədrəsəsinin açılması

**XIV əsrin əvvəllərində** ali mədrəsə rolu oynayan Təbrizin **Rəbi Rəşid məhəlləsində** mədrəsə açıldı. Rəbi Rəşid mədrəsəsinə aiddir:

- Bağdadın Nizamiyyə mədrəsəsindən sonra Şərqdə yaradılmış ***ikinci ali təhsil müəssisəsi*** idi
- Rəbi Rəşid mədrəsəsinin təsisçisi ***Fəzullah Rəşidəddin*** olmuşdur
- Burada 500-ə qədər alim dərs demiş, 7000 tələbə təhsil almışdı (çoxu başqa ölkələrdən gəlmişdi)
- Müdavimlər təqaüd alır, yataqxana ilə təmin olunurdular
- Burada ayrı-ayrı ixtisaslar - fəlsəfə, tarix, məntiq və.s üzrə şöbələr fəaliyyət göstərirdi
- Azərbaycanda və İranda bu tipli mədərəsə XIX əsrə kimi olmamışdır

F.Rəşiddədinin oğlu Xacə Sədəddinə yazdığı məktubdana aydın olur ki, Rəbi-Rəşid məhəlləsindəki ali mədrəsə müasir dövrün tanınmış universtetlərinin göstəricilərinə uyğundur. Bu faktlar hələ 700 əvvəl Təbrizdə - Universitetin (Darülfünun) mövcud olduğunu və Azərbaycanda, Yaxın Şərqdə elmin inkişafında üstün mövqe tutduğunu sübut edir.

**QEYD:** XIII-XIV əsrlərdə məktəb, mədrəsə və ali təhsil müəssisələri nəzdində ***kitabxanalar*** fəaliyyət göstərirdi. Rəbi-Rəşid məhəlləsindəki ali mədrəsədə 60 min nüxsə kitaba malik kitabxana var idi. **Şam-Qazanda** fəaliyyət gösrərən iki kitabxana isə bu dövrdə ***qiymətli kitablar xəzinəsi*** hesab olunurdu.

## Elmin inkişafı. Rəsədxanalar

XIII-XIV əsrlərdə Azərbaycanda elmin bütün sahələrində inkişaf baş verdi. Bu dövrdə Azərbaycanda tikilmiş iki rəsədxana Şərqdə nücum (astronomiya) elminin mərkəzinə çevrildi. Həmin rəsadxanalar bunlardır:

1. ***Marağa rəsədxanası***
2. ***Təbrizdə Şam-Qazan rəsədxanası***

Marağa rəsədxanasına ***aiddir:***

- **1259-cu ildə**, Nəsirəddin Tusinin rəhbərliyi ilə tikilmişdir
- Ürgənc və Rey rəsədxanaları əsasında yaradılmışdır
- Rəsədxanada 100-dən çox alim çalışırdı
- Rəsədxananın 400 min əlyazmaya malik kitabxanası var idi
- Rəsədxanada aparılan tədqiqatlar Avropa elminin inkişafına, Uluqbəy (Səmərqənddə), Pekin və bir sıra Qərbi Avropa rəsədxanalarının elmi fəaliyyətinə müsbət təsir göstərmişdir.

## Nəsirəddin Tusi

XIII əsrin görkəmli Azərbaycan alimimlərindən biri Nəsirəddin Tusi (1201-1274) olmuşdur. Nəsirəddin Tusiyə ***aiddir:***

- Təhsil aldığı Tus şəhərinin adı ilə Tusi ləqəbi qəbulni etmişdir
- Hülakülər dövlətinin maliyyə sisteminin tənzimlənməsində böyük rolu olmuşdur
- Hülakü xanın məsləhətçisi, Abaqa xanın isə vəziri olmuşdur
- Həndəsənin inkişafına əsaslı şəkildə təsir göstərmiş "Evkilidin şərhi" əsərinin müəllifidir

- Yaxın və Orta Şərqdə əxlaq dərsliyi kimi şöhrət qazanmış "Əxlaqi Nasiri" əsərini yazmışdır
- "Zic Elxani" (Elxani cədvəlləri) əsərində planetlərin geosentirik orbitinin əsas elementləri verilmişdir
- Marağada onun rəhrərliyi ilə rəsadxana tikilmişdi

Tusi Bağdada səfəri zamanı vəfat etmişdir. Alimin qəbri üzərində bu sözlər yazılmışdır: "***Elmin köməkçisi, elm ölkəsinin şahı. Dövran anası belə oğul hələ doğmamışdır***".

**QEYD:** Fəzullah Rəşidəddin ilə Nəsrəddin Tusinin oxşar cəhəti onların ikisinin də dövrün görkəmli alim və dövlət xadimləri olmasında idi.

### Tibbin inkişafı. Şəfa evləri

XIII-XIV əsrlərdə Azərbaycanda elmin müxtəlif sahələri, xüsusilə **dəqiq elmlərdə** yüksək inkişaf baş verdi. Tibb sahəsində daha qabarıq işlər görüldü. F.Rəşidəddinin bu işdə mövqeyi daha böyük idi. Onun tibbə aid əsərləri Şərqdə böyük şöhrət qazandı. Azərbaycanlı tibb mütəxəsisləri **Qahirə, Dəməşq, Bağdad** və.s şəhərlərdə tanınırdı. XIII-XIV əsrlərdə tibb elminə aid əsərləri ilə Şərqdə böyük şöhrət tapmış Azərbaycanın alimlərdən biri **Məhəmməd Naxçıvani** idi. O, sağlamlığı insanın əqli və fiziki inkişafının əsas özəyi hesab edir, ölkədə əhalinin xəstəliklərdən mühafizəsi məqsədi ilə xüsusi müəssisələrin – ***dar-üş-şəfaların (şəfa evlərinin)*** fəaliyyət göstərdiyini xəbər verirdi. Şəfa evlərində hər beş ildə 2 yüksək ixtisaslı mütəxəsislər çalışırdı. Burada **Hindistan, Çin, Misir, Şam** və.s ölkələrdən gəlmiş 50 tanınmış həkim çalışırdı. Şəfa evləri ***vəqf gəlirləri*** hesabına çalışırdı.

### İctimai elmlərin inkişafı

XIII-XIV əsrlərdə ***tarix elminə*** dair qiymətli əsərlər yazılmışdır. Dövrün tanınmış tarixçi alimlərindən aşağıdakıları xüsusilə qeyd etmək olar:

- **Fəzlullah Rəşidəddin** – Hülakülər dövlətinin vəziri, həkim və tarixçisi olmuşdur. Onun ***"Came ət-təvarix" (Tarixlər toplusu)*** əsəri XIII-XIV əsrlər tarixini işıqlanmasında xüsusi yer tutur. Əsərdə Hülakü xandan Qazan xanın hakimiyyətinin sonuna kimi olan dövr şərh olunur.
- **Gəncəli Kirakos** – Qafqaz Albaniyası ərazisində XIII əsrdə baş vermiş hadisələri, albanların başına gələn müsibətləri qələmə almışdır.
- **Nizaməddin Şami** – Teymurun Azərbaycana yürüşləri və burada apardığı abadlıq işlərini öz əsərində şərh edir.

XIII-XIV əsrlərdə ***coğrafiya*** sahəsində **Zəkəriyyə Qəzvini, Həmdullah Qəzvini** və Azərbaycan alimi **Əbdürrəşid Bakuvinin** əsərləri meydana gəldi. Həmdullah Qəzvininin **"Nüzhət əl-qülub" (Könül nəşəsi)** əsəri Şərqi, o cümlədən Azərbaycanın coğrafi mövqeyi, şəhərləri, çayları, ticarət yolları və.s barədə qiymətli faktları əks etdirir. **Əbdürrəşid Bakuvi** də əsərlərində Bakıya və Azərbaycanın digər şəhərlərinə xüsusi yer vermişdir.

XIII-XIV əsrlərdə ***dilçilik*** sahəsində **Hinduşah Naxçıvani,** onun oğlu **Məhəmməd Naxçıvani** və **Əsirəddin Əndəlusi** daha çox tanınırdılar. Bu dövrdə bir sıra ***ikidilli, üçdilli lüğğətlər*** meydana gəldi, **"Azərbaycan dili"** ifadəsi işlənməyə başladı. **Əsirəddin Əndəlusinin** ərəb dilində yazdığı **"Türk dilinin dərketmə kitabı"** bu baxımdan diqqəti cəlb edir. Burada 2300 sözü əhatə edən azərbaycanca-ərəbcə lüğət, Azərbaycan dilinin morfologiyası və sintaksisi öz əksini tapdı.

Bəhs edilən dövrdə Azərbaycanda ***fəlsəfə, hüquq*** və.s elmlər də inkişaf etdi. Azərbaycan mütəfəkkiri **Şeyx Mahmud Şəbüstəri** fəlsəfə, məntiq, etika, psixologiya, anatomiya, minerologiya elmləri sahəsində tanınmış şəxsiyyət idi. Onun **"Gülşəni raz" (Sirlər gülşəni)** və **"Səadətnamə" əsərləri** bütün şərqdə yüksək qiymətləndirilirdi.

## XIII-XIV əsrlərdə Azərbaycan memarlığı

XIII-XIV əsrlərdə Azərbaycanda memalıq daha da inkişaf etdi. **Abşeron, Naxçıvan, Şirvan, Təbriz, Abşeron** memarları qiymətli sənət nümunələri yaratdılar. ***Təbriz memarlıq məktəbi*** Beyləqandan Həmədana, Qəzvindən Şərqi Anadoluya kimi olan böyük bir ərazidə şəhərsalma işinin geniş inkişaf etməsində mühüm rol oynadı.

XIII-XIV əsrdə Azərbaycanda iki yeni şəhər - **Sultaniyyə** və Xəzər dənizi yaxınlığında **Qazan xan** tərəfindən **Mahmudabad** şəhəri salındı. Bu şəhərlərin salınmasında **Təbriz, Marağa** və **Ərdəbil memarları** yaxından iştirak etdilər. Monqolların ikinci yürüşü nəticəsində **1235-ci ildə** tamamilə dağılmış və xaraba qalmış **Gəncə** şəhəri dörd il sonra - **1239-cu ildə** bərpa olunmağa başladı.

Dövrün memarlıq abidələri sırasında ***qalalar, türbələr*** və ***məscidlər*** mühüm yer tuturdu.

XIII-XIV əsrlərdə Abşeron ərazisində aşağıdakı memarlıq abidələri - ***qalalar*** inşa edilmişdir:

- **Nardaran qalası**
- **Ramana qalası**
- **Mərdəkanda dairəvi qala**
- **Mərdəkanda dördkünc qala**

XIII-XIV əsrlərdə Azərbaycanda Şərq memarlığına məxsus kubşəkilli, səkkizbucaqlı, qülləvari tikilmiş **türbələr** meydana gəldi. Həmin türbələr aşağıdakılardı:

- **Sultaniyyədə Olcayut Xudabəndə türbəsi (1305-1313)**
- **Bərdə türbəsi (1322)**
- **Qarabağlar türbəsi - Beştağ**
- **Naçıvanda Gülüstan türbəsi**

**QEYD:** Gülüstan türbəsi XII əsrə aid ***Möminə xatun türbəsi üslubunda*** inşa olunmuşdur.

**XIV əsrin əvvəllərində** Təbrizdə inşa edilən **Əlişah məscidi** ölçülərinə görə, o zamankı müsəlman aləminin ən möhtəşəm məscidi idi. Divarlarının qalınlığı 3 metr olan bu abidə təbrizlilərin dar günündə etibarlı sığınacaq yeri olduğu üçün **"Ərk qalası"** adını almışdı.

**XIII-XIV əsrlərdə Azərbaycanda yeni salınan şəhərlər**




## Dekorativ tətbiqi sənət.Rəssamlıq. Musiqi

XIII-XIV əslərdə Azərbaycan incəsənəti xeyli inkişaf etdi. Həmin əsrlərdə toxunmuş **Azərbaycan xalçaları** ümumdünya bazarlarında şöhrət tapdı. Azərbaycan xalçaları öz dəst-xətti ilə seçilən **Təbriz, Qarabağ, Quba, Şirvan, Gəncə, Qazax xalçaçılıq məktəbləri** orta əsrlərdə dünyəvi əhəmiyyət kəsb edən sənət inciləri yaratdılar. **Təbriz xalçaçılıq məktəbi** bu dövrdə **Təbriz miniatür məktəbinin** bədii xüsusiyyətlərini mənimsəyərək daha yüksək səviyyəyə qalxdı. XIII-XIV əslərdə Azərbaycanda ***dulusçuluq, misgərlik, ipəkçilik, toxuculuq*** v.s sənət növləri də inkişaf etdi.

Təbriz ***metalişləmə sənəti*** sahəsində daha üstün mövqe tutdu. Bunu aşağıdakı faktlar da sübut edir:

- **1319-cu ildə Yusif ibn Əhmədin** hazırlaığı ***bədii kasa.*** Hal-hazırda **London** şəhərinin **Viktoriya və Albert muzeyində** saxlanılır:

- **1399-cu ildə Əbdüləziz ibn Şərafəddin** tərəfindən, **Əmir Teymurun** sifarişi ilə düzəldilən ***tiyan*.** Hazırda **Sank-Peterburq** şəhərində saxlanılır.

**XIII əsrin sonu - XIV əsrin əvvəllərində** yaranıb formalaşan **Təbriz miniatür məktəbi** bütün Yaxın Şərqdə məşhur idi. Miniüatur sənətinin inkişafı kitab sənətinin inkişafı demək idi. Bu dövrdə ən məşhur ədiblərin əlyazmasına çəkilmiş miniatürlər **İstanbul kitabxanalarında** və.b yerlərdə saxlanılır.

XIII-XIV əsrdə yaşamış görkəmli Azərbaycan ***musiqiçiləri*** olan **Əbdülqadir əl- Marağai** və **Səfirəddin Ürməvi** musiqiyə dair bir sıra qiymətli əsərlər yazmışdılar.

| | | | |
|---|---|---|---|
| Şeyx Həsən Cəlairinin Bağdadda Cəlairilər dövlətini yaratması ← | **1340** | **1364** | → Şirvanda Cəlairilərə qarşı üsyan baş verməsi |
| Cəlairilərin Azərbaycana yürüş edərək Təbrizi tutması ← | **1358** | **1367** | → Şeyx Üveysin Şirvana yürüşü. Azərbaycanın tamamilə Cəlairilərin tərkibinə qatılması |
| Azərbaycanın Cəlairilər dövləti tərəfindən işğal olunması ← | **1358-1359** | **1382** | → Sultan Əhmədin Sultan Hüseyni məğlub edərək hakimiyyəti ələ alması |

| | | | |
|---|---|---|---|
| Şirvanşahların Çobanilərin hakimiyyəti altına düşməsi ← | **1347-1348** | **1367** | → Şirvanşah Kavusun Təbrizə yürüş edərək Azərbaycanı azad etməyə cəhd göstərməsi |
| Şirvanda Cəlairilərə qarşı üsyan baş verməsi ← | **1364** | **1367** | → Şirvanşahlar dövlətinin Cəlairilərin vassal asılılığına düşməsi |

| | | | |
|---|---|---|---|
| Şirvanda Kəsranilər sülaləsinin Dərbəndlilər sülaləsi ilə əvəz olunması | 1382 | 1392-1397 | Əmir Teymurun Azərbaycana ikinci “beşillik” yürüşü |
| Şirvanşahlar dövlətində Dərbəndlilər sülaləsinin hakimiyyəti dövrü | 1382-1538 | 1392 | Teymurun Seyid Əlini cəzalandırmaq məqsədilə Şəkiyə hücum etməsi |
| Əmir Teymurun Azərbaycana daxil olması | 1385 | 1395 | Miranşahın Seyid Əlini itaətə gətirmək üçün Şəkiyə hücum etməsi |
| Toxtamış xanın Azərbaycana birinci yürüşü | 1385 | 1395 | Əmir Teymurun Toxtamış xanı məğlub etməsi |
| Əmir Teymurun Azərbaycana birinci “üçillik” yürüşü | 1386-1387 | 1399 | Əmir Teymurun Azərbaycana üçüncü yürüşü |
| Şirvanşah I İbrahimin Əmir Teymurun vassal asılılığını qəbul etməsi | 1386 | 1399 | Teymurun sifarişi ilə Əbdüləziz ibn Şərafəddinin tiyan düzəltməsi |
| Toxtamış xanın ikinci dəfə Azərbaycana yürüş etməsi | 1387 | 1400 | Əlincə qalasının daxili çəkişmələr nəticəsində Teymura tabe olması |
| Ayrı-ayrı feodal quruplarının Təbriz şəhəri uğrunda mübarizə aparması | 1387-1392 | 1405 | Təbrizdə Teymurilərə qarşı üsyan baş verməsi və I İbrahimə müraciət etməsi |
| Şəki hakimi Seyid Əlinin Teymura itaətdən boyun qaçırması | 1387-1392 | 1406 | Kür sahilində döyüş. Şirvanşah I İbrahimin Teymurun nəvəsi Öməri məğlub etməsi |
| Toxtamış xanın Azərbaycana üçüncü yürüşü | 1392 | 1406 | Şirvanşah I İbrahimin Təbrizə daxil olaraq qısa müddətə Azərbaycanı birləşdirməsi |

# X BÖLMƏ

## AZƏRBAYCAN XV ƏSRDƏ. QARAQOYUNLU VƏ AĞQOYUNLU DÖVLƏTLƏRİ

### Qaraqoyunlu dövləti (1410-1468)

**Qaraqoyunlu sülaləsinin mənşəyi**

Oğuz tayfalarından olan qaraqoyunlulara ***baharlılar*** başçılıq edirdilər. Baharlı Qaraqoyunlular **VII əsrdən** Azərbaycanda yerləşməsi haqqında tarixi mənbələrdə məlumat var. tayfası əvvəllər **Həmədana** köçmüş, sonra **Xəmsə vilayətində, Qəzvinin qərbində** məskunlaşmışdır. **Van gölünün cənubunda** məskunlaşmış Qaraqoyunlular **XIV əsrin 70-ci illərindən etibarən Ərzincanda, Sivasda –** ümumiyyətlə **Şərqi Anadolunun şimal-şərq torpaqlarında** möhkəmlənib, ***Ağqoyunlulara, Cəlairilərə*** və ***Teymurilərə*** qarşı mübarizə apardılar. Qaraqoyunlu sülaləsinin banisi **Bayram Xoca (?-1380)** olmuşdur. Bayram Xocanın ***Qaraqoyunlu tayfa ittifaqını birləşdirmək cəhdləri*** bir nəticə vermədi. **XIV əsrin 80-ci illərində** qaraqoyunlu tayfa birləşməsi bir qədər zəiflədi. Bu dövrdə qaraqoyunlu tayfa birləşməsinin zəifləməsinin səbəbi ***Cəlairilərlə mübarizədə aparması*** idi.

**XIV əsrin 70-ci illərində Qaraqoyunluların mübarizə apardığı qüvvələr**

- **Ağqoyunlular**
- **Cəlairilər**
- **Teymurilər**

**Qaraqoyunlu tayfa ittifaqının meydana gəlməsi. Qara Məhəmmədin dövrü (1380-1389)**

Bayram Xoca 1380-ci ildə tayfa daxilindəki savaşda öldürüldü və yerinə oğlu **Qara Məhəmməd (1380-1389)** keçdi. Qara Məhəmmədə ***aiddir:***

- ✓ Mərkəzi **Van** olan ***Qaraqoyunlu tayfa ittifaqının*** əsasını qoydu
- ✓ Cəlairilərlə mövcud ziddiyyəti aradan qaldırmaq və iki tərəf arasındakı münasibətləri yaxşılaşdırmaq məqsədi ilə Cəlairi hökmdarı Sultan Əhmədlə qohum oldu
- ✓ **1382-ci ildə** qohumluq əlaqələrinə baxmayaraq, Təbrizə hücum edərək **Cəlairi Şeyx Əlini** məğlub etdi
- ✓ **1384-cü ildə** Mardin hökmdarı Məcdəddin İsanın üzərinə yürüş etdi. Lakin nigah diplomatikası yolu ilə hər iki tərəflər arasında barışıq yarandı
- ✓ **1385-ci ildə** Mosul və Mardin arasındakı ərazinin sahibi olan Misir xocanı Qahirəyə göndərərək Sultan Berqoqdan Suriyaya köçməyə razılıq aldı
- ✓ Cəlairilərlə yanaşı Ağqoyunlular və Əmir Teymura qarşı mübarizə apardı
- ✓ Ağqoyunlular tərəfindən məğlub edilən Ərzincan hökmdarına kömək edərək onunla ittifaqa qirdi və birlikdə Ağqoyunluları məğlubiyyətə uğratdılar
- ✓ **1387-ci ildə** Çapaqçur döyüşündə Teymur üzərində inamlı qələbə qazandı
- ✓ **1388-ci ildə** ikinci dəfə Təbrizə hücum edərək ***Cəlairi əmirlərinin*** müqavimətini qırıb və Təbrizə daxil oldu

- ✓ **1389-cu ildə** Qaraqoyunlu əmiri Qara Pirhəsənlə döyüşdə öldürüldü




## Qara Yusifin Qaraqoyunlu tayfa ittifaqına başçılıq etməsi (1389)

Qara Məhəmməd öldürüldükdən sonra Qaraqoyunlu əmiri Qara Pirhəsən mübarizəni davam etdirə bilmədi. Qara Məhəmmədi onun oğlu **Qara Yusif (1389-1421)** əvəz etdi. Qara Yusifin Qaraqoyunlu tayfa ittifaqına rəhbərlik etdiyi dövrünə ***aiddir:***

- ✓ **1392-ci ildə** atasının intiqamını almaq üçün Qara Pirhəsən bəylə döyüşə girərək onu öldürdü və **Təbrizi** tutdu (Lakin bir gündən sonra Teymurun şəhərə yaxınlaşması ilə əlaqədar olaraq şəhəri tərk etdi)
- ✓ **1392-ci ildə** Teymurilər Van şəhərini tutaraq qarət etdikdən sonra Cəlairilərlə yaxınlaşdı
- ✓ **1394-cü ildə** Bağdad a döyüşündə Teymurilər ***Qaraqoyunlu və Cəlairilərin birləşmiş qüvvələrini*** məğlubiyyətə uğratdı
- ✓ **1395-ci ildə** tayfalar arasında daxili ziddiyyətlər nəticəsində qaraqoyunlu tayfa ittifaqı dağılsa da onu tezliklə bərpa etdi və Teymur əlehinə ***ittifaq yaratmaq məqsədi ilə*** Cəlairi Sultan Əhmədlə birlikdə Misirə getdi

**QEYD:** Qara Yusif Cəlairi Sultan Əhmədlə birlikdə Misirə gələrkən Teymur Misir hakimindən onları həbs etməyi tələb etdi. Lakin Misir hakimi **Sultan Berqoq** Teymura qarşı ***Qaraqoyunlu və Cəlairi qüvvələrindən istifadə etmək məqsədi ilə*** Teymurun təklifini rədd etdi. Ondan sonra taxtda oturan oğlu **Sultan Fərəc** isə Teymurla münasibətləri pozmamaq xatirinə müttəfiqləri həbsə aldı. Müttəfiqlər bir il həbsdə qaldı.Tarixçi **Xandəmirin** yazdığına görə bir ilin birgə dustaqlığı Qara Yusiflə Sultan Əhmədi yenidən barışığa gətirdi. **1405-ci ildə**, Teymurun ölümündən sonra onlar həbsdən azad oldu. Həbsdə olarkən onlar şərtləşdilər ki, azad olduqda Sultan Əhməd **Bağdada**,Qara Yusif isə **Təbrizə** yiyələnsin.

**Qaraqoyunlu sülaləsi**



### Qara Yusif və Sultan Əhmədin Teymurilərlə mübarizəni davam etdirməsi

Əmir Teymurun ölümündən sonra Qara Yusiflə Sultan Əhməd Azərbaycana qayıtdılar. Qara Yusif həbsdən çıxdıqdan sonra:

- Misir sərhədlərindən Fərat çayının sahillərinə qədər ərazilərdə ayrı-ayrı feodal hakimlərini dəf etdi
- Van ərazisində **Hilat, Muş və Xnusun hakimi Məlik Şəmsəddinlə** ittifaqa girdi
- Şərqi Anadolu və Azərbaycanın cənubunda məskunlaşan yarımköçəri kürd əmirlərini öz tərəfinə çəkdi
- Müttəfiqi Sultan Əhməd ilə birlikdə Bağda şəhərini ələ keçirərək Təbriz istiqamətində irəlilədi

**1406-cı ilin iyulunda** Qara Yusif və Sultan Əhməd Azərbaycanın cənubuna doğru irəliləyərək Təbrizə yaxınlaşdılar. Qara Yusiflə Sultan Əhmədin Təbrizə yaxınlaşdığını görən Şirvanşah I İbrahim ***Sultan Əhmədin İraqdan Azərbaycana yürüşünü qanuni hökmdarın dönüşü kimi qəbul edərək*** Təbrizi tərk etdi. Şirvanşah I İbrahim ***"Məmləkət sahibsiz olduğundan xalq hər kəsin tamahından əzab çəkirdi. Gəldik, mühafizə etdik, indi məmləkətin ağası təşrif edir, biz də öz evimizə gedəyin"*** söyləyərək Şirvana qayıtdı.

Azərbaycanın cənubundakı ***feodal əyanları*** əvvəllər I İbrahimə kömək etsələr də, Qara Yusif və Sultan Əhməd Təbrizə doğru irəliləyərkən həmin əmirlər onların tərəfinə keçdi. Azərbaycanın cənubundakı feodal əyanların Qara Yusif və Sultan tərəfinə keçmələrinin səbəbi ***Azərbaycanın birləşdirilməsini istəməmələri*** idi. Təbrizdə möhkəmlənən Sultan Əhməd ***şəhər yoxsullarını*** öz tərəfinə çəkmək üçün iki tədbir həyata keçirdi:

- ***İlk növbədə Əlincə qalasının bərpa edilməsi haqqında fərman verdi***
- ***Vergilərin azaldılması və toplanınlması barədə fərman verdi***

Lakin, Sultan Əhməd vergilərin azaldılması barədə verdiyi fərmana əməl etmədi, əksinə daha ciddi tədbirlər gördü.

Teymurun Azərbaycana hakim təyin etdiyi Miranşahın oğlu **Əbubəkr** Azərbaycanın əldən çıxması ilə razılaşmayaraq Təbrizə hücum etdi. Əbubəkr Təbrizə hücum edəndə şəhər əhalisi Sultan Əhməd Cəlairiyə köməklik göstərmədi. Şəhər əhalisnini Sultan Əhmədə köməklik göstərməməsinin səbəbi ***onun vergilərin azaldılması və toplanınlması barədə verdiyi fərmana əməl etməməsi*** idi. Buna görə də Sultan Əhməd Təbrizi müdafiəsini təşkil edə bilməyib Bağdada qaçdı. Təbrizlilərin köməyinə gələn Qara Yusif isə Teymurilər üzərində iki mühüm qələbə qazandı:

1. **1406-cı ilin payızında I Şənbi Qazan döyüşündə *Qaraqoyunlu qüvvələri Teymuri Əbubəkri məğlub etdi. Əbubəkr üzərində bu qələbə Qara Yusifin şöhrətini xeyli artırdı, onu sonrakı qələbələrə apardı*.**
2. **1408-ci il aprelin 21-də Sərdurud döyüşündə *Qaraqoyunlular qalib gəldi, Teymurilərin qüvvələri darmadağın edildi və Miranşah öldürüldü, Teymurilərin Azərbaycanda hakimiyyətinə son qoyuldu, Azərbaycanın cənub torpaqları Qaraqoyunluların hakimiyyəti altına keçdi.***

| | | | |
|---|---|---|---|
| Qara Məhəmmədin Təbrizə hücum edərək Cəlairi Şeyx Əlini məğlub etməsi | 1382 | 1392 | Teymurilərin Van şəhərini tutaraq qarət etməsi |
| Qara Məhəmmədin Mardin hökmdarı Məcdəddin İsanın üzərinə yürüş etməsi | 1384 | 1394 | Bağdad döyüşündə Teymurun qoşunlarının Qaraqoyunlu və Cəlairilər məğlub etməsi |
| Qara Məhəmmədin Sultan Berqoqdan Suriyaya köçməyə razılıq alması | 1385 | 1395 | Daxili ziddiyyətlər nəticəsində qaraqoyunlu tayfa ittifaqının dağılması |
| Çapaqçur döyüşündə Qara Məhəmmədin Teymur üzərində qələbə qazanması | 1387 | 1405 | Qara Yusif və Sultan Əhmədin həbsdən çıxaraq Teymurilərlə mübarizəni davam etdirməsi |
| Qara Məhəmmədin ikinci dəfə Təbrizə hücum etməsi | 1388 | 1406 | Şirvanşah I Ibrahimin Təbrizi tutaraq Azərbaycanı shakimiyyəti altında birləşdirməsi |
| Qara Məhəmmədin Qaraqoyunlu əmiri Qara Pirhəsənlə doyüşdə öldürülməsi | 1389 | 1406 | I Şənbi Qazan döyüşündə Qara Yusifin Teymuri Əbubəkri məğlub etməsi |
| Qara Yusifin Qara Pirhəsən bəylə döyüşdə qalib gələrək onu öldürməsi | 1392 | 1408 | Sərdurud döyüşündə Qara Yusifin Teymuriləri məğlub edərək Azərbaycandan çıxartması |

## Qaraqoyunlu dövlətinin yaranması

Zaman keçdikcə Qara Yusiflə Sultan Əhməd arasındakı münasibətlər pozuldu. Onlar arasında münasibətlərin pozulmasına səbəb olmuş amillər aşağıdakılar idi:

- Teymurilərin Azərbaycandan çıxarılması
- Qaraqoyunluların Azərbaycanda möhkəmlənməsi
- Qara Yusifin siyasi və hərbi uğurlarının artması
- Qara Yusifin nüfuzunun artması

Belə olduqa Sultan Əhməd Qara Yusiflə həbsdə olarkən razılığa gəldiyi şərti pozaraq Qara Yusifin əsas qüvvələrinin Ərzincana hücum edən Ağqoyunlu tayfa birliyinin başçısı Qara Yuluq Osmana və Amid qalasının hakiminə qarşı vuruşmasında istifadə edərək **1410-cu ildə** Təbrizə hücuma keçdi.

Keçmiş müttəfiqi Qara Yusifin nüfuzunun artmasından qorxuya düşən Sultan Əhməd Cəlairi ona qarşı Şirvanşah ***İbrahimlə ittifaqa*** girdi. Şirvanşah İbrahim Sultan Əhmədə oğlu Kəyumərsin başçılıq etdiyi hərbi dəstə göndərdi. Şirvanşah I İbrahimin Qara Yusiflə mübarizədə Sultan Əhmədi müdafiə etməsinin səbəbi bunlar idi:

1. ***Gələcəkdə Şirvanşahların Azərbaycanın cənubunda möhkəmlənmək istəyi***
2. ***Cəlairilərin Qaraqoyunlulara nisbətən zəif olması və Şirvanşahlar üçün elə də təhlükə törətməməsi***

Bundan xəbər tutan Qara Yusif Sultan Əhmədlə Kəyumsərin birləşməsinə imkan verməyrək Kəyumərsin başçılıq etdiyi ordunu darmadağın etdi, onun özünü isə əsir aldı. Qara Yusif onu azadlığa buraxsa da, atası Kəyuməsəri Qara Yusiflə iş birliyində günahlandıraraq edam etdirdi. **1410-cu il avqustun 30-da II Şənbi-Qazan adlı yerdə** Qara Yusiflə Sultan Əhməd arasında qanlı döyüş baş verdi. Döyüş nəticəsində:

- ***Cəlairi qoşunu darmadağın edildi***

- ***Sultan Əhməd Qara Yusifin əlinə keçərək öldürüldü***
- ***Cəlairilərin Azərbaycandakı hakimiyyətinə son qoyuldu***
- ***Cəlairilər dövləti süqut etdi və Qaraqoyunlu dövləti yarandı***
- ***Bağdad qaraqoyunlulardan asılı vəziyyətə düşdü***

**QEYD:** Döyüşdən bir qədər sonra Qara Yusif oğlu Qiyasəddin şah Məhəmmədi Bağdada canişin göndərdi

Beləliklə, **1410-cu ildə Qaraqoyunlu dövləti** yarandı. Şimaldan Şirvanşahlar dövləti istisna olmaqla **qalan Azərbaycan torpaqlarını, Gürcüstanın bir hissəsini, Şərqi Anadolu, İran və İraqın bir hissəsi** Qaraqoyunlu dövlətin tərkibinə daxil edildi.

Qaraqoyunlu dövlətinin paytaxtı **Təbriz** seçildi. **1411-ci ildə** Qara Yusif oğlu **Pirbudağı sultan** elan etdi və onun adına ***təngə*** adlanan pul kəsdirdi. Çünki dövrün ənənəsinə görə yalnız şah – sultan nəslinə mənsub olanlar qanuni hökmdar elan olunurdular. Qara Yusif bunu yaxşı bildiyindən hələ xeyli əvvəl Pirbudağı Sultan Əhmədə oğulluğa vermişdir. Pirbudaq sultan elan edilsə də ancaq ***yüksək idarəçilik hüququ*** Qara Yusifdə qalırdı.

Qara Yusif hakimiyyəti dövründə mərkəzləşmiş dövlət yaratmaq üçün aşağıdakı tədbirləri həyata keçirdi:

- ***Qüvvətli süvari ordu yaratdı***
- ***Azərbaycanın cənubunu özü idarə etdi, dövlətin qalan vilayətlərini isə oğlanları arasında böldü***
- ***Əyanları mərkəzi hakimiyyətlə hesablaşmağa məcbur etdi***
- ***Feodal ara müharibələrini bir qədər zəiflətdi***
- ***Təsərrüfatda müəyyən canlanma yaratdı***
- ***Feodalların asılı kəndlilər üzərindəki ağalığını təmin etmək üçün əlverişli şərait yaratdı***

Lakin, Qara Yusif güclü mərkəzi aparat yarada bilmədi. Beləliklə, Qaraqoyunlu dövləti mərkəzləşdirilmiş dövlətə çevrilmədi.




**Qaraqoyunlu dövlətinin tərkibinə daxil olan ərazilər**



## Qaraqoyunlu dövlətinin Şirvanşahlarla münasibətləri

Qaraqoyunlu dövləti yarandıqdan sonra Şirvanşah I İbrahimlə Qara Yusif arasında qarşıdurma yarandı. I İbrahimlə Qara Yusif arasında qarşıdurma yaranmasında aşağıdakı hadisələrin mühüm rolu olmuşdur:

1. ***Şirvanşah I İbrahimin iki aylıq Təbriz hökmranlığı***
2. ***I İbrahimin oğlu Kəyumərsi qoşunu ilə Sultan Əhmədə köməyə göndərməsi***

Qara Yusif qurduğu dövləti bir qədər möhkəmləndirdikdən sonra Qarabağa gələrək Şirvana qasid göndərib I İbrahimin tabe olmasını tələb etdi. Lakin I İbrahim bu tələbi rədd edərək **Şəki hakimi Seyid Əhməd** və **Kaxetiya çarı II Konstantinlə** birlikdə ***Qara Yusifə qarşı ittifaq*** yaratdı və onların köməyinə arxalandı.

Bu mübarizədə I İbrahimi ***əhalinin xeyli hissəsi*** müdafiə etsələr də, Qara Yusif çoxlu ***irsi sayurqal torpaqları***, ***pul*** və ***hədiyyə paylamaqla*** Azərbaycanın cənubundakı ***əyanları (əmirləri)*** öz tərəfinə çəkdi.

**1412-ci ilin payızında** Şirvanşah və onun müttəfiqlərinin birləşmiş qüvvələri ilə Qara Yusifin qoşunu arasında **Kür çayı sahilində döyüş** baş verdi. Kür çayı sahilində baş verən döyüş ***nəticəsində:***

- **Qarabağ, Muğan** və **Naxçıvanın** silahlı dəstələrinin köməyi ilə Qara Yusif qalib gəldi
- Şirvanşah I İbrahim, Seyid Əhməd və II Konstantin məğlub olaraq əsir düşdülər

Şirvanşah İbrahimi taxtda öz yanında oturdan Qara Yusif ona 1200 İraq tüməni bac ödətdirdikdən sonra əsirlikdən azad etdi. Eyni zamanda I İbrahim ***Qara Yusifdən vassal asılılığını qəbul etmək müqabilində*** Şirvanı idarə etmək hüququ da aldı. Lakin Qara Yusif Seyid Əhməd və 300 gürcü aznauru ilə birlikdə II Konstantin edam edildilər. 1417-ci ildə Şirvanşah I İbrahim vəfat etdi və onun Azərbaycanı birləşdirmək planı yarımçıq qaldı. I İbrahimin oğlu **I Xəlilullah (1417-1462)** Şirvanda hakimiyyətə gəldikdən sonar atasından ***fərqli olaraq*** Qaraqoyunlu dövlətinə qarşı aşağıdakı siyasəti yeritdi:

- ***Qara Yusifin hakimiyyətini tanımaqdan imtina etdi***
- ***Qara Yusifə qarşı Teymurun nəvəsi Şahruxla ittifaqa girdi***

I Xəlilullah Teymuri hökmdarı **Şahruxla (1405-1447)** Qaraqoyunlulara qarşı ittifaqa girərək onu Azərbaycana yürüş etməyə dəvət etdi. Şahrux iki dəfə **1418** və **1420-ci ildə** Azerbaycana hücum etsə də hər ***ikisində meğlub olaraq geri çəkildi***. Son döyüşdə Qara Yusif yaralandı və elə həmin ildə Təbriz yaxınlığında **Uçan** adlı yerdə vəfat etdi (1420). Qara Yusif vəfat edərkən Qaraqoyunlu dövlətinin ərazisi **Qəzvindən Ərzincana, Bağdaddan Şirvana qədər olan geniş ərazini** əhatə edirdi.

**I İbrahimin Azərbaycanı birləşdirmək cəhdlərinə qarşı çıxan qüvvələr**

**Cəlairilər** | **Qaraqoyunlular**

## Qaraqoyunlu Teymuri müharibələri

1420-ci ildə Qara Yusif vəfat etdikdən sonra Qaraqoyunlu əmirləri arasında mübarizə başladı. Bundan istifadə edən Teymurun oğlu Şahrux elə həmin ildə Azərbaycana hücuma keçdi. **1420-ci ilin dekabrında** Şahrux **Qarabağa** daxil oldu. Bu zaman Şirvanşah I Xəlilullah Şahruxun yanına gələlib onun nəvəsi ilə evlənərək aralarındakı ittifaqı daha da möhkəmləndirdi. **1421-ci ildə** I Xəlilullahın kömək etdiyi Şahruxla Qaraqoyunlular arasında **Alaşkerd döyüşü** baş verdi. Alaşkerd döyüşü ***nəticəsində:***

- ***Şahrux Qaraqoyunlular üzərində qələbə çaldı***
- ***Qara Yusifin oğlanları İsgəndər və İsfəndiyar məğlub oldular***

Bu qələbədən sonra Şahrux Azərbaycanı tərk edərək Herata qayıtdı.

Şahruxun Azərbaycanda yeritdiyi siyasət atasının siyasətindən fərqli olaraq ***bu ölkəni idarə etdiyi ərazilərə daxil etmək fikri yox idi***. Bunun əsas səbəbi Şahruxun burada böyük qüvvə saxlamaq imkanının olmaması idi. Odur ki, Şahrux bu ərazidə Qara Yusifin dövləti kimi güclü dövlətin yaranmamasına çalışaraq Azərbaycan feodallarına özünün ali hakimiyyətini tanıtmaqla kifayətləndi.

Şahrux Azərbaycanı tərk etdikdən sonra Qaraqoyunlu taxtına **Qara İsgəndər (1421-1435)** çıxdı. Qara İsgəndər Qaraqoyunlu taxtına çıxdıqdan sonra:

- ✓ Dağınıq qaraqoyunlu qüvvələrini yenidən birləşdirdi
- ✓ Kürün cənubunu idarə edən Azərbaycan feodallarını özünə tabe etdi

Qara İsgəndər ***Şirvan və Şəkinin müstəqilliyinə son qoymaq*** məqsədi ilə **1427-ci ildə Şirvana** hücum etdi. Lakin Şahruxun Azərbaycana yeni yürüşü onu geri çəkilməyə məcbur etdi. **1427-ci ildə Salmas döyüşündə** Şahrux yenidən İsgəndər başda olmaqla Qaraqoyunlu qüvvələrini məğlubiyyətə uğratdı.

**1429-cu ildə** Şahrux Qara Yusifin oğlu **Əbu Səidi (1429-1431) vassalı kimi** Qaraqoyunlu taxtına çıxardaraq 1430-cu ilin mayında Azərbaycanı tərk etdi. Bu zaman Əbu Səidin zəifliyi üzündən Qaraqoyunlu feodal qrupları arasında mübarizə kəskinləşdi. Bu mübarizədən istifadə edən Qara İsgəndər qardaşı Əbu Səidi öldürüb hakimiyyəti yenidən ələ aldı. Ümumiyyətlə, Əbu Səidin və İsgəndərin hakimiyyəti illərində ***ara müharibələri, feodal özbaşınalığı*** təsərrüfat həyatını tamamilə pozdu, ölkənin sosial və siyasi həyatı gərgin olaraq qaldı.

**Qara Yusifə qarşı ittifaq bağlamış dövlətlər**




## Qaraqoyunlu dövlətinin Teymurilərdən vassal asılılığına düşməsi (1435-1447)

**1434-cü ildə** Qaraqoyunlu hökmdarı İsgəndər ikinci dəfə Şirvana hücum edərək Şamaxını dağıtdı. Bu zaman I Xəlilullah Şahruxa yenidən kömək üçün müraciət etdi. Həmin ilin noyabrına Şahrux Heratdan yürüşə keçdi və **Reydə** dayandı. Xəlilullah dəniz yolu ilə Reyə, onun yanına getdi və İsgəndərin Şirvanda törətdiyi müsibətlər barədə ona məlumat verdi. **1435-ci ilin yayında Təbriz yaxınlığında döyüşdə** birləşmiş qüvvələr Qaraqoyunluları məğlub etdilər, İsgəndər isə Anadoluya qaçdı.

**1435-ci ilin payızında** Sultan Şahrux Təbrizə gəldi. Bu zaman Qara Yusifin kiçik oğlu **Cahanşah** Təbrizdə Şahruxu təntənə ilə qarşıladı. Burada Cahanşah Şahruxla razılığa gəldi. Həmin razılaşmaya görə:

- ***Qaraqoyunlu dövləti Teymurilərin vassal asılılığına düşdü***
- ***Cahanşah Teymurilərin vassalı kimi Qaraqoyunlu dövlətinin hökmdarı elan edildi***

Beləliklə, **1435-ci ildə** Cahanşah Teymurilərin vassal asılılığını qəbul etdi. Sonra Sultan Şahrux qışı **Qarabağda** keçirərək öz ölkəsinə qayıtdı. Bundan istifadə edən İsdəndər ***osmanlıların köməyi ilə*** Təbrizə hücum etdi. **Cahanşah (1435-1467)** qardaşını məğlub edərək **Əlincə qalasında** həbsdə saxldı, sonra İsgəndər elə oradaca vəfat etdi.

**1447-ci ildə** Cahanşah ***Şahruxun ölümündən sonra*** Teymurilərin vassal asılılığından çıxaraq müstəqil siyasət yeritdi.

**Qaraqoyunlularla Teymurilər arasında baş vermiş döyüşlər**

| | | |
|---|---|---|
| **1387** | **Çapaqçur** | Qara Məhəmməd  Teymurun qüvvələri üzərində inamlı qələbə qazandı |
| **1394** | **Bağdad** | Teymurilər Qaraqoyunlu və Cəlairiləri qüvvələrini məğlubiyyətə uğratdı |
| **1406** | **I Şənbi qazan** | Qaraqoyunlu qüvvələri Teymuri Əbubəkri məğlub etdi |
| **1408** | **Sərdrud** | Qara Yusif Miranşahı məğlub edərək, Teymurilərin Azərbaycanda hakimiyyətinə son qoydu |
| **1421** | **Alaşkerd** | Şahrux Qaraqoyunlular üzərində qələbə çaldı və Qara Yusifin oğlanları İsgəndər və İsfəndiyar məğlub oldular |
| **1427** | **Salmas** | Şahrux Isgəndər başda olmaqla Qaraqoyunlu qüvvələrini məğlubiyyətə uğratdı |
| **1435** | **Təbriz** | Şirvanşah I Xəlilullah və Teymuri hökmdarı Şahruxun qüvvələri Qaraqoyunluları məğlub etdilər |

**Teymuri Şahruxun Azərbaycana yürüşləri**

| *Tarixi* | *Nəticələri* |
|---|---|
| **1418-1420-ci illər** | Şahrux hər iki yürüşdə də  meğlub olaraq geri çəkildi. Son döyüşdə Qara Yusif yaralandı |
| **1420-ci il dekabr** | Şahrux Qaraqoyunlular üzərində qələbə çaldı, Qara Yusifin oğlanları İsgəndər və İsfəndiyar məğlub oldular |
| **1427-ci il** | Şahrux İsgəndər başda olmaqla Qaraqoyunlu qüvvələrini məğlubiyyətə uğratdı və Qara Yusifin oğlu Əbu Səidi vassalı kimi Qaraqoyunlu taxtına çıxardaraq Azərbaycanı tərk etdi |
| **1435-ci il** | Qaraqoyunluları məğlub edildi, Cahanşah Teymurilərin vassalı kimi Qaraqoyunlu dövlətinin hökmdarı elan edildi, Qaraqoyunlu dövləti Teymurilərin vassal asılılığına düşdü, |

## Cahanşahın dövründə Qaraqoyunlu dövlətinin daxil və xarici siyasəti

Cahanşahın dövründə Qaraqoyunlu dövləti bir qədər möhkəmləndi. Cahanşahın hakimiyyəti dövründə:

- ✓ Qara isgəndərdən fərqli olaraq Şirvanşahlar dövləti ilə dostluq münasibətləri yaratmağa çalışdı
- ✓ Feodal zümrəsinin mənafeyinə uyğun tədbirlər həyata keçirdi
- ✓ Gələcəkdə işğalçılıq planlarını həyata keçirmək üçün hərbi islahat keçirdi
- ✓ ***Oturaq əhaliyə*** və ***iri tacirlərə*** arxalanaraq ***yarımköçəri əmirlərə qarşı*** mübarizə apardı
- ✓ ***Ağır vergi*** və ***mükəlləfiyyətlər*** kəndlilərin narazılığına səbəb oldu, ölkədə ***kəndli çıxışları*** artdı (Bu çıxışların hamısının qarşısını almaq mümkün olmaması Cahanşahı qorxuya saldı)
- ✓ Ağqoyunlu **Uzun Həsən** tez-tez Cahanşahdan vassal asılılığında olan torpaqlara hücumlar təşkil etdi
- ✓ Ağqoyunlular üzərinə yürüşlər etdi.

**XV əsrin 50-ci illərində** Ağqoyunlu Uzun Həsənlə Qaraqoyunlu Cahanşahın hərbi toqquşmaları ***nəticəsində:***

- Qaraqoyunlular mübarizədə məğlubiyyətə uğradılar
- Qaraqoyunlular ***Şərqi Anadolunun çox hissəsini*** itirdilər

Ağqoyunlularla mübarizədə uğursuzluğa baxmayaraq Cahanşah Teymurilər üzərində bir-sıra əməliyyatlarda uğur qazandı:

- **1453-cü ildə İran İraqını, bütün Qərbi İranı** və **Şərqi İranın** bir hissəsini ələ keçirdi
- **1457-ci ildə** Teymurilərin sultan taxtının iddiaçılarından olan Şahruxun oğlunu məğlub edərək **Cürcanı** və **Xorasanı** tutdu
- **1458-ci ildə** Teymurilərin paytaxtı olan Herat şəhərini tutdu
- **1459-cu ildə** Teymuri hökmdarı Əbu Səidlə **Herat barışığı (sazişi)** imzalayaraq ondan təzminat aldı

**Cahanşahın 1453-cü ildə ələ keçirdiyi ərazilər**




## Qaraqoyunlu dövlətinin süqutu

Cahanşah hərbi səfərdə olduğu zaman ***yarımköçmə feodallar*** Azərbaycanda Cahanşahın oğlu **Həsənəlinin** və **Bağdadda** isə digər oğlu **Pirbudağın** ətrafında birləşərək qiyam qaldırdığı üçün o, Teymurilərlə mübarizəni dayandıraraq Herat sazişini imzalamağa məcbur oldu. Cahanşah Azərbaycana gələrək qiyamları yatırdı, **1465-ci ildə** Pirbudaq təslim oldu və öldürüldü.

Lakin, Cahanşahın daxili və xarici siyasəti ***nəticəsində***:

- Müdaxiləyə və ara müharibələrinə son qoya bilmədi
- Mərkəzi hakimiyyəti möhkəmləndirmək siyasəti nəticəsiz qaldı
- Feodal çəkilşələri və mərkəzi hakimiyyətə tabe olmamaq cəhdləri artdı
- Xalq kütlələrinin vəziyyəti ağırlaşdı

Bu amillər Qaraqoyunlu dövlətinin getdikcə zəifləməsinə səbəb oldu və **1468-ci ildə** Ağqoyunlu Uzun Həsənin Qaraqoyunlular üzərində qələbə çalması üçün şərait yaratdı.

**Qaraqoyunlu dövləti**

- Ərazisi Şirvandan başqa qalan Arərbaycan torpaqlarını əhatə edirdi
- Əsası Qara Yusif tərəfindən qoyulmuşdur
- XV əsrdə yaranmışdı və mərkəzləşmiş dövlət deyildir
- Dövlətin paytaxtı Təbriz şəhəri olmuşdur
- Bir müddət Teymurilərdən vassal asılılığına düşmüşdür
- Şirvanşahlar dövlətini özündən asılı vəziyyətə salmışdı
- Ağqoyunlular tərəfindən süquta uğradılmışdı
- Bir müddət Teymuriləri özündən vassal asılılığına salmışdır

| | | | |
|---|---|---|---|
| Qaraqoyunlu dövlətinin yaranması | **1410** | **1447** | Cahanşahın Teymurilərin vassal asılılığından çıxaraq müstəqil siyasət yeritməyə başlaması |
| Qara Yusifin oğlu Pirbudağı sultan elan etməsi | **1411** | **XV 50-ci illəri** | Ağqoyunlu Uzun Həsənlə Cahanşah arasında döyüş baş verməsi |
| Kür çayı sahilində döyüşdə Qaray Yusifin qələbə qazanması | **1412** | **1453** | Cahanşahın İran İraqını, Qərbi İranı və Şərqi İranın bir hissəsini ələ keçirməsi |
| Teymuri Şahruxun iki dəfə Azərbaycana yürüş etməsi | **1418; 1420** | **1457** | Cahanşahın Şahruxun oğlunu məğlub edərək Cürcanı və Xorasanı tutması |
| Alaşkerd döyüşü. Sultan Şahruxun qaraqoyunluları məğlub etməsi | **1421** | **1458** | Cahanşahın Teymurilərin mərkəzi Herat şəhərini tutması |
| Qara İsgəndərin Şirvana hücum etməsi | **1427** | **1459** | Həsənəlinin və Pirbudağın mərkəzi hakimiyyətə qarşı qiyam qaldırması |
| Teymuri Şahruxun üçüncü dəfə Azərbaycana yürüş etməsi | **1427** | **1459** | Cahanşahla Teymuri hökmdarı Əbu Səid arasında Herat barışığı imzalanması |
| Salmas döyüşü. Sultan Şahruxun qaraqoyunluları məğlub etməsi | **1427** | **1465** | Cahanşahın oğlu Pirbudağın qiyamını yatırması |
| Qaraqoyunlu İsgəndərin Şirvana ikinci dəfə hücum edtməsi | **1434** | **1465** | Qaraqoyunlu Cahanşahın tapşırığı ilə Təbrizdə "Göy məscid"in inşa olunması |
| I Xəlilullahın Reyə gedərək Azərbaycana yürüşə dəvət etməsi | **1434** | **1467** | Muş döyüşü. Uzun Həsənin qaraqoyunluları məğlub etməsi |

## Ağqoyunlu dövləti (1468-1503)

### Ağqoyunlu tayfalarının mənşəyi və yaşadığı ərazilər

**XIII-XIV əsrlərdə** Ağqoyunlular **Xorasandan** Anadoluya köçmüş ***oğuz mənşəli*** türk tayfa birliyi idi. Bayraqlarında ağ qoç rəmzi olan bu tayfa birliyi hələ ***erkən orta əsrlərin*** baslanğıcında **Cənubi Qafqazda**, başlıca olaraq **Qafqaz dağlari ilə Araz çayi arasindaki ərazidə - Qarabağda, Göyçə gölü ətrafindaki torpaqlarda**, **Alagöz yaylaqlarinda,** həmçinin **Azərbaycanın cənub bölgələri, Şərqi Anadolu, Qərbi İran, Dəclə və Fərat çayları arasındakı** geniş bir ərazidə yayılmışdırlar. Ağqoyunlu tayfa ittifaqına ***Pörnək, Mosullu, Əfşar, Bayat*** tayfaları daxil idi. Ağqoyunlular  Azərbaycanda möhkələnmək üçün ***Qaraqoyunlular*** və ***Teymurilərlə*** mübarizə aparmışdılar.

Ağqoyunluların siyasi birliyinin başçısı ***Bayandur*** tayfasindan olan **Pəhləvan bəy (1370-1388)**  idi. Pəhləvan bəyin dövründə:

- ✓ Ağqoyunlu tayfa ittifaqı Şərqi Anadolunun cənubunda böyük qüvvəyə çevrildi, qonşu dövlətlər onunla hesablaşdılar
- ✓ Qaraqoyunlularla Teymur arasında gedən mübarizədən istifadə edərək Ağqoyunlu tayfalarını birləşdirmək uğrunda ciddi mübarizə apardı

Pəhləvan bəyin ölümündən sonra ara müharibələri getdikcə artdı və Ağqoyunlu tayfa ittifaqi əvvəlki mövqeyini itirərək bir qədər zəiflədi. **Əlaəddin Turəlinin (1388-1394)** ***Ağqoyunlu tayfa ittifaqını möhkəmləndirmək cəhdləri nəticəsiz qaldı.***




### Ağqoyunlu bəyliyinin əsasının qoyulması

Ağqoyunlu siyasi birliyinin başçılarından biri olan **Qara Yuluq Osman bəyin (1394-1434)** dövründə:

- ✓ Sivas uğrunda mübarizədə Qaraqoyunlulara qalib gələrək **Diyarbəkirdə** möhkəmləndi
- ✓ Mərkəzi **Diyarbəkr** olan **Ağqoyunlu bəyliyinin** əsasını qoydu
- ✓ Öz adina pul kəsdirdi, feodal çıxışlarını yatırdı
- ✓ Bir sıra tədbirlər həyata keçirməklə Ağqoyunlu tayfa ittifaqını xeyli möhkəmləndirdi
- ✓ **Ərzincan** və **Mardin torpaqları** Ağqoyunlulardan asılı vəziyyətə salındı

**1434-cü ildə** Qaraqoyunlularla döyüşlərin birində Qara Yuluq Osman öldürüldü. Onun ölümündən sonra, Ağqoyunlu ***tayfa ittifaqında daxili mübarizə*** daha da şiddətləndi. Bu vəziyyətdən ***Osmanlılar*** istifadə etdilər.

Hakimiyyətə gəlmiş **Əli bəy (1434-1444)** ***daxili və xarici mübarizədə müəyyən üstünlüklər əldə edə bildi***. Əli bəydən sonar onun yerinə keçən oğlu **Cahangir Mirzə (1444-1453)** hakimiyyəti dövründə:

- ✓ Qisa vaxt ərzində Ağqoyunlu tayfaları yenidən birləşdirildi
- ✓ Ağqoyunlular Diyarbəkirdə möhkəmləndilər

Lakin Cahangir Mirzə ***tayfa ittifaqının başçısı kimi lazımı rol oynaya bilmədi.***

**1453-cü il yanvarın 16-da** Əli bəyin digər oğlu **Uzun Həsən** Diyarbəkrə daxil olub qardaşı Cahangir Mirzənin qüvvələrini məğlub edərək hakimiyyəti ələ keçirdi. **Uzun Həsən (1453-1478)** Ağqoyunlu tayfa birləşmələrinin möhkəmlənməsi əleyhinə cıxan qüvvələrə qarşi mübarizədə daha cox fəallıq göstərildi.







## Ağqoyunlu dövlətinin yaranması. Uzun Həsənin daxili siyasəti

Uzun Həsən Ağqoyunluların əsas rəqibiolan ***Qaraqoyunlulara qarsi mübarizə aparmaq üçün***:

- **XV əsrin 50-ci illərində** Gürcüstanın Qaraqoyunlulara tabe olan şərq hissəsini tutdu
- **1467-ci il noyabrın 11-də Muş döyüşündə** Qaraqoyunluları məğlub etdi
- **1468-ci ildə** Azərbaycanın cənubunu və Qarabağı müqavimətsiz tutdu və bununla da Qaraqoyunlu dövlətini süquta uğratdı

**1467-ci ildə** Ağqoyunlu Uzun Həsənlə Qaraqoyunlular arasında baş vermiş **Muş döyüşü *nəticəsində***:

- ***Qaraqoyunlular məğlub oldu və Cahanşah döyüşdə öldürüldü***
- ***Bağdada qədər olan ərazilər Ağqoyunluların əlinə keçdi***

Bundan sonra Qaraqoyunlu əmirləri **Maku qalasında** həbsdə saxlanılan Cahanşahın oğlu **Həsənəlini** azad edib hökmdar seçdilər (1467-1468). Cahansahin varisləri **Həsənəli** ve **Huseynəli arasında** hakimiyyət uğrunda mubarizə başlandi. Bu mübarizə nəticəsində ***Hüseynəli öldürüldü, Həsənəli isə öz qüvvələrini toplayaraq Ağqoyunlulara qarşi mübarizəyə başladi***. ***Həsənəli, rəiyyəti öz tərəfinə çəkmək üçün Təbriz yoxsullarına və kəndlilərə xeyli məbləğdə pul payladı.*** Lakin onlar Həsənəlini müdafiə

etmədilər. Ona görə də **1468-ci ildə** Uzun Həsən asanlıqla **Cənubi Azərbaycanı** və **Qarabağı** ələ keçirdi. Nəticədə, Qaraqoyunlu tayfalarının böyük bir hissəsi Ağqoyunlu dövlətinin tərkibinə daxil oldu.

Ağqoyunlu dövlətinin paytaxtı **Təbriz şəhəri** oldu. Ağqoyunlu dövləti ən qüdrətli çağlarında onun ərazisi **Kürdən Cənubda olan Azərbaycan vilayətlərini, Şərqi Anadolunu, Qərbi İranı, İraqı, Şərqi Gürcüstanı** əhatə edirdi.

Ağqoyunlu dövlətində başlıca təsərrüfat sahələri ***əkinçilik, maldarlıq, ipəkçilik, üzümçülük*** və ***bağçılıq*** təşkil edirdi. Şəhərlərdə ***sənətkarlıq*** və ***ticarət*** inkişaf etmişdir. Ağqoyunlu dövlətinin ərazisindən **Mərkəzi Asiya, Çin** və **Hindistanı** Aralıq dənizi və Qara dəniz sahillərindəki ticarət mərkəzləri ilə birləşdirən karvan yolları keçirdi. Ağqoyunlu dövlətinin əsas gəlirləri və iqtisadi qüdrətinin əsas mənbəyi aşağıdakılar idi:

- Ticarət yollarından keçən karvanlardan alınan ***tamğa*** və ***bac*** vergisi
- Avropa ölkələri ilə ticarətdən alınan gəlirlər
- Əhalidən toplanan vergilər

Ağqoyunlu dövlətinin ***daxili siyasətində, xüsusilə iqtisadi həyatında*** aşağıdakı zümrələr mühüm rol oynayırdı:

1. ***Ali müsəlman ruhaniləri***
2. ***Köçəri və oturaq feodal əyanları***

## Uzun Həsənin "Qanunnamə" qəbul etməsi

Uzun Həsənin hakimiyyəti dövründə aşağıdakı amillər Ağqoyunlu dövlətin iqtisadi əsasını sarsıdır və onun siyasi nüfuzuna mənfi təsir göstərirdi:

- Şəhər və kənd əhalisi üzərinə ***ağır vergi*** və ***mükəlləfiyyətlər*** qoyulması
- Azərbaycanın ayrı-ayrı mahallarında ***kəndli çıxışlarının*** baş verməsi

Uzun Həsən ***xalqın rəğbətini qazanmaq və vergi işlərini nizama salmaq*** məqsədi ilə **"Qanunnamə"** verdi. Uzun Həsənin keçirdiyi ***vergi islahatı*** nəticəsində:

- ***Vergilərin miqdarı azaldıldı***
- ***Əkinçilik işləri nisbətən yaxşılaşdı***

Lakin, bu tədbirlər əhalinin vəziyyətini yaxşılaşdırmadı, əsrin sonunda vəziyyət daha da pisləşdi.

Uzun Həsən ***hərbi köçəri əyanları*** və ***feodal əyanları*** mərkəzi hakimiyyətə tabe etmək, dövlətin siyasi vəziyyətini və xarici müdafiəsini möhkəmləndirmək məqsədi ilə isə aşağıdakı tədbirləri həyata keçirdi:

- ***Nizami ordu yaratdı***
- ***Odlu silah istehsal etməyə təşəbbüs etdi***
- ***Feodalların müqavimətini qırdı***
- ***Feodallara bəzi güzəştlər etdi***

Uzun Həsənin həyata keçirdiyi tədbirlərin bəzi uğurlarına baxmayaraq mərkəzləşmiş dövlət yarada bilmədi.

**"Qanunnamə" qəbul etmiş Azərbaycan hökmdarları**

Salari Mərzban İbn Məhəmməd

Ağqoyunlu Uzun Həsən

### Ağqoyunlu dövlətinin Teymurilər ilə mübarizəsi (1468-1469-cu illər)

**1467-ci ildə** Muş döyüşündə Qaraqoyunlu hökmdarı Cahanşahın ölümünü eşidən Teymuri hökmdarı **Əbu Səid** Azərbaycanda ***Cahanşahın övladlarının hakimiyyətini qorumaq məqsədi ilə*** Ağqoyunlulara qarşı müharibəyə hazırlaşdı. Uzun Həsən bu müharibəyə girməkdən ehtiyyat edərək, anası **Sara xatının** başçılığı ilə zəngin hədiyyələrlə Əbu Səidin yanına nümayəndə heyəti göndərdi. Lakin Ağqoyunlu dövlətinin qüvvətlənməsini özü üçün təhlükə hesab etdiyi üçün Əbu Səid müharibə etmək fikrindən dönmədi və **1468-ci ilin payızında** Azərbaycanın cənub torpaqlarına daxil oldu. Bu zaman Uzun Həsən Əbu Səidə qarşı mübarizədə **Şirvanşah Fərrux Yasar (1462-1500)** və **Ərdəbil hakimi Şeyx Heydərlə** ittifaqa girərək düşməni ***iqtisadi mühasirəyə*** aldılar. Hələ Fərrux Yasarın atası I Xəlilullahın vaxtında (1417-1462) Qaraqoyunlularla müharibələrində **Şirvanşahlar dövləti** Teymurilərin qoşununa ***ərzaqla kömək*** edirdi. Fərrux Yasarın isə Əbu Səidin Ağqoyunlularla müharibəsi zamanı ona ərzaqla kömək etməkdən imtina etməsi nəticəsində onun qoşunu ciddi aclıq çəkərək dağılmağa başladı. Belə olduqda Əbu Səid sülh təklif etdi. Lakin Uzun Həsən sülh təklifini rədd edib, Teymurilərin düşərgəsinə hücum edərək Əbu Səidin qoşunlarını darmadağın etdi.

### Ağqoyunlu dövlətinin xarici siyasəti. Osmanli dövləti ilə mübarizə

Ağqoyunlu dövləti Uzun Həsənin hakimiyyəti dövründə Azərbaycanın bu vaxta qədərki bütün tarixi ərzində Avropa ölkələri ilə ***çox geniş əlaqə yaratmış ilk dövlət*** idi. Uzun Həsənin Avropa ölkələri ilə geniş əlaqələr yaratmaqda əsas məqsədi aşağıdakılar idi:

1. ***Azərbaycanın beynəlxalq ticarət əlaqələrini və ipək ticarətini sahmana salmaq.***
2. ***Öz ordusuna müasir odlu silahlar almaq.***
3. ***Topçuluq sənətini inkişaf etdirmək üçün ölkəyə artileriya mütəxəsisləri gətirmək.***
4. ***Osmanlıya qarşı birgə mübarizə aparmaq üçün müttəfiqlər tapmaq.***

Uzun Həsənin xarici siyasətində əsas istiqaməti ***Osmanlı imperiyası ilə münasibətlər*** təşkil edirdi. Ağqoyunlu dövlətinin yaranması Osmanlı sultanı **Fateh II Mehmeti (1451-1481)** ciddi narahat edirdi. **XV əsrin 60-70-ci illərində *xarici ticarətlə əlaqədar olaraq,*** Ağqoyunlu dövlətinin Osmanlı imperatorluğu ilə münasibətləri kəskinləşdi. Daha dəqiq, Ağqoyunlu dövlətinin Osmanlı imperatorluğu ilə münasibətlərinin kəskinləşməsində bu amillər mühüm rol oynamışdır:

- **Fateh II Mehmetin Qafqazı, xüsusilə Azərbaycanı tutmaq üçün səy göstərməsi**
- **Fateh II Mehmetin Osmanlı dövlətini Avropa-Şərq ticarətində vasitəçilik edən dövlətə çevirmək istəyi**
- **Trabzon məsələsi**

### Ağqoyunlu Osmanlı münasibətlərinin gərginləşməsi. Trabzon məsələsi

Ağqoyunluların Qaraqoyunlularla kəskin mübarizəsindən istifadə etməyə çalişan Osmanlı sultani II Mehmed Ağqoyunlulara qarşi böyük hərbi yürüş hazırladı və onların müttəfiqi olan ***Trabzon krallığı üzərinə*** hücuma keçdi. Qara dəniz sahilində yerləşən Trabzon şəhəri Avropanın Şərq ölkələri, Hindistan ve Çinlə ticarətində vasitəçi rolunu oynayirdi.

Azərbaycanda hakimiyyətə gəlməsindən xeyli əvvəl Ağqoyunlu bəyləri Trabzon imperatorluğu (1204-1461) ilə dostluq və qohumluq əlaqələri yaratmışdılar. Uzun Həsən isə Trabzon imperatorunun qızı **Feodora – Dəspinə xatınla** evlənmişdir. Odur ki, Ağqoyunlular Trabzona öz mülkləri kimi baxırdılar. Trabzonun Ağqoyunlular üçün böyük ticarət əhəmiyyəti var idi. Belə ki:

- Bu şəhər Ağqoyunlu tacirlərinin Qara dənizə yeganə və əlverişli çıxış yolu idi
- Ağqoyunlu tacirləri bu şəhər vasitəsilə Krımdakı mərkəzləri ilə əlaqə saxlayırdılar

Məhz bu amillərə görə II Mehmet Ağqoyunlularla müharibəyə **1461-ci ildə Trabzon üzərinə hücumla** başladı. Belə şəraitdə ***Uzun Həsən Trabzonu müdafiə etdi və bu məqsədlə osmanlılar üzərinə hücuma keçdi***. Ağqoyunlu qüvvələrinin

Osmanlılarla ***ilk toqquşması*** sərhədd boyunda, Qoyluhisar adlanan yerde bas verdi. **1461-ci idə** baş vermiş **Qoyluhisar döyüşü nəticəsində** - ***Ağqoyunlular Osmanlı qoşununa ciddi zərbə vursalar da***, Uzun Həsən hələlik Osmanlilarla sülh bağlamağı qərara aldı. O, bu məqsədlə Şərqdə diplomat qadin kimi tanınan **Sara xatınu** sultanın düşərgəsinə – **Bolqar dağına** göndərdi. Qaynaqların məlumatına görə, diplomatik danışıqlar zamanı Sara xatın və II Mehmet bir-birinə ***"ana","oğul"*** – deyə müraciət edirdilər. Uzun Həsən Sara xatınu sultan II Mehmetin hərbi düşərgəsinə göndərərkən onun qarşısına iki çətin vəzifə qoydu:

1. **Osmanli sultanını mümkün qədər Trabzonu fəth etmək fikrindən döndərmək.**
2. **Sultanı Ağqoyunlular üzərinə hücum etmək fikrindən daşındırmaq.**

Sara xatın Sultan II Mehmeti Ağqoyunlular üzərinə hücum etmək fikrindən daşındırsa da, sultanın Trabzon dövlətini Osmanliya qatmaq fikrindən döndərə bilmədi. Tərəflər arasında danışıqların nəticəsi olaraq **1461-ci ildə Yassıçəmən** müqaviləsi imzalandı. Uzun Həsənin Yassıçəmən sülh müqaviləsini bağlamağa məcbur olmasının səbəbi bunlar idi:

- ***Ağqoyunlu dövləti Osmanli ilə toqquşa biləcək dərəcədə güclü deyildi***
- ***Ağqoyunlu dövlətinə arxadan Qaraqoyunluların və Teymurilərin hücumu gözlənilirdi***

II Mehmet Ağqoyunlu dövlətini təcrid etdikdən sonra Trabzon üzərinə yeridi. Lakin II Mehmet ***Uzun Həsənin arxadan hücum etməyəcəyinə əmin olmadığı üçün*** Sara xatın başda olmaqla Ağqoyunlu elçilərini özü ilə apardı. Nəhayət, Trabzon şəhəri bir aylıq mühasirədən sonra sultan qoşunu tərəfindən tutuldu. Beləliklə, Bizans imperiyasının Kicik Asiyada son qalığı olan Trabzon imperatorluğu **1461-ci il, avqustun 15-də** süqut etdi. Trabzonun əldən getdiyini görən Sara xatın öz gəlininin – Dəspinə xatunun Trabzon taxtına varislik huququnu irəli sürdü. Bundan istifadə edən Sara Xatun Trabzon xəzinəsini sultanla bölüşdürdükdən sonra Ağqoyunlu elçilərinin başında geri qayıtdı. Sultanın elçiləri də onlarla birlikdə **1461-ci il Yassıçəmən** müqaviləsini təzələmək üçün Ağqoyunlu sarayına gəldilər. Bununla da Osmanlı sultanı Qərbdəki istilalarını həyata keçirərkən arxa cəbhənin təhlükəsizliyini təmin etmək istəyirdi. Beləliklə, Osmanlılar tərəfindən Trabzonun fəth edilməsi nəticəsində:

- ***Qara dənizdə Genuya ilə əlaqə yaradan mühüm ticarət mərkəzi süqut etdi***
- ***Ağqoyunlu dövləti müttəfiqini və Qara dənizə yeganə çıxış yolunu itirdi***
- ***Ağqoyunlu - Osmanlı münasibətləri yenidən kəskinləşdi***

**Uzun Həsənin Osmanlı ilə sülh bağlamağa can atmasının səbəbləri**




## Ağqoyunlu dövlətinin Avropa ölkələri və Rusiya ilə diplomatik əlaqələri

Uzun Həsən ***Osmanlı dövlətinə zərbə endirmək məqsədi ilə*** Avropa ölkələri ilə diplomatik əlaqə yaratmağa başladı və bu əlaqələr böyük rəğbətlə qarşılandı. Uzun Həsənin Osmanlıya qarşı planlarının Avropa dövlətləri tərəfindən rəğbətlə qarşılanmasının əsas səbəbi o idi ki, Osmanlı imperatorluğu Avropanın içərilərinə sürətlə irəlilədiyi bir zamanda Avropanın xristian dövlətləri Ağqoyunlu vasitəsi ilə Osmanlıya ***"arxadan zərbə"*** vura bilərdilər. Odur ki, Avropa dövlətləri iki türk dövlətinin yaxınlaşmasını istəmir və onlar arasında ziddiyyət salmağa çalışırdı. Uzun Həsən isə bu diplomatiyanı lazımi qədər qiymətləndirə bilmədiyindən Avropa dövlətləri ilə ticarət əlaqələrini Osmanlı dövlətinin iştirakı olmadan möhkəmləndirməyə çalışırdı. Uzun Həsən Osmanlılara qarşı mübarizədə aşağıdakı ölkələri vahid cəbhədə birləşdirməyə çalışırdı:

1. **Qaraman bəyliyini.**
2. **Kipr krallığını.**
3. **Rodos feodal dövləti**ni.

Ağqoyunlu dövlətinin daha geniş əlaqələr saxladığı Avropa ölkəsi **Venesiya respublikası** idi. Venetsiya respublikası Ağqoyunluların ***Şərqlə Qərb arasındakı ticarətdə vasitəçilik*** edirdi. Bununla yanaşı Azərbaycanın cənub torpaqlarında hasil olunan ipək Venesiya toxuculuq manufakturalarını təmin edirdi. **1463-cü ildə** Venesiya-Osmanlı mübaribəsinin (1463-1472) başlanması Ağqoyunlu-Venesiya əlaqələrinin güclü və müntəzən olmasına təsir göstərdi. **1464-cü ildə** Venesiya hökuməti Uzun Həsənin sarayına bir neçə diplomatını göndərdi. **1472-ci ildə** isə Venesiya hökuməti **Katerino Zenonun** başçılığı ilə bir neçə diplomatını Təbrizə göndərdi və danışıqlar nəticəsində iki dövlət arasında Osmanlı əleyhinə koalisiya – ***hərbi ittifaq*** bağlandı. Bu ittifaqa görə ***Venesiyadan Uzun Həsənin ordusuna odlu silah və artilleriya mütəxəsisləri göndərilməli*** idi.

Uzun Həsən Katerino Zeno vasitəsi ilə Avropa hökmdarlarına məktub göndərdi. Həmin məktubun məzmunu belə idi: ***“Mən gecə-gündüz ancaq bir şey – sizinlə ittifaqa və Allahın iradəsi ilə tezliklə Osmanlı üzərinə yerimək haqqında fikirləşirəm. Onu bilin ki, başqa cür olmayacaqdır. Çünki, niyyətim belədir... ”***.

Ağqoyunlu elçiləri **Venesiyaya, Romaya, Polşaya, Almaniyaya** da gedərək Osmanlılara qarşı danışıqlar aparırdılar.

**1475-ci ildə** Moskva knyazı **III İvan** xüsusi elçisi **Marko Rossonu** Uzun Həsənin sarayına göndərdi. Marko Rossonun Uzun Həsənin sarayına gəlişinin məqsədi aşağıdakılar idi:

1. **Qızıl Orduya qarşı birgə mübarizə aparmaq**
2. **Ticarət və diplomatik əlaqələri genişləndirmək**

Lakin, III İvanın Uzun Həsənin sarayında olmuş xüsusi elçisi Ağqoyunluları Qızıl Ordu xanına qarşı birgə mübarizəyə cəlb edə bilmədi. Bunun əsas səbəbi aşağıdakı amillər idi:

- **Uzun Həsənin Rusiya dövlətinin Qafqazda möhkəmlənməsindən ehtiyat etməsi**
- **Qızıl Ordu elçilərinin Moskva elçisindən daha əvvəl Qızıl Ordu sərhədlərinin toxunulmazlığı haqqında Uzun Həsəndən təminat alması**




## Ağqoyunlu Osmanli müharibələri və onun nəticələri

Trabzonu fəth etdikdən sonra II Mehmet işğalçılıq siyasətini davam etdərək ***Azərbaycan ərazisini ələ keçirmək üçün*** Ağqoyunlulara qarşı qəti mübarizəyə hazırlaşdı. Uzun Həsən isə Azərbaycana soxulmağa çalışan ***Osmanlı qoşununa sərhəddən uzaqlarda zərbə vurmaq məqsədi ilə*** Venesiya ilə yaratdığı kualisiyaya uyğun olaraq **1472-ci ilin yazında Mirzə Yusif xanın** başçılığı ilə Ağqoyunlular Ərzincandan Qaraman istiqamətində Osmanlılar üzərinə hücuma keçib parlaq qələbə çaldılar və Aralıq dənizi sahillərinə çıxdılar. Ağqoyunluların Ərzincandan Qaraman istiqamətində hücuma keçməkdə məqsədi - ***Venesiyadan Uzun Həsənin ordusuna göndəriləcək odlu silah və artilleriya mütəxəsislərini qəbul etmək*** idi. Lakin, burada Uzun Həsənin ordusu üçün odlu silah və artilleriya mütəxəsisləri gətirəcək Venesiya gəmiləri yox idi. Çünki, Venesiya hökuməti iki türk dövlətini qarşı-

qarşıya qoyub aradan çıxmış, digər tərəfdən Osmanlı dövlətinin ağır vəziyyətindən istifadə edərək, ticarət üstünlüyü almaq ümidi ilə gizli diplomatik danışıqlar aparırdı. Beləliklə, müharibənin bütün ağırlığı Ağqoyunlu dövlətinin üzərinə düşdü. Bundan məharətlə istifadə edən II Mehmet öz rəqiblərini bir-birindən ayırdı və müharibəni qazandı.

II Mehmet oğlu Şahzadə Mustafanın başçılığı altında Ağqoyunlulara qarşı 60 min nəfərlik qoşun göndərdi. **1472-ci ilin avqustunda Beyşehir yaxınlığında döyüşdə** II Mehmedin oğlu Mustafanın başçılıq etdiyi ***Osmanlı qoşunları Ağqoyunlu süvari qüvvələrini məğlub etdilər***. Məğlubiyyətin səbəbi Ağqoyunlu qüvvələrinin sayca Osmanlılardan xeyli az olması idi. Qışın düşməsi ilə əlaqədar olaraq hər iki tərəf hərbi əməliyyatları müvəqqəti olaraq dayandırdı. II Mehmet öz elçisi ilə Uzun Həsənə məktub göndərərək, **1473-cü ilin baharında** Ağqoyunlulara qarşı hücuma keçəcəyini bildirdi.

**1743-cü ilin baharında** Osmanlı qüvvələri **Xasmuradın** komandanlığı altında güclü artileriyanın müşayiəti ilə Ağqoyunlulara qarşı Ərzincana tərəf hərəkət etdi. II Mehmetin qosunu Qaramana yetişərkən Uzun Həsən də öz qüvvələr ilə Fərat çayi sahillərinə çatdı və döyüşə hazirlaşdı.

**1473-cü il avqustun 1-də Malatiya döyüşündə** II Mehmedin sərkərdəsi Xasmuradın qosunları ilə Uzun Həsənin hərbi qüvvələri arasinda baş vermiş döyüş nəticəsində ***Ağqoyunlular qalib gəldi və Osmanlı qoşununun zərbə qüvvəsi məhv edildi***. ***Malatiya məğlubiyyəti*** Osmanlı qoşununda intizamın pozulmasına və böyük ruh düşkünlüyünə səbəb oldu. Qələbə ümidini itirən Osmanlı sultanı döyüşdən sonra öz zabitlərindən birini sülh bağlamaq məqsədi ilə Ağqoyunlu hökmdarının yanına göndərdi. Lakin Uzun Həsən II Mehmetin sülh təklifini rədd edərək Osmanlı qoşununu təqib etməyə başladı.

**1473-cü il avqustun 11-də Otluqbeli (Tercan)** döyüşündə ***Ağqoyunlular üstünlük təşkil etsələr də döyüş Osmanlların qələbəsi ilə başa çatdı***. Otluqbeli (Tərcan) döyüşündə Ağqoyunluların məğlub olmasının s***əbəbi*** bunlar idi:

- ***Osmanlıların odlu silahla yaxşı təmin olunması***
- ***Osmanlı piyadaları olan – yeniçəri alaylarının inadlı əks hücumları***

Beləliklə, **1472-1473-cü illərdə** Ağqoyunlu-Osmanlı müharibəsi ümumtürk birliyi üçün mənfi nəticələri oldu. Müharibənin ***Osmanlılar üçün nəticəsi*** belə oldu:

- ***Osmanlı sultanı Cənubi Qafqazı, Azərbaycanı və İranı tuta bilmədi***
- ***II Mehmetin Şərqlə bağlı apardığı işğalçılıq planı yarımçıq qaldı***

Müharibənin ***Ağqoyunlular üçün nəticəsi*** isə aşağıdakı kimi oldu:

- ***İri feodalların, xüsusilə köçmə-hərbi əyanların mərkəzi hakimiyyətə qarşı mübarizəsi gücləndi***
- ***Müharibə, xüsusilə Otluqbeli məğlubiyyəti Ağqoyunlu dövlətini zəiflətdi və dağılmasını sürətləndirdi***

**Ağqoyunlularla Osmanlılar arasında baş vermiş döyüşlər**



### Ağqoyunlu dövlətində feodal çıxışları. Şiraz üsyanı

Osmanlılarla müharibədə məğlubiyyət Ağqoyunlu dövlətini zəiflətdi və iri feodalların, xüsusilə köçmə-hərbi əyanların mərkəzi hakimiyyətə qarşı mübarizəsini gücləndirdi. **1474-cü ilin aprelində** kürdlər Venesiya diplomatı **İosaft Barbaronu** və onunla Venetsiyadan gələn Ağqoyunlu elçilərini qarət etdilər. Hacı Məhəmməd başda olmaqla Ağqoyunlu elçiləri öldürüldü.

**1474-cü ilin mayında Şirazda** Uzun Həsənin böyük oğlu **Uğurlu Məhəmmədin** başçılığı ilə iri feodallar ***mərkəzi hakimiyyətə qarşı*** qiyamı qaldırdı. Uğurlu Məhəmmədin mərkəzi hakimiyyətə qarşı çıxması ölkənin başqa yerlərində də iri feodalların kəskin çıxışlarına səbəb oldu. Belə feodallardan biri 300 nəfərlik süvari ilə **Təbrizə** hücum etdi. Hökmdarın oğlu **Maqsud bəy** öz süvari dəstəsi ilə gəldi və Təbrizin təhlükəsizliyini təmin olundu.

Uzun Həsən isə Şirazda oğlunun qiyamçı qüvvələrini məğlub etdi. Ağır yaralanan Uğurlu Məhəmməd Osmanlı dövlətinə qaçdı. Osmanlı sultanı II Mehmet Uğurlu Məhəmmədi İstanbulda təntənə ilə qarşılayaraq:

- Uğurlu Məhəmmədə bir qədər hərbi qüvvə verib onu **Sivasa -** Azərbaycanla Osmanlı sərhəddinə hakim təyin etdi
- Qızı **Gövhərxan Sultanı** ona ərə verdi. Bu izdivacdan onların **Əhməd** adlı bir oğlu oldu (Ona Gödək Əhməd deyirdilər)

Uzun Həsən isə Uğurlu Məhəmmədi cəzalandırmaq üçün onu tutub Təbrizdə edam etdirdi. Bu xəbəri eşidən kimi Osmanlı sultanı Sivasda olan qızını və nəvəsi Əhmədi İstanbula gətirtdi.

Uzun Həsən ona qarşı baş vermiş çıxışlarla əlaqədar **1474-1477-ci illərdə Gürcüstana** iki dəfə yürüş etdi. Sonuncu yürüşdə **Tiflis** və **Qori**, həmçinin **Gürcüstanın çox hissəsi** Ağqoyunlular tərəfindən tutuldu. **1477-ci ildə** Uzun Həsən gürcü hakimi **VI Baqratla** sülh bağladı. Sülhün şərtinə görə ***Tiflis də daxil omaqla Şərqi Gürcüstan Ağqoyunlu dövlətinin hakimiyyəti altına düşdü.***

Uzun Həsənin apardığı ***fasiləsiz müharibələr*** dövlətin iqtisadi özülünü sarsıdaraq, ölkədəki ziddiyyətləri son həddə çatdırdı. Uzun Həsənin vəfatından sonra (1478) ***ölkənin sabit həyatı pozuldu, onun daxilində kəskinləşmiş feodal mübarizəsi Azərbaycanın iqtisadi və mədəni inkisafına olduqca ağır təsir etdi.*** Bu dövrdə aşağıdakı amillər Ağqoyunlu dövlətinin dağılmasını sürətləndirdi:

- ***İri feodalların mərkəzi hakimiyyətə qarşı çıxışları***
- ***Fasiləsiz aparılan müharibələr***
- ***İqtisadi tənəzzül***
- ***Ümumxalq narazılığı***







## Sultan Yaqubun hakimiyyəti (1478-1490)

Uzun Həsəndən sonra **Sultan Yaqub (1478-1490)** hakimiyyətə gəldi. Yaqub Mirzə atasının siyasətini davam etdirərək ***Şirvanla dostluq əlaqələri*** saxlamaqla yanaşı Sirvanşah Fərrux Yasarın qızı ilə evlənərək bu əlaqələri daha da möhkəmləndirdi. Lakin Yaqub Mirzə atasının Səfəvilərin Ərdəbil hakimliyinə olan müsbət meylini qoruyub saxlamadi (Ətraflı: Səfəvilərin ərdəbil hakimliyi mövzusuna bax). Bunun səbəbi getdikcə güclənən ***Ərdəbil hakimliyinin hakimiyyətini özü üçün təhlükə hesab etməsi*** idi. Yaqub Mirzənin hakimiyyəti dövründə Səfəvilərin Ərdəbil hakimliyi ilə Ağqoyunlular arasında ziddiyyətlər başladı.

**XV əsrin sonunda** Ağqoyunlu dövlətini daxili çəkişmələr bürüdü. **1484-cü ildə** Sultan Yaqubun hakimiyyəti dövründə Ağqoyunlu dövlətində **Topal Əhmədin** başçılığı ilə ***kəndli çıxışı*** baş verdi.

Topal Əhmədin başçılıq etdiyi kəndli çıxışı:

- Maku şəhərinin yaxınlığındakı **Sofi kəndi yaxınlığında** başlamışdır
- Ağqoyunlular əleyhinə yönəlmişdir
- Yaqub Mirzənin göndərdiyi hərbi qüvvələr tərəfindən yatırıldı
- Qarabulaq kəndi yaxınlğında tərəflər arasında həlledici döyüş oldu

**1484-cü ildə Qarabulaq döyüşündə Sultan Yaqub** üsyançıları məğlub etdi, Topal Əhməd isə öldürüldü.

**1490-cı ildə** Yaqub Mirzənin müəmmalı şəkildə vefatından sonra Ağqoyunlu dövlətində ara müharibələri və feodal çıxışları daha da kəskinləşdi (1490-1492-ci illərdə).




### Baysunqurun hakimiyyəti (1490-1492)

Sultan Yaqubdan sonra onun oğlu **Baysunqur (1490-1492)** hakimiyyətə gəldi. İlk vaxtlar Ağqoyunlu dövlətini Baysunqurun adından idarə edən əmir **Sufi Xəlil** bütün rəqiblərinə qalib gəldi. Az sonra **Diyarbəkrdə** hökmranlıq edən Ağqoyunlu əmiri Süleyman bəy Bicanoğlu Sufi Xəlilin hakimiyyətinə qarşı mübarizəyə başladı. Süleyman bəy ilə Sufi Xəlil arasında **1491-ci ilin yayında Van yaxınlığında döyüş** baş verdi. **Van döyüşü *nəticəsində:***

- ***Sufi Xəlil məğlub oldu və Bicanoğlu hakimiyyəti ələ aldı***
- ***Bicanoğlu Sultan Baysunqura toxunmayıb dövləti onun adından idarə etməyə başladı***

Süleyman bəy Bicanoğlunun Sultan Baysunqurun adından Ağqoyunlu dövlətini idarə etməyə başlaması bir qrup Ağqoyunlu əmirlərinin, o cümlədən **Əbih Sultanın** narazılığına səbəb oldu və onlar Süleyman bəy Bicanoğluya qarşı mübarizəyə qoşuldular. Əbih Sultan **1492-ci ildə** Sufi xəlil tərəfindən dustaq edilən Uzun Həsənin nəvəsi **Rüstəm Mirzəni** Əlincə qalasından azad edərək Ağqoyunlu taxtının iddiaçısı kimi onun namizədliyini irəli sürdü. Bu zaman ölkədə genişlənməkdə olan kəndli çıxışlarından qorxan ***əmirlərin bir qismi*** Rüstəmin və Əbih Sultanın tərəfinə keçdilər

**1492-ci ilin mayında Bərdə döyüşündə** Baysunqurun qoşunu Rüstəm Mirzənin qoşunu ilə doyüşə girdi. Döyüş ***nəticəsində:***

- Bicanoğlu və Baysunqur məğlub oldular
- Bicanoğlu Diyarbəkrə çəkildi və orada öldürüldü
- Baysunqur Şirvana – Fərrux Yasarın yanına qaçdı
- Rüstəm Mirzə qalib gəldi və Təbrizdə Ağqoyunlu taxtında oturdu

### Rüstəm Mirzənin hakimiyyəti (1492-1497)

Rüstəm Mirzə (1492-1497) Ağqoyunlu taxtına çıxarkək dövləti idarə etmək iqtidarında deyildi. Ona görə də Ağqoyunlu dövlətini əslində yeni əmir-əl-üməra vəzifəsinə sahib olan **Əbih Sultan** idarə edirdi. Rüstəm Mirzə hakimiyyətini

möhkəmləndirmək məqsədi ilə ***hərbi-köçmə əyanlarına*** çoxlu ***soyurqal*** paylamaqla onların rəğbətini qazandı. Tarixçi Həsən Bəy Rumlunun məlumatına görə Qaraqoyunlu və Ağqoyunlu padşahlarından heç biri Rüstəm Padşah qədər soyurqal paylamamışdır. Məhz bu səxavətinə görə Rüstəm beş il Ağqoyunlu dövlətini idarə etdi. Nəticədə ***iri köçmə feodallar*** qüvvətləndilər və mərkəzi hakimiyyətə tabe olmaq istəmədilər. Rüstəm Mirzə onlara qarşı mübarizədə Şeyx Heydərin oğlu **gənc Sultanəli ilə** ittifaqa girdi.

**1492-ci ilin sonunda** hakimiyyətdən devrilmiş Baysunqur, babası Fərrux Yasarın köməyi ilə **Bərdə** və **Gəncə arasında** Rüstəm Mirzəyə qarşı döyüşə girsə də məğlub oldu. Rüstəm Mirzə Şirvana daxil olaraq oranı qarət etdi. Müttəfiqlər də öz növbəsində Ağqoyunluların idarə etdiyi **Qarabağa** hücum etdi.

**1493-cu ildə Əhər döyüşü** nəticəsində Baysunqur və onun müttəfiqləri tamamilə məğlub oldu, özü isə öldürüldü.

## Gödək Əhmədin hakimiyyəti (1497)

Rüstəm padşah xeyli soyurqal torpaq paylamaqla köçmə əhalinin xeyli hissəsini özünə qarşı qaldırdı. Əliaçıq olmasına baxmayaraq Rüstəm Mirzəni istəmiyən əmirlər İstanbuldan Uzun Həsənin nəvəsi və Uğurlu Məhmmədin oğlu Gödək Əhmədi ölkəyə dəvət etdilər. **Əbih Sultanın** başçılığı ilə köçmələrin bir hissəsi **Ərzincana** gələn Gödək Əhmədlə birləşərək Azərbaycana yürüş etdi.

**1496-cı ilin yayında Sultaniyyə döyüşündə** Ağqoyunlu qüvvələri darmadağın edildi. **1496-cı ilin sonunda Naxçıvan yaxınlığında döyüş nəticəsində** Gödək Əhməd Rüstəm Mirzənin əsas hərbi qüvvələrini məğlub etdi, özünü isə əsir aldı. Bundan sonra Gödək Əhməd **1497-ci ilin əvvəlində** Təbrizə gəldi və Ağqoyunlu dövlətində hakimiyyəti ələ aldı.

Gödək Əhməd ona hakimiyyətə gəlməkdə kömək edən **Əbih Sultandan** ehtiyyat etdiyi üçün **Kirman mahalını** ona bağışladı. Gödək Əhmədin Ağqoyunlu hərbi qüvvələri üzərində asanlıqla qələbə çalmasının səbəbi bunlar idi:

- ***Mərkəzi hakimiyyətin zəifləməsi***
- ***Köçmə əhalinin bir hissəsinin Rüstəm Mirzəyə qarşı çıxması***

Hakimiyyətə gəldikdən sonra Gödək Əhməd ***əhaliyə*** arxalanaraq:

- ***Hərbi əyanların müqavimətini qırmağa cəhd göstərdi***
- ***Ara müharibələrinə son qoymağa çalışdı***
- ***Ağqoyunlu dövlətini möhkəmləndirmək üçün səy göstərdi***

**XV əsrin 90-cı illərində** Gödək Əhməd kəndlilərin vəziyyətində müəyyən dəyişikliklər etməklə ***dövlətin iqtisadi əsasının zəifləməsinin qarşısını almaq*** məqsədi ilə ***vergi islahatı*** keçirdi. Gödək Əhmədin vergi islahatına əsasən ***şəriətdə göstərilməyən 20-yə qədər vergi və mükəlləfiyyət ləğv edildi***.

Gödək Əhmədin ***daxili siyasəti:***

- Əbih Sultan başda olmaqla bəzi əyanların narazılığına səbəb oldu
- **İran İraqında, Fars vilayətində** bəzi əmirlər qiyamlar qaldırdılar.

**1497-ci il dekabrın 13-də İsfahan döyüşü** nəticəsində Gödək Əhməd qiyamçılar tərəfindən məğlub oldu və öldürüldü. Beləliklə Gödək Əhməd yeddi aydan sonra Əbih Sultanın növbəti xəyanəti və qiyami nəticəsində öldürüldü.




**XV əsrin sonlarında Ağqoyunlu dövlətində mərkəzi hakimiyyət uğrunda aparılan döyüşlər**

| | | |
|---|---|---|
| **1491-ci il** | Van döyüşü | Bicanoğlu Sufi Xəlili məğlub etdi |
| **1492-ci il** | Bərdə döyüşü | Bicanoğlu Baysunquru məğlub etdi |
| **1492-ci il** | Bərdə-Gəncə döyüşü | Baysunqur Rüstəm Mirzəni məğlub etdi |
| **1493-cu il** | Əhər döyüşü | Rüstəm Mirzə Baysunquru məğlub etdi |
| **1496-cı il** | Sultaniyyə döyüşü | Gödək Əhməd rəqiblərini məğlub etdi |
| **1496-cı il** | Naxçıvan döyüşü | Gödək Əhməd Rüstəm Mirzəni məğlub etdi |
| **1497-ci il** | İsfahan döyüşü | Gödək Əhməd məğlub oldu və öldürüldü |

## Ağqoyunlu dövlətinin parçalanması və süqutu

Gödək Əhmədin ölümündən sonra Əbih Sultan **1497-ci ilin dekabrında Qum şəhərində** Yaqub Mirzənin oğlu 9 yaşlı **Murad Mirzəni (1497-1503)** Ağqoyunlu hökmdarı elan edərək, onun adından pul kəsdirdi. Əslində isə azyaşlı Murad Mirzə **Əbih Sultandan** asılı olmaqla Ağqoyunlu dövlətini idarə edirdi. Bu zaman Muradın əmisi oğlu Əlvənd Mirzə (Uzun həsənin Yusif Mirzədən olan oğlu) Ağqoyunlu taxtı uğrunda mübarizəyə başlayaraq **1499-cu ilin sonunda Təbrizi** ələ keçirdi. Bundan sonra:

- **Ağqoyunlu dövlətində ikihakimiyyətlilik yarandı.**
- **Ağqoyunlu taxtı uğruna iki varis - Murad Mirzə və Əlvənd Mirzə (1499-1501) mübarizəyə başladı.**

**1500-cü ilin əvvəlində** dərviş **Baba Xeyrullahın** köməyi ilə Təbriz yaxınlığında Əbhər adlı yerdə Murad Mirzə ilə Əlvənd Mirzə barşışaraq saziş imzaladılar. Tarixə **Əbhər sazişi (1500)** kimi düşən bu sülhün şərtlərinə əsasən:

1. ***Ağqoyunlu dövləti şahzadə Murad Mirzə ilə Əlvənd Mirzə arasında iki yerə bölündü***
2. ***Diyarbəkir, Kürdən Cənubdakı Azərbaycan əraziləri  və Qarabağ Əlvənd Mirzəyə verildi***
3. ***Bütün Ərəb İraqı, Fars və Kirman Ağqoyunlu Murad Mirzəyə keçdi***
4. ***Qızılüzən çayı  tərəflər arasında sərhədd oldu***

Əbhər sülhü nəticəsində Ağqoyunlu dövləti  ***iki yerə parçalandı, hərbi qüdrəti sarsıldı, dövlətin süqutu sürətləndi***.

**1501-ci ilin ortalarinda Şərur döyüşündə** İsmayıl həlledici döyüşdə **Əlvənd Mirzəni** məğlub etdi.

**1503-cü il iyunun 21-də Almaqulağı döyüşündə** İsmayıl **Murad Mirzəni** məğlub etdi. Beləliklə, Səfəvilər dövləti tərəfindən Ağqoyunlu dövlətinin varlığına son qoyuldu. Qaraqounlu və Ağqoyunlu dövlətlərinin süqut etmələri səbəblərində oxşarlıq var idi. Belə ki, hər iki dövlət, ***qonşu dövlətlərlə aparılan müharibələr, mərkəzi hakimiyyətin zəifləməsi və feodal ara müharibələri nəticəsində*** süqut etmişdir.

**QEYD:** Qaraqoyunlu və Ağqoyunlu dövlətləri müəyyən oxşar cəhətlərə malik idi. Belə ki, hər iki dövlət eyni əsrdə yaranmışdı, mərkəzləşmiş dövlət deyildilər, Teymurilərə qarşı mübaizə aparmışdılar, Şirvanşahlar dövlətini vassal asılılığına salmışdılar, hökmdarları soyurqal torpaq mülkiyyəti paylamışdılar. Lakin Qaraqoyunlu dövləti Ağqoyunlu dövlətindən fərqli olaraq ***Osmanlılarla müharibə aparmamışdır, həmçinin Qaraqoyunlular Ağqoyunlular kimi Avropa ölkələri ilə geniş diplomatik əlaqələr yaratmamışdı.***






## XV əsrdə Azərbaycanın sosial-iqtisadi və mədəni həyatı

### Dövlət quruluşu və ordu

**XV əsrdə** Azərbaycanda ***Şirvanşahlar, Qaraqoyunlu*** və ***Ağqoyunlu dövlətləri*** mövcud olmuşdur. Qaraqoyunlu və Ağqoyunlu dövlət aparatında Azərbaycan tayfalarının **hərbi feodal əyanları** – **Baharlı və Bayandur sülalələri** rəhbər rol oynayırdılarsa, Şirvanşahlar dövlətində fərqli olaraq dövlət hakimiyyəti ***əhalinin feodal əyanlarına*** mənsub idi. Qaraqoyunlu və Ağqoyunlu dövlətinin hər ikisində də dövlətin başçısı ***padşah***, Şirvanşahlar dövlətinin başçıları isə ***şah*** titulu daşıyırdı. Ağqoyunlu hökmdarları içərisində ilk dəfə **Uzun Həsən *sultan titulu*** qəbul etdi. Uzun Həsənin sultan titulu qəbul etməkdə məqsədi ***özünü Osmanlı və Teymuri sultanları səviyyəsində hökmüdar olduğunu göstərmək*** idi. XV əsr Azərbaycan dövlətlərində mərkəzi dövlət aparatında saray vəzifələrinin əhəmiyyətinə görə ardıcıllığ belə idi:

1. **Padşah**
2. **Əmir ül-üməra**
3. **Sədr-əzəm (Mövlana)**
4. **Baş vəzir (Sahibi divan)**

Qaraqoyunlu və Ağqoyunlu dövlətində padşahdan sonra ***ikinci şəxs*** **Əmir ül-üməra (Əmirlər əmiri)** adlanırdı.

**Əmir-ül-üməraya *aiddir:***

- *Orduda ən yüksək hərbi vəzifə tutan şəxs olub, ordunun baş komandanı titulunu daşıyırdı*
- *Hakim sülalə üzvlərindən və ya məşhur əmirlərdən təyin olunurdu*

Əmir ül-üməradan sonrakı yerdə **Sədr-əzəm** dayanırdı. **Sədr-əzəmə *aiddir:***

- *Mövlana (ağa) ləqəbini daşıyır, məhkəmə işlərini nizamlayırdı*
- *Ruhanilərə, vəqf mülklərinə, mədrəsələrə və dini müəssisələrə başçılıq edirdi*

Mərkəzi dövlət aparatında sonrakı yeri **Baş vəzir** tuturdu. **Baş vəzirə *aiddir:***

- *Şahın möhrdarı olub,* ***sahibi divan*** *adlanırdı*
- *Daxili nizibati və xarici işlərə, dövlət gəlirinin hesablanmasına və maliyyə işlərinə baxırdı*

Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin bütün hərbi-təşkilati işləri ***köçmə adəti*** ilə sıx bağlı idi. Qoşun hissəsi ailə üzvləri ilə birgə olurdu. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin hər birinin imtiyazlı qvardiya dəstələrindən əlavə **100 min**, Şirvanşahların isə **60 min** qoşunu var idi. XV əsr Azərbayca dövlətlərinin ordularında Avropa və Osmanlı dövlətlərinin orduları ilə müqayisədə ***hərbi texnika zəif*** idi. Ordu ***ox, nizə, qılınc, qalxan*** və ***toppuzla*** silahlanırdı.

**XV əsrdə mövcud olmuş Azərbaycan dövlətləri**



## Torpaq sahibliyi, vergi və mükəlləfiyyətlər

XV əsrdə ənənəvi torpaq mülkiyyəti formaları olan ***dövlət (divani), xassə (sülalə), xüsusi irs (mülk)*** və müsəlman ruhanilərinə mənsub ***vəqf torpaqlari*** qalmaqda idi. Bu dövrdə həmçinin Azərbaycanda feodal torpaq sahibliyi formalarinda bəzi dəyişikliklər baş verdi. XV əsr dövlətləri olan Qaraqoyunlu və Ağqoyunlu dövlətində feodal torpaq sahibliyi formalarında baş verən həmin dəyişiklik iqta əvəzinə ***soyurqal*** paylanılması idi. Belə ki, Qaraqoyunlu və Ağqoyunlu dövlətində *qoşunun dayağı olan hərbi əyanlara müvəqqəti istifadə olunan iqta əvəzinə* irsən keşən ***soyurqal*** adlanan torpaq paylanılırdı. İqta ilə soyurqalın oxşar cəhəti dövlətə ***xidmət müqavilində verilmələri*** olsa da, onlar bir-birindən fərqlənirdi. Soyurqal torpaq mülküyyətinin iqtadan ***fərqi*** aşağıdakılar idi:

- ***Soyurqal irsən keçə bilərdi***
- ***Sahibinin vegri toxunulmazlığı var idi***
- ***İqtaya nisbətən sahibinin hüquqları daha geniş idi***

Öz hakimiyyətini möhkəmləndirmək üçün tərəfdarlarına ən çox soyurqal paylamış Azərbaycan hökmdarı **Rüstəm Mirzə** olmuşdur. Bundan başqa **Qaraqoyunlu hökmdarı Qara Yusif**, **Ağqoyunlu hökmdarı Sultan Yaqub** və başqaları da faodallara geniş soyurqal torpaqları paylamışdılar.

XV əsrdə Azərbaycan kəndliləri və sənətkarlari 40-dan cox vergi verir və mükəlləfiyyətlər icra edirdiler. Bu dövrdə Azərbaycan kəndliləri əsasən aşağıdakı vergiləri ödəyirdilər:

1. **Malcəhət –** *məhsul vergisi idi*
2. **Bəhrə** - *sudan istifadə əvəzində alınırdı*
3. **Çobanbəyi** – *otlaq pulu idi*
4. **Can vergisi** – *xristian əhalisindən alınırdı*
5. **Tamga və bac**– *sənətkar və tacirlərin ödədiyi vergilər idi*

Məlcahət adlanan məhsul vergisi rəiyyəti xüsusilə var-yoxdan çıxarırdı. Uzun Həsənin ***"Qanunnamə"sinə görə məlcahət məhsulun 1/5 hissəsini əhatə edirdi*** ("Qanunnamə"yə əsasən məhsulun beşdə bir hissəsini təşkil edən vergi ***məlcahət*** adlanırdı**).** Çobanbəyi vergisini ***maldarlar (elatlar)*** ödəyirdilər. Tamğa və bac vergiləri monqollar dövründən qalmışdır. Ağqoyunlu hökmdarlarından **Uzun Həsən** və **Gödək Əhməd** ***vergi islahatı keçirmiş***, həmin islahatlara əsasən ***vergi işlərində qayda-qanun yaranmış***, ***vergilər qismən azaldılmışdır***. Hətda Gödək Əhməd şəriətdə göstərilməyən 20-yə qədər vergi və mükəlləfiyyətləri ləğv etmişdi.



## XV əsr Azərbaycan şəhərləri

**XIV əsrin 70-ci illəri və XV əsrin 30-cu illərində** Azərbaycanda ***şəhər həyatı, sənətkarlıq*** və ***ticarət*** tənəzzül etmişdi. Bunun əsas səbəbi ölkənin həyatında baş vermiş ictimai-iqtisadi, hərbi və siyasi hadisələr idi. Lakin **XV əsrin 30-80-ci illərində** ölkədə vəziyyətin nisbətən sabitləşməsi tənəzzül prosesinin dayandırılmasına səbəb oldu. ***Qaraqoyunlu Cahanşahın, Ağqoyunlu Uzun Həsən*** və ***Sultan Yaqubun hakimiyyəti dövründə*** şəhər həyatı xeyli canlandı. Uzun Həsənin həyata keçirdiyi islahat şəhərlərin yüksəlməsini təmin etdi. Bu dövrdə Azərbaycanın **Təbriz, Bakı, Ərdəbil** və **Şamaxı** şəhərləri xüsusilə fərqlənirdi.

**XV əsr Təbriz şəhərinin** dövrün sənətkarlıq və ticarət mərkəzi kimi rolu yenə güclü idi. Şəhər Azərbaycanda ***ən böyük dulusçuluq mərkəzi*** idi. Şərqdə məşhur olan ***"Qeysəriyyə bazarı"*** burada yerləşirdi.

**XV əsr Bakı şəhəri** daha çox inkişaf etmişdir. Şəhər Şirvan hakimlərinin iqamətgahlarından biri idi. Şirvanşahların xəzinəsi burda yerləşirdi. **XV əsrin ikinci yarısında** Bakı Xəzərdə ***başlıca limana*** çevrildi**.** Bu dövrdə Bakı şəhəri Moskva knyazlığı və Mərkəzi Asiya ilə ticarət əlaqələrində mühüm rol oynayırdı. Şəhərdə zərbxana fəaliyyət göstərirdi. Bu dövrdə **Şamaxı şəhəri** də Azərbaycanın mühüm şəhəri olara qalırdı. **XV əsr** Venesiya diplomatı **A.Kontarini** həyat üçün əlverişli məhsulların çoxluğu baxımdan Şamaxını Təbrizdən üstün saymışdı.




## Sənətkarlıq

XV əsrdə Azərbaycanda sənətkarlığın ***toxuculuq, ipəkçilik, xalçaçılıq, misgərlik, dəmirçilik*** sahələri daha çox inkişaf etmişdi. XV əsrdə **Təbriz, Gəncə, Ərdəbil, Şamaxı** ölkənin mühüm ***toxuculuq mərkəzləri*** sayılırdı. **Gəncə** əhalisi ***ipəkqurdu yetişdirilməsində*** və ***ipəyin hazırlanmasında*** mahir idi. **Şirvanın ipək parçaları** dünya şöhrəti qazanmışdır. Venesiya diplomatı A.Kontarininin məlumatına görə **Şamaxı şəhərində *"talaman ipək" adı*** ilə məşhur ipək istehsal olunurdu.

XV əsrdə Azərbaycanda **xalçaçılığın** inkişafıda mühüm mərhələdir. Bunun əsas səbəbi Azərbaycan xalçalarına olan böyük tələbat idi. Bu dövrdə xalçaçılıqda **Təbriz** və **Şirvan** xüsusi fərqlənirdi.

XV əsrdə dulusçuluğun ən mühüm mərkəzi **Təbriz şəhəri** idi. Təbriz ustalarının yaratdığı ***göy, ağ, firuzəyi rəngli tikinti materialları*** bir çox ölkələrdə tikililəri bəzəyirdi.

**Metal emalının** əsas sahəsi kimi **misgərlik** və **dəmirçilik peşələri** yaxşı inkişaf etmişdir. XV əsrdə ***mis qablar*** əhalinin məişətində özünə möhkəm yet tutmuşdur.

## Azərbaycanın Rusiya və Avropa ölkələri ilə ticarət əlaqələri

**XV əsrdə** Şirvanşahlar dövləti ilə böyük **Moskva knyazlığı** arasında ticarət əlaqələri yaranmışdır. Azərbaycan-Rusiya ticarət əlaqələrində **Həştərxan şəhəri** mühüm rol oynayırdı. Azərbaycan tacirləri su və karvan yolu ilə Rusiyanın **Moskva, Tver** və başqa ticarət mərkəzlərinə gedirdilər. Rusiya tacirləri isə Həştərxan vasitəsilə Şamaxıya gəlir, buradan İrana gedirdilər. Bu dövrdə Rusiyadan Azərbaycana ***xəz dəri, bal, mum, kətan parçalar, gön, qab-qacaq*** gətirilirdi.

XV əsrdə Azərbaycanın ***Avropa ölkələri ilə*** əlaqələri genişləndi. Bu dövrdə Azərbaycanla **Venesiya, Roma, Neapol krallığı, Avstriya, Macarıstan, Çexiya, Almaniya, Kipr, Rodos, Burqundiya** ilə dərin iqtisadi əsaslara əsaslanan əlaqələri var idi. Bunun

əsas səbəbi ***Avropa ilə Asiyanı əlaqələndirən əsas ticarət və beynəlxalq karvan yollarının Azərbaycandan keçməsi*** idi. Avropalılar Azərbaycandan ***xam ipək, pambıq parçalar*** və.s alıb aparırdılar.

XV əsrdə Azərbaycan tacirləri ***Şam (Dəməşq), Hələb, Bursa, İstanbul, Trabzon şəhərləri vasitəsi ilə*** avropalıarla ticarət aparırdılar. Avropa ölkələri ilə iqtisadi əlaqələrdə **Azərbaycan ipəyi** mühüm rol oynayırdı. XV əsrdə Azərbaycan ipəyinin əsas alıcıları **İtaliya tacirəri** idi. Onlar Qara dənizdən Azov və Don çayları vasitəsilə Volqaya keçir, Xəzərsahili ticarət mərkəzləri ilə .əlaqə yaradırdılar. **1474-cü ildə** İtaliyanın Venetsiya şəhərindən olan diplomatı A.Kontarini yazırdı ki, ***"Təbrizə çoxlu ipək gətrilir, sonra bu ipək karvanlarla Hələbə yola salınır"***. **1475-ci ildə** Venetsiya diplomatı A.Kontarininin Şamaxı şəhərinə gələrək qeyd etmişdir ki, ***"bu şəhərdə bizdə talaman ipəyi adı ilə məşhur olan ipək istehsal olunur"***. Azərbaycan ipəyi **Bursa** və **İtanbulun** toxuculuq müəssisələrini də xammalla təmin edirdi.

## XV əsr memarlıq abidələri. İncəsənət

XV əsrdə Azərbaycanda aşağıdakı memarlıq abidələri inşa olunmuşdur:

1. **Bakıda Şirvanşahlar saray kompleksi**
2. **Təbrizdə "Həşt-behişt" saray kompleksi**
3. **Təbrizdə "Göy məscid"**
4. **Təbrizdə "Qeysəriyyə bazarı"**
5. **Həsən padşah camisi**

Şirvanşahlar saray kompleksinin binalarından biri **divanxana** idi. Burada ***məhkəmə işlərinə*** baxılır, əyanların yığıncaqları keçirilirdi. Şirvanşahlar saray kompleksində yazılardan ibarət olan **"Bayıl daşları"**nın bədii tərtibatı və Şirvanşahlar dövlətinin qüdrətini, ictimai-iqtisadi inkişafını göstərən **"Mərdəkan qalası tərtibatı"** diqqəti cəlb edir.

Azərbaycanın XV əsr ***Qaraqoyunlular dövlətinə aid*** memarlıq abidəsi olan **"Göy məscid" 1465-ci ildə** ***Qaraqoyunlu hökmdarı Cahanşahın tapşırığı ilə*** inşa edilmişdir. XV əsr ***Ağqoyunlular dövlətinə aid*** memarlıq abidəsi isə **1483-cü il** Təbrizdə inşa edilmiş **"Həşt-behişt"** saray kompleksi idi. "Həşt-behişt" saray kitabxanası, məscidi, min çarpayılıq şəfa evi, cıdır meydanı və xiyabanı var idi.

XV əsrdə Azərbaycanda incəsənətin ***musiqi*** və ***rəssamlıq*** sahələrində bir çox irəlləyişlər baş vermişdir. XV əsrdə yaşamış görkəmli ***musiqiçis*** **Əbdülqadir Marağai** idi. Bu dövrdə Azərbaycan ***rəssamlarından*** **Əmir Dövlətyar** və onun şagirdləri **Əbdül, Müsavir** və.b məşhur idilər.

| | | | |
|---|---|---|---|
| Qara Yuluq Osman bəyin Ağqoyunlu bəyliyinin əsasını qoyması | 1394 | 1473 | Malatiya döyüşündə Ağqoyunluların Osmanlı qoşununa qalib gəlməsi |
| Əli bəyin Ağqoyunlu bəyliyinin başçısı olması | 1434 | 1473 | Otluqbeli döyüşündə Osmanlıların Ağqoyunlu qoşununa qalib gəlməsi |
| Uzun Həsənin Diyarbəkrdə qardaşı Cahangir Mirzənin qüvvələrini darmadağın etməsi | 1453 | 1474 | Kürdlərin Venetsiya diplomatı Iosaft Barbaronu və Ağqoyunlu elçilərini qarət etməsi |
| Uzun Həsənin Gürcüstanın Qaraqoyunlulara tabe olan şərq hissəsini tutması | XV 50-ci illəri | 1474 | Uğurlu Məhəmmədin Şirazda mərkəzi hakimiyyətə qarşı qiyam qaldırması |
| Qoyluhisar döyüşündə Ağqoyunluların Osmanlı qoşununa ilk dəfə ciddi zərbə vurması | 1461 | 1474-1477 | Uzun Həsənin Gürcüstana iki dəfə yürüş etməsi |
| Ağqoyunlularla osmanlılar arasında Yassıçəmən müqaviləsinin imzalanması | 1461 | 1477 | Uzun Həsənin Gürcü hakimi VI Baqratla sülh bağlaması |
| Osmanlıların Trabzonu fəth etməsi. Trabzon imperatorluğunun süqutu | 1461 | 1475 | Moskva knyazı III Ivanın xüsusi elçisi Marko Rossonu Uzun Həsənin sarayına göndərməsi |
| Venesiya-Osmanlı mübaribəsinin başlaması | 1463 | 1478 | Sultan Yaqubun hakimiyyətə gəlməsi |
| Venetsiya hökumətinin Uzun Həsənin sarayına ilk dəfə diplomat göndərməsi | 1464 | 1484 | Qarabulaq döyüşündə Topal Əhmədin üsyanının yatrılması |
| Uzun Həsənin Cənubi Azərbaycanı və Qarabağı ələ kecirməsi | 1468 | 1490 | Baysunqurun hakimiyyətə gəlməsi |
| Ağqoyunlu dövlətinin yaranması | 1468 | 1492 | Rüstəm Mirzənin hakimiyyətə gəlməsi |
| Teymuri hökmdarı Əbu Səidin Ağqoyunlulara qarşı müharibəyə başlaması | 1468 | 1496 | Gödək Əhmədin Ağqoyunlu taxtını ələ keçirməsi |
| Uzun Həsənin Teymuri Əbu Səidin qoşunlarını məğlub etməsi | 1469 | 1497 | Ağqoyunlu dövlətində ikihakimiyyətliliyin yaranması |
| Katerino Zenonun başçılığı Venetsiya diplomatlarının Təbrizə gəlməsi | 1472 | 1500 | Əbhər sazişi ilə Ağqoyunlu dövlətinin Murad Mirzə ilə Əlvənd Mirzə arasında bölüşdürülməsi |
| Qaraman istiqamətində Osmanlılara qalib gələrək Aralıq dənizi sahillərinə çıxması | 1472 | 1501 | Şərur döyüşü. Ağqoyunluların birinci qolunun süqut etməsi |
| Beyşehir döyüşündə osmanlı qoşununun Ağqoyunluları məğlub etməsi | 1472 | 1503 | Almaqulağı döyüşü. Ağqoyunluların ikinci qolunun və Ağqoyunlu dövlətinin süqut etməsi |

# XI BÖLMƏ

## AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİ (XVI ƏSR – XVII ƏSRİN BİRİNCİ YARISINDA)

### Səfəvilərin Ərdəbil hakimliyi

**Səfəvilərin Ərdəbil hakimliyinin yaranması**

Səfəvi sülaləsinin yüksəlişi ***monqol ağalığı dövrünə*** təsadüf edir. Monqolların işğal etdiyi ərazilərdə **XIII əsrin sonlarında** Ərdəbil şəhərində ***kəndli*** və ***sənətkarlar arasında*** kortəbii **Səfəvi sufi dərviş təriqəti (ordeni)** yarandı. Sufilik – (ərəbcə) ***"yun əbalı"*** sözündən olub, İslam dinində cərəyan, təlimdir. Bu təlim ilk dəfə **VIII əsrdə İraqda** və **Suriyada** yaranmışdır. **XIII əsrin sonlarında** belə dərviş ordenlərindən biri də Azərbaycanın **Ərdəbil** şəhərində yaranmışdır. Səfəvi sufi dərviş təriqətinin adı müqəddəs sayılan Səfəvi sülaləsinin banisi **Şeyx Səfiəddin İshaqın (1252-1334)** adı ilə bağlıdır.

Səfəvi sufi dərviş təriqəti ilk vaxtlar əsasən ***Ərdəbil və onun ətraf yerlərində*** yayılır və bu yerlərin əhalisi Səfəvilərin müridləri sayılırdılar. Sufi dərvişlərinin xalqa təsiri ***kəndli, sənətkarlarla*** yanaşı, ***sultan*** və ***feodla hakimlərini*** də sufi dərviş təriqətinə meyl etməyə məcbur edirdi. Bunlar isə Səfəvi təriqətinin geniş sosial bazaya malik olduğunu göstərir. Səfəvilər Azərbaycanda və Şərq ölkələrində yaranmış ağır vəziyyətin səbəbini **XIV-XV *əsrlərdə bu yerlərdə hökm sürən sünnilik təriqətində, həmçinin sünni hökmdarlarının siyasətində görürdülər*** və ***sübut etməyə çalışırdılar ki, sünniliyin hakim mövqe tutduğu dövlətlər qeyri qanuni dövlətlərdir, onlar xalqı ağır həyata düçar edirlər***. Məhz buna görə də sünnilik əleyhinə ümumxalq mübarizəsi aparılması və şiə tərəfdarlarının hakimiyyətə gəlməsi üçün şərait yaradılmalıdır. Bu da onların siyasi mübarizə meydanına çıxmaları ilə əlaqədar idi.

Səfəvilər ***müxtəlif vədlərlə xalq kütlələrini öz tərəfinə çəkməklə***, hakimiyyət uğrunda mübarizəsini gücləndirdilər. Bu sahədə Səfəvilərin müvəffəqiyyətinə səbəb ***Ərdəbil şeyxlərinin başçılıq etdiyi hərəkatın ölkənin otutaq əhalisinin tələbini ifadə etməsi*** idi. Şeyx Səfiəddin İshaqdan sonra bu mübarizə onun davamçıları tərəfindən davam etdirilərək daha kəskin xarakter aldı.



Səfəvi ordeninin görkəmli nümayəndələri

- Şeyx Səfiəddin (1252-1334)
- Şeyx Cüneyd (1447-1460)
- Şeyx Heydər (1460-1488)
  - Şeyx İsmayıl (1494-1501)
- Şeyx Cəfər (1449-1470)
- Şeyx Sultanəli (1488-1494)

**Şeyx Cüneydin dövrü (1447-1460)**

**XV əsrin ortalarından etibarən** Səfəvilər daha ***fəal siyasət*** yeritməyə başladılar. **XV əsrin ikinci yarısında** isə **Muğanın bir hissəsi, Qarabağ, Azərbaycanın Talış dağlarına qədər olan şərq torpaqları** Səfəvilərin təsiri altına düşdü. Artıq **XIV əsrin ikinci yarısı - XV əsrdə** Səfəvi təriqəti **Azərbaycanla yanaşı, Anadoluda, İranda, İraqda** çoxlu müridləri ( davamçıları, sufi təlimi əsasında həyatını islam dininə həsr etmiş şəxs) var idi.

**Şeyx Cüneydin (1447-1460)** dövründə Azərbaycanın cənubunda **Qaraqoyunlu Cahanşah (1435-1467)** hökmranlıq edirdi. Cahanşah ***Şeyx Cüneydin qüvvətlənməsindən və bu təriqətin siyasi şəkil almasından ehtiyyat etdiyi üçün*** Ərdəbildən çıxmasını tələb etdi. Belə olduqda Şeyx Cüneyd **1449-cu ildə** Ərdəbili tərk edərək **Misir, Suriya** və **Mesopotamiyaya** gedib **Varsaq** və **Zülqədər** tayfalarını öz müridlərinin sırasına qatdı. Kiçik Asiyaya – **Diyarbəkrə** gələrək burada Qaraqoyunluların rəqibi olan Ağqoyunlu Uzun Həsənin yanına getdi. Diyarbəkrdə Şeyx Cüneyd Uzun Həsən tərəfindən səmini qarşılandı və bacısını Şeyx Cüneydə ərə verərək onunla qohum oldu. Şeyx Cüneyd ***Uzun Həsənlə ittifaqa girdikdən sonra müstəqil hərəkət etməyə başladı.*** Diyarbəkrdə ***ustaclı, şamlı, rumlu, əfşar, qacar, təkəli, qazax türk tayfaları, Qarabağ, Əhər sufiləri*** Səfəvilərə qoşuldular. Şeyx Cüneyd **Osmanlı dövlətində, Suriyanın şimalında** və **Mesopotomiyada** da öz ətrafına çoxlu mürid topladı.

Qaraqoyunlu Cahanşah isə Ərdəbildə Şeyx Cüneydin əmisi **Şeyx Cəfəri (1449-1470)** Səfəvi təriqətinə başçı təyin etdi.

**1459-cu ildə** Şeyx Cüneyd Ərdəbilə qayıtmaq istəsə də Şeyx Cəfər onu Ərdəbilə buraxmadı. **1460-cı ildə** Şeyx Cüneyd buradan **Şirvana** və **Dağıstana** hücum etdi. Bu zaman Şirvanşah hökmdarı **I Xəlilullah** Qaraqoyunlu hökmdarı **Cahanşahla** ittifaqa girərək Dərbənd yaxınlığında Səfəvi qoşunlarının qarşısını kəsdi və **Samur çayı yaxınlığında** onunla döyüşə girdi. **1460-cı il martın 4-də** baş vermiş **Samur çayı yaxınlığında döyüş *nəticəsində:***

- ***Səfəvilər məğlub oldular***
- ***Şeyx Cüneyd öldürüldü***

**QEYD:** Şirvanşah I Xəlulullahın Samur çayı sahilində döyüşdə Şeyx Cüneydə qalib gəlməsinin səbəblərindən biri ***Şirvanşah I Xəlulullahın Qaraqoyunlu Cahanşahla ittifaqa girməsi*** idi.

**XV əsrin ikinci yarısında Səfəvilərin təsiri altına düşmüş ərazilər**

- Muğanın bir hissəsi
- Azərbaycanın Talış dağlarına qədər olan şərq torpaqları
- Qarabağ

**Qızılbaşların Azərbaycanla yanaşı, çoxlu ardıcıllarının olduğu digər ərazilər**

- **Anadolu**
- **Gilan**
- **İraq**
- **Fars (İran)**

**Şeyx Heydərin dövrü (1460-1488)**

Şeyx Cüneyddən sonra onun yerinə oğlu **Şeyx Heydər (1460-1488)** keçdi. Şeyx Heydər hakimiyyətə gəldikdən sonra:

- Atası Şeyx Cüneydin siyasətini davam etdirirdi
- Səfəvilərin Ərdəbil hakimliyinin sərhədlərini genişləndirdi
- Dayısı Uzun Həsənin qızı Aləmşah xatınla evlənərək, Ağqoyunlularla ittifaqı daha da möhkəmləndirdi
- **1470-ci ildə** Uzun Həsən Ərdəbilə gələrək Şeyx Cəfəri qəyyum saxlamaqla Şeyx Heydəri Səfəvi təriqətinin başçısı kimi taxtda oturtdu

Şeyx Heydər aşağıdakı ***tədbirləri*** həyata keçirməklə daha da məşhurlaşdı:

- ***"Qazi", "sufi"*** dəstələrini tam ***hərbi qaydada*** təşkil etdi
- Səfəvi döyüşçüləri başlarına 12 imamın şərəfinə ***on iki qırmızı zolaqlı çalma*** qoydular (on iki qırmızı zolaqlı çalma qoyduqlarına görə səfəvilərə ***"qızılbaşlar"*** da deyirdilər)

Uzun Həsənin vəfatından sonra Ağqoyunlu taxtına çıxan Yaqub padşah (Yaqub Mirzə) da Səfəvilərlə ***müttəfiqlik*** və ***qohumluq münasibətlərini*** davam etdirdi.

Şeyx Heydər Ağqoyunlu hölmdarı **Yaqub Mirzənin** razılığı ilə **1483-cü ildə** atası kimi **Şirvana** və **Dağıstana** yürüş etdi. Bu yürüş nəticəsində ***qızılbaşlar xeyli qənimət və əsirlə geri qayıtdılar***. **1487-ci ildə** Şeyx Heydər ***ikinci dəfə*** **Şirvana** və **Dağıstana** yürüş etdi. Şeyx Heydərin iki dəfə ***Şirvana və Dağıstana uğurlu yürüşləri*** qonşu dövlətləri və dayısı Yaqub padşahı qorxuya saldı. Buna görə də **1488-ci ildə** Səfəvilər (Şeyx Heydər) ***üçüncü dəfə*** Şirvana yürüş edərkən Yaqub Mirzə bu dəfə əksinə olaraq Şirvanşah I Xəlilullaha kömək etdi və onun üzərinə sərkərdəsi Bicanoğlunun komandanlığı altında qoşun göndərdi. Bunu görən Şeyx Heydər Tabasarana döndü və Şahdağın ətyində birləşmiş Ağqoyunlu və Şirvan qoşunları ilə döyüşə girdi. **1488-ci il iyunun 9-da** baş verən **Şahdağ döyüşü *nəticəsində:***

- ***Hər iki tərəf xeyli itki verdi, tərəflərdən heç biri uğur qazana bilmədi***
- ***Şeyx Heydər döyüşdə öldürüldü***

Beləliklə XV əsrdə Səfəvilərin öz hakimiyyətlərini Şirvana yaymaq cəhdləri baş tutmadı. Şeyx Heydərin ölümündən sonra ***Səfəvilərin Ərdəbil hakimliyi zəiflədi, Yaqub padşah Ərdəbil və Səfəvilərin başqa torpaqlarını işğal etdi***, Heydərin oğlanlarını – **Sultanəli, İbrahim** və **İsmayılı** əsir kini Şiraz yaxınlığında yerləşən **İstəxr qalasına** atdırdı.

**Şeyx Heydərin öz ətrafına çoxlu mürid topladığı ərazilər**

- **Suriyanın şimalı**
- **Osmanlı dövləti**
- **Mesopotamiya**

### Qızılbaşların Şirvana və Dağıstana yürüşləri

| | | |
|---|---|---|
| **1460-cı il** → | Şeyx Cüneyd | Qızılbaşlar məğlub oldular |
| **1483-cü il** → | Şeyx Heydər | Qızılbaşlar qələbə ilə geri döndü |
| **1487-ci il** → | Şeyx Heydər | Qızılbaşlar qələbə ilə geri döndü |
| **1488-ci il** → | Şeyx Heydər | Qızılbaşlar məğlub oldular |

| **Şirvanşah I Xəlilullah (1417-1462)** | **Şirvanşah Fərrux Yasar (1462-1500)** |
|---|---|
| • Şirvanşah I İbrahimdən fərqli olaraq Qaraqoyunlu Qara Yusifin hakimiyyətini tanımaqdan imtina etdi<br>• Qara Yusifə qarşı Teymurun nəvəsi Şahruxla ittifaqa girdi<br>• Qaraqoyunlularla müharibələrində Teymurilərin qoşununa ərzaqla kömək etdi<br>• 1460-cı ildə Şirvan Şeyx Cüneyd hücumuna məruz qaldı<br>• Qaraqoyunlu Cahanşahla dostliq münasibətləri saxladı və onunla ittifaqa girərək 1460- cı ildə Samur çayı yaxınlığında döyüşdə Səfəviləri məğlub etdilər | • Ağqoyunlularla dostluq və qohumluq münasibətləri qurdu<br>• Şirvanşahlar Teymurilərlə dostluq münasibətlərini pozdu<br>• Uzun Həsənlə ittifaqa girərək Ağqoyunlularla müharibə zamanı Teynuri Əbu Səidə kömək etməkdən imtina etdi<br>• Şirvan Şeyx Heydərin yürüşlərinə məruz qaldı<br>• 1488-ci ildə Şahdağ döyüşü*ndə* Ağqoyunlular tərəfində səfəvilərə qarşı vuruşsa da heç biri uğur qazana bilmədi<br>• 1492-ci ildə Ağqoyunlu Baysunqurula Bərdə və Gəncə arasında Rüstəm Mirzəyə qarşı döyüşdə məğlub oldu<br>• Ağqoyunlu Rüstəm Mirzə Şirvana yürüş etdi<br>• 1500-cü ildə Cabanı döyüşündə Səfəvilərə məğlub oldu |

**Şeyx Sultanəlinin dövrü (1488-1495)**

Şeyx Heydərin ölümündən sonra onun yerinə böyük oğlu **Şeyx Sultanəli (1488-1494)** keçdi. Uzun Həsənin nəvəsi Rüstəm Mirzə (1492-1497) Ağqoyunlu taxtını ələ keçirdikdən sonra Şeyx Heydərin oğlanlarını ***İstəxr qalasında*** yerləşən uşaqlarını həbsdən azad edərək, müstəqil hakim kimi Sultanəlini Ərdəbilə qaytardı. Sultanəli Sefevi şeyxi seçildi.

**1493-cü ildə Əhər döyüşündə** Ağqoyunlu Rüstəm Mirzə qardaşı Baysunqurla döyüşəndə Sultanəli öz qoşunu ilə Rüstəmin tərəfində vuruşdu. **Əhər döyüşü *naticəsində:***

- ***Ağqoyunlu Rüstəm Mirzə və Səfəvilərin birləşmiş qüvvələri qalib gəldi***
- ***Baysunqur və onun müttəfiqlərini məğlubiyyətə uğradıldı***

Ümumiyyətlə, Şeyx Sultanəlinin dövründə qızılbaşların Ağqoyunlu padışahı Rüstəm Mirzəni müdafiə etməsinin səbəbi aşağıdakı amillərlə bağlı idi:

- ***Rüstəm Mirzənin Sultanəlini müstəqil hakim kimi tanıması***
- ***Hər ikisinin Qaraqoyunlulara düşmən münasibət bəsləməsi***

Qələbədən sonra Sultanəli Ərdəbilə qayıdaraq öz dədə-baba hakimiyyətini bərpa etmək məqsədilə hazırlığa başladı. Ərdəbildə ***Səfəvi tərəfdarlarının güclənməsi*** Rüstəm Mirzəni qorxuya saldı. Odur ki, Rüstəm Mirzə **1494-cü ildə** Səfəvilərin Ərdəbil hakimliyinə qarş qəst təşkil edərək onların üstlərinə 5 min süvari qoşun göndərdi. Tərəflər Ərdəbil yaxınlığında **Şəməsi adlı yerdə** döyüşə başladılar. Döyüş başlamazdan əvvəl Sultanəli ***sufi əmirlərinin yığıncağını*** keçirdi. Yığıncaqda ***Sultanəli kiçik qardaşı İsmayılı "Səfəviyyə" ordeninin başçısı təyin etdi*** və Ərdəbilə yola saldı. Özü isə düşmənlə döyüşə başladı. **1494-cü ildə** baş verən **Şəməsi döyüşü *nəticəsində:***

- Qızılbaş qüvvələri məğlub oldu
- Sultanəli döyüşdə öldürüldü

**1494-1495-ci illərdə** Rüstəm Mirzə yenidən Ərdəbili və Səfəvilərin digər mülklərini zəbt etdi. Rüstəm Mirzə və Əbih Sultan Ərdəbilə daxil olan kimi Səfəvilərin xeyli hissəsini qılıncdan keçirdi. Lakin qızılbaş tərəfdarları şahzadə İsmayılı xilas edərək onu **Lahicana – Gilanın Biyəpiş vilayətinin hakimi *Kərkiyə sülaləsindən olan* Mirzə Əlinin** sarayına apararaq orada gizlədə bildilər. Rüstəm Mirzə Kərkiyə Mirzə Əliyə dəfələrlə məktub göndərib İsmayılı tələb etdi. Mirzə Əli isə İsmayılı zənbildə sıx yarpaqlı ağacdan asıb 300 süvari ilə məktub gətirmiş **Qazım bəyə** Qurana and içib onun Gilan torpağında olmamasını bildirdi.

İsmayıl altı ay Lahicanda qaldı (1494-1500). Həmin vaxt ərzində İsmayılın yanına **Rumdan, Qaracadağdan** və **Ərdəbildən** çoxlu tərəfdar gələrək onunla həmrəy olduqlarını bildirdilər.

**Səfəvilərin Ərdəbil hakimliyi dövründə baş vermiş döyüşlər:**




**Ağqoyunluların Səfəvilərlə qohumluq münasibətləri**



| *Şeyx Cüneyd (1447-1460)* | *Şeyx Heydər (1460-1488)* | *Şeyx Sultanəli (1488-1495)* |
|---|---|---|
| • *Səfəvilər fəal siyasət yeritməyə başladılar.*<br>• *Aaraqoyunlu Cahanşah ondan ehtiyyat edərək onun Ərdəbildən çıxmasını tələb etdi*<br>• *Aarsaq və Zülqədər tayfalarını öz müridlərinin sırasına qatdı*<br>• *Ağqoyunlu Uzun Həsənlə müttəfiqlik və qohumluq münasibətləri qurdu*<br>• *Osmanlıda, Suriyanın şimalında, Mesopotomiyada ətrafına çoxlu mürid topladı*<br>• *Səfəvilər Şirvana və Dağıstana yürüş etdi etdi*<br>• *Samur çayı yaxınlığında döyüşdə məğlub olaraq öldürüldü* | • *Üç dəfə Şirvana və Dağıstana yürüş etdi*<br>• *Şeyx Cüneydin siyasətini davam etdirirdi*<br>• *Səfəvilərin Ərdəbil hakimliyinin sərhədlərini genişləndirdi*<br>• *Ağqoyunlularla ittifaqı daha da möhkəmləndirdi*<br>• *Ağqoyunlu Yaqub padşahla müttəfiqlik və qohumluq əlaqələrini davam etdirdi*<br>• *Uzun Həsənin köməyi ilə Səfəvi təriqətinin başçısı kimi taxtda oturtdu*<br>• *Qazi", "sufi" dəstələrini tam hərbi qaydada təşkil etdi*<br>• *Səfəvi döyüşçüləri başlarına on iki qırmızı zolaqlı çalma qoydular və "qızılbaşlar" adlanmağa başladılar*<br>• *Şahdağ döyüşü nəticəsində məğlub olaraq öldürüldü* | • *Ağqoyunlu Rüstəm Mirzə tərəfindən Ərdəbilə qaytarıldı*<br>• *Rüstəm Mirzə tərəfindən müstəqil hakim kimi tanındı*<br>• *Əhər döyüşündə Rüstəm Mirzənin qardaşı Baysunqurla döyüşəndə öz qoşunu ilə onun tərəfində vuruşdu*<br>• *Rüstəm Mirzə Səfəvilərin Ərdəbil hakimliyinə qarş qəst təşkil etdi*<br>• *Şəməsi döyüşü nəticəsində məğlub olaraq öldürüldü*<br>• *Rüstəm Mirzə Ərdəbili və Səfəvilərin digər mülklərini zəbt etdi.* |

| | | | |
|---|---|---|---|
| Şeyx Cüneydin Ərdəbili tərk edərək Misir, Suriya və Mesopotamiyaya getməsi ← | **1449** | **1483** | → Şeyx Heydərin Şirvana və Dağıstana birinci yürüşü |
| Cahanşahın Ərdəbildə Şeyx Cəfəri Səfəvi təriqətinə başçı təyin etməsi ← | **1449** | **1487** | → Şeyx Heydərin Şirvana və Dağıstana ikinci yürüşü |
| Şeyx Cəfərin Şeyx Cüneydi Ərdəbilə buraxmaması ← | **1459** | **1488** | → Şeyx Heydərin Şirvana üçüncü yürüşü. Şahdağ döyüşü |
| Şeyx Cüneydin Şirvana və Dağıstana yürüşü ← | **1460** | **1493** | → Əhər döyüşü. Rüstəm Mirzə və Səfəvilərin birləşmiş qüvvələrinin qalib gəlməsi |
| Uzun Həsənin Şeyx Heydəri Səfəvi təriqətinin başçısı kimi taxtda oturtması ← | **1470** | **1494** | → Şəməsi döyüşü. Rüstəm Mirzənin Səfəvilərin Ərdəbil hakimliyinə qarş qəst təşkil etməsi |

## Səfəvilər dövlətinin yaranması və imperatorluğa çevrilməsi

### XV əsrin sonu XVI əsrin əvvəllərində Azərbaycanda siyasi vəziyyət

**XV əsrin sonlarında** Azərbaycanda **Şirvanşahlar**, **Ağqoyunlular** və ondan asılı vəziyyətdə olan **Səfəvilərin Ərdəbil hakimliyi** mövcud idi. Ağqoyunlu dövlətinin tənəzzülü XV əsrin sonunda onun ərazisində feodal pərakəndəliyinə, yerli hakimlərin müstəqillik iddiası ilə çıxış etməsinə səbəb oldu. XV əsrin sonlarında Azərbaycanın müxtəlif bölgələrində baş vermiş çəkişmələr, feodal pərakəndəliyi və Səfəvi Şeyxlərini nüfuzunun artması şəraitində Ağqoyunlu dövləti tamamilə dağılmaq ərəfəsində idi. Bu dövrdə yeni, ***vahid dövlətin yaranması üçün əlverişli şərait*** yetişmişdir.

XV əsrin sonlarında təsərrüfat əlaqələrinin möhkəmləndirilməsi və məhsuldar qüvvələrin inkişafını ləngidir, kənd təsərrüfatı və sənətkarlıq tənəzzül edir, şəhər və kəndlilərin vəziyyəti ağırlaşırdı. Bunların əsas səbəbləri aşağıdakılar idi:

- ***Ağqoyunlu şahzadələri arasında baş verən ara müharibələri***
- ***Feodal pərakəndəliyi və feodal hakimlərinin özbaşınalığı***

Bu amillər mərkəzləşmiş Azərbaycan Səfəvi dövlətinin yaranmasını zəruri edirdi. Səfəvilər xalqı öz tərəflərinə çəkmək üçün ***ədalətli qaydalar*** vəd edirdilər. Xalq isə onlara ***öz xilaskarı kimi baxır, Səfəvilərin hakimiyyət uğrunda mübarizəsinə rəğbət bəsləyir, onlara yardımçı olurdular.***

**Səfəvilər dövlətinin yaranması ərəfəsində Azərbaycanda sosial, iqtisadi və siyasi vəziyyət**



**XV əsrin sonlarındada Azərbaycanda mərkəzləşmiş dövlətin yaradılmasını zəruri edən amillər**

- Ara müharibələri və feodal özbaşınalığının sənətkarlıq və ticarətin inkişafına mane olması
- Feodal pərakəndəliyinin ölkənin ayrı ayrı yerlərində təsərrüfat əlaqələrinin möhkəmlənməsinə mane olması
- Qonşu dövlətlərdən gözlənilən hücum təhlükəsi

### 1499-1500-cü illərdə şahzadə İsmayılın yürüşləri

**1499-cu ilin avqustunda** Ərdəbil şeyxlərinin varisi hesab olunan, Lahicanda yerli hakimin sarayında gizlədilmiş gənc İsmayıl və onun tərəfdarları çıxış etmək üçün əlverişli məqamın yetişdiyini anlayaraq Lahicanı tərk edərək Ərdəbilə yola düşdülər. Bu səfərdə onu **Hüseyn bəy Şamlı, Əli bəy Dədə, Hadim bəy Xülafə, Rüstəm bəy Qaramanlı, Bayram bəy Qaramanlı, İlyas bəy, Ayqutoğlu** və **Qara Piri bəy** müşaiyət edirdilər. Qızılbaşlar **1499-cu ildə:**

- Deyləmdən Taroma gəldilər, burada ***rumlu və şamlı*** tayfaları onlara qoşuldu. İsmayıl Qızılüzən çayı sahilində məskunlaşan şamlı tayfasını qızılbaş birləşmələrinə cəlb etmək məqsədi ilə Xalxalın cənub və cənub-qərbini dolanaraq Ərdəbilə daxil oldu
- Şimala hərəkət edərək Astara bölgəsindəki Ərcüvana gəldi, buradakı qızılbaş tayfaları ona qoşuldular
- **Ərcivanda** qızılbaş tayfalarının yığıncağında ***Kiçik Asiyaya – Ərzincana, oradan da Suriyaya getmək*** qərara alındı. Çünki burada İsmayılın yaxın adamları onun bayrağı altında birləşə bilərdilər.

**1500-cu ilin yazında** İsmayılın qüvvələri Ərcivandan **Göyçə gölünün cənub sahilinə** gəldi. Burada ***ərəşli*** və ***zülqədərli*** tayfaları İsmayıla qoşulurlar. İsmayıl Göyçədən Anadoluya – **Ərzincana** gəldi. Burada bir qrup qızılbaş onun dəstəsinə qoşuldu. Artıq İsmayılın bayrağı altında ***şamlu, ustaclı, rumlu, təkəli, zülqədərli, əfşar ,qacar, vasaq*** və.b tayfalar birləşmişdilər. Ərzincanda qızılbaşlar müşavirə keçirdilər. **Ərzincanda keçirilən müşavirədə *əsas zərbəni Səfəvilərin düşməni olan Şirvana vurmaq qərara alındı.***

**Səfəvilər dövətinin yaranmasının əhmiyyəti**

- Azərbaycanda dövlətçilik ənənələri bərpa edildi
- Yadellilərə qarşə xalqın mübarizəsi xeyli asanlaşdı
- Azərbaycan ərazisi vahid dövlətdə birləşdirildi
- Təsərrüfatın inkişafı üçün əlverişli şərait yarandı
- Azərbaycan dili dövlət dili səviyyəsinədək yüksəldi

**Səfəvilər dövətinin yaradılmasının nəticələri**

## Səfəvilərin Şirvana yürüşləri. Şamaxının və Bakının tutulması

**1500-cü ilin payızında** İsmayıl Ərzincandan Şirvana doğru hərəkətə başladı. İsmayılın ilk növbədə Tərbizə deyil, Şirvana yürüş etməsinin səbəbi aşağıdakı amillər idi:

- ***Təbrizə hücum etməklə üç rəqiblə Ağqoyunlu Murad Mirzə və Əlvənd Mirzə ilə, həmçinin onları müdafiə edən Şirvanşah Fərrux Yasarla toqquşmalı olardı.***
- ***Səfəvilər ara müharibələrindən istifadə etməklə Şirvanşahları hissə-hissə əzmək fikrində idilər.***

**1500-ci ilin payızında** qizilbaş qoşunu Kürü keçib **Şirvan ərazisinə** daxil oldu. Bu zaman Şirvanşah **I Fərrux Yasar (1465-1500) Qəbələyə** qaçdı. Qızılbaşlar heç bir ***müqavimətə rast gəlmədən*** Şamaxını tutaraq çoxlu qənimət əldə edirlər. Fərrux Yasar 1500-ci ilin sonlarında topladığı qoşunla geri qayıdaraq **Cabanı düzündə** səfəvilərlə döyüşə girdi. **1500-cü ilin payızında** baş vermiş **Cabanı döyüşü *nəticəsində*:**

- ***Şirvanşahlar məğlub oldular, Fərrux Yasar öldürüldü***
- ***Qızılbaşlar Şirvanşahların xəzinəsinin bir hissəsini ələ keçirdilər***

Fərrux Yasarın sağ qalmış oğlu **İbrahim Şeyxşah** dağınıq qoşunları bir yerə toplasa da döyüşməyə cürət etməyib **Gilan şəhərinə** qaçdı. Bundan sonra qızılbaşlar **Bakını** ələ keçirməyi qərara aldılar. Qızılbaşların Bakını ələ keçirməsinə xüsusi əhəmiyyət verməsinin səbəbləri bunlar idi:

- ***Bakı Azərbaycanın və bütün Cənubi Qafqazın ticarət və sənətkarlıq mərkəzi idi***
- ***Şirvanşahların xəzinəsinin bir hissəsi Bakıda yerləşirdi***

**1501-ci ilin yazında** İsmayıl Bakı qalasını ələ keçirmək məqsədilə öz sərkərdələrindən **Məhəmməd bəy Ustaclı** və **İlyas bəy Xunuslunu** ora göndərdi. Lakin, bu zaman qalanın müdafiəsini ***Bakı hakimi Fərrux Yəsarın oğlu Qazı bəyin arvadı*** təşkil edərək İsmayılın təslim olmaq təklifinə rədd cavabı verdi. İsmayılın əmri ilə qızılbaşlar Bakı qala divarlarının altından ***lağım atmaq yolu ilə*** qala bürclərinindən birini uçurduqdan sonra şəhərə daxil olurlar.




## İsmayılın özünü şah elan etməsi. Mərkəzləşmiş Səfəvilər dövlətinin yaranması

İsmayıl Bakını tutduqdan sonra tezliklə cənuba doğru yürüş etdi. Bu zaman yolüstü **Gülüstan qalasını** mühasirəyə alsa da qalanın müdafiəçiləri ***onun möhkəmliyinə və ərzağın bolluğuna güvənərək*** təslim olmadılar. ***Ağqoyunlu Əlvənd Mirzənin Təbrizdən böyük qüvvə ilə onun üzərinə hücum barədə məlumat alması*** İsmayılın Gülüstan qalasının mühasirədən əl çəkməsinə səbəb oldu. Bu zaman ***İsmayıl və onun əyanları*** Gülüstan qalasının mühasirəsindən əl çəkərək Təbriz taxtını Ağqoyunlulardan geri

alıb Azərbaycanda öz hakimiyyətlərini qurmağı başlıca vəzifə hesab edirdilər. İsmayıl dövlətin sütunları adlandırdığı sərkərdələri yanına çağıraraq soruşdu: ***“Siz Azərbaycan taxtını, yoxsa Gülüstan qalasını istəyirsiniz?”*** Onlar ***“Azərbaycanı istəyirik”* –** deyə cavab verdilər.

Bu zaman Ağqoyunlu hakimi **Əlvənd Mirzə** Naxçıvana gələrək döyüşə hazırlaşmaq üçün Şərur düzündə dayanmışdır. Odur ki, İsmayıl Naxçıvana doğru irəlilədi. Öz əsgərlərinin döyüş qabiliyyətinə ümid bəsləməyən Əlvənd Mirzə sayca qat-qat üstünlük təşkil edən qoşununun döyüş meydanından qaçmasına mane olmaq üçün aşağıdakı tədbirləri gördü:

- ***Dəvələri bir-biri ilə zəncirlətdi***
- ***Onları cəbhə arxasında yerləşdirdi***

Lakin bu tədbirlərin heç bir köməyi olmadı. Hər iki qoşun arasında qeyri-bərabər döyüş baş verdi. **1501-ci ildə** baş verən **Şərur döyüşü *nəticəsində:***

- ***Səfəvilər Ağqoyunluların birinci qolunu məğlub etdilər***
- ***Əlvənd Mirzə döyüş meydanından Ərzincana qaçdı***

Bu qələbədən sonra, **1501-ci ilin payızında** İsmayıl müqavimətsiz, Təbrizə daxil olaraq:

- ***Azərbaycanın taxt-tacına yiyələndi və özünü şah elan etdi***
- ***Adına xütbə oxutduraraq sikkə zərb etdirdi***

Beləliklə, paytaxtı **Təbriz** olmaqla **mərkəzləşmiş Səfəvilər dövlətinin (1501-1736)** əsası qoyuldu. Səfəvilər dövləti yaranarkən **Azərbaycan torpaqlarını (Şirvan, Qarabağ, Naxçıvan, Muğan və Qızılüzən çayına qədərki Cənubi Azərbaycan torpaqlarını)** əhatə edirdi. Səfəvilər dövləti ***türk mənşəli*** dövlət idi. Səfəvilərin yaratdığı dövlətin Azərbaycan türklərinə məxsus olduğunu aşağıdakı dəlillər (faktlar) də sübut edir:

- Əhalinin etnik və mədəni birliyə malik çoxluğunu ***Azərbaycan türkləri*** təşkil edirdilər.
- Azərbayacan türkləri dövlətin siyasi həyatında rəhbər rol oynayırdı.
- Ordu demək olar ki, ***azərbaycanlılardan*** təşkil olunurdu.
- Sarayda, qoşun içərisində və diplomatik yazışmalarda ***Azərbaycan türkçəsi*** işlədilirdi.
- Bütün saray vəzifələri ***Azərbaycan türklərinin*** əlində cəmləşmişdi.
- Hərbi komandanlıq, maliyyə işləri, vilayət əmirləri vəzifəsi qızılbaşların əlində idi.

**Azərbaycan torpaqlarının vahid dövlətdə birləşdirmiş dövlətlər**

- Sacilər dövləti
- Salarilər dövləti
- Səfəvilər dövləti

## Şah İsmayılın Səfəvilər dövlətinin ərazisini genişləndirməsi

Ağqoyunlu Əlvənd Mirzənin məğlubiyyətindən sonra bir çox ***feodal hakimlər*** hakimiyyət iddiasında idilər. **I Şah İsmayıl (1501-1524)** isə özünü babası ***Uzun Həsənin qanuni varisi*** hesab edərək Səfəvilər dövlətini Ağqoyunlu sərhədləri daxilində bərpa etməyə can atırdı. Bu zaman Səfəvilər dövləti üçün əsas təhlükə olan Ağqoyunluların ikinci qolunun başçısı **Muzad Mirzə**

Həmədanda qoşu toplayaraq qızılbaşlara zərbə endirməyə hazırlaşdı. 1503-cü ilin yazında Şah İsmayıl öz müridi Qənbər ağanı Muradın yanına göndərərək:

- ***Səfəvilərlə Ağqoyunluların qohumluq əlaqələrini ona xatırladaraq tabe olmasını tələb etdi***
- ***Ağqoyunlu Murad Mirzə tabe olacağı təqdirdə ona Əcəm İraqını vəd etdi***

Lakin Sultan Murad I Şah İsmayıla rədd cavabı verdi. Belə olduqda Şah İsmayıl on iki minlik qoşunla Təbrizdən çıxaraq , **1503-cü il iyunun 21-də Həmədan yaxınlığında,** ***Almaqulağı adlı yerdə*** ağqoyunlularla döyüşə girdi. **1503-cü ildə** qızılbaşlarla Ağqoyunlular arasında baş vermiş **Almaqulağı döyüşü** ***nəticəsində:***

- ***Qızılbaşlar Ağqoyunlular üzərində parlaq qələbə qazandılar***
- ***Ağqoyunlular sayca çox olsalarda məğlub oldular, Murad Mirzə Şiraza qaçdı***
- ***Şah İsmayıl Muradı təqib edərək İranın içərilərinə doğru irəlilədi və Şirazı ələ keçirdi***
- ***Ağqoyunlu dövlətinin ikimci qolu və Ağqoyunlu dövləti süqut etdi***

**1503-cü ildə** İsmayıl ***İsfahan, Kaşan*** və ***Qum şəhərlərini***, **1504-cü ildə isə** ***Yəzdə*** və ***Kirmanı*** ələ keçirdi. İsmayıl sonra **Qərbə (Kiçik Asiyaya)** doğru hərəkət edərək, **1506-1508-ci illərdə** ***Diyarbəkir, Hilat, Bitlis, Ərçiş*** **və** ***Bağdadla birlikdə bütün İraqi Ərəbi*** ələ keçirdi. Beləliklə, 1506-1508-ci illərdə Səfəvilər dövləti ***şərqdə*** **Şeybanilər dövləti,** ***qərbdə*** **Osmanlı imperatorluğu ilə** həmsərhədd oldu.




**Mərv döyüşü. Səfəvilər dövlətinin imperatorluğa çevrilməsi**

I Şah İsmayıl ilə özbək hökmdarı Şeybani xan düşmən münasibətdə idilər. I Şah İsmayılla Şeybani xan arasındakı düşmən münasibətin əsas səbəbi ***Xorasanı ələ keçirmək uğrunda mübarizə*** idi. **1507-1508-ci illərdə** Səfəvilərin Kiçik Asiyada hərbi əməliyyatlarından istifadə edən Şeybani xan Teymurilər sülaləsinə son qoyaraq, **Xorasan vilayətini** tutdu və İsmayıla göndərdiyi məktubda hakimiyyətdən əl çəkməyi bildirdi. I Şah İsmayıl isə Şeybani hökmdarına iki dəfə elçi göndərərək, onu yürüşləri dayandırmağa çağırdı. Lakin Şeybani xan cavab məktubunda bunu rədd etdi. Belə olduqda Şah İsmayıl **1510-cu ildə** qoşunla **Xorasana** doğru hərəkət edərək Şeybani xanın üzərinə hücum etdi. Qızılbaşların yaxınlaşmasından xəbər tutan Şeybani xan I Şah İsmayıla qarşı əsas qüvvələrini birləşdirmək üçün aşağıdakı tədbirləri həyata keçirdi:

- **Heratdan Mərv şəhərinə çəkildi**
- **Mərv qalasını möhkəmlndirərək müdafiəyə hazırlaşdı**

**1510-cu il, dekabrın 1-də** tərəflər arasında **Mərv döyüşü** baş verdi. Mərv döyüşü ***nəticəsində:***

- I Şah İsmayıl ***taktiki tədbir və hərbi hiylə*** işlədərək qalib gəldi
- Özbək qoşunu məğlub oldu və Şeybani xan öldürüldü
- Şah İsmayıl ***Herat, Mərv, Bəlx şəhərləri*** daxil olmaqla ***Xorasan vilayətini*** ələ keçirdi
- ***Amudəryadan Fərat çayınadək ərazilər*** Şah İsmayılın əlinə keçdi
- Səfəvilər dövlətinin ərazisi şərqə doğru xeyli genişləndi

• Səfəvilər dövləti Yaxın Şərqin qüdrətli dövlətinə və ***imperatorluğa*** çevrildi

Mərv döyüşündən sonra I Şah İsmayıl **Anadoluya** dönərək Ağqoyunlular dövründə Azərbaycana tabe olan Şərqi Anadolunu ələ keçirmək üçün hərəkətə keçdi. **1512-ci ildə *Qaraman*** və ***Malatiyanı*** tabe edərək Təbrizə döndü.

**1512-ci il**

- Səfəvilərin Kiçik Asiyada Qarahisar və Malatiya şəhərlərini ələ keçirdi
- Osmanlı imperatorluğunda Sultan Səlim hakimiyyətə gəldi

## Səfəvi-Osmanlı müharibələrinin başlanması

### Səfəvi - Osmanlı münasibətlərinin səbəbləri. Osmanlıların Şərq siyasəti

**XVI əsrin əvvəllərində** Səfəvi-Osmanlı münasibətlərinin müharibə həddinə çatmasının əsas səbəbləri bunlar idi:

- ***Osmanlıların Azərbaycanı ələ keçirmək istəyi***
- ***Səfəvilərin Kiçik Asiyada Qarahisar və Malatiya şəhərlərini ələ keçirməsi***
- ***Osmanlı sultanının Ağqoyunlu dövlətinə kömək etməklə Səfəvilərin möhkəmlənməsinə mane olması***

Osmanlının Azərbaycanı tutmaq planı sultan **II Mehmet** və **II Bəyazidin dövründə** baş tutmadı. Ancaq, Osmanlı dövləti niyətindən əl çəkmədi. **XVI əsrin əvvəllərində** Osmanlı imperatorluğu Yaxın Şərqdə böyük ərazilər tutaraq, regionda ən böyük dövlətə çevrildi. Lakin Sultan **II Bəyazid (1481-1512)** Şah İsmayıla qarşı mübarizəyə başlamağa cəsarət etməyərək, **1504-cü ildə** Səfəvilər dövlətini tanımalı oldu. Onun oğlu **Sultan Səlim (1512-1520)** hakimiyyətə gəldikdən sonra isə:

- ***Osmanlılar dövlətinin qızılbaşlara qarşı münasibəti dəyişdi***
- ***Səfəvilərə qarşı düşmənçiliyə başlayaraq ona qarşı müharibə etmək fikrini qətiləşdirdi***

Taxta çıxan I Sultan Səlim Səfəvilərə qarşı hərbi əməliyyatlara başlamzadan əvvəl aşağıdakı tədbirləri gördü:

- **Moskva knyazlığı, Macarıstan, Venesiya, Moldaviya** və **Valaxiya** ilə sülh bağladı
- Bütün qüvvələrini Azərbaycana qarşı səfərbər etdi
- Səfəvi dərviş tərafdarları olan Kiçik Asiya şiələrini kütləvi təqib etməyə başladı
- Arxada qızılbaş qiyamçılarına qarşı vuruşan müqavimət dəstələri hazırladı

I Sultan Səlim hakimiyyətə gələrkən I Şah İsmayıl ***Osmanlıya qarşı münasibətdə ehtiyatlı siyasət yeridərək mümkün qədər hərbi toqquşmadan yan keçmək*** istəyirdi. Lakin müharibənin labüdlüyünü hiss edən I Şah İsmayıl Osmanlı imperatorluğu ilə toqquşma ərəfəsində ***Qərblə əlaqələri dahada genişləndirdi***.




### Səfəvilərin Avropa dövlətləri ilə əlaqələri

Səfəvilərin Avropa dövlətləri ilə qarşılıqlı münasibətlər qurmuşdular. Səfəvilərin uğurlarından xəbərdar olan Avropa diplomatiyası Şah İsmayılla hələ hakimiyyət başına keçməzdən əvvəl əlaqə yaratmışdı. Avropa diplomatiyasının Səfəvilərlə yaxınlaşdıran amillər əsasən bunlar idi:

- ***Osmanlılara qarşı birgə mübarizə***
- ***Şərqdə möhkəmlənmək siyasəti***

İtaliya doplomatları **Konstantino Laskeri və Covanni Morozini** Səfəvilərin hərbi düşərgəsində olmuş və gənc İsmayılla danışıqlar aparmışdılar. Elə bu zaman qərb elçiləri, o cümlədən Papa nümayəndələri İslam dünyasına məzhəb ayrılığı düşdüyünü müşahidə etmiş, qızılbaş ideyaları ilə yaxından tanış olmuşdular. Roma papası **Almaniya, Fransa, İspaniya, Portuqaliya, Skandinaviya dövlətlərinin** başçılarına məktublar yazaraq, Şah İsmayılın hərbi uğurlarını ***"Allahın xristiyan dünyası üçün yaratdığı bir fürsət"*** kimi qiymətləndirmiş və bundan ***Osmanlılara qarşı istifadə etməyə*** çağırırdı. Beləliklə, Avropa diplomatları ***Səfəvi-Osmanlı münasibətlərini daim müharibə həddində saxlamaq üçün*** başlıca olaraq ***məzhəb ayrılığından (şiəliy və sünnilik amilindən)*** istifadə etməyi öz hökumətlərinə məsləhət görürdülər. Qərb ölkələrinin Osmanlı və Səfəvilər dövlətləri arasındakı münasibətlərə belə yanaşırdılar:

- ***Osmanlı-Səfəvi münasibətlərini daim müharibə həddinə çatdırmağa çalışırdılar***
- ***Hər iki dövləti bir biri ilə toqquşdurub onları zəiflətməyə çalışırdılar***

Şah İsmayıl özü də tez-tez Qərb ölkələrinə məktublar yazır, elçilər göndərirdi. Şah İsmayılın Avropa ölkələri ilə vasitəçiliyi ***Suriyadakı Venetsiya konsulları*** edirdilər. Şah İsmayıl **1507-1508-ci illərdə *Roma papası* və *Venetsiya*** ilə əlaqə yaratdı. Osmanlı imperiyası ilə toqquşma ərəfəsində Şah I İsmayıl Qərblə əlaqələrini daha da genişləndirdi. **1510-cu ildə** Səfəvi diplomatı **Əli Bəy İtaliyaya** getdi. Şah I İsmayılın Avropa dövlətləri ilə geniş diplomatik əlaqələr saxlamaqda ***məqsədi*** bunlar idi:

- ***Osmanlılara qarşı mübarizədə onlardan dəsdək almaq***
- ***Aralıq dənizi vasitəsilə qərbdən odlu silahlar gətirmək***

Aralıq dənizi vasitəsilə qərbdən odlu silahlar almaq planının baş tutmayacağını hiss edən Şah I İsmayıl ***Portuqaliya ilə əlaqəyə girib İran (Hörmüz) körfəzi və Hind okeanı vasitəsilə qərbdən silah və artilleriya mütəxəsisləri gətirməyə*** çalışdı. Lakin, Şah I İsmayıl ***qərbdən odlu silah və artilleriya mütəxəsisləri almaq məqsədi ilə*** Portuqaliyanın İran körfəzində möhkəmlənməsinə mane olmadı. Bundan istifadə edən Portuqaliya donanması Hörmüzü ələ keçirib Səfəvilərin Hind okeanına çıxış yolunu bağladı (1515-ci ildə). Bu Səfəvi dövləti üçün ağır nəticə verdi. Şah I İsmayılın bu səhvini I Şah Abbas 100 ildən sonra düzəltdi.




## I Səfəvi Osmanlı müharibəsinin başlanması

I Səfəvi Osmanlı müharibəsi **1514-cü ildə *Osmanlıların hücumu ilə*** başladı. Sultan Səlim öz işğalçılıq planlarını pərdələmək üçün Ədirnədə ***fövqəladə divan*** çağırdı (1514). Bu ali məclisdə:

- ***Qızılbaşlarla müharibə müsəlmanların müqəddəs vəzifəsi elan olundu***
- ***Eyni zamanda Sultanın vəzirləri Şah İsmayılla müharibəni təhlükəli olduğunu bildirdilər***

**1514-cü ilin avqustunda** Sultan Səlim 200 minlik qoşunla Azərbaycan sərhədlərini keçərək Maku yaxınlığında Çaldıran düzünə doğru hərəkət etdi. Qızılbaşların isə 40 min nəfər döyüşçüsü var idi və osmanlılardan fərqli olaraq odlu silahı, topxanası yox idi. Çaldıran döyüşü ərəfəsində I Şah İsmayıl aşağıdakı ***hərbi-strateji tədbiləri*** həyata keçirməyə başladı:

- ***Geri çəkilərək Osmanlılar ilə döyüşü qışa qədər yubatmağa çalışdı***
- ***Qışa qədər sultan ordusunu aclıqdan öldürməyə çalışdı***

Döyüşdən əvvəl Osmanlıların hərbi taktikası ilə tanış olan **Məhəmməd xan Ustaclı** və **Rumlu Nurəli Xəlifə** hücuma gecə keçməyi təklif etdilər. Gecə hücumu qızılbaş süvarilərini silah və top atəşindən xilas edər, beləliklə də osmanlılar döyüş vəziyyəti alana qədər məsələ həll olunardı. Lakin Şah İsmayıl ***"Mən krvanbasan quldur deyiləm, qoy Allahın bildiyi kimi olsun"***- dedi.

**1514-cü il avqustun 23-də Çaldıran düzündə** Səfəvilərlə Osmanlılar arasında qanlı döyüş oldu. Döyüş ***nəticəsində:***

- ***Osmanlılar Səfəvilər üzərində qələbə qazandı***
- ***Səfəvilər xeyli itki verdi, Şah İsmayıl yaralandı və mühasirəni qıraraq ölkənin içərilərinə çəkildi***
- ***Sultan Səlim Şah İsmayılı təqib edərək sentyabrın 6-da Təbrizi ələ keçirdi***
- Osmanlılar Ərzurum ilə birlikdə ***Şərqi Anadolu*** və ***Şimali İraqa*** yiyələndilər
- Səfəvilərin hərbi qüdrəti zəiflədi və onun nüfuzuna ağır zərbə vurdu
- ***Bağdad*** da daxil olmaqla ***Ərəb İraqı*** Səfəvilərdə qaldı

Çaldıran döyüşündə Səfəvilərin məğlubiyyətinin əsas səbəbləri bunlar idi:

- ***Osmanlı qoşununun Avropasayağı təşkili və odlu silahlara sahib olması***
- ***Şah İsmayılın özünə güvənməsi və odlu silaha malik olmaması***
- ***Qızılbaşların Osmanlılara nizbətən sayca az olması***

I Səlim Təbrizdə 6 gün qaldiqdan sonra Şah İsmayılın hiyləsindən ehtiyyat edərək sentyabrın 12-də oranı tərk etdi. Sultan Səlim Təbrizdən gedərkən özü ilə bir neçə min ***sənətkar* - *Təbriz ustalarını*** İstanbula apardı. Həmin sənətkarlar sonralar Osmanlı imperatorluğunda memarlıq və incəsənətin inkişafında mühüm rol oynadılar.

Sultan Səlim üçün böyük zəfər sayılan Çaldıran vuruşu, əslində ***Türk dünyasının ümumi faciəsi, qərb diplomatiyasının isə strateji qələbəsi*** idi. Çaldıran döyüşü ***nəticəsində:***

Malatiya və Otluqbeli döyüşləri kimi, Çaldıran döyüşündə də ***qərb diplomatiyasının*** müəyyən rolu olmuşdu.

**1514-1515-ci illərin qışını** Amasiyada keçirən I Səlim İstanbula doğru irəlilədi. Bu zaman Osmanlılar ***Ərzincanı*** və ***Diyarbəkri*** tutdular. Şah İsmayıl şəhəri geri almaq üçün **Qara xanı** oraya göndərsə də, qızılbaşlar Osmanlıların müqavimətini qıra bilmədilər. **1516-cı ildə** Mardinin cənubunda Osmanlılarla Səfəvilər arasında **Qoçhisar döyüşü** baş verdi. Döyüş ***nəticəsində:***

- ***Osmanlılar Səfəvilər üzərində parlaq qələbə qazandılar***
- ***Şimalda Xarput və Bitlisdən Rakkiyə qədər, cənubda isə Mosul osmanlıların əlinə keçdi***

Lakin Sultan I Səlimin dövründə də Osmanlıların Azərbaycanı zəbt etmək planı baş tutmadı.

Osmanlı ilə müharibə dayandıqdan sonra, Səfəvilər dövlət daxildə öz hakimiyyətlərini möhkəmlətməyə çalışırdılar və Səfəvilərə tabe olmaq istəməyən Şirvanşah Seyxşahı tabe etmək üçün Şirvana yürüşlər etdi. **1517-ci ildə** üçüncü yürüşdən sonra Şirvanşahlar dövləti Qızılbaşlardan asılılığı qəbul edir. Elə həmin ildə Səfəvilər **Gürcüstana** yürüş edərək oranı özündən asılı vəziyyətə saldı. Az sonra **Şəki** də Səfəvilərin hakimiyyətinə tabe edildi.

**I Şah İsmayıln döyüşləri**

| | | |
|---|---|---|
| **1500** → | **Cabanı döyüşü** → | I Şah İsmayıl Şirvanşah I Xəlulullahı məğlub etdi |
| **1501** → | **Şərur döyüşü** → | I Şah İsmayıl Ağqoyunlu Əlvənd Mirzəni məğlub etdi |
| **1503** → | **Almaqulağı döyüşü** → | I Şah İsmayıl Ağqoyunlu dövlətinin varlığına son qoydu |
| **1510** → | **Mərv döyüşü** → | I Şah İsmayıl Şeybani xanı məğlub edərək Xorasan vilayətini ələ keçirdi |
| **1514** → | **Çaldıran döyüşü** → | Səfəvilər Şərqi Anadolu və Mesopotomiyanın bir hissəsi itirildi |
| **1516** → | **Qoçhisar döyüşü** → | Şimalda Xarput və Bitlis, cəbubda Mosul osmanlıların əlinə keçdi |

| | | | |
|---|---|---|---|
| Şahzadə İsmayılın Lahicanı tərk edərək Ərdəbilə gəlməsi | 1499 | 1506-1508 | Şah I Ismayılın Diyarbəkr, Hilat, Bitlis, Ərçiş və İraqi Ərəbi ələ keçirməsi |
| Ərcivanda qızılbaş tayfalarının yığıncağının keçirilməsi | 1500 | 1507-1508 | Şeybani xanın Xorasan vilayətini tutması |
| İsmayılın Ərcivandan Göyçə gölünün cənub sahilinə gəlməsi | 1500 | 1507-1508 | Şah I İsmayılın Roma papası və Venetsiya ilə əlaqə yaratması |
| Şahzadə İsmayılın Ərzincandan Şirvana yürüşü və Şamaxını tutması | 1500 | 1510 | Səfəvi diplomatı Əli Bəyin İtaliyaya səfərə getməsi |
| Cabanı döyüşü. İsmayılın Şirvanşah Fərrux Yasarı məğlub etməsi | 1500 | 1510 | Şah İsmayılın Xorasana, Şeybani xanın üzərinə hücum etməsi |
| Məhəmməd bəy Ustaclı və İlyas bəy Xunuslunun Bakı qalasını ələ keçirməsi | 1501 | 1510 1 dekabr | Mərv döyüşü. Şah İsmayıl Xorasan vilayətini ələ keçirməsi |
| Şərur döyüşü. Ağqoyunlu dövlətinin birinci qolunun süqut etməsi | 1501 | 1512 | Şah I İsmayılın Qaraman və Malatiyanı ələ keçirməsi |
| Şah I İsmayılın Təbrizə tutması və Səfəvilər dövlətinin əsasını qoyması | 1501 | 1514 | Sultan Səlimin Ədirnədə fövqəladə divan çağırması |
| Almaqulağı döyüşü. Ağqoyunlu dövlətinin ikinci qolunun süqut etməsi | 1503 | 1514 | Sultan Səlimin Azərbaycana yürüş etməsi. Çaldıran döyüşü |
| Şah I İsmayılın İsfahan, Qum və Kaşan şəhərlərini ələ keçirməsi | 1503 | 1514-1515 | Sultan I Səlimin Ərzincanı və Diyarbəkri tutması |
| Şah I İsmayılın Yəzdə və Kirmanı ələ keçirməsi | 1504 | 1516 | Qoçhisar döyüşü. Xarput, Bitlis və Mosulun osmanlıların əlinə keçdi |
| Osmanlı sultanı II Bəyazidin Səfəvilər dövlətinin müstəqilliyini tanıması | 1504 | 1522 | Şah I İsmayılın Kəmaləddin Behzadı Təbriz saray kitabxanasına rəis təyin etməsi |

### I Təhmasibin taxta çıxması. Səfəvilər dövlətinin daxili vəziyyəti

**1524-cü ildə** Şah İsmayıl vəfat etdi. I Şah İsmayılın ölümündən sonra onun 10 yaşlı oğlu **I Təhmasib (1524-1576)** taxta çıxdı. Təhmasibin hakimiyyətinin ilk illərində Səfəvilər dövlətində daxili-siyasi vəziyyət aşağıdakı kimi idi:

- ***Səfəvilər dövlətində mərkəzi hakimiyyət bir qədər zəiflədi***
- ***Feodallar arasında çəkişmələr yenidən başladı***
- ***Qızılbaş əmirləri mərkəzi hakimiyyətdən boyun qaçırmağa başladı***
- ***Səfəvilərlə Osmanlılar arasında müharibə yenidən başladı***

Təhmasibin ***azyaşlı olmasından*** istifadə edən bir çox ***əmirlər*** mərkəzi hakimiyyətə qarşı çıxdılar. Məsələn, **1531-ci ildə təkəli əmiri Üləma bəy** qızılbaş əmiri olduğu halda:

- Azərbaycanın cənubuna yürüş edərək, **Təbrizi** talan etdi
- Şərqi Anadoluda **Bitlis şəhərini** ələ keçirdi
- Sultan Süleymanı Azərbaycana və İraqa yürüş etməyə təhrik etdi
- Sultan Süleymanın Azərbaycana yürüşündə iştirak etdi

## Sultanı I Süleyman Qanuninin Azərbaycana yürüşləri. Amasiya sülhü

Səfəvilər dövlətində ***mərkəzi hakimiyyətin zəifləməsindən*** istifadə edən Osmanlılar yenidən Səfəvilərlə müharibəyə başladılar. **1534-cü ildə** Osmanlı sultanı **I Süleyman Qanuni (1520-1566)** 100 minlik qoşunla Azərbaycana ***ilk*** - ***birinci yürüşə*** başladı. Sultan Süleymanın Azərbaycana birinci yürüşü ***nəticəsində:***

- ***Azərbaycanın xeyli hissəsi Osmanlılar tərəfindən tutuldu***
- ***Ciddi müqavimətə baxmayaraq Təbriz şəhəri işğal olundu***

Lakin Osmanlı qoşunu Təbrizdə çox qala bilməyib Azərbaycanı tərk etdi. Bunun ***səbəbi*** aşağıdakılarla bağlı idi:

- ***Osmanlıların ciddi müqavimətə rast gəlməsi***
- ***Qışın sərt keçməsi və ərzaq çatışmazlığı***

**1535-ci ilin yazında** Sultan Süleyman ***ikinci dəfə*** Azərbaycana - Təbrizə hücum etdi. Sultan Süleymanın Azərbaycana ikinci yürüşü zamanı onların hücumuna mane olmaq məqsədi ilə I Təhmasib aşağıdakı ***hərbi-strateji tədbirləri*** həyata keçirdi:

- ***Düşmən əlinə keçməmək üçün ot-ələfə od vuruldu, mal-qara məhv edildi***
- ***Təbriz əhalisini ölkənin içərilərinə köçürtdü, özü isə Sultaniyyə şəhərinə çəkildi***

Osmanlılar ikinci yürüş zamanı da Təbriz şəhərini ələ keçirsə də ***aclıq və səfalət*** onları Azərbaycanı tərk etməyə məcbur etdi.

**1548-ci ildə** Sultan I Süleymanın başçılığı ilə Osmanlılar ***üçüncü dəfə*** Azərbaycana yürüş etdi və yenə Təbrizi tutdular. Bu yürüşdə ***Əlqas Mirzə*** də iştirak edirdi. I Süleymanın başçılığı ilə osmanlıların üçüncü dəfə yürüşü zaman Azərbaycanda siyasi vəziyyət aşağıdakı kimi idi:

- ***Azərbaycanın cənubunda qızılbaş əmirləri arasında çəkişmələr güclənmişdi***
- ***Şirvanda II Xəlilullahın oğlu*** **Bürhan Mirzə** ***Səfəvilər əleyhinə qiyam qaldırmışdı***

I Süleymanın üçüncü dəfə Azərbaycana yürüşü zamanı onların hücumunu çətinləşdirmək məqsədi ilə I Təhmasib aşağıdakı ***hərbi-strateji tədbirləri*** həyata keçirdi:

- ***Osmanlı sərhədlərindən Təbrizə qədər bütün yerlər xarabazarlığa çevrildi***
- ***Burada Osmanlıların əlinə keçə biləcək bütün ərzaq və ot-ələf məhv edildi***

Nəticədə, Osmanlılar böyük tələfatdan sonra Təbrizi və Azərbaycanın digər şəhərlərini tərk edib **Vana** çəlikdilər.

I Süleymanın üçüncü dəfə Azərbaycana yürüşü zamanı bu yürüşdə iştirak edən Şah I Təhmasibin qardaşı **Əlqas Mirzənin** qoşunu isə **1548-ci ildə, Həmədan yaxınlığında döyüşdə** darmadağın edildi, özü isə əsir alınaraq ***Qəhqəhə qalasındakı*** zindana salındı və bir il sonra oradaca öldürüldü.

Sonralar I Təhmasib öz paytaxtını Təbrizdən şərqə - **Qəzvin şəhərinə (1555-ci ildə)** köçürtdü. Şah I Təhmasibin paytaxtı Qəzvinə köçürməsinin səbəbi ***Təbrizin tez-tez Osmanlıların hücumuna məruz qalması*** idi.

**1552-ci ildə Səfəvi** ordusu ***müdafiədən fəal hücum əməliyyatlarına*** keçdi. Buna Ərzurumdakı Osmanlı hakimi **İsgəndər paşanın Xoy və Çuxursəd bölgələrinə basqınları** səbəb olmuşdur. O, qızılbaşlara məktub yazaraq özünü Şirvan bəylərbəyi və Gürcüstanın hakimi kimi təqdim etdi. Lakin, **Ərzurum qalası yaxınlığında döyüşdə** osmanlılar qızılbaşlar tərəfindən məğlub

edildilər. **1552-ci ilin yazında** Şah I Təhmasibin şəxsən iştirakı ilə qızılbaşlar dörd istiqamətdə Osmanlılar üzərinə əks hücuma keçdilər. Bu əks hücum ***nəticəsində:***

- **Hilat, Van, Bitlis, Vostan** ***və* Ərçişdə *osmanlılar darmadağın edildi***
- ***Qızılbaşlar xeyli qənimətlə geri döndülər***

**1554-cü ilin yazında** Sultan I Süleyman Azərbaycana ***dördüncü dəfə*** yürüşə başladı və ***Naxçıvanı*** tutdu. Lakin ***ciddi ərzaq qıtlığı*** Osmanlı qoşununu Naxçıvanı tərk edərək Ərzuruma doğru geri çəkilməyə məcbur etdi. Geri çəkilməkdə olan düşməni təqib edən Səfəvi qoşunu onları təqib edərək **Osmanlı ərazisinə** daxil oldular. Qızılbaşlar döyüşlərin birində böyük Osmanlı dəstəsi məhv etdi. Bundan xəbər tutan Sultan I Süleyman Şirvanşahlar nəslindən olan Qasım Mirzəyə ***Krım türklərindən ibarət süvari dəstə*** göndərdi. Qasım Mirzə Osmanlılarla birlikdə Dərbənddən keçərək **Şirvana** hücum etdilər. Lakin, **1554-cü ildə:**

- ***Buğurd qalası*** ətrafında baş verən həlledici döyüşdə ***osmanlı qoşunu darmadağın edildi***
- ***Gülüstan qalası*** yaxınlığında döyüşdə Şirvan bəylərbəyi Abdulla xan Ustaclı Qasım Mirzənin tərəfdarlarını məğlub etdi, Qasım Mirzə isə Gürcüstana sonra isə Osmanlı ərazisinə qaçdı

Beləliklə Sultan I Süleymanın Azərbaycana dördüncü yürüşü də ***uğursuzluqla*** nəticələndi. Azərbaycanı işğal etmək cəhdinin boşa çıxdığını görən Sultan I Süleyman Səfəvilərlə sülh danışıqlarına başlamağa məcbur oldu. **1555-ci il mayın 29-da** Səfəvilərlə Osmanlılar arasında **Amasiyada** sülh müqaviləsi bağlandı. Amasiya sülhünün şərtlərinə əsasən:

1. **Qərbi Gürcüstan, *Osmanlıların* ixtiyarına keçdi**
2. **Gürcüstanın Şərq vilayətləri *Səfəvilərin* ixtiyarına keçdi**

Amasiyada sülhünün imzalanması ilə Səfəvi – Osmanlı müharibələrinin ***birinci mərhələsi (1514-1555)*** başa çatdı.

**Sultan I Süleyman Qanuninin Azərbaycana yürüşləri**

| | | |
|---|---|---|
| **I yürüş** | **1534-cü il** | Azərbaycanın xeyli hissəsi və Təbriz şəhəri Osmanlılar tərəfindən tutulsa da elə həmin ildə osmanlılar Azərbaycanı tərk etdilər |
| **II yürüş** | **1535-ci il** | Osmanlılar Təbriz şəhərini ələ keçirsə də aclıq və səfalət onları bu dəfə də Azərbaycanı tərk etməyə məcbur etdi |
| **III yürüş** | **1548-ci il** | Təbriz yenə də tutulsa da, Osmanlılar Azərbaycanda möhkəmlənə bilmədilər və geri çəkildilər |
| **IV yürüş** | **1554-cü il** | Naxçıvan şəhəri tutuldu, lakin ciddi ərzaq qıtlığı hiss edən Osmanlı qoşunu Ərzuruma doğru geri çəkildi |

## I Şah Təhmasibin Şirvanşahlar dövlətinin varlığına son qoyması

Şirvanşah **II İbrahim (1502-1524)** və **II Xəlilullahın (1524-1535)** dövründə Şirvanşahlar dövləti ***Səfəvilərdən asılı vəziyyətdə*** idi. II Xəlilullahın ölümündən sonra ***Şirvan əyanları*** **Şahruxu** taxta çıxartdılar. **Şahruxun (1535-1538)** dövründə:

**Məhəmməd Aminin** Onun cəncliyindən istifadə edən ***Şirvan əmirlərinin*** özbaşınalığı həddini aşdı

- Hakimiyyət **Hüseyn bəy** başda olmaqla ***Şirvan əyanlarının*** əlində cəmləşdi
- ***Şirvan əmirlərinin özbaşınalığı*** əhalinin narazılığına səbəb oldu
- **1537-ci ildə** Şirvanda kələntər **Məhəmməd Aminin** başçılığı ilə üsyan qalxdı.

**Məhəmməd Aminin** ***üsyanı zamanı:***

- Şirvan əhalisi üsyançılara qoşuldular
- Üsyançılar **Salyanı** və **Şamaxını** ələ keçirdilər
- Şahrux əyanlarla birlikdə ***Buğurd qalasına*** qaçdı
- Lakin Salyan yaxınlığında Şirvan qoşunu tərəfindən üsyançılar darmadağın edildi

Bu qarışıqlıqdan istifadə edən I Təhmasib ***Şirvanı işğal etmək məqsədilə*** **1538-ci ildə** ora qardaşı ***Əlqas Mirzənin*** başçılığı ilə 20 minlik qoşun, Qarabağ və Muğandan xeyli yığılmış göndərdi. Beləliklə, I Təhmasibin qüvvələrinin Şirvana ***ilk*** yürüşü ***nəticəsində:***

- ***Dörd aylıq mühasirədən sonra* Buğurd qalası *tabe edildi***
- ***Şirvanşahlar dövlətinin varlığına son qoyuldu***
- ***Sonuncu Şirvanşah hökmdarı* Şahrux *Təbrizə aparılaraq edam edildi***
- ***Şirvan ərazisi bəylərbəyiliyə çevrilərək Səfəvilər dövlətinin əyalətinə çevrildi***
- **Əlqas Mirzə *Şirvana ilk bəylərbəyi təyin edildi***
- ***Şirvanşahların və yerli əyanların əmlakı müsadirə* olundu**

**1547-ci ilin əvvəlində** Şirvan bəylərbəyi Əlqas Mirzə ***Şirvan əyanlarının mərkəzdənqaçma meylindən istifadə edərək*** özünü müstəqil hökmdar elan etməyi qərara aldı və ***Səfəvilər əleyhinə qiyam*** qaldırdı. Bu qiyamda Əlqas Mirzəyə Osmanlıların vassalı **Krım xanı Sahib Gəray** da kömək edirdi. **1547-ci ildə** I Təhmasib qardaşı Əlqas Mirzənin qiyamını yatırmaq məqsədi ilə Şirvana ***ikinci dəfə*** yürüş etdi. I Təhmasibin Şirvana ***ikinci*** hücumu ***nəticəsində:***

- ***Əlqas Mirzənin başçılıq etdiy Şirvan qiyamı yatırıldı***
- ***Əlqas Mirzə məğlub olaraq* İstanbula *qaçdı***
- ***I Təhmasibin oğlu* İsmayıl Mirzə *Şirvan bəylərbəyi təyin edildi***
- ***Səfəvilərin hakimiyyəti Şirvanda daha da gücləndi***

Şirvanda Əlqas Mirzənin üsyanı yatrılmamış yeni bir üsyan baş verdi. **1548-ci ildə** Sultan I Süleymanın ***üçüncü dəfə*** Azərbaycana yürüşü zamanı İsmayıl Mirzənin Osmanlılarla müharibəyə getməsindən istifadə edən II Xəlilullahın oğlu **Bürhan Mirzə *Şirvanda Səfəvilər əleyhinə qiyam*** qaldırdı. Osmanlılar Azərbaycanın cənubundan çəkildikdən sonra Şah I Təhmasib yeni Şirvan qiyamını yatırmaq məqsədilə Ustaclı tayfasının başçısı **Abdulla xan Ustaclını** Şirvan bəylərbəyisi təyin etdi və bu yerləri qiyamçılardan təmizləməyi ona tapşırdı. **1549-cu ildə** Abdulla xan Ustaclı ilə Şirvan üsyançıları arasında ***Əlişaban döyüşü*** baş verdi. Əlişaban döyüşü nəticəsində:

- ***Şirvan qiyamçıları məğlubiyyətə uğradıldı***
- ***Bürhan Mirzə döyüşdə öldürüldü***

**QEYD:** Mərkəzi hakimiyyətə qarşı qiyam qaldırmaları və Osmanlı imperiyasına sığınması Ağqoyunlu Uğurlu Məhəmməd ilə Əlqas Mirzə arasında ümumi cəhət təşkil edir.

**Səfəvilər tərəfindən təyin edilmiş ilk Şirvan bəylərbəyiləri**

- Əlqas Mirzə
- İsmayıl Mirzə
- Abdulla xan Ustaclı

| I Təhmasibin Şirvana birinci hücumunun nəticələri | I Təhmasibin Şirvana ikinci hücumunun nəticələri |
|---|---|
| • Şirvanşahlar dövlətinin varlığına son qoyuldu<br>• Sonuncu Şirvanşah hökmdarı Şahrux edam edildi<br>• Şirvan ərazisi Səfəvilər dövlətinin əyalətinə çevrildi<br>• Şirvanşahların əyanların əmlakı müsadirə olundu<br>• Əlqas Mirzə Şirvana ilk bəylərbəyi təyin edildi | • Əlqas Mirzənin başçılıq etdiy Şirvan qiyamı yatırıldı<br>• Əlqas Mirzə məğlub olaraq İstanbula qaçdı<br>• Səfəvilərin hakimiyyəti Şirvanda daha da gücləndi<br>• I Təhmasibin oğlu İsmayıl Mirzə Şirvan bəylərbəyi təyin edildi |

**Şəkinin Səfəvilər dövlətinə birləşdirilməsi**

Şəki hakimliyinin Səfəvilər dövlətinə birləşdirilməsi də I Təhmasibin hakimiyyəti dövrünə təsadüf edir. **Həsən bəyin** varisi **Dərviş Məhəmməd xanın** dövründə (1524-1551) Şəki hakimliyi ilə Səfəvilər dövləti arasındakı münasibətlər pisləşmişdir. **1538-ci ildə** Şirvanşah Şahruxun Buğurd qalasında Şah I Təhmasib tərəfindən mühasirəyə alınması zamanı Şəki hakimi Dərviş Məhəmməd xan onun köməyinə gəlmişdir. Şirvanın Səfəvilər dövlətinin tərkibinə qatılmasından sonra Şəki hakimi Dərviş Məhəmməd xan Şahdan vassal asılılığını qəbul etdi. Lakin, Dərviş Məhəmməd xan şaha qarşı mübarizədə Əlqas Mirzəni müdafiə etdi və qardaşı Şahnəzər xanı qoşunla ona hərbi yardım göndərdi. Buna görə də **1548-ci ildə** Osmanlı sultanı I Süleymanın Azərbaycandan çəkilməsindən sonra I Təhmasib ***Kiş qalasında*** gizlənmiş ***Şəki xanını cəzalandırmaq məqsədi ilə*** Qarabağdan **Sevindik bəy Əfşarı** 2500 qorçu ilə Şəkiyə göndərdi. ***Sevindik bəy Əfşarın qorşuları Şəkini talan edərək geri döndülər.***

**1551-ci ildə** isə Şah I Təhmasib Şəkinin müstəqilliyinə son qoymağı qərara aldı. Şah Ərəşdə düşərgə salaraq Şəki hakimi Dərviş Məhəmməd xanın yanına qasid göndərdi. Şəki hakiminin Şahın qasidini qarşılamaması və onun qərargahına gəlməyi rədd etməsi Şah I Təhmasibin Şəki üzərinə hücuma balanmasına səbəb oldu. Bu zaman şəkililər ***"Kiş"*** və ***"Gələsən-görəsən" qalalarında***, ***Qafqaz dağlarının ətəyindəki sığınacaqlarda*** gizləndilər və hücum edən şah qoşunlarına güclü müqavimət göstərdilər. Şah I Təhmasib "Gələsən-görəsən" qalasının fəthini **Abdula xan Ustaclıya** tapşırdı. Nəticədə ***top atəşi ilə*** "Kiş" qalasının divarları dağıdıldı. "Kiş" qalasının qalabəyi **Mahmud bəy** müqavimətin mənasız olduğunu görüb təslim olaraq qalanın açarlarını şaha təslim etdi. "Kiş" qalasının süqutundan xəbər tutan sığınacaqda gizlənən müdafiəçilər də müqaviməti dayandırdılar. Müqavimətin ağır olduğunu görən Dərviş Məhəmməd xan isə öz dəstəsi ilə gecə ikən "Gələsən-görəsən" qalasından qaçmağa cəhd göstərdi, lakin ələ keçirilərək öldürüldü. Beləliklə, **1551-ci ildə** Səfəvi qoşununun Şəkiyə yürüşü ***nəticəsində:***

- ***Şəki uğrunda mübarizə Səfəvilərin qələbəsi ilə başa çatdı***
- ***Şəki vilayəti Səfəvilərin tabeliyinə keçdi***
- **Toy günü bəy Qacar *Şəkinin ilk qızılbaş hakimi təyin edildi***
- ***Azərbaycan torpaqlarının vahid dövlətdə birləşdirilməsi prosesi başa çatdı***

**QEYD:** Azərbaycan torpaqlarının vahid dövlətdə birləşdirilməsi ölkənin həm iqtisadi, həm də mədəni hayatına müsbət təsir etdi.

## I Şah Təhmasibin hakimiyyəti (1524-1576)

- Şirvanşahlar dövləti süqut etdi
- Şəki hakimliyinə son qoyuldu
- Şirvanda Əlqas Mirzənin üsyanı baş verdi
- Səfəvilər Osmanlı ərazisinə hücum etdilər
- I Səfəvi-Osmanlı müharibəsi Amasiya sülhü ilə başa çatdı
- Azərbaycan I Sultan Süleymanın yürüşlərinə məruz qaldı
- Azərbaycan torpaqları vahid dövlət halında birləşdirildi
- Mərkəzi hakimiyyət qüvvətləndi
- Səfəvilər dövlətinin paytaxtı Təbrizdən Qəzvinə köçürüldü
- Osmanlıların Azərbaycanı tutmaq siyasəti baş tutmadı
- Buğurd qalası ətrafında döyüşdə Osmanlı qoşunu məğlub edildi
- Sənətkar və tacirlərdən alınan tamğa vergisi ləğv olundu

| | | | |
|---|---|---|---|
| Şah I Təhmasibin hakimiyyətə gəlməsi | **1524** | **1548** | II Xəlilullahın oğlu Bürhan Mirzənin Şirvanda Səfəvilər əleyhinə qiyam qaldırması |
| Təkəli əmiri Üləma bəyin Azərbaycanın cənubuna yürüş etməsi | **1531** | **1548** | Şah I Təhmasibin Qarabağdan Sevindik bəy Əfşarı Şəkiyə yürüşə göndərməsi |
| Osmanlı sultanı I Süleymanın Azərbaycana birinci yürüşü | **1534** | **1549** | Əlişaban döyüşü. Abdulla xan Ustaclının Şirvan qiyamçılarını məğlubiyyətə uğratması |
| Sultan I Süleymanın Azərbaycana ikinci yürüşü | **1535** | **1551** | Şəkinin Səfəvilər dövlətinə birləşdirilməsi |
| Şah I Təhmasibin "Şeyx Səfi xalçası"nı toxutdurması | **1536** | **1552** | Şah I Təhmasibin osmanlılara qarşı müdafiədən fəal hücum əməliyyatlarına |
| Şirvanda Məhəmməd Aminin başçılığı ilə üsyan baş verməsi | **1537** | **1554** | Sultan I Süleymanın Azərbaycana dördüncü yürüşü |
| I Təhmasibin əmri ilə qızılbaşların Şirvana birinci yürüşü | **1538** | **1554** | Buğurd qalası ətrafında döyüş. Osmanlı qoşununun darmadağın edilməsi |
| Səfəvilərin Şirvanşahlar dövlətinin müstəqilliyinə son qoyması | **1538** | **1554** | Gülüstan qalası yaxınlığında döyüş |
| Qusar rayonunda Şeyx Cüneyd məqbərəsinin inşa edilməsi | **1544** | **1555** | I Səfəvi-Osmanlı müharibəsinin başa çatması. Amasiya sülhü |
| Şirvan bəylərbəyi Əlqas Mirzənin Şirvanda Səfəvilər əleyhinə qiyam qaldırması | **1547** | **1555** | Şah I Təhmasibin paytaxtı Təbrizdən Qəzvinə köçürməsi |

# Səfəvilər dövlətinin daxili vəziyyəti. II Səfəvi-Osmanlı müharibəsi (1578-1590)

## I Təhmasibin ölümündən sonra Səfəvilər dövlətinin daxili vəziyyəti

I Təhmasibin ölümündən sonra (1576 ) Səfəvilər dövlətinin daxili vəziyyəti dəyişdi:

- Hərbi–köçəri feodallar arasında çəkişmələr yenidən başladı
- Şahın oğulları **Məhəmməd Mirzə, İsmayıl Mirzə** və **Heydər Mirzə** arasında hakimiyyət uğrunda mübarizə başladı və bu mübarizə ***İsmayıl Mirzənin qələbəsi ilə*** nəticələndi

Səfəvilər dövlətində hakimiyyət uğrunda mübarizədə İsmayıl Mirzə qardaşlarına qalib gələrək **II İsmayıl (1576-1577)** adı ilə özünü şah elan etdi. Lakin, **1577-ci ildə *saray çevrilişi nəticəsində*** II İsmayıl suiqəsd nəticəsində öldürüldü. II İsmayıl öldürüldükdən sonra Səfəvilər dövlətində ***ikihakimiyyətlilik*** yarandı:

- Qəzvində I Təhmasibin qızı **Pərixan xanım** hakimiyyəti ələ aldı
- Digər tərəfdən Məhəmməd Mirzə (Məhəmməd Xudabəndə) hakimiyyəti ələ almağa çalışdı

Bu ikihakimiyyətlilik uzun sürmədi. Qızılbaş əmirləri Məhəmməd Xudabəndənin tərəfinə keçdilər. Beləliklə, Məhəmməd Xudabəndə **1578-ci il fevralın 13-də Qəzvində** müqavimətsiz taxtda sahib oldu. **Məhəmməd Xudabəndə (1578-1587)** hakimiyyətə gəldikdən sonra ilk növbədə aşağıdakı tədbirləri həyata keçirdi:

- ***Öz düşmənlərini saraydan uzaqlaşdırdı***
- ***Bacısı Pərixan xanımı edam etdirdi***

Məhəmməd Xudabəndə taxtda çıxdığı ilk gündən arvadı **Məhdi Ulya *"dövlət işlərini"*** öz əlinə aldı və **Ali divanın vəkili** vəzifəsinə qədər yüksəldi. Məhəmməd Xudabəndənin hakimiyyəti dövründə:

- ✓ Səfəvilər dövləti daha da zəiflədi
- ✓ Qızılbaş əmirləri arasında mübarizə başladı
- ✓ Bir neçə nüfuzlu əmir dövləti öz aralarında bölüşdürdülər
- ✓ Dövlət xəzinəsi demək olar ki, boşaldı
- ✓ Osmanlılar yenidən öz işğalçılıq yürüşlərinə başladılar

Tarixçi **Şərəf xan Bitlisi** Məhəmməd Xudabəndənin hakimiyyəti dövrünü belə qiymətləndirirdi: ***"Əslində ölkə qızılbaş tayfaları arasında bölünmüşdü. Onlar mərkəzlə hesablaşmır, ölkəni istədikləri kimi idarə edirdilər. Məhəmməd Xudabəndənin yalnız şahlıq adı qalmışdı."***

**Səfəvi hökmdarları XVI əsr – XVII əsrin I yarısında**



## 1577-ci il kürd qiyamı. II Səfəvi-Osmanlı müharibəsinin başlanması

***Səfəvilər dövlətinin zəifliyindən*** istifadə edən Osmanlılar yenidən Azərbaycana işğalçılıq yürüşlərinə başladılar. Sultan **III Murad (1574-1595)** sünnilərin şiələrə cihadı adı altında ***"müqəddəs müharibə" şüarını*** irəli sürərək əvvəlcə sərhəddəki kürd tayfalarını ayağa qaldırdı. Belə ki, Van hakimi **Xosrov paşa** sultanın göstərişi ilə **1577-ci ildə kürd tayfalarının qiyamını** qaldırdı və onlar birlikdə Səfəvilərin hakimiyyəti altında olan **Xoy şəhərinə** hücum etdi. ***Van hakimi Xosrov paşanın kürdlərlə birlikdə Xoya hücum etməsi ilə*** 1555-ci il Amasiya müqaviləsinin şərtləri pozuldu. **1577-ci ildə** baş verən kürd qiyamı ***nəticəsində:***

- Üsyançılar **Urmiya, Xoy** və **Salması** ələ keçirdilər
- Səfəvilərin Xoy və Slamas hakimi **Mahmud Sultan Rumlu** həlak oldu
- Qızılbaş türkmən tayfasının başçısı **Əmir xan** üsyançılarla döyüşdə məğlub oldu
- Səfəvi-Osmanlı müharibələrinin ***ikinci mərhələsi üçün bəhanə*** yarandı

**1578-ci ildə** yaranmış bu vəziyyətdən istifadə edən Osmanlı sultanı III Murad **Mustafa Lələ paşanın başçılığı altında** 100 minlik qoşunu Gürcüstana və Azərbaycana göndərdi. Mustafa Lələ paşa Azərbaycana yürüş üçün ilk növbədə ***Qars qalasını bərpa edib, oraya qoşun yeritdi***. Səfəvi-Osmanlı müharibələrinin ikinci dövründə osmanlılara ***Krım tatarları*** kömək edirdilər. Belə ki, sultan III Murad, vassalı olan **Krım xanı II Məhəmməd Gəraydan (1577-1584)** qızılbaşlara qarşı müharibədə iştirak etməyi tələb edərək onları da Səfəvilərlə müharibəyə cəlb etdi.

Səfəvi-Osmanlı müharibələrinin ikinci mərhələsində bir neçə döyüş oldu. **1578-ci ildə avqustun 9-da** Qızılbaşlar İmamqulu xan Qacarın rəhbərliyində **Çıldır düzündə** Osmanlıları qarşıladılar. **Çıldır döyüşü *nəticəsində:***

- ***Qızılbaşlar məğlub olaraq* Qarabağa *çəkildilər***
- ***Qızılbaşların nüfuzlu başçıları həlak oldu***

Çıldır döyüşdə qızılbaşların məğlubiyyətinin əsas ***səbəbləri*** ağağıdakılar idi:

- ***Qızılbaş ordusunun rəhbərliyi arasında birliyinin olmaması***
- ***Qızılbaş əmirlərinin osmanlılarla döyüşə o qədər də əhəmiyyət verməməsi***
- ***Qızılbaş əmirlərinin həddindən artıq özlərinə arxayın olması***
- ***Qüvvələr nisbətində fərqin Səfəvilərin xeyrinə olmaması***

**1577-ci ildə baş verən kürd qiyamı zamanı üsyançıların ələ keçirdiyi ərazilər**




## Osmanlıların Gürcüstana və Şirvana yürüşləri

Çıldır döyüşündən sonra Osmanlılar Mustafa Lələ paşanın başçılığı ilə **1578-ci ilin avqustunda:**

- **Axalsıxını** ələ keçirib **Kaxetiyaya** daxil oldular
- **Tiflisi, Qorini** və **Şirvanı** tutdular

**1578-ci ilin sentyabrında** Osmanlı ordusu ilə Səfəvilər arasında **Qanın (Alazan) döyüşü** baş verdi. Döyüş ***nəticəsində:***

- ***Osmanlı ordusu böyük itki verdi***
- ***Qızılbaşlar xeyli qənimət və əsir əldə etdilər***

Çıldır döyüşündən sonra Səfəvi ordusu Qarabağa, oradan Təbrizə qayıtdı. Mustafa Lələ paşa isə ***sentyabrda*** **Şəki, Ərəş, Şamaxı, Qəbələ, Bakı, Şabran** və **Mahmudabad şəhərlərini** müqavimətsiz tutdu. Şirvanda əhali osmanlılara qarşı elədə müqavimət göstərmədilər, hətta bu zaman **Şirvan** əhalisi ***qızılbaşlara qarşı qiyam*** qaldırdı. Çünki, Şirvanın yerli sünni əyanları keçmiş ***Şirvan dövlətinin bərpası üçün*** Osmanlı sultanının ordusuna böyük ümid bəsləyirdilər. **Dərbənd** əhalisi də ***qızılbaşlara qarşı qiyam*** qaldırdı. Dərbəndin qızılbaş hakimi **Çıraq xəlifə** üsyan qaldırmış şəhərlilər tərəfindən öldürüldü.

**1578-ci ildə** osmanlılar tərəfindən işğal edilmiş Azərbaycan ərazisində ***Osmanlı hərbi-inzibati üsulu*** yaradıldı. Şirvan ərazisi Osmanlılar tərəfindən tutulduqdan sonra hər biri sancaqlıqlardan ibarət olan ***Şamaxı*** və ***Dərbənd bəylərbəyiliklərinə*** bölündü. Osmanlı hakimi **Özdəmir oğlu Osman paşa** Şirvan hakimi təyin olundu. Osman paşa **Dərbəndi** özünə iqamətgah seçdi. Bununla da Osmanlı sultanı Şirvan feodallarının keçmiş müstəqilliyi bərpa etmək ümidlərini puça çıxardı. Mustafa Lələ paşa İstanbula qayıtmaq üçün Ərzuruma yola düşdü. Bu zaman o, Tiflisdə Qarabağ bəylərbəyi İmamqulu xanın hücumuna məruz qaldı. Bu hücum nəticəsində:

- Mustafa Lələ paşa 20 min nəfər itki verdi
- Qızılbaşlar xeyli qənimət əldə etdilər

## Səfəvilərin Şirvanı geri almaq cəhdlərinin boşa çıxması

Mustafa Lələ paşa İstanbula qayıtdıqdan sonra Özdəmir oğlu Osman paşa hələ Səfəvilərin hakimiyyəti altında olan **Gəncəyə** və **Salyana** hücum etdi. Lakin, Osman paşa Səfəvilərin Osmanlı işğalından əvvəlki keçmiş Şirvan bəylərbəyisi **Aras xan Rumlu** ilə ilk döyüşdən sonra Şamaxıya çəkilməli oldu. Bu zaman şimaldan Şirvana soxulmuş Krım xanının ordusu mühasirədə olan düşmənin köməyinə yetişdi. Döyüşdə ***qızılbaşlar mühasirəyə düşərək darmadağın edildi, Aras xan isə öldürüldü.***

Bu zaman (1578-ci ilin sentyabrında) qızılbaşların əsas qüvvələri Şah Məhəmməd Xudabəndənin oğlu **Həmzə Mirzənin** başçılığı altında ***Osmanlıları Şirvandan qovub çıxarmaq məqsədilə*** Qəzvindən **Qarabağa** hərəkət etdi və burada əmirlərlə vəzir Mirzə Salmanın qoşunları ilə birləşdi. Birləşmiş qoşun Kür çayını keçib Şirvana daxil oldu və Şamaxı qalasında Osman paşanı mühasirəyə aldı. **1578-ci il noyabrın 28-də Ağsu çayı sahilində Mollahəsən adlı yerdə** qızılbaş qoşunu Osman paşanın köməyinə gəlmiş Krım xanı Adil Gərayın ordusu ilə toqquşdu. **Mollahəsənli döyüşü** ***nəticəsində:***

- ***Krım xanı Adil Gərayın 12 minlik qoşunu darmadağın edildi və Adil Gəray əsir düşdü***
- ***Səfəvilər parlaq qələbə qazanaraq Şamaxını ələ keçirdilər və Şabrana kimi irəlilədilər***

Bu, qızılbaş qoşununun müharibədə sonuncu böyük müvəffəqiyyəti idi. Lakin, Səfəvilər Dərbəndi geri ala bilmədilər. Səfəvilər Şirvanda da damöhkəmlənə bilmədilər. Bunun səbəbi onların ***Şirvanda dayaq məntəqəsinin olmaması*** və ***daxili çəkişmələr*** idi. Bundan sonra Səfəvilər dövlətini daxili çəkişmələr, İran etnik ünsürlərinin mühüm mövqelər uğrunda mübarizəsi bürüdü.

**1579-cu ilin yayında** Krım xanı **Məhəmməd Gəray** yüz minlik ordu ilə Şirvaba yürüş etdi. Krım tatarları Osman paşa ilə birlikdə **Şamaxıya** və **Bakıya** yürüş etdilər. Kürü keçərək Azərbaycanı qarət etdilər və Qızılağaca qədər irəlilədilər. Lakin qızılbaş qoşununun Şirvana daxil olmasını eşidən kimi onlar Azərbaycanı tərk etdilər.

## Qızılbaş tayfaları arasında ziddiyyətlərin güclənməsi

Şirvan yürüşündən sonra Təbrizdə ***türkman*** və ***şamlı əmirləri arasında*** ixtilaflar gücləndi. Şamlı əyanları arasında da ***parçalanma*** baş verdi. Şah Məhəmməd Xudabəndə Xorasan vilayətinin mərkəzi şəhəri olan Hetata təyin etdiyi Əliqulu xan Şamlını **oğlu Abbas Mirzənin** (gələcəkdə Şah I Abbasın) lələsi elan etdi. Əslində Xorasan vilayətinin canişini Abbas Mirzə idi, bütün işləri isə Əliqulu xan idarə edirdi. Bu zaman Xorasanın ***Herat*** və ***Məşhəd bölgələrində*** bir-biri ilə düşmənçilik edən ***iki qurup*** yaranmışdır:

1. ***Türkmən*** və ***təkəli tayfa əmirlərinin*** müdafiə etdiyi və özlərinin “xanlar xanı” saydığı **Əliqulu xan**
2. Məşhəddə hakimlik edən **Murtuzqulu xan**

**1581-ci ildə** bir-biri ilə düşmənçilik edən bu iki qrup arasındakı mübarizə nəticəsində:

- **Əliqulu xan** məğlubiyyətə uğradı
- **Xorasan vilayəti** Səfəvilər dövlətindən ayıldı
- Qiyamçı şamlı əmirləri Heratda **Abbas Mirzəni** şah elan etdilər

## Səfəvi-Osmanlı müharibəsində hərbi əməliyyatların yenidən davam etdirilməsi

Osmanlılar ***Şirvanı əldə saxlamaq və Xəzər dənizinə çıxışı yolunu itirməmək üçün*** bütün imkanlarından istifadə edirdilər. Səfəvilər də vəziyyətin ağırlığına baxmayaraq **Şirvanı** Osmanlılara güzəştə getmək istəmirdilər. Bu məqsədlə qızılbaş qoşunu **1580-ci ildə** yenidən **Şirvana** hücum etdi. Bu zaman Dərbəndə sığınan Osman paşaya kömək üçün Sultan III Murad (1574-1595):

- **Sinan paşanı** orduya komandan təyin edərək Azərbaycana - Şirvan üzərinə göndərdi
- Krım türklərinin Azərbaycana hücum etməsinə nail oldu

**1580-ci ildə** Krım türkləri ***üçüncü dəfə*** Şirvana qarətçi yürüş etdilər. Osman paşa Krım türklərinin köməyi ilə Bakıya daxil olaraq qalada mövqeyini möhkəmləndirdi. Krım türklərinin qarətlərindən xəbər tutan Şah Məhəmməd Xudabəndə bir qrup əmirləri qoşun ilə təcili Mollahəsənli qəsəbəsinə göndərdi. Osmanlılar qızılbaşların bu hücumunndan geri çəkilərək yenidən Dərbənddə möhkəmləndilər. Krım tatarları isə tezliklə Dərbənddən keçərək ölkələrinə qayıtdılar.

**1581-ci ildə** Krım xanının qardaşları **Qazi Gərayın** və **Səfı Gərayın** başçılığı ilə Krım türkləri ***dördüncü dəfə*** Şirvana hücum etdilər. Bu zaman **İmamqulu xan Qacar** qızılbaş dəstəsini Şirvan hakimi Peykər xanın köməyinə göndərdi. Krım tatarları Şamaxıya doğru irəlləyərkən Peykər xan onları qarşıladı. **Şabranla Şamaxı arasında *baş vermiş döyüş nəticəsində:***

- Peykər xan qalib gəldi və Qazı Gəray əsir alındı
- Krım türkləri və Osmanlıların birləşmiş qoşunu məğlub oldu

Lakin bu müvəffəqiyyət Şirvandakı ümumi vəziyyəti Səfəvilərin xeyrinə dəyişdirmədi. Dərbənddə qərar tutmuş Osman paşa ***ərzaq qıtlığı nəticəsində*** qızılbaş qoşununun Şirvanı tərk etməsindən sonra yenidən Şirvanı ələ keçirərək hakimiyyətini bərpa etdi. Beləliklə Şirvanda hakimiyyəti saxlamaqda, Osmanlılara ***Krım tatarları*** çox mühüm kömək göstərdilər.

**II Səfəvi-Osmanlı müharibəsi zamanı Krım türklərinin Azərbaycana yürüşləri**

| *Tarix* | *Yürüşlər* |
|---|---|
| **1578-ci il** | **I yürüş - Krım xanı Adil Gərayın 12 minlik qoşunu darmadağın edildi və Adil Gəray əsir düşdü** |
| **1579-cu il** | **II yürüş - Məhəmməd Gərayın başçılığı ilə Krım tatarları Şamaxını, Bakını və Qızılağaca qədər Azərbaycan ərazilərini qarət edərək geri döndülər** |
| **1580-ci il** | **III yürüş - Şirvan qarət edildi, Bakı tutuldu, sonra tezliklə Dərbənddən keçərək Azərbaycanı tərk etdilər** |
| **1581-ci il** | **IV yürüş - Krım xanının qardaşları Qazi Gərayın və Səfı Gərayın başçılığı ilə Krım türkləri Şirvana hücum etsələr də məğlub olaraq geri çəkildilər** |

## Səfəvi Osmanlı sülh danışıqlarının başlanması

**1582-ci ildə** Sinan paşa sülh bağlamaq məqsədi ilə Səfəvi səfiri **İbrahim xan Tərxanla** birlikdə Ərzurumdan İstanbula gəldi. Lakin Osman paşa Şirvanı ***ikinci dəfə*** tutaraq Sultan III Muradı qızılbaşlarla müharibəni davan etdirməyə çağırdı. 1582-ci ilin əvvəlində Səfəvilərlə Osmanlılar arasında sülh danışıqlarında Sultan III Murad İbrahim xan Tərxana aşağıdakı şərtlərlə sülh bağlamağa tərəfdar olduğunu bildirdi:

1. ***Şirvan Osmanlıların hakimiyyətində qalmalı idi***
2. ***Səfəvilər Şirvanda Osmanlı hakimiyyətini tanımalı idi***

İbrahim xan Tərxan İstanbuldan - Xorasana Şah Məhəmməd Xudabəndəyə məktub göndərərək ***dövlətin ağır daxili vəziyyətini nəzərə alıb, daha çox ərazi itirməmək üçün sülhün şərtlərini qəbul etməyi məsləhət gördü.*** Səfəvi tarixçisi **İsgəndər bəy Münşi** yazır ki, "özlərinə güvənən" qızılbaş əmirləri aralarında ziddiyyət olmasına baxmayaraq, Şah Məhəmməd Xudabəndənin Sultan III Murada göndərdiyi cavab məktubunda bildirdi ki:

- Şirvanı Səfəvilər heç vəchlə Osmanlılara güzəştə getməyəcəkdir.
- Əgər Sultan 1555-ci il sülhünün şərtlərinə razı olmasa müharibəni davam etdirəcəkdir.

Belə olduqda, III Murad sülh danısıqlarını dayandıraraq **1582-ci ildə** Azərbaycana yeni yürüş təşkil etdi və **Fərhad paşanı** Şərqə yürüşünün rəhbəri təyin etdi.

## Fərhad paşa və Osman paşanın Azərbaycana yürüşü

**1583-cü ilin yayında** şərq yürüşünün yeni komandanı Fərhad paşa Ərzurumdan hərəkətə başlayaraq **Çuxursəd vilayətinə** daxil oldu və orada qala tikdirib qoşun yerləşdirdi. Çuxursəd hakimi **Məhəmməd xan Toxmaq** kömək üçün qızılbaşlara müraciət etsə də, heç bir kömək almayaraq öhdəsindəki cüzi qüvvə ilə **Naxçıvana** geri çəkilməyə məcbur oldu. Qızılbaşlar ***kürdlərin yaxınlaşmasına görə Təbrizin müdafiəsini daha vacib hesab edirdilər.*** Nəticədə Fərhad paşa **İrəvan şəhəri** də daxil olmaqla Çuxursədd vilayətini tutdu. Beləliklə ***qızılbaş əmirləri arasındakı ziddiyyət üzündən*** Çuxursəd kimi ***"abad vilayət"*** itirildi.

**1583-cü ildə** Qarabağ hakimi **İmamqulu xan Qacar** Kürü keçib Şirvana daxil oldu və Rüstəm xanı öz dəstəsi ilə birlikdə Osmanlılara qarşı döyüşə göndərdi. Bu döyüşdə osmanlılar ağır məğlubiyyətə uğradıldı. Lakin, **1583-cü ildə Samur çayı yaxınlığında** tarixdə **"Məşəl savaşı"** döyüşü ***nəticəsində:***

- ***Döyüş Osmanlı qüvvələrinin üstünlüyü ilə başa çatdı***
- ***Qızılbaşlar döyüş meydanını tərk etdilər***

Qızılbaş dövlətinin ağır daxili vəziyyəti haqqında xəbərdar edilmiş Osmanlı sultanı ***bütün Azərbaycana yiyələnmək məqsədi ilə*** döyüşkən ruhlu **Özdəmir oğlu Osman paşanı** Dərbənddən İstanbula çağıraraq onu Şərq yürüşünə rəhbər təyin etdi.

**1585-ci il avqustun 12-də** Osman paşa 200 minlik ordu ilə ***Pasinabad-Çaldıran-Xoy-Mərənd-Sufiyan-Təbriz istiqamətində*** Azərbaycana hərəkət etdi. Bu zaman Şah Məhəmməd Xudabəndə və onun əvəzinə bütün dövlət işlərini idarə edən **oğlu Həmzə Mirzə** 20 minlik qoşunla Təbrizə doğru irəliləyən osmanlıların qarşısını kəsmək üçün Mərəndlə Təbriz arasındakı Sufiyan ətrafında osmanlı qoşunu ilə döyüşə girdilər. **1585-ci ilin dekabrında** baş vermiş **Sufiyan döyüşü** ***nəticəsində:***

- ***Əvvəlcə qızılbaşlar osmanlılara ağır zərbə vurdular***
- ***Osmanlıların sayca üstünlüyü qızılbaşları geri çəkilməyə məcbur etdi***

Sufiyan döyüşündən ***bir gün sonra*** **Təbrizə** yaxınlaşan Osman paşa şəhəri dinc yolla təslim etmək tələbi ilə əhaliyə müraciət etdi. Lakin gözlənilən cavab alınmadı. Ertəsi gün Osmanlı artilleriyası sayəsində Osman paşa müdafiəsiz qalmış Təbriz şəhərinə daxil oldu və bir aydan artıq burada qaldı. Lakin ***qızılbaş həmlələri nəticəsində*** Osmanlı qoşunu Təbrizi tərk etməyə məcbur oldu. Həmzə Mirzənin barışmazlığına tam əmin olan ***türkmən*** və ***təkəli mərləri*** **1586-cı ildə** Məhəmməd Xudabəndəyə qarşı mübarizəyə

başlayaraq onun oğlu, **şahzadə Təhmasibi** oğurlayıb dövlətin paytaxtı Qəzvinə apararaq onu şah elan etdilər. Məhəmməd Xudabəndənin bu oğurluqda iştirakı şayiələrinə inanan ***ustaclı*** və ***şamlı əmrləri*** onu ittiham etdilər. **1586-cı ildə** Həmzə Mirzə mərkəzi hakimiyyətə qarşı çıxan türkmən və təkəli əmirlərinin qiyamını yatırdı, qiyamçıların əlində oyuncağa çevrilmiş Təhmasib Mirzə isə **Ələmut qalasına** salındı. Bundan sonra Həmzə Mirzə Qəzvindən Təbrizə qayıtdı. Lakin Osmanlı qoşununun Təbrizə yaxınlaşması xəbəri Həmzə Mirzəni Təbrizin mühasirəsini dayandırıb **Üzümdül** və **Dizmar** tərəfə çəkilməyə məcbur etdi.

Fərhad paşa Təbrizdə ikən, **1586-cı ilin sentyabr-oktyabr aylarında** Əliqulu xanın və əmirlərin yanına səfir göndərərək qızılbaşlara barışıq təklifi etdi.

**II Səfəvi-Osmanlı dövründə Azərbaycana göndərilmiş osmanlı paşaları**

| ***Mustafa Lələ paşa*** **(1578-ci il)** | ***Sinan paşa*** **(1580-cı il)** | ***Fərhad paşa*** **(1583-cü il)** | ***Osman paşa*** **(1585-ci il)** |
|---|---|---|---|

**II Səfəvi-Osmanlı müharibəsi zamanı baş vermiş döyüşlər (1578-1590)**

| | | |
|---|---|---|
| **1578** | **Çıldır döyüşü** | Osmanlılar Səfəvilər üzərində qələbə qazandılar |
| **1578** | **Alazan çayı döyüşü** | Osmanlılar Səfəvilər üzərində qələbə qazandılar |
| **1578** | **Mollahəsənli döyüşü** | Səfəvilər parlaq qələbə qazanaraq Krım xanı Adil Gərayın 12 minlik qoşunu darmadağın etdi və Adil Gəray əsir düşdü |
| **1583** | **Samur çayı ("Məşəl savaşı") döyüşü** | Döyüş Osmanlı qüvvələrinin üstünlüyü ilə başa çatdı, Qızılbaşlar döyüş meydanını tərk etdilər |
| **1585** | **Sufiyan döyüşü** | Qızılbaşlar osmanlılara ağır zərbə vurdusalar da, Osmanlıların sayca üstünlüyü nəticəsində geri çəkildilər |

### Səfəvi-Osmanlı sülh danışıqlarının yeni mərhələsinin başlanması. İstanbunl sülhü

**1586-cı il** Səfəvi-Osmanlı sülh danışıqlarında Sultan III Murad tərəfindən irəli sürülən əsas şərt ***tutulmuş ərazilərin osmanlılarda qalmasından ibarət idi***. Həmzə Mirzə isə yalnız ***Təbrizin qızılbaşlarda qalması şərti ilə*** sülhün bağlanmasına razılıq verdi. Həmzə Mirzənin bu şərtlə sülh bağlamağa razılıq verməsinin səbəbi aşağıdakı amillərlə bağlı idi:

1. **Osmanlıların işğal etdiyi yerləri – Şirvanı, Şəkini və Azərbaycanın cənubunun xeyli hissəsini qızılbaşların kiçik qüvvə ilə azad etmək ümidinin olmaması.**

2. **Hərbi əməliyyatların davam etdirilməsi təqdirdə Səfəvilərin Azərbaycanın cənubundakı şərq vilayətləri və İraqı itirə bilməsi ehtimalı.**

Eşikağası **Əhməd bəy Ustaclı** Fərhad paşa ilə görüşdə təklif olunmuş şərtlə Şah Məhəmməd Xudabəndənin arzusunu bildirdi. İki dövlət arasında başlanmış sülb danışıqları **1586-cı ilin sonunda Qarabağda** Həmzə Mirzənin sui-qəsd nəticəsində qətlə yetrilməsindən sonra dayandırıldı. Həmzə Mirzənin ölümündən sonra:

- ***Səfəvilər dövlətində mərkəzi hakimiyyət bir müddət son dərəcə zəiflədi***
- ***ölkədə özbaşınalıq, hərcimərcilik başladı***
- ***qızılbaş əyanlarının əsas hissəsi Şah Məhəmməd Xudabəndədən üz döndərdi***
- ***Əmirlərin çoxu Xorasanda Abbas Mirzəni taxta oturdan qiyamçıların tərəfinə keçdi***
- ***Bütün Azərbaycan ərazisi Osmanlı ordusu tərəfindən işğal olundu***

**QEYD:** Səfəvilər dövlətində mərkəzi hakimiyyətə qarşı qiyamların baş verməsi 1547 və 1586-cı ildə tarixi üçün oxşar cəhəti təşkil edir.

Osmanlıların Azərbaycana irəlləyişini ***Özbək hakimlərinin Xorasana basqınları*** asanlaşdırdı. Beləliklə, **1586-1590-cı illərdə bütün Azərbaycan ərazisi** Sultan III Muradın ordusu tərəfindən işğal olundu. **B**ütün Azərbaycanın Sultan III Muradın ordusu tərəfindən işğal olunmasına aşağıdakı amillər şərait yaratmışdı:

- Həmzə Mirzənin öldürülməsindən sonra mərkəzi hakimiyyətin zəifləməsi
- Səfəvilər dövlətindəki ağır daxili vəziyyəti, ölkədə özbaşınalıq, hərcimərciliyin hökm sürməsi
- Qızılbaş əyanlarının əsas hissəsinin Şah Məhəmməd Xudabəndədən üz döndərməsi
- Özbək hakimlərinin Xorasana basqınları

Yeni Səfəvi şahı **I Abbas (1587-1629)** sultan III Muradla sülh danışıqlarına başlayaraq yerdə qalan əraziləri əldə saxlamaq üçün sülhün ağır şərtlərini qəbul etməli oldu**. 1590-cı ildə İstanbul sülhünün** imzalanması ilə II Səfəvi-Osmanlı müharibəsi başa çatdı. İstanbul sülhünün ***şərtlərinə əsasən:***

1. **Azərbaycan ərazisi Səfəvi və Osmanlı dövlətləri arasında bölündü**
2. **Şirvan, Qarabağ, Sərab, Marağa, Təbriz və onların qərbində yerləşən torpaqlar Osmanlılara verildi**
3. **Şərqi Gürcüstan və İranın bəzi qərb vilayətləri Osmanlı imperiyasının tərkibinə qatıldı**
4. **Qaradağ, Xalxal, Ərdəbil və Talış (Lənkəran) vilayətləri Səfəvilərdə qaldı**

Beləliklə, 1590-cı il İstanbul sülhü nəticəsində Azərbaycanın böyük hissəsi osmanlılara verildi.

| | | | |
|---|---|---|---|
| I Təhmasibin Şirvana ikinci dəfə yürüş etməsi | **1547** | **1562** | Moskva şirkətinin nümayəndəsi A.Cenkinsonu Azərbaycana göndərməsi |
| Sultan I Süleymanın Azərbaycana üçüncü yürüşü | **1548** | **1565** | Şah I Təhmasibin sənətkarlardan və tacirlərdən alınan tamğa vergisini ləğv etməsi |
| Həmədan döyüşü. Əlqas Mirzənin qoşununun darmadağın edilməsi | **1548** | **1572-1573** | Təbrizdə Şah I Təhmasibin hakimiyyətinə qarşı xalq üsyanı baş verməsi |
| Hakimiyyət uğrunda mübarizədə II İsmayılın qələbə qazanması | **1576** | **1581** | Krım türklərinin Azərbaycana dördüncü yürüşü |
| Səfəvilər dövlətində saray çevrilişi baş verməsi | **1577** | **1581** | Şabranla Şamaxı arasında döyüş. Krım türklərini və osmanlıların məğlub edilməsi |
| Osmanlının Van hakimi Xosrov paşanın kürd tayfalarının qiyamını qaldırması | **1577** | **1582** | Sinan paşanın sülh bağlamaq məqsədi ilə İstanbula gəlməsi |
| Şah Məhəmməd Xudabəndənin hakimiyyəti | **1578-1587** | **1582** | Osman paşanın Şirvanı ikinci dəfə tutması |
| Çıldır döyüşü. Qızılbaşların məğlub olması | **1578** | **1582** | Sultan III Muradın Fərhad paşanı Şərqə yürüşünün rəhbəri təyin etməsi |
| Qanıx (Alazan) döyüşü. Qızılbaşların xeyli qənimət ələ keçirməsi | **1578** | **1583** | "Məşəl savaşı". Qızılbaşların məğlub olması |
| Krım türklərinin Azərbaycana birinci yürüşü | **1578** | **1585** | Sultan III Muradın Özdəmir oğlu Osman paşanı Azərbaycana göndərməsi |
| Mollahəsənli döyüşü. Krım xanı Adil Gərayın qoşununun darmadağın edilməsi | **1578** | **1585 dekabr** | Sufiyan döyüşü. Qızılbaşların məğlub olması |
| Məhəmməd Gərayın başçılığı ilə Krım türklərinin Azərbaycana ikinci yürüşü | **1579** | **1586** | Həmzə Mirzənin türkmən və təkəli əmirlərinin qiyamını yatırması |
| Sultan III Muradın Sinan paşanı Azərbaycana göndərməsi | **1580** | **1586** | Qarabağda Həmzə Mirzənin sui-qəsd nəticəsində qətlə yetrilməsi |
| Krım türklərinin Azərbaycana üçüncü yürüşü | **1580** | **1586-1590** | Bütün Azərbaycanın Sultan III Muradın ordusu tərəfindən işğal olunması |

## Səfəvilər dövləti XVI əsrin sonlarında. I Şah Abbasın islahatları

### I Şah Abbasın hakimiyyətə gələn zaman Səfəvilər dövlətinin vəziyyəti

**1587-ci ildə** Məhəmməd Xudabəndə vəfat etdi. Bu zaman ***ustaclı*** və **şamlu** tayfalarından olan qızılbaşların **Xorasan qrupu Qəzvində** 16 yaşlı **Abbası** hakimiyyətə gətirdilər. XVI əsrin sonlarında, Şah I Abbasın hakimiyyətə gəlməsi ərəfəsində Səfəvilər dövlətinin vəziyyəti aşağıdakı kimi idi:

- ***Azərbaycan Səfəvi dövləti demək olar ki, tənəzzülə uğrayırdı, daxili ziddiyətlər son həddə çatmışdır.***
- ***Qızılbaş əyanlarının Xorasan və İsfahan qrupu arasında hakimiyyət uğrunda mübarizəsi güclənmişdir.***
- ***Dövlət inkişaf etmiş iqtisadi rayomlarından və güclü hərbi potensianalından məhrum edilmişdir.***
- ***Qaradağ, Ərdəbil, Lənkəran istisna olmaqla bütün Azərbaycan Osmanlılar tərəfindən tutulmuşdur.***
- ***Azərbaycan və fars etnik ünsürləri dövlətin idarə işlərində üstünlük əldə etmək üçün bir biri ilə mübarizə aparırdılar (ümumən fars etnik ünsürləri feodal zümrəsində ikinci dərəcəli yer tuturdular).***
- ***Kəndlilərdən və şəhər sənətkarlarından toplanan vergi və mükəlləfiyyətlər ümumi narazılığı artırır, dövlətin bünövrəsini laxladırdır.***

### I Şah Abbasın hərbi islahatları

Şah I Abbas hakimiyyətə gələndən sonra ***hərbi-inzibati islahat*** keçirdi. Şah I Abbas islahat keçirməkdə məqsədi bunlar idi:

1. ***Səfəvilərin itrilmiş ərazisini geri qaytarmaq.***
2. ***Səfəvilər dövlətinin sarsılmış qüdrətini bərpa etmək.***

Şah Abbasdan öncə qızılbaş ordusunda ***daimi nizami hissələr*** yox idi, ***odlu silahlardan (top və tüfəngdən)*** geniş istifadə edilmirdi. Şah Abbas bu sahədə əsaslı tədbirlər həyata keçirdi. Şah I Abbasın ***hərbi islahatına*** əsasən:

- ***Qızılbaşların təkbaşına silah gəzdirmək hüququ ləğv edildi.***
- ***Qızılbaşlarla yanaşı başqa tayfalara da qoşuna daxil olmaq hüququ verildi.***
- ***Qoşunun tayfa müxtəlifliyi prinsipi əsasında təşkil edilməsinə başlanıldı.***
- ***Azərbaycan türklərindən ibarət qızılbaş süvari dəstələri yenidən bərpa edildi.***
- ***Müxtəlif dərəcəli qoşun növləri yaradıldı.***
- ***Odlu silahla təchiz edilmiş 44 min nəfərlik güclü nizami ordu yaradıldı.***

Ümumiyyətlə, Səfəvi ordusu ***qızılbaşlardan ibarət süvarilərdən, xüsusi qvardiyadan (qulamlardan), tüfəngçilərdən*** və ***artilleriyadan*** ibarət idi:

1. ***Qızılbaşlar***. Əsasən süvarilərdən ibarət olmaqla **XVII əsr** boyu Səfəvi qoşununda üstünlük təşkil edirdilər. Onların sayı **200 min** nəfərə çatırdı ki, yalnız 60 min nəfəri döyüşə gedirdi.
2. ***Qulamlar***. Səfəvilər dövlətində ***gürcü, çərkəz, osetin*** və digər ***xristianlardan*** toplanıb islamlaşdırılaraq xüsusi rejimlə tərbiyə olunan qvardiya idi (şahın şəxsi qıvardiyası hesab edilən xüsusi mühafizə dəstəsi ***çərik*** adlanırdı).
3. ***Tüfəngçilər.*** Müxtəlif vilayətlərdən əhalinin ***yoxsul təbəqəsindən*** seçilir və sayı 12 minə çatırdı.
4. ***Artilleriya – topçular.*** I Şah Abbasın təşkil etdiyi ordunun 500 səhra opu var idi.




### I Şah Abbasın inzibati islahatları

I Şah Abbasın inzibati islahatlarına əsasən:

- Azərbaycanın cənub-şərq vilayətləri **Qəzvinə** tabe edildi
- **1593-cü ildə** vahid ***Azərbaycan bəylərbəyiliyi*** yaradıldı
- **1598-ci ildə** Səfəvilər dövlətinin paytaxtını **İsfahana** köçürüldü
- **Ərdəbil şəhəri** xüsusi idarəetmə hüququnu saxladı

Azərbaycan bəylərbəyiliyinin ərazisi ***Qızılüzən və Kür çayları arasında yerləşən geniş ərazini*** əhatə edirdi. Bura ***Zəncan, Xalxal, Ərdəbil, Qaracadağ, Lənkəran vilayətləri*** daxil idi. 1595-ci ildə Azərbaycan bəylərbəyiliyinin 10 min daimi qoşunu var idi və ***Azərbaycan qoşunu*** adlanırdı. Beləliklə, ***"Şah Abbas Azərbaycanın bütövlüyünü, qızılbaşların himayəsindəki ərazidə onun vüqarlı adını qorudu, onun Səfəvilər dövlətinə mənsub olması fikrini sönməyə qoymadı"***.

I Şah Abbasın Səfəvilər dövlətinin paytaxtını Qəzvindən İsfahana köçürməsi ***nəticəsində:***

- ***Səfəvilər dövlətində başqa etnik nümayəndələr artdı.***
- ***İran əyanlarının sarayda və dövlət aparatında nüfuzu qüvvətləndi.***

***Azərbaycan türkləri*** I Şah Abbasın dövlətin paytaxtını İsfahana köçürməsindən narazı qalsalar da, yeni paytaxta **Qaradağdan** və **Qəzvindən** çoxlu Azərbaycan türkləri köçüb gələrək burada ***"Abbasabad" adlı*** xüsusi məhəllə saldılar.

**Səfəvilər dövlətinin paytaxtları**




### I Şah Abbasın islahatlarının nəticələri

I Şah Abbasın islahatları ***nəticəsində:***

- ***Mərkəzi hakimiyyət son dərəcə qüvvətləndi.***
- ***Ölkədə İran etnik ünsürünün rolu kəskin surətdə artdı və qızılbaş əyanlarının qüdrəti sarsıldı.***
- ***Ölkə daxilində siyasi sabitlik bərpa edildi və əhsuldar qüvvələr yenidən canlandı.***
- ***Səfəvilər dövləti hərbi-siyasi baxımdan möhkəmləndi və keçmiş qüdrəti bərpa edildi.***
- ***Azərbaycan dövlətinin müstəqillik ənənələrini qoruyub saxladı.***

Ümumiyyətlə, I Şah Abbas hərbi-köçmə qızılbaş əyanlarının müqavimətini qıraraq daha çox ***oturaq*** və ***tacir-sənətkar təbəqəsinə*** arxalandı, özünü ***qədim İran şahlarına bənzətməyə*** başladı. Lakin, Şah Abbasın bu tədbirlərindən sonra da qızılbaş əmirləri Səfəvilər dövlətində əhəmiyyətli mövqeləri əllərində saxlaya bildilər. Azərbaycan yenə də imperiya tərkibində mühüm ölkə olaraq qaldı. Bunu aşağıdakı faktlar da sübut edir:

- ***Azərbaycan vilayətinə Qızılbaşlar hökmdar təyin edilirdi.***
- ***bütün Səfəvi ordusunun ali baş komandanı vəzifəsini Qızılbaşlar yerinə yetirirdilər.***
- ***Azərbaycan dili orduda və şah sarayında hakim mövqe tuturdu.***
- ***Səfəvi şahları və saray xidmətçiləri Azərbaycan dilində danışırdılar.***

**Şah I Abbasın islahatları**

| | |
|---|---|
| ***Məqsədi*** | Səfəvilərin itrilmiş ərazisini geri qaytarmaq, Səfəvilər dövlətinin sarsılmış qüdrətini bərpa etmək |
| ***Sahələri*** | Hərbi və inzibati islahatlar |
| ***Əhəmiyyəti*** | Azərbaycanın bütövlüyünü, qızılbaşların himayəsindəki ərazidə onun vüqarlı adı qorundu, onun Səfəvilər dövlətinə mənsub olması fikrini sönməyə qoymadı |
| ***Nəticəsi*** | Mərkəzi hakimiyyət qüvvətləndi, ölkədə İran etnik ünsürünün rolu artdı, qızılbaş əyanlarının qüdrəti sarsıldı, siyasi sabitlik bərpa edildi, məhsuldar qüvvələr yenidən canlandı, dövlət hərbi-siyasi baxımdan möhkəmləndi və keçmiş qüdrətini bərpa etdi, müstəqillik ənənələr qoruyub saxladı |

## XVIII əsrin birinci yarısında yeni Səfəvi Osmanlı müharibələri

### XVIII əsrin əvvəllərində I Şah Abbasın xarici siyasəti

**XVI əsrin sonlarında** Səfəvilər dövlətinin xarici siyasətinin qarşısında ***üç mühüm vəzifə*** dururdu:

1. **Şimal-şərqdə Şeybanilər dövlətini məğlub edərək Xorasan vilayətini geri qaytarmaq.**
2. **1578-1590-cı illərin müharibəsində Osmanlıların işğal etdiyi Azərbaycan torpaqlarını geri qaytarmaq.**
3. **İran körfəzində Portuqaliyanın hegemonluğuna son qoymaq və Hind okeanına çıxış əldə etmək.**

I Şah Abbas **1599-cu ildə** Şeybaniləri məğlub edərək ***Xorasan vilayətini yenidən Səfəvilər dövlətinin tərkibinə qatdı*** və öz təsirini ***Məvərannəhrə*** yaydı.

I Şah Abbas Osmanlılar tərəfindən işğal olunmuş torpaqları geri qaytarmaq üçün hərbi-inzibati islahatlar keçirdikdən sonra Avropa dövlətləri ilə, xüsusilə **İngiltərə, Fransa, İspaniya, Roma papası** və **Rusiya** ilə əlaqələr yaratmaq üçün danışıqlara başladı**. 1603-cü ildə** Almaniya səfiri **Georgi Tektander** Təbrizə gəldi. Almaniya səfiri Georgi Tektanderin Təbrizə gəlməkdə məqsədi ***Osmanlı imperatorluğuna qarşı əməliyyatlarda Səfəvilərlə hərbi ittifaq bağlamaq*** idi. İran körfəzinin Portuqaliyalıların əlindən almaq üçün isə **İspaniya** Səfəvilər dövlətinə kömək etməyi vəd edirdi. Osmanlıların Azərbaycandan çıxarılmasında **Rusiya** da maraqlı idi. Çünki ***Osmanlıların Azərbaycanın Xəzəryanı bölgələrini əldə saxlaması Volqa-Xəzər yolu ilə ticarətdə müəyyən əngəl törədirdi.***

## III Səfəvi-Osmanlı müharibəsinin başlaması. I Şah Abbasın "böyük sürgün" siyasəti

**1603-cü ildə** Səfəvi-Osmanlı müharibəsinin yeni mərhələsi başladı. **1603-cü il sentyabrın 14-də** I Şah Abbas Osmanlı hakimiyyətində olan ***Azərbaycan ərazilərini azad etmək məqsədilə*** 15 minlik qoşunla **Təbrizə** tərəf hərəkətə başladı. Səfəvi ordusu Təbrizə yaxınlaşarkən şəhər əhalisi ***Osmanlı hakimiyyətinə qarşı üsyan*** qaldırdı. Nəticədə, **1603-cü il oktyabrın 21-də** üsyançılar və Səfəvi ordusunun **Təbriz şəhərinə** hücumu ***nəticəsində:***

- Şah Abbas Osmanlılar üzərində ***ilk qələbəsini*** qazanaraq **Təbrizi** ələ keçirdi.
- Bununla da Azərbaycanın ***cənub vilayətlərinin*** taleyi həll olundu.

Bu qələbədən sonra Səfəvi qoşunu Azərbaycanın ***şimalına*** irəlilədi. Osmanlı işğalı ərzində dağıdılmış **Ordubad əhalisi** şah qoşununun gəlişini gözləmədən ***osmanlılara qarşı üsyan*** qaldırdı. **Hacı Qəssab** şəhəri zəbt etmək haqqında şahdan xüsusi göstəriş aldı. Beləliklə, əhalinin köməyi ilə Ordubad geri alındı. Ordubad əhalisinin ***Osmanlı hakimiyyət orqanlarına qarşı üsyan qaldırdığı üçün*** Şah Abbas baş vəziri **Hatəm bəy Ordubadinin** xahişi ilə ***ordubadlılar bütün dövlət vergilərindən*** azad edildilər.

**1603-cü ilin payızında** I Şah Abbas **Culfanı** və **Naxçıvanı** tutduqdan sonra İrəvan qalasını ələ keçirməyi qərara aldı. İrəvan qalası **1603-cü il noyabrında** mühasirəyə alınsa da, **1604-cü ilin avqustunda** tutuldu . Çuxursəd (İrəvan) vilayətinin hakimi vəzifəsinə **Əmirgünə xan Qacar** təyin edildi. **Maqsud Sultan Kəngərli** isə Naxçıvan hakimi təyin olundu. Bu zaman, Şah Abbas **Ciqaloğlu Sinan paşanın** komandanlığı altında Osmanlı ordusunun Azərbaycana yürüş (1604) xəbərini alaraq Təbriz istiqamətində geri çəkildi və Osmanlılara qarşı Səfəvilərin ənənəvi ***"yandırılmış torpaq"*** taktikasını tətbiq etdi. Bu məqsədlə I Şah Abbas ***"Arazın sol sahilini dağıtmaq və əhalisizləşdirmək; bütün azərbaycanlıları köçürmək, ərzaq və ələf nə varsa götürmək, qalanını isə məhv edib yandırmaq" haqqında fərman*** verdi (1604). Bununla da Cənubi Qafqazda yaşayan azərbaycanlıların və başqa xalqların zorla köçürülməsinə başlandı. Şah fərmanına uyğun olaraq **Naxçıvan, İrəvan, Culfa** və.b bölgələr yandırılaraq onların əhalisi zor gücünə **İsfahana, Mazandarana** və **İranın digər vilayətlərinə** köçürüldü. Bu zorakı köçürmə tədbiri tarixşünaslıqda ***"böyük sürgün"*** siyasəti adlanır.

Azərbaycanlıları öz doğma yerlərindən köçürməsinin ***hərbi-strateji məqsəddən*** başqa, köçürmənin digər səbəbi ***Culfadan Avropaya gedən karvan yolu (tranzit ticarəti) Osmanlı imperatorluğu ərazisindən keçdiyindən I Şah Abbas Avropa-Asiya ticarət yolunu Səfəvi dövlətinin cənubuna, İran körfəzi limanlarına köçürmək və qızılbaş ipəyini Afrika ətrafından dənizlə Avropaya daşımaq istəyi*** idi. I Şah Abbas məhz bu məqsədlə, ***İran-ingilis ticarətinin*** mənafeyi üçün Culfa əhalisini **İsfahana**, Naxçıvan əhalisini isə **Dizağa (Qarabağa)** köçürdü.

Bu zaman Ciqaloğlu Sinan paşanın komandanlığı altında Osmanlı ordusu İrəvana və Naxçıvana kimi irəliləsə də, ***qızılbaşlar tərəfindən ərzaq ehtiyatının məhv edilməsi*** onların vəziyyətini ağırlaşdırdı və onlar Vana qayıtmağa məcbur oldu.

## 1605-1607-ci illərin hərbi əməliyyatları. Müharibənin yekunları

Şah Abbas Vanda olan Sinan paşanın qüvvələrini dəf etmək üçün ***Təbrizdə yeni qala tikdirdi*** və ***Allahverdi xanın başçılığı altında Vana - Ciqaloğlu Sinan paşa üzərinə 30 minlik qoşun göndərdi***. Bu qüvvələr Osmanlı qoşununu darmadağın etdi.

**1605-ci ilin mayında** Ciqaloğlu Sinan paşa 100 minlik qoşunla Azərbaycana ***ikinci dəfə*** yürüşə başladı. Osmanlı qoşununun Azərbaycana gələcəyindən xəbər tutan şah onların yolları üzərində olan bütün ərazinin əhalisini yenə köçürdü və ərzaq ehtiyatını məhv etdi. Osmanlı qoşunu Urmiya gölünün şimalında Təbrizin 6 fərsəxliyində yerləşən ərazidə qızılbaş ordusu ilə qarşılaşdı. **1605-ci ilin noyabrında** Ciqaloğlu ilə Səfəvilər arasında baş vermiş həlledici döyüş nəticəsində ***Osmanlılar sayca üstün olsalar da, Səfəvi qoşunu qələbə çaldı.***. Ciqaloğlu Sinan paşa Diyarbəkirə qaçdı və tezliklə orada vəfat etdi.

I Şah Abbas Sinan paşa üzərindəki qələbədən sonra, qışın sərt keçməsinə baxmayaraq, **Qarabağa** daxil olub, **Gəncəni** mühasirəyə aldı. Gəncədəki Osmanlı qarnizonu şəhərin təslim edilməsi təklifini qəbul etmədi. Ona görə də qalanın müdafiəsi dörd ay çəkdi, **1606-cı ilin iyununda Gəncə** azad edildi.

**1605-1606-cı ilin qışı** hər iki tərəfin dağıdıcı fəaliyyəti nəticəsində Azərbaycanı və qonşu ölkələri aclıq bürüdü. Qarabağ kəndliləri taxıl əkib-becərə bilmədilər. Şah Qarabağa daxil olan kimi qoşunu ərzaqla təmin etmək üçün təcili tədbirlər gördü, ***şah Azərbaycanın digər bölgələrindən Qarabağa 20 min xalvar (7 min tona yaxın) taxıl gətirilməsi barədə xüsusi fərman verdi***. Gəncənin ardınca **Lori, Tiflis** və **Dumanisi qalaları** müqavimət göstərmədən təslim oldular.

I Şah Abbas ***Şirvanın və Dağıstanın tutulması ilə*** Qafqaz əməliyyatını mümkün qədər tez başa çatdırmağa çalışırdı. Şah Şirvandakı osmanlı hərbi hissəsinin yardım ala bilməməsindən istidadə edərək Şamaxını sülh yolu ilə təhvil verməyi türklərdən tələb etdi. Şahın təslim təklifi qəbul edilmədiyi üçün Şamaxı üzərinə hücum başlanıldı və şəhər mühasirəyə alındı. Şamaxı şəhəri mühasirədə olan vaxt **Bakı** və **Dərbənd əhalisi** osmanlılara qarşı üsyan qaldırdı.

Bakıda osmanlıların əleyhinə üsyan **1607-ci ilin yanvarında** başladı. Şəhər üsyan başçılarının əlinə keçdi və şah qərargahı ilə əlaqə yaradıldı. Bakıda baş vermiş üsyan Şah Abbası son dərəcə sevindirdi. Səfəvi hökmdarı üsyançıların əksəriyyətinə ***"hədiyyələr”***, Osmanlılardan ələ keçrilmiş qənimətlər göndərdi. Dərbənddə üsyançılar tərəfindən **1607-ci ilin martında** şəhərdə Osmanlı hakimiyyətinə son qoyuldu. I Şah Abbas ***göstərdikləri şücaətə görə Ordubad şəhəri*** kimi ***Dərbənd əhalisini də bütün dövlət vergilərindən*** azad etdi. Bu zaman Şamaxı şəhərinin mühasirəsi davam edirdi. **1607-ci ilin iyununda** Səfəvi hərbi hissələrinin şəhərə güclü hücumu nəticəsində Osmanlı hərbi hissələri təslim oldular və **Şamaxı** azad olundu. **Zülfüqar xan** Şirvana hakim təyin edildi. **Dərbənd** və **Şabranın** idarəsi **Çıraq Sultan Ustaclıya** tapşırıldı.

Beləliklə, **1603-1612-ci illərin** Səfəvi-Osmanlı müharibələrinin ***birinci mərhələsi (1603-1607)***:

- ***Səfəvilərin qələbəsi ilə*** başa çatdı, Osmanlı qoşunu Azərbaycandan tamamilə çıxarıldı.
- ***Azərbaycanın bütün ərazisi***, ***Şəqri Gürcüstan və qismən Dağıstan*** Səfəvilər dövlətinin tərkibiə qatıldı.

Bundan sonra I Şah Abbas Təbrizə qayıtdı və osmanlılarla sülh bağlamağa cəhd etdi. Səfəvi sarayı osmanlılarla sülh bağlamağa sonrakı illərdə də cəhd göstərdi. Osmanlı dövləti Azərbaycanın itirilməsi ilə hesablaşmayaraq hər vəchlə 1590-cı il sülhünün şərtlərini saxlamağa çalışırdı. Uzun tərəddüddən sonra **1612-ci ilin oktyabrın 17-də** Osmanlı dövləti ilə (Sultan Əhmədlə) Səfəvi dövləti arasında **Sərab sülhü** imzalandı. Sərab sülhünün şərtlərinə əsasən:

1. **1555-ci il Amasiya sülhünün şərtləri bərpa olundu.**
2. **Səfəvilər rusların tikdiyi Terek qalasının dağıdılması barədə sultanın əmrinə mane olmamalı idilər.**
3. **Osmanlı dövləti Azərbaycanın, Şərqi Gürcüstanın, habelə Şərqi Anadolunun Səfəvi dövlətinə mənsub olmasını rəsmən tanıdı.**

**QEYD:** Osmanlı dövləti Səfəvilərin rusların tikdiyi Terek qalasının dağıdılması barədə sultanın əmrinə mane olmamaq şərtini ***Səfəvilərlə Rusiya arasında mümkün ittifaqın yaranmasına mane olmaq*** məqsədi ilə irəli sürmüşdür.

**I Şah Abbasın 1603-1612-ci illərdə Osmanlılardan azad etdiyi ərazilər**



**Səfəvilərin 1603-1612-ci illərdə hərbi əməliyyatların birinci mərhələsində əldə etdiyi ərazilər**




## 1616-1618-ci illərin Səfəvi-Osmanlı müharibəsi. Mərənd sülhü

1612-ci ildə iki dövlət arasında sülh müqaviləsi bağlansa da, bu müqavilə uzun sürmədi, 1616-cı ildə Səfəvi-Osmanlı müharibəsi yenidən başladı. I Şah Abbas ***Şimali Qafqaz xalqlarını itaətə gətirmək*** üçün **1613-cü ilin oktyabrında** böyük ordu ilə Azərbaycanın şimal vilayətlərinə və Gürcüstana yürüşə başladı. Yürüş uğurla başa çatdı. Cənubi Qafqazdakı bu hərbi əməliyyatlardan ciddi narahat olan **Sultan I Əhməd (1603-1617)** 1612-ci il müqaviləsinin şərtlərini pozaraq, **1616-cı ilin yazında** Səfəvilərə qarşı müharibəyə başladı və Təbrizə hücum etdi, İrəvan qalası mühasirəyə alındı. Lakin ***qışın sərt keçməsi, xəstəlik və ərzaq qıtlığı*** Osmanlı qoşununu geri çəkilməyə məcbur etdi.

**1618-ci ilin yazında** osmanlılar **Diyarbəkrdən** Azərbaycana doğru irəlilədilər. Osmanlılarla birlikdə Krım xanı **Gəray xanın** başçılığı ilə 15 minlik qoşun da Azərbaycana yürüşə başladı. **1618-ci ildə** Sərab vilayətində Osmanlılarla səfəvilər arasında **Sınıq körpü adlı yerdə döyüşü** baş verdi. Sınıq körpü döyüşü nəticəsində ***Osmanlı qoşunu məğlub olaraq geri çəkildi***. Sınıq körpü məğlubiyyətindən sonra Osmanlılar sülh danışıqlarına başladılar. **1618-ci ilin sentyabrında Mərənddə** I Şah Abbasla Osmanlı sərkərdəsi **Xəlil paşa** arasında sülh müqaviləsi imzalandı. Osmanlı sultanı **II Osman (1618-1622)** Səfəvi-Osmanlı sülh müqaviləsini təsdiq edərək Avropa səfərinə çıxdı. Bu sülhün şərtləri 1612-ci il Sərab sülhündən elədə fərqi yox idi.



## 1622-1639-cu illərin Səfəvi-Osmanlı müharibəsi. Qəsri-Şirin sülhü

**XVII əsrin 20-ci illərində** Osmanlı imperiyasında hərc-mərcilik başlandı, yeniçərilər sultanları hakimiyyətdən devirərək Sultan **IV Muradla (1623-1640)** əvəz etdilər. ***Osmanlı imperatorluğunda hərci-mərciliyin başlanması*** XVII əsrin 20-ci illərində səfəvilərin osmanlılarla müharibəyə başlamasına imkan verdi. Bundan istifadə edən I Şah Abbas 1618-ci il Səfəvi-Osmanlı sülh müqaviləsinin şərtlərini pozaraq **1622-1623-cü illərdə Bağdadla birlikdə İraqı** ələ keçirdi.

**1629-cu ildə** I Şah Abbasın ölümündən sonra Səfəvi taxtına onun nəvəsi **Şah I Səfi (1629-1642)** gətrildi. I Şah Səfi:

- Azərbaycanın idarəsində xeyli ***dəyişiklik*** etdi
- **Rüstəm xanı** Azərbaycan bəylərbəyi və Təbriz hakimi təyin etdi.

I Şah Səfinin hakimiyyəti dövründə:

- Səfəvi-Osmanlı müharibəsini uğurla davam etdirildi.
- **1634-cü il**də Osmanlılar **İrəvanı** və **Təbrizi** ələ keçirsə də tezliklə ölkəni tərk etdilər.
- **1635-ci ildə İrəvan qalasını** Osmanlılardan azad edildi.
- **1638-ci il**də **Bağdad şəhəri** Osmanlılar tərəfindən tutuldu.
- Səfəvilər dövləti ilə Osmanlılar arasında **Qəsri-Şirin sülhü** imzalandı.

Osmanlı sultanı IV Murad itrilmiş torpaqlarla barışmayaraq **1634-cü ilin yayında** böyük qoşunla hücum edərək **İrəvanı** və **Təbrizi** ələ keçirdi. Lakin ***ərzaq*** və ***yem çatışmazlığı, qışın yaxınlaşması, Səfəvi qoşununun hücum təhlükəsi*** onları Təbrizdən çıxmağa məcbur etdi. Ümumiyyətlə, bu səbəblərdən **XVII əsrin birinci otuz ilində** Osmanlılar işğal etdikləri Azərbaycan torpaqlarında möhkəmlənə bilmədilər. Bundan sonra Şah I Səfi İrəvan qalasını **1635-ci ildə** azad etdi. **1637-1638-ci illərin** hərbi əməliyyatları yenə də **İraqa** keçdi. **1638-ci ildə Bağdad şəhər** Osmanlılar tərəfindən tutuldu.

**1639-cu il mayın 17-də** Qəsri-Şirində Səfəvi elçisi **Sarı xan** Osmanlı nümayəndəsi **Qara Mustafa paşa** ilə sülh sazişi imzaladı. Qəsri-Şirin sülh müqaviləsinin şərtlərinə əsasən:

1. **Səfəvi-Osmanlı müharibəsinə son qoyuldu.**
2. **Ərəb İraqı osmanlılara verildi.**
3. **Zəncir qalasından şərqdəki torpaqlar Səfəvilərə verildi.**
4. **Səfəvilər Van və Qars qalalarına, həmçinin Ahalsıxa hücüm etməyəcəklərinə dair təminat verdilər.**

Beləliklə, Qəsri-Şirin sülh müqaviləsinin imzalanması nəticəsində:

- XVIII əsrin ikinci rübünə kimi iki dövlət arasındakı münasibətlər nizama salındı.
- Azərbaycanda sakitlik qismən bərqərar edildi
- Şəhərlərin bərpası, iqtisadiyyatın inkişafı üçün şərait yarandı

| Səfəvilərlə Osmanlılar arasında bağlanmış sülh lüqavilələri | |
|---|---|
| **Amasiya sülhü 1555 29-may** | Qərbi Gürcüstan, Osmanlıların ixtiyarına keçdi, Gürcüstanın Şərq vilayətləri isə Səfəvilərdə qaldı |
| **I İstanbul sülhü 1590** | Azərbaycan ərazisi ilk dəfə Səfəvi və Osmanlı dövlətləri arasında bölündü, Şirvan, Qarabağ, Sərab, Marağa, Təbriz və onların qərbində yerləşən torpaqlar osmanlılara verildi, Şərqi Gürcüstan, İranın bəzi qərb vilayətləri Osmanlı imperiyasının tərkibinə qatıldı, Qaradağ, Xalxal, Ərdəbil və Talış vilayətləri Səfəvilərdə qaldı |
| **Sərab sülhü 1612 17 oktyabr** | 1555-ci il Amasiya sülhünün şərtləri bərpa olundu, Osmanlı dövləti Azərbaycan, Şərqi Gürcüstan, habelə Şərqi Anadolunun Səfəvi dövlətinə mənsub olmasını tanıdı, Səfəvilər rusların tikdiyi Terek qalasının dağıdılması barədə sultanın əmrinə mane olmamalı idilər |
| **Mərənd sülhü 1618 sentyabr** | Səfəvi-Osmanlı müharibəsi başa çatdı |
| **Qəsri şirin sülhü 1639 17 may** | Sülhün şərtlərinə əsasən Səfəvi-Osmanlı müharibəsinə son qoyuldu, Ərəb İraqı osmanlılarda, Zəncir qalasından şərqdəki torpaqlar Səfəvilərdə qaldı, Səfəvilər Van və Qars qalalarına, həmçinin Ahalsıxa hücüm etməyəcəklərinə dair təminat verdilər. Qəsri-Şirin sülhü ilə 1555-ci il Amasiya sülhünün şərtləri təsdiq olundu |

## Cəlalilər hərəkatı. Koroğlu

**XVI əsrdə** Azərbaycanda ***yerli feodalların çoxu*** O***smanlı hakimiyyətini tanıyaraq onların hakimiyyətini müdafiə etdiyi halda***, **XVII əsrin əvvəllərində** ***Səfəvilərə doğru dönüş etdilər.*** Osmanlı idarəçiliyi dövründə Azərbaycanda onlara qarşı yeni mübarizə dalğası başladı və bu hadisə tarixə **Cəlalilər hərəkatı** adı altında daxil oldu. Cəlalilər hərəkatı **XVI əsrin 90-cı illərində Şərqi Anadoluda** başladı və **XVII əsrin əvvəllərində Azərbaycana və qonşu ölkələrə** yayıldı. Cəlaililər hərəkatının səbəbləri aşağıdakı amillərlə bağlı idi:

- ***Kütləvi narazılıq, aclıq və soyğunçuluq***
- ***Dəhişətli dağıntılar və iqtisadi tənəzzül***

Cəlalilər hərəkatının iştirakçıları əsasən aşağıdakı qüvvələrdən təşkil edilmişdir:

- ***Qərbi Azərbaycan kəndlilərinidən***
- ***Osmanlı qaçqınlarından***
- ***Şəqri Anadolu qaçqınlarından***
- ***İraq qaçqınlarından***

Cəlalilərin ayrı-ayrı dəstələri, onlara qoşulmuş şəhər və kənd yoxsulları yerli feodallar üzərinə hücum edərək onların var dövlətlərini ələ keçiridilər.

I Şah Abbasın ***cəlairilərin gücündən Osmanlı dövlətinə qarşı*** mübarizədə istifadə etmək istəyirdi. Şah bunun üçün onları qulluğa aldı. Lakin Şah I Abbasa xidmət edən sıravi cəlalilər və onların başçıları ***şahdan gözlədikləri imtiyası əldə edə bilməməsi səbəbi ilə*** onların bir hissəsi **1610-cu ilin ortalarında Hacı Məhəmmədin** və **Qara Səidin** başçılığı ilə Səfəvilər dövlətinin sərhədlərini tərk etdilər. Azərbaycanda qalan dəstə isə Şaha sadiq qalaraq Böyük Divanın şəxsi xidmətçisi korpusu ilə birləşdi.

**XVII əsrin əvvəllərində** Azərbaycanda geniş yayılan Cəlalili dəstə başçılarından ən məşhuru ***Koroğlu*** idi. Xalq rəvayətinə görə, **Səlmas yaxınlığındakı Xarabaqala** Koroğlu tərəfindən tikilmişdir. Koroğlu ən çox Azərbaycanın **Xoy, Salmas** və **Naxçıvan ərazisində** fəaliyyət göstərmişdir. Cəlalilərin ayrı-ayrı dəsdə başçıları – **Dəli Həsən, Gizir oğlu Mustafa bəy, Kosa Səfər, Tanrı Tanımaz** və **Abaza paşa** xüsusilə fərqlənirdilər. **Dəli Həsən** Koroğlunun yaxın dostu və silahdaşı, **1602-ci ildə** Şərqi Anadoluda Cəlalilər hərəkatının rəhbəri, öz qardaşı Qara Yazıçının isə varisi idi. **Gizir oğlu Mustafa bəy** də Koroğlunun yaxın dostu və silahdaşı idi. Cəlalilərin müstəqil dəstələrlə çıxış edən 60 nəfərinin içərisində Gizir oğlu adı şərəfli yer tuturdu.

| | | | |
|---|---|---|---|
| Xorasan qrupunun Qəzvində Abbası hakimiyyətə gətirməsi ← | **1587** | **1607** | → Bakı və Dərbənd əhalisinin osmanlılara qarşı üsyan qaldıraraq osmanlıları qovması |
| II Səfəvi-Osmanlı müharibəsinin başa çatması. İstanbul sülhü ← | **1590** | **1607 iyun** | → Səfəvilərin Şamaxını azad etməsi |
| I Şah Abbas tərəfindən vahid Azərbaycan bəylərbəyiliyinin yaradılması ← | **1593** | **1603-1607** | → III Səfəvi-Osmanlı müharibəsinin birinci mərhələsi |
| Səfəvilər dövlətinin paytaxtının Qəzvindən İsfahana köçürülməsi ← | **1598** | **1610** | → Cəlalilərin bir hissəsinin Səfəvilər dövlətinin sərhədlərini tərk etməsi |
| I Şah Abbasın Şeybaniləri məğlub edərək Xorasan vilayətini tutması ← | **1599** | **1612 17 oktyabr** | → Sərab sülhü. Amasiya sülhünün şərtlərinin bərpa olunması |
| Dəli Həsənin Şərqi Anadoluda Cəlalilər hərəkatına rəhbərlik etməsi ← | **1602** | **1613 oktyabr** | → I Şah Abbasın Azərbaycanın şimal vilayətlərinə və Gürcüstana yürüş etməsi |
| Almaniya səfiri Georgi Taktanderin Səfəvi sarayına gəlməsi ← | **1603** | **1615-1616** | → Dəngi vilayətinin kəndlilərinin və Məlik Pirinin Səfəvilər əleyhinə üsyan qaldırması |
| III Səfəvi-Osmanlı müharibəsi dövrü ← | **1603-1612** | **1618** | → Gəray xanın başçılığı ilə Krım türklərinin Azərbaycana yürüş etməsi |
| I Şah Abbas osmanlılar üzərində ilk qələbə qazanaraq Təbrizi azad etməsi ← | **1603 oktyabr** | **1618** | → Sınıq körpü döyüşü. Osmanlıların məğlub olaraq geri çəkilməsi |
| Ordubad əhalisinin Hacı Qəssabın başçılığı ilə osmanlılara qarşı üsyan qaldırması ← | **1603** | **1618 sentyabr** | → Mərənd sülhü. IV Səfəvi-Osmanlı müharibəsinin başa çatması |

| | | | |
|---|---|---|---|
| I Şah Abbasın Ordubad, Culfa və Naxçıvanı osmanlılardan azad etməsi | **1603** | **1622-1623** | I Şah Abbasın 1618-ci il sülhünü pozaraq Bağdadla birlikdə İraqı ələ keçirməsi |
| I Şah Abbasın İrəvan qalasını azad etməsi | **1604 avqust** | **1622-1639** | V Səfəvi-Osmanlı müharibəsi dövrü |
| Ciqaloğlu Sinan paşanın Azərbaycana birinci yürüşə başlaması | **1604** | **1634** | Osmanlıların İrəvanı və Təbrizi ələ keçirməsi |
| I Şah Abbasın "böyük sürgün" siyasətini həyata keçirməsi | **1604** | **1635** | Şah I Səfinin İrəvan qalasını Osmanlılardan azad etməsi |
| Ciqaloğlu Sinan paşanın ordusunun ikinci dəfə Azərbaycana yürüşə başlaması | **1605** | **1638** | Bağdad şəhərinin Osmanlılar tərəfindən tutulması |
| I Şah Abbasın Gəncəni osmanlılardan azad etməsi | **1606** | **1639 17 may** | Qəsri-Şirin sülhü. Amasiya sülhünün şərtlərinin təsdiq olunması |

## Səfəvilər dövlətinin ictimai-iqtisadi həyatı və mədəniyyət (XVI əsr – XVII əsrin birinci yarısında)

### Səfəvilər dövlətinin siyasi quruluşu və idarəetmə sistemi

Səfəvilər dövləti ***Qaraqoyunlu*** və ***Ağqoyunlu dövlətlərinin*** ənənələrini davam etdirirdi. Şah I İsmayılın daxili siyasətinin əsas istiqamətlərindən birini ***mərkəzləşmiş dövlət yaratmaq ideyası*** təşkil edirdi. Səfəvilər dövləti dövrün mənbələrində ***Qızılbaş*** adı ilə tanınırdı. Səfəvilər dövlətinin idarəetmə quruluşu aşağıdakı kimi idi:

- ***Şah*** **-** dövlətin başında durur, qeyri məhdud hakimiyyətə malik idi, şiələrin ruhani başçısı hesab edilirdi, Səfəvilər dövlətində ən böyük torpaq sahibi sayılırdı Ş münbit və gəlirli torpaqlar şaha və onun sülaləsinə mənsub idi.
- ***Ali məclis*** - Şahın yanında fəaliyyət göstərən, məşvərətçi səslə dövlət aparatında yüksək mövqe tutan şəxslərdən və Azərbaycan tayfalarının ən nüfuzlu əmirlərindən ibarət olan ***Dövlət şurası*** idi
- ***Vəkil*** **–** Səfəvilər dövlətində şahdan sonra ***ikinci şəxs***, şahın dünyəvi və dini işlərdə tamhüquqlu ***müavini*** idi. Səfəvilər dövlətində vəkil vəzifəsi ilk dəfə Şah I İsmayılın tərbiyəçisi lələ **Hüseyn bəy Şamlya** həvalə edilmişdir.
- ***Əmir-ül-üməra*** - Səfəvilər dövlətində ordunun baş komandanı, başçısı idi.
- ***Qorçubaşı*** - Şahın Azərbaycan tayfalarının döyüşçülərindən ibarət olan və ***çərik*** adlanan xüsusi hərbi dəstəsinə rəhbərlik edirdi. Dövlətin hərbi qüvvələrinin əsasını ***Azərbaycan türklərindən ibarət xüsusi hərbi dəstələr*** və şaha tabe olan əlavə ***daimi qoşun*** təşkil edirdi.
- ***Vəzir*** **-** mülki işlərə başçılıq edir, əsasən maliyyə əməliyyatları ilə məşğul olur, mədaxil və məxaricə nəzarət edirdi
- ***Sədr*** – dini idarələrə başçılıq edirdi.
- ***Qazi*** – dövlətdə şəriətə əsaslanan məhkəmədə hakimlik edirdi.

Səfəvilər dövrünün idarəçilik sistemi Qaraqoyunlu və Ağqoyunlu idarəçilik sistemi arasında oxşar və fərqli cəhətlərə malik idi.

***Oxşar cəhətlər***:

- Hər üç dövlətdə ordunun baş komandanı vəzifəsini əmir-ül-üməra daşıyırdı.
- Hər üç dövlətdə vəzir maliyyə əməliyyatlarına başçılıq edirdi.
- Hər üç dövlətdə sədr dini işlərə başçılıq edirdi.
- Hər üç dövlətdə məhkəmə işləri şəriət qaydalarına əsaslanırdı.

***Fərqli cəhətlər:***

- Səfəvilər dövlətində dövləti şah, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində isə hökmdar idarə edirdi.
- Səfəvilər dövlətində ikinci şəxs vəkil, Qaraqoyunlu və Ağqoyunlu dövlətində isə əmir-ül-üməra sayılırdı.

**XVI əsrdə Azərbaycan Səfəvilər dövlətinin idarəetmə sxemi**






## Səfəvilər dövründə Azərbaycanın inzibati quruluşu

Səfəvilər dövründə Azərbaycan ərazisi ***bəylərbəyiliklərə***, onlar da ***mahallara*** bölünürdü. Bəylərbəyiliklər ***bəylərbəyilər*** tərəfindən idarə olunurdu. Bəylərbəyilər:

- Bəylərbəyilər yalnız Azərbaycan hərbi əyanları tərəfindən təyin edilirdilər
- Onlar öz məmurları tərəfindən əhalidən yığılan vergiləri xəzinəyə ödəyirdi
- Müəyyən miqdarda hərbi qüvvə saxlayırdılar
- Şahın əmri ilə hərbi yürüşlərdə iştirak etməyə borclu idilər
- Daxili işlərdə böyük müstəqilliyi var idi

**XVI əsrin birinci yarısında** Azərbaycan ərazisi inzibati cəhətdən üç bəylərbəyiliyə bölünürdü:

1. **Şirvan bəylərbəyiliyi (mərkəzi Şamaxı şəhəri)**
2. **Qarabağ bəylərbəyiliyi (mərkəzi Gəncə şəhəri)**
3. **Təbriz bəylərbəyiliyi (Cənubu Azərbaycan torpaqlarını əhatə edirdi)**

1578-1590-cı illərdəki Səfəvi-Osmanlı müharibəsində Azərbaycan torpaqlarının xeyli hissəsi Osmanlılar tərəfindən işğal edildiyi üçün **1593-cü ildə** I Şah Abbas yerdə qalan əraziləri birləşdirərək mərkəzi Təbriz şəhəri olan vahid Azərbaycan bəylərbəyiliyi yaratdı.

Səfəvilər dövlətində ***mahalları*** bəylərbəyiliklər tərəfindən təyin edilmiş ***naiblər,*** kəndləri ***kəntxudalar,*** şəhərləri isə ***kələntərlər*** idarə edirdilər. Şəhərlərdə asayişin qorunmasına ***darğa*** başçılıq edirdi və kələntərə tabe idi.

## Kənd təsərrüfatı. Torpaq mülkiyyəti formaları. Vergi və mükəlləfiyyətlər

**XVI əsr – XVII əsrin birinci yarısında** Azərbaycanda əhalinin başlıca məşğuliyyəti ***əkinçilik*** idi. Kənd əhalisi ***taxıl bitkiləri (buğda və arpa),*** bəzi yerlərdə isə ***çəltik*** əkirdi. Ölkənin təsərrüfat həyatında ***oturaq maldarlıq, bağçılıq*** və ***bostançılıq*** da mühüm yer tuturdu. ***Həmdullah Qəzvini*** və ***Övliya Çələbi*** Azərbaycanda ***yeddi növ pambıq*** yetişdirildiyi barədə məlumat vermişdilər.

Səfəvilər dövründə əvvəlki ***divani, xassə, vəqf*** və ***mülk*** torpaq mülkiyyəti qalırdı. Sadəcə bu dövrdə ***tiyul torpaq mülkiyyəti*** meydana gəldi**.** XV əsr – XVII əsrin birinci yarısında Səfəvilər dövlətində aşağıdakı torpaq mülkiyyət formaları mövcud idi:

- **Divan** – dövlətə məxsus torpaqlar idi.
- **Xass** – şah ailəsinə məxsus torpaqlar idi.
- **Vəqf** - dini idarələrə məxsus torpaqlar idi.
- **Mülk** – feodalların şəxsi torpaqlar idi.
- **Tiyul** – feodalların şərti torpaqlar idi.
- **Camaat (icma)** – kənd ismasının istifadə etdiyi torpaqlar idi.

İlk Səfəvi şahları ***mərkəzləşdirmə siyasəti*** yürüdərək irsi ***soyurqal*** torpaq sahibliyini məhdudlaşdırılmasına çalışır və torpaq mülkiyyətinin yeni forması olan - ***tiyul*** torpaqları paylayırdılar. Tiyul torpaq mülkiyyətinə aid xüsusiyyətlər bunlar idi:

- Torpaq sahibliyinin ***şərti forması*** idi.
- Tiyul sahibi ***tiyuldar*** adlanırdı və o, dövlətə xidmət etməyə borclu idi.
- Bu torpaqlardan toplanan məhsulun ***1/5-dən 1/10-nə qədəri*** xəzinəyə verilirdi.
- Tiyuldar ona verilən torpaqdan gələn gəlirin ***müəyyən hissəsini özünə götürmək*** hüququna malik idi.
- Tiyul yalnız ***şahın icazəsi ilə*** iris olaraq keçə bilərdi

**XVI əsrin ikinci yarısı – XVII əsrin birinci yarısında** ***camaat (icma) torpaqları*** **xəzinənin** və **feodalların** ixtiyarında idi. İcmanın başçısı hesab olunan ***ağsaqqal*** vergiləri müəyyən edir, toplayır, əvəzində isə məhsulun müəyyən hissəsini özünə götürürdü.

Səfəvilərin hakimiyyətinin ilk illərində əhalidən **35 növ vergi** alınır və çoxlu mükəlləfiyyətlər yerinə yetrilirdi. Kəndlilər torpaq sahibinə otlaqlardan istifadə əvəzində ***çobanbəyi***, bağlar üçün ***bağbaşı*** və.s vergilər verirdilər. Şah I Təhmasib ***vergi sistemini nizamlamaq üçün*** **1565-ci ildə** fərman verdi. ***Şah I Təhmasibin bu fərmanına əsasən, monqollar dövründən mövcud olan, sənətkarlardan və tacirlərdən alınan tamğa vergisi ləğv edildi***. Şah I Təhmasib tərəfindən tamğa vergisinin ləğv edilmsi Səfəvilər dövlətində ***sənətkarlığın*** və ***ticarətin inkişafına müsbət təsir göstərdi***.

## Şəhərlər. Sənətkarlıq

XVI əsrdə Azərbaycanda 50-dən artıq şəhər var idi. Bu dövrdə **Təbriz, Şamaxı, Bakı, Gəncə, Ərdəbil, Ərəş, Culfa, Bərdə, Naxçıvan, Marağa, Dərbənd** şəhərləri ***iqtisadi*** və ***siyasi-inzibati mərkəz*** hesab olunurdu.

**XVI əsr – XVII əsrin birinci yarısında Təbriz** Səfəvilər dövlətinin ***ilk paytaxtı*** və ***ən böyük şəhər*** idi. **1555-ci ildə** I Şah Təhmasib ***Osmanlı sərhəddindən uzaqda yerləşdiyi üçün*** Səfəvilər dövlətinin paytaxtını Təbrizdən **Qəzvinə** köçürdü. Paytaxtın köçürülməsindən sonra da Təbriz ən mühüm iqtisadi və mədəni mərkəz kimi qalırdı. Lakin, Səfəvilər dövlətinin ***paytaxtının Qəzvinə köçürülməsi*** və ***Səfəvi-Osmanlı müharibələri*** Təbriz şəhərinin sənətkarlıq və ticarət həyatına böyük zərbə vurdu və onun iqtisadiyyatını zəiflətdi. Burada istehsal olunan sənətkarlıq məhsulları Avropanın bir sıra ölkələrinə ixrac olunurdu. Təbriz ustalarının hazırladıqları ***xalça*** və ***bəzəkli parçalar*** indi dünyanın bir çox muzeylərində saxlanılır. Şah I Təhmasibin fərmanına əsasən, ***tamğa vergisi*** ləğv edildikdən sonra, Təbriz öz inkişafının yüksək səviyyəsinə çatdı.

**Şamaxı** Şirvanın iqtisadi və siyasi mərkəzi idi. ***Şirvan Səfəvilər dövlətinə birləşdirildikdən sonra*** Şamaxı şəhəri Şirvan bəylərbəyiliyinin paytaxtına çevrildi. **XVI əsrdə** ***Cənubi Qafqazda ipək istehsalı*** və ***ticarəti*** balıca olaraq **Şamaxıda** və **Ərəş** bölgəsində cəmləşmişdir. A.Cenkinson Şamaxını ***"gözəl şahlıq şəhəri"*** adlandırırdı. Burada 25 min nəfərə qədər əhali yaşayırdı.

**Bakıdan** xaricə dəniz yolu ilə ***müxtəlif mallar*** və ***neft*** göndərilirdi. XVI əsrin əvvəllərindən etibarən ***xüsusi imtiyazlara*** malik olan **Ərdəbil şəhəri** yenidən dirçəldi və Səfəvilər dövlətinin ***dini*** və ***mədəni mərkəzlərinə*** çevrildi. Səfəvi şahları şəhərin abadlığına xüsusi fakir verirdilər. Burada tikilmiş **Şeyx Səfi məqbərəsinə** ölkənin hər yerindən ibadətə gəlirdilər. **1536-cı ildə** Şah I Təhmasibin toxutdurduöu ***"Şeyx Səfi xalçası"*** hazırda **Londonun "Viktoriya və Albert" muzeyində** saxlanılır.

**Ərəş** ingilis tacirləri tərəfindən bütün ***Cənubi Qafqaz miqyasında ipəkçiliyin ən iri mərkəzi kimi*** qeyd edilir. A.Cenkinsonun məlumatına görə Ərəş bazarlarında 100 min funt müqabilində müxtəlif növ ipək almaq mümkün idi. XVI əsr Venetsiya səyyahı **Minadoi** yazırdı ki, Ərəşdə ***əla növ ağ ipək*** istehsal olunur.

**Culfa şəhəri** beynəlxalq ipək ticarəti yolunun üstündə yerləşirdi. Culfa tacirləri xam ipəyi istehsal olunduğu yerlərdən (Şamaxı, Ərəş və Gilandan) alaraq, **Qərbi Avropanın Venesiya, Amsterdam** və **Marsel kimi mühüm limanlarında, Suriya, Türkiyə** və **Hindistanda** satırdılar. **1581-ci ildə** Culfada olmuş ingilis taciri qeyd edirdi ki, şəhərdə 3 min ev, 15-20 min əhali vardı.

**XVI əsr– XVII əsrin birinci yarısında Naxçıvan, Əylis** və **Ordubad mühüm ticarət əhəmiyyəti olan şəhərlər** idi. Qarabağ bəylərbəyiliyinin mərkəzi olmuş **Gəncə** də Azərbaycanın ən iri şəhərləri sırasında idi. **Don Juan** adı ilə Avropada yaşayan tarixçi **Oruc Bəy Bayat** burada 50 min ailənin yaşadığını qeyd edir.

**Azərbaycan şəhərləri XVI əsr –XVII əsrin birinci yarısında**

| | |
|---|---|
| **Təbriz** | Səfəvilər dövlətinin ilk paytaxtı və ən böyük şəhər idi. Ustalarının hazırladıqları xalça və bəzəkli parçaları ilə məşhur idi |
| **Şamaxı** | Şirvanın iqtisadi və siyasi mərkəzi idi. Cənubi Qafqazda ipək istehsalı və ticarəti burada cəmləşmişdi |
| **Bakı** | Bir sıra ölkələrə dəniz yolu ilə müxtəlif mallar və neft göndərilirdi |
| **Ərdəbil** | XVI əsrdə xüsusi imtiyazlara malik olub yenidən dirçəldi və Səfəvilər dövlətinin dini və mədəni mərkəzlərindən birinə çevrildi |
| **Ərəş** | Cənubi Qafqaz miqyasında ipəkçiliyin ən iri mərkəzi idi. Burada əla növ ağ ipək istehsal olunur |
| **Çulfa** | Beynəlxalq ipək ticarəti yolunun üstündə yerləşirdi |

## Ticarət. Azərbaycanın xarici iqtisadi əlaqələri

XVI əsrin ticarət əməliyyatlarında başlıca əmtəə ***Azərbaycan ipəyi*** olmuşdur. Bu dövrdə Azərbaycan Avropa və Asiyanın bir çox ölkələri ilə geniş iqtisadi əlaqələrə malik idi. Rus dövləti ilə ticarətdə Səfəvilər ***Avropa tacirlərinin*** dövlətin ərazisində fəaliyyətinə geniş imkanlar yaradır, Avropa-Səfəvi ticarət mübadiləsinin inkişafına himayədarlıq edirdilər. Bəhs edilən dövrdə ingilislər Moskva dövlətinin icazəsi ilə Rus dövləti ərazisindən keçərək Azərbaycana, kəşfiyyat səfərləri etməyə başladılar.

**XVI əsr – XVII əsrin birinci yarısında Volqa-Xəzər ticarət yolu** Rusiya dövlətinin əsas ticarət arteriyası rolunu oynamağa başladı. Volqa-Xəzər ticarət yolunun mənimsənilməsində təşəbbüskarlığı öz üzərinə götürmüş ***ingilis burjuaziyası*** bu məqsədlə öncə Rus dövləti ərazisində ticarət mövqelərini möhkəmləndirməyə can atırdı. Volqa-Xəzər ticarət yolunun çıxış məntəqəsi **Moskva** şəhəri idi. Buradan tacirlər Moskva, Oka və Volqa çayları vasitəsilə **Həştərxana** gəlir, Həştərxana çatdıqdan sonra Xəzərin qərb sahilləri ilə gəmilərdə üzür, Dərbəndə daxil olmadan **Niyazabad limanına** yetişirdilər. Niyazabadda yüklər boşaldılır, sonra isə ticarət karvanları Şabrandan keçərək Şamaxıya çatırdılar. Buradan tacir-səyyahlar Cavad şəhərindən keçərək **Ərdəbilə** və **Təbrizə** gəlirdilər.

**1562-ci ildə *"Moskva şirkəti"*** təcrübəli kəşfiyyatçı və mahir tacir olan **Antoni Cenkinsonu** Səfəvi dövləti ərazisinə göndərdi. Cenkinson şirkətin Azərbaycana gələn ilk nümayəndəsi idi. O, **Şirvana** gələrək Şirvan bəylərbəyi **Abdulla xan Ustaclıdan *gömrüksüz və maneəsiz ticarət etmək imtiyazı*** ala bildi.

**XVI əsrin sonlarında** ingilislərin Azərbaycan bazarlarında möhkəmlənmək cəhdləri iflasa uğradı. Azərbaycan bazarlarında ingilislərin möhkəmlənmək cəhdlərinin səbəbləri bunlar idi:

- ***Rus tacirlərinin Moskva knyazından, ingilislərin ticarət imtiyazlarını ləğv olunmasını tələb etməsi.***
- ***Rus tacirlərinin Volqa-Xəzər yolundan istifadə etməsinə son qoyulmasını tələb etməsi.***

Bu tələb Rusiya dövlətinin Azərbaycanla ***ticarətdə inhisar mövqeyini qazanmaq məqsədinə*** uyğun olduğuna görə rus tacirlərinin arzusu həyata keçirildi.

## Sosial təbəqələşmə. Xalq üsyanları. 1571-1573-cü illər Təbriz üsyanı

**XVI əsr – XVII əsrin birinci yarısında** Səfəvilər dövlətində əhali ***feodal zümrəsinə*** və ***kəndli kateqoriyalarına*** bölünürdü. Bu dövrdəAzərbaycanda beş feodal zümrəsi var idi:

1. **Şah və hakim sülalə üzvləri.**
2. **Yarımköçmə qızılbaş hərbi əyanları.**
3. **Ali şiə ruhaniləri.**
4. **Mülki bürokratiyanın yuxarı təbəqəsi.**
5. **Qədim oturaq əyanlar.**

Səfəvilərin hakimiyyətinin ilk dövründə zəhmətkeşlərin vəziyyəti bir qədər yaxşılaşmışdır. Lakin **XVI əsrin 70-ci illərinin sonlarına doğru** onların yaşayışı ağırlaşdı və ***hakim təbəqəyə***, ***feodal istismarına qarşı*** dəfələrlə ***xalq üsyanları*** baş verdi. Bu xalq üsyanlarının səbəbi aşağıdakı  amillərlə bağlı idi:

- ***Ağır vergilər, kəndlilərin 50 qədər vergi verməsi və mükəlləfiyyət daşıması.***
- ***Səfəvi-Osmanlı müharibələri dövründə ağırlaşmış maliyyə vəziyyətini vergilər hesabına düzəltmək cəhdləri.***

Xalq kütlələrinin ***Şah I Təhmasibin siyasətindən və qızılbaş feodallarının zülmündən narazılığı*** **1572-1573-cü illərdə Təbrizdə üsyanına** səbəb oldu. Üsyanın qarşısını almaq üçün Şah I Təhmasib **Yusif bəy Ustaclını** Təbrizin yeni  hakimi təyin edərək ona  ***üsyançılarla danışıqlara başlamaq göstərişi*** verdi. Yusif bəy Ustaclı şəhərin kübarlarına qarşı mübarizəni dayandırmaq haqqında ***məhəllə rəhbərlərinin*** razılığını almağa müvəffəq oldu. Razılıq ***andla*** rəsmiləşdirildi. Lakin şəhər yoxsulları əldə olunmuş sazişdən narazı qaldığı üçün üsyan yenidən başlandı. Yusif  bəy Ustaclı şahdan hərbi yardım istədi. Qaradağın irsi hakiminin oğlu **Söhrab bəy** şahın əmrinə əsasə **1573-cü ildə** Təbrizə daxil olaraq üsyanı yatırdı. Təbriz üsyanının aşağıdakı nəticələri oldu:

- ***Şah bəzi güzəştlərə gedərək şəhər sənətkarlarından alınan vergiləri azaltdı.***
- ***Təbriz bütün divan vergilərindən azad edildi.***
- ***Şəhərə vergi toxunulmazlığı hüququ verildi.***

**1615-1616-cı illərdə** Dəli Məlik təxəllüslü **Məlik Pirinin** başçılığı ilə **Şirvanda** və  **Gəncə yaxınlığındakı Dəngi vilayətinin** əhalisinin Səfəvilər əleyhinə üsyanı baş verdi. Lakin üsyan yatırıldı. Dəli Məlik müvəffəqiyyətsizliyini görərək **1616-cı ildə Gürcüstan**a, ordan isə Dağıstana qaçdı.



## XVI-XVII əsr Azərbaycan mədəniyyəti

XVI əsrin başlanğıcında Azərbaycan Səfəvi dövlətinin yaranması ilə əlaqədar xalqın mədəniyyəti də xeyli inkişaf etdi. Alimlərin əksəriyyəti məntiq, fəlsəfə, ədəbiyyat, təbabət, riyaziyyat və astronomiyanın bir çox məsələləri ilə məşğul olurdu. Bu dövrdə astronomiya elminin inkişafına müəyyən maraq vardı. **XVI əsrin əvvəllərində** Şah I İsmayıl ***Marağa rəsədxanasını bərpa etdirmək üçün*** məşhur riyaziyyatçı və astronom, ***Qiyasəddin Mənsuru*** Marağaya göndərdi.

XVI-XVII əsrlərdə Azərbaycanda ***fəlsəfə*** və ***tarix elmi*** daha çox inkişaf etmişdi. Dövrün ***görkəmli filosofları*** aşağıdakılar idi:

- **Həqiqi** – kainat və dinə öz münasibətini bildirərək yazırdı ki, məhəbbət təbiət, insan və dinlər üzərində hakimdir.
- **Füzuli** - onun fəlsəfi fikirləri ***"Mətlə-ül-etiqad" ("Etiqadın mənşəyi")*** əsərində öz əksini tapmışdır. Bu əsərdə **Hindistan, İran, Ərəb İraqı** və **Azərbaycanın** qədim fəlsəfəsinin təhlili verilmiş, ***antik fəlsəfə*** haqqında məlumat öz əksini tapmışdır.
- **Rəhməti** – XVII əsrin əvvəllərində Hindistana səfər etmiş və 1616-cı ildə Arqa şəhərində olmuşdur. Rəhmətinin yeganə poetik "Divan"ı bizə gəlib çatmışdır. Rəhməti öz sələfləri kimi sufilik baxışlarını poetik şəkildə şərh etsə də, onun baxşları hakim ideologiyaya loyal münasibəti ilə fərqlənmişdir.

**XVI əsrin *görkəmli Azərbaycan tarixçilərindən*** isə aşağıdakıları qeyd etmək olar:

- **Həsən bəy Rumlu** - ***Şah I Təhmasibin sarayında*** qulluq etmiş, onun yürüşlərinin iştirakçısı olmuşdur. Onun ***"Əhsən ət-təvarix" ('Tarixlərin ən yaxşısı")*** əsərinin dövrümüzə qədər gəlib çatmış IX-X cildləri Azərbaycanın və qonşu ölkələrin XV-XVI əsrlər tarixinə həsr olunmuşdur.
- **İsgəndər bəy Münsi** - gəncliyində ***Sultan Məhəmməd Xudabəndənin*** sarayında divan katiblərindən biri, sonralar Şah I Abbasın tarixçisi olmuş ***"Tarixi aləm arayi Abbasi" ("Abbasın dünyanı bəzəyən tarixi")*** əsərini yazmışdır. Əsərdə dövrün ictimai, iqtisadi, siyasi və mədəni həyatı barədə maraqlı məlumat verilmişdir.

Azərbaycanda ***kitabxanaçılıq*** işi də tərəqqi etmişdi. **XVI əsrdə Təbrizdə** böyük bir kitabxana açılmışdır. **1522-ci ildə** görkəmli rəssam **Kəmaləddin Behzad** Şah I İsmayıl tərəfindən Təbrizdəki saray kitabxanasına rəis təyin edilmişdi. Səfəvilər dövrünün tarixçisi **Qazi Əhməd Mir Münşi** kitab saxlanılan bu yeri ***"Çiçəklənən kitab evi"*** adlandırırdı. Ölkədə ***xəttatlıq*** da inkişaf etmişdi. Bu dövrdə kitab nəşrinin olmaması, əsərlərin xəttatlar vasitəsilə yazılması xəttatlıq sənətinin inkişafına səbəb olurdu.

XVI əsrin əvvəlindən etibarən **Təbriz şəhəri** bədii miniatür ustaları geniş şöhrət qazanmışdılar. XVI əsr Təbriz miniatür məktəbinin görkəmli nümayəndələrindən biri, ***bədii müniatür ustası*** **Sultan Məhəmməd** olmuşdur. Onun miniatürləri **Sankt-Peterbur, London, Leypsiq, Venetsiya muzeylərində** mühafizə olunur.

Səfəvilər dövründə Azərbaycanda xeyli ***ictimai binalar, karvansaralar, hamamlar, ovdanlar, körpülər, məqbərələr*** və ***məscidlər tikilmişdir.*** Ümumiyyətlə, **XVI əsr Səfəvilər dövrünün memarlıq** abidələri bunlar idi:

- **Qusar Rayonunda Şeyx Cüneyd məqbərəsi (1544-cü il)**
- **Şeyx Səfi məqbərəsi**
- **Məhəmməd Xudabəndə məqbərəsi**
- **Bakının Şərq darvazaları**
- **Əlincə çayı üzərində körpü**

XVI əsrdə Azərbaycan musiqi mədəniyyəti də inkişaf etmişdir. Bu dövrün ən məşhur xanəndəsi **Hafiz Lələ** idi.


Həsən bəy Rumlu
İsgəndər bəy Münsi
Kəmaləddin Behzad
Sultan Məhəmməd
XVI-XVII əsrin əvvəlləri Azərbaycanın elm və mədəniyyət xadimləri
Həqiqi
Füzuli
Rəhməti
Hafiz Lələ


ELDƏNİZLƏR DÖVLƏTİ (1136-1225-ci İLLƏR)
Hakimliklərin sərhədləri
Şəhərlər
Vassal ərazilər
GİLAN
Əyalətlər (vilayətlər)
GÜRCÜSTAN
Dərbənd
ŞİRVAN
(Qabırrı)
(Kür)
Şəmkür
Gəncə
(Göyçə g.)
Ani
Şamaxı
ARRAN
Naxçıvan
(Araz)
AZƏRBAYCAN
XƏZƏR DƏNİZİ
Ərdəbil
Təbriz
Marağa
(Van g.)
(Urmiya g.)
ŞAHƏRMƏNLƏR
(Qızılüzən)
GİLAN
TƏBƏRİSTAN
Cürcan
Bistam
QUMIS
Qəzvin
Nişapur
XORASAN
(Dəclə)
ELDƏNİZLƏR DÖVLƏTİ
İRAQİ ƏCƏM
MOSUL ATABƏYLƏRİ
Kərkük
Həmədan
Qur
İSMAİLİLƏR DÖVLƏTİ
DÖVLƏTİ
XARƏZMŞAHLAR
Kermanşah
Bağdad
İsfahan
İRAQİ ƏRƏB
(Dəclə)
XUZİSTAN
Jəzd
(Fərat)
FARS
Əhvaz
KERMAN
Kerman
ATABƏYLƏRİ
İstəxr
İran körfəzi
ATABƏYLƏRİ


AZƏRBAYCAN 13-14-cü ƏSRLƏRDƏ
Dərbənd
Niyazabad
Balakən
Tiflis
Qax
Şabran
1262
Xunan
1387
Şəki
XƏZƏR
Qazax
Şəmkir
Qəbələ
1235
Gəncə
Şamaxı
1223,1231
Bakı
Bərdə
1301
Dvin
1335
Ağdam
QUŞTASFİ
Beyləqan
Mahmudabad
1250
1220-21
1275
DƏNİZİ
Naxçıvan
Bərzənd
1386
Əlincə
Culfa
Lənkəran
Xoy
Mərənd
Əhər
Astara
1388
Salmas
Ərdəbil
TƏBRİZ
1344,1357
Sarab
Ucan
Urmiya
Miana
MARAĞA
1385
Uşnuyə
Zəncan
Sainqala
ŞİRVANŞAHLAR
ŞƏKİ DÖVLƏTİ
QARABAĞ
QARADAĞ
MUĞAN
ARALIQ DƏNİZİ
Təbriz
Marağa
Buxara
Sultaniyyə
Bağdad
Elxanilər dövlətinin ərazisi (1257-1359)
Cəlairilər dövlətinin ərazisi (fasilələrlə) (1359-1410)
Hülakuxanın yürüşü
Azərbaycanın sərhədləri
Azərbaycan sərhədlərində dəyişikliklər
Elxanilər və Cəlairilər dövlətlərinin paytaxtları
Asılı dövlətlərin və vilayətlərin paytaxtları
Qalalar
Şəhərlər
MUĞAN Vilayətlər
Xalq hərəkatı
Mühüm döyüş yerləri
Şirvan hakimiyyəti
Şəki hakimiyyəti
Monqolların birinci yürüşü (1220-1223)
Monqolların ikinci yürüşü (1231-1239)
Cəlaləddinin yürüşü (1225-1231)
Qızıl Orda xanlarının yürüşləri
Teymurun birinci yürüşü (1386-1388)
Teymurun ikinci yürüşü (1392-1396)
Teymurun üçüncü yürüşü (1399-1404)

Xəritə 1.


TABASARAN
KAXETİ
KARTLİ
Kür
Qanıx
Samur
Qabırrı
Dərbənd
Niyazabad
Xaçmaz
Şabran
Quba
ŞİRVAN
ŞƏKİ HAKİMLİYİ
Tiflis
Gələsən-Görəsən
Qax
Kiş
ŞƏKİ
Lori
Qazax
Şəmkür
Gəncə
Ağdaş
ŞİRVANŞAHLAR
Qəbələ
Lahic
Ərəş
Gələybuğurt
Gülüstan
Gürcivan
Surxab
ŞAMAXI
DÖVLƏTİ
Bərdə
Göyçə g.
Çuxur səd
Dəbil
Araz
ÇUXURSƏD
ŞƏRUR
Tərtər
Ağdam
QARABAĞ
Zərdab
Cavad
QUŞTASFİ
Bakı
XƏZƏR
DƏNİZİ
Beyləqan
Mahmudabad
Varsan
Salyan
Maku
Naxçıvan
QARA QOYUNLU
DÖVLƏTİ
(1410-1467)
Qaran
Əlincə
Çaldıran
Naxçıvan
Bəcirəvan
Bərzənd
MUĞAN HAKİMLİYİ
Qarasu
Culfa
Ordubad
Zunuz
QARADAĞ
Lənkəran
Xoy
Mərənd
Əhər
ARDƏBİL
Astara
Təsuc
Xiov
Ərdəbil
Salmas
TƏBRİZ
Sarab
Dehxarqan
Ucan
Xalxal
Türkmankəndi
Urmiya
Urmiya g.
AĞ QOYUNLU
DÖVLƏTİ
Marağa
Miana
(1468-1501)
Kağızkünan
GİLAN
Rəşt
Lahican
Uşnu
Zəncan
Qızılüzən
Saınqala


AZƏRBAYCAN
16-cı ƏSRDƏ
Səfəvilər dövlətinin sərhədi
Səfəvilər dövləti yarandığı dövrdə onun ərazisi (1501-1502)
XVI əsrin birinci yarısında Səfəvi-Osmanlı müharibələri dövründə Osmanlı imperiyasının işğal etdiyi ərazi
1555-ci ilədək Səfəvilər dövlətinin paytaxtı
Qalalar
Şəhərlər
Keçidlər
1590-cı il İstambul sülhünə görə Osmanlı-Səfəvi torpaqlarının təxmini
Ən böyük inzibati vahidlərin - bəylərbəyliklərin sərhədləri
1555-ci ildə Səfəvilər dövlətinin sərhədləri (vassal ərazilər daxil olmaqla)
I İsmayılın qoşunlarının hərəkəti:
Ərdəbildən Ərzincana (1499-1500-cü illər)
Ərzincandan Təbrizə (1500-1501-ci illər)
Təhmasibin qoşunlarının Şirvana və Şəkiyə hərəkəti
1514, 1578, 1585-ci illərdə Osmanlı qoşunlarının Şirvana və Şəkiyə hərəkətinin istiqamətləri
Böyük xalq üsyanlarının yayıldığı ərazilər
Vuruşmaların yerləri və illəri
Krım tatarlarının hərəkətinin ümumi istiqaməti (1578-1581-ci illər)
QARA DƏNİZ
Osmanlı
Təbriz
ARALIQ DƏNİZİ
ŞEYBANİLƏR DÖVLƏTİ
SƏFƏVİLƏR DÖVLƏTİ
OSMANLI İMPERİYASI
KAXETİ
DAĞISTAN
KARTLİ
Tiflis
Dərbənd
Niyazabad
Xaçmaz
Quba
Şabran
Gələsən-Görəsən
Qax
Kiş
Şəki
ŞİRVAN
Lahıc
Qələbuğurt
Gülüstan
Şamaxı
Bakı
Ərəş
Qəbələ
Surxab
Gürcivan
Ağdaş
Lori
Qazax
Şəmkür
Gəncə
ÇUXURSƏD
GƏNCƏ (QARABAĞ)
BƏYLƏRBƏYİLİYİ
İrəvan
Dəbil
Bərdə
Tərtər
Zərdab
Ağdam
Cavad
Beyləqan
Varsan
Mahmudabad
Salyan
Bəcirəvan
XƏZƏR DƏNİZİ
Qafan
Əlincə
Maku
Naxçıvan
Culfa
Ordubad
Bərzənd
Çaldıran
Lənkəran
Zunuz
Xoy
Mərənd
Əhər
Salmas
Təsuc
Xiov
Ərdəbil
Astara
TƏBRİZ
Sarab
Urmiya
Dehxarqan
Ucan
Türkmankəndi
Xalxal
Miana
Marağa
GİLAN
Rəşt
Uşnu
BƏYLƏRBƏYİLİYİ
Kağızkünan
Zəncan
Lahican
Sainqala
(Kür)
(Araz)
(Qabırı)
(Qanıx)
(Samur)
(Göyçə g.)
(Urmiya g.)
(Qızıluzən)
(Səfidrud)
(Qarasu)
1500
1501
1514
1538
1571-1573
1576
1578
1537-1538
1580-1581


AZƏRBAYCAN 17-ci ƏSRDƏ
Paytaxt
Qalalar
Kiçik şəhər və yaşayış məntəqələri
Keçidlər
Səfəvilər dövlətinin sərhədləri (vassal ərazilər daxil olmaqla)
Ən böyük inzibati vahidlərin - bəylərbəyliklərin sərhədləri
1590-cı il İstanbul sülhünə görə Osmanlı-Səfəvi torpaqlarının təxmini sərhədi
1669
Osmanlı imperiyasından ərazilərin Şah Abbas tərəfindən geri alındığı illər
Stepan Razinin yürüşü
Ticarət yolları
XƏZƏR
DƏNİZİ
DAĞISTAN
KAXETİ
KARTLİ
ŞİRVAN
ÇUXURSƏD
QARABAĞ
(GƏNCƏ)
BƏYLƏRBƏYİLİYİ
TƏBRİZ
MUĞAN
TALIŞ
GİLAN
Dərbənd
Niyazabad
Xaçmaz
Quba
Şabran
Tiflis
1606
Lori
Ağstafa
Qazax
Şəmkir
Gəncə
Qax
Şəki
Qəbələ
Ərəş
Sunxab
Ağdaş
Göyçay
Lahıc
Qaleybuğurt
Gülüstan
Şamaxı
1607
Bakı
Bərdə
Ağdam
Zərdab
Cavad
İrəvan
1604
Dəbil
Beyləqan
Mahmudabad
Varsan
Salyan
Maku
Naxçıvan
Əlincə
1603
Culfa
Ordubad
Bərzənd
Çaldıran
Lənkəran
Astara
Xoy
Zunuz
Əhər
Salmas
Marand
Təsuc
Xiov
Ərdəbil
TƏBRİZ
Sarab
Ucan
Türkmənkəndi
Dehxarqan
Urmiya
Xalxal
Miana
Marağa
Kağızkünan
Zəncan
Rəşt
Lahican
Uşnu
Saınqala

## MÜNDƏRİCAT

**Ön Söz** 2

**I BÖLMƏ. İBTİDAİ İCMA QURULUŞU** 3
Daş dövrü 4
Tunc və Erkən dəmir dövrü 10

**II BÖLMƏ. İLK TAYFA BİRLİKLƏRİ, DÖVLƏT QURUMLARI VƏ DÖVLƏTLƏR**
İlk tayfa birlikləri 15
Erkən dövlət qurumları 17
Manna dövləti 21
İskitlər (Skiflər) və Azərbaycan 31

**III BÖLMƏ. AZƏRBAYCAN MİDİYA VƏ ƏHƏMNİ İMPERİYALARININ TƏRKİBİNDƏ**
Azərbaycan Midiya imperiyasının tərkibində 33
Azərbaycan Əhəmənilər imperiyasının tərkibində 36

**IV BÖLMƏ. ATROPATENA VƏ ALBANİYA DÖVLƏTİ**
Atropatena dövləti 39
Albaniya dövləti 46

**V BÖLMƏ. AZƏRBAYCAN III-VII ƏSRLƏRDƏ**
Azərbaycanın Sasani imperiyasının tərkibində 61
Atropatena Erkən Orta əsrlərdə 65
Albaniya Erkən Orta əsrlərdə 68
Girdiman dövləti 75
Erkən Orta əsrlərdə Azərbaycan mədəniyyəti 78

**VI BÖLMƏ. AZƏRBAYCAN XİLAFƏTİN TƏRKİBİNDƏ (VII ƏSR – IX ƏSRİN ORTALARI)**
Azərbaycan ərəb işğalları ərəfəsində 82
Ərəblərin Azərbaycanı işğal etməsi 84
Azərbaycan xilafətin tərkibində 90
Azərbaycanda ərəb əsarətinə qarşı azadlıq hərəkatı 96
Xilafət dövründə Azərbaycanın təsərrüfat həyatı 104
Xilafət dövründə Azərbaycan mədəniyyəti 105

**VII BÖLMƏ. AZƏRBAYCAN FEODAL DÖVLƏTLƏRİ (IX-XI ƏSRLƏR)**
Azərbaycanda ilk feodal dövlətlərin yaranması 111
Şirvanşahlar dövləti 112
Sacilər dövləti 115
Salarilər dövləti 117
Rəvvadilər dövləti 118
Şəddadilər dövləti 120
Slavyanların və digər yadellilərin Azərbaycana hücumları 123

IX– XI əsrlərdə Azərbaycanda iqtisadi tərəqqi və dirçəliş 130
IX– XI əsrlərdə Azərbaycanda mədəni dirçəliş 139

**VIII BÖLMƏ. AZƏRBAYCAN XI – XIII ƏSRLƏRDƏ**
Azərbaycan Səlcuqların hakimiyyəti dövründə 146
Şirvanşahlar dövləti XI-XII əsrlərdə 152
Atabəylər dövləti 158
XII əsr - XII əsrlərin əvvəllərində Azərbaycanın iqtisadi vəziyyəti 163
Azərbaycan İntibah mədəniyyəti (XI-XII əsrlər) 166

**IX BÖLMƏ. AZƏRBAYCAN MONQOLLARIN HAKİMİYYƏTİ DÖVRÜNDƏ**
Monqolların Azərbaycana birinci yürüşü 171
Azərbaycanda Xarəzimşah Cəlaləddinin hakimiyyəti 173
Monqolların Azərbaycana ikinci yürüşü 176
Monqolların Azərbaycana üçüncü yürüşü. Hülakülər dövləti 179
Toxtamış xan və Əmir Teymurun Azərbaycana yürüşləri 185
Şirvanşahlar dövləti və Şəki hakimliyi XIII-XIV əsrlərdə 189
XIII-XIV əsrlərdə Azərbaycanın iqtisadi həyatı 193
Qazan xanın islahatları 197
XIII–XIV əsrlər Azərbaycan mədəniyyəti 200

**X BÖLMƏ. AZƏRBAYCAN XV ƏSRDƏ**
Qaraqoyunlu dövləti 206
Ağqoyunlu dövləti 216
XV əsrdə Azərbaycanın sosial-iqtisadi və mədəni həyatı 229

**XI BÖLMƏ. AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİ (XVI ƏSR – XVII ƏSRİN BİRİNCİ YARISINDA)**
Səfəvilərin Ərdəbil hakimliyi 234
Səfəvilər dövlətinin yaranması və imperatorluğa çevrilməsi 240
Səfəvi-Osmanlı müharibələrinin başlanması 245
Səfəvilər dövlətinin daxili vəziyyəti. II Səfəvi-Osmanlı müharibəsi 255
Səfəvilər dövləti XVI əsrin sonlarında. I Şah Abbasın islahatları 263
XVIII əsrin birinci yarısında yeni Səfəvi Osmanlı müharibələri 265
Səfəvilər dövlətinin ictimai-iqtisadi həyatı və mədəniyyət 272